TARİX VƏ ONUN PROBLEMLƏRİ

1

BAKI - 2022

“Milli ideologiyamız, şübhəsiz ki, tarixi keçmişimizlə, millətimizin adət-ənənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır”.

Heydər ƏLİYEV

TARİX VƏ ONUN PROBLEMLƏRİ

1997-096

HİSTORY AND İTS PROBLEMS ИСТОРИЯ И ЕЁ ПРОБЛЕМЫ

NƏZƏRİ, ELMİ, METODİK JURNAL

ISSN 2708-0641 (print)
2708-065X (online)

1

ADİLOĞLU
BAKI – 2022

Baş Redaktor - **Əsməd İmamməmməd qızı Muxtarova -** *Bakı Dövlət Universiteti*
Baş redaktorun müavini - **İsmayıl Məhəmməd oğlu Məmmədov -** *Bakı Dövlət Universiteti*
Məsul katib - **Qabil Əli oğlu Əliyev -** *Bakı Dövlət Universiteti*

Redaksiya heyəti (əlifba sırası ilə)

Axundova Nərgiz Çingiz qızı - *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
Andrzej L.Bonusiak - *Jeşuva Universitetinin Tarix İnstitutu (Polşa)*
Barış Özdal - *Bursa Uludağ Universiteti (Türkiyə)*
Danish Miroslav - *Bratislava Komenski Universiteti (Slovakiya)*
Əliyeva Sevinc İsrafil qızı - *Azərbaycan Dövlət Pedaqoji Universiteti*
Əlizadə Hikmət Əbdül oğlu - *Bakı Dövlət Universiteti*
Hacıyev İsmayıl Muxtar oğlu - *AMEA Naxçıvan bölməsi*
Hacıyev Sani Tofiq oğlu - *Bakı Dövlət Universiteti*
Hacıyev Zeynəddin Camal oğlu - *Bakı Dövlət Universiteti*
Hatice Palaz Erdemir - *Manisa Calal Bayar Universiteti (Türkiyə)*
Hüseynova İradə Mehtiqulu qızı - *Bakı Dövlət Universiteti*
Hüseynova Lalə Cavid qızı - *AR Prezidentinin İşlər İdarəsi Siyasi sənədlər arxivi*
İsgəndərov Anar Camal oğlu - *Bakı Dövlət Universiteti*
İsmayılov Qüdrət Seyfulla oğlu - *Bakı Dövlət Universiteti*
Qasımlı Musa Cəfər oğlu - *AMEA Qafqazşünaslıq İnstitutu*
Quliyeva Nərgiz Məlik qızı - *AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
Kvitsiani John Jokiyevich - *İ.V.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin "Qafqazşünaslıq" Elmi-Tədris İnstitutu (Gürcüstan)*
Mahmudov Yaqub Mikayıl oğlu - *AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
Mamoulia Georges Quramovich - *Sosial Elmlər üzrə Ali Araşdırmalar Məktəbi (Fransa)*
Mehdiyeva Nisbət Canməmməd qızı - *Bakı Dövlət Universiteti*
Mirabdullayev Adil Mirabdulla oğlu - *Bakı Dövlət Universiteti*
Mohammad Salmansızadeh - *Təbriz Universiteti (İran)*
Turichın İqor Victoroviç - *Moskva Tarix, İqtisadiyyat və Hüquq Elmi-Tədqiqat İnstitutu (Rusiya)*
Vəlixanlı Nailə Məmmədəli qızı - *Azərbaycan tarx müzeyi*
Yusifzadə Sevinc Ziya qızı - *Bakı Dövlət Universiteti*
Zeynalov İbrahim Xudaverdi oğlu - *Bakı Dövlət Universiteti*

web-sayt: - http://publish.bsu.edu.az/az/content/tarix_ve_onun_problemleri_jurnali_illerle
http://ek.anl.az/search/query?term_1=Tarix+v%C9%99+onun+probleml%C9%99ri&theme=e-kataloq
Redaksiya ilə əlaqə: TarixVeOnunProblemleri@gmail.com
Şəhadətnamə № 0060079 (1997)
©Lisenziya ser.AB - №22477

MÜNDƏRİCAT

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

ZEYNALOV İ.X., SƏFƏROVA X.	*Soyqırım - sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növüdür*	5-13
MUXTAROVA Ə.İ.	*Azərbaycan xalqına qarşı törədilən 1918-ci ilin mart soyqırımları tariximizin unudulmayan səhifəsi kimi ...*	14-24
HACIYEVA Z.	*XX əsrin əvvəlində ermənilərin Cənubi Qafqazda ərazi iddialarının qanlı nəticələri*	25-31
HÜSEYNOVA İ.M.	*Xocalı qətliamı: Ermənistanın dövlət səviyyəsində apardığı qatı millətçiliyin, terrorizmin nəticəsi kimi*	32-38
ДЖАЛИЛОВ А.	*Мартовские события 1918 г.- кровавый след в истории Азербайджана*	39-42
РЗАЕВ А.А., АЛИЕВ А.	*Позиции политических партий и организаций накануне и в ходе мартовских (1918 г.) событий в Баку*	43-51
MƏMMƏDOV A.B.	*XX əsrin ikinci yarısı – XXI əsrin əvvəllərində Azərbaycan tarixçilərinin 1918-ci ilin mart soyqırımları ilə bağlı tədqiqat əsərlərində tarixi demoqrafiya məsələləri*	52-61
MELTEM TEKEREK	*Azerbaycan'da Ermeni Terör Eylemleri ve 31 Mart Bakü Olayları*	62-67
	QƏDİM DÖVR VƏ ORTA ƏSRLƏR	
ЭФЕНДИЕВ А.Ф.	*Исламские монументальные росписи и фрески Исфахана*	68-72
HEYDƏRLİ G.	*Katolik Avropasının siyasi oyununun hədəfinə çevrilən şahzadə Cem Sultan*	73-77
	YENİ DÖVR	
ƏLİYEV Q.Ə.	*İrəvan müəllim seminariyası*	78-85
İSGƏNDƏROV V.Q.	*Çar Rusiyası tərəfindən Şimali Qafqazın işğalı*	86-92
OĞUZ KAĞAN BAYRAKDAR	*19. Yüzyıl Taşkent Şehir Medeniyetine Rus Etkisi*	93-98
MƏMMƏDOVA Ş.	*"Difai" partiyasının yaranması və fəaliyyəti*	99-103
HƏSƏNOVA G.	*Quba bölgəsində xalça toxuculuğu sənətkarlığının inkişafı tarixindən (XVIII yüzilliyin sonu - XX yüzilliyin əvvəlləri)*	104-108
	MÜASİR DÖVR	
İSMAYILOV S.	*Bakı Dövlət Universiteti ilə bağlı Azərbaycan Müvəqqəti İnqilab Komitəsi və Xalq Maarif Komissarlığının qərarları (1920-1923)*	109-115
RUİNTƏN K.F.	*Azərbaycan-İsrail əməkdaşlığını şərtləndirən amillər. Müdafiə sahəsində əməkdaşlıq*	116-121
NAĞIYEVA N.	*Kolonializm: ənənə və müasirlik*	122-128
MƏMMƏDOV F.	*Heydər Əliyev və Azərbaycan səhiyyəsi*	129-131
MƏMMƏDOV N.R.	*On noyabr bəyannaməsi və tarixi əhəmiyyəti*	132-137
İSMAYILZADƏ X., ƏLİYEVA C.	*Azərbaycan-Pakistan: qarşılıqlı faydalı iqtisadi-ticarət əməkdaşlığında potensial və real istiqamətlər*	138-143

CAHANGİRLİ C., HACIYEVA E.	*İkinci Qarabağ savaşı dövründə informasiya müharibəsi*	144-150
İBADOV N., İBRAHİMOV R.	*II Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranan yeni siyasi reallıqlar*	151-157
SƏFƏROVA A., BAĞIROV H.	*Heydər Əliyevin balanslaşdırma siyasəti fonunda Kipr probleminin tarixi və həlli perspektivi*	158-164
MƏHƏRRƏMOVA Ə.	*Sovet hakimiyyəti illərində Azərbaycanda dövlət-din münasibətləri*	165-169
ZAHİDOV S.N.	*Türkiyənin müasir Yaxın və Orta Şərq siyasətinə Türkiyə-İran münasibətləri prizmasından baxış*	170-176
İSMAYILOVA A.V.	*NATO-nun Kosovo böhranının tənzimlənməsində iştirakı*	177-182
TAĞIZADƏ E.V.	*XXI əsrdə texnologiya əsaslı transmilli korporasiyaların "güc" konteksində dünya siyasətinə təsiri*	183-190
KƏRİMOVA N.S.	*Müasir dövrdə Qafqaz bölgəsində təhlükəsizlik problemləri*	191-195
FATMA BETÜL AYDEMİR BAŞ, ŞEYDA ÇEVİKEL	*Bağımsızlık yolunda Azerbaycan ve Orta Asya'daki kitlesel hareketler*	196-202
QƏNİ-ZADƏ Ə.	*Azərbaycanın döyünən ürəyi Şuşa şəhərinin tarixinə dair*	203-207
AĞAMALIYEVA M.	*Azərbaycan diasporunun erməni yalanlarının ifşası uğrunda mübarizəsi*	208-213
QURBANOVA A.N.	*Soyuq müharibədən sonrakı realizmin etnik münaqişələrə dair yanaşmaları*	214-218
HƏSƏNOV R.	*Beynəlxalq iqtisadi əlaqələrdə Rusiya və Türkiyənin rolu*	219-224
АБАСОВА С.	*Политические факторы, оказывающие влияние на международные туристические потоки*	225-228
ƏMİRBƏYOVA R.	*Valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində qeyri-hökumət sektorun rolu (2004-2015-ci illər)*	229-232
ÇOBANZADƏ G.V.	*Azərbaycan neft tarixinin inkşaf yolu: Bakı nefti*	233-238
MƏMMƏDLİ B.A.	*II Dünya müharibəsi illərində SSRİ-də çeçen-inquş əhalisinin Mərkəzi Asiyaya deportasiyası*	239-247
	ARXEOLOGİYA VƏ ETNOQRAFİYA	
ИБРАГИМОВА Р.	*Особенности семейного быта у народов Северного Кавказа в XIX веке*	248-255
АХУНДОВА Л.	*Мужская одежда бакинцев в конце XIX-нач.XX века*	256-262
NOVRUZOV C.Ə.	*Gürcüstan azərbaycanlılarının milli geyimləri sosial həyat tərzi kimi*	263-268
ŞABANOVA A.	*Dünya xalqlarının mədəniyyətində rəngin simvolikası*	269-272
	MƏNBƏŞÜNASLIQ, TARİXŞÜNASLIQ, DEMOQRAFİYA, METODİKA	
ALIYEVA S.	*Nadir şah Əfşar imperiyasının Osmanlı imperiyası ilə əlaqələri tarixi tədqiqatlarda*	273-276
İSMİXANOV M., İMAMVERDİYEVA N.	*Gənc nəsildə dünyagörüşün formalaşdırılması yolları*	277-284

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

İBRAHİM ZEYNALOV
Bakı Dövlət Universitetinin professoru,
tarix elmləri doktoru
ibrahimzeynalov@bsu.edu.az

XUMAR SƏFƏROVA
Bakı Dövlət Universitetinin dosenti
khumarsafarova@bsu.edu.az

SOYQIRIM - SÜLH VƏ BƏŞƏRİYYƏT ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏRİN BİR NÖVÜDÜR

... Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırım siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırım siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur.

Heydər Əliyev

Elmi məqalədə xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi, torpaqlarını Cənubi Qafqaza doğru genişləndirməkdə olan çar Rusiyasının ermənilərdən bir vasitə kimi istifadə etməsi siyasəti araşdırılır.

Məqalədə Azərbaycan – Türkiyə torpaqları hesabına "Böyük Ermənistan" yaratmaq ideyasını Çar Rusiyasından dəstək almaq sayəsində həyata keçirmək üçün erməni – daşnak qüvvələrinin və bolşeviklərin türklərə, azərbaycanlılara qarşı Bakıda, Şamaxı, Quba qəzalarında, Qarabağ bölgəsində, Zəngəzurda, Naxçıvanda, Salyanda, Kürdəmirdə, Lənkəranda, Gəncədə və digər bölgələrdə törətdikləri cinayətlər, dəhşətli soyqırımlar, onun törədilməsində məqsəd və nəticələri geniş materiallar, arxiv sənədləri və son dövrdə aşkar edilmiş faktlar əsasında öyrənilir.

Məqalədə 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı dəhşətli soyqırımının həyata keçirilməsində 1918-ci ilin martında Lenin tərəfindən Qafqazın fövqəladə komissarı təyin edilən daşnak S.Şaumyanın rolu xüsusi olaraq qeyd olunur.

Açar sözlər: soyqırım, erməni-daşnak, bolşevik, "Böyük Ermənistan", "Daşnaksütyün", Bakı Soveti, "Qırmızı ordu", Qafqazın fövqəladə komissarı, Fövqaladə İstintaq Komissiyası.

Giriş. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin, o cümlədən ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı ilə bağlı problemlərin, gizli saxlanılan sənədlərin, faktların, həqiqətlərin obyektiv mənzərəsini açmaq imkanı əldə edilmişdir. Nəticədə, uzun illər üzərinə qadağa qoyulmuş həqiqətlər, o cümlədən 1918-ci ilin mart-aprel aylarında və sonrakı vaxtlarda Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur, Kürdəmir və digər ərazilərdə S.Şaumyan Bakı Sovetinin 6 min silahlı əsgərlərinin, eyni zamanda "Daşnaksutyun" partiyasının 4 minlik quldur dəstələrinin azərbaycanlılara qarşı törətdikləri soyqırımı və onun nəticələri arxiv materialları, əvəzsiz mənbə kimi 1918-1920-ci illərdə nəşr olunan Azərbaycan Xalq Cumhuriyyəti dövrü mətbuatının materialları, çap olunan siyasi yazılar, şahid ifadələri əsasında əhatəli şəkildə araşdırılmışdır.

1918-ci ilin mart-aprel aylarında xalqımıza qarşı bolşevik-daşnak qüvvələrinin törətdikləri soyqırımı son iki yüz ildə Azərbaycan tarixinə yazılan ən dəhşətli faciələrdən biridir. Araşdırmalar göstərir ki, həqiqətən də azərbaycanlılara qarşı törədilən soyqırımın əsas təşkilatçısı və icraçısı V.İ.Leninin Qafqaz İşləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi S.Şaumyan idi. Onun təşkil etdiyi "Qırmızı ordu"nun tərkibi də, demək olar ki, tamamilə erməni quldurlarından ibarət olmuşdur.

Azərbaycan tarixinin səhifələrini vərəqlədikcə yeni-yeni faktlar, erməni-daşnak vəhşiliyinin olduqca dəhşətli səhnələri üzə çıxır. Müstqəillik illərində əldə edilən imkanlar sayəsində azərbaycanlılara qarşı 1918-ci ilin mart-aprel aylarında törədilən soyqırımı ilə bağlı məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar və araşdırmalar genişləndirilir. Nəticədə, təkzibolunmaz arxiv sənədləri, soyqırımları təsdiqləyən çoxsaylı dəlil-sübutlar, faktlar aşkarlanır. Odur ki, erməni-daşnak quldurlarının 104 il əvvəl xalqımıza qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılması çox vacibdir.

Soyqırım – sülh və bəşəriyyət əleyhinə olan cinayətlərin bir növüdür. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 103-cü maddəsində soyqırım məsələsi nəzərdə tutulmuşdur. Hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütünlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma, qrupun bütünlükdə və ya qismən məhvinə yönəlmiş yaşayış şəraiti yaratmaq, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqasına keçirmədə ifadə olunur.

Rusiyanın Qafqaz siyasəti və ermənilərin Qafqaza köçürülməsi. "Erməni məsələsi"nin öyrənilməsi, onun ortaya çıxması şərtləri və mahiyyəti onun anlayışının obyektiv müəyyənləşdirilməsinə və təhlilinə imkan verir. "Erməni məsələsi"nin anlayışı həm onun ayrı-ayrı problemlərinin, həm də bu problemlərin kompleks şəkildə öyrənilməsinə imkan verir.

"Erməni məsələsi" Rusiya imperiyasının Qafqaz siyasətinin tərkib hissəsi olub, regionu işğal etmək və itaət altında saxlamaq vasitəsidir. Şərq məsələsinin tərkib hissəsi olub, Osmanlı dövlətinin daxili işlərinə qarışmaq vasitəsidir. Ermənilərin və ya ermənilər vasitəsi ilə yerli xalqlara qarşı yaradılmış problemlər məcmusudur. Ermənilərin destruktiv fəaliyyətinə qarşı həyata keçirilən tədbirlər sistemidir.

Azərbaycanlılara qarşı erməni faşistlərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII əsrdən başlayır. Həmin dövrdə torpaqlarını Cənubi Qafqaza doğru genişləndirməkdə olan çar Rusiyası ermənilərdən vasitə kimi istifadə edir, Qafqazda erməni dövləti yaradacağı vədi ilə ermənileri şirnikdirirdi. Lakin, unutmaq lazım deyildir ki, ermənilər Qafqazda gəlmə xalqdır [6, s.239]. Ermənilərin Qafqaza miqrasiyası tarixi isə müyyən mərhələlər keçmişdir. Bu prosesdə I Pyotrun hakimiyyət illəri (1689-1725) keyfiyyətcə xüsusi yer tutur [1, s.11]. Erməni tarixçisinin yazdığına görə, XVII əsrin sonlarından daha da intensivləşən rus-erməni münasibətləri I Pyotrun dövründə yeni mərhələyə qədəm qoyur [7, s.44]. Həm I Pyotr, həm də II Yekaterina Qafqazın, xüsusilə Cənubi Qafqazın işğalında bu faktora xüsusi önəm vermişdir [1, s.12-13]. Türkmənçay müqaviləsinin (1828, 10 fevral) XV maddəsinə, Ədirnə müqaviləsinin (1829, 2 sentyabr) XIII maddəsinə əsasən ermənilərin İrandan və Türkiyədən (Osmanlıdan) Qafqaza, o cümlədən Azərbaycana köçürülməsinə başlanmışdır.

Ermənilərin köçürüldükləri özgə torpaqlardakı mövqeləri, daxili qanunvericiliklə də möhkəmləndirilmişdir. Ermənilər üçün yaradılan şərait eyni miqyasda yerli azərbaycanlılar üçün əks proses, yəni öz doğma ata-baba torpaqlarında sıxışdırılması, torpaqlarının əllərindən alınması və münaqişə ocaqlarının yaradılması demək idi. Rusiyanın İrandakı Fövqaladə səlahiyyətli səfiri A.S.Qriboyedovun ermənilərin köçürülməsi haqqında qeydlərində bildirirdi ki, çar hökuməti ermənilərin İrandan köçürülməsini həyata keçirməklə bərabər, onların işğal edilmiş hansı ərazilərdə yerləşdirilməsinə də böyük əhəmiyyət verirdi. Türkmənçay müqaviləsinin XV maddəsinə uyğun olaraq Paskeviç İrəvan müvəqqəti idarəsinə göstəriş vermişdi ki, köçürülən ermənilər daha çox İrəvan və Naxçıvan, qismən də Qarabağda məskunlaşdırılsın [2, s.119].

Ermənilərin tarixi-etnik Azərbaycan torpaqlarında məskunlaşdırılmasının təşkili, həyata keçirilməsi məqsədyönlü olmuşdur. A.S.Qribayedov ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlərində yazırdı: "Ermənilər, daha çox mülkədar müsəlman torpaqlarında məskunlaşmışlar. Yayda buna yenə də yol vermək olardı. Torpağın sahibləri olan müsəlmanlar yaylaqda idi və başqa məzhəbli gəlmələrlə ünsiyyətdə az olurdular... Köçkünlər özləri sıxışıblar və müsəlmanları da sıxışdırırlar, müsəlmanlar da əsaslı olaraq şikayətlənirlər... Həmçinin, biz onunla (yəni erməni köçkünlərinin başçısı ilə - Müəl...) müsəlmanlara ediləcək təlqinlər – onları müvəqqəti olacaq indiki çətinliklə barışdırmaq və ermənilərin bir dəfə buraxdıqları torpaqlara həmişəlik yiyələnəcəklərinə dair əndişələrini aradan qaldırmaq barədə xeyli mühakimə etdik" [3, s.173-175].

Dünya ağ dəftərə bənzəyir, hər bir xalq, millət öz əməlləri, yaşadıqları ömürlə bu dəftərə "avto-

qraf" qoyaraq tanınır. Görəsən ermənilərin "avtoqraf"larına nə yazılıb? Yəqin ki, bu sözlər öz əksini tapıb: terroristlər, riyakarlar, yalançılar, millətçi-faşistlər, təcavüzkarlar, xəyanət etməyi sevənlər və s. Onlar tarix boyu öz anarxist fəaliyyətləri ilə, onlara aid olmayana sahib çıxmağa çalışanlar kimi tanınmışlar. 1915-ci ildə Rusiyanın Van və Ərzurumdakı baş konsulu general V.F.Mayevski yazırdı: "Erməni quldur, terrorçu dəstələri iğtişaşlar, qırğınlar törədir və sonra aradan çıxırdılar... Həqiqət ona görə yoxdur ki, erməni müəllifləri həmin həqiqətdən düşünülmüş şəkildə qaçırlar. Onların bütün fəaliyyətləri yalanlar, ağılasığmaz, görünməmiş, hələ eşidilməmiş qəddarlıqlar uydurmağa əsaslanmışdır ki, başqalarında ermənilərə rəğbət, türklərə nifrət hissi yaransın".

N.S.Vartapetoy: "Ermənilər xristian bayrağı altında silahlanaraq bütün zamanlarda tarixi Azərbaycanın və onun ayrılmaz hissəsi olan Qarabağın əhalisinə qarşı qırğınlar və talanlar törətmişlər. Onlar bir vaxtlar tarixi şəraitdən məharətlə istifadə edərək Bizans imperiyasına, İran Sasanilərinə, Ərəb xilafətinə və monqollara xidmət etdikləri kimi, sonralar Səfəvilərə, daha sonra Rusiya imperiyasına xidmət etmişlər.

Erməni tarixçisi Gevorq Aslan özü etiraf edirdi ki, ermənilərdə dövlətçilik olmamışdır. Odur ki, onlarda vətən hissi yox idi, ermənilərin vətənpərvərliyi yalnız yaşadıqları yerlərlə bağlıdır.

Roma tarixçisi Korneli Tasit yazırdı: "Bu xalq (ermənilər) istər xasiyyətinə, istərsə də coğrafi vəziyyətinə görə qədimdən ikiüzlü və riyakardırlar".

V.A.Velicko isə özünün "Qafqaz" əsərində ermənləri belə təsvir edirdi: "Ermənilər tarix boyunca özlərinin himayəçilərini dəyişdirmişlər. Roma, Bizans, İran, ingilis, fransız, alman və sonda rus tarix səhnəsinə yeni-yeni himayədar çıxarkən, ermənilər köhnə himayəçilərini bir qayda olaraq satmışlar".

1905-ci ildə (fevralda) İllarion İvanoviç Vorontsov-Daşkov Qafqaza canişin təyin edildikdən sonra ermənilərin fəallığı daha da artır. Həmçinin, Osmanlı ərazisində yaşayan ermənilərin Rusiyaya meylləri də artır. Ermənilərin bu davranışı da Rusiya üçün çox gərəkli idi. Belə ki, Rusiyanın əsas məqsədlərindən biri Osmanlının şərq vilayətlərini ələ keçirmək idi.

Ermənilərin 1905-ci ilin fevralında Bakıda başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi, yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yandırıldı, on minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi [4, s.187, 189].

Bakı şəhəri ilə yanaşı qanlı toqquşmalar Şuşaya, Zəngəzura, İrəvana, Naxçıvana, Ordubada, Eçmiədzinə, Yelizavetpola, Cavanşir və Qazax qəzalarına yayılmağa başladı.

Vorontsov-Daşkov tərəfindən müdafiə olunan "Daşnaksütyun" partiyasının 1905-ci il fevralın 12-də gürcü və rus bolşevikləri ilə birgə imzaladığı "Bütün Qafqaz xalqlarına" adlı müraciətində bu qırğınların səbəbkarı kimi müsəlman əhali ittiham edilir, hökümətin guya onları əliyalın ermənilərə qarşı silahlandırdığı iddia olunurdu.

Ermənilər havadarlarının dəstəyinə böyük ümid bəsləyərək Azərbaycan-Türkiyə torpaqları hesabına "Böyük Ermənistan" dövləti yaratmaq ideyasını həyata keçirmək üçün ermənilərin türklərə, azərbaycanlılara qarşı törətdikləri soyqırımını aşağıdakı mərhələlərə bölmək olar:

1. XVIII əsrdən – 1905-1907-ci illərə qədər ki, dövr;
2. 1905-1907-ci illər;
3. 1918-1920-ci illər;
4. XX əsrin 20-30-cu illəri;
5. 1946-1953-cü illər;
6. 1988-2020-ci illər [5, s.76-77].

1905-1907-ci illərdə azərbaycanlılara qarşı apardıqları terror, soyqırım xarakterli müharibədə məqsədlərinə nail ola bilməyən ermənilər 1914-1918-ci illərdə baş verən Birinci Dünya müharibəsindən, Rusiyada baş verən 1917-ci il fevral inqilabından, 1917-ci il oktyabr çevrilişindən istifadə edərək sərsəm "Böyük Ermənistan" ideyalarını bolşevik bayrağı altında gerçəkləşdirməyə ciddi səy göstərirdilər. Erməni daşnakları getdikcə daha çox inanırdılar ki, yalnız Rusiya dövləti onların siyasi fəaliyyətinə, "Böyük Ermənistan" ideyasının reallaşmasına dəstək verə bilər.

1918-1919-cu illərdə azərbaycanlılara qarşı həyata keçirilən soyqırımlar. Son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, qanlı cinayətlərlə dolu səhifələr də yazılıb. Bu qanlı, dəhşətli faciələrdən biri 1918-ci il mart-aprel aylarında baş vermişdir.

Erməni millətçiləri 1905-1907, 1918-1920, 1991-1994-cü illərdə və 2020-ci il 27 sentyabr-10 noyabr tarixlərində Azərbaycan xalqına qarşı qanlı müharibə, qanlı toqquşmalar, deportasiyalar və soyqırımlar törətmişlər. Məqsədləri isə mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək olmuşdur.

Bakının türk-müsəlman əhalisinə qarşı soyqırıma ciddi hazırlaşan S.Şaumyan İ.Stalinə məktub yazaraq, Qafqaz Qırmızı Ordusunun təşkili üçün təcili surətdə on milyon rubl göndərilməsini xahiş etmişdir. 1917-ci il dekabrın 29-da Lenin Türkiyə ərazisində ermənilərə muxtariyyət verilməsinə dair imzaladığı sənəd daşnak-bolşevik ittifaqını daha da gücləndirdi.

1918-ci il aprelin 19-da Bakı Sovetinin yığıncağında S.Şaumyan etiraf etmişdi ki, Bakı əhalisinin milli tərkibi onu çox narahat edir və o, erməni-daşnak alaylarının köməyindən heç cür imtina edə bilməzdi [8].

1918-ci ildə Azərbaycanın müxtəlif bölgələrində - Bakıda, Qubada, Şamaxıda, Lənkəranda, Kürdəmirdə və digər yerlərdə erməni-daşnak və Bakı bolşevik qüvvələri tərəfindən görünməmiş vəhşiliklər, qətliamlar, soyqırımlar həyata keçirdilər. 1918-ci ilin martında daşnak S.Şaumyanın başçılıq etdiyi Bakı Kommunası "əks-inqilabi ünsürlərlə mübarizə" şüarı altında Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən soyqırımı planını həyata keçirməyə başladı [9].

Martın 30-da saat 16.40 radələrində erməni kilsəsinin yanında toplaşan daşnak dəstələri müsəlmanları atəşə tutdular və bununla da azərbaycanlılara qarşı soyqırıma başladılar. Martın 31-də səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və digər Azərbaycan məhəllələrinə hücum etdilər. S.Şaumyanın xahişi və Leninin xüsusi göstərişi ilə Saritsından göndərilən 2 təyyarə havadan, hərbi gəmilər isə dənizdən şəhərin azərbaycanlılar yaşayan məhəllələrini bombalamağa başladılar. Bu dəhşətli soyqırım aprelin 2-i gecədən xeyli keçənədək davam etdi. Nəticədə, Bakıda 12 mindən çox azərbaycanlı qətlə yetirilmiş, ictimai binalar, mədəniyyət və mətbuat ocaqları məhv edilmişdir [10, s.174-177].

Hələ 1918-ci il martın 15-də S.Şaumyan Bakı Sovetinin iclasında çəkinmədən demişdi: "Bakı Soveti Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir". S.Şaumyanın əmri ilə martın ortalarında erməni Əmirovun komandanlığı altında Şamaxı şəhərinə bolşevik silahlı qüvvələri göndərildi. Salyan, Hacıqabul, Muğan və Lənkəran bölgələrinə silahlı bolşevik dəstələri yeridildi. Martın 30-da döyüşlərə rəhbərlik üçün S.Şaumyan, A.Çaparidze, Q.Korqanov, İ.Suxartsev, S.Saakyan və M.Yolçiyan daxil olmaqla Bakı Soveti yanında İnqilabi Müdafiə Komitəsi yaradıldı.

1917-1918-ci ildə ermənilər Zəngəzurda 115, Qarabağda 157, Qubada 122, İrəvan quberniyasında 211, Gəncə ətrafında 272, Ağsu, Kürdəmir və Lənkəranda 130 yaşayış məntəqəsinin 50 min nəfərdən çox əhalisi vəhşicəsinə qırmış, kəndləri talan edərək yandırmışdılar.

A.Mikoyan Bakıda törədilən soyqırım ilə bağlı fikrini belə ifadə edirdi: "Erməni milli hissəsinin əsgərləri türklərə qarşı əla və şərəflə vuruşurdular". Həmçinin, S.Şaumyan Rusiya Xalq Komissarları Sovetinə 1918-ci il 12 aprel tarixli məktubunda yazırdı ki, "Əgər müsavatçılar mart təcavüzü nəticəsində hakimiyyəti ələ alsaydılar, onda Bakını Azərbaycanın paytaxtı elan edər, bütün qeyri-müsəlman ünsürləri isə tərksilah edərək məhv edərdilər" [11, 59-60, 72].

"1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 yanvar 2018-ci il tarixli sərəncamında qeyd edilir ki, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri cinayətlər barədə həqiqətlər ölkə və dünya ictimaiyyətinə daha dolğun şəkildə çatdırılmalıdır [12].

Bakı qırğını. Bakıda 31 mart – 2 apreldə 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Bakı şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak müsadirə olmuşdur. Daşnaklar Bakıda dünya memarlığının incilərindən sayılan "İsmailiyyə" binasına od vurub yandırmışlar. Təzəpir məscidi dağıdılmışdır [13].

Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Kluge "Bakı şəhərinin müsəlman əhalisinə qarşı törədilmiş zorakılıqlara qarşı iş haqqında" məruzəsində, komissiyanın sədrinə yazırdı: "Yaxşı silahlanmış, təlim keçmiş erməni əsgərlər çoxlu miqdarda pulemyotların müşayiəti ilə hücum etdilər...

Ermənilər müsəlmanların evlərinə soxulur, bu evlərin sakinlərini qırır, onları qılınc və xəncərlərlə doğram-doğram, süngülərlə deşik-deşik edir, uşaqları yanan evlərin alovları içərisinə atır, üç-dörd günlük çağaları süngünün ucunda oynadır, öldürülən valideynlərin südəmər körpələrinə rəhm

etmir, hamısını öldürmüşdülər" [14].

Quba qırğını. Quba qəzasında türk-müsəlman əhalisinə qarşı planlaşdırılmış qırğınlar, talanlar və dağıntılar 1918-ci il martın əvvəllərindən başlamışdır. Bu prosesdə ermənilərlə birlikdə bolşevik əsgərləri də iştirak edirdi. Bu qırğınlarda əsas məqsəd Quba qəzasında da türk-müsəlman əhalisini məhv edərək erməni idarəçiliyini qurmaq idi. Quba qəzasında qırğının törədilməsində əsas qüvvə "Daşnaqsütyun" partiyasının əsgərləri idi. Qırğınlarda iştirak edən erməni dəstələrinə Avakov, Vartan, Ağacanyan və digər erməni quldurları başçılıq edirdi.

Amansız vəhşi erməni dəstələrindən birinə də qaniçən Amazasp başçılıq edirdi. Onun dəstələri şəhəri odlayır, fərqinə varmadan qarşılarına çıxan bütün adamları, kişiləri, qocaları, qadınları və uşaqları güllələyirdilər. Onlar müsəlmanlara aid müqəddəs yerləri, minlərlə qiymətli kitabları tonqalda yandırmışdılar. Yandırılan 1300-dən çox kitab arasında 600-700 il əvvələ aid olan alban və ərəb əlifbası ilə yazılmış kitablar da var idi [15, s.108-109].

Daşnak Amazaspın dəstələrinin vəhşilikləri nəticəsində 1918-ci ilin beş ayı ərzində Quba qəzasında ümumilikdə 16 mindən çox türk-müsəlman əhalisi qətlə yetirilmiş, 162 kənd dağıdılmışdır ki, bu kəndlərdən 35-i hazırda mövcud deyildir [16].

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Amazaspın həyata keçirdiyi vəhşiliklər zamanı Quba qəzasında 1919-cu illərdə həm də 3 minə qədər yəhudi qətlə yetirilmişdir [17, s.26].

Ermənilər həm də Lənkəran, Cavad, Şamaxı, Göyçay qəzalarında, Cavanşir, Cəbrayıl, Şuşa, Zəngəzurda da böyük dağıntılar törədərək, azərbaycanlı əhalini ucdan tutma qətlə yetiriblər [18].

Şamaxı qırğını. 1918-ci il martın 18-də (martın 31-də yeni stillə) Şamaxı şəhərinin türk-müsəlman yaşayan hissəsinə soxulan ermənilər qışqırırdılar: "Biz bu günü iki ildir ki, gözləmişik. Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndi sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün müqəddəs Həzrət Abbasınızı çağırın. Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir" [19].

1918-ci il martın 31-də (martın 18-də) sübh çağı Şamaxı şəhərinin türk-müsəlman əhalisi topgüllə səsinə oyandılar, şəhər mühasirəyə alınmışdır. Cənubdan ermənilər, şimal-şərqdən isə molokanlar şəhərə soxulmuşdular. Türk-müsəlman əhalisi silahsız idilər, hazırlıq görməmişdilər. Qüvvələr nisbəti qeyri bərabər olduğundan müsəlmanlar müdafiə oluna bilmədilər və geri çəkilməyə məcbur oldular [20, s.49].

"Azərbaycan" qəzetinin 1919-cu ilin martın 31-də 147-ci sayında S.Şaumyanın, Saakyan və Arekyanın rəhbərlik etdikləri quldur dəstənin Bakıdan sonra Şamaxıda qırğınlar törətdiklərini və bu xəbərin Bakıda təşviş yaratdığı barədə məqalə dərc olunur. Məqalədə yazılır: "Martın 16-da xəbər gəldi ki, bolşevik soldatlar Şamaxıya hərəkət edərək intizamsızlıq salıb, yolda qabaqlarına çıxan müsəlman kəndlərini o cümlədən Ağdərə, Novxanlı, Qarxunlu kəndlərini qarət edib müsəlmanları qırırlar".

Əgər türklər dadımıza çatmasaydı sağ qalanımız sual altında olardı, menşevizm, bolşevizm bayrağı altında çıxış edənlərin taptağı altında qalardıq [27].

Şəhərdə 13 məscid, o cümlədən, "Cümə məscidi" yandırılmışdır. Şamaxı qəzasında 86 türk-müsəlmanlar yaşayan kənd ermənilər tərəfindən yandırılaraq məhv edilmişdir. Beləliklə, hesablamalara əsasən Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər qətlə yetirilmişdir ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1247 nəfəri uşaqlar olmuşdur.

Şamaxıda 1918-ci ilin mart-aprel aylarında öldürülənlərin sayına gəlincə, bəzi məlumatlarda bu rəqəmin 7 min, bəzilərində 8-12 min, hətta 40 min olduğu göstərilir. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən yaradılan Fövqəladə İstintaq Komissiyasının sənədlərinə 1918-ci ilin mart-aprel aylarında Şamaxı qəzasında azərbaycanlılar yaşayan 58 kəndə ermənilərin hücumu zamanı 3632 kişinin, 1771 qadının, 956 uşağın vəhşicəsinə öldürüldüyü qeyd olunurdu. Lakin, ekspertlərin digər arxiv sənədləri əsasında apardıqları hesablamalara görə, Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlı qətlə yetirilib. Onlardan 4190 nəfər kişi, 2560 nəfəri qadın, 1277 nəfəri uşaq olub. Digər bir mənbədə isə Şamaxının 72 kəndində ermənilərin 7 min nəfəri, o cümlədən 1653 qadın və 965 uşağı öldürdüyü bildirilir. Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-sının erməni təcavüzünə məruz qaldığı təsdiqlənib. Komissiya öz işini dayandırdığın-

dan digər 34 kənd haqqında məlumat toplamaq mümkün olmayıb.

İrəvan qırğını. 1918-ci ilin martına qədər İrəvan qəzasının 199 azərbaycanlı kəndi, 1919-cu ilin sentyabr ayına qədər isə Eçmiədzin qəzasına məxsus 62 azərbaycanlı kəndi bütünlüklə dağıdılmış və yandırılmışdır [15, s.133].

1918-1920-ci illərdə Adranikin quldur dəstələrinin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırım nəticəsində Qərbi Azərbaycan torpaqlarında yaşayan azərbaycanlıların çox böyük hissəsi, təxminən 565 min nəfəri vəhşicəsinə qətlə yetirilmiş, bir hissəsi öz, ata-baba torpaqlarından qovulmuşdur.

1918-ci ildə İrəvan quberniyasında 211 Azərbaycan kəndi dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir (İrəvan və onun ətraf ərazilərində). Nəticədə, İrəvan quberniyasında azərbaycanlı əhalinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir [21, s.33-34, 134-135].

Zəngəzur qırğını. 1918-1919-cu illərdə erməni quldurlarının ən çox dağıntılar törətdiyi bölgələrdən biri də Zəngəzur qəzası idi. Ermənilərin törətdikləri dağıntılar nəticəsində Zəngəzur qəzasının Şuşa və Cəbrayıl qəzaları ilə əlaqələri kəsilmişdir. Erməni vəhşilikləri nəticəsində Zəngəzur qəzasında 115 müsəlman kəndi ermənilər tərəfindən dağıdılaraq yer üzərindən silinmişdir. Bu kəndlərin əhalisindən 3257 kişi, 2276 qadın və 2196 uşaq qətlə yetirilmişdir. Beləliklə, təkcə Zəngəzur qəzasında erməni quldurları tərəfindən 10068 nəfər azərbaycanlı qətlə yetirilmiş və ya şikəst edilmişdir. Həmçinin, 100-dən çox müsəlman kəndi dağıdılmışdır [22].

1918-ci ilin yanvarından 1919-cu ilin avqustunda "Molokan qiyamı" yatırılana qədər Lənkəran bölgəsində də erməni-daşnak qüvvələri və rus bolşevikləri tərəfindən 2 min insanın həyatına son qoyulmuş, məscidlər dağıdılmış, evlər yandırılmışdır [23].

Urmiya, Maku və Xoy qırğınları. 1918-ci ilin baharında – mart, aprel aylarında erməni daşnak və aysor birləşmələri Urmiya, Maku, Təbriz, Səlmas və Xoyda azərbaycanlılara qarşı qanlı faciələr, cinayətlər və kütləvi qırğınlar törətmişlər. "Urmi bəlası" kimi azərbaycanlıların qanlı tarixinə yazılan bu faciədə qətlə yetirilən azərbaycanlıların sayı 10 min nəfərdən çox olmuşdur [24, s.9].

1918-ci ildə Andranikin 5 min nəfərlik quldur dəstəsinin Xoyda və onun ətrafında törətdikləri cinayətlər daha ağır olmuşdur. Yalnız Osmanlı türklərinin köməyə gəlməsindən sonra Andranikin dəstələri geri çəkilməyə başlamışdır [25, s.53-54].

Erməni daşnak quldurları, terrorçuları soyqırım siyasətini tarixən təkcə insan resurslarını, məhv etmək üzərində həyata keçirmir, həm də Azərbaycan xalqının milli təsisatlarını sıradan çıxarıb, yararsız hala salmaq və bununla da törətdikləri qanlı olayların tarixdə yaşamamasına nail olmaq planları əsasında qururdu.

Mətbuat informasiya mənbəyi, ictimai maarifçilik institutu olmaqla bərabər həm də tarixi salnamədir. Soyqırım siyasətinin müxtəlif mərhələlərinin öyrənilməsində həmin dönəmlər işıq üzü görmüş qəzetlərdəki məlumatlar, faktlar, siyasi-analitik yazılar, əbədi nümunələr etibarlı mənbə kimi tədqiqatlara daxil edilir, araşdırmanın elmi tutumunu zənginləşdirir. Azərbaycanda erməni-daşnak qüvvələrinin həyata keçirdiyi soyqırımlarının tarixinin öyrənilməsində, ictimai-siyasi proseslərin mahiyyətinin araşdırılmasında mətbuat informasiya mənbələrimiz qiymətli məxəz kimi tədqiqatçıların elmi araşdırmalarında əhəmiyyətli yer tutur.

"Daşnaksütyun" partiyası tərəfindən 1917-ci ildə planlaşdırılan S.Şaumyan başda olmaqla bolşeviklərlə birlikdə həyata keçirilən 31 mart – 2 aprel qırğını xalqımızın milli-mənəvi dəyərlərinə, tarixi yaddaşına, ziyalılarına qarşı mənəvi soyqırım idi. O dövrün qələm sahibləri, yazarları bu vəhşilikləri "mədəni zərbə" adlandırırdılar. 1918-ci ilin soyqırımınadək Azərbaycanda 20-dən çox anadilli mətbu orqan fəaliyyət göstərdiyi halda, soyqırımdan sonra yalnız "Hümmət" və "Bakı Şurasının əxbarı" qəzetləri fəaliyyətini davam etdirirdi, digərlərinin fəaliyyəti qadağan edilmişdir.

Həmçinin, 31 mart soyqırımından sonra Tiflisdə bir sıra qəzetlər, o cümlədən Türk Gənclər Təşkilatı tərəfindən "Qardaş qayğısı" nəşr olunurdu. M.B.Məhəmmədzadə qəzetdə çap etdirdiyi "Azəri türkləri" adlı məqaləsində yazırdı: "Azərbaycan türklərinə vəhşi, yırtıcı, quldur, irticaiyyun və qara qüvvə adlarına insaniyyətpərvər "borba"larda, "bayraq"larda görünürdü. Azəri türklərinin öz ana yurdları uğrunda tökdükləri qan, atdıqları güllə insaniyyətpərvər tiflislilərə sanki zəhərli bir ox

kimi batıb" [26].

Azərbaycan arxivlərində erməni-daşnak terrorlarını, vandalizmini öz saralmış səhifələrində qoruyan sənədlərin böyük bir hissəsinin tədqiqata cəlb olunmasına, baxmaraq axtarışlar nəticəsində yeni sənədlər, mənbələr də aşkarlanır. 1918-ci il 31 mart – 2 aprel soyqırımı tarixşünaslığı üçün çox vacib, gərəkli olan belə mənbələrdən biri də bu vaxta qədər tədqiqatçıların nəzərindən kənarda qalan, bu günə kimi mənbəşünaslığa daxil edilməyən Seyidağa Axundzadənin 1919-cu ildə Bakıda "Turan" mətbəəsində çap olunmuş "Mart hadisəsi: 1918 və yaxud Nuru Paşanın Bakını işğal etməsi" kitabıdır. Kitabda göstərilir ki, ermənilər müdafiəsiz sakinlərin evlərinə soxulur, onları qarət edir, sonra isə yandırırdılar. Ermənilər və molokanlar yandırılmış evlərdən çıxıb qaçmağa cəhd edən kişi və qadınları, hətta uşaqları güllələyirdilər. Axşama yaxın müsəlmanlar ermənilərin yanına nümayəndələr göndərib sülh xahiş etdilər. Lakin, ermənilər sülh təklifini rədd etdilər. Küçələrdə kişi, qadın və uşaq meyitləri dolu idi. Qadınların döşləri kəsilmiş, qarınları yarılmış, saçları kəsilmişdi. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam etdi. Yalnız Gəncədən azərbaycanlı silahlı dəstələrin Şamaxının türk-müsəlman əhalisinə köməyə gəlməsi xəbərini alan erməni və molokan qüvvələri geri çəkildilər. Gəncədən gələn silahlı dəstələrin Şamaxını tərk etməsindən xəbər tutan kimi erməni və molokan quldurları ikinci dəfə Şamaxıya soxuldular. Yenə də qətllər, talanlar, yanğınlar davam etdi [28].

Nəticə. Azərbaycan Xalq Cumhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart-aprel hadisələrinin – soyqırımının araşdırılmasına xüsusi diqqət yetirmişdir. AXC-nin Nazirlər Şurası tərəfindən 1918-ci il iyulun 15-də bu faciənin araşdırılması məqsədilə Fövqəladə İstintaq Komissiyası yaradılmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanı imzalamasından 24 il keçir. Həmin Fərmana əsasən 31 mart – Azərbaycanlıların soyqırım günü elan olundu. Qeyd edək ki, bu sənədin ermənilər və onların tarixi havadarlarının yurdumuzun və yurddaşlarımızın başına gətirdikləri müsibətlərin həm ölkə, həm də beynəlxalq ictimaiyyətin mühakiməsinə çıxarılmasında rolu böyük və əhəmiyyətlidir [29]. Azərbaycan Respublikası Prezidentinin bu fərmanında həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmişdir. Erməni-bolşevik silahlı dəstələrinin 104 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 18 yanvar 2018-ci ildə "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncam imzalamışdır.

ƏDƏBİYYAT

1. Qafqazda "erməni məsələsi". Rusiya arxiv sənədləri və nəşrləri üzrə. Üç cilddə, 1724-1914. (Tərtibçi müəlliflər: T.Heydərov, T.Bağıyev, K.Şükürov). I cild. 1724-1904. Bakı, Elm, 2010, XX+716 s.
2. Ениколопов И.Грибоедов и Восток. Второе перераб. изд. Ереван, Айастан, 1974, 760 с.
3. Qriboyedov A.S. Ermənilərin İrandan bizim vilayətlərə köçürülməsi haqqında qeydlər. 1828-ci il Qafqazda "erməni məsələsi". Üç cilddə, I cild. Bakı, Elm, 2010, 716 s.
4. Zeynalov İ.X. Ermənilərin, müsəlman-türk əhalisinə qarşı soyqırım siyasəti // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları. Bakı Dövlət Universiteti, 2018, s.187-191.
5. Məmmədov X., Məmmədov N. Türkiyədə və Azərbaycanda erməni millətçilərinin cinayətləri. Bakı, Elm, 2006, 165 s.
6. История Агвань Моисея Каганкатваци. Перев.с арм. СПБ., 1861.
7. Харатран Р.Г. Русская историческая тысль XVIII века и русская ориентация армянского освободительного движения / Из истории вековой дружбы. Ереван, Изд-во АН Арм.ССР, 1983, 270 с.
8. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA). Fond 1, siy.7, iş 168, 169.
9. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, Azərnəşr, 2001, 536 s.
10. Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası. II cild. Bakı, Lider nəşriyyat, 2005, 472 s.
11. Галоян Г.А. Социалистическая революция в Закавказье освещении буржуазной историографии. М., Соцэкгиз, 1960.
12. "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Azərbaycan Respublikası Prezi-

dentinin sərəncamı / 18 yanvar 2018-ci il. "Azərbaycan" qəzeti, 19 yanvar 2018-ci il.
13. ARPİİSSA, Fond 277, siy.2, iş 16, 13, 25, 26.
14. ARPİİSSA, Fond 277, siy.2, iş 16, 18.
15. İsgəndərov A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, "Elm və təhsil", 2012, 228 s.
16. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), Fond 879, siyahı 10, iş 45, v. 10-11.
17. Мустафаев Р. Репеступления армиянетва против еврийского народа. Баку, 2008
18. ARDA, Fond 100, siyahı 2, iş 791, v.2.
19. ARDA, Fond 1061, siyahı 1, iş 108, v.8-13.
20. İsgəndərov A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. Bakı, Adiloğlu, 2006, 396 s.
21. ARDA, Fond 894, siyahı 1, iş 201, v. 33-34.
22. Fövqəladə Təhqiqat Komissiyasının məruzəsi, ARDA, Fond 894, siyahı 4, iş 65, v.3-4.
23. ARDA, Fond 100, siyahı 2, iş 791, v. 1, 6-7.
24. Məmmədzadə M.B. Ermənilər və İran. İstanbul, 1927, Bakı, Azərnəşr, 1993, 42 s.
25. Onullahi S. Erməni millətçiləri və İran. Bakı, Maarif nəşriyyatı, 2002, 88 s.
26. "Qardaş qayğı" qəzeti, sentyabr 1918-ci il.
27. "Azərbaycan" qəzeti, № 147, 31 mart 1919-cu il.
28. ARDA, Fond 1061, siyahı 1, iş 40, v. 8, iş 49, v. 8-9.
29. ARDA, Fond 1061, siyahı 2, iş 85, v.13-14.

ИБРАГИМ ЗЕЙНАЛОВ
Профессор Бакинского государственного университета, доктор исторических наук

ХУМАР САФАРОВА
Доцент Бакинского государственного университета, доктор философии по истории

ГЕНОЦИД - ПРОТИВ МИРА И ЧЕЛОВЕЧЕСТВА ЭТО ПРЕСТУПЛЕНИЯ

В научной статье рассматривается история захватнической политики царской России на Южном Кавказе и использование ею армян в качестве средства реализации своих планов, история геноцида азербайджанского населения армянскими националистами. В статье на основе архивных документов и научного материала последних лет изучается геноцид азербайджанского населения дашнакскими бандоформированиями в Баку, Губе, Шемахе, Гяндже, Карабахе, Зангезуре, Нахчыване, Сальянах, Кюрдамире, Ленкоране и в других регионах, цель этих преступных действии, их тяжелые последствия. В статье особо подчеркивается роль С.Шаумяна - чрезвычайного комиссара советской России на Кавказе в организации геноцида азербайджанского населения дашнаками в марте-апреле 1918 года.

Ключевые слова: геноцид, армяне - дашнаки, большевистская власть, «Великая Армения», Бакинский совет, Красная Армия, чрезвычайный комиссар на Кавказе, Чрезвычайная Комиссия.

IBRAHIM ZEYNALOV
Professor of Baku State University, doctor of historical sciences

KHUMAR SAFAROVA
Accestance professor of Baku State University

GENOCIDE - AGAINST PEACE AND HUMANITY IT IS A TYPE OF CRIME

The scientific article examines the history of the policy of genocide committed by Armenian nationalists against our people, the policy of Tsarist Russia, which has expanded its lands to the South Caucasus, using Armenians as a tool. In order to implement the idea of creating a "Greater Armenia" at the expense of Azerbaijani-Turkish lands with the support of Tsarist Russia, Armenian-

Dashnak forces and Bolsheviks committedcrimes and massacre against Turks and Azerbaijanis in Baku, Shamakhi, Guba, Karabakh, Zangazur, Nakhchivan, Salyan, Kurdamir, Lankaran, Ganja and other regions.

The article clarifies these terrible genocides, the purpose and consequences of its commission on the basis of extensive materials, archival documents and recent differences. The article emphasizes the role of Dashnak S. Shaumyan, who was appointed by V. Lenin as the Extraordinary Commissar of the Caucasus in March 1918. Namely S. Shaumyanwas the implementer of the terrible genocide against Azerbaijanis in March-April 1918.

Keywords: genocide, Armenian-Dashnak, Bolshevik, "Greater Armenia", "Dashnaktsutyun", Baku Soviet, "Red Army", Emergency Commissioner of the Caucasus, Extraordinary Commission of Inquiry.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d.Azad Rzayev, t.e.d. Anar İsgəndərov.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

ƏSMƏD MUXTAROVA
Bakı Dövlət Universiteti Türk xalqları tarixi kafedrasının müdiri,
tarix elmləri doktoru, professor
asmad.mukhtarova@bsu.edu.az

AZƏRBAYCAN XALQINA QARŞI TÖRƏDİLƏN 1918-Cİ İLİN MART SOYQIRIMLARI TARİXİMİZİN UNUDULMAYAN SƏHİFƏSİ KİMİ...

Tarixin müxtəlif mərhələlərində "Böyük Ermənistan" xülyasını gerçəkləşdirməyə çalışan erməni millətçiləri bu məkrli məqsədlərinə çatmaq üçün xalqımıza qarşı etnik təmizləmə və soyqırım aktları həyata keçirmişlər. Onlar öz mənfur niyyətlərinə çatmaq üçün əvvəlcə 1905-1906-cı illərdə azərbaycanlılara qarşı qanlı aksiyalar həyata keçirərək çoxlu sayda soydaşlarımızı qətlə yetirmişdilər. 1918-ci ilin yazında isə, Bakıda və Azərbaycanın digər bölgələrində daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla kütləvi qətl, qırğın və talanlar törədilmişdir. Həmin günlərdə on minlərlə dinc sakin qətlə yetirilmiş, çoxlu sayda yaşayış məntəqələri dağıdılmış, yandırılmış, maddi-mədəniyyət abidələri, məscidlər və s. yerlə-yeksan edilmişdir. Azərbaycanlılara qarşı ermənilər tərəfindən həyata keçirilmiş soyqırım aktlarına ilk dəfə ümummilli lider Heydər Əliyev 1998-ci il martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərman ilə hüquqi-siyasi qiymət vermiş, 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Həmin fərmanda da deyildiyi kimi: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır".

Açar sözlər: soyqırım, erməni faşizmi, bolşevik-daşnak alyansı, Bakı Soveti, Fövqəladə Təhqiqat Komissiyası.

Giriş. Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycan xalqı özünün azadlığı və istiqlalı uğrunda daim mübarizə aparmışdır. Lakin Azərbaycan müstəqillik əldə edənə qədər xalqımıza qarşı mərhələ-mərhələ həyata keçirilən, hətta milli mövcudluğumuzu belə şübhə altında qoyan soyqırımları ilə üzləşmişdir. Zaman-zaman dinc əhalimizə qarşı törədilən bu cinayətlər nəticəsində soydaşlarımız yaşadıqları tarixi torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılaraq viran edilmişdir. Ümummilli lider, Prezident Heydər Əliyevin 1998-ci il 26 mart tarixli "Azərbaycanlıların soyqırımı" haqqında sərəncamında deyildiyi kimi: "Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi" [7, s.32].

Ermənilər dünya tarixində baş verən mühüm ictimai-siyasi proseslərdən Qərbin böyük dövlətləri və Rusiyanın, sonralar isə SSRİ-nin birbaşa himayəsinə arxalanaraq həmişə öz xeyirlərinə əsaslı şəkildə faydalanmağa çalışmışlar. Onlar fürsət düşdükcə soydaşlarımızın yaşadıqları qədim dədə-baba torpaqlarını ələ keçirərək azərbaycanlılara qarşı dəhşətli və kütləvi qırğınlar törətmişlər.

Həqiqətən də, fasilələrlə iki yüz ildən çox davam edən erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı soyqırımı siyasətinin əsas məqsədi bu ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur: "«Böyük Ermənistan» yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər" [7, s.32]. İstər 1905-1907-ci illərdə, istərsə də 1918-ci ilin mart soyqırımları zamanı erməni millətçiləri Bakıda törətdikləri qətliamları Vətənimizin digər ərazilərində də həyata keçirdilər: "Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki azərbaycanlı kəndlərini

əhatə etdi" [7, s.33]. Belə ki, 1905-1907-ci illər hadisələri zamanı Bakıda, Qarabağda və digər bölgələrdə dinc azərbaycanlılara qarşı həyata keçirilən qətliamlar ermənilərin məkrli niyyətlərini reallaşdırmaq üçün başladıqları soyqırımı siyasətinin ilkin mərhələsi idi.

1918-ci ilin martında xalqımıza qarşı bolşevik-daşnak birləşmələrinin guya Azərbaycanda sovet hakimiyyətini qurmaq adı altında həyata keçirdikləri soyqırımları da əslində həmin ilkin mərhələnin davamı idi. Ümumiyyətlə, 1920-ci ilədək olan dövrə təsadüf edən mərhələdə daşnak-bolşevik birləşmələri Bakıda və Azərbaycanın bir çox bölgələrində misli görünməmiş soyqırımı cinayətləri törətmişlər. Bakıda, Qarabağda, Şamaxıda, Zəngəzurda, Qubada, Lənkəranda, Naxçıvanda 50 mindən artıq azərbaycanlını qətlə yetiriblər. Sovet illərində isə yüz minlərlə azərbaycanlı öz tarixi torpağından, indi Ermənistan adlandırılan ərazilərdən didərgin salınıb. Bununla da Ermənistan demək olar ki, monoetnik bir respublikaya çevrilib.

Bakıda soyqırımlar. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində soydaşlarımıza qarşı planlı şəkildə həyata keçirilmiş soyqırımları 30-31 mart və aprelin 1-də (köhnə təqvimlə martın 17-də, Novruz bayramı ərəfəsində) törədilmişdir. Bu zaman Bakıda yerləşdirilmiş silahlı erməni hərbi dəstələrinə komandanlıq edən Qızmızı Ordu qərargahının rəisi S.Avetisyan, daşnak-quldur dəstəsinin rəhbəri Amazasp və Kozarev azərbaycanlıların yaşadığı məhəllərə hücuma keçmiş, azərbaycanlılara xüsusi amansızlıqla divan tutmuşdular. Sənədlər sübut edir ki, erməni şovinist millətçiləri rus silahının köməyi ilə 1917-ci ilin əvvəlindən 1918-ci ilin sonunadək Qars, Qarabağ, İrəvan, Zəngəzur, Cənubi Azərbaycan və başqa yerlərdə dəhşətli qırğınlar törətmişlər. Bu qırğınlar sonradan, müxtəlif bölgələrdə – Bakı, Şamaxı, Quba, Göyçay, Kürdəmir, Salyan, Lənkəran və başqa yerlərdə də davam etdirilmişdi. Erməni-daşnaklarının və bolşeviklərin soyqırımı törətməkdə başlıca məqsədi son dərəcə mühüm geostrateji və geosiyasi əhəmiyyətə malik olan yurdumuzun ərazisini ələ keçirmək, bütün Şərqin və İslam dünyasının ictimai-siyasi inkişafına misilsiz töhfələr bəxş etmiş, geniş xalq kütlələrini arxasıyca aparmağa qabil olan milli-demokratik qüvvələrimizi cəzalandırmaq, istiqlaliyyətimizi beşikdə boğmaq, Azərbaycanın muxtariyyətinin və müstəqilliyinin elan edilməsinə yol verməmək idi.

Təbii ki, Rusiyada hakimiyyəti silahlı çevriliş yolu ilə qəsb edərək ələ keçirmiş bolşevik Rusiyası üçün Bakı neftinə və Xəzər dənizinə sahib olmaq, Cənubi Qafqazı əldən buraxmamaq həyati əhəmiyyət kəsb edirdi. Belə ki, məhz Azərbaycanda milli qətliam törədərək yurdumuzun yeraltı, yerüstü sərvətlərinə sahib olmaq və Orta Asiyaya gedən yola, həmçinin keçmiş Rusiya imperiyası ərazisində yaşayan türk xalqları üzərində də nəzarəti ələ keçirmək mümkün idi. Məhz 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilən qətliamlar nəticələri onları Bakının və uzun müddət bütün Zaqafqaziyanın əsl sahiblərinə çevirə bilərdi [10, s.123].

Belə ki, bütövlükdə Cənubi Qafqaza sahib olmaq və keçmiş rus imperiyasının ərazisini yenidən bir dövlət tərkibində birləşdirmək bolşeviklərin lideri V.İ.Leninin çoxdankı arzusu idi. Təsadüfi deyildir ki, 1918-ci il mart ayının ikinci yarısında Lenin ABŞ-ın Qırmızı Xaç nümayəndəliyinin rəhbəri polkovnik R.Robinsonun "Rusiya Sovet Respublikası üçün Bakının iqtisadi əhəmiyyəti nədədir?" sualına "Bu – neft, işıq və enerjidir", – deyə cavab vermişdi. Lakin, Azərbaycan xalqı arasında heç bir sosial dayağa, siyasi dəstəyə malik olmadıqlarını (Bunu 1917-ci ilin oktyabrında Bakı Sovetinə keçirilən seçkilərin nəticələri də aydın göstərirdi. Seçkilərdə cüzi səs qazanan bolşeviklər "Müsavat" partiyasına ciddi şəkildə uduzmuşdu. "Müsavat"ın Azərbaycanın ərazi muxtariyyəti və siyasi hakimiyyət uğrunda inamlı mübarizəsi bolşevikləri ciddi narahat edirdi [2, s.174-177]. Buna görə də legitim yolla hakimiyyətə gələ bilməyəcəklərini yaxşı anlayan bolşeviklərə vətəndaş müharibəsi çox lazım idi.

1918-ci ilin martında Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak alyansının nəzarətində olan Bakı Soveti Azərbaycanın milli-demokratik qüvvələrinə qarşı əksinqilabi mübarizə şüarı altında buradakı milli-demokratik partiyalarının, ilk növbədə, sözügedən dövrdə daha çox nüfuza malik olan "Müsavat"ın sosial bazasını təşkil edən Azərbaycan əhalisini kütləvi şəkildə məhv etmək siyasətinə başladı [11, s.39].

Şaumyanı Azərbaycanda milli-demokratik qüvvələrin xalqı səfərbər edərək öz arxasınca apara bilməsi və mili dövlətçilik ənənələrimizin bərpası həddən artıq narahat edirdi. Belə ki, 1918-ci il martın 2-də Şaumyan Bakı Sovetinin iclasında çıxış edərək Tiflisdə fəaliyyət göstərən Zaqafqaziya

Seymini - əslində regionun anti-bolşevik siyasi sektorunu birləşdirən Cənubi Qafqaz parlamentini kəskin tənqid etdi. Şaumyanın əsas arqumenti ondan ibarət idi ki, bu qurum Azərbaycanın Rusiyadan ayrılmasına çalışan müsavatçıları dəstəkləyir. Şaumyan bildirirdi: "Zaqafqaziya demokratiyası öz maraqlarından çıxış edərək, regionun Rusiyadan ayrılmasına qəti etiraz etməli, bu irticaçı siyasətin icraçılarına qarşı əlində silah hazır olmalı və bu məsələdə aparıcı rol Bakı Sovetinə məxsus olmalıdır. Əgər biz əksinqilabçılara qarşı getməsək, o zaman onlar özləri bizə qarşı gələcəklər. Axı müsəlman millətçiləri Bakını Azərbaycanın paytaxtı etmək arzusunda idilər. Ona görə də bu irticaçılar ilk fürsətdə Bakı Sovetinin üzərinə hücuma keçəcəklər" [15, s.233].

Şaumyanın bu çıxışından onun Bakının tezliklə yeni yaranacaq müstəqil Azərbaycan dövlətinin paytaxtı olacağından ciddi narahatçılıq keçirməsi və yubanmadan geniş miqyaslı qırğın planını həyata keçirməyə tələsməsi aydın şəkildə görünür. Bunu Şaumyanın: "Əgər onlar Bakıda üstünlüyü əldə etsəydilər, o zaman şəhər Azərbaycanın paytaxtı elan olunacaqdı... Fürsətdən istifadə edib bütün cəbhə boyu hücuma keçdik, ...Artıq sərəncamımızda təxminən 6 min nəfərlik silahlı qüvvələrimiz var idi, "Daşnaksütyun"un da malik olduğu 3-4 minə yaxın milli hərbi hissələrdən ibarət silahlı qüvvələri də bizim ixtiyarımızda idi. Sonuncunun bu əməliyyatda iştirakı vətəndaş müharibəsinə bir qədər milli qırğın xarakteri verdi, lakin bundan qaçmaq üçün heç bir yolumuz yox idi. Biz qəsdən, şüurlu şəkildə buna getdik.", - deyə, söyləməsi bir daha sübut edir [15, s.246].

Ona görə də, sovet Rusiyası Stepan Şaumyana hər cür yardım etməyə çalışırdı. Bu yardımların içərisində hərbi yardım xüsusilə üstünlük təşkil edirdi: "Bolşeviklər 1918-ci ilin başlanğıcında hakimiyyətin dinc yolla ələ keçirmək mübarizəsindən silahlı mübarizəyə hazırlaşmaq taktikasına keçirlər" [14, s.137].

Sözügedən dövrdə Bakının türk-müsəlman əhalisinə qarşı soyqırımına ciddi hazırlaşan S.Şaumyan İosif Stalinə məktub yazaraq, Qafqaz Qırmızı ordusunun təşkili üçün təcili surətdə on milyon rubl göndərilməsini xahiş edirdi. Bolşeviklərin S.Şaumyana göndərdikləri ərzaq eşelonları bu dövrdə Şimali Qafqazda yaranmış Terek-Dağıstan müsəlman hökumətinin maneçilik törətməsi nəticəsində Bakıya yetişməsə də, ermənilər Moskvadan böyük mənəvi dəstək aldılar: "V.İ.Lenin İ.V.Stalinə göndərdiyi teleqramlardan birində yazırdı: Bakı haqqında ən mühüm cəhət odur ki, siz Şaumyanla daim əlaqə saxlayasınız" [5, s.103].

Öz növbəsində İ.V.Stalin Bakıya hərbi yüklərin göndərildiyi barədə teleqrafla xəbər verirdi: "Pul və taxıl gətirirlər. Yoldaşlar möhkəm durun, Bakıya yardım göstərmək üçün hökumət əlindən gələn hər şeyi edəcəkdir" [5, s.103].

S.Şaumyanın cinayətkar dəstəsinə kömək üçün "Bakıya Moskvadan zirehli maşın dəstəsi və Ukrayna cəbhəsindən Q.Petrovun komandası altında qoşun dəstəsi göndərildi. ...Bundan başqa, Xəzər hərbi donanmasına siyasi rəhbərliyi gücləndirmək üçün sovet hökuməti Fövqəladə hərbi komissar V.Poluxini Bakıya göndərdi. V.Poluxin 200 nəfərlik Baltik matrosundan ibarət bir dəstə ilə gəlmişdi" [5, s.103].

Qeyd etmək lazımdır ki, Lenin başda olmaqla Moskvanın bolşevik hökuməti Şaumyanın türk-müsəlman əhalisinə qatı nifrət bəsləməsi amilindən də məharətlə yararlanmışdı. Sovet dönəmində uzun illər 1918-ci ilin mart hadisələri və onun mahiyyəti geniş ictimaiyyətə təhrif olunmuş çatdırılmışdır. S.Şaumyanın Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirdiyi 1918-ci ilin mart soyqırımları guya Bakıda sovet hakimiyyətinin möhkəmlənməsi uğrunda mübarizə kimi qələmə verilmişdir. S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak qüvvələrinə mərkəz tərəfindən göstərilən sosial-siyasi, iqtisadi və hərbi dəstək isə, guya Azərbaycan zəhmətkeşlərinə göstərilən yardım və qayğı kimi qələmə verilmişdir: "...Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizənin həlledici dövründə sovet Rusiyasının Bakıya hər cür yardım göstərməsinin Azərbaycanda sosialist inqilabının taleyi üçün çox böyük əhəmiyyəti var idi. Buna görə də, Zaqafqaziyada cərəyan edən hadisələri diqqətlə izləyən və sosialist inqilabının müqəddəratı üçün həmin hadisələrin əhəmiyyətini nəzərə alan RSFSR Xalq Kommissarları Soveti şəxsən V.İ.Lenin düşmənə qarşı fədakarcasına vuruşan Bakı fəhlələrinə lazımi göstərişlər verir, hərbi və maddi yardım göstərmək və döyüş dəstələri göndərmək üçün tədbirlər görürdülər". Öz dövlətçiliyini və istiqlalını bərpa etməyə çalışan (Sovet tarixşünaslığının "qəddar düşmən" adlandırdığı – Ə.M.) Azərbaycan xalqına qarşı V.İ.Lenin hətta: "hələ 1918-ci ilin martında

Bakıya bir qoşun dəstəsi, iki təyyarə, üç zirehli avtomobil, 5 min tüfəng və s. göndərilməsi haqqında Moskva dairəsi hərbi komandanına göstəriş vermişdi" [3, s.231].

Sovet Rusiyasının Bakıya yardımı həm şimaldan – Həştərxan tərəfdən, həm də şərqdən – Daşkənd tərəfdən göstərilirdi. 1918-ci ilin aprelin 6-da neftlə dolu 7 gəmi ilə Həştərxana sonra isə, Moskvaya göndərilən Bakı Sovetinin nümayəndəsi S.Ter-Qabrielyan V.İ.Lenin tərəfindən qəbul olunmuşdu. Bakının ehtiyactları haqqında Ter-Qabrielyanın məlumatlarını diqqətlə dinlədikdən sonra: "Bakı bizim üçün hər şeydir və onu müdafiə edib saxlamaq lazımdır". "Hər şey Bakı üçün" çağırışı ilə çıxış edən Leninin tapşırığı ilə Bakıya 2 milyon patron, 35 pulemyot və döyüşçü dəstələri, o cümlədən IV Moskva inqilabi səyyar dəstəsi tezliklə yola salınmışdı [3, s.232-233].

Ümumiyyətlə, S.Şaumyanın başçılıq etdiyi bolşevik-daşnak qüvvələrinin Bakıda törətdiyi qətliam və talanlar sovet tarixşünaslığında sovet hökumətinin qələbəsi kimi qələmə verilirdi: "...Bakıda mart vuruşmaları nəticəsində düşmən tamamilə darmadağın edildi. Zaqafqaziya sovet hakimiyyəti uğrunda fəal silahlı mübarizə mərhələsinə daxil oldu. Qalibiyyətli mart döyüşlərindən sonra Bakı proletariatı Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda Zaqafqaziya əksinqilabına qarşı mübarizəni genişləndirdi" [3, s.231].

Leninin Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin etdiyi və ondan "amansız düşməni" darmadağın etmək üçün "xeyir-dua aldığı" S.Şaumyan məhz Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirdiyi 1918-ci ilin mart soyqırımlarında "Daşnaksütyun"un silahlı dəstələrindən məmnuniyyətlə yararlandı, başqa sözlə Daşnaksütyun "bolşeviklərin" əsas zərbə qüvvəsini təşkil etdi. Digər tərəfdən, S.Şaumyanın təşkilatçılığı ilə Birinci Dünya müharibəsi cəbhələrindən geri çəkilən erməni əsgər və zabitləri Bakıda cəmləşdirildi. Sonradan, 1918-ci il aprelin 19-da Bakı Sovetinin yığıncağında S.Şaumyan özü də bu həqiqəti etiraf edərək demişdir ki, Bakının milli tərkibi onu çox qorxudurmuş və o, erməni-daşnak alaylarının köməyindən heç cür imtina edə bilməzdi. Həqiqətən də o, Bakıda azərbaycanlılara qarşı törədilən mart soyqırımın əsas təşkilatçısı və icraçısı idi. Onun təşkil etdiyi "Qırmızı ordunun" tərkibi də, demək olar ki, tamamilə ermənilərdən ibarət idi [2, s.174-177].

S.Şaumyan nəinki ermənilər və bolşevikləri, həm də Xəzər hərbi dəniz donanmasının motroslarını türk-müsəlman əhaliyə qarşı soyqırımlara təhrik edirdi. Hücum üçün isə, bir bəhanə lazım idi. Belə bir bəhanə müsəlman diviziyasının Lənkəranda həlak olan silah yoldaşları, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsini "Evelina" gəmisi ilə Bakıya gətirən bir qrup zabit və əsgərinin Bakı Sovetinin hərbçiləri tərəfindən tərksilah edilməsi oldu. Müsəlman diviziyasının əsgər və zabitləri silahların geri qaytarılmasını tələb etsə də, nəticəsi olmadı [4, s.64]. S.Şaumyanla aparılan danışıqlar da uğursuz olduqdan sonra xalq küçələrə çıxıb silahların qaytarılmasını tələb etdi. Şaumyan dinc əhaliyə divan tutmaq haqqında əmr verdi. Martın 30-da axşam saat 5-də Bakıda ilk atəş açıldı. Qırğın başlananadək özlərinin bitərəfliyini elan etmiş "Daşnaksütyun" və Erməni Milli Şurası, o cümlədən erməni kilsəsi Bakı Sovetini müdafiə etdi. Nəinki silahlı erməni əsgərləri, habelə erməni ziyalıları da Bakı Soveti tərəfindən döyüşə qatıldılar. Şaumyan bu hadisə ilə bağlı olaraq yazırdı: "bizim süvari dəstəyə ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Bizim artıq 6 min nəfərə qədər silahlı qüvvəmiz var idi. Həmçinin "Daşnaksütyun"un 3-4 minə qədər milli hissələri var idi. Onlar da bizim sərəncamımızda idi. Daşnaksütyunun iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan yayınmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik". Soyqırımı xüsusi qəddarlıqla həyata keçirildi. Şəhər yerdən və havadan bombardman edildi. Dinc azərbaycanlı əhali diri-diri su və neft quyularına, yanar təndirlərə atılır, hamilə qadınların qarınları süngü ilə deşilir, körpə uşaqlar divarlara mıxlanır, qadınlar hörüklərilə bir-birinə bağlanaraq küçələrdə gəzdirilirdi. Silahlı dəstələr uşaqlara, qocalara və qadınlara rəhm etmirdilər. Adamlardan siyasi mənsubiyyət soruşulmurdu. Öldürmək üçün "türk, müsəlman" olmaq kifayət edirdi.

Bolşeviklər tərəfindən martın 31-də bütün mübarizəni öz üzərinə götürən inqilabi müdafiə Komitəsi yaradılır [14, s.140]. Bu komitənin tərkibinə P.Caparidze, Q.Korqanov, İ.Suxartsev, Stepan Şaumyan daxil idilər. Azərbaycan əhalisinə qarşı vuruşmada erməni milli hissələrindən istifadə etmək və sağ eserlərin və daşnakların arxasınca gedən rus və erməni fəhlələri Sovet hakimiyyəti tərəfindən mübarizəyə cəlb etmək üçün İnqilabi Müdafiə Komitəsi həmin partiyaların nümayəndələrini də dəvət etmişdilər. Yeni yaradılan erməni-bolşevik Komitəsi aprelin 1-də səhər tezdən piyada qüv-

vələri, eləcə də top və təyyarələrdən istifadə etməklə bütün qüvvələri ilə hücuma keçmişdi [14, s.141].

Martın 30-dan aprelin 2-nə qədər təkcə Bakı şəhərində 12 mindən artıq azərbaycanlı – qoca, uşaq, qadın öldürüldü. Onsuz da insanlıq simasını itirmiş erməni və rus əsgərlərini bu işə təhrik edirdilər. Müsəlman meyitlərinin yandırılması və iyrənc formada təhqir edilməsinin erməni ziyalıları və kilsə xadimləri tərəfindən törədildiyini təsdiq edən onlarca sənəd mövcuddur. Azərbaycan memarlığının ən gözəl binalardan biri olan "İsmailiyyə" yandırıldı. "Açıq söz" qəzetinin mətbəəsi yerlə-yeksan edildi. Əhalinin böyük əksəriyyəti canını qurtarmaq üçün Bakını tərk etdi. Bir hissəsi Orta Asiya və İrana üz tutdu, digər bir hissəsi isə təhlükəsiz yer axtarmaq üçün qaçqına çevrildi. Bakıdakı qırğından sonra menşevik qəzeti "Naş qolos" yazırdı: "Hər yerdə qıc olmuş eybəcər hala salınmış, yüzlərlə yandırılmış meyit var idi. Bəzi yerlərdə qalaq-qalaq, bəzi yerlərdə tək-tək. Şəhərin mərkəzindəki Təzəpir məscidinin yanında dəhşətli mənzərə var idi. Məscid top atəşindən ciddi ziyan çəkmişdi".

Sözügedən dövrdə Bakıda baş verən hadisələrin elmi-obyektiv müstəvidə düzgün öyrənilməsi, hadisələrə real qiymət verilməsi, o cümlədən xalqımızın başına gətirilən soyqırımların mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması baxımından Azərbaycan Xalq Cümhuriyyət hökumətinin yaratdığı və 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Fövqəladə Təhqiqat Komissiyasının topladığı materiallar əvəzedilməz əhəmiyyətə malikdir.

Həmin sənədlərdən məlum olur ki, yalnız Ramana 1918-ci ilin martında və sentyabrın əvvəllərində ermənilərin bir neçə dəfə hücumuna məruz qalmış, Bakının bu böyük və qədim kəndində ermənilər ailələri ilə birlikdə qaçmağa macal tapmayan bütün sakinləri məhv etmiş, evlərini dağıdaraq, daşı daş üstündə qoymamışlar. Bakının Balaxanı kəndinin sakinləri isə, ermənilərin Bakıda törətdikləri dəhşətləri eşidib elliklə evlərini qoyub yurdlarını tərk etmişdilər. Bakının demək olar ki, bütün kəndləri və oraya aparan yollar erməni quldurları tərəfindən nəzarətə alınmış, kəndi tərk edə bilməyənlərə divan tutulmuş, evləri qarət edilərək viran qoyulmuşdu. FTK sənədlərindən məlum olur ki, Bakının Maştağa, Buzovna, Pirşağı kimi silahlı sakinləri tərəfindən müdafiə olunan kəndləri digər ətraf kəndlərdən qaçıb gələn soydaşlarımız üçün hətta Bakıya 1918-ci ilin 15 sentyabrında Azərbaycan-türk ordusu daxil olduqdan sonra belə sığınacaq yeri olmuşdur [12, s.60-66].

FTK sənədlərindən məlum olur ki, Bakı azad olunduqdan sonra belə erməni silahlı dəstələri şəhərdə qarət, talan və yanğınları həm şəhərin özündə, həm də ətraf kəndlərdə davam etdirirdilər. Bakıda yerli sakinlərin evlərinə soxulan ermənilər uşaq, qadın, yaşlı, qoca demədən hamısını qətlə yetirirdilər. Məsələn, 80 yaşlı Hacı Əmir Əliyevin evinə soxulan erməni qatilləri onun 70 və 60 yaşlı iki həyat yoldaşını, üç övladını və 25 yaşlı gəlinini xüsusi qəddarlıqla qətlə yetirmişlər. Ermənilər Bakıda qətllər törədərkən müqəddəs dini binalara da, o cümlədən digər ictimai binalara böyük ziyan vurmuşdular. Belə ki, şəhərin müsəlman məhəllələrini, o cümlədən məscidlərini məqsədyönlü şəkildə bombardman edən erməni quldurları yaxşı bilirdilər ki, məscidlərdə çoxlu sayda qadın və uşaq gizlənib [12, s.94].

Ermənilərin Bakının müsəlman əhalisinə qarşı nifrətini Bakı sakini Ağahüseyn Tağıyevin FTK-ya verdiyi şahid ifadəsi də təsdiq edir. O, söyləyir ki, martın 30-da mən müsəlman xeyriyyə cəmiyyətinin binası İsmailiyyədə təşkil olunmuş müsəlman nümayəndələrinin yığıncağında iştirak edirdim. Bu zaman oraya Bakı şəhərinin rəisi Hayk Ter-Mikaelyan Erməni Milli Şurası ilə Daşnaksütyun partiyasının nümayəndələri ilə birgə yığıncağa daxil olaraq bildirdilər: "Əgər siz, müsəlmanlar bolşeviklərə qarşı çıxsanız onları Bakıdan qovmaq üçün erməni hərbi dəstələri də sizə qoşulacaq". Lakin, səhəri gün martın 31-də erməni əsgərləri müsəlman məhəllələrinə soxularaq əhalini öldürməyə və qarət etməyə başladılar. Həmin günü saat 4-də bolşevikləri müsəlmanlarla sülh bağlasa da, erməni əsgərləri şəhərin müsəlmanlar yaşayan hissələrinə hücumlarına, o cümlədən qətl, qarət və qırğınlara ara vermədilər.

Mən bu zaman şəhərin qala hissəsində, üzərimizə hücum edən ermənilərdən müdafiə olunmaq üçün camaatla birgə qazdığımız xəndəklərin yanında idim. Bu zaman İran konsulu dənizçi Natonsonla birgə qalaya, bizim yanımıza gəldilər. Belə bir şayiə yayılmışdı ki, guya biz qalada Mir Əli Nağı Hüseynovun evində gizlənən bütün erməni və xristianları qətlə yetirmişik. Biz onların hər ikisini 240 xristian kişi, qadın və uşağın, o cümlədən çoxlu ermənisinin yerləşdiyi Hüseynovun evinə gətirdik. Sonra, biz onları xristianların olduğu digər mənzillərə də apardıq. Orada qadın və kişilər göz

yaşları içərisində müsəlmanların onlarla yaxşı rəftar etdiyini, qayğılarına qalaraq çörək, düyü və su ilə təchiz etdiklərini bildirdilər. Qaladakılara oranı tərk etmək təklif edildikdə isə, onlar sona qədər müsəlmanlarla bir yerdə olacaqlarını və ancaq onlarla birgə tərk edəcəklərini bildirdilər. Öz növbəsində, xristianlar matroslara kişilərdən və qadınlardan ibarət nümayəndə heyəti göndərərək qalanın bombardman edilməsinin dayandırılmasını xahiş etdilər.

Xristianlarla yaxşı rəftar olunduğunu görən İran konsulu və Natonson qalanı tərk etdilər. Lakin, 3 saatdan sonra yenidən qalaya qayıdaraq telefonla Jorj Məlikov və doktor Ter-Zaxaryandan aldıqları məlumata görə elan etdilər ki, guya onlar buradan gedəndən sonra müsəlmanlar bütün xristianları qətlə yetirmişlər. Biz onlara yenidən Hüseynovun və xristianların olduğu digər mənzillərə apardıqdan sonra hər ikisi xristianların sağ-salamat olduğuna əmin oldular. Qaladan gedərkən Natanson qala qapıları ağzında ermənilərin hücumlarından qorunmaq məqsədilə 20 dənizçi yerləşdirdi" [12, s.93].

Bakı sakini Ağahüseyn Tağıyevin FTK-ya verdiyi şahid ifadəsi ermənilərin Bakıda törətdikləri soyqırımlarına son dərəcə ciddi və mütəşəkkil surətdə hazırlaşdıqlarını, o cümlədən qırğın, talan və qarətlərlə yanaşı erməni xislətinə xas olan yalan təbliğat mexanizmindən də məharətlə yararlana bilmək kimi fitri "istedada" malik olduqlarını aydın surətdə təsdiq edir. Belə ki, dənizçiləri Bakının müsəlman əhalisinə qarşı qoymaq üçün telefonla Natansona qızışdırıcı, yalan məlumatlar verən Jorj Məlikovu çox keçmədən Stepan Lalayevin yanında görürük. Ağahüseyn Tağıyev FTK-ya verdiyi şahid ifadəsində deyir: "Mən əli silahlı üzərimizə hücum edən erməni əsgərlərinin başında Stepan Lalayevi, Jorj Məlikovu, Dövlətovu, Xristofor Dildarovu və Ambartsun Məlikovu gördüm".

Şahid Ağahüseyn Tağıyev yuxarıda adı çəkilən canilərin Bakıda törətdiyi yanğınları da gözü ilə görüb: "Mən martın 20-də (yeni stillə aprelin 1-də - Ə.M.) qala qapıları və pilləkənlər tərəfdə müsəlman xeyriyyə cəmiyyətinin binası İsmailiyyənin yanında idim, Kaspi qəzetinin redaksiyası tərəfdəki döngədən Tatevos Əmirovun 3 silahlı erməni əsgəri ilə birgə İsmailiyyə binasına daxil olduğunu gözlərimlə gördüm. Tezliklə, binada alov dilimləri şölələndi və o yandı. Alov Nikolayev küçəsində həmin binaya əks istiqamətdə yerləşən Krasilnikov qardaşlarının binasına keçdi. Tezliklə, binanı söndürmək üçün yanğınsöndürənlər burada peyda oldular" [12, s.93-94].

Şahid Ağahüseyn Tağıyevin bu ifadəsi Bakı Sovetinin sədri S.Şaumyanın qərəzli mövqeyini müəyyənləşdirmək üçün son dərəcə böyük rol oynayır. Onun ifadəsindən bəlli olur ki, S.Şaumyan şəhərdə tüğyan edən qətl, qarət və qırğınların, o cümlədən hər yeri cənginə alaraq viran qoyan yanğınların qarşısını almağa nəinki mane olmuş, əksinə özü bu hadisələrə rəvac vermişdi.

Qeyd etmək lazımdır ki, xalqımıza qatı nifrət bəsləyən, daşnak Tatevos Əmirovun Şamaxıya göndərilən quldur dəstələrinə rəhbər təyin olunmasını tarixi sənədlər də təsdiq edir. Belə ki, Bakı Sovetinin 1918-ci il 12 iyun saylı xəbərlərində daşnak partiyasının tanınmış liderlərindən biri Zarafyanın Şaumyana: "Əmirovu qoşuna başçı siz təyin etmisiniz".

Ümumiyyətlə, T.Əmirov, S.Lalayev, Z.Avestisyan və A.Əmiryanın başçılıq etdiyi erməni quldur dəstələri Şamaxıda təxminən 14 mindən 16 minə qədər insanı qətlə yetirmişdilər. Şamaxı şəhəri, habelə onun kəndlərindən 18 min nəfərdən çox insan öz yurd-yuvalarından didərgin düşmüşdü. Sənədlərlə Şamaxı qəzasında çoxlu sayda kəndin yerlə-yeksan edildiyi və yandırıldığı haqqında məlumat verilir: "1918-ci il soyqırımı zamanı Şamaxı qəzasının 90-a yaxın, rayonun isə 40-dan artıq kənd və obası faciəyə məruz qalmışdır" [9, s.20].

Bakıdakı qanlı qırğınlardan sonra Stepan Şaumyan və Avakyan Azərbaycanın digər bölgələrini də qan içində boğmaq üçün Amazaspın komandanlığı altında böyük bir dəstənin Qubaya, Lalayevin komandanlığı altında isə digər bir qoşun birləşməsinin Şamaxıya hücum etməsi barədə əmr verdilər. Şamaxıya istiqamətlənən erməni quldur dəstələrinin dinc əhali üzərinə hər cür silahalanaraq yeriməsi arxiv sənədlərində də öz əksini tapıb: "Martın birinci yarısında Şamaxıdan məlumat alındı ki, Bakıdan Şamaxıya top, pulemyot və böyük miqdarda hərbi sursatla iki mindən üç minədək erməni qoşun dəstəsi gəlir" [6, s.19].

Şamaxı soyqırımları. Şamaxıdakı soyqırımın həyata keçirilməsində "xüsusi rolu olan" S.Lalayev əvvəlcədən öz mülkünün zirzəmisini silah-sursatla doldurmuşdu. Oradan şəhərin müsəlman məhəllələri əl içi kimi görünürdü. Həmin yerdən atılan top düz Cümə məscidinin həyətinə vururdu. Mədrəsə tərəfdən atılan topların vahiməsindən pərən-pərən olan əhali küçələrə axışırdı, başlarını itirmiş insanlar nə edəcəklərini bilmirdilər. Lalayevin evindəki pulemyotlardan atılan güllələr insan-

ları yerindəcə məhv edirdi. Namərd düşmənin heç kəsə qadına, qocaya, uşağa belə rəhmi gəlmirdi. Şəhərdə soyqırımı həyata keçirən S.Lalayev azərbaycanlıları qanına qəltan edəndə "uf" da demirdi. Şamaxının azərbaycanlılar məhəllələrində cəsəd əlindən yerimək mümkün deyildi [6, s.23].

Arxiv sənədlərində S.Lalayevin başçılığı altında erməni silahlı dəstələrinin vəhşilikləri haqqında qeyd olunur: "Şamaxı əhalisinin təhlükəsizliyini qoruya biləcək bir silahlı dəstə belə yox idi. Əhalinin bir hissəsi qorxusundan meşələrin dərinliklərinə çəkilmiş, qalanları isə, Allah evi olan məscidlərdə sığınacaq tapmışdı. Daşnaklar şəhərdə bütün kişiləri qılıncdan keçirdilər. ...Şamaxı məscidlərini mühasirəyə alan vəhşi Lalayevin dəstəsi həmin müqəddəs səcdəgahları içəridə sığınacaq tapmış şəhər sakinləri ilə birgə yandırıb külə döndərdilər. Şamaxı özü boyda nəhəng bir tonqala bənzəyirdi" [6, s.23].

Şamaxıda qırğına rəhbərlik edən S. Lalayevin qəddarlığı o həddə çatmışdır ki, bu, hətta onun silahdaşı olan İ. Boqomolovun da narazılığma səbəb olmuşdu. İ.Boqomolovun A.Caparidzenin adına göndərdiyi müraciətdə deyilirdi: "Bir daha sizdən xahiş edirəm ki, cəllad Lalayevi həbs edəsiniz. O, çoxlu sayda qadın və uşaq öldürmüş, evləri qarət etmişdir. Əmirov onu, həbs etmək istədikdə, qaçıb gizlənmişdir. Hamı təsdiq edir ki, o, məscidi yandırmış və orada çoxlu qadın qətlə yetirmişdi" [6, s.15-16].

1918-ci ildə Şamaxıda ermənilər tərəfindən həyata keçirilən soyqırımın nə dərəcə dəhşətli olduğunu şahid ifadələri aşkar şəkildə təsdiq edir. Ümumiyyətlə, sözügedən hadisələrlə bağlı şahid ifadələri hadisələri son dərəcə real və qərəzsiz təsvir edir. Belə ki, FTK müstəntiqlərinin hadisələri öz gözləri ilə görən necə deyərlər qətliam, talan və işgəncələrin bütün ağırlığını çiyinlərində daşıyan şahidlərlə cinayətin izini isti-isti araşdırmaq məqsədilə apardıqları sorğular baş verən olayları ən xırda təfərrüatları ilə əks etdirir. Digər tərəfdən, baş verənlərlə bağlı çoxsaylı şahid ifadələrində oxşar məqamların qanunauyğun bir şəkildə tez-tez təkrarlanması bir daha sözügedən soyqırımların obyektiv mənzərəsini rekonstruksiya etməyə əlverişli zəmin yaradır. Məsələn, Şamaxı şəhər sakini Siracəddin Əfəndiyev FTK-ya verdiyi ifadəsində şahidi olduğu hadisələr haqqında danışarkən: "Mən və yoldaşlarım şəhərdə əşyalarla birgə tərk edilmiş faytona minib çətinliklə xilas olduq. Bu zaman şəhərdə bir neçə dəfə ermənilər tərəfindən öldürülən müsəlmanların meyitlərini görməli olduq. Bir yerdə dəhşətli mənzərəni xatırlayıram: kişi və qadın meyitlərinin yanında ikiyə bölünmüş 3-4 yaşlı uşaq var idi. Onun təsvirini ömrüm boyu unutmayacağam və indi də bəzən yuxuda görürəm" – deyə, söyləyir [13, s.299-301].

Şamaxı soyqırımının şahidi olmuş Mirzə Məhəmmədin qardaşı oğlu 80 yaşlı ağsaqqal Hacı Əli Ağa əmisindən həmin qanlı hadisələrlə bağlı eşitdiklərini belə xatırlayır: "Əmim Mirzə Məhəmmədin danışdığı bir əhvalatı indi də unuda bilmirəm. Ermənilər bir neçə tərəfdən şəhəri top atəşinə tutmağa başladılar. Bu atəşlər şəhərin mərkəzinə o qədər də ziyan vurmurdu. Camaatı yaman günə qoyan Lalayevlərin mülkündə yerləşdirilmiş silahlı dəstələr idi. Lalayevlərin mülkündən atılan pulemyotun güllələri, top mərmiləri, düz Cümə məscidinə tuşlanmışdı. Belə anda insanlar ancaq Allah evinə - məscidə pənah aparırdı. Həmin yolu da Lalayevlərin sərrast atıcıları kəsmişdilər. Qucağı uşaqlı qadınlar məscidə çata-çatda dağın üstündəki daşnaklar o dəqiqə güllə ilə vururdular. Uşaq ananın qucağından yerə düşürdü. Ananın ölümü ilə ürəkləri soyumayan quldurlar oradan uşaqları da nişan alırdılar. Pulemyot gülləsi körpənin cəsədini parça-parça edib göyə sovururdu" [6, s.23].

Şahid ifadələri təsdiq edir ki, erməni quldurları şəhərdə nəinki qanlı qətliamlar, həm də geniş şəkildə qarət və talanlar həyata keçirmişdilər. Sözügedən hadisələr zamanı Şamaxıda yaşayan milliyyətcə gürcü Vissarion Davidoviç Sulava öz şahid ifadəsində söyləyir: "Şamaxıda mənim şəxsi aptekim, mineral su zavodum və beş otaqlı yaxşı təmirli mənzilim var idi. Bütün bunlar talan edildi və yandırıldı. Ermənilər və molokanlar aptekdən bütün sarğıları və dərmanları apardılar. Bu, qəza həkimi Sazonova da məlumdur. ...Mənim bütün talan və yandırılmış əmlakım 546.860 rubl dəyərində idi. Həyat yoldaşım Nadejda Justinovnanın da Şamaxıda aptek var idi; bu aptek də yanıb kül olub. O, 332.300 rubl zərər görüb" [13, s.330]. Yaxud, İvan Petroviç Afanasyevski: "Əmlakımın olduğu və ailəmin yaşadığı ev ermənilər tərəfindən yandırılıb. ...Ümumilikdə, 38.387 rubl zərər çəkmişəm və bu məbləğin mənə qaytarılmasını xahiş edirəm" – deyə, öz ifadəsində söyləyirdi [13, s.330].

Şamaxıda ermənilərin törətdikləri vəhşiliklər o qədər dəhşətli olmuşdu ki, hətta nə qədər çalışsalar da o dövrdəki bolşevik mətbuatı da bu faciəyə öz münasibətini gizlədə bilməmişdi. Lakin, onlar

müsəlman əhaliyə qarşı edilən bu vəhşiliklərə "dinc əhaliyə qarşı da bəzi haqsızlıqlar törədildi" kimi loyal münasibət bəsləməklə kifayətlənmişlər [9, s.16].

Quba soyqırımları. 1918-ci ilin yazında Bakıda və Şamaxıdakı qanlı soyqırımlardan sonra sonra bolşevik-daşnak qüvvələri ilk öncə David Gelovanini Quba qəzasına göndərdilər. Bu zaman Quba sakinləri, Bakıda və Şamaxıda baş vermiş talan, qətl və qırğınlardan, şəhər və kəndlərin türk-müsəlman əhalisinə qarşı erməni daşnakları tərəfindən törədilmiş amansız zorakılıqlardan xəbərdar idilər. D.Gelovani Quba əhalisinə sovet hakimiyyətini tanımaq və ona tabe olmaq haqqında ultimatum elan etdi. Ultimatum qəbul edilməyəcəyi təqdirdə, artıq bütün şəhəri təhlükə gözləyirdi. Çünki, "imtina edildiyi halda şəhər yerlə yeksan ediləcəkdi".

Bakı və Şamaxı qırğınlarından kifayət qədər xəbərdar olan və düşünməyə cəmi 2 saat vaxt verilmiş Quba əhalisinin ultimatuma necə cavab verəcəyi artıq bəlli idi. Beləliklə, qubalılar ultimatumu qəbul edirdilər və 8 gün sovet hakimiyyəti altında yaşayırlar. Bu hadisə dərhal Bakıdakı bolşevik qəzetlərində əks olunur və göstərilir ki, aprelin 23-də Qubada, şəhər meydanında "təntənəli surətdə" sovet hakimiyyəti elan olunmuş və "zəhmətkeşlər bu hadisəni böyük ruh yüksəkliyi ilə qeyd etmişlər" («Известия Бакинского Совета» qəzeti, № 77, 26 aprel, 1918-ci il).

Bu hadisələrlə bağlı, Quba sakini Hacı Hidayət Musa oğlu Fövqəladə Təhqiqat Komissiyasına 1918-ci ilin 12 dekabrında verdiyi şahid ifadəsində deyirdi: "Bu il yazın əvvəlində, ...Xaçmaz stansiyasına bolşeviklərin dəstəsi gəldi. Biz onların yanına öz nümayəndələrimizi göndərdik ki, gəlişlərinin məqsədini öyrənək. ...İki gündən sonra gürcü Gelovaninin başçılıq etdiyi dəstədən bir neçə nəfər gəldi. Gelovani bizə bolşeviklərin hakimiyyətini tanımaq üçün ultimatum və cavab üçün 2 saat vaxt verdi. Biz 24 saat istəyirdik ki, razılığa gələ bilək. Amma rədd cavabı aldıq. Onda biz bildirdik ki, itaət edirik və yalnız bir xahişimiz var: ermənilər şəhərə buraxılmasın, çünki bilirdik ki, onlar bütün müsəlmanları qırmağı və öldürməyi qərara alıblar. Gelovani söz verdi, lakin sözünün üstündə durmadı. İki gündən sonra çoxu ermənilərdən ibarət bolşevik dəstəsi şəhərə daxil oldu. Ermənilər bir neçə adamı öldürdülər və hakimiyyəti öz əllərinə aldılar. ...Bir həftədən sonra, əksəriyyətini ermənilər təşkil edən 3000-ə yaxın, bolşeviklər yenidən qayıtdılar və şəhəri müqavimətsiz tutdular, çünki ləzgilər artıq getmişdilər. Elə birinci gün ermənilər 1500-ə qədər kişi, qadın və uşaq öldürmüşdülər" [8, s.156].

Qubada sovet hakimiyyətinin 9-cu günü qəzanın əsasən yerli sakinlərindən ibarət silahlı dəstələrin hücumu başlayır. Gelovaniyə kömək etmək məqsədilə Xaçmazdan "2 topla birlikdə Ağacanyanın rəhbərlik etdiyi və yalnız ermənilərdən ibarət olan 150 nəfərlik" hərbi dəstək gəldi [1]. Ümumilikdə, bolşevik erməni silahlı dəstələrinə qarşı üç gün davam edən şiddətli döyüşlərdən sonra yerli dəstələr bolşeviklərin ilk "komandasını" Qubadan qovub çıxara bilirlər [8, s.62]. Qeyd etmək lazımdır ki, həmin ağır günlərdə Quba qəzası cəmiyyətinin görkəmli xadimləri – Əli bəy Zizikski, Həmdulla Əfəndi Əfəndizadə, Əliabbas bəy Əlibəyov, Şıxlar bəylərindən – Mürsəl bəy və İbrahim bəy, Möhübəli Əfəndi Kuzunlu, Hətəm ağa Cağarvi, Bəybala bəy Alpanlı və digərləri xüsusi süvari bölmələr yaradaraq Quba qəzasının müdafiəsini təşkil etmişdilər.

Amazaspın məqsədi yeni hakimiyyətin qurulması deyil, sırf cəza missiyasını yerinə yetirdiyi qəza sakinlərində heç bir şübhə doğurmurdu. Amazasp şəxsən özü qubalıları Cümə məscidinin qarşısındakı meydana toplayaraq onlara təxminən aşağıdakı məzmunda nitqlə müraciət etmişdir: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni xalqının qəhrəmanıyam və onun mənafelərinin müdafiəçisiyəm… Mən buraya qayda-qanun yaratmağa və sovet hakimiyyəti qurmağa yox, sizdən qisas almağa göndərilmişəm. ...Xəzər dənizindən Şahdağa qədər bütün müsəlmanların nəslini kəsəcəm" [11, s. 65].

Quba şəhər sakini Şükür Turab oğlu FTK-ya verdiyi şahid ifadəsində Amazaspın quldur dəstələrinin həyata keçirdikləri cinayətləri belə xatırlayır: "Amazaspın dəstəsinin Quba şəhərinə gəlişi bizim üçün gözlənilməz oldu. Bir gün şəhərin hər tərəfindən güllə səsləri eşidilməyə başladı və elə bu zaman çoxlu sayda qoşun dəstələri şəhərə soxuldular. ...Şəhərdə qətllər və qarətlər baş verirdi. Mən şəxsən qətl və qarətləri görməmişəm, amma çoxlu sayda kişi, qadın və uşaq meyitləri görmüşəm. Bir çox meyitlər xəncərlərlə eybəcər hala salınmışdı" [8, s. 173].

Quba şəhəri və Quba qəzasının kəndlərində törədilmiş zorakılıq halları Fövqəladə Təhqiqat Komissiyasının istintaq materiallarına əsasən 3 cilddə 451 vərəqdən ibarət sənədlər toplusunda əks

etdirilmişdir. Belə ki, 1918-ci ilin aprel-may aylarında Hamazaspın dəstələri tərəfindən Quba qəzasında 167 kənd yandırılmış və talan edilmiş, Quba qəzası üzrə öldürülən insanların sayı 16 min nəfərə yaxın, əhaliyə dəyən maddi ziyanın miqdarı isə 121 824 819 rubldan çox təşkil etmişdir [8, s.117]. Amazaspın dəstəsi tərəfindən qəzanın mərkəzi Quba şəhərindən Xaçmaz dəmiryolu vağzalına arabalar vasitəsilə talan edilmiş çoxlu sayda müxtəlif əşyalar daşınmışdır. Bolşevik və daşnak Şaumyanın rəhbəri olduğu Bakı Sovetinin əsasən ermənilərdən ibarət və daşnak Amazaspın komandanlığı altında olan quldur dəstələrinin Qubada törətdikləri vəhşiliklər vətəndaş müharibəsi və ya Sovet hakimiyyətinin qurulması deyil, bütöv bir xalqın kütləvi şəkildə məhv edilməsi, soyqırım aktı idi.

Qubada erməni-bolşevik dəstələri tərəfindən həyata keçirilən soyqırım dəhşətlərini, qətl, qırğın və talanları şahid ifadələrindən də müşahidə etmək olar. Məsələn, Quba şəhər sakini Məşədi Hüseyn Qulu Sultanov şahidi olduğu hadisələri belə xatırlayır: "Ermənilərin Quba şəhərinə hücumu zamanı mən meşəyə qaçmışdım və orada bir neçə gün, onlar gedənədək gizlənirdim. Şəhərə qayıtdıqdan sonra öz evimi, anbar və dükanlarımı, mallarla bir yerdə, yandırılmış gördüm. Mənim evimdən başqa şəhərin ən yaxşı evləri də yandırılmışdı. Mən hələ də yığışdırılmamış kişi, qadın, qız, uşaq cəsədləri gördüm. Bəzilərinin cəsədi eybəcər hala salınmışdı: onların ayaqları, əlləri kəsilmiş, bədənləri xəncərlə doğranmış və süngü ilə deşilmişdi. Müsəlmanların ermənilər tərəfindən bu cür vəhşiliklə və kütləvi şəkildə öldürülməsinin səbəblərini mən izah edə bilmirəm. ...Ermənilər mənə rublun indiki məzənnəsi ilə milyon yarıma qədər ziyan vurublar" [8, s.162].

Xatırladaq ki, Qubadakı soyqırım tarixə ən dəhşətli qırğınlardan biri kimi düşüb. 1918-ci ildə işğalçı erməni-bolşevik qoşunları Quba qəzasında 167 kəndi dağıtmış, bunlardan 27-ni əhalisi ilə birlikdə yandırmış, 16 mindən çox müsəlmanı qətlə yetirmişdir. 1918-ci ildə ermənilərin bu ərazilərdə törətdiyi soyqırım cinayətlərinin ən bariz nümunəsi bugünkü Quba məzarlığıdır. Erməni-bolşevik silahlı dəstələrinin bir əsr əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 18 yanvar 2018-ci ildə imzaladığı "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncamda deyilir: "Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir" [7, s.3-4].

Nəticə. Tarix boyunca öz əlverişli geostrateji mövqeyinə, yeraltı və yerüstü sərvətlərinə görə Azərbaycan Cənubi Qafqazda mühüm yer tutmuş, lakin müxtəlif dövrlərdə regionda baş verən bir sıra dramatik hadisələr, xüsusilə də erməni fitnəkarlığı Azərbaycan xalqının faciəvi hadisələrlə üzləşməsinə səbəb olmuşdur. 1917-ci ilin fevral inqilabı bütün imperiya ərasində, eləcə də Cənubi Qafqaz ərazisində böyük çaxnaşmalara səbəb olmuş, imperiyanın hər yerini siyasi çəkişmələr, qarşıdurmalar bürümüşdü. Məhz bu səbəbdən, Cənubi Qafqazın ən mühüm siyasi-iqtisadi mərkəzi hesab olunan Bakıda da siyasi hakimiyyət uğrunda müxtəlif siyasi təşkilatlar arasında mübarizə başlamışdı. Belə bir tarixi "fürsətdən" yararlanmaq qərarına gələn erməni millətçiləri, daşnaklar öz mənfur məqsədlərinə çatmaq üçün 1918-ci ilin martından başlayaraq əvvəlcə Bakıda, daha sonra isə Şamaxı, Quba və Azərbaycanın digər bölgələrində xalqımıza qarşı qanlı cinayətlər – qətl, qırğın və talanlar həyata keçirmişdilər. Hesab edirəm ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında müzəffər Azərbaycan ordusunun erməni ordusu üzərində qazandığı parlaq qələbə həm də 1918-ci ildə ermənilər tərəfindən soyqırıma məruz qalan, haqsız yerə qətlə yetirilən on minlərlə soydaşlarımızın intiqamının alınması idi!

ƏDƏBİYYAT

1. ARDA, f. 1061, siy. 1, iş 96, vər. 41.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild, Bakı, Lider nəşriyyat, 2005,
3. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, Azərnəşr, 1970, 525 s.
4. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, Elm və təhsil, 2012, 228 s.
5. Qazıyev M. Məşədi Əzizbəyov. Bakı, Gənclik, 1976, 127 s.

6. Qəniyev S. 1918-ci il Şamaxı soyqırımı. Bakı, Nurlan, 2003, 152 s.
7. Mart soyqırımı – 100. Bakı, 2018, 56 s.
8. Rüstəmova-Tohidi S. Quba. Aprel-May 1918-ci il. Müsəlman qırğınları sənədlərdə. Bakı, 2013, 316 s.
9. Zülfüqarlı M. Şamaxı soyqırımı 1918. Bakı, 2011, 78 s.
10. Азербайджанская Демократическая Республика (1918-1920). /Гос. Ком. проведению 80-й годовщины АДР Ин-т истории АН Азербайджана им. А.А.Бакыханова. Баку: Элм, 1998, 306 с.
11. Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи. Баку, ИПО «Турхан», 2013, 272 с.
12. Рустамова-Тогиди С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку, Индиго-пресс, 2009, 864 с.
13. Рустамова-Тогиди С. Шемаха. Март-Июль 1918 г. Азербайджанские погромы в документах. Баку, "Qismet", 2013, 880 с.
14. Сеф С.Е. Борьба за Октябрь в Закавказье. Тбилиси, ЗакКнига, 1932, 162с.
15. Шаумян С.Г. Избранные произведения в двух томах. Т.2. Москва, Политздат, 1978, 463 с.

АСМЕД МУХТАРОВА
Профессор Бакинского Государственного Университета

МАРТОВСКИЙ ГЕНОЦИД 1918 ГОДА ПРОТИВ АЗЕРБАЙДЖАНСКОГО НАРОДА КАК НЕЗАБЫВАЕМАЯ СТРАНИЦА НАШЕЙ ИСТОРИИ...

На разных этапах истории армянские националисты, пытавшиеся осуществить мечту о «Великой Армении», совершали акты этнической чистки и геноцида против нашего народа. Для достижения своих гнусных намерений они впервые осуществили кровавые действия против азербайджанцев в 1905-1906 годах и убили многих наших соотечественников. Весной 1918 года массовые убийства, погромы и грабежи с особой жестокостью совершались дашнако-большевистскими вооруженными отрядами в Баку и других районах Азербайджана. В те дни были убиты десятки тысяч мирных жителей, разрушены и сожжены многие населенные пункты, материальные и культурные памятники, мечети и т.д.

Указом «О геноциде азербайджанцев» от 26 марта 1998 года общенациональный лидер Гейдар Алиев впервые дал политико-правовую оценку актам геноцида, совершенным армянами против азербайджанцев. 31 марта было объявлено «Днем Геноцида азербайджанцев». Как сказано в указе: «После обретения независимости Азербайджанская Республика имеет возможность создать объективную картину исторического прошлого нашего народа. Раскрываются истины, которые многие годы держались в секрете, и искаженные события обретают свою истинную ценность».

Ключевые слова: геноцид, армянский фашизм, большевистско-дашнакский альянс, Бакинский Совет, Чрезвычайная следственная комиссия.

ASMED MUKHTAROVA
Professor of Baku State University

THE MARCH GENOCIDE OF 1918 AGAINST THE AZERBAIJANI PEOPLE AS AN UNFORGETTABLE PAGE OF OUR HISTORY...

At different stages of history, Armenian nationalists, who tried to fulfill the dream of a "Great Armenia", committed acts of ethnic cleansing and genocide against our people. To achieve their vile intentions, they first carried out bloody actions against Azerbaijanis in 1905-1906 and killed many of our compatriots. In the spring of 1918, mass murders, pogroms and robberies were carried out with particular cruelty by the Dashnak-Bolshevik armed detachments in Baku and other regions of

Azerbaijan. In those days, tens of thousands of civilians were killed, many settlements, material and cultural monuments, mosques, etc. were destroyed and burned.

By the Decree "On the Genocide of Azerbaijanis" dated March 26, 1998, national leader Heydar Aliyev for the first time gave a political and legal assessment of the acts of genocide committed by Armenians against Azerbaijanis. March 31 was declared the "Azerbaijani Genocide Day". As stated in the decree: "After gaining independence, the Republic of Azerbaijan has the opportunity to create an objective picture of the historical past of our people. Truths that have been kept secret for many years are revealed, and distorted events take on their true value".

Keywords: genocide, Armenian fascism, Bolshevik-Dashnak alliance, Baku Soviet, Extraordinary Commission of Inquiry.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24); UOT 94

ZEMFİRA HACIYEVA
T.ü.e.d., dosent,
AMEA RH Elmi İrs şöbəsinin müdiri
zemfira.hajiyeva@outlook.com

İnsanlığa qarşı amansız terror

XX ƏSRİN ƏVVƏLİNDƏ ERMƏNİLƏRİN CƏNUBİ QAFQAZDA ƏRAZİ İDDİALARNIN QANLI NƏTİCƏLƏRİ

"Xalqı hər zaman mənəviyyat birləşdirir,
çünki digər dəyərlərlə müqayisədə mənəvi dəyərlər hər şeydən üstündür".
Heydər Əliyev

20-ci əsrin əvvəllərində Romanovlar Rusiyasının həyata keçirdiyi cinayətkar milli müstəmləkə siyasəti nəticəsində yaranmış vəziyyətdən istifadə edən erməni daşnakları əzəli Azərbaycan torpaqlarında, Azərbaycan türklərinin sahibi olduqları torpaqlarından təmizləmək məqsədilə daha bir cinayət əməli törətdilər. Bakıda, Şuşada, Zəngəzurda, İrəvanda, Naxçıvanda, Gəncədə, Azərbaycan kəndlərində və bölgələrində 1905-1906-cı illərdə erməni barbarları tərəfindən həyata keçirilən kütləvi qırğın və genişmiqyaslı talanlar nəticəsində minlərlə azərbaycanlı öldürülmüş, yüzlərlə Azərbaycan kəndi talan edilərək yerlə-yeksan edilmişdir.

Açar sözlər: Cənubi Qafqaz, Azərbaycan, soyqırım, çar Rusiyası.

Giriş. Azərbaycanın, bu qədim bölgənin mədəni-siyasi mübarizələrin mərkəzində qərar tutması onun enişli-yoxuşlu tarixindən xəbər verir. Müxtəlif xalqların və millətlərin bu bölgədə özünə məxsus rəngarəng çalarlı nişanələri var. Urartunun daşüstü sələnmələri, atəşkahlar, çox qədim məscidlər və kilsələrin varlığı bu ərazilərdə hansı dəyişikliklərin, təcavüzlərin, qanlı soyqırımların baş verdiyini, bu faciələrə sinə gərmiş səbirli insanlarının arxada qoyduğu ən ağır və canüzücü mərhələlərinin olduğunu sübut edir.

Soyqırım (yunancadan **genos** nəsl, qəbilə və latınca caedo öldürürəm), etnik, irqi, dini və ya milli qrupun düşünülmüş sistematik şəkildə tam və ya qismən məhv edilməsi deməkdir və azərbaycanlılar öz dogma vətənlərində bu dəhşətli soyqırıma dəfələrlə məruz qalıblar.

Müharibə bəşəriyyətin ən nalayiq amansız xəstəliyidirsə, soyqırım müharibələrin kökündə dayanan qorxunc fəlakətdir. Tarixin qaranlığına gömülmüş utancverici qanlı səhifələr zaman keçdikcə araşdırılır və tədqiqatlar nəticəsində üzə çıxır. Bu faciələrin sırasında 30 il bundan öncə erməni faşistləri tərəfindən törədilmiş XX əsrin ən qəddar qətliamı Xocalı soyqırımıdır.

Azərbaycan türklərinin üzləşdiyi amansız dəhşətli Xocalı faciəsi Holokost – yəhudi soyqırımı, Xatın – Belarusiya, **Oradur-sür-Qlan qətliamı** – Fransanın Cənub-Qərbində 1944-cü ildə Limoj (Limuzen) məntəqəsində SS "Reyx" diviziyasının dinc sakinləri vəhşicəsinə qətl etməsi 78 il sonra erməni faşistləri tərəfindən Xocalıda təkrarlanan qətliamı xatırladır. Bu oxşar soyqırımlar alman və erməni faşistlərinin insanlığa qarşı amansız terrorudur. Alman faşistlərinin kiçik iyrənc qolu olan erməni faşizmi nəinki türk xalqlarına, həmçinin onlarla həmfikir olmayan dünya xalqlarına qarşıdır.

Rusiya İmperiyasının müstəmləkəçilik siyasəti azərbaycan-erməni xalqları arasında etnik qarşıdurmaların yaranmasında müstəsna rol oynadı. Çar hökuməti azərbaycanlıların Çar Rusiyasının müstəmləkə hakimiyyətindən narazılığını, həmçinin ermənilərin etnik düşmənçiliyə yönəlmiş qiyamçı hərəkətlərini dəstəkləyərək hər iki tərəfi oyuna çəkdi deyə bilərik, ancaq tarixi mənbələrə müraciət etdikdə ermənilərin Rusiyanı belə öz oyunlarına çəkdiklərinin şahidi oluruq.

İki əsr boyunca Azərbaycan xalqı dəfələrlə ermənilər tərəfindən törədilən qanlı qətliamlara məruz qalmış, zaman-zaman yerli əhali öz dədə-baba yurdundan məcburi sürgün edilmişdi. Rus İmperiyası və İran arasında bağlanmış Gülüstan (1813), Türkmənçay (1828) müqavilələri, daha sonra Rusi-

ya və Osmanlı İmperiyası arasında Edirne (1829) sazişinə əsasən Şimali Azərbaycan Rusiyanın tərkibinə daxil edildi. Bunun ardınca yerli azərbaycan xanlıqlarının, həmçinin Rusiya İmperiyasının Qafqaz sərdarlığına daxil olan gürcü çarlığının ləğv edilmə prossesi başlandı.

İrəvan, qismən Naxçıvan xanlıqları ərazisində Rusiya çarının 21 mart 1828-ci il fərmanına əsasən müsəlmanlara məxsus əraziləri xristianlaşdırmaq məqsədi ilə "Erməni vilayəti", xristianların [1] xanədan nüfuzunu qaldırmaq, tabe olmayan əcnəbi, etnik və dini cəhətdən yad mühitdə rusiya imperiyasına etibarlı dayaq mərkəzi yaradıldı.

Bu məqsədlərin reallaşması üçün Rusiya İmperiyası XIX əsrin ilk üçilliyində Türkiyə və İranda yaşayan ermənilərin Şimali Azərbaycana kütləvi köçürülmə prossesini başlatdı. Nəticədə XIX əsrin ilk üçilliyində regionda 51300 erməni var idisə (bu da əhalinin 9.4% təşkil edirdi), 1916-cı ildə bu rəgəm 1 208 615 nəfərə gədər artaraq əhalinin 33%-ni təşkil etdi [2].

N.Şavrovun ermənlərin kütləvi şəkildə azərbaycan ərazilərinə yerləşdirilməsi haqqında növbəti statistik məlumatlarına əsasən 1828-ci ildən 1830-cu ilə qədər Cənubi Azərbaycana İrandan 40 min, Osmanlı İmperiyasından isə 84 min erməni köçürülmüşdü. XIX əsrin axırlarına bu göstəricilər yuxarıya doğru yüksəldi [3, 63-64].

Rusiya hökuməti müsəlman ərazilərində öz nüfuzunu gücləndirmək üçün ermənilərdən istifadə etdi. Birinci Pyotorun hakimiyyəti dövründən ermənilər Rusiyanın İran və Türkiyəyə qarşı geostrateji planının etibarlı dayaq nöqtəsi hesab edilirdi.

1905-1906-cı illər soyqırım hadisələrinin şahidi Luidji Villari "Romanovun hiyləgər niyyətini" birmənalı vurğulayaraq onun siyasətinin Yaxın və Orta Şərq ərazilərinə Türkiyədən və İrandan köçürülmüş əhalidən faydalı alət kimi istifadə edəcəyini təsdiqləyir. Ermənilərə rus ordusunda, dövlət idarələrində yüksək hərbi rütbələr, həmçinin imperiyanın müxtəlif sahələrində kommersiya müstəmləkələri həvalə edilmişdi. Birinci Pyotrın məsləkdaşlarının oxşar siyasəti davam etdirmələri nəticəsində erməni immiqrantların sayı artmaqda davam edirdi [4, 145].

Polyak əsilli Amerika tarixçisi, qafqazşünas alim Tadeuş Svetoxovskiy bildirir ki, ermənilər rus hökümətinin himayəsindən istifadə edərək, qısa müddətə regionda iqtisadi cəhətdən mühüm lingləri [5, 39] öz əllərinə keçirdilər: Bakı vilayətinə aid olan şirkətlərin 29% ermənilərə məxsus olduğu halda, azərbaycanlılar yanlız 18%-ə [6, 25] sahib idilər. İqtisadiyyatın mühüm sahələri: balıqçılıq, tütün istehsalı, digər ticarət və sahibkarlıq müəssisələri ermənilərin əlində cəmlənmişdi. Digər tərəfdən, Amerika tarixçisi Odri Alştattın geyd etdiyini nəzərə alsaq bütün bunlara baxmayaraq, azərbaycanlılar Bakının, bütünlükdə Azərbaycanın sərvətlərinə nəzarət edirdi.

Lakin, çox çətin siyasi dövrlə siyası ayrıseçkiliyi özündə etiva edən müşahidələrə rəğmən erməni köçkünlərinin yoğun axını azərbaycanlıların onsuz da gərgin durumunun, narazıcılığının yüksəlməsini sürətləndirdi. Eyni halda nəzərə almaq lazımdır ki, varlı etnik azlıqlarından ibarət ermənilər rusların xüsusi himayəsində imperiya qanunlarının onlara verdiyi çoxsaylı imtiyazlara malik idilər.

Azərbaycanlılara (ümumilikdə bütün müsəlmanlara) dövlət orqanlarında işləmək qadağan edildiyinə görə inzibati və məhkəmə aparatında ermənilərin xidmətlərə cəlb edilməsinə üstünlük verilirdi. XIX əsrdə Azərbaycanda başlamış neft bumu çoxsaylı erməni, həmçinin azərbaycanlı (İran daxil olmaqla) və dünyanın bir çox ölkələrindən əməkçi miqrantlarının Bakıya axın etməsi səbəbindən erməni neft-mədən sənayesi millionçuları peyda oldu (Mantaşev, Qukasov və s.). İqtisadi rəqabətin gərginləşməsi nəticəsində, xüsusi ilə kəndlərdə toqquşmalar baş verdi [7, 40].

Russiya sərdarı general Qriqoriy Qolisin yaranmış çətin vəziyyəti yumuşaltmaq üçün müsəlmanları inzibati və dövlət apparatına cəlb etməyə başladı. Erməni kilsəsinin mülkünü müsadirə etdiyi üçün 1903-cü ildə erməni terrorçu birləşmələri Qriqoriy Qolisinə qarşı sui-qəsd törətdilər. Bu hadisələr ermənilərlə ruslar arasında qərginliyi artırdı və rus böyük dövlət doktrinasının nəşrləri qısa müddət ərzində ermənilərə qarşı yönəldi. Rus şairi, ictimai xadim, publisisti Vasiliy Veliçko müsəlmanların inkişaf etməsinin, savadlanmasının tərəfdarı olduğunu açıqladı. Onun fikrincə inkişaf prosesi yaranmış gərgin vəziyyəti stabilləşdirər [1] və yerli əhali ilə ruslar arasında yaxın mehriban münasibətin yaranmasını təmin edə bilərdi.

Müəyyən tədbirlərin həyata keçirilməsinə baxmayaraq 1904-cü ilin dekabrında Bakı neft mədənlərində çar hökümətini narahat edən azərbaycanlı, rus və ermənilərin iştirakı ilə güclü toqquşma

baş verdi. Bütün hadisələrdən yana rusların ermənilərə etibarı yenidən bərpa edildi. 1905-ci ildə sərdar vəzifəsinə erməni kilsəsinin əmlakını geri qaytaran, açıq aşgar türklərə qarşı öz siyasi baxışını gizlətməyən ermənipərəst Voronsov-Daşkov təyin edildi.

1903-1905-ci illərdə iki xalq arasındakı gərqinlik fonunda Rusiyada da sosial-siyasi vəziyyət gərginləşdi, daha sonra bu hadisə 1905-1907-ci il inqilabının baş verməsinə səbəb, həmçinin böyük sənayə şəhəri olan Bakıda fəhlə sinfinin sosial-iqtisadi vəziyyəti ilə bağlı yaranan inqilabi əhval-ruhiyyəni gücləndirdi. Rusiyanın son dərəcə təhlükəli müstəmləkə siyasəti yerli azərbaycan əhalisi arasında böyük narazıçılığa səbəb oldu. Cənubi Qafqazda etnik qruplar arası münasibətlər yüksələrək gərginləşdi.

Britaniya diplomatik mənbələrinin verdiyi məlumatlarda deyilirdi ki, «rus hökuməti iki xalq arasında ədalətli tərəfsiz administrativ mövqeyini ortaya qoyaraq, vəziyyəti stabilləşdirmək əvəzinə «parçala və hökm sür» siyasətini seçdi, nəticədə müvafiq vəzifələrə ermənilər təyin olunduğu üçün yerli müsəlman əhali bilərəkdən əsas məsələlərin həllindən uzaqlaşdırıldı, yerli əhali ermənilər tərəfindən tədbiq edilən korrupsiya və cərimələrə məruz qaldı. Bir müddət sonra rus hökuməti erməni inqilabi cəmiyyətlərinin fəaliyyətinin artması səbəbindən öz siyasətlərini dəyişdi [8, 185-186]. Əksər mənbələr qırğınların həyata keçməsində çar hökümətini günahlandırır və hesab edirdi ki, çar hökuməti vaxtında nizamlayıcı tədbirlər həyata keçirsəydi qırğınların qabağı alınardı. Nəticə etibarı ilə Rus hakimiyyətinin hadisələrin qəsdən bu nöqtəyə gəlməsinin tərəfdarı olduğu baş verən proseslərdə açıq-aydın izlənilir.

İtaliyalı diplomat, jirnalist, səyahətçi L.Villari yazirdi: "russiya hökuməti tatarlara(Azərbaycan türklərinə -Z.H.) ermənilərin hücüm edəcəyi [9, 195] barədə məlumat vermişdi. Onun sözlərinə görə qətlə yetirilən 400 nəfərdən 126-sı erməni, 218-zi tatar-azərbaycanlı idi. O, həmçinin bu cinayətlərin arxasında polisin dayandığını vurğulayırdı".

Beləliklə bütün mənbələr çar qurumlarının təhrikçiliyi və çar hökümətinin siyasəti nəticəsində bu dəhşətli qanlı soyqırımın əsas günahkarlarının ruslar olduğunu təsdiqləyir. Eyni zamanda faktlar soyqırımın ilk günlərində ermənilərin silahlı müqavimətə tam hazır olduqlarını, tez bir zamanda yaranmış vəziyyətə uyğunlaşaraq nəinki Bakıda, Cənubi Qafqazın digər bölgələrində belə hadisələrin gedişatını nəzarətdə saxladıqlarını təsdiqləyir.

M.S.Ordubadi XX əsrin əvvəllərində baş vermiş erməni-müsəlman davasına aid müxtəlif bölgələrdən gələn məlumatlardan istifadə edərək yazdığı "Qanlı illər" əsərində münaqişənin məzmunu və gedişi haqqında çox dəyərli faktları açıqlayıb. Bu əsər o dövrdə hadisələrin şahidi olmuş müəlliflər tərəfindən faktların dəqiq təqdimi, lokonik sərhi ilə seçilir. Səbəbləri göstərməklə, nəticəni oxucunun mühakiməsinə buraxan müəllif hadisələrə mudaxilə etməmək üçün 350-dən çox müxbir məktublarından, dövrü məkbuat və stenoqramlardan istifadə etmiş, azərbaycanlıların soyqırıma məruz qalmalarının səbəbkarlarının ermənilər olduğunu diqqətə çatdırır və onların adlarını qeyd edir: Avetis Avetisov, Qriqor Tiyunov və onların dostları [10] M.S.Ordubadinin yazdığı məlumata istinad edərək quberniya məmuru Takayşvilinin azərbaycanlıların çağırışına əsasən onlara köməyə kazak dəstəsini göndərdiyini, lakin onların ermənilər tərəfindən güllə-baran edildiyi aydınlaşır. Erməni və azərbaycanlılar arasında amansız qanlı döyüşlər baş verdi. Hökümət üsyançılarla sülh danışıqları aparmaq əvəzinə əraziyə qoşun yeritdiyi üçün qəzəblənmiş erməni faşistləri kilsənin zəngindən sonra amansızcasına azərbaycanlılarla yanaşı rus hərbi kazarmalarına hücum etdilər. Hücumlar Balaxanı neft mədənlərinə qədər gedib çıxmışdı.

Qruplara bölünmüş ermənilər müəssisələri yandırır, dükanları qarət edirdilər. Russiya qazetləri isə azərbaycanlıların ermənilərə məxsus neft mədənlərinə hücum etdiyini yazırdı. Bu yalan şaələrin müəyyən səbəbləri var idi. V.Veliçkonun geyd etdiyi kimi, "sülhsevər xristianların fonunda (yəni ermənilər -Z.H.) rus cəmiyyətində azərbaycanlıların tərbiyyəsiz, vəhşi və bütün hallarda etibarsiz xalq olduğu fikrinin formalaşması ermənilərin xeyrinə idi" [1].

Soyqırımın başlıca və ən mühüm səbəbkarı erməni inqilab federasiyası "Daşnaksütun" partiyası ilə Rusiya hökümət nümayəndələrinin birgə fəaliyyəti idi.

1890-cı ildə Tiflisdə yaradılmış "Daşnaksütun" partiyasının başlıca "müqəddəs" vəzifələrindən biri terror yolu ilə qədim tarixi Azərbaycan ərazilərində "itirilmiş müstəqil Ermənistan dövlətinin yaradılması" planı idi.

"Daşnaksütun" partiyasının erməni inqilabçı xadimlərinin ortaya çıxmasına qədər Zaqafqaziyada sülh və sabitlik hökm sürürdü. Burada indiyə qədər erməni-tatar (Azərbaycan türkləri -Z.H.) soyqırımı kimi qanlı, qorxunc, dəhşətli hadisələr baş verməmişdi. Daşnaklar muxtar Ermənistan ərazisi yaratmaq iddiaları ilə gəlib Zaqafqaziya vilayətlərinə milli düşmənçilik və ədavət toxumu səpti [11, 49-50].

Polşa əsilli tanınmış amerikan alimi Tadeuş Svenitoxovski qeyd edirdi ki, ermənilər daha bilikli və çox əlverişli mövqelərə malik idi. Onlar mütəşəkkül təşkil olunmuş "Daşnaksütun" partiyası ətrafında sıx birləşmiş silahlı mübarizədən geniş istifadə edən sosialist partiyasıdır [12, 290]. Əslində ermənilər sosialist partiyası adı altında fəaliyyət göstərən Daşnaksutyunun terrorist təşkilatı olduğunu uzun zamandır durmadan isbat edirlər [Z.H.].

O dövrdə Azərbaycanda çap olunan "Həyat" qəzetinin mövqeyinə görə ermənilərin muxtariyyat əldə etmək istəklərinin əsas səbəbinin Qafqazda digər xalqlara nisbətən azərbaycanlıların daha çoxsaylı xalq olduğunu bildikləri və bu ərazilərin sahibləri olduqlarına görə məhz onlara qarşı yönəlmişdi. Azərbaycanlılar yenildiyi təqdirdə Cənubi Qafqazda heç bir qrup ermənilər qarşısında tab gətirə bilməyəcəkdi.

Rusiyanın Qafqazdakı nümayəndəsi Voroncov-Daşkov törədilmiş qətliamlarda "Daşnaksütun" partiyasının məsuliyyət daşıdığını boynuna almağa məcbur oldu. O qeyd edirdi ki, daşnaklar çoxsaylı dəstələr yaradaraq müsəlmanların üstünə hücum edir, bəzən bütöv bir kəndi belə tamamilə məhv edirdilər.

Voronsov-Daşkov zorakılıqların qarşısının alınması barədə əmr verdi. 1905-ci il 14 sentyabrda Duma meydanında sülh müqaviləsi bağlamaq üçün azərbaycanlılar tərəfindən quberniya qazisi Mir Məmməd Kərim ağa Mir Cəfərzadə, ermənilər adından isə qriqorian keşişi, qeneral-qubernator S.A.Fadeev çıxış etdilər. Qırğınlardan təngə gəlmiş insanlar böyük məmnuniyyətlə dini liderlərin sülh təklifini bəyəndilər.

1905-ci il Bakı fevral hadisələrinin haqqında əsər yazmış britaniyalı Ceyms Henri "Tayms" müxbirinin fikirlərini şərh edərək ermənilərin günahkar olduğunu bildirir. "Mən çoxsaylı rus və gürcü şəhadətnamələrinə qərəzsiz diqqət yetirdikdə bu ittihamların doğru olduğundan əmin oldum".

Qeyd etmək lazımdır ki, Bakıda baş vermiş dəhşətli soyqırım hərəkatının törədilməsinə ermənilərin səbəbkar olmaları barədə fikirlər ruslarla xaricilərin ümumi qənaətinə əsasən üst-üstə düşür.

Hadisələrin digər şahidi erməni İ.Əlibəyov yazırdı: "Erməni xalqı üçün artıq sirr deyil ki, "Daşnaksütun" partiyası erməni-tatar (Azərbaycan türkləri) soyqırımının əsas səbəbkarıdır, dəfələrlə bilərəkdən təxribat törədiblər. "Fidayev" dəstələri qonşu tatar əhaliyə hücum etdiyi üçün tatarlar öz növbəsində ermənilərə qarşı vuruşurdular.

"Daşnaksütyun"partiyasının əsas məqsədi yalnız ermənilərdən ibarət kompakt ərazi yaradaraq gələcəkdə muxtar Ermənistan dövlətinin əsasını qoymaq səyləri ilə izah edilirdi".

Törədilmiş dəhşətli soyqırım hadisəsi qasırğa gücü ilə yoluna çıxan hər şeyi məhv edib çoxsaylı günahsız insanların həyatına son qoydu.

Beləliklə, yüz il ərzində ermənilərin ruslarla birgə apardıqları siyasət nəticəsində Azərbaycanda onların sayı 24 dəfə artdı. Əgər XIX əsrdə ermənilərin sayı 10.000 nəfər idisə, XX əsrin əvvəlinə onların sayı artıq 200.000 nəfərə qədər artdı.

Süni demoqrafiya prosessləri tədbiq edən, eyni zamanda "güya Kiçik Asiyada mövcud olmuş ermənilər (Qafqaz xaricində) IV, VI, XI [13] əsrlərdə itirdikləri dövlətlərini yaradmağa" can atırdılar. Nəticədə, 1500 il müddətində "dövlətləri" olmayan ermənilər, XIX-XX əsrlərdə qədim Azərbaycan ərazilərində rusların köməyilə çıxış edən erməni triadası: qriqorian kilsəsi, "Daşnaksütun" partiyası, zəngin və çoxsaylı erməni diasporunun müştərək fəaliyyətilə dövlət yaratmaq planlarını həyata keçirdilər.

Beləliklə, 1828-ci ildən 1918-ci ilə qədərki tarixi hadisələr sübut edir ki, erməni dövlətinin yaranmasına qədər "Erməni vilayəti"nin yaradılması ilkin mərhələ hesab edilməlidir.

Tarixin şahidi olduğu hadisələr, ermənilərin Qafqaza köçürülməsi siyasəti "Qafqazı qana buladı". Saray müşaviri V.F. Mayevski yazırdı: "Daşnaksütun" və ona bənzər cəmiyyətlər Türkiyyədə və Qafqazda [14] erməni xalqının fəlakətinin əsas mənbələri sayılır.

Məlumdur ki, "Daşnaksütun" partiyasının yaradıcısı və liderlərindən biri O.Kaçaznuni 1923-cü ildə bütün səmimiyyəti ilə söyləmişdi: "zalım taleyinə acı-acı şikayətlənmək və bədbəxtçiliklərimizin səbəbini digərlərində axtarmaq - biz ermənilərin milli psixologiyasının xarakterik xüsusiyyətlərindən biridir".

1905-1906, 1918, 1992-2022-ci illərdə Ukraynada baş verən hadisələrdə həddən ziyadə oxşarlıqlar mövcuddur. Qərb və rus mətbuatı öncə baş vermiş hadisələrdə hər zaman olduğu kimi indi də, ümumi dini tellər ilə bağlı olan ermənilərə rəğbətini nümayiş etdirsədə hal-hazırda Ukraynada baş verən hadisələr dünya birliyini narahat edir və Rusiyaya qarşı sanksiyalar tədbiq edilir.

Xristian təəssübkeşliyindən doğan "erməni məsələsi" müəyən xarici siyasi dairələrin marağına uyğun gəldiyi üçün artıq siyasi möhtəkirlik alətinə çevrilib.

Beləliklə, uzunmüddətli məqsədli fəaliyyətlər, habelə 1918-ci ildə yaranmış əlverişli tarixi şəraitin məntiqli nəticəsi tarixin özü qədər qədim Azərbaycanın ayrılmaz parçası olan İrəvanda Ermənistan dövlətinin yaradılmasına gətirib çıxartdı.

II Dünya müharibəsindən sonra sovet hökümətinin çoxsaylı erməni mühacirini Qərbi Azərbaycanda məskunlaşdırması, 1948-1953 və 1988-ci illərin deportasiyaları və soyqırım siyasəti nəhayətdə, Ermənistan respublikasında azəri-türk varlığına son qoydu, "Şərgi-Ermənistan"nın yerdə qalan hissəsi və ya Qarabağ uğrunda "əzabkeş erməni xalqının mübarizəsi" isə Azərbaycan ərazilərinin 20%-nin işğalı ilə tamamlandı.

Nəticə. Lakin 27 sentyabr 2020-ci ildə erməni silahlı qüvvələri daha böyük təxribatlara başladı. Azərbaycan ordusunun müvafiq bölmələri cavab tədbirləri həyata keçirdi. Qarşıdurmalar qısa müddətdə surətlə alovlandı. Ali Baş komandanın rəhbərliyi ilə Müzəffər Azərbaycan ordusu 44 gün ərzində işğal altında olan vətən torpağını azad etdi. Nəticə əlbətdə bir qədər gözlənilməz oldu. Müasir Rusiya imperiyası öz məkrli siyasətindən əl çəkə bilmədiyi və Qafqazda varlığını möhkəmləndirmək üçün müharibəni dayandırdı. İkinci Qarabağ müharibəsi Moskvada üç dövlət arasında imzalanan bəyanətə əsasən bitmiş hesab olundu və Rusiyanın "Sülhməramlı" ordusu Qarabağda məskunlaşdı.

Analitiklər hərbi siyasi ekspertlər müharibənin nəticələrini qiymətləndirərkən qalib və məğlub tərəflər axtarır. Əsil qalib ədalətdir. Bu haqq-ədaləti müzəffər Azərbaycan ordusu müdrik uzaqgörən siyasətçi Ali Baş Komandan cənab İlham Heydər oğlu Əliyevin idarəetmə qabiliyyəti, bacarıqlı təşkilatçılığı sayəsində təkcə döyüş meydanında deyil, həmçinin siyasi müstəvidə və media məkanında qalib gəlməsi şərtləndirdi.

Azərbaycan tərəfi işğal oıunmuş torpaqlarının azad olunmasına, ərazi bütövlüyünün təmin olunmasına, haqsız istilaya son qoyulmasına, nəhayət sülhün bərqərar olacağına, iqtisadi quruculuq və inteqrasiya proseslərinin başlanmasına, Naxçıvan Muxtar Respublikasına açılacaq quru yollar vasitəsilə nəqliyyat infrastrukturu və türk dövlətləri əlaqələrinin bərpasına nail oldu. Hazırda mübarizə siyasi müstəvidə davam edir.

Bir sözlə XIX-XX əsrdən ehtibarən ermənilər "Ermənistan krallığı"nı bərpa etməkdən ötrü Cənubi Qafqazda separatizm, terrorizm fəlakəti yayan dağıdıcı qüvvəyə çevrildi. Xəstə təxəyyüldən doğan iddiaların kənar müdafiəçiləri bütün dövrlərdə, xüsusilə son iki yüzillikdə hadisələrin gedişatına açıq və gizli təsir göstərdi, hətta çarizmi yıxıb-dağıtmış əski sovet və indiki müasir Rusiya dövləti Rus İmperiyasının müstəmləkəçilik siyasətini davam etdirir, müxtəlif bəhanələrlə müstəqil avropa dövləti Ukraynaya təcavüz edərək Ukrayna xalqına qarşı amansız soyqırım törədir. Tarix təkrarlandıqca şərhlərdə təkrarlanır.

ƏDƏBİYYAT

1. В.Л.Величко. Кавказ. Русское дело и междуплеменные вопросы. Публицистические сочинения. Том 1, СПб., Типография Артели Печатного Дела, 1904, 244 с.
2. Х.Ю.Вердиева Переселенческая политика Российской империи в Северном Азербайджане. Баку, Алтай, 1999, 300 с.
3. Николай Шавров. Новая угроза русскому делу в Закавказье. Предстоящая распродажа Мугани инородцам. Санкт-Петербург, Рус. собрание, 1911, 78 с.
4. Luigi Villari. Fire and Sword in the Caucasus. London: T. F. Unwin, 1906, 265 p.

5. Tadeusz Swietochowski. Russian Azerbaijan, 1905–1920. The Shaping of a National Identity in a Muslim Community. Cambridge: Cambridge University Press, 1985, p.39.
6. Д.В.Сеидзаде Из истории азербайджанской буржуазии в начале XX века. Баку, Элм, 1978, 145 [3] с.
7. Audrey Altstadt. The Azerbaijani Turks. Power and Identity under Russian Rule. Hoover Institution Press, Stanford, 1993, 334 p.
8. Под термином «армянские революционные общества» в первую очередь имелся в виду «Дашнакцутюн».- Kenneth Bourne, Cameron Watt (ed). British Documents on Foreign Affairs: Reports and Papers From the Foreign Office Confidential Print, Volume 3, Russia 1905-1906, p.185-186.
9. Chapter. "Nakhitchevan And The May Massacres", (1876-1959), p.195. / In: Luigi Villari. Fire and Sword in the Caucasus. London: T. F. Unwin, 1906, 265 p.
10. Мамед Саид Ордубади. История возникновения армяно-мусульманского конфликта на Кавказе. Баку, 1911. Məmməd Səid Ordubadi. Qanlı illər (sənəllər). 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi. Bakı,1 911; Bakı, Qafqaz nəşriyyatı, 2007, 184 s.
11. Кариби. Красная книга. Тифлис, 1920, с.49-50.
12. T.Svietoxovskiy- Cənubi Qafqazın, xüsusən də Azərbaycanın tədqiqi üzrə mütəxəssis. "1905-1920-ci illərdə Azərbaycan Russiyanın tərkibində. Müsəlman cəmiyyətində milli eyniliyin qurulması" adlı monoqrafiyanı dərc edib. (English, Russian, Azerbaijan, 1905-1920-ci illər. The shaping of a National İdentity in a Muslim Community; Cambrige University Press, 1985- p.290).
13. Г.Х.Саркисян, К.С. Худаверян, К.Н. Юзбашян Потомки Хайка. Ереван, Армянская энциклопедия, 1998, гл.VI и VII.
14. В.Маевский Армяно-татарская смута на Кавказе, как один из фазисов армянского вопроса. Тифлис, Типография Штаба Кавказского Военного Округа, 1915, 22 с.

ЗЕМФИРА ГАДЖИЕВА
Доктор исторических наук, доцент,
Заведующий отделом Научного наследия Президиума НАНА

КРОВАВАЯ РЕЗУЛЬТАТЫ ТЕРРИТОРИАЛЬНЫХ ПРЕТЕНЗИЙ АРМЯН НА ЮЖНОМ КАВКАЗЕ В НАЧАЛЕ XX ВЕКА

В начале XX столетия дашнаки-армяне, воспользовавшие ситуацией, сложившейся в результате преступной колониальной – национальной политики, проводимой романовской Россией, совершили очередные преступные деяния на исконных азербайджанских землях с целью очистить эти земли от их настоящих владельцев – азербайджанских тюрков.

В результате массовых разней и широкомасштабных погромов были уничтожены тысячи азербайджанцев, разграблены и стерты с лица земли сотни азербайджанских деревень армянскими варварами в Баку, Шуше, Зангезуре, Иреване, Нахчыване, Гяндже и в других регионах в 1905-1906 г.

Ключевые слова: Южный Кавказ, Азербайджан, Геноцид, Царская Россия.

ZEMFIRA HAJIYEVA
Docor of Historical Sciences, Associate professor
Head of the Department of Scientific Heritage of the Presidium of ANAS

THE BLOODY RESULTS OF ARMENIANS TERRITORIAL CLAIMS IN THE SOUTH CAUCASUS AT THE BEGINNING OF THE XX CENTURY THE

At the beginning of the 20th century the Armenian Dashnaks, who took advantage of the situation created as a result of the criminal colonial national policy pursued by Romanov's Russia,

committed yet another criminal acts on the orginal Azerbaijani lands with the goal of clearing their real owners – the Azerbaijani Turks.

As a result of mass slaughter and large-scale pogroms, thousands of Azerbaijanis were killed, hundreds of Azerbaijani villages were plundered and wiped out by Armenian barbarians in Baku, Shusha, Zangazur, Irevan, Nakhchivan, Ganja and other regions in 1905-1906.

Keywords: South Caucasus, Azerbaijan, Genocide, Tsarist Russia.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d.İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

İRADƏ HÜSEYNOVA
Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor
Azərbaycan Respublikasının Əməkdar müəllimi
prof.irada.huseynova@gmail.com

XOCALI QƏTLİAMI: ERMƏNİSTANIN DÖVLƏT SƏVİYYƏSİNDƏ APARDIĞI QATI MİLLƏTÇİLİYİN, TERRORİZMİN NƏTİCƏSİ KİMİ

Məqalədə Xocalı faciəsinə aparan tarixi amillər əks olunub, Azərbaycan ərazilərinə əsassız iddialarını ört-basdır etməyə çalışan erməni şovinistlərinin bir sıra saxtalaşdırmalarının mahiyyəti açıqlanıb. Ermənilərin regiona köçürülməsinin əsas mərhələləri, buna dəstək verən vir sıra böyük dövlətlərin geosiyasi ambisiyaları ifşa edilib. Xocalı hadisəsinə obyektiv hüququi qiymətin verilməsi və bu faciənin beynəlxalq arenada işıqlandırılması məsələsində ümummilli lider Heydər Əliyevin müstəsna rolu vurğulanıb.

Açar sözlər: Heydər Əliyev, soyqırımı, Qarabağ, ərazi bütövlüyü, terror.

Giriş. Tarixdən məlumdur ki, ermənilər dəfələrlə azərbaycanlılara qarşı ən ağır cinayətlər həyata keçirmişlər. 1992-ci il fevralın 25-dən 26-a keçən gecə baş vermiş Xocalı Soyqırımı Azərbaycan tarixinin ən faciəli səhifələrindən biri, bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri idi.

"1988-ci ildə başlamış Dağlıq Qarabağ münaqişəsi dövründə ermənilərin həyata keçirdikləri ən irimiqyaslı işğalçılıq və soyqırımı əməliyyatı məhz Xocalıda baş vermişdir" (11, s.144).

Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən dəhşətli kütləvi terror aktlarından biri kimi daxil olmuşdur. "Beynəlxalq hüquq normaları Xocalı faciəsinin soyqırımı kimi tövsif olunması üçün kifayət qədər ciddi əsaslar verir" (12, s.48).

Heydər Əliyev demişdir ki, "bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır (5, s.395). Bu fikirlərin davamı olaraq Azərbaycan Respublikasının prezidenti İlham Əliyev qeyd edir: "Son iki əsrdə erməni millətçiləri tarixi Azərbaycan torpaqları hesabına mifik «Böyük Ermənistan» ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törətmişlər. XX əsrin sonunda dünyanın gözü qarşısında baş verən, qəddarlığı və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı isə bu təcavüzkar siyasətin ən qanlı səhifəsi idi" (5, s.11).

Burada bir erməni saxtakarlığı haqqında danışmaq istərdim. Türk tarixinin və hərb sənətinin parlaq səhifələrindən biri olan 44 günlük Vətən müharibəsinin ikinci mərhələsində tarixi qələbəmizdən, 20 noyabr 2020-ci ildə Ağdam rayonu azad edildikdən və Azərbaycan ordusu ora daxil olduqdan sonra saxta erməni təbliğatı Ağdam yaxınlığında Şahbulaq kəndində yerləşən "antik erməni şəhəri Tiqranakert"i məhv edə biləcəyi barədə hay-küy qaldırdı.

Hələ işğaldan əvvəl də burada əsrlərlə tarixi olan bir neçə mühüm memarlıq abidəsi, xüsusən də XVIII əsrin ortalarında Qarabağ xanlığının banisi Pənahəli xan tərəfindən eyni adlı bulağın yaxınlığında tikilən Şahbulaq qalası yerləşirdi. Onun qalıqları XX əsrə qədər qalsa da, daha sonra demək olar ki, tamamilə məhv edilib. Erməni işğalı dövründə burada qanunsuz arxeoloji qazıntılar aparılıb və möcüzəvi şəkildə guya e.ə I əsrdə "Böyük Ermənistan"ın çarı II Tiqran tərəfindən salınmış mifik "Tiqranakert" şəhəri tapılıb. Başdan başa ağ yalan olan bu erməni uydurmasının heç bir elni əsası yoxdur.

Qazıntı ərazisində olan bir qrup azərbaycanlı tədqiqatçı "Tiqranakert"in Şahbulaq qala kompleksinin, daha doğrusu onun ictimai binalarının bir hissəsi olduğunu aydınlaşdırıb. Qazıntılar aparan erməni arxeoloqları tikililərin qalıqlarına yeni arxeoloji formalar verib, bəzi memarlıq elementlərini ləğv edib və yerinə yeni "antik" elementləri əlavə ediblər. O qədər qapılıblar ki, burada yerləşən şərq

hamamı və ovdan (su anbarı, su toplamaq üçün rezervuarı) xarabalıqlarını V-VI əsrlərə aid xristian məbədinin qalıqları adlandırıblar və daha inandırıcı olması üçün yaxınlığına üzərində erməni xaçı olan "qədim" daş yerləşdiriblər.

Tapılmış "Tiqranakert"in sözün yüz metrliyində erməni tərəfi qədim "Şahbulağın" yerində yeni qala yaradıblar. Bir sıra mətbuat orqanları səhvən onu həqiqi, Qarabağlı Pənahəli xan tərəfindən tikilmiş kimi qəbul edib. Lakin bu eskizləri XIX-XX əsrlər çar Rusiyası arxivlərində qorunan Şahbulaq qalası stilində, müasir kəsim daş və sementdən hazırlanmış restoran kompleksidir. Erməni tərəfi şərq kanvansarayına bənzər nəsə düzəldib və bunu Şahbulaq qalası kimi qələmə verir.

Bu ərazinin əsl tarixini gizlətmək və dəyişmək üçün "Tiqranakert-Şahbulaq" ikili saxtakarlığı bu cür yaranıb.

Tarixi faktlar göstərir ki, XIX əsrə kimi Azərbaycanda ermənilər yaşamayıb. XIX əsrdə bütün Şərqi Avropada, o cümlədən Rusiyada cərəyan edən hadisələr (Rusiya-Türkiyə, Rusiya-Qacarlar müharibələri) Azərbaycanın şimal qonşusunun regionda mövqelərinin getdikcə zəifləməsinə gətirib çıxarırdı. Rusiya cənub sərhədində müsəlman və türk ölkəsinin mövcudluğundan da ciddi narahatlıq keçirirdi və elə buna görə də Şimali Azərbaycanda ermənilərin məskunlaşdırılması ideyasını reallığa çevirməyə başladı. Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi nəinki ayrı-ayrı fərmanlarda və göstərişlərdə, hətta dövlətlərarası sazişlərdə belə öz əksini tapırdı. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinin bağlanmasından sonra ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi prosesi kütləvi hal aldı (12, s.18).

Rusiya imperiyası ermənilərin İrandan köçürülməsini həyata keçirməklə bərabər, onların işğal edilmiş hansı ərazilərdə yerləşdirilməsinə də böyük əhəmiyyət verirdi. Arxiv sənədləri əsasında müəyyən edilmişdir ki, "Tükmənçay müqaviləsinin imzalanmsından az sonra Paskeviç İrəvan müvəqqəti idarəsinə göstəriş vermişdi ki, köçürülən ermənilər daha çox İrəvan və Naxçıvanda, qismən də Qarabağda məskunlaşdırılsın" (21, s.15).

Bunun nəticəsi idi ki, "ermənilərin Qafqaza, xüsusən də Naxçıvan, İrəvan və Qarabağ xanlıqlarının ərazilərinə - tarixi azərbaycan torpaqlarına köçürülməsi Gülüstan və Türkmənçay müqavilələrindən sonra güclü təkan almışdır" (17, s.18).

Türkmənçay müqaviləsinin 15-ci maddəsinin müəllifi olan Aleksandr Qriboyedov xristianların, yəni ermənilərin Qacarlar İranından Cənubi Qafqaz ərazilərinə köçürülməsinin və burada onlar üçün güzəştli şərtlərin təmin edilməsi siyasətinin müəlliflərindən olmuşdur. Türkmənçay müqaviləsindən dərhal sonra – 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə İrəvan və Naxçıvan xanlıqlarının ərazisində "Erməni vilayəti" yaradılmışdı. Bu bədnam fərmanla tarixi Azərbaycan torpaqlarında yaradılacaq gələcək Ermənistanın təməli qoyulmuşdur. Həmin vaxtın rəsmi statistikasına görə, "Erməni vilayəti"nin mərkəzi olan İrəvan şəhərində 7331 azərbaycanlı, cəmi 2369 erməni ailəsi yaşayırdı. 1828-ci ildə təkcə üç ay ərzində 40000 nəfərə qədər erməni ölkə ərazisdə yerləşdirildi. 1828-1829-cu illər rus-osmanlı müharibəsindən sonra isə daha 90 min erməni köçüb gəldi (12, s.14). Bu proses eyni zamanda minlərlə azərbaycanlının doğma torpağından qovulması və qətlə yetirilməsi ilə müşayiət olunmuşdu.

Bu fikri digər mənbələr və müəlliflər də təsdiq edir. Məşhur rus statistiki İ.Şopenin hesablamalarına görə, XIX əsrin əvvəllərində təkcə İrəvan şəhərində 2400 azərbaycanlı ailəsi, 12 min nəfər azərbaycanlı yaşayırdı. Şəhər ruslar tərəfindən alınandan sonra əhalinin bir qisminin İrana köçməsinə baxmayaraq, yenə də azərbaycanlılar şəhər əhalisinin böyük əksəriyyətini təşkil edirdi. Belə ki, 1829-cu ilin məlumatına görə, İrəvan şəhərində əhalinin beşdə dördünü və yaxud 80 faizini azərbaycanlılar təşkil edirdi (25, s.138).

Rusiya ilə İran arasında Gülüstan (1813), Türkmənçay (1828) sülh müqavilələrindən sonra rusların köməyi ilə Qarabağa köçürülən ermənilər Sovet hakimiyyəti illərində Zəngəzur və bir sıra Azərbaycan ərazilərinin Ermənistana birləşdirilməsinə nail olduqdan sonra dəfələrlə Dağlıq Qarabağı da həmin ərazilərə qatmağa cəhd etmiş, lakin nail ola bilməmişlər. Ancaq Qorbaçov "perestroykası" onların əl-qolunu əməlli-başlı açdı. Bədnam "Miatsum" hərəkatı sonradan rusların da yaxından köməyi ilə Azərbaycana qarşı əsl təcavüzə çevrildi. Xocalı soyqırımı bu qanlı təcavüzün zirvəsi oldu. XX əsrin bu dəhşətli soyqırımı hadisəsi belə baş verdi.

XX əsrdə ermənilər Xocalını yer üzündən silmək üçün üç dəfə soyqırımı həyata keçiriblər. 1905-1906, 1917-1920 və nəhayət 1992-ci illərdə. Dünya tarixində belə bir hadisə görünməyib. Ermənilər hədəf kimi niyə məhz Xocalını seçirdilər? Niyə ermənilər Azərbaycanın torpaqlarını özününküləşdirmək üçün birinci növbədə Xocalını yer üzündən silmək istəyirdilər? Ona görə ki, bütövlükdə Dağlıq Qarabağ, o cümlədən də, Xocalı Azərbaycanın mədəniyyət tarixidir. Belə ki, bura 3500 il yaşı olan abidələr, kurqanlar, yüksək sivilizasiyadan xəbər verən saxsı qablar, silahlar, qızıl-zinət əşyaları, şüşə parçaları ilə məşhur idi. Bu şəhərdə eradan əvvəl XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşirdi, son bürünc və ilkin daş dövrünə aid dəfn abidələri – sandıq qəbirlər, kurqanlar və nekropollar tapılmışdı. Bu gün də həmin bölgənin Azərbaycana məxsusluğunu saysız-hesabsız tarixi və mədəniyyət abidələri ilə sübut etmək olar. Bu soyqırımı ermənilərə bu torpaqların onlara aid olmadığını sübut edən faktlardan birdəfəlik xilas olmaq üçün lazım idi.

Ermənilər bu yaşayış məntəqəsini məhv etməklə bir tərəfdən Azərbaycan tarixinin önəmli səhifələrindən birini silməyə çalışırdılarsa, digər tərəfdən işğal planlarını həyata keçirmək üçün qarşılarındakı ən böyük maneəni aradan qaldırmaq, azərbaycanlıların müqavimət ruhunu sındırmaq istəyirdilər. Çünki Xocalı həm də strateji baxımından çox əhəmiyyətli mövqedə yerləşirdi. Xocalı rayonu şimaldan və şimal-şərqdən Kəlbəcər və Ağdam rayonları, qərbdən Laçın rayonuyla həmsərhəd idi. 946 kvadratkilometr ərazisinin 40 faizi meşəlik olan Xocalı rayonunun qərb sərhədi boyunca Kiçik Qafqaz dağları uzanırdı. Rayonun ən yüksək zirvəsi 2843 metr hündürlüyü olan Qızqala və 2827 metr hündürlüyü olan Qırxqız dağlarıydı. Rayonda 100 çarpayılıq xəstəxana, 28 tibb məntəqəsi, 30 məktəb, 36 kitabxana, 13 mədəniyyət evi, 31 klub, 37 kinoqurğu vardı (13, s.6). Ən əsası isə Xocalı Ağdamdan Qarabağın tacı olan Qalaya - əzəmətli Şuşaya gedən yolun üstündə, Xankəndinin 10 kilometrliyində yerləşirdi. Ermənilər Şuşaya həmlə etmək istəyəndə sinəsini qabağa verən Xocalı olurdu - Xankəndi istiqamətində atəş açmaqla düşmənin irəliləməsini əngəlləyirdi...

Xocalılılara qarşı ilk erməni qətliamı ötən əsrin əvvəllərində baş verir. Rusiyadakı 1905-1907-ci illər inqilabının yaratdığı hərc-mərclikdən yararlanan ermənilər Qarabağda azərbaycanlılara qarşı qətliamlara başladılar. Səbəb kimi də Şuşa şəhərindəki Cıdır düzündə at çaparkən yıxılıb üz-gözündən xəsarət almış ermənini erməni məhəllələrində gəzdirilərək onun türklər tərəfindən bu hala salınması haqqında yayılan şayiələr oldu. Hədəf kimi təkcə Şuşa azərbaycanlıları deyil, Xocalı da seçildi. Aylarla davam edən vəhşi hücumlarla bu kəndi yerlə-yeksan etməyə çalışdılar. Amma qəhrəman xocalılılar müqavimət göstərib kəndlərini qoruya bildilər. Ancaq ermənilər Qarabağın ən qədim xalqı olan Azərbaycan türkləri haqda hər şeyi, həmçinin onun mədəniyyət tarixini silməkdə israrlıydılar.

10 il sonra, yəni 1917-ci ildə ardıcıl davam edən rus inqilablarının yaratdığı qarışıqlıqlardan istifadə edən ermənilər azərbaycanlılara qarşı törətdikləri soyqırımı yenə də Xocalıdan başladılar. Qırğınlardan yenicə özünə gəlməyə başlayan Xocalı 1917-1920-ci illərdə bir daha qanına qəltan edildi. Türkiyənin Qars, İğdır, Cənubi Azərbaycanın Urmiya, Ərdəbil vilayətlərini, indi Ermənistan adlanan Qərbi Azərbaycanı və bütün Azərbaycanı əhatə eləyən bu milli qırğınların ümumi nəticəsi olaraq yüz minlərlə Azərbaycan türkü qətlə yetirildi, Azərbaycanın tarixi torpaqlarında Ermənistan adlanan dövlət yaradıldı və bu torpaqlarda yaşayan yarım milyondan çox azərbaycanlı türk amansızlıqla qətlə yetirildi. Bütünlüklə, Qars, İğdır, Urmiya, Ərdəbil, Qərbi Azərbaycan, Qarabağ da daxil olmaqla Azərbaycanın əksər əyalətlərini əhatə edib Bakı və Qubaya qədər uzanan ermənilərin azərbaycanlılara qarşı soyqırımında 2 milyondan çox insan qətl edildi. Buraya 1828-ci ildən başlayaraq 5 dəfə həyata keçirilən deportasiya qurbanlarını da əlavə etsək, erməni qətliamlarının qurbanlarının sayı 2,5 milyona çatar (13, s.6).

1905-1920-ci illərdə azərbaycanlılara qarşı bu terroru rus hərbi birləşmələrinin tərkibində olan 100 minlik "Zinavrlar" ordusu, "Çetnik" və "Xmbabet" hərbi-terror dəstələri, rus silahlarıyla silahlandırılan Andronikin "könüllülər korpusu" və daşnakların 40 minlik silahlı qüvvələri həyata keçirmişdilər (15, s.4). 1920-ci ilə qədər olan bütün bu və dəfələrlə törədilən yanğınlardan, qırğınlardan sonra da Xocalını yer üzündən silmək mümkün olmadı. Xocalı yenidən insan nəfəsilə isindi, genişləndi, böyüdü, şəhərə çevrildi.

Sonuncu, üçüncü həmlə isə 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə baş verdi. Bu dəfə 7 min nəfərlik Xocalı şəhərini ermənilər bütövlükdə məhv eləməyi bacardılar, yüzlərlə günahsız insan vəhşicəsinə qətlə yetirildi, uşaq, qadın, ağsaqqal, ağbirçək demədən hamısını qırdılar, qətlə yetirdik-

ləri insanların meyitlərini təhqir etdilər. Bütün bu vandalizm aktları Rusiyanın 366-cı motoatıcı alayının fəal iştirakı ilə həyata keçirildi.

Bu ermənilərin azərbaycanlılara qarşı törətdikləri etnik təmizləmələrin növbəti mərhələsi idi. Ermənilər rusların 366-cı alayının köməyi ilə Xocalını yerlə yeksan etdikdən sonra vəhşiliklərini lentə alaraq bütün dünyaya müsəlman azərbaycanlıların xristian ermənilərə qarşı vəhşilikləri adı altında yayırdılar. Azərbaycanın o zamankı rəhbərliyinin göstərişi ilə Məkəzi İnformasiya Agentliyi isə baş verənləri malalayaraq elə bir ciddi hadisənin baş vermədiyini, hərbi toqquşmalar nəticəsində 4 azərbaycanlının həlak olması haqqında yazırdı.

Amma məsələnin daha ibrətamiz tərəfi ondadır ki, ermənilərin bu təbliğat həyasızlığının nümunəsi olan videoçarxı alan o zamankı Roma papası II İohan Pavel dərin bir sarsıntı içərisində ermənilərə yazırdı: "Sizlərin Xristian dünyasının forpostu kimi xristian dəyərləri uğrunda necə fədakarlıqla mübarizə apardığınızdan vəcdə gəldim. Ümid edirəm ki, heç olmasa bir gün həmin torpaqlara gəlib bu əzəmətli mübarizəni aparan qəhrəmanların əziz xatirələri önündə baş əymək səadəti mənə nəsib olacaq" (13, s. 6). Bu qoca Papa əsl həqiqətləri bildikdən sonra belə Azərbaycan xalqından üzr istəmədi. Hətta, Azərbaycana səfər etməsinə rəğmən.

Ədalət naminə deyilməlidir ki, dünya mətbuatında ermənilərin bu vəhşiliyi geniş işıqlandırılırdı (1, s.41, 51, 63, 71, 79 və s.). Bunlardan bir neçəsini ayrıca qeyd etmək istərdik. Məsələn, Fransanın "Krua İ-Evenaman" jurnalı 29 fevral 1992-ci il sayında yazırdı: "Ermənilər Xocalıya hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu. Azərbaycanlılar minlərlə ölənlər barədə xəbər verirlər". Yenə Fransanın "Le Mond" qəzeti 14 mart 1992-ci il tarixli sayında yazırdı: "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, bu, reallıqdır". İngiltərənin "Sanditayms" qəzeti 1 mart 1992-ci il tarixli sayında "Erməni əsgərləri minlərlə azərbaycanlı ailəsini məhv etmişlər". "Faynenşl tayms" qəzeti isə 9 mart 1992-ci il tarixli sayında "Ermənilər Ağdama tərəf gedən dəstəni güllələmişlər. Azərbaycanlılar 1200-ə qədər cəsəd saymışlar..." (13, s.6).

Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir. Qəzetin 4 mart 1992-ci il sayında yer alan məlumatda azərbaycanlıların çoxunun meyitinin eybəcər hala salınması, körpə qızın ancaq başının qalması faktı qeyd olunur. İngiltərənin "Valer aktuel" jurnalı (14 mart 1992-ci il): Bu "muxtar regionda" erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları var. Ermənilər yüzdən artıq müsəlman kəndlərində qırğınlar törədərək Qarabağdakı azərbaycanlıları məhv etmişlər... (13, s.6).

Rusiya qəzetləri də baş verənlərə münasibət bildiriblər. "İzvestiya" qəzeti 4 mart 1992-ci il tarixli sayında yazırdı ki, "Videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdir, kişilərin skalpları götürülmüşdür". Həmin qəzet 13 mart 1992-ci il sayında mayor Leonid Kravetsin fikirlərinə yer verir: " Mən şəxsən təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü" (13, s.6).

"İzvestiya" qəzetinin hadisə yerinə gələn müxbiri V.Bellax isə müşahidələrini belə qeyd etmişdi: "Ağdama dayanmadan meyitlər gətirilirdi. Tarixdə belə şeylər görünməmişdi. Meyitlərin gözləri çıxarılmış, qulaqları və başları kəsilmişdi. Bir neçə meyit zirehli maşınlara qoşularaq sürüklənmişdi. İşgəncələrin həddihüdudu yox idi...Xocalıda bir-birinin üstünə qalaqlanan və od vurulub yandırıldığı, traktorla kürünərək dərəyə yuvarladıldığı barədə məlumat verilən insanların itkin düşən xocalılılar olduğunu söyləyirdilər" (13, s.6).

Təəssüf ki, ulu öndər Heydər Əliyevin hakimiyyətə dönüşünə qədər mövcud iqtidar Xocalı soyqırımına hüquqi-siyasi qiymət verməmişdir. Bu cür vəziyyət Azərbaycan dövləti və xalqı üçün fəlakət idi. Ona görə də xalq ikinci Xocalı faciəsi yaşamamaq üçün Ümummilli Lideri hakimiyyətə gətirdi. Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk təşəbbüs məhz ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrə təsadüf etdi.

Ümummilli Lider ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini, habelə ərazilərimizin işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə - "boz zona"ya çevrilməsi, orada narkotik maddələrin yetişdirilməsi, mədəni abidələrin

məhv edilməsi faktlarının və digər dəlil-sübutların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri erməni təcavüzü nəticəsində üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu. Belə ki, Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etdi, BMT-yə, dünya dövlətlərinə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırdı (9, s.3).

Ümummilli lider Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.

"Yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı bu faktı «insanlığa qarşı törədilmiş kütləvi cinayət» hadisəsi kimi tanımış və üzv dövlətləri həmin faciəyə müvafiq siyasi-hüquqi qiymət verməyə çağırmışdır" (6, s.12).

Azərbaycan iqtidarının bu istiqamətdə məqsədyönlü və ardıcıl siyasəti erməni lobbisinin dərin kök atdığı Fransa, ABŞ kimi ölkələrdə də öz bəhrəsini verməkdədir bi bu ölkələrin ictimai-syasi elitasının bir qisminin həqiqətləri dərk etmələtinə səbə olmuşdur. Belə ki, ABŞ-ın Nümayəndələr Palatasının konqresmeni Den Balton acı reallıqlarla tanış olduqdan sonra hiddət və təəccübünü gizlədə bilməmişdi: "Günahsız qadınlar, uşaqlar və qocalara qarşı bu barbar qəddarlığı hec cür izah edilə bilməz. Buna baxmayaraq, bu mənasız zorakılıq Xocalıyla bitmədi. Sadəcə Xocalı bir ilk idi. Əslində isə Xocalıda törədilmiş misli görülməmiş qırğın və qəddarlıq müharibənin sonrakı dövründə erməni qoşunlarının fəaliyyətinin səciyyəvi xüsusiyyətinə çevrildi (25,Ş s.13-14)".

Meksika, Pakistan və digər ölkələrin parlamentləri də Xocalı soyqırımını tanıyan sənədlər qəbul ediblər (9, s.3).

Xocalı soyqırımının təbliği yeni mərhələyə qədəm qoyub. Göründüyü kimi, Xocalı soyqırımının beynəlxalq miqyasda tanınması istiqamətində həyata keçirilən tədbirlər yeni mərhələyə qədəm qoyub. Bu mərhələdə Xocalı soyqırımı, ümumilikdə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatların, faktların, fotoşəkillərin dəqiqliyinə xüsusi diqqət yetirilməlidir ki, düşmənlərimiz bundan əleyhimizə istifadə edə bilməsinlər. Erməni yalanlarının qarşısının alınması üçün ən səmərəli yol Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması və ayrı-ayrı ölkələrin parlamentlərində tanınmasına nail olmaqdır. Bu işdə isə hər bir azərbaycanlı fəal olmalı və əsl vətəndaşlıq mövqeyini ortaya qoymalıdır.

Tarixi ədalətsizliyə son qoyub 30 ildən artıq işğalda qalan torpaqlarımızı azad etməyə nail olmuş Azərbaycan Respublikasının silahlı qüvvələri və cənab Ali Baş Komandan İlham Əliyev müasir siyasi arenada layiqli yer tutan Azərbaycanın bir daha Xocalı faciəsi kimi ədalətsizliklə üzləşməyəcəyinin, ərazi bütövlüyümüzə qarşı yönələcək hər hansı cəhdin qarşısının alınmasının möhkəm qarantıdırlar.

Nəticə. Sonda bir daha bildirmək istəyirəm ki, biz haqq-ədalət tərəfindəyik. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar, hadisələr, qələbələr olub. Onların sırasında 44 günlük Vətən müharibəsi xüsusi yerdədir. Biz ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, Azərbaycan xalqının ümidlərini doğrultduq və bundan sonra da doğruldacağıq. Biz haqlıydıq, biz zəfər çaldıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 cilddə. c. 15. oktyabr, 1997 - dekabr 1997. Bakı: Azərnəşr, 2004, 520 s.
2. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 cilddə. c. 25. fevral, 2000 - mart, 2000. Bakı: Azərnəşr, 2008, 520 s.
3. Əliyev Heydər Müstəqilliyimiz əbədidir: 46 cilddə. c.37. noyabr 2001 - mart 2002. Bakı: Azərnəşr, 2011, 520 s.

4. Əliyev İlham. İnkişaf - məqsədimizdir. 9-cu kitab. mart, 1997 - may, 1997. Bakı: Azərnəşr, 2000, 400 s.
5. Əliyev İlham. İnkişaf - məqsədimizdir. 50-ci kitab. fevral 2012 - aprel 2012. Bakı: Azərnəşr, 2017, 400 s.
6. Əliyev İlham. İnkişaf - məqsədimizdir. 112-ci kitab. may 2021 - iyun 2021. Bakı: Azərnəşr, 2021, 392 s.
7. Əhmədov.E. Ermənistanın Azərbaycana təcavüzü: təhlilli xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı, 2012, 912 s.
8. Əhmədov.E. Xocalı soyqırımı – Ermənistanın Azərbaycan xalqına qarşı beynəlxalq cinayətinin tərkib hissəsi. Xalq qəzeti, 2021 25 fevral. - s.3.
9. Ensərov Vəfalı, Qafarov Anar. Xocalı soyqırımı xarici ölkələrin mətbuatında. Bakı: İKSAD Publishing House, 2020, 108 s.
10. Hüseynova İradə. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı, Təhsil, 2004, 472 s.
11. Hüseynova İradə. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çavuşoğlu, 2008, 672 s.
12. Hüseynova İradə. Zəfər tariximizin şanlı səhifələri. Bakı: Füyuzat, 2021, 224 s.
13. Hüseynli Qabil. Xocalı soyqırımı. Respublika. - 2020. - 27 fevral. - s.6.
14. Məmmədli Atamoğlan. Gəlmələr. Ermənistanın gerçək tarixi. Bakı, Regionların İnkişafı İctimai Birliyi, 2015, 440 s.
15. Xocalı soyqırımı. Respublika. 11 aprel 2018, s.4.
16. İmanov Kamran. Erməni yadelli nağılları. Bakı, Qafqaz Universiteti Yayınları, 2013, 325 s.
17. Xocalı soyqırımının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // Respublika 18 yanvar 2012, s.1.
18. Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər). Bakı, AR Prezidenti Yanında Elmin inkişaf fondu, 2016, 520 s.
19. Qazıyev Yusif. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlar, 2009, 344 s.
20. Qafqazda "erməni məsələsi" Rusiya arxiv sənədləri və nəşrləri üzrə: III cilddə. 1-ci cild. 1724-1904. Bakı: Elm, 2010, 713 s.
21. Qafqazda "erməni məsələsi" Rusiya arxiv sənədləri və nəşrləri üzrə: 3 cilddə. 2-ci cild. 1905-1906. Bakı: Elm, 2010, 616 s.
22. Qafqazda "erməni məsələsi" Rusiya arxiv sənədləri və nəşrləri üzrə: 3 cilddə. 3-cü cild. 1906-1914. - Bakı: Elm, 2010. - 348 s.
23. Zori Balayan Xocalıda türklərə soyqırımı törədildiyini etiraf edib // 525. 9 fevral 2007, s.4.
24. Гусейнов Ризван. Азербайджан и армянский вопрос на Кавказе. Баку: Элм: 2015, 306 с.
25. Из серии «Карабахские реалии». Фонд Гейдар Алиева. Баку: 2006.

ИРАДА ГУСЕЙНОВА
Заведующая кафедрой «История народов Кавказа»
Бакинского Государственного университета,
доктор исторических наук, профессор

ХОДЖАЛИНСКАЯ РЕЗНЯ КАК РЕЗУЛЬТАТ ЯРОГО НАЦИОНАЛИЗМА И ТЕРРОРИЗМА, ОСУЩЕСТВЛЯЕМОГО АРМЕНИЕЙ НА ГОСУДАРСТВЕННОМ УРОВНЕ

В статье отражены исторические предпосылки, ведущие к Ходжалиснкой трагедии, раскрыта суть ряда фальсификаций армянских шовинистов, пытавшихся так закрепить свои необоснованные претензии на территории Азербайджана. Показаны основные этапы переселения армян в регион, и геополитические амбиции ряда великих держав, способствовавших этому. Отмечена роль общенационального лидера Азербайджана Гейдар Алиева в вопросе

обьективной юридической оценки Ходжалинским событиям и освещении данной темы на международном уровне.

Ключевые слова: Гейдар Алиев, геноцид, Карабах, территориальная целостность, террор.

IRADA HUSEYNOVA
Head of the Department of History of Caucasian Peoples of Baku State University,
Doctor of Historical Sciences, Professor

KHOJALY MASSACRE: AS A RESULT OF STRONG NATIONALISM AND TERRORISM CARRIED OUT BY ARMENIA AT THE STATE LEVEL

The article reflects the historical factors leading to the Khojaly tragedy, the essence of a number of falsifications by Armenian chauvinists trying to cover up their baseless claims to the territories of Azerbaijan. The main stages of the resettlement of Armenians in the region, the geopolitical ambitions of a number of major powers that support it were exposed. The exceptional role of national leader Heydar Aliyev in giving an objective legal assessment to the Khojaly incident and covering this tragedy in the international arena was stressed

Keywords: Heydar Aliyev, genocide, Karabakh, territorial integrity, terror.

Məqalənin redaksiyaya daxil olduğu tarix:05 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. İsmayıl Məmmədov.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

АБУТАЛЫБ ДЖАЛИЛОВ
доктор философии по истории,
доцент Бакинского Государственного Университета
talib.jalilov@gmail.com

МАРТОВСКИЕ СОБЫТИЯ 1918 Г.- КРОВАВЫЙ СЛЕД В ИСТОРИИ АЗЕРБАЙДЖАНА

Статья посвящена одному из драматических событий в истории азербайджанского народа - «мартовскому геноциду» 1918 г. В ней на основе анализа существующих источников и исторической литературы рассматриваются кровавые злодеяния большевистско-дашнакских сил в отношении мирных жителей Азербайджана.

Ключевые слова: мартовский геноцид 1918, цели организаторов геноцида, оценка событий последствий геноцида.

***

Введение. Читая значение слова геноцид в различных энциклопедиях, словарях обращаешь внимание на то, что-то зловещие исходит от этого слова. Геноцид - действия, направленные на уничтожение (полностью или частично) целых групп населения по рассовым, этническим или религиозным признакам, а также умышленное создание жизненных условий, рассчитанных на физическое уничтожение этих групп.

Азербайджанский народ не раз испытал в своей современной истории эту страшную трагедию.

***

Мартовские события 1918 года оставили кровавый след в истории нашего народа. В истории азербайджанского народа таких страшных событий было достаточно. Разве только недавно сформировалась потенциальная ненависть армян к тюрко-мусальманским народам? Конечно, нет. Идея ненависти в психологии и идеологии армянства сформировалась давно, что выражалось в деятельности различных организаций, на примере партии «Дашнакцутюн», в воспитании молодого поколения и др. При складывании определенных условий в ход пускалась политика национального геноцида тюрко-мусульманского населения. Кровавым преследованиям большвистско-дашнакских бандитских военных соединений подверглись не только азербайджанцы, но другие народы, населяющие Азербайджан.

Фактический в политический оборот концепцию «геноцид азербайджанцев» ввел общенациональный лидер Гейдар Алиев. В известном указе президента от 26 марта 1998 года - 31 марта был объявлен «Днем геноцида азербайджанцев».

В связи с событиями марта 1918 года невольно возникает вопрос - кому это было нужно, кому это выгодно? Это было кровавый военно-политический союз большевиков и партии «Дашнакцутюн» направленный против Азербайджанского национального движения и всего мусульманского населения.

Интересно отметить, что на открытии общекавказского мусульманского съезда, проходивший в Баку с 15 по 20 апреля 1917 г., Алимарданбек Топчубашев заявил, что «политика старого русского правительства в отношении к населяющим Россию нерусским народностям была политикой разъединения, политикой натравливания этих народов против друг друга. Столкновение между армянами и азербайджанцами объясняется именно этой зловредной политикой человеконенавистничества… »(3,с.7).

Можно с уверенностью сказать, что данная политика «строго русского правительства» была взята за основу политической деятельности большевистского правительства захватившего власть в Баку и объявившую здесь Советскую власть 2 ноября 1917 г. Председателем Бакинского совета был избран С. Шаумян. Хотя известно, что еще 16 декабря 1917 г. Декретом за подписью В.И. Ленина он был назначен чрезвычайным комиссаром по делам Кавказа.

Накануне мартовских событий 1918 г «опасаясь утраты власти в Баку, последнем оплоте своих политических амбиции на Кавказе» С. Шаумян сформировал военный альянс большевиков с партией дашнаков и Армянским национальным советом, которые располагали значительными военными силами (6,48). Уже 15 марта 1918г. между Бакинским Советом и партией «Дашнакцутюн», а также с другими армянскими организациями было подписано секретное соглашение о расправе над тюрко-мусульманским населением города. Накануне мартовских событий 1918 г большевики вопросу вооружения армянских военных формирований проявляли особую заботу. С этой целью необходимо остановиться на документе от 16 марта 1918 г. за подписью И.Сталина, который в тот момент являлся комиссаром по делам национальностей. В данном документе советским учреждениям ставилось в известность, что «армянские революционные организации имеют право свободного формирования армянских добровольческих отрядов и обложения армянской буржуазии в целях финансирования последних » (см.7, с.14). Накануне погромов руководство Бакинского совета любыми средствами пыталось разоружить мусульманское население и оставить ее беззащитным перед реальной угрозой уничтожения. Было несколько попыток спровоцировать тюрко-мусульманское население Баку. Одним из них явился арест командира мусульманского корпуса генерала Халилбека Талышинского 6 январе 1918 г. Следующим шагом стало разоружение большевиками офицеров-мусульман 24 марта 1918г. на пароходе «Эвелина», направлявшегося в Ленкорань. Это событие стало последним в ходе подготовки и реализации плана геноцида в отношении мусульманского населения. Это был заранее подготовленный, планомерный акт.

Каковы же были цели руководства Бакинского Совета в осуществлении геноцида тюрко-мусульманского населения?

1.Реализовать план советской России по захвату Баку и завладение нефтяными богатствами Азербайджана;

2.Уничтожать социальную базу партии «Мусават»;

3.Уничтожать национальные политические силы, обезглавить освободительное движение азербайджанского народа;

4.Уничтожить идею национальной независимости Азербайджана.

Вот они истинные цели врагов, выступающие против национальной независимости Азербайджана. И неслучайно, начав кровавую бойню в Баку, большевистко-дашнакские руководители распространили его и на другие регионы Азербайджана. Во всех регионах Азербайджана-Баку, Губа, Шеки, Шамахы, Ленкорань, Нахчыван и др. территориях организованный геноцид был заранее спланированной акцией (1, с.123).

Неслучайно, что современники этих событий квалифицировали мартовские события как национальную резню. В газете «Гуммет» 3 апреля 1918 г. было опубликовано письмо Наримана Нариманова С.Шаумяну и А.Джапаридзе, в котором подчеркивалось, что «…. эти события запятнали Советскую власть, бросив на нее черную тень. Если вы в ближайшее время не рассеете эту тень и не сотрете пятно, большевистская идея и Советская власть не смогут укрепиться и продержаться здесь. Вы знаете, что власть взятая силой оружия, не может удержаться долго, если она не будет пользоваться авторитетом в массе » (8, с.123). Эти слова стали пророческими, истинные цели Бакинского Совета озвучил сам С. Шаумян, который после трагических событий 1918 г. в своем донесении правительству советской России писал: « Мы шли сознательно на это. Результаты боев блестящие для нас. Разгром противника был полнейший. У «Дашнакцутюн» имелось около 3-4 тысяч национальных частей, которые были в нашем распоряжении. Если б в Баку взяли верх мусульманские контрреволюционеры, город был бы объявлен столицей Азербайджана…Их победа в Баку привела бы к потере Закавказья» (10, с.246). В этих словах истинная цель главного организатора мартовских событий, палача тюркско-мусульманского населения Азербайджана. Российский историк А.Ю. Безугольный, обращаясь и к событиям рассматриваемого периода и выделяя истинные цели Бакинских коммунаров отмечал, что «другой особенностью революционной практики коммунаров была их готовность сотрудничать едва ли не с любыми политическими силами ради удержания

этого важнейшего для экономики Советской России региона (имеется в виду Баку с его нефтяными районами. - А.Дж.) (4, с.51).

Таким образом, истинные организаторы трагических событий марта 1918г. их цели были ясны уже до их начала.

Какую же цену заплатила тюрко-мусульманское население Азербайджана?

Она оказалось ужасной. Десятки тысяч мирных, практически безоружных представителей тюрко-мусульманского населения, представители других национальностей истреблялись только из-за своей этнической принадлежности (см.: 7, с.16-17). Материалы чрезвычайной следственной комиссии свидетельствует о том, что только в Баку и его окрестностях жертвами геноцида тюрко-мусульманского населения стали около 12 тысяч человек.

Армяне, не удовлетворившись убийствами мирных жителей, одновременно ограбили и подожгли известные общественные и личные здания. Фотографии сделанные Литвиновым по заданию Председателя Чрезвычайной следственной комиссии стали наглядными примерами вандализма большевистско-армянского блока в марте 1918 г. Достаточно увидеть обгоревшее и разрушенное здание «Исмаиле»- принадлежавшее мусульманскому благотворительному обществу (см.2, с.9).

Немецкий историк Йорг Баберовский говоря о событиях в Шемахе пишет, что « в середине апреля 1918 г. армянская группировка дашнакского офицера Степана Лалаева проникла в район Шемахи, выполняя официальную директиву Коммуны. Около 30 тысяч жителей города были зверски убиты или изгнаны …Укрывшийся в мечетях жители были сожжены заживо…» (5, с.136).

Аналогичные события произошли в конце апреля 1918 г. в Губинском уезде, куда прибыл отряд дашнаков под командованием Амазапса. Отряд был отправлен сюда С. Шаумяном. Итог деятельности армян-дашнаков: сожжено 122 селения, за один день только в Губе было убито 2000 жителей города и разрушено 150 домов в центре. В 2007 г. во время строительства в Губе стадиона было обнаружено массовое захоронение. Останки принадлежат местном жителям различных национальностей, подвергшихся в 1918г. массовой резне, среди убитых были не только лица тюрко-мусульманской национальности, но и лезгин и евреев, представителей других национальностей. Сейчас здесь создан мемориал, просвещенный памяти жертв геноцида.

Сеид Джафар Пишевари в своей статье: «Судьба первого советского правительство в Баку» писал: «Я своими глазами видел зверства дашнаков, бесчисленные убийства ни в чем неповинных людей… Это было трагическое и омерзительное движение » (9, с.68).

***

Заключение. Таким образом, большевистско-дашнакские силы Бакинского Совета в событиях марта 1918 г. действовали по заранее подготовленному сценарию и планомерно осуществили свою преступную акцию - массовый геноцид азербайджанцев. По разным данным жертвами геноцида в Азербайджане стали до 50 тысяч азербайджанцев.

Однако процесс притеснения, дискриминации, враждебности к азербайджанскому народу продолжался и в последующие периоды существования уже Советской власти.

Достаточно вспомнить преславутое решение Совета Министров СССР от 23 декабря 1947 г. «О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Арансинскую низменность Азербайджанской ССР». В итоге более 150 тысяч азербайджанцев были переселены с их исторических мест проживания. Разве это не геноцид?

Необоснованные притязания армян на исторические земли Азербайджана, события конца 80-х начала 90-х годов XX века, 30-летняя оккупация Арменией 20% азербайджанских территорий, Ходжалинская трагедия. Разве это не геноцид?

Однако справедливость должна была восторжевовать. Так и случилось. 44-х дневная война показала всему миру силу Азербайджана в защите своих исконных прав. Азербайджанская армия во главе с главнокомандующим Ильхамом Алиевым на голову разбила хваленную армию Армении и принесла мир в дом каждого азербайджанца, на древние земли Азербайджана.

ЛИТЕРАТУРА

1. Azərbaycan xalqlarına qarşı 1918-ci il soyqırımları. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, 408 s.
2. Abışov Vaqif. Bakıda Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Bakı: Elm, 2017, 220 s.
3. Балаев Айдын. Азербайджанское национально-демократическое движение. Баку: Элм, 1990, 95 с.
4. Безугольный А.Ю. Генерал Бичерахов и его Кавказская армия.1917-1929. Москва: Центрополиграф, 2011, 348 с.
5. Баберовский И. Враг есть везде. Сталинизм на Кавказе. Москва: Российская политическая энциклопедия, 2010, 658 с.
6. Исмаилов Эльдар. Анастас Микаян-он проходил между струй. Фрагмент политической биографии одного кремлевского долгожителя. Баку: Şərq-Qərb, 2013, 384 с.
7. Махмудов Ягуб. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 годах. Баку: ИПО Туркан, 2015, 100 с.
8. Нариманов Н. Избранные произведения т.2: 1918-1921. Баку: Азернешр, 1989, 768 с.
9. Pişəvəri M.C. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1984, 429 s.
10. Шаумян С.Г. Избранные произведения. Москва: Политиздат, 1978, 515 с.

ABUTALIB CƏLİLOV
tarix üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universitetinin dosenti

1918-CI IL MART HADİSƏLƏRI – AZƏRBAYCAN TARİXİNDƏ QANLI İZDİR

Məqalə Azərbaycan xalqının tarixində dramatik hadisələrdindən biri olan – 1918-ci il mart soyqırımına həsr edilmişdir. Məqalədə mövcud mənbə və tarixi ədəbiyyat əsasında bolşevik-daşnak qüvvələrinin Azərbaycanın dinc əhalisinə qarşı qanlı faciəsi nəzərdən keçirilir.

Açar sözlər: 1918-ci il mart soyqırımı, soyqırım təşkil edənlərin məqsədi, soyqırımın nəticələri.

ABUTALIB JALILOV
Associate Professor of Baku State University

MARCH EVENTS OF 1918- A BLOODY TRACE IN THE HISTORY OF AZERBAIJAN

The article is devoted to one of the dramatic events in the history of the Azerbaijan people-the “Mach genocide of 1918“. Based on the analysis and historical literature, it examines the bloody atrocities of the Bolshevik-Dashnak forces against civilians in Azerbaijan.

Keywords: March genocide 1918, The goals of the organizers of the genocide, assessment of the consequences of the genocide.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 yanvar 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. İbrahim Zeynalov.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

АЗАД РЗАЕВ
доктор философии по истории,
доцент Бакинского Государственного Университета
azad_rzayev@mail.ru

АЛИ АЛИЕВ
старший научный сотрудник БМА имени У.Гаджибекова
TarixVeOnunProblemleri@gmail.com

ПОЗИЦИИ ПОЛИТИЧЕСКИХ ПАРТИЙ И ОРГАНИЗАЦИЙ НАКАНУНЕ И В ХОДЕ МАРТОВСКИХ (1918 г.) СОБЫТИЙ В БАКУ

В представленной статье сделана попытка на основе архивных материалов и свидетельств очевидцев дать объективный непредвзятый анализ позиций политических партий и организаций накануне и в ходе мартовских событий 1918г. в Баку и его пригородов. Эти события имели характер межэтнических столкновений, а конкретнее геноцид в отношении тысяч мусульман со стороны армянских вооруженных отрядов составивших основу Красной гвардии Бакинского Совета, во главе которого стоял ярый враг азербайджанского народа С. Шаумян.

Ключевые слова: национально-освободительное движение, политические партии, мартовские события 1918 года, геноцид азербайджанского народа.

Введение. Мартовские события 1918 года по масштабу и последствиям одни из самых трагических событий в истории Азербайджана. В результате злодеяний коварных армян был осуществлен акт геноцида в результате которых погибли десятки тысяч азербайджанцев из числа мирного населения Баку и прилегающих к нему пригородов. Они стали жертвами на пути реализации армянскими националистами идеи создания на наших исторических землях вымышленного армянского государства.

***

Позволим себе отметить, что долгие годы азербайджанские советские историки в своих исследованиях старались доказать закономерность победы большевиков и установления советской власти в Баку в ноябре 1917 г. Однако всё на самом деле было наоборот. Если большевики 31 октября и 2 ноября 1917 г. и захватили руководство Бакинским Советом, где эсеры, меньшевики и дашнаки составляли большинство, то это еще не означало полного захвата ими власти. Большевикам удалось временно укрепить свои политические позиции лишь после мартовских событий в Баку 1918 г. Эти события носили характер межэтнический столкновений, которые привели к многотысячным жертвам, в основном среди мусульманского населения Баку и его пригородов. Главным организатором мартовского геноцида стало руководство Бакинского Совета во главе с С.Шаумяном. Общенациональный лидер Азербайджана Г.Алиев, выступая 31 января 1997г. на встрече с руководством Академии наук заявил: «В свое время, что нам диктовала идеология, то мы и воспринимали. Я с 1969 года возглавлял Азербайджанскую Республику. В те годы мы отмечали юбилеи 26 бакинских комиссаров. В том числе и юбилеи Шаумяна. Хоть один историк сказал, что написанное о Шаумяне является неправдой, что надо писать по другому? Ни один историк этого не сказал… Все приводили такие слова Шаумяна, что можно было прийти к выводу, что он - гений» [1, s.369].

После обретения Азербайджанской республикой независимости (октябрь 1991г.) по инициативе Общенационального лидера Гейдара Алиева началось изучение и донесение до мировой общественности реалий совершенного 31 марта 1918г. армянами геноцида нашего народа. Исторически значимым указом Гейдара Алиева «О геноциде азербайджанцев», изданном 26 марта 1998 года, 31 марта был объявлен «Днем геноцида азербайджанцев» (в

период существования АДР 31 марта 1919г. и 1920г. были объявлены днями народной скорби - А.А., А.Р.).

Вовлечение в научный оборот большого количества ранее не обнародованных документов из отечественных и зарубежных архивов позволили нам, азербайджанским историкам по- новому оценить многие трагические события истории Азербайджана и в особенности периода существования Азербайджанской Демократической Республики (1918-1920).

Отмеченные обстоятельства позволяют нам на основе широко круга архивных источников и документов, свидетельств очевидцев приступить к детальному выяснению позиций дать практической деятельности различных политических партий и организаций накануне и в ходе мартовских событий 1918г. в Баку.

Конец первой мировой войны ознаменовал коренной перелом в судьбах, как самой России, так и всех населяющих ее народов, и не в последнею очередь народов Южного Кавказа. Национально-освободительное движение в Азербайджане вступило в качественно новый этап своего развития, идея достижения национальной независимости приобрела реальное практическое воплощение в образе первой в мусульманском мире демократической республики.

Свержение в ходе Февральской революции (1917 г.) самодержавия в России стали причиной острых политических процессов на её национальных окраинах. Лидер азербайджанского национального движения начала XX века М.Э.Расулзаде справедливо отмечал, что “февральская революция свершилась в результате все нарастающего напора двух важнейших сил: с одной стороны, обездоленные классы, а с другой стороны, порабощенные народы требовали свои права” [23, с.28].

После февральской революции на Южном Кавказе стало очевидным реальное несовпадение политических целей и устремлений, функционировавших в этом регионе трех национальных движений (грузинского, азербайджанского и армянского). Особенно серьезные расхождения наблюдались между азербайджанским и армянским национальными движениями. Партия “Дашнакцутюн”, фактически руководившая армянским национальным движением, определяя географическое пространство будущей армянской автономии в регионе, включала в его состав обширные исторические земли Азербайджана и Грузии. Последнее было возможным лишь в результате масштабных “этнических чисток” [3, с.48]. Последовавший вслед за февральской революцией большевистский переворот в России (октябрь 1917) и их политика в отношении проблем будущего армянского государства активизировали деятельность армянских националистов по завладению значительной части оружия и боеприпасов, оставленных Русскими войсками после того как последние покидали Кавказский фронт по причине ликвидации последнего. Лидеры армянской националистической партии « Дашнакцутюн» решили воспользоваться сложившейся ситуацией для захвата власти. Стремясь задержать в Баку армянских солдат, возвращавшихся с фронта и использовать их в готовящемся вооруженном сражении, Армянский Национальный Совет в начале марта 1918 г. обратился с воззванием «К армянским воинам» и в слегка завуалированной форме призывал их держать оружие при себе и быть готовыми применить его везде, где этого потребует защита интересов армянской нации [6, ф.276, оп.8, д.155, л. 8].

Обращая внимание руководства Закавказского Сейма (создан в феврале 1918 г. на месте Закавказского комиссариата) на отмеченные обстоятельства депутат от Азербайджана А.Кантемиров отмечал, что “после ухода русской армии, когда начался дележ всего наследия этой армии, наименее причастным к этому дележу оказалось азербайджанское крестьянство. Все нашли, что азербайджанскому крестьянству это оружие совершенно не нужно” Примечательно, что азербайджанцам было отказано в выдаче 500 винтовок даже для правительственной милиции Бакинской губернии, в то время как грузины и армяне имели возможность получить оружие по максимуму своих требований [7, с.35]. Забегая вперед позволим себе отметить, что ответственность за развязывание мартовских событий 1918 года в Баку и некоторых других регионах Азербайджана, наряду с большевистско - дашнакскими лидерами Бакинского Совета, несут и руководители Закавказского Сейма

Перед лицом такой опасности - отмечает в своей моногрвфии Дж. Гасанлы мусульманские общества сочли нужным создание сил самообороны и мусульманских воинских формирований» [14, с.101].

Обозначившийся в Азербайджане после февральской революции подъем национально-освободительного движения, рост авторитета партии «Мусават» и расширение его социальной базы в лице мусульманского населения стали серьёзным препятствием для реализации агрессивных планов армянских националистов последствий кровавого марта 1918 года. Азербайджанские национальные силы во главе с партией “Мусават” выступали за предоставление Азербайджану национально-территориальной автономии. И хотя в этот период дашнаки и большевики преследовали различные цели, но в вопросе разгрома азербайджанских национальных сил в Баку они оказались абсолютно солидарны. Образование азербайджанской автономии, за что ратовал “Мусават”, было абсолютно неприемлемым не только для большевиков, но и для лидеров “Дашнакцутюн”, которые занимали ключевые позиции в руководстве Бакинского совета рабочих депутатов. Шаумян в феврале 1918 г. в газете «Бакинский рабочий» открыто заявил: «Мусаватисты, желающие автономный Азербайджан, получат в итоге груду развалин» [8]. Создание азербайджанской автономии, прежде всего, противоречило геостратегическим интересам дашнаков. Ведь по замыслу лидеров “Дашнакцутюн”, исторические азербайджанские земли в Закавказье, включая территорию Бакинской и Елисаветпольской (Гянджинской) губернии должны были войти в состав т.н. “Великой Армении от моря до моря” со сплошным армянским населением. В свою очередь, и большевики считали идею азербайджанской автономии главным препятствием на пути распространения своего господства по всему Азербайджану и Закавказью. К тому же большевики, проповедующие идеи классовой борьбы, рассматривали национальную программу мусаватистов как фактор, дезорганизующий и дезориентирующий трудовые массы в этой борьбе. Вот почему они не могли смириться с присутствием, и, тем более, доминированием на политической арене Азербайджана партии «Мусават». Успехи партии приходилось признать даже самым оголтелым её противникам. Руководитель Бакинского совета С.Шаумян, вынужден был констатировать, что “с самого начала самая слабая политическая партия в Закавказье - “Мусават”, которая сорганизовалась во время этой революции, которая не имела никаких организаций, никаких партийных традиций, никакой власти, которая не играла никакой роли в начале революции, к началу второго года после Февральской революции партия “Мусават” оказалась самой сильной политической партией в Закавказье [24, т.2, с.291].

Неслучайно, что вполне обоснованное требование “Мусават” о предоставлении Азербайджану национально-территориальной автономии руководитель Бакинского Совета С.Г. Шаумян интерпретировал как “мечту азербайджанских националистов” сделать Баку “столицей Азербайджанского ханства” [24, т.2, с.257]. Естественное для любого народа стремление к национальному освобождению лидер кавказских большевиков считал проявлением национализма, и такая позиция не могла не привести к трагедии. Таким образом, мартовские события 1918 года были обусловлены антагонистическим по своему характеру политическим противоборством между большевистско-дашнакским альянсом, с одной стороны, и партией “Мусават”, с другой.

Переворот, совершенный большевиками в Петрограде 25 октября 1917 года, в значительной степени предопределил дальнейший ход развития политических процессов в Азербайджане. Известие о большевистском перевороте в Петрограде и свержении Временного правительства достигло Баку на следующий день – 26 октября 1917 года. Азербайджанские национальные организации, в целом, доброжелательно встретили октябрьский переворот, что было продиктовано, в основном, крайним недовольством деятельностью Временного правительства, а вовсе не их симпатиями к большевикам. Уже на следующий день после получения в городе первых известий о большевистском перевороте в Петрограде – 27 октября 1917 года в Баку состоялось экстренное собрание Бакинского Совета с участием представителей различных политических партий, профсоюзов, воинских частей и Каспийской флотилии, обсудившее вопрос о власти в городе. Меньшевикам, эсерам и дашнакам, несмотря на актив-

ное противодействие большевиков, удалось добиться решения о создании Комитета общественной безопасности в качестве высшего государственного органа власти в Баку. Естественно, что большевики, не удовлетворенные подобным решением вопроса, потребовали передачи всей полноты власти в городе Бакинскому Совету. Следует подчеркнуть, что относительную малочисленность своих рядов большевики компенсировали чрезвычайной активностью и почти фанатичной преданностью своим идеалам. Именно-благодаря этим качествам им удалось со второй попытки, 31 октября на конференции расширенного Бакинского Совета добиться своей цели. После того, как меньшевики, правые эсеры и дашнаки в знак протеста против повторного обсуждения вопроса о власти демонстративно покинули заседание, оставшаяся часть Совета, находившаяся теперь под контролем большевиков и левых эсеров, объявила себя высшей властью в городе. Были также переизбраны руководящие органы Совета, в которых ключевые посты, в том числе пост председателя Исполкома, заняли большевики. 2 ноября 1917 года конференция Бакинского Совета провозгласила Советскую власть в Баку. Председателем Исполкома был избран лидер бакинских большевиков С.Шаумян. В укреплении власти большевиков в Баку решающую роль сыграла поддержка их Бакинским гарнизоном, состоявшим преимущественно из русских и армян. Помимо этого С.Шаумян 16 декабря 1917 года специальным декретом за подписью председателя Совета народных комиссаров Советской России В.Ленина был назначен Чрезвычайным комиссаром по делам Кавказа [11, с.256].

Руководство Бакинского совета приступило к созданию органов советской власти по образцу советской России. В первую очередь была создана Красная гвардия, на 70% состоявшая из армян и лиц христианского вероисповедания. Помимо этого руководство Бакинского Совета не заметило факт присутствия в Баку 12 тысяч вооруженных армян [5, ф.276, оп.8, д.155, л. 8].

Руководители Армянского национального совета вступили в тайный сговор с большевиками, В свою очередь Бакинский Совет получил от Советской России военную и финансовую помощь в размере. 30,8 миллиона рублей [19, с.113].

Однако большевикам во главе с С.Г.Шаумяном этого было не достаточно для того чтобы расправиться с национальными силами Азербайджана. И это несмотря на то, что накануне мартовских событий 1918 г. они предпринимали энергичные шаги с целью ускорения процесса формирования частей Красной Армии, и привлечения на свою сторону моряков Каспийской военной флотилии. Так, в письме И.В.Сталину от 16 марта 1918 г. С.Г.Шаумян просил СНК РСФСР ассигновать 10 млн. руб. на нужды Военно-революционного комитета Кавказской Армии [10, с.318].

К середине марта 1918 г. бакинским большевикам удалось увеличить численность своих вооруженных формирований в Баку до 6 тыс. человек, но этого было явно недостаточно для осуществления масштабной карательной операции с целью полной нейтрализации азербайджанских национальных сил во главе с партией “Мусават”.

Бакинские большевики в своей борьбе с национальными силами Азербайджана получили политическую поддержку местных меньшевиков и эсеров. Руководитель бакинских меньшевиков Айолло заверил С.Г. Шаумяна в том, что они будут бороться против панисламизма и социалистов. Аналогичную позицию заняли и местные эсеры. Даже кадеты признали большевиков борцами за “русское дело” и заявили о своей готовности оказать им помощь в борьбе с партией “ Мусават.” Однако более всего бакинские большевики нуждались в военной поддержке в борьбе с “Мусават”, и такую поддержку они могли получить только от партии “Дашнакцутюн” в распоряжение которой имелись достаточно большое количество хорошо вооруженных формирований. Обращая внимание на общность усилий кадетов, большевиков, дашнаков, социалистов” в борьбе с азербайджанцами, печатный орган партии “ Мусават” газета “Ачыг сез” в те дни писала:“...те самые большевики, которые с меньшевиками в течение года душили друг друга, сегодня сдаются кадетам, дашнакам и прочим, капитулируют перед ними... Такое сотрудничество, - продолжала газета, - возможно только на почве национальной борьбы; и что политика натравливания одной нации на другую является трагической

капитуляцией демократии [7].

Таким образом, отказавшись от межпартийных распрей и политических разногласий, большевики и дашнаки заключили в Баку военно-политический союз, направленный своим острием против партии “Мусават”, являвшейся в то время центром Азербайджанского национального движения.

Накануне мартовской трагедии газета «Баку» поместила воззвание партии «Дашнакцутюн» по поводу распространяющихся слухов в Баку о вооруженном наступлении одной части населения против другой (т.е. мусульман и армян). В нем выражалась тревога за обострение межнациональных отношений, которая на руку контрреволюционерам и туркам, угрожающим свободе края. «Центральный комитет партии «Дашнакцутюн», - отмечалось в воззвании, - обращается, поэтому ко всем товарищам и гражданам с категорическим призывом не поддаваться никаким провокациям, быть сдержанными, ни на минуту не терять хладнокровия и строго сохранять революционный порядок [13, с.81].

Руководство Бакинского совета вместо того чтобы остановить процесс создания армянских вооруженных формирований начало репрессии в отношении мусульманского населения города. Первым шагом на этом пути стало разоружение нескольких сот офицеров и солдат на пароходе «Эвелина», которые прибыли в Баку для участия в похоронах сына азербайджанского миллионера Г.З.Тагиева - М.Тагиева. В свою очередь армяне распустили среди русского населения города слух о том, арестованные офицеры намеривались применить вооруженную против жителей русско-молоканских сел на Мугани. Разоружение азербайджанских солдат и офицеров вызвало справедливое возмущение азербайджанского населения Баку и его пригодных окрестностей. 30 марта с утра в различных районах города начались стихийные митинги азербайджанцев требовавших освобождения арестованных офицеров и возвращения им оружия. Впоследствии А.Хасмамедов - председатель Чрезвычайной следственной комиссии АДР по исследованию мартовских событий писал по этому поводу следующее: «мусульмане видели, что армяне их вызывают на выступление, но, желая братоубийственной войны и её последствий призывали мусульманский народ сохранять спокойствие и терпеливость» [17].

В этот же день состоялось экстренное заседание руководителей военных организаций Бакинского совета. Было принято решение о создание Революционного комитета обороны. Этот комитет был объявленным высшим военно-политическим органом в Баку и его районах. В состав этого комитета руководившем истреблением азербайджанцев вошли С.Шаумян, Г.Карганов, П.Джапаридзе. В его состав был также приглашён руководитель Бакинской организации «Дашнакцутюн» - С.Мелик-Бончян [9, с.169].

Для предотвращения дальнейшей эскалации глава партии «Мусават» М.Э.Расулзаде пошел на переговоры с большевиками и ему удалось договориться с ними о возвращении отобранного оружия. Однако в момент его передачи последовал провокационный обстрел отряда Красной Армии, что дало большевикам повод начать крупномасштабную операцию против мирного азербайджанского населения Баку. Объявившие в начале мартовских событий свой нейтралитет «Дашнакцутюн» и «Армянский национальный совет» перешли на сторону Бакинского Совета.

Глава Бакинского совета писал по этому поводу следующее: «мы воспользовались поводом, первой попыткой вооруженного нападения на наш конный отряд и открыли наступление по всему фронту… у нас были уже вооруженные силы около 6 тысяч человек. У «Дашнакцутюн» имелось также около 3-4 тысяч национальных частей, которые были в нашем распоряжении. Участие последних придало отчасти гражданской войне характер национальной резни, но избежать этого не было возможности. Мы шли сознательно на это. Если б они взяли верх в Баку, город был бы объявлен столицей Азербайджана» [24, т.II, с.246]. А один из тогдашних лидеров партии «Дашнакцутюн» Ов. Качазнуни оправдывал активное участие армянских формирований в мартовских событиях тем обстоятельством, что «с точки зрения безопасности армянского населения в Баку, диктатура большевиков была значительно приемлемее, чем диктатура «Мусавата» [21, с.21].

С 30 марта по 1 апреля 1918 года в Баку и его окрестностях отмечались невиданные акты геноцида, жертвами которых согласно обобщающему отчёту Чрезвычайной следственной комиссии стали 12 тыс. азербайджанцев. (5, ф.277, оп.2, д.27, лл.16-24.) Населенные азербайджанцами кварталы «Маммедли» и другие были подвергнуты подлинному разгрому. Общественные здания, очаги культуры, принадлежавшие азербайджанцам, были разрушены. Редакции газет «Каспий», «Ачыг сёз», здание «Исмаиллие», где было расположено Мусульманское Благотворительное общество, были сожжены. «Свершилось! Кровь полилась ручьями, и трупы перебитых лежали по улицам на протяжении нескольких верст, - иллюстрировала прошедшие кровавые дни газета «Известия Советов рабочих и солдатских депутатов Бакинского района», издаваемая большевиками. - Мостовые города во многих местах были залиты запекшейся кровью и облеплены кусками человеческих мозгов. Жужжали пули, гремели орудия, дома превращались в развалины, стонали люди, лилась кровь, и ужас, безграничный ужас охватил всех…» [12]. «Известия» Советов отождествляли прошедшие события с уже имевшей место в Баку межнациональной распрей в феврале 1905 года. Газета умышленно всю вину за происшедшее взваливала на Дикую дивизию, утверждая, что азербайджанские кавалеристы расформировавшегося конного полка Кавказской туземной дивизии спровоцировали и осуществили неслыханную резню мирного трудового населения города. В свою очередь печатный орган бакинских большевиков газета «Бакинский рабочий», восторженно отмечала, что «контрреволюция в Баку разбита наголову», что слишком уверенные в своей победе мусаватисты «разбиты легко, без особенного напряжения сил с нашей стороны», имея в виду брошенные против безоружного населения города «Красную гвардию, Красную армию» [12]. В то же время не питавшая особых симпатий к азербайджанцам и партии «Мусават», меньшевистская газета «Наш голос» квалифицировала мартовские события как национальную резню, за что сразу была закрыта постановлением т.н. «Комитета революционной обороны», «ввиду появившихся в ней не отвечающих действительности оценке [12]. Населенные азербайджанцами кварталы «Маммедли» и другие были подвергнуты подлинному разгрому. Общественные здания, очаги культуры, принадлежавшие азербайджанцам, были разрушены. Редакции газет «Каспий», «Ачыг сёз», здание «Исмаиллие», где было расположено Мусульманское Благотворительное общество были сожжены. Н.Нариманов в письме Шаумяну и Джапаридзе, подчеркивал, что «эти события запятнали и очернили Советскую власть», Если вы в ближайшее время не разорвёте эту чёрную завесу и не снимете это пятно, большевистская мысль и Советская власть здесь не удержиться [23, т. II, с. 123].

В свою очередь лидер партии «Мусават» М.Э.Расулзаде отмечал: «В мартовских событиях обвиняли «Мусават». Это было совершенно безосновательно, т.к. для объявления войны нужно было располагать хоть какой-нибудь физической силой, которой у «Мусават» не было» [4]. Сам факт отсутствия у азербайджанцев, в том числе у партии «Мусават», накануне мартовских событий в Баку и его окрестностях сколь-нибудь крупных воинских формирований позже подтверждали и первые советские исследователи, при всей своей тенденциозности, раскрывающие суть происходивших в марте 1918 г. событий [3, с.49].

М.Э.Расулзаде охарактеризовав произошедшую трагедию как национальную резню, отмечал, что число уничтоженных мусульман доходило до 10 тысяч человек, подавляющую часть которых составляли рабочие и обездоленные слои населения, среди них тысячи женщин, детей и людей, не способных носить оружие [16, ф.894, оп.10, д.148, л.30].

Ужасающие масштабы зверств, свидетельствуют о том, что главной целью большевистских и дашнакских банд являлось физическое уничтожение азербайджанцев с последующим захватом их имущества и переходом политической власти в Баку в руки армян и большевиков [15, с.8].

Мартовские события в Баку имели продолжение в уездах. В первых числах апреля были совершены дашнакско-большевистские погромы в Шамахы, Губе, Хачмазе, Лянкяране, Аджигабуле и Сальянах.

В результате массовой резни азербайджанцев, устроенной в марте 1918 года большевиками и дашнаками им удалось временно захватить власть в Баку, но последствия этих

трагических событий оказались плачевными для этого альянса и нанесли ощутимый удар по их стратегическим интересам на Южном Кавказе.

Мартовский геноцид в Баку и в ряде уездов Азербайджана был чудовищным преступлением, актом геноцида совершенным Бакинским советом в союзе с армянскими националистами в отношении азербайджанского народ. Его трагические последствия актуализировали задачу обретения азербайджанским народом политической независимости и возрождения утраченной в первой половине XIX века государственности.

2 апреля 1918г. Закавказский Сейм (был создан в феврале 1918г. и состоял из трех фракций представлявших интересы трёх народов Кавказа - азербайджанцев, армян и грузин – А.А.) был информирован о массовой резне в Баку и его окрестностях. Азербайджанский историк А.Балаев в своей монографии пишет по этому поводу следующее: представители армянской фракции заявили о том, что «будущая власть в Баку должна быть не чисто азербайджанской, а интернациональной и армянские вооруженные формирования должны оставаться в городе» [9, с.178]. Это предложение было подвергнуто резкой критике представителями азербайджанской фракцией которые категорически заявили о том, что вся власть в Баку и Восточном Закавказье должна принадлежать азербайджанцам. Армянская и грузинская фракции фактически проигнорировали трагическую реальность мартовских событий и тем самым фактически одобрили кровавые акты Бакинского совета. Позиция, занятая Закавказским Сеймом в отношении мартовских событий, а также возникшие во время Трабзонских переговоров с Турцией проблемы окончательно подорвали доверие политических сил Азербайджана к этому законодательному органу. С каждым днем становилось все более очевидным, что представители трех основных фракций Сейма: азербайджанской, грузинской и армянской - не находят общего языка и не имеют единой программы. Каждая нация все более открыто стремилась к достижению своих стратегических целей, которые не только не совпадали, но и противоречили друг другу. В частности об этом пишет видный азербайджанский учёный Т.К.Кочарли: «грузины стремились реализовать свои национальные чаяния с помощью Германии, армяне оставались верными своей традиционной пророссийской ориентации, а азербайджанцы пытались получить поддержку Турции» [20, с.88].

Ход дальнейших событий показал, что деятельность этой государственной структуры обречена на распад. В этих условиях самороспуск 26 мая 1918 года Закавказского Сейма стал лишь закономерным итогом происходящих в регионе политических процессов и подтверждением невозможности добровольного сосуществования трех республик Южного Кавказа в 28 мая 1918 года, на первом заседании Национального Совета был принят «Акт о независимости Азербайджана», юридически закреплявший факт создания нового государства – Азербайджанской Демократической Республики (АДР). В составе АДР находились Нахчыванский и Шарур-Даралгезский уезды, часть Ново-Баязетского и Эриванского уездов, Закатальский округ, Бакинская и Елисаветпольская (Гянджа) губернии, в пределы которой входила территория Карабахского региона. Согласно меморандуму генерального секретаря Лиги Наций площадь АДР была равна 104 000 кв.км. [1, s.124].

Заключение. Таким образом, представленный анализ позиций политических партий и организаций накануне и в ходе мартовских событий 1918 года актуализирует необходимость их должного научного осмысления и обращения к исторической памяти азербайджанского народа. 18 сентября 2013 года по указанию президента Азербайджана И.Алиева и при поддержке Фонда Гейдара Алиева в городе Губе был открыт «Мемориальный Комплекс Геноцида» для увековечения памяти погибших в результате геноцида армян против азербайджанцев. Его открытие можно считать одним из важнейших событий в истории независимого развития Азербайджанской республики.

ЛИТЕРАТУРА

1. Azərbaycan tarixi. Ali mərtəblər üçün mühazirələr kursu. II hissə (XIX-XXI əsrin əvvəli). Bakı, Bakı Universiteti nəşriyyatı, 2010, 264 s.

2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkinci kitab. Noyabr, 1996 mart -1997. Bakı, Azərnəşr, 1998, 520 s.
3. Абышов В. Ш. Политическая ситуация в Баку в 1917-1918 гг. в советской историографии 1920-х гг. / В.Ш. Абышов //Вестник Российского университета дружбы народов. Серия: История России, 2014, №4, с.48-56.
4. Азербайджан (Баку), 1919 г., 6 декабря.
5. Архив политических документов Управления делами при Президенте Азербайджанской Республики ф.277, оп.2, д.27, лл.16-24..
6. Архив политических документов Управления делами при Президенте Азербайджанской Республики ф.276, оп.8, д.155, л.8.
7. Ачыг сез, 1918, № 627.
8. Бакинский рабочий (Баку), 1918 г., 17 февраля.
9. Балаев А. Азербайджанское национальное движение в 1917-1918гг. / А.Балаев. Баку, Элм, 1998, 280 с.
10. Большевики в борьбе за победу социалистической революции в Азербайджане. Документы и материалы. 1917-1918 гг. Баку, Азернешр, 1957, 702 с.
11. В.И.Ленин о Закавказье. Ереван, 1963, 477 с.
12. Гаджиева Л. Мартовские события 1918 года на страницах русскоязычной прессы Баку / http://www.kaspiy.az/news.php?id=100609
13. Гаджиева Л.О. Вопросы первой мировой войны на страницах русскоязычной печати Баку / Л.О. Гаджиева Вестник Московского ун-та сер. 10. журналистика,. 2015. № 1, с.64-81.
14. Гасанлы Дж. Русская революция в Азербайджане: трудный путь к независимости 1917-1920 гг./ Дж.П. Гасанлы, Москва, Флинта, 2011, 672 с.
15. Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи. Баку, ИПО Турхан, 2013, 136 с.
16. Государственный Архив Азербайджанской Республики // ГААР, ф.894, оп.10, д.148, л.30.
17. Доклад председателя Чрезвычайной следственной комиссии А.Хасмамедова министру юстиции по делу о разгроме гор. Шемаха и мусульманских селений в Шемахинском уезде и насилии, совершенных над мусульманским населением названных города и уезда.22.11 1918г. // Архив политических документов Управления делами при Президенте Азербайджанской Республики, ф.277, оп.2, д.16, л.12.
18. Закавказский Сейм. Стенографический отчет. Тифлис, 1919, 7 марта 1918 г.
19. История Азербайджана т.3., ч.1, Баку, Академия наук Азербайджанской ССР, 1963, 563 с.
20. Кочарли Т.К. К истории карабахского вопроса (вымыслы и действительность) / Т.К. Кочарли – Баку, Апостроф, 2000, 136 с.
21. Качазнуни Ов. Дашнакцутюн больше нечего делать! Баку, Элм,1990, 92 с.
22. Нариманов Н. Избранные произведения, Баку, Азернешр, 1989, т. II, 768 с.
23. Расулзаде М.Э. Азербайджанская республика (на азерб. яз.). Баку, Элм, 1990, 116 с.
24. Шаумян С.Г. Избранные произведения. Москва, Центрополиграф, 1978, т.II, 970 с.

AZAD RZAYEV
Tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti

ƏLI ƏLIYEV
Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Musiqi Akademiyası, böyük elmi işçi

BAKIDA MART (1918) HADİSƏLƏRİ ƏRƏFƏSİ VƏ ZAMANINDA SİYASİ PARTİYA VƏ TƏŞKİLATLARIN MÖVQELƏRİ

Təqdim olunan məqalədə arxiv materialları və şahid ifadələri əsasında Bakı və ətraf rayonlarda 1918-ci ilin mart hadisələri ərəfəsində və baş verdiyi zaman siyasi partiya və təşkilatların

mövqelərinin obyektiv, qərəzsiz təhlilinə cəhd edilir. Bu hadisələr Azərbaycan xalqının qatı düşməni S.Şaumyanın başçılıq etdiyi Bakı Sovetinin Qırmızı Qvardiyasının əsasını təşkil edən erməni silahlı dəstələri tərəfindən törədilməklə millətlərarası toqquşmalar, daha dəqiq desək, minlərlə müsəlmana qarşı soyqırımı xarakteri daşıyırdı.

Açar sözlər: milli azadlıq hərəkatı, siyasi partiyalar, 1918-ci il mart hadisələri, Azərbaycan xalqının soyqırımı.

AZAD RZAYEV
PhD on history, docent of Baku State Universitety

ALI ALIYEV
Azerbaijan State Musical Academy named after U.Hajibeyov, Senior researcher

POSITIONS OF POLITICAL PARTIES AND ORGANIZATIONS ON THE EVE AND DURING THE MARCH (1918) EVENTS IN BAKU

In the presented article, an attempt is made, on the basis of archival materials and eyewitness accounts, to give an objective, unbiased analysis of the positions of political parties and organizations on the eve and during the March events of 1918 in Baku and its suburbs. These events had the character of inter-ethnic clashes, and more specifically the genocide against thousands of Muslims by the Armenian armed detachments that formed the basis of the Red Guard of the Baku Council, headed by the ardent enemy of the Azerbaijani people S. Shaumyan.

Keywords: national liberation movement, political parties, March events of 1918, genocide of the Azerbaijani people.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 09 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər t.e.d. İbrahim Zeynalov, t.e.d. Qabil Əliyev.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

AYDIN MƏMMƏDOV
BDU-nun Mənbəşünaslıq, Tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru
aydin.mmmdov.67@ mail.ru

XX ƏSRİN İKİNCİ YARISI – XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN TARİXÇİLƏRİNİN 1918-Cİ İLİN MART SOYQIRIMLARI İLƏ BAĞLI TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

Azərbaycan tarixində son iki əsr ərzində erməni millətçilərinin soydaşlarımıza qarşı planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasəti xalqımızın demoqrafik durumuna mənfi təsir göstərmişdir. Tarixin müxtəlif mərhələlərində əzəli torpaqlarımıza qarşı əsassız ərazi iddiaları ilə çıxış edən ermənilər, həm 1905-1907-ci illərdə, həm də 1918-1920-ci illərdə törətdikləri qanlı qətliamlar zamanı on minlərlə soydaşımızı amansızcasına qətlə yetirmiş, şəhər və kəndlərimizi talan etmiş, bir çox yaşayış məntəqələrimizi isə tamamilə yerlə-yeksan edərək dinc əhalini qaçqın və didərgin vəziyyətinə salmışlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 yanvar 2018-ci il tarixli 1918-ci il "Azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" Sərəncamında deyildiyi kimi: "Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır".

Hələ 1918-ci ilin 15 iyulunda Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin erməni-daşnak silahlı birləşmələri tərəfindən 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində törədilən ağır cinayətləri üzə çıxarmaq üçün yaratdığı Fövqəladə İstintaq Komissiyası soyqırım həqiqətlərini yaddaşlarda saxlamaq və dünya ictimaiyyətinə çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu və sovet hakimiyyətinin bərqərar olmasından sonra sovet tarixşünaslığında 1918-ci ilin mart soyqırımları uzun illər boyunca tamamilə təhrif olunmuş, həmin hadisələr "vətəndaş müharibəsi", "əksinqilabi ünsürlərə qarşı mübarizə" kimi xarakterizə edilmişdir.

Yalnız 1991-ci ildə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın tarixi keçmişinin elmi-obyektiv müstəvidə öyrənilməsi imkanı əldə edilmişdir. Ümummilli lider Heydər Əliyevin 1998-ci ilin martın 26-da "Azərbaycanlıların soyqırımı haqqında" fərmanı ilə 1918-ci ildə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırım aktlarına ilk dəfə hüquqi-siyasi qiymət verildikdən sonra sözügedən problemin elmi-obyektiv tədqiqi sahəsində əhəmiyyətli addımlar atılmış, çağdaş Azərbaycan tarixşünaslığında bu mövzuda çoxsaylı sanballı tədqiqat əsərləri meydana gəlməyə başlamışdır. Həmin fərmanda da deyildiyi kimi: "İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır".

Açar sözlər: Azərbaycan tarixşünaslığı, sovet tarixşünaslığı, soyqırım, əhali, tarixi demoqrafiya.

***Giriş*.** Üç cildlik Azərbaycan tarixinin 1973-cü ildə nəşr olunan iki hissədən ibarət III cildinin I hissəsində "Azərbaycanda sosialist inqilabının inkişafı uğrunda mübarizə (noyabr 1917-ci il-iyun. 1918-ci il" adlanan 23-cü fəsli 1918-ci il Mart soyqırımını Bakıda atıq 1917-ci ilin noyabrın 2-də elan olunmuş, qurulmuş sovet hakimiyyətinin genişləndirilməsi uğrunda əksinqilabi qüvvələrə qarşı mübarizə kimi qələmə verilir. Mart hadisələrinin həqiqi mahiyyətini ört-basdır etmək, necə deyərlər izi itirmək üçün guya: "Bakı bolşevikləri var-qüvvə ilə cəhd edib silahlı toqquşmaya yol verməməyə çalışan" tərəf kimi qələmə verilir [5, s.119].

Təbii ki, belə olan təqdirdə silahlı toqquşmanı törədən qüvvə kimi əks tərəf, yəni "Müsavat" partiyası hesab olunur. Belə ki, sözügedən hadisə ərəfəsində S.Şaumyanın "Evelina" gəmisinin müsəlman heyətinin tərk-silah olunması ilə bağlı məlum hadisələr nəticəsində alınmış silahların guya

geri qaytaracağı təəssüratı yaradılır: "Bakı Sovetinin münaqişəni sülh yolu ilə aradan qaldırmaq təşəbbüsləri müsavatçıların təqsiri üzündən müvəffəqiyyətsizliklə nəticələndi" [5, s.119]. Əslində isə, Şaumyan Bakının milliyyətcə azərbaycanlı əhalisini fiziki cəhətdən məhv etmək, Bakının demoqrafik tərkibini ermənileşdirmək məqsədilə planlı şəkildə hazırladığı soyqırım siyasətini nəyin bahasına olursa olsun həyata keçirməyə çalışırdı. Elə istər "Evelina" gəmisi ilə bağlı hadisələr, istərsə də martın 30-dan etibarən Bakıda başlanan ilk silahlı toqquşmalar ermənilərin çoxdan bəri hazırladığı ssenarinin təzahürü idi. Bunu sözügedən kitabda yazılan: "Müsavat əksinqilabına qarşı vuruşmalarda erməni milli hissələrinin iştirak etməsindən daşnaklar müsavat əleyhinə mübarizəni millətlərarası qırğına çevirmək üçün istifadə etməyə çalışırdılar. Daşnak silahlı dəstələri dinc azərbaycanlı əhalini qarət etməyə və qırmağa başladılar", fikri bir daha təsdiq edir [5, s.120].

Əslində, biz burada sovet tarixşünaslığının ciddi-cəhdlə sinfi mübarizə kimi qələmə verdiyi sözügedən hadisələrin birbaşa milli zəmində törədilən soyqırım olmasını görürük. Ümumiyyətlə, sovet tarixşünaslığında sözügedən hadisələrlə bağlı tədqiqat əsərlərini diqqətlə izlədikdə S.Şaumyanın başçılıq etdiyi, milli tərkibi əsasən ermənilərdən ibarət Bakı "bolşeviklərinin" demoqrafik siyasətinin əsl mahiyyətini aydın şəkildə dərk etmək olur. Belə ki, hələ 20-30-cu illər sovet tarixşünaslığında sözügedən hadisələrlə bağlı bəzi tədqiqat əsərlərində bolşeviklərin azərbaycanlılar arasında sosial dayağa malik olmadığı açıq şəkildə göstərilmişdir. Məsələn, Ə.Qarayevin 1926-cı ildə nəşr olunmuş "Yaxın keçmişdən" adlı kitabında 1905-ci ildən ta ki 1918-ci ilə qədər Azərbaycanda bolşevik ideologiyasının son dərəcə zəif olması göstərilir. Müəllif 1918-ci ildə Bakı Kommunasının süqutunun əsas səbəbi kimi də bu qurumun Azərbaycanın fəhlə və kəndliləri arasında heç bir nüfuza malik olmamasında, onlar tərəfindən dəstəklənməməsində görür [14, s.8].

Ümumiyyətlə, XX əsrin birinci yarısı sovet tarixşünaslığında bir çox tədqiqat əsərlərində məlum hadisələr zamanı S.Şaumyanın daşnak qüvvələri ilə əlbir olmasını aydın şəkildə müşahidə etmək olur. Hətta S.Şaumyanın oğlu Suren Şaumyan özünün "Bakı Kommunası" adlı kitabında Bakı Sovetinin legitim yolla hakimiyyətə gəlməsinin çətinliyini etiraf edərək yazır ki, burada hakimiyyəti ələ keçirmək üçün qəti mövqeyimiz bizim təşkilatımız üçün çətinliklər yaratması səbəbindən qeyri-mümkün idi. Burada hakimiyyəti ələ keçirmək erməni və türk əhalisi arasında milli məsələnin kəskinləşməsinə gətirib çıxarardı. Burada erməni və türk antaqonizminin kökləri həddən ziyadə dərin idi və hər iki tərəf hər an silahlı qarşıdurmaya hazır idi [17, s.14]. Müəllif izi itirmək üçün daşnakların guya qırğınların ikinci günü Bakı Sovetinin tərəfinə keçdiyini yazır [17, s.15]. Əslində isə, martın 30-da axşamüstü Stepan Şaumyan başda olmaqla Bakı Soveti və erməni-daşnak dəstələri tərəfindən dinc türk-müsəlman əhaliyə qarşı artıq soyqırımına başlanılmışdı.

E.Burcalov 1938-ci ildə nəşr olunan "İyirmi altı Bakı komissarı" adlı əsərində Suren Şaumyana istinadən yazır: "Daşnaklar onların qüvvəsinə, köməyinə heç bir zərurət olmadan hadisələrdə fəal iştirak etdilər" [12, s.73].

Lakin, müəllif bu həqiqəti etiraf etməzdən əvvəl tarixi gerçəkliyi saxtalaşdırmaq niyyəti ilə yazır ki, mart günləri Azərbaycan zəhmətkeşləri əksinqilabi milli qüvvələri dəstəkləmədi. ...Mart qələbəsi Bakı Sovetinin Bakıda sovet hakimiyyətini qəti şəkildə möhkəmləndirməsinə zəmin yaratdı [12, s.43]. Bu zaman təbii sual meydana gəlir: "Əgər sözügedən dövrdə müəllifin iddia etdiyi kimi həqiqətən də Bakıda soydaşlarımız milli-demokratik qüvvələri dəstəkləmir və bolşeviklər siyasi vəziyyətə tam nəzarət edə bilirdilərsə, o zaman silahlı daşnak qüvvələrindən istifadə etməyə ehtiyac var idimi? Yaxud, nə üçün yerli əhali tərəfindən dəstəklənən (yəni həqiqətən dəstəklənirdisə) Bakı Soveti elə həmin dinc əhaliyə qarşı tarixdə misli görünməyən qətliamları nə üçün törətməli idi? Bütün bu sualların ancaq bir cavabı var: Bakının və Azərbaycanın demoqrafik vəziyyətini ermənilərin xeyrinə dəyişmək.

Hətta 1964-cü ildə nəşr olunmuş "Azərbaycan kommunist partiyası tarixinin oçerkləri" adlı kitabda belə etiraf olunur: "Bakı Soveti Bakıda daşnaklar tərəfindən təşkil edilmiş milli qoşun dəstələrini müsavatçılara qarşı mübarizədə iştirak etmək üçün cəlb etməyə məcbur oldu. Həmin milli qoşun dəstələrinə cəbhədən qayıdıb şəhərdə ləngiyən (əslində isə S.Şaumyan tərəfindən məqsədyönlü şəkildə Bakıda saxlanılan – A.M.) erməni əsgərlərinin bir hissəsi cəlb olunmuşdur" [4, s.279].

Həmçinin, XX əsrin ikinci yarısı sovet tarixşünaslığında məlum hadisələrlə bağlı demək olar ki, bütün tədqiqat əsərlərində biz yuxarıdakı konsepsiyanın taftaloji təsvirini görürük. Belə ki, sözü-

gedən hadisələrlə bağlı Azərbaycan sovet tarixşünaslığında Z.İbrahimovun çoxsaylı elmi məqalə və monoqrafiyalarında (Azərbaycanda Sovet hakimiyyəti qələbəsinin təşkilatçıları (1918-1920). "Təbliğatçı", 1948, №5, s.15.24; Борьба за устанавление Советской власти в Азербайджане в 1917-1918 гг. Тезисы докт.дисс. Тр. Азерб. филиала ИМЭЛ при ВКП(б), т.XIII, 1949, с.175-202; 1918-ci ilin martında Bakıda Vətəndaş müharibəsi. Bakı, S.M.Kirov adına ADU-nun Əsərləri, 1957, №10, s.121-126; Коммунистическая партия – организатор победы Советской власти в Азербайджане. «Уч. зап. АГУ имени С.М. Кирова, серия обществ. наук», 1960, №2, с.95-106; Sosialist inqilabı uğrunda Azərbaycan bolşeviklərinin mübarizəsi (1917-1918-ci illər). Bakı, Azərnəşr, 1958; V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, Azərnəşr, 1970, 525 s.), ÜK(b)P Mərkəzi Komitəsi yanında Marksizm – Leninizm İnstitunun Azərbaycan filialının direktoru olmuş M.İsgəndərovun (Из истории борьбы Коммунистической партии Азербайджана за победу Советской власти. Баку, Азернешр, 1958, 538 с.), M.Qazıyevin (Lenin və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi. "Azərbaycan", 1960, №4, s.81-91; Məşədi Əzizbəyov. Bakı, Gənclik, 1976, 127 s.), N.Kolesnikovanın (Из истории борьбы за Советскую власть в Баку (август 1917 г. – июнь 1918 г.) Воспоминания. Баку, Азернешр, 1958, 119 с), A.Milmanın (Bakı Soveti Azərbaycanda proletar diktaturası orqanıdır. Bakı, Azərnəşr, 1957, 152 s; Деятельность Бакинского Совета как органа пролетарской диктатуры в Азербайджане (октябрь 1917 г. - июль 1918 г.) В сб.: «Великий Октябрь и борьба за Советскую власть в Азербайджане». Баку, Изд-во АН Азерб. ССР, 1958, стр.146-185), P.Mosesovun (Борьба большевиков за победу Советской властью в Баку в 1917-1918 годы. «Уч. зап. АГУ им. С.М. Кирова, 1957, №10, стр.193-213), E.Tokarjevskinin (Бакинские большевики - организаторы борьбы против германо-турецких интервентов в Азербайджане в 1918 г. Тр. Азерб. филиала ИМЭЛ при ЦК ВКП(б), Том VI, 1947, стр. 5-12; Из истории иностранной интервенции и гражданской войны в Азербайджане. Баку, Изд-во АН Азерб. ССР, 1957, 332 с), H.Şahgəldiyevin (Azərbaycanda Sovet hakimiyyət qələbəsində rus xalqının köməyi. Bakı, Azərnəşr, 1960, 204 s) və d. tədqiqat əsərlərində 1918-ci ilin yazında Bakıda və Azərbaycanın digər bölgələrində daşnak-bolşevik silahlı dəstələri tərəfindən. azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımlar Bakıda sovet hakimiyyətinin qələbəsi kimi qələmə verilmişdir.

Yuxarıda adı çəkilən kitabların demək olar ki, hamısı xalqımızın demoqrafik vəziyyətinə son dərəcə mənfi təsir göstərən bu qətliamları bolşeviklərin hakimiyyətə gəlməsini təmin edən qələbəsi kimi təsvir edir: "Mart vuruşmaları müsavatçıların məğlubiyyəti ilə qurtardı. ...Bakıda sovet hakimiyyəti qələbə çaldı" [7, s.87-90]. Və yaxud başqa bir kitabda oxuyuruq: "Mart qələbəsinin tarixi əhəmiyyəti ondan ibarət oldu ki, bolşevik təşkilatı başda olmaqla Bakı proletariatına bütün Azərbaycanda sosialist inqilabı uğrunda mübarizəni genişləndirməyə imkan verdi. ...Qalibiyyətli mart vuruşmalarından sonra Bakıda sovet hakimiyyəti fəhlə kütlələrinin köməyinə arxalanaraq daha qızğın fəaliyyətə başladı" [4, s.281]. Z.İbrahimov isə, sözügedən hadisələrə münasibətini: "Zaqafqaziya əksinqilabının Bakı üzərinə basqını məğlubiyyətlə qurtardıqdan sonra Azərbaycanın bir sıra qəzalarında Sovet hakimiyyətinin qalibiyyətli yürüşü başlandı. Aprel ayı ərzində bütün Bakı qəzasında, Lənkəran, Şamaxı, Cavad qəzalarında Sovet hakimiyyəti quruldu", deyə bildirir [6, s.234].

Z.İbrahimov S.Şaumyanın Bakıda və Azərbaycanın digər bölgələrində daşnak-bolşevik silahlı dəstələrinin dinc soydaşlarımıza qarşı xüsusi qəddarlıqla törətdiyi kütləvi qətl, qırğın və talanların miqyasını genişləndirmək üçün mərkəzdən aldığı yardımı belə təsvir edir: "Sovet Rusiyasının Bakıya yardımı həm şimaldan – Həştərxan tərəfdən, həm də şərqdən – Daşkənd tərəfdən göstərilirdi. 1918-ci ilin aprelin 6-da neftlə dolu 7 gəmi ilə Həştərxana sonra isə, Moskvaya göndərilən Bakı Sovetinin nümayəndəsi S.Ter-Qabrielyan V.İ.Lenin tərəfindən qəbul olunmuşdu. Bakının ehtiyacları haqqında Ter-Qabrielyanın məlumatlarını diqqətlə dinlədikdən sonra: "Bakı bizim üçün hər şeydir və onu müdafiə edib saxlamaq lazımdır". "Hər şey Bakı üçün" çağırışı ilə çıxış edən Leninin tapşırığı ilə Bakıya 2 milyon patron, 35 pulemyot və döyüşçü dəstələri, o cümlədən IV Moskva inqilabi səyyar dəstəsi tezliklə yola salınmışdı" [6, s. 232-233].

Əslində, sözügedən problemlə bağlı standart fikirlə artıq yuxarıda qeyd olunduğu kimi 20-30-cu illər sovet tarixşünaslığında da rastlaşırıq. Bakı Kommunasının sədri Stepan Şaumyan hələ 1924-cü ildə nəşr olunmuş "Məqalələr və nitqlər" kitabında oxuyuruq: "İnqilabın ilk günlərindən hakimiyyətin Sovetlərin əlinə keçməsi bizim əsas məqsədimiz idi. Bizim düşmənlərimiz müxtəlif şüarlar

altında gizlənirdilər. Lakin, biz onları məhv etdik. Hakimiyyətin yeni formasını – Xalq Komissarları Sovetini yaratdıq. Bu bir zərurət idi və biz bu işi daha da genişləndirdik" [19, s.160-161].

Hələ mart hadisələrindən əvvəl S.Şaumyan: "Bizim siyasətimiz vətəndaş müharibəsidir. Kim bu siyasətin əleyhinə gedirsə, düşmənlərimizə xidmət edir. Vətəndaş müharibəsi gələcək üçün vacibdir" [19, s.163]. Təbii ki, gələcək dedikdə Şaumyan elə məlum mart soyqırımlarını nəzərdə tuturdu. Xalqımızın qanına susayan bu cəllad Bakı qırğınlarının coğrafiyasını Azərbaycanın digər bölgələrinə doğru genişləndirərək: "Bizim Qızıl orduda xidmət göstərən nümunəvi yoldaşlarımız Şamaxı, Lənkəran, Dərbənd, Quba və Salyanda vuruşaraq sovet hakimiyyətini qurur, onun nüfuzunu bütün Zaqafqaziyada yayaraq möhkəmləndirirlər", deyə fəxarətlə söyləyirdi [19, s.129].

Halbuki, Azərbaycan xalqı arasında heç bir sosial dayağa, siyasi dəstəyə malik olmadıqlarını aydın şəkildə dərk edən Şaumyan: "Əgər onlar Bakıda üstünlüyü əldə etsəydilər, o zaman şəhər Azərbaycanın paytaxtı elan olunacaqdı... Fürsətdən istifadə edib bütün cəbhə boyu hücuma keçdik. ...Artıq sərəncamımızda təxminən 6 min nəfərlik silahlı qüvvələrimiz var idi, "Daşnaksütyun"un da malik olduğu 3-4 minə yaxın milli hərbi hissələrdən ibarət silahlı qüvvələri də bizim ixtiyarımızda idi. Sonuncunun bu əməliyyatda iştirakı vətəndaş müharibəsinə bir qədər milli qırğın xarakteri verdi, lakin bundan qaçmaq üçün heç bir yolumuz yox idi. Biz qəsdən, şüurlu şəkildə buna getdik.", - deyə, söyləməsi bir daha sübut edir [18, s.246].

Xalqımızın qəddar düşməni olan görkəmli "bolşevik" S.Şaumyanın bu fikrindən onun Azərbaycanın milli tərkibindən ciddi surətdə narahat olması aydın sezilir. Başqa sözlə desək, Azərbaycanda azərbaycanlı əhalinin sayca çoxluq təşkil etməsi kimi təbii, normal və qanunauyğun demoqrafik vəziyyətin mövcudluğu onu dinc soydaşlarımıza qarşı daha qəddar üsulların işlənib hazırlanmasına təhrik edirdi. Belə ki, Şaumyan törətdiyi vəhşiliklərin miqyasına baxmayaraq qırğınların baş verdiyi o müdhiş günlərdə məmnunluğunu belə açıq şəkildə ifadə etməkdən çəkinməyərək söyləyirdi: "Şəhərimizin milli tərkibi bizi çox qorxudurdu. Qorxurduq ki, mübarizə arzuolunmaz rəng alacaq. Hətta erməni daşnaklarının köməyinə də əl atmalı olduq. Bizim onların xidmətlərindən imtina etmək fürsətindən vaz keçə bilməzdik. Erməni Milli Şurası müstəqil şəkildə həbslər keçirir, axtarışlar təşkil edirdi. Bununla belə, qələbə o qədər böyük idi ki, reallığı kölgədə qoyur" [18, s.249-250]. Məhz ona görə də, 3 gün ərzində Bakıda müxtəlif mənbələrə görə 12 mindən 17 minə qədər insan qətlə yetirildi. O müdhiş günlərdə cərəyan edən qanlı cinayətlərlə bağlı "Azərbaycan" qəzetinin 8 oktyabr 1918-ci il sayında yazılırdı: "Uşaq oğurluğu ilə məşğul olan quldur dəstəsinin başçısı Tatevos Əmirov "sosialist ordusunun" rəhbəri olduqdan sonra Bakıda 16 minə qədər müdafiəsiz, kasıb müsəlman əhalisini qətlə yetirdi. ... Əclaf Styopa Lalayevin başçılığı altında daşnak (guya "sosialist") quldur dəstələri, müsəlman ziyalılarını evlərindən çıxararaq küçədə qəddarlıqla güllələdi, o cümlədən şəhərin bir sıra məhəllələrini "təmizlədi", Şaumyan və ona bənzər "demokratiya liderləri" öz fəaliyyətləri üçün bu təcrübəni çox parlaq, məqbul hesab etmişlər. Əmirov və Lalayev isə, Şamaxıda guya "əks-inqilab"a qarşı döyüşmək üçün daşnak dəstələrinin rəhbəri təyin olundular [1].

Zaqafqaziyada bolşeviklərin fəaliyyət göstərdiyi yeganə şəhər – Bakıda bolşeviklərə antiazərbaycan mahiyyətli siyasəti ilə seçilən, ətrafında əsasən qatı erməni millətçilərini toplayan S.Şaumyanın başçılıq etməsi onların Azərbaycan xalqı arasında onsuz da son dərəcə aşağı nüfuza olan mövqeyini daha da zəiflədirdi. Stepan Lalayevin Bakıdakı vəhşilikləri haqqında həmin faciələrin şahidi olan soydaşlarımızın ifadələri də təsdiq edir. Belə ki, bu cəlladın sözügedən mart soyqırımlarında fəaliyyəti təkcə Bakı ilə məhdudlaşmırdı. Onun başçılıq etdiyi erməni quldur dəstələri Bakı ətrafı – Məmmədli, Əhmədli, Balaxanı, Binəqədi, Bibiheybət, Hökməli, Digah, Zabrat, Sabunçu, Ramana, Xırdalan və d. kəndlərdə də misli görünməmiş qəddarlıqlar törətdi: "Məlum olmuşdur ki, Sabunçu, Əhmədli, Zabratda əhalini nəinki qorxu altında saxlayan, onlara işgəncə verən, hətta geri çəkildikdən sonra belə sözügedən kəndlərin əhalisinin evlərini yerlə-yeksan edən, qaçmağa imkan tapmayanları isə, amansızlıqla qətlə yetirən erməni silahlı dəstələrinin qərargahı yerləşdirilmişdir".

Bakıdakı soyqırımdan sonra S.Lalayevin başçılığı etdiyi erməni quldur dəstələri Şamaxıda qanlı qətliamlar həyata keçirmişdilər. Fövqəladə Təhqiqat Komissiyası tərəfindən hazırlanmış 7 cilddən, 952 vərəqdən ibarət təhqiqat materiallarında erməni silahlı dəstələri tərəfindən Şamaxı qəzasında törədilən vəhşiliklər haqqında ətraflı məlumat verilmişdir [2, s.4]. Bu sənədlər Şamaxıdakı soyqırımları obyektiv öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Şamaxıda qırğına rəhbərlik edən S.Lalayevin qəddarlığı o həddə çatmışdır ki, bu, hətta onun silahdaşı olan İ.Boqomolovun da narazılığına səbəb olmuşdu. İ.Boqomolovun A.Caparidzenin adına göndərdiyi müraciətdə deyilirdi: "Bir daha sizdən xahiş edirəm ki, cəllad Lalayevi həbs edəsiniz. O, çoxlu sayda qadın və uşaq öldürmüş, evləri qarət etmişdir. Əmirov onu, həbs etmək istədikdə, qaçıb gizlənmişdir. Hamı təsdiq edir ki, o, məscidi yandırmış və orada çoxlu qadın qətlə yetirmişdi" [11, s.15-16]. Nəriman Nərimanov Şamaxıdakı qırğınlar haqqında yazırdı: "Şamaxıdan qayıdandan sonra... M.Əzizbəyov göz yaşı içində şahidi olduğu faciəni mənə danışdı. T.Əmirovun və S.Lalayevin əvvəllər Bakıda olan silahlı dəstələri yaşına və cinsinə məhəl qoymadan bütün azərbaycanlıları öldürdülər; onlar hələ dünyada görünməmiş bir cinayət törətdilər, uşaqları süngü və qılıncdan keçirir, adamları məscidə toplayıb kerosin töküb yadırırdılar. Mənim üçün aydın oldu ki, Bakıda sovet hakimiyyəti daşnaklardan asılıdır" [11, s.23].

Həmin dəhşətli günlərin şahidi olmuş milliyətcə alman olan A.Y.Kluqe 1918-ci il hadisələri haqqında yazırdı ki, ermənilər müsəlman (azərbaycanlı) məhəllələrinə soxularaq hər kəsi öldürür, qılıncla parçalayır, süngü ilə dəlmə-deşik edirdilər. Qırğından bir neçə gün sonra bir çuxurdan çıxarılan 87 azərbaycanlı cəsədinin qulaqları, burunları kəsilmiş, qarınları yırtılmışdır. Ermənilər uşaqlara acımadıqları kimi, yaşlılara da rəhm etməmişdilər [11, s.23].

Müstəqillik illərində Azərbaycan tarixşünaslığında Şamaxıdakı soyqırımlarla bağlı çoxlu sayda tədqiqat əsərləri meydana gəlmişdir. Bunlara S.Qəniyevin 2003-cü ildə nəşr olunmuş "1918-ci il Şamaxı soyqırımı", M.Zülfüqarlının 2011-ci ildə nəşr olunmuş "Şamaxı soyqırımı 1918", S.Rüstəmova-Tohidinin 2013-cü ildə nəşr olunmuş "Şamaxı. Mart-iyul 1918-ci il", V.Abışovun 2017-ci ildə nəşr olunmuş "Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı" və s. kitabları misal göstərmək olar.

Şamaxıda həyata keçirilən soyqırımlar zamanı ermənilər hələ çarizmin müstəmləkə siyasəti dövründə Rusiya imperiyasının mərkəzi rayonlarından Şamaxıya köçürülərək burada məskunlaşdırılan molokanlardan da məharətlə istifadə etmişdilər. Bunu erməni-molokan hərbi birləşmələrinin Şamaxı qəzasının Əngəxaran kəndində həyata keçirdikləri qanlı cinayətlər zamanı aydın şəkildə müşahidə etmək olar. Həmin hadisələrlə bağlı S.Qəniyev arxiv sənədlərinə istinadən yazır: "Martın 18-də sübh çağı Şamaxıdan 3-4 verst aralıda yerləşən Əngəxaran kəndinə hücum edilir. Əngəxaran camaatı sübh çağı top atəşi səsinə ayılaraq topun haradan atıldığını öyrənmək üçün evlərindən çıxdıqda görürlər ki, kəndi Şamaxı qəzasının molokanları mühasirəyə alıb səngərlərdə oturmuşlar, müsəlmanlar görünən kimi, onlara atəş açırlar. Qarışıqlıq yaranır, molokanlar kəndə soxularaq, kişiləri, qadınları, qalanını mühasirəyə alın kənddən kənara çıxarırlar. Molokanların bir hissəsi əngəxaranlıların əmlakı və mal-qarasını oğurlamağa, kəndin ən yaxşı evlərini yandırmağa başlayırlar. Talan edilmiş əmlakı və mal-qaranı öz kəndlərinə aparırlar. ...Bundan başqa çoxlu əngəxaranlı aclıqdan, soyuqdan və xəstəlikdən ölmüşdür. Hal-hazırda Əngəxaran əhalisinin yarıdan çoxu azalmışdır" [8, s.77-78].

Diqqəti çəkən məqamlardan biri də odur ki, cinayətkar erməni-molokan dəstələri kəndlər üzərinə məhz sübh çağı, yəni dinc əhalinin hələ yuxuda olduğu və ya yenicə oyandığı bir vaxtda xaincəsinə qəfil hücumlar edirdilər. Təbii ki, bunda məqsəd hələ hadisələrdən xəbər tutmadığına görə qaçıb canını qurtarmaq imkanları olmayan daha çox insanı rahatlıqla qətlə yetirmək idi. Cinayətkar və quldur dəstələrin digər xainliyi ondan ibarət idi ki, onlar yalan vədlərlə əhalini aldadırdılar. Bunu FTK-nın üzvü A.Novatskinin Əngəxaran kəndində törədilmiş faciə haqqında məruzəsində deyilənlər də sübut edir: "1918-ci ilin 18 martında sübh tezdən, molokanlar yaşayan kəndlərdən – Çuxuryurddan, Cabanıdan, Marevkadan və Astraxanovkadan toplaşmış silahlı dəstələr zəbt olunmuş kəndlərə od vurdular. Müsəlmanlar bu zaman müdafiəyə hazır deyildilər. Çünki, bir gün əvvəl erməni və molokan nümayəndələri and içmiş və söz vermişlər ki, sülh şəraitində yaşayacağıq və qonşuluq münasibətimizi pozmayacağıq. Əngəxaranlılar da buna inanmışdılar. Buna görə də, kənd əhalisi özünü itirmişdi. Bilmirdilər ki, hansı istiqamətə qaçsınlar. Dörd tərəfdən də atəş açılırdı. Küçələr meyidlərlə dolmuşdu. Uşaq, qadın, kişi meyidi bir-birinə qarışmışdı" [8, s.78].

Şamaxının ardınca cinayətkar erməni silahlı dəstələri cəllad Amazaspın başçılığı altında Quba üzərinə hücum etmiş, burada əhaliyə qarşı qətliamlar və talanlar həyata keçirmişdilər. 1918-ci ilin aprel-may aylarında erməni quldur dəstələri tərəfindən Quba qəzasında 16 minə yaxın soydaşımız

qətlə yetirilmiş, 167 kənd yandırılmış və talan edilmişdir. Quba əhalisinə dəyən maddi ziyanın miqdarı isə 121 824 819 rubldan çox təşkil etmişdir [9, s.117] . Quba qəzasındakı soyqırımlar Fövqəladə Təhqiqat Komissiyasının 3 cild və 451 vərəqdən ibarət istintaq materiallarında geniş şəkildə öz əksini tapmışdır.

Azərbaycan sovet tarixşünaslığında 1918-ci ilin yazında Qubadakı hadisələr sovet hakimiyyətin qurulması uğrunda mübarizə kimi xarakterizə edilsə də, əslində Amazaspın məqsədi planlı şəkildə soyqırım həyata keçirmək olmuşdur. Belə ki, Amazasp şəxsən özü qubalıları Cümə məscidinin qarşısındakı meydana toplayaraq onlara belə bir müraciət etmişdir: "Mən əslən Ərzurumdanam. Uzun müddət türklərlə vuruşmuşam. Mən erməni xalqının qəhrəmanıyam və onun mənafelərinin müdafiəçisiyəm… Mən buraya qayda-qanun yaratmağa və sovet hakimiyyəti qurmağa yox, sizdən qisas almağa göndərilmişəm. ...Xəzər dənizindən Şahdağa qədər bütün müsəlmanların nəslini kəsəcəm" [13, s.65].

1918-ci il may ayının 1-də Amazaspın komandanlığı altında 3 minlik erməni ordusu üç tərəfdən Quba şəhərinə daxil olaraq 4 qərargah yaratmış, qəzanın azərbaycan əhalisi ilə yanaşı burada yaşayan etnik qrupların nümayəndələrini, o cümlədən yəhudi əhalisini toplardan, pulemyotlardan və tüfənglərdən atəşə tutularaq vəhşicəsinə qətlə yetirildilər. Həmin hadisələrlə bağlı, FTK üzvü A.Novatskinin məruzəsində deyilir: "1918-ci il mayın 1-də məşhur daşnaksakan Amazaspın və onun köməkçisi Nikolayın başçılıq etdiyi və yalnız ermənilərdən ibarət olan adı çəkilən dəstə şəhəri mühasirəyə alaraq, onu toplardan, pulemyotlardan və tüfənglərdən atəşə tutdular. Dəhşətli çaxnaşma və çaşqınlıq yarandı. Dəstə maneəsiz şəhərə daxil oldu. Şəhərin alınması müsəlman əhalisinin qırğını və müxtəlif cür zorakılıqlarla müşayiət olunurdu. Ermənilər küçələrdə qabaqlarına çıxan kişiləri, qadın və uşaqları amansızlıqla öldürürdülər; evlərə soxularaq bütöv ailələri qırır, südəmər körpələrə belə rəhm etmədən onları güllələyir, ya da analarının qucağında xəncərlə doğrayırdılar. ...Müsəlmanların əmlakı qarət edilirdi. İctimai xadimlərin hesablamalarına görə, Quba şəhərində Amazaspın dəstəsi tərəfindən dörd milyon rubl nağd pul, dörd milyon yarım rubl dəyərində qızıl, qızıl əşyaları və qiymətli daşlar, iyirmi beş milyon rubl dəyərində müxtəlif mallar və ərzaq ehtiyatı ələ keçirmişdilər. ...Amazaspın dəstəsi Quba şəhərinə gələnədək dəmir yolunun hər iki tərəfində yolboyu yerləşmiş müsəlman kəndlərinə basqın etmiş, onları yandırmış, dağıtmış, əmlakını qarət etmiş, qaçmağa macal tapmamış sakinləri, qadın və uşaqlara rəhm etmədən, qətlə yetirmişlər" [9, s.142-143].

Quba soyqırımı zamanı ermənilərin həyata keçirdiyi amansız vəhşilikləri Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindəki şahid ifadələrindən aydın şəkildə görmək olar. Bu baxımdan, S.Rüstəmova-Tohidinin 2013-cü ildə nəşr olunmuş "Quba. Aprel-May 1918-ci il. Müsəlman qırğınları sənədlərdə" adlı kitabı xüsusilə diqqəti cəlb edir. Həmin kitabın II fəslində Quba şəhər sakinlərinin, III fəslində isə, Quba qəzası kənd sakinlərinin şahid ifadələrinə geniş şəkildə yer verilmişdir. Məsələn, Quba şəhər sakini Məşədi Molla Yusif şahid ifadəsində söyləyir: "...Ermənilər böyük dəstələrlə şəhərə daxil oldular və heç bir səbəb olmadan şəhərin bütün müsəlman əhalisinə qarşı zorakılıqlar törətməyə başladılar: küçəyə çıxanların hamısını öldürür, evlərə soxulur, sakinlərin dinini təhqir edir, pullarını, qızıllarını, qiymətli əşyalarını əllərindən alır və sonra bütün ailəni qətlə yetirirdilər, bununla yanaşı çoxlarına işgəncə verir və incidir, ərləri və ataları öldürürdülər. ...Dördüncü gün erməni carçılar müsəlman kişiləri qollarında ağ sarğı ilə çıxmağa və cəsədləri dəfn etməyə çağırdılar. Çoxları bu çağırışa çıxdı, lakin daha evə qayıtmadı, çünki onların hamısı ermənilər tərəfindən güllələnmişdilər. ...Cəsədlər ermənilər gedənə qədər küçələrdə qaldı. Qətlə yetirilənlərin əksəriyyəti qadınlar və uşaqlar idi. Bir çoxlarının başları kəsilmişdi. Mən xəncərlərlə doğranmış çoxlu qadın meyitləri görmüşdüm" [9, s.176-177].

Azərbaycan sovet tarixşünaslığında 1918-ci ilin martında bolşevik-daşnak alyansının həyata keçirdiyi soyqırımlarla bağlı 80-ci illərin sonlarında müəyyən qədər obyektiv yanaşmanı müşahidə etmək mümkündür. Bu ilk növbədə dünyada sosialist blokuna daxil olan ölkələrdə kommunist rejiminin çökməsi və dağılması ilə baş verən proseslərlə bağlı idi. Məhz həmin illərdə 1918-ci ilin məlum mart hadisələrilə bağlı ilk obyektiv kitablar işıq üzü görməyə başladı. Məsələn, M.Süleymanov 1987-ci ildə nəşr olunmuş "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" adlı kitabında 1918-ci ilin yazında Bakıda baş verən qırğınlar və talanlarla bağlı yazırdı: "Küçələrdə silahlı növbətçilərdən başqa heç kəs görünmürdü. ...Mağazalar qarət edilmişdi. ...Birdən atışma başlandı, özü də bir neçə

yerdə. Əhali tökülüşmüşdü həyət-bacaya, küçəyə. Arvadlar ağlaşırdı. ...Səs-küydən, uşaqların ağlayıb-sızlamasından qulaq batırdı. Şəhərə tərəf gələn daşnak zabit və əsgərləri bərkdən şərqi oxumağa başladılar: Bir, iki, Bakı oldu bizimki, Bir, iki, Qafqaz oldu bizimki" [10, s.184-185]. Lakin, M.Süleymanov da Azərbaycan sovet tarixşünaslığının bir çox əvvəlki nümayəndələri kimi "ənənəyə" sadiq qalaraq, baş verən qırğınları daşnak-müsavat davasının təzahürü kimi xarakterizə edərək, həmin hadisələri "zəhmətkeşləri inqilabi mübarizədən" yayındıran hal kimi təqdim edir: "Daşnakların və müsavatçıların camaat arasında qırğın salmaq cəhdləri zəhmətkeşlərə baha başa gəldi; onlar zəhmətkeşləri inqilabi mübarizədən yayındırmağa can atırdılar. Kommunistlər bu avantüranın qarşısını almaq üçün "xilas komitəsi" yaratdılar" [10, s.186].

Azərbaycan tarixşünaslığında 1918-ci ilin mart soyqırımları probleminə elmi-obyektiv yanaşma yalnız Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra mümkün olmuşdur. Bəxtiyar Nəcəfovun 1993-1994-cü illərdə nəşr olunmuş "Düşmənin iç üzü. XIX əsrin sonu – XX əsrin əvvəlində Zaqafqaziyada erməni millətçiliyinin tarixi" adlı 2 cildlik kitabında erməni millətçilərinin Azərbaycan və Türkiyə torpaqları hesabına "böyük Ermənistan" dövləti yaratmaq xülyası konkret tarixi faktlar əsasında tədqiq olunmuşdur. Müəllif kitabın erməni millətçilərinin 1890-1917-ci illər fəaliyyətini əhatə edən I cildində əvvəllər nəşr olunmamış arxiv materiallarına istinadən qonşu xalqlara, o cümlədən soydaşlarımıza qarşı yeritdikləri soyqırımı siyasətini obyektiv şəkildə işıqlandırmışdır. Kitabın xronoloji cəhətdən 1917-1924-cü illəri əhatə edən II cildində isə, regionun demoqrafik mənzərəsini öz məqsəd və mənafelərinə uyğun bir tərzdə dəyişdirmək üçün müəllif 1918-ci ilin martında Bakı və Azərbaycanın digər bölgələrində ermənilərin həyata keçirdikləri qanlı cinayətləri və soyqırımları çoxsaylı, konkret faktoloji materialları elmi dövriyyəyə cəlb etməklə tədqiq etmişdir: "Müsəlmanlara qarşı nifrətdən kor olan Şaumyan artıq daha yaxşı silahlanmış və mütəşəkkil daşnak dəstələrinə ümid bəsləyərək silahlı toqquşmaya hazırlaşmışdı. ...Şaumyanın: "bizi (yəni, bolşevikləri və ermənilər) Bakının "milli tərkibi" qane etmir" – deyə, bəyan etməsinin məntiqi nəticəsi bu oldu: qırğınlar yoluyla müsəlman əhalisinin fiziki məhv edilməsi ilə "milli tərkibi" öz xeyrinə dəyişdirmək." [16, s.49-52].

Müəllif sözügedən kitabında mart soyqırımlarından sonra da Bakı və Azərbaycanın digər bölgələrində əhalinin aclıqdan, soyuqdan, müxtəlif xəstəliklərdən elə küçə və xiyabanlardaca yıxılaraq keçindiklərini vurğulayır: "Mart hadisələrdən sonra Şaumyanın, Kaqranyanın, Avakyanın əmri ilə ermənilərdən ibarət "Qafqaz qırmızı ordusu" təşkil olundu... azərbaycanlılara qarşı birtərəfli döyüşlər onların "vəhşi ovuna" çevrildi. Bu dəhşətli günlərdə şəhərin bütöv məhəllələri yandırıldı və dağıdıldı, təqribən 30 min azərbaycanlı məhv edildi." [16, s.66].

1995-ci ildə nəşr olunan "1918-ci il qırğınları. Tarixi araşdırmalar" adlı kitab problemin obyektiv müstəvidə öyrənilməsi baxımından ilk tədqiqat əsərlərindən biri kimi diqqəti cəlb edir. Həmin kitabda Bakı, Şamaxı, Quba, Qarabağ və d. bölgələrdə həyata keçirilən qırğınlar qısa şəkildə olmasına baxmayaraq, elmi-obyektiv aspektdə tədqiq olunmuşdu: "Hansı dona, hansı cildə istəsən girməyi bacaran erməni daşnakları 1917-ci ildə belə bir plan hazırlamışdılar ki, istər Şimali Azərbaycanda, istər tarixi Azərbaycan torpaqlarında, istərsə də Qafqazın digər ərazilərində yaşayan azərbaycanlıları bütünlükdə məhv etsinlər. Ermənilərin əsas məqsədi bir xalq və millət kimi azərbaycanlıların ən dəhşətli soyqırımını təşkil etmək idi" [3, s.35].

XXI əsrin əvvəllərindən başlayaraq, Azərbaycan tarixşünaslığında sözügedən problemlə bağlı çoxsaylı sanballı tədqiqat əsərləri meydana gəldi. Sözügedən mövzunun tarixşünaslığı ilə bağlı ilk dəfə olaraq doktorluq dissertasiyasını müdafiə edən Anar İsgəndərovun "Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı (1918-1920)", "Azərbaycan həqiqətləri 1917-1920" adlı fundamental monoqrafiyalarında 1918-ci ilin yazındakı soyqırımların Azərbaycandakı demoqrafik vəziyyətə son dərəcə mənfi təsiri geniş şəkildə tədqiq olumuşdur. Müəllif problemlə bağlı 20-30-cu illər sovet və mühacir tarixşünaslığından tutmuş ta ki çağdaş dövrədək olan əsərlərdə elmi-müqayisə yolu təhlillər aparmış, soydaşlarımızın məqsədyönlü şəkildə fiziki məhvinə səbəb olan bu proseslərlə bağlı mühüm elmi nəticələrə gəlmişdir.

Diqqət çəkən son dərəcə qiymətli tədqiqat əsərlərindən biri də Solmaz Rüstəmova-Tohidinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin Bakı, Şamaxı və Qubada baş vermiş qanlı hadisələri araşdırmaq üçün 1918-ci ilin iyulun 15-də təsis etdiyi Fövqəladə Təhqiqat Komissiyasının 36 cilddən

(3500 vərəqdən – A.M.) ibarət istintaq materialları əsasında yazdığı monoqrafiyalardır ("Март 1918 г. Баку. Азербайджанские погромы в документах". Баку, Индиго-пресс, 2009, 864 с; Куба. Апрель-май 1918 г. Мусульманские погромы в документах. Баку, 2010, 554 с; Шемаха. Март-Июль 1918 г. Азербайджанские погромы в документах. Баку, 2013, 880 с).

Müəllif yuxarıda adı çəkilən kitablarında hadisələrin obyektiv mənzərəsini, inkişaf dinamikasını, demoqrafik nəticələrini nəinki çoxsaylı şahid ifadələri, eləcə də sözügedən dövrün mətbuat səhifələrindəki məlumatlarla yaratmağa nail olmuşdur: "Menşevik qəzeti "Bizim səs" o günlərin mənzərəsini belə təsvir edirdi: "Hər yerdə təhqir olumuş, eybəcər hala salınmış meyitlərlə doludur. ...Təzəpir məscidi artilleriya atəşlərindən ciddi zədə almışdır" [15, s.29]. Biləvasitə arxiv sənədlərindən ibarət bu irihəcmli əsərlərdə müəllif sözügedən hadisələrə öz münasibətini də maraq doğuran elmi təhlil və şərhlərlə bildirmişdir.

Çağdaş Azərbaycan tarixşünaslığında A.Paşayevin (Açılmamış səhifələrin izi ilə. Bakı, Azərbaycan nəşriyyatı, 2001, 536 s; Геноцид, депортации и территориальные претензии армян к азербайджанскому народу (XIX-XX век). Баку, Элм ве техсил, 2013, 152 с.), A.Xəlilovun (Геноцид против мусульманского населения Закавказья в 1917-1920 гг. в исторических источниках. Баку, Азернешр, 2000, 168 с.), V.Abışovun (Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, Nurlan, 2007, 163 s; Bakıda Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. Bakı, Elm, 2017, 220 s; Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı, Elm, 2017, 120 s; Quba qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı, Elm, 2017, 96 s.), S.Qəniyevin (1918-ci il Şamaxı soyqırımı. Bakı, Nurlan, 2003, 152 s.) və digər müəlliflərin tədqiqat əsərləri 1918-ci ilin yazında ermənilər tərəfindən Bakıda və digər bölgələrdə azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımlar probleminin obyektiv öyrənilməsi baxımından əhəmiyyət kəsb edir.

Nəticə. Beləliklə, XX əsrin ikinci yarısında Azərbaycan sovet tarixçilərinin 1918-ci ilin martında bolşevik-daşnak silahlı birləşmələri tərəfindən dinc xalqımıza qarşı törədilmiş soyqırımlarla bağlı tədqiqat əsərlərində biz həqiqətin tam təhrif olunmuş bir forması ilə rastlaşırıq. Ümumiyyətlə, XX əsrin ikinci yarısı Azərbaycan sovet tarixşünaslığında məlum hadisələrlə bağlı nəinki soyqırım ifadəsi işlənilmir, hadisələrin forma və məzmunu sovet ideologiyasının tələblərinə uyğun olaraq total şəkildə təhrif edilir, hadisələr Bakıda və Azərbaycanın digər bölgələrində sovet hökumətinə qarşı qiyam, əksinqilab və ona qarşı mübarizə kimi təqdim olunur. Məhz bu səbəbdən də, XX əsrin ikinci yarısı Azərbaycan sovet tarixşünaslığındakı tədqiqat əsərləri 20-30-cu illərdə yazılmış əsərlərdən mahiyyətcə fərqlənmir. Hadisələrin elmi-obyektiv tədqiqinə dair əsərlər yalnız müstəqillik illərində meydana gəlmişdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan" qəzeti, 8 oktyabr 1918-ci il.
2. Abışov V. Şamaxı qəzasında Azərbaycan xalqına qarşı soyqırımı. Bakı, Elm, 2017, 120 s.
3. Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Tarixi araşdırmalar Bakı, Öyrətmən, 1995, 90 s.
4. Azərbaycan kommunist partiyası tarixinin oçerkləri. Bakı, Azərnəşr, 1964, 817 s.
5. Azərbaycan tarixi. Üç cilddə. III c. I hissə. Bakı, Elm, 1973, 545 s.
6. İbrahimov Z. V.İ.Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi. Bakı, Azərnəşr, 1970, 525 s.
7. Qazıyev M. Məşədi Əzizbəyov. Bakı, Gənclik, 1976, 127 s.
8. Qəniyev S. 1918-ci il Şamaxı soyqırımı. Bakı, Nurlan, 2003, 152 s.
9. Rüstəmova-Tohidi S. Quba. Aprel-May 1918-ci il. Müsəlman qırğınları sənədlərdə. Bakı, 2013, 316 s.
10. Süleymanov M. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, Azərnəşr, 1987, 320 s.
11. Zülfüqarlı M. Şamaxı soyqırımı 1918. Bakı, 2011, 78 s.
12. Бурджалов Э.Н. Двадцать шесть Бакинских комиссаров. Москва, Госполитиздат, 1938, 111 с.
13. Геноцид азербайджанского народа 1918 года: организаторы и палачи. Баку, ИПО «Турхан», 2013, 272 с.
14. Караев А.Г. Из недавнего прошлого. Баку, Бакинский рабочий, 1926, 127 с.

15. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. Баку, Индиго-пресс, 2009, 864 с s.
16. Наджафов Б. Лицо врага. История армянского национализма в Закавказье в конце XIX - начале XX века. Часть II. Баку, Шарг-Гарб, 1994, 336 с.
17. Шаумян С.С. Бакинская коммуна. Баку, Красный Восток, 1927, 118 с.
18. Шаумян С.Г. Избранные произведения в двух томах. Т.2. Москва, Политздат, 1978, 463 с.
19. Шаумян С.Г. Статьи и речи. Баку, Бакинский рабочий, 1924, 232 с.

АЙДЫН МАМЕДОВ
Доцент кафедры источниковедения, историографии и методики Бакинского Государственного Университета, доктор философии по истории

ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XX - НАЧАЛЕ XXI ВЕКА В ИССЛЕДОВАНИЯХ АЗЕРБАЙДЖАНСКИХ ИСТОРИКОВ ПО МАРТОВСКОМУ ГЕНОЦИДУ 1918 ГОДА

Политика этнической чистки и геноцида, проводимая армянскими националистами в отношении наших соотечественников на протяжении последних двух столетий истории Азербайджана, оказала негативное влияние на демографическое положение нашего народа. Армяне, которые на разных этапах истории предъявляли необоснованные территориальные претензии к нашим древним землям, безжалостно убили десятки тысяч наших соотечественников во время кровавых погромов, совершенных в 1905-1907 и 1918-1920 годах, разграбили наши города и села, унесли множество жизней, полностью разрушили наши населенные пункты и превратили гражданское население в беженцев и вынужденных переселенцев.

Как сказано в Указе Президента Азербайджанской Республики Ильхама Алиева от 18 января 2018 года «О 100-летии геноцида азербайджанцев»: “Одной из самых страшных трагедий, выпавших на долю азербайджанского народа, стала резня, учиненная 100 лет назад, в марте-апреле 1918 года, дашнако-большевистскими вооруженными формированиями, действовавшими по мандату Бакинского Совета”.

В советской историографии мартовские геноциды 1918 года на протяжении многих лет полностью искажались, и эти события характеризовались как «гражданская война» или «борьба с контрреволюционными элементами». Только после восстановления независимости Азербайджанской Республики в 1991 году стало возможным изучение исторического прошлого Азербайджана на научно-объективном плоскости. После первой правово-политической оценки актов геноцида, совершенных против азербайджанцев в 1918 году указом общенационального лидера Гейдара Алиева «О геноциде азербайджанцев» от 26 марта 1998 года, были предприняты значительные шаги в области научных и объективных исследований. В историографии стали появляться многочисленные значительные исследования по этой теме. Как сказано в указе: «Сейчас раскрываются истины, которые многие годы держались в секрете, и искаженные события обретают свое истинное значение».

Ключевые слова: азербайджанская историография, советская историография, геноцид, население, историческая демография.

AYDIN MAMMADOV
Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, Ph.D. in History

ISSUES OF HISTORICAL DEMOGRAPHY IN THE SECOND HALF OF THE XX - BEGINNING OF THE XXI CENTURY IN THE STUDIES OF AZERBAIJANIAN HISTORIANS ON THE MARCH GENOCIDE OF 1918

The policy of ethnic cleansing and genocide pursued by Armenian nationalists against our compatriots over the last two centuries of the history of Azerbaijan has had a negative impact on the demographic situation of our people. The Armenians, who at different stages of history made

unfounded territorial claims to our ancient lands, mercilessly killed tens of thousands of our compatriots during the bloody pogroms committed in 1905-1907 and 1918-1920, plundered our cities and villages, and claimed many lives, completely destroyed our settlements and turned the civilian population into refugees and internally displaced persons.

As stated in the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev dated January 18, 2018 "On the 100th anniversary of the genocide of Azerbaijanis": One of the most terrible tragedies that befell the Azerbaijani people was the massacre perpetrated 100 years ago, in March-April 1918, by the Dashnak-Bolshevik armed groups operating under the mandate of the Baku Soviet.

In Soviet historiography, the March 1918 genocides were completely distorted for many years, and these events were characterized as a "civil war" or"struggle against counter-revolutionary elements." Only after the restoration of the independence of the Republic of Azerbaijan in 1991, it became possible to study the historical past of Azerbaijan at a scientific and objective level. After the first legal and political assessment of the acts of genocide committed against Azerbaijanis in 1918 by the decree of the national leader Heydar Aliyev on March 26, 1998 "On the genocide of Azerbaijanis", significant steps were taken in the field of scientific and objective research. Numerous significant studies on this topic began to appear in historiography. As stated in the decree: "Now the truths that have been kept secret for many years are being revealed, and distorted events are gaining their true value".

Keywords: Azerbaijani historiography, Soviet historiography, genocide, population, historical demography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d.Anar İsgəndərov, t.e.d.Qabil Əliyev.

Tariximizin unudulmayan səhifələrindən: Azərbaycan xalqına qarşı erməni terroru

UOT 94(479.24)

Dr. MELTEM TEKEREK
T.C Millî Eğitim Bakanlığı
ORCID:0000-0001-5212-5313
meltemtekerek@gmail.com

AZERBAYCAN'DA ERMENİ TERÖR EYLEMLERİ VE 31 MART BAKÜ OLAYLARI

1800'lü yıllardan itibaren Ermeniler Anadolu'da ve Kafkasya'da Türklere ve Müslümanlara yönelik büyük oranda başka devletlerin yardımıyla çeşitli terör eylemleri gerçekleştirmişlerdir. Bunlar mal ve mülke zarar vermek yanında, insan canına kast edilerek yaralama ve tahayyül sınırlarını zorlayan öldürme eylemleridir. 1918 yılı mart ayının sonunda Bakü'de gerçekleştirilen eylem Anadolu'da ve Kafkasya'da eş zamanlı olarak yürütülen bu türden eylemlerden sadece bir tanesidir. Bu çalışmada genel hatlarıyla Kafkasya'da ve Anadolu'da 1918 yılına kadar Ermeniler tarafından gerçekleştirilen eylemler ve Bakü'de yapılan 31 Mart 1918 soykırımı ele alınmıştır.

Anahtar Kelimeler: Azerbaycan, Bakü, Türkiye, 31 Mart, Ermeniler.

Giriş. Ermeni meselesi ideolojik olarak 1810 yılından itibaren oluşmaya başlamıştır. Bu tarih Napolyon tarafından Paris'te Doğu İlleri Okulunda Ermeni Kürsüsü 'nün kurulduğu tarihtir. Bir süre sonra 1816'da Moskova'da kurulan Lazaryan Enstitüsü, 1823'te Tiflis'te yapılan Nersesyan Semineri ile Ermeni milliyetçiliğinin temelleri atılmıştır. Bu sürecin ardından Anadolu'da görülmeye başlayan Rus, İngiliz, Fransız misyonerler Hristiyan halk üzerinde etkili olmuştur [12, s.98-99].

1880 yılına gelindiğinde Ermeniler kendilerine iki hedef belirlemişlerdir. Bunlardan ilki "Ermeni milli meselesi"ni Avrupa'ya taşımak ve bu konuda kamuoyu oluşmasında her türlü propaganda araçlarından yararlanmaktır. İkinci hedef ise en geç on yıl içinde Ermenileri örgütlendirerek, yapılacak olan isyanlarla ve katliamlarla Avrupa'nın ilgisini bölgeye çekmek ve "Büyük Ermenistan" projesini uygulamaktır. Ermeniler bu hedeflerine ulaşmak için yıllarca Anadolu ve Kafkaslarda büyük çaplı terör eylemleri gerçekleştirmişlerdir. Ermeniler, bir taraftan ayaklanmaları daha geniş bir alana yaymaya çalışırken diğer taraftan lobicilik girişimlerini sürdürmüşlerdir. Bu politikanın benimsenmesinde İstanbul Patrikhanesi lideri Movses Hrimyan'ın büyük rolü olmuştur. Patrik, 1894'te Rus Çarı II. Nikolay'ın taç giyme törenine katılarak, burada soruna dikkat çekmiştir [10, s.534].

Ermeniler hedeflerine ulaşmak için çeşitli cemiyet, komite ve siyasi partilerde örgütlenmişlerdir. Gizli olan bu cemiyetlerden bir kısmının adları şöyledir: Hayır Cemiyeti (1860), Fedakârlar Cemiyeti, Ser (1866), Araratyan (1876), Okul Severler (1870), Doğu (1879), Kilikya (1879), Ermeni Birleşik Cemiyeti (1880), Silahlanmışlar Cemiyeti (1880), Kadınlar Cemiyeti (1880), Kurtuluş İçin Birlik (1872), Anavatan Savunucusu (1881), Kara Haç (1872). İsyanları siyasi ve silahlı olarak örgütlemek amacıyla 1885 yılında Armenakan, 1887 yılında Hınçak ve 1890 yılında Taşnaksutyun partileri (komiteleri) kurulmuştur [3, s.17].

Azerbaycan'da Ermeni Terörü ve 31 Mart Olayları. 20. yüzyılın başından itibaren Azerbaycan-Ermenistan anlaşmazlığı daha görünür olmaya başlamıştır. 1905, 1915, 1918, 1950, 1987 ve 1990'lı yıllarda acılı olaylar yaşanmıştır. 1905-1906 yılları arasında Ermenilerin katliamları Bakü'den sonra Karabağ, Zengezur ve Şuşa'ya da sıçramıştır. 1905 yılında Birinci Bakü, Nahcivan, Revan, Ecmiedzin, Cebrayıl, Birinci Şuşa, İkinci Şuşa, İkinci Bakü, Cavanşir, Gence, Tiflis katliamları, 1906 yılında Gazah, Zengezur katliamları gerçekleştirilmiştir. Bu katliamlar sırasında Şuşa'da 12, Cavanşir bölgesinde 15, Cebrail'de 5 ve Zengezur'da 43 olmak üzere toplam 75 Müslüman Türk köyü yakılıp, yıkılmıştır. 1906 yılında İrevan, Gence ve diğer bölgelerde 200'den fazla köy ve kasaba yağmalanmış, buralarda yaşayan halk öldürülmüştür. Karabağ'da da 158 Türk köyü yakılıp yıkılmış, binlerce Türk katledilmiştir. 1904-1906 yıllarında Ermeni teröristler tarafından 105 siyasi terör eylemi gerçekleştirildiği belirtilmektedir [12, s.105].

Rus İhtilalini fırsat bilen Ermeniler Bakü, Kuba, Gence, Nahçıvan, Zengezur, Karabağ, İrevan, Lenkeran, Salyan, Yevlah, Semkir, Şuşa, Cavansir, Cebrayıl, Goycay, Ağsu, Hacıkabul ve Kurdemir'de katliam yapmıştır. Bu yıllarda Gence ve İrevan Guberniyasında 200'den fazla yerleşim birimi yakılmış, 75 köy yok olmuştur. İrevan Guberniyasının beş kazasında 1916 yılındaki Ermeni ve Türk nüfuslarındaki artış ve azalışların karşılaştırılması ile Ermenilerin "Türksüz Ermenistan" sloganının büyük ölçüde gerçekleştiği sonucuna varılmıştır. 1917-1920 yılları arasında Ermenilerin yok etme siyasetinin ikinci dalgası yaşanmıştır [10, s.554-555].

Ermeni katliamlarının devam ettiği 1918-1920 yılları arası dönemin daha çok "1915 Tehciri sonrası Osmanlı topraklarını terk eden Ermenilerin Azerbaycan'daki Türklerden Osmanlı Devleti'nin intikamını alma şeklinde geliştiği" ifade edilmiştir. Bu dönemin başka özelliği ise otorite boşluğunun ortaya çıkmasıdır. 1917 yılındaki Bolşevik İhtilali'nin ardından gelişen olaylar Ermenistan'da Taşnak Hareketi, bağımsızlık hareketine dönüşmüştür. Bağımsızlık süreci içinde Ermenistan; Azerbaycan'dan Karabağ'ın, Gürcistan'da Cavahatya bölgesinin ve Osmanlı'da Doğu Anadolu bölgesinin kendisine ait olduğu iddiasıyla çeşitli faaliyet yapmıştır. Ermenistan, Azerbaycan ve Gürcistan'a karşı kuvvet kullanarak, Osmanlı Devleti'nde ise silahlı ve siyasi faaliyetler (İngiltere ve ABD'nin desteğinde) yapmak suretiyle taleplerini gerçekleştirmeye çalışmıştır [12, s.106].

Bugünlerde Bolşeviklerin en güçlü rakibi Müsavatçılar idi. Bu durum kuşkusuz Bakü Sovyet'ini rahatsız etmiştir. Ermeni ve Rus güçleri Bakü'de katliam yaparak özellikle Müsavatı çökertmek planını hazırlıyorlardı. 15 Mart 1918'de Bakü Sovyet'inin toplantısında "Güney Kafkasya" konulu bir konuşma yapan Ermeni S. Saumyan, açık şekilde Türk soykırımı yapılması yönünde sinyaller vermiştir [10, s.537].

Böylece Bolşevik İhtilali'nin ardından Kafkasya'da yaşanan otoritesizliği fırsat bilen Ermeniler, Azerbaycanlılara karşı yeniden harekete geçmişlerdir. Büyük Ermenistan'ı kurabilmek için Bakü Guberniyası'nı Türkler 'den tamamen temizlemeyi amaçlayan Ermeniler Bolşevik Rusların yardımıyla 31 Mart 1918 yılında Bakü'de Azerbaycanlılara karşı büyük bir soykırım gerçekleştirmişlerdir [1, s.1031].

Ermeniler, Bakü'de gerçekleşen saldırı öncesinde 1905-1907 olaylarında Türklerin karşı saldırıya geçtiklerini gördükleri için gizlice örgütlenmiş ve Bakü'de askeri birlikler toplamışlardır. 1917 sonlarından itibaren Ermeniler 'in Bakü'de Türklere karşı çeşitli eziyetler yapmasından Bakü halkı rahatsız olmuş ve 26 Aralık'ta Müslüman İçtimai Teşkilatlar Komitesi'ne başvurarak kendilerine yönelik şiddetin son bulmasını istemişlerdir. Ermeniler'in asıl amacı halkı tahrik ederek ayaklandırmak ve soykırım için zemin hazırlamaktır. Türklerin mallarını gasp ederek sonuç alamayan Ermeniler, General Talışinski'yi mahkûm ederek ilk kışkırtma eylemini başlatmıştır. Bu eylemden sonuç alamamaları üzerine 29 Mart 1918'de Bakü'den Lenkeran'a gidecek olan Evelina gemisini silahsızlandırma kararı almışlardır. Yolculuk için sözde Sovyet hükümetinden izin alınmadan hazırlıkların yapılmasını bahane göstererek Stepan Şaumyan'un emriyle gemideki askerlerin silahlarına el koymaya başlamışlardır. Müsavat Partisi alınan silahların geri verilmesi için Askeri İnkılabi Komite'ye ültimatom göndermiştir. Yapılan toplantıda el konulan silahların geri verilmesi kararı alınmıştır. 31 Mart akşamı Bakü halkı da Bakü İslam Hayır Cemiyeti binasında toplanarak silahlara el konulmasına karşı çıkmıştır. Alınan silahların geri verilmesini, siyasi işlerine karışılmamasını talep ederek, aksi takdirde harp ilan edeceklerini bildirmişlerdir [11, s.46-48].

Ancak Ermeniler, Türkler harekete geçemeden Bakü'de 31 Mart günü saat 18:00 sularından itibaren katliam yapmaya başlamıştır. Ermeni kilisesi yanında toplanan Taşnaklar; Mehmetli, Kerpiçhane gibi Türk mahallelerine girerek ateş etmeye başlamıştır. Ermeniler tarafından "Türklerin İçerişehir'de Rusları öldürdüğü" yolunda bir yalan haberin Ruslar arasında yayılması üzerine Ruslar şehri top ateşine tutmuş, ancak haberin gerçek olmadığının anlaşılması üzerine ateşi kesmişlerdir. Planlı bir şekilde yürütülen bu saldırı eylemleri sonucu on binlerce insan kadın, çocuk, yaşlı demeden işkenceye maruz kalarak öldürülmüştür. İnsanların evleri yağmalanmış, hançer ve süngülerle insanların uzuvları kesilmiş, bebekler süngülere geçirilmiş, kaçmaya çalışan insanlar kurşuna dizilmiştir. Katliamdan birkaç gün sonra bulunan 87 ceset; toplu şekilde kulakları veya burunları kesilmiş, karınları yırtılmış 57 kadın cesedi; Tebriz Oteli'nde ikamet eden 80 tüccarın dışarı çıkarılıp kurşuna dizilmesi; bir evde sekiz kadın ve bir çocuğun öldürülmesi; başka bir evde dokuz kişinin

sokakta kurşuna dizildikten sonra iki cesedin ateşe verilmesi 31 Mart günü yaşanan ölüm olaylarından birkaç tanesidir [11, s.48].

Ermenilerin Bakü'de yaptıkları katliamdan sonra Bakü Sovyetinin toplantısında konu ile ilgili bilgi veren Bolşevik I. Suhartsev sevinçle: "Türkiye'nin Bakü cephesinin alındığını" müjdelemiştir. Mustafayev'in naklettiği bilgiye göre; 13 Nisan 1918' de Saumyan, Halk Komiserleri Sovyet'ine Bakü olaylarıyla ilgili haberi şu şekilde iletmiştir: *"Üç gün zarfında Bakü'de şiddetli çatışmalar boy gösterdi, bir tarafta Ermeni milli birlikleriyle beraber dövüşen Kızıl Ordu, diğer tarafta Müsavat Partisi'nin idaresindeki Müslüman kuvvetler vardı. Sonuç bizim açımızdan güzel oldu. Düşman tamamen imha edildi"* [10, s.540].

Söz konusu katliam konusunda çalışan araştırmacıların çalışmaları ve bizzat katliama şahitlik edenlerin ifadeleri göz önünde bulundurularak 12.000-20.000 arası sivil insanın katlettiği kaydedilmiştir. Bakü'deki olaylar iç savaş olarak gösterilmek istense de ölüm olaylarında etnik köken üzerinden hareket edildiği sonucuna varılmıştır. Katliam sonrası çekilen fotoğraflar Bakü'de kadın, çocuk, yaşlı ayırt etmeden tüm sivil insanların eşi görülmemiş işkencelere maruz bırakılarak öldürüldüğünü, çoğunun cesedinin yakılan binalardaki ateşlere atıldığını göstermiştir. Ayrıca Bakü'deki Mart olaylarında 400.000.000 ruble değerinde ziynet eşyası ile mal ve mülk çalınmıştır. Şehrin tarihi ve kültürel yapıları kısmen veya tamamen tahrip edilmiştir. Yayınevleri yok edilmek istenmiştir [11, s.53-54].

1918'de Ermenilerin yaptıkları diğer saldırı eylemlerinin bilançosu şöyledir: Sadece Bakü'de 30.000'e yakın Azerbaycanlı öldürüldü. Şamahı bölgesinde 58 köy tahrip edildi ve 7000 Azerbaycanlı öldürüldü. Guba bölgesinde 122 köy yerle bir edildi. Karabağ'da 150, Zengezur'da 115 köy Ermeniler tarafından yakıldı. Erivan Gubernmiyası'nda ise Azerbaycanlıların yaşadığı 211 köy tahrip edildi. Erivan'da 88 Azerbaycanlı yaşayan köy, 1920 ev yakılmış, 131.970 insan öldürülmüştür. Ermeni çetelerin yaptığı mezalimler, Taşnak hâkimiyeti döneminde yürütülen "Türksüz Ermenistan" siyaseti sonucunda, İrevan Guberniyasının Türk nüfusunun sayısı 1916'da 375 bin kişi iken 1922'de Türklerin sayısı 70 bine inmiştir. 1918 Şubat-Mart aylarında Güney Azerbaycan'ın Hoy, Salmas, Urmiye, Makü ve başka şehirlerinde 150 bin Azerbaycan Türkü katledildi [1, s.1031; 10, s.555].

Türkiye'deki Ermeni Eylemleri. 1815 Viyana Kongresi'nden itibaren Osmanlı-Avrupa ilişkileri "Şark Meselesi" olarak ele alınmaya başlamıştır. Şark Meselesinin esaslarından biri de "özellikle İngiltere ve Rusya tarafından Ermenilere Doğu Anadolu'da bulunan altı vilayette (Vilâyât-ı Sitte) önce ıslahat, sonra muhtar bir bölge veya bağımsız bir Ermenistan devleti sözünün verilmesidir [9, s.131-132].

Amaçlarına ulaşmak isteyen Ermeniler 1870-1880 yıllarında Anadolu'da yeni cemiyetler kurmaya başlamışlardır. Bu cemiyetler genel olarak Ermeni kültürünü yaygınlaştırıp eğitim faaliyetlerini sürdürerek, etnik ayrıştırma propagandası yapmak üzere kurgulanmıştır [6, s.185]. Hınçak (1887) ve Taşnak (1890) ihtilal örgütlerinin kurulmasıyla birlikte Ermeni meselesinin ideolojik oluşumundan sonraki ikinci aşamasına geçilmiştir. Bu aşamada silahlı eylemler giderek Anadolu'ya yayılmıştır [12, s.99].

1890 yılındaki Erzurum İsyanı Avrupa'nın dikkatini Türkiye ve Ermeni Meselesine çekmeye çalışan eylemlerin başlangıcı olarak nitelendirilmektedir. Hınçak Komitesi 15 Temmuz 1890 tarihinde Cangülyan idaresinde Kumkapı'da ilk gövde gösterisini düzenlemiştir. 1892-1893 yıllarında Merzifon, Kayseri, Yozgat'ta çeşitli saldırılar, soygunlar düzenlenmiştir. Buralarda yapılan eylemleri yeterli bulmayan Hınçaklar Avrupa'da kendilerine destek sağlayacak yeni bir eylem düzenlemişlerdir. Bu amaca ulaşmak için 1894 yılında Ermeni nüfusunun en çok olduğu Sasun'da Hamparsun Boyacıyan ve Mihran Damatyan önderliğinde ilk isyanı başlatmışlardır. 1895 yılında Ermeni Hınçak komitesi tarafından Ermeni patriği İzmirliyan'ın önayak olmasıyla düzenlenen eylemde yaklaşık 5.000 Ermeni Bab-ı Ali üzerine yürümüştür. İsyancılar devletin aldığı tedbirler karşısında dağılarak çevredeki kiliselere sığınmıştır. Hınçak komitecileriyse İngiliz Büyükelçiliği yanındaki kilisede faaliyetlerine devam ederek Ermenileri, Zeytûn isyanı için teşvik etmişlerdir. 1895 yılında isyanı başlatmak üzere Zeytûn'a gelen komitecilerin tahriki ile çok sayıda kişiyi esir almışlar, esirler Ermeni kadınlar tarafından öldürülmüştür. 1896 yılındaki Van isyanında, askeri devriyelere saldırılmış,

silahlı toplu direnmeye girişilmiştir. Yine 1896'da Taşnak Komitesi İstanbul'da harekete geçmiş ve Osmanlı Bankası Baskını gerçekleşmiştir. 21 Temmuz 1905'te Sultan II. Abdülhamid'e bombalı suikast düzenlenmiştir. Padişah, camiden geç çıktığı için suikasttan kurtulmuş, ancak birçok kişi hayatını kaybetmiştir. Ermeni komiteleri 1905 yılında Paris'te yaptıkları toplantıda, Adana ve Maraş çevresinin bağımsızlığını sağlayacaklarına dair karar almışlardır. Ermeniler, Mart 1909'da isyanı başlatmış, askerî yardım gelip, isyan bastırılıncaya kadar birçok kişi ölmüştür [2, s.34-41; 13, s.159-163].

Birinci Dünya Savaşı sırasında Ermeniler Azerbaycan'da olduğu gibi eylemlerine devam etmiştir. Çoğunluğu Doğu Anadolu'da olmak üzere çeşitli eylemler gerçekleştiren Ermeniler, savaş bittikten sonra da eylemlerini sürdürmüşlerdir.

Savaş sırasında Zeytûn'un asker kaçaklarının toplandığı bir merkez hâline gelmesiyle Zeytûnlu Ermenilerin silahlı gücü artmış, Ermenilerin çevredeki Müslüman köylere baskınlar yapıp, insanları katletmesi ve gasp etmesi nedeniyle 1914 yılında Zeytûn'a harekât yapılmıştır. Zeytûn Ermenileri Mart 1915'te eylemlerini tekrar başlatmış, orduya cephane taşıyan askerlerin bir kısmını öldürüp bir kısmını esir almaları üzerine Zeytûn'a takviye kuvvetler gönderilmiştir [4, s.99].

Savaş sırasında Ermeniler'in isyan çıkardığı illerden biri de Van'dır. 1915 yılında Van'ın merkeze yakın kaza ve köylerinde isyan çıkarmış, kısa bir süre sonra Vastan, Çatak, Havasor ve Tımar gibi kaza ve köylere yayılmıştır. Ruslar, Van Gölü Havzası'na doğru ilerlerken saflarında bulunan Ermeni alaylarına bölgedeki Ermeniler tarafından oluşturulan çeteler de katılmaya başlamıştır. Ruslar bu durumdan faydalanarak iki ayrı koldan Malazgirt ve Van üzerine ilerlemiş, Muradiye'yi, Patnos'u ve Erciş'i işgal etmiştir. Rusların yaklaştığı haberinin alınması üzerine şehir boşalmıştır. Şehre gelen Ermeniler, Müslümanların oturduğu mahalleleri ateşe vermiş, kontrolü ele geçirmişlerdir. Böylece Ruslar 20 Mayıs 1915'te Van'ı işgal etmiştir. Van'ın işgali 2 Nisan 1918'e kadar sürmüştür [7, s.176-177].

Ermeni-Rus birlikleri, Van'ın işgalinden sonra; Bayburt, Erzurum, Erzincan, Kars, Ardahan ve Iğdır'da toplu katliamlar gerçekleştirmiştir. Türk nüfusu yok etmek adına bebekleri öldürmüş, hamile kadınların karınlarını hançer ve süngülerle yırtmış, kız çocuklarına tecavüz ve işkenceler etmiş, insanları diri diri yakmıştır [8, s.224].

Ermenileri destekleyen ve onları Müslüman halka karşı kışkırtan İngiltere, Fransa ve Amerika 1916 yılında Bitlis'in Rus işgaline uğramasından sonra Rusya ile birlikte hareket etmişlerdir. Irak'ın kuzeyinden İngiltere, Kafkaslardan Rusya aracılığıyla Anadolu'ya getirtilen ve kendilerine Müslüman pasaportu verilen Ermeni çeteleri, Müslüman halkı katletmiştir. Ermenilerin Bitlis'te işledikleri toplu cinayetleri anlatan o dönemdeki şahitlerin ifadelerinden Rusların Bitlis'i işgalinden cesaret alan ve onlarla birlikte hareket eden Ermeniler'in çocuk, kadın, yaşlı ayırmadan katliama giriştikleri anlaşılmıştır. Bitlis'in işgali sırasında halkın şehri terk ederken geride bin kadar çocuğun kaldığı ve bunların çoğunun katledildiği görülmüştür. Bitlis'teki Müslüman halkın evleri ateşe verilmiş, malları gasp edilmiş, yağmalanmış, cami, medrese, tekke ve mektepler yakılmıştır. Bu olaylarda Rus askerler Ermenilere yardım etmiştir [5, s.1418-1419].

Savaş devam ederken 18 Aralık 1917'de Erzincan Mütarekesi'nin imzalanmasıyla bir sınır çizgisi belirlenmiş ve Kafkas Cephesi'nin silahlı aşaması sona ermiştir. Ruslar, Doğu Anadolu'dan çekilmeye başlamış ve silahlarını Ermenilere bırakmışlardır. Ermeniler'e bırakılan bölge, Ermeniler'in yaptıkları katliamlar nedeniyle kontrolden çıkmıştır. 12 Mart 1918'de Erzurum'un kurtarılmasına kadar halk çeşitli şiddet eylemlerine maruz kalmıştır. Ermenilerin, Erzincan Mütarekesi'nin imzalanmasından başlayarak Erzurum'un kurtarılmasına (12 Mart 1918) kadar olan süreçte Erzincan ile Erzurum'da yaptıkları terör eylemleri devam etmiştir [14, s.1-2].

Sonuç. Bir Ermeni devleti kurulması yolundaki hedefin ideolojisi 19. yüzyılın başında hazırlanmıştır. Ermeniler'in bu idealin bir parçası olarak başlattıkları her türlü şiddet içeren eylemleri 20. yüzyılda da artarak devam etmiştir. Ermeniler uzun yıllar boyunca emperyalist devletlerin yayılmacı politikaları için gözettikleri toplumlardan biridir. Böylece bu yüzyılın ilk çeyreğindeki zaman diliminde yaşanan Büyük Savaş sırasındaki kaos ortamında da Ermeniler büyük devletler tarafından cesaretlendirilerek eylemlerini sürdürmüşlerdir. Bu eylemler Amerika, Rusya, İngiltere ve Fransa

başta olmak üzere büyük devletlerin stratejik hedeflerine yönelik olarak Anadolu'daki ve Kafkasya'daki Türkler üzerinde uygulanmıştır. Sistemli bir şekilde hazırlanarak hayata geçirilen bu eylemler Anadolu'da ve Azerbaycan'da pek çok cana ve mala mal olmuştur.

KAYNAKÇA

1. Ağaoğlu Elnur, Ermeniler'in Azerbaycan Topraklarını İşgali ve Azerbaycanlılar'ın Soykırım Günü / Yeni Türkiye, Yıl: 7, Sayı: 38, Ermeni Sorunu Özel Sayısı II, Mart-Nisan 2001, s.1029-1035.
2. Çaycı Abdurrahman, Türk Ermeni İlişkilerinde Gerçekler, ATAM Yayınları, Ankara, 2006, 132 s.
3. Efsane ve Gerçekler: Türk Ermeni İlişkileri (Haz. Azmi Süslü, Hüsamettin Yıldırım, Birgül Gündüz,) ATAM Yayınları, Ankara, 2001, 158 s.
4. Günay Nejla, Birinci Dünya Savaşı'nda İtilaf Devletleri'nin Osmanlı Ermenileriyle İlişkileri ve 1914/1915 Zeytûn İsyanları // Bilig Dergisi, Sayı: 51, 2009, ss.85-104.
5. Karadeniz Yılmaz, Bitlis'te Ermenilerin Müslüman Halka Yaptıkları Katliamlar ve Batılı Devletlerin Katliamlardaki Rolü (1913-1919) // Turkish Studies, Cilt: 6, Sayı: 1, 2011, ss. 1405-1420.
6. Karadeniz Yılmaz, Muş Sancağı'nda Ermeni Mezalimi (1915-1918) // History Studies, Cilt 2, Ortadoğu Özel Sayısı, 2010, s.183-198.
7. Kardaş Abdulaziz, I. Dünya Savaşı Dönemi'nde Van'ın İşgali ve Kurtuluşu (1915-1918) // Akademik Sosyal Araştırmalar Dergisi, Sayı: 10, 2015, ss.176-192.
8. Kantarcı Şenol, Kars'ta Türklere Yönelik Ermeni Katliamı: Kalo/Derecik Köyü Toplu Mezar Kazısı // Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Dergisi, Sayı: 18, 2005, s.221-232.
9. Kodaman Bayram. II.Abdülhamit ve Kürtler-Ermeniler // SDÜ Fen Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, Sayı: 21, 2010, ss.131-138.
10. Mustafayev Beşir, Kafkaslar'da Müslüman-Türk Soykırımı (1905-1920) // Türk Dünyası İncelemeleri Dergisi, XII/1 (Yaz 2012), s.533-561.
11. Rahımlı Ulvu, Azerbaycan Coğrafyasında 31 Mart 1918 Soykırımı, Dokuz Eylül Üniversitesi Sosyal Bilimler Enstitüsü Tarih Anabilim Dalı Tarih Programı, Yayınlanmamış Yüksek Lisans Tezi, İzmir, 2019, X+109 s.
12. Sarı Gökhan, 1915 Tehcirinden 1992 Hocalı'ya Soykırım İddiaları Çerçevesinde Ermeni Sorunu // Güvenlik Bilimleri Dergisi, 4 (2), 2015, ss.91-121.
13. Tosun Ramazan, Ermeni Meselesinin Ortaya Çıkışı ve Mahiyeti // Selçuk Üniversitesi Türkiyat Araştırmaları Dergisi, Sayı: 14, 2003, s.143-163.
14. Tosun Ulvi Ufuk, Erzincan ve Erzurum'da Ermeni Vahşeti (1918) // Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, Cilt: 19, Sayı: 1, 2015, s.1-10.

МЕЛЬТЕМ ТЕКЕРЕК
Министерство Национального Образования Турецкой Республики, PhD

АРМЯНСКИЕ ТЕРРОРИСТИЧЕСКИЕ АКЦИИ В АЗЕРБАЙДЖАНЕ И СОБЫТИЯ 31 МАРТА В БАКУ

С 1800-х годов армяне, в основном с помощью других государств, совершали различные террористические акты против турков и мусульман в Анатолии и на Кавказе. Это акты нанесения ущерба имуществу, причинения увечий и убийства, нацеленные на человеческую жизнь, - действия, которые раздвигают границы воображения. Акция, происшедшая в Баку в конце марта 1918 года, - лишь одна из таких акций, проводившихся одновременно и в Анатолии и на Кавказе. В данном исследовании обсуждаются действия армян до 1918 года на Кавказе и в Анатолии и геноцид 31 марта 1918 года в Баку.

Ключевые слова: Азербайджан, Баку, Турция, 31 марта, армяне.

Dr. MELTEM TEKEREK
Ministry of National Edication Republic of Turkey

ARMENİAN TERRORİST ACTİONS İN AZERBAİJAN AND MARCH 31 BAKU EVENTS

Since the 1800s, Armenians have carried out various acts of terror against Turks and Muslims in Anatolia and Caucasus, largely with the help of other states. These are acts of damaging property and injuring and killing that pushes the limits of imagination which is aimed at human life. The action that took place in Baku at the end of March 1918 is only one of such activities carried out simultaneously in Anatolia and the Caucasus. In this study, generally, the actions carried out by the Armenians until 1918 in the Caucasus and Anatolia and the March 31, 1918 genocide in Baku were discussed.

Keywords: Azerbaijan, Baku, Turkey, 31 March, Armenians.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 07 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Sevinc Əliyeva, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24); UOT 94

АГАСАЛИМ ЭФЕНДИЕВ
Доктор философии по искусствоведению,
докторант Национального Музея Истории Азербайджана
efenag@yahoo.com

ИСЛАМСКИЕ МОНУМЕНТАЛЬНЫЕ РОСПИСИ И ФРЕСКИ ИСФАХАНА

Мусульманская монументальная живопись развивалась уже с конца VII века. Но ее расцвет приходится на XVII век. Фрески дворца Чехель Сутун описывают Сефевидо-могольские политические связи и борьбу за Кандагар.

Самой большой проблемой политической времени правления Аббаса II был конфликт вокруг Кандагара. Несколько раз в течение первой половины XVII века эта проблема столкнула лицом к лицу Сефевидов и Моголов. Сцены битвы и приёмов Зала Приёмов отражают династическое видение шахом Аббасом II мощи и престижа в отношениях с восточными соседями. Многочисленные сцены развлечений и охот в нижних рядах зала и маленьких боковых помещений воскрешают золотой век относительно мирного и процветающего правления Аббаса II.

Росписи эти также, вкупе с европейскими описаниями, дают точные свидетельства. По сравнению с ними дворцовые церемонии Аббаса I, относительно менее формальные, подчёркивают более строго организованные и иерархические структуры мероприятий его наследников.

Ключевые слова: Исламская монументальная живопись, Сефевиды, Моголы, Исфахан, дворец Чехель Сутун, шах Аббас I, шах Аббас II.

Введение. Как известно, великолепные дворцы Сефевидов и Тимуридов были украшены богатейшими росписями и керамической облицовкой. Но лишь немногим известно, что мусульманская традиция монументальной живописи уже с конца 7-го века оставила ряд прекрасных образцов, среди которых мозаики Купола Скалы (Губбат ас-Сахра) в Аль-Гудсе (Иерусалиме), мозаики Большой Мечети 715 г. в Дамаске, уникальные картины животного и растительного мира из Кусайр-Амры второй половины 8 века, росписи в Хирбат аль-Мафджар (Иордания) 724-743 и многие другие. (см. 4). К сожалению до нас не дошли дворцы амира Теймура в Самарканде, дворцы Узун-Гасана и ранних Сефевидов в Тебризе. О них можно судить лишь по их изображениям в миниатюрной живописи. И только позднесефевидские росписи 17-го века дошли до наших дней. Среди них самыми яркими являются образцы из Исфахана (см. 4).

Стенные росписи дворца Чехель-Сутун в Исфахане являются лучшими из дошедших до наших дней монументальных произведений сефевидской эпохи. Они включают повествовательные темы на острополитические сюжеты, сцены из придворной жизни и литературных произведений. Когда Шарден в 1666 г. посетил дворец, он упомянул четыре большие росписи аудиенц-зала, которые описывали три шахских приёма и одну батальную сцену. К его мнению присоединяются многие, утверждая, что эти нарративные росписи были созданы двадцать лет спустя после завершения строительства дворца в 1647 г.

Аргументы, выдвинутые Э.Симс, таковы: традиционная группа, исполненная в стиле Рзы Аббаси, создавалась в годы строительства здания, т.е. в первой фазе его, в правление шаха Аббаса I. Европеизирующая группа, датированная исследователями времен шаха Аббаса II, создавалась в 1660-е гг. (1, с.129).

Такие художественные материалы как холст и масляная краска довольно необычны для эпохи, как и применение светотени и перспективы. С другой стороны росписи довольно просты и наивны даже для третьестепенного художника-европейца. Некоторые образцы эти изобразительных схем как сравнительный материал на бумаге, датированные 1660-ми годами, сохранились, как, например, сцена приёма шахом Аббасом II могольского посла. Рисунок этот подписан Шейхом Аббаси и датирован 1663 г. Типы лиц и фигуры, угловатые позы, аккурат-

ная передача индийских костюмов и головных уборов в этой миниатюре резко контрастирует с округлыми фигурами в сцене приёма шахом Тахмасибом Хумаюна, где индийские типажи и одеяния передаются очень условно. Стиль живописи в миниатюре, с её ярко выраженной светотенью и контрастами светлого и тёмного, отличается от стенной росписи с умеренной градацией цветов. Сравнение ещё больше очевидно подчёркивает индийское влияние на стиль шейха Аббаси, которое в корне отличается от росписей Чехиль-Сутун.

Ещё один образец бумажного варианта сюжета приёма, подтверждающий датирование росписи 1660-ми годами, это – «Шах Аббас II принимает могольского посла» (Торонто). Его атрибутируют Мухаммеду Заману и на основе сходства с рисунком Шейха Аббаси датируют 1663 г. Во-первых, произведения Мухаммеда Замана и Шейха Аббаси, выставленные бок-обок, обнаруживают более различия, нежели сходство. С другой стороны, живопись Мухаммеда Замана монументальна в своей концепции несмотря на малые размеры, и близка по типажам росписям Чехель-Сутун, как и по композиции, и в особенности это сходство заметно по толпе прислуги с подносами.

Аргументация Э.Симс отражается на идентификации гостя (сидящий старец в белом), а это посол к ш. Аббасу II в росписи и миниатюре – Тарбийат-хан, от императора Аурангзеба, посетивший шаха в 1664-66 гг. Эта идентификация, как и документированный визит посла в 1664 г. и является основой данного утверждения (1, с.131).

Однако существуют и контраргументы. Во-первых, достоверный портрет Тарбийат-хана – профильный, а в обоих живописных вариантах он изображён в 3/4. Во-вторых, Тарбийат-хан, единственный посол Индии к сефевидскому двору после возвращения Кандагара шахом Аббасом II, не справился со своей миссией, и был смещён после оскорбительного послания Аурангзебу. Маловероятно, что такие напряженные отношения могли бы быть запечатлены в росписях Зала Приёмов (Аудиенц-зала) дворца. Скорее всего, почётный гость в этой сцене приёма Чехель-Сутуна был узбекский, а не индийский посол. Идентификация узбекского посланника к Аббасу II определяется другими сценами приёмов дворца. Из всех событий правления Тахмасиба и Аббаса Первого две из зала приёмов – изображают сефевидских шахов оказывающими помощь и дающими прибежище правителям, изгнанным из своей страны. Хорошо известен случай, когда шах Тахмасиб предоставил убежище Хумаюну. Вали Мухаммед-хан также прибыл ко двору шаха Аббаса I в 1612 г., когда его власть пошатнулась в результате внутренних интриг. Согласно Искендеру Мунши, он попросил помощь для возвращения престола. То, что сцены пиров означают (подчёркивают) роль шаха как благодетеля и покровителя своих восточных соседей, было высокомерно подчеркнуто в письме шаха Аббаса II, посланного Аурангзебу через злосчастного Тарбийат-хана. В письме Аббас напоминает Аурангзебу, что шахский (сефевидский) двор уже некогда был убежищем для других правителей, например, для Хумаюна, Вали Мухаммеда и Надир Мухаммед-хана. То, что Аббас называет имена этих трёх правителей, а также изображение двух из них в росписях, приводит к мысли, что третий из них, узбекский гость Аббаса II есть не кто иной, как Надир Мухаммед-хан (7, с.67). Согласно «Аббас-нама», Надир Мухаммед-хан явился к сефев. двору в надежде получить поддержку для возврата трона в Трансоксиане, из которой он бежал после захвата Балха шахом Джаханом. Он был принят шахом Аббасом II с большой пышностью и готовностью оказать военную помощь. Приём, оказанный шахом Аббасом II восточному правителю в изгнании, повторяется и в двух других сценах приёма. Поэтому совершенно не случайно, что две сцены приёма шахом Аббасом I и шахом Аббасом II туркестанских правителей расположены друг против друга по северному крылу Аудиенц-зала. В дополнение ко всему отметим, что в год визита Надир Мухаммед-хана последовали три индийские посольские миссии ко двору, и это не исключает присутствие индийского посла в сцене (6, с.499).

Общее идеологическое содержание трёх сцен приёмов указывает на целенаправленное программированное содержание их, нарушенное, а возможно, и обогащенное сценой битвы шаха Исмаила с узбеками, что как бы служило напоминанием о сефевидской военной мощи, это могло быть также и предостережением восточным соседям, и их агрессия была бы психологически подавлена. Главные традиционные темы пиров и битв («bazm-u razm) здесь сохраняются.

Деление росписей на две части, одну в традиционном стиле, другую в европейском, а также разрыв между ними в два десятилетия, могут создать впечатление случайности в выборе тем, но это совершенно исключено.

Историки времени правления шаха Аббаса I всегда делали упор на роль сефевидского двора, как на место убежища для неудачливых соседних правителей. Шамлу отмечает, что приём Надир Мухаммед-хана из Туркестана повторяет прецедент ранних правителей Ирана, чье государство было всегда «Каабой властелинов помощи (azbab-i hajat)» и «Киблой для соратников могучего» (aṣhab-i muhimmat). Шамлу подчеркивает сефевидскую доблесть, упоминая большую помощь шаха Тахмасиба Хумаюну. Так эти сцены приёмов представляют грандиозные картины двора Аббаса II, которому нет равных как стержню мощи религии (7, с.84)

Самой большой проблемой политической времени правления Аббаса II был конфликт вокруг Кандагара. Несколько раз в течение первой половины XVII века эта проблема столкнула лицом к лицу Сефевидов и Моголов, их силы: в 1622 г. шах Аббас I завоевал форт Кандагара, а в 1638 г. он перешёл в руки шаха Джахана. Потеря Кандагара при шахе Шафи I была восстановлена лишь в ранние годы правления Аббаса II.

Задача возврата Кандагара вновь стала в 1648 г., когда шах Джахан получил известия о подготовке Сефевидами нового натиска, и тогда он послал войска под руководством принца Аурангзеба в эту провинцию. Тем не менее, неудачные расчёты могольских военачальников позволили Сефевидам вернуть Кандагар 22 февраля 1649 г. И это стало единственной большой военной победой Аббаса II и самым крупным событием того времени. Та роль, которую в государственной пропаганде играл конфликт с Османами в XVI веке, теперь перешла в 17 в. к борьбе и окончательной победе над Моголами в Кандагаре.

Сефевидо-могольский конфликт повлёк соперничество в борьбе за политическое влияние в Трансоксиане, а также дипломатический союз с узбекскими правителями. Надир Мухаммед-хан, узбекский гость Аббаса II и персонаж росписи в Чехель-Сутун, искал у него убежища после того, как шах Джахан вмешался во внутреннюю борьбу за власть узбеков и нарушил баланс между ними. Предоставление убежища шахом Аббасом II Вали Мухаммед-хану было также частью долговременного вмешательства Сефевидов в Трансоксиану, хотя это было частью политики, направленной против Моголов. А «Битва шаха Исмаила с узбеками» исходила из того же источника.

Тот факт, что историческая живопись Чехиль-Сутуна описывает сефевидские взаимоотношения с восточными соседями, объясняется политическими приоритетами. Крайняя важность кандагарского вопроса в период завершения строительства была преобладающим фактором в выборе тем для росписей Аудиенц-зала Чехель-Сутуна.

Эти сцены приёмов детально описывают всех присутствующих, что полностью совпадает с описаниями европейских путешественников. Опираясь на свидетельства Пьетро делла Валле и Э.Кемпфера (1617-85 гг.), можно восстановить детали этой церемонии, приближения гостей по установленному маршруту, их рассаживания, подачи угощения и чередования видов развлечений.

На приёме у шаха Аббаса I европейцы Пьетро делла Валле, Фигейра и Херберт описывали, как шли во дворец через длинный сад. Внутри зала сидели гости и вельможи, а центральное место напротив входа было предназначено для шаха. Все были рассажены соответственно степени важности их должности при дворе, т.е. по степени близости к шаху.

В отличие от этого, европейские путешественники, посещавшие Исфахан после смерти шаха Аббаса I описывают гораздо более усложненные церемонии приёма. Всех гостей вели к залу приёмов через длинный путь, вдоль выстроенных в ряд скакунов из шахских конюшен, украшенных золотом, драгоценностями и дорогими тканями.

Внутри зала приёмов была строгая трехчастная иерархия рассаживания присутствующих согласно их важности. В дальней части сидел шах, а по бокам слева и справа – самые важные чины его гос. аппарата. За шахом стояли полукругом молодые евнухи, безмолвно и бесстрастно, пока не подавали еду шаху.

Гости второстепенной важности состояли из правителей или наместников и служителей провинций, важных духовных лиц и гостей и низшего ранга чиновников. Наконец, в третьем ряду сидели танцоры и музыканты.

И Шарден, и Кемпфер, – оба описывали порядок рассаживания и иерархию участников, их физический облик. Так, Шарден сообщает о приёме в Чехель-Сутун, а Кемпфер описывает приём в павильоне (кёшке), трехступенном, в саду развлечений в Саад-Абаде, на берегу реки Зайанда Руд.

Подобный иерархический порядок от шаха на высшей точке собрания и до танцоров и музыкантов в низшем ряду в точности передаётся в схеме сцен приёмов в Чехель-Сутун, хотя и в сжатой пространственной форме. Точность передачи шахских сцен приёмов могло быть сразу же опознано участниками подобных мероприятий. Вместо условных сцен шахских приёмов, многочисленных в миниатюрной живописи, художники и организаторы этих росписей отображают специфический церемониальный формат, как наилучший способ передачи политического послания, что подчеркивает историческую важность иллюстрируемого события.

Заключение. В заключение отметим, что росписи Чехель-Сутун, как и сам дворец, создают красноречивое свидетельство как художественное, так и архитектурное, выражение облика сефевидской династии на международной, а также внутридворцовой, их ценностей. Сцены битвы и приёмов Зала Приёмов отражают династическое видение шахом Аббасом II мощи и престижа в отношениях с восточными соседями. Многочисленные сцены развлечений и охот в нижних рядах зала и маленьких боковых помещений воскрешают золотой век относительно мирного и процветающего правления Аббаса II.

Росписи эти также, вкупе с европейскими описаниями, дают точные свидетельства. По сравнению с ними дворцовые церемонии Аббаса I, относительно менее формальные, подчёркивают более строго организованные и иерархические структуры мероприятий его наследников.

ЛИТЕРАТУРА

1. S. Babaie: ‘Shah ʿAbbas II, the Conquest of Qandahar, the Chihil Sutun, and its Wall Paintings’, Muqarnas, xi (1994), pp. 125-142.
2. Canby Sh. Persian painting. London, İnterlink books, 1993, 128 p.
3. Canby Sh. The Golden age of Persian art. 1501-1722. London, British Museum Publishings Ltd, 1999, 192 p.
4. Ettinghausen R. Arab painting. 1962. (Treasures of Asia), Geneve, Éditions d'Art, Albert Skira. 1962.
5. Ettinghausen R. Stylistic tendencies at the time of shah Abbas // Studies of Isfahan. Part II. Iranian Studies, vol. VII, summer-autumn 1974, No 3-4, pp.593-627.
6. E. Grube: ‘Wall Paintings in the Seventeenth Century Monuments of Isfahan’ // Studies on Isfahan, ed. R. Holod, 2 vols, Iran. Stud., vii (1974), pp.511–542.
7. Robinson B.W. Shah Abbas and the Mughal Ambassador khan Alam – the pictorial record // Burlington Magazine, 1951, vol. 114, No 827, pp. 63- 85.

AĞASƏLİM ƏFƏNDİYEV
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Milli Azərbaycan Tarixi Muzeyinin doktorantı

MÜSƏLMAN DİVAR BOYAKARLIĞI VƏ İSFAHAN FRESKALARI

İslam dünyasında divar rəsmləri VII əsrin sonundan inkişaf edirdi. Onun çiçək-lənmə dövrü isə XVII əsrə təsadüf edir. İsfahandakı Çehel Sütun sarayının freskaları Səfəvi-Moğol siyasi əlaqələri və Qandahar müharibələrini təsvir edir.

Açar sözlər: İslam divar rəsmləri, Səfəvilər, Moğollar, İsfahan, Çehel Sütun, I şah Abas, II şah Abas.

AGASALİM EFENDİYEV
Doctor of Philosophy in Art History,
Doctoral student of the National Museum of History of Azerbaijan

ISLAMIC WALL PAINTING AND FRESKOES OF ISFAHAN

Islamic monumental painting developed from the end of VII century. But his heyday coincides to the XVII c. The frescoes of Chehel Sutun palace depicts Safavid-Mughal political relations and the war for Kandahar.

Keywords: Islamic monumental painting, Safavids, Mughals, Isfahan, Chehel Sutun palace, shah Abbas I, shah Abbas II.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 23 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Şahin Fərzəlibəyli, t.e.d. İsmayıl Məmmədov.

UOT 94; UOT 94”04/15”

GÜNAY HEYDƏRLİ
Bakı Dövlət Universitetinin doktorantı
gunay.heydarli@atmu.edu.az

KATOLİK AVROPASININ SİYASİ OYUNUNUN HƏDƏFİNƏ ÇEVRİLƏN ŞAHZADƏ CEM SULTAN

Fateh II Mehmedin ölümündən sonra Osmanlı sarayında başlamış hakimiyyət uğrunda mübarizə xristian dünyası üçün əlverişli şərait yaratdı. Şahzadə Cem Sultan II Bəyazidlə mübarizədən məğlub ayrılsa da katolik Avropasında Osmanlı imperiyasına qarşı yaranan anti-osmanlı koalisiyalarında böyük rol oynamışdı. Məqalənin məqsədi Cem Sultanın Papa VIII Klement və Papa VI Aleksandrın hakimiyyəti illərində mövcud olan anti-osmanlı koalisiyalarının yaranmasında rolunu araşdırmaqdı. Mövcud tədqiqat işində dövrün mənbələrinin müqayisəli təhlilinə yer verilmişdir.

Açar sözlər: Cem Sultan, anti-osmanlı koalisiyası, Papa VIII Klement, Papa Aleksandr VI.

Giriş. Fateh II Mehmedin Avropada apardığı işğallar katolik kilsəsinin narahatlığına səbəb olmuşdu. Konstantinopolun fəthini izləyən kilsə növbənin Romaya çatacağından qorxurdu. Avropada yayılan pamfletlərdə “Sultan ananı, yəni Konstantinopolu fəth etmişdir və növbə qızındadır, yəni Romadadır”. Hətta “Romanı işğaldan əvvəl, sonuncu dəfə gəlib görmək lazımdır” şüarı ilə humanistlərin Romaya axını başlamışdı. 1480-ci ildə İtaliyanın Apuliya əyalətini ələ keçirən Osmanlı ordusu Papalıqda ciddi təşviş yaratmışdı və papa Romadan Avinyona qaçmağa hazırlaşırdı. Lakin gözlənilmədən 1481-ci ildə Sultanın vəfatı vəziyyəti dəyişdi. Hakimiyyət uğrunda mübarizədən məğlub ayrılan Cem Sultan in on üç il Avropa saraylarında əsir həyatı yaşadı. Avropa krallari və papalar Cem Sultandan Sultan II Bəyazidi təhdid etmək üçün istifadə etdilər və Sultan II Bəyazidin Avropaya yolu bir müddət əngəlləndi [4, s.23]. Anonim yazılmış mənbə “Vakiati Sultan Cem” şahzadənin Avropa saraylarındakı həyatı haqqında bizə ətraflı məlumat verir. Əsərdən məlum olur ki, Papa VIII İnnokenti ona din dəyişdirməyi belə təklif edir: ”Əgər xristianlığı qəbul etsən bütün Avropa sənə kömək edəcək və sən arzuladığın səltənətə sahib olacaqsan [6, s.32].” Cem Sultanın cavabı isə belə olur: “Insana öz dinindəb başqası batildir. Dinimi dünya səltənətinə dəyişmərəm.” Bu din dəyişdirmə cəhdləri dəfələrlə davam etmişdi. “Vakiati Sultan Cem” əsərinə nəzər saldıqda bunu görə bilirik: Isanın dininə inanıb inanmadığını papa soruşduqda Cem cavab verir ki, “İsa əleyhəssalamın dinini ikrar edirik. Amma 318 kişinin düzüb-qoşduğu dinə deyil [6, s.44]”.

Məqalənin əsas məqsədi katolik Avropasının Osmanlı imperiyasına qarşı yeritdiyi siyasətdə Cem Sultanın rolunu aşkara çıxarmaqdır. Məqalə yazılarkən son dövrün tədqiqat işlərinə və dövrün mənbələrinə diqqət yetirilmişdir. Məqalənin yazılmağında məqsəd aşağıdakı sualları cavablandırmaqdır:

1. Cem Sultan məsələsindən Katolik Avropası necə faydalandı?
2. Cem Sultan məsələsinin Osmanlı imperiyasının xarici siyasətinə necə təsir etdi?

Cem Sultan və Papa VIII İnnokentinin anti-türk koalisiyası. 3 may 1481- ci ildə Sultan II Mehmed vəfat etdi və Osmanlı ordusu Romanın yaxınlığında yerləşən Apuliadan geri qayıtdı. Con Frili II Mehmedin ölümünə Avropanın verdiyi reaksiyanı bu şəkildə təsvir edir: ”Venesiya doju müşavirədə olarkən məktubu gətirən kapitan salona girib qışqırır: “Grande Aquila e morte” (Böyük qartal öldü) [7, s.76]. Məktubu oxuduqdan sonra Venesiya dükü San Marko zəng qülləsindən zəngin çalınmasını əmr etmişdi. Bu zəng dükün ölümü və düşmən donanması görünən zaman çalınırdı. O gün zəng ilk dəfə olaraq yaxşı xəbəri verirdi. Dükün göndərdiyi çaparlardan bu xəbəri alan Papa isə Tiber çayı sahilində yerləşən qəsrində Sankt Angelo toplarından atəş açılmasını və kilsə zəngərinin çalınmasını əmr etdi. Venesiya tarixçisi Covanni Saqredo 200 il sonra bu hadisəni belə təsvir edir: ”Ölümün bu alovlu, hirsli və yenilməz barbarı nəhayət durdura bilməsi həm İtaliya , həm də bütün xristian dünyası üçün böyük şansdır” [4, s.102] Osmanlı şahzadəsinin Romada olması papanı yenidən anti-osmanlı koalisiyası yaratmağa sövq etdi. 1489-cu ilin 8 mayında Papa buraxdığı bullada xristian dünyasını təmsil edənləri Romaya çağırdı. Papanın elçiləri tək-tək krallıqlara gedərək

Papanın Cemə sahib olmasını xristian dünyası üçün böyük bir fürsət olduğunu çatdırdılar. Papa VIII İnnokenti kralları inandırırdı ki, şahzadə xristianların köməyilə tacını geri aldığı təqdirdə osmanlıların Avropadan çəkiləcəyinə və hətta Konstantinopolu belə qaytaracağına söz verib. VIII İnnokenti güclərin birləşməyi üçün yalvarırdı: "Bizə qatılmağınızı gözləyərkən Cemin təhlükəsizliyini Vatikan sarayında qorunmasını əmr etdik. Türklərlə vuruşmaq üçün əlimizdən gələni edəcəyik" [3, s.44].

Lakin Venesiyanın Osmanlı ilə ticarətdə çıxarları vardı və bu çıxarlara görə Sinyora ikili oyun oynadı. Bir tərəfdən papaya məktub yazaraq Sultan II Bəyazidin müharibəyə hazırlaşdığını xəbər verərək sui-qəsd, qaçırma təşəbbüsünə qarşı oyanıq olmağa çağırdı. Digər tərəfdən də türk vəzirinə məktub göndərərək Papanın xaç yürüşünə hazırlaşdığını yazaraq Cem sultanın Vatikan sarayında yaxşı qorunduğunu bildirdi.

25 mart 1490-cı ildə Papa VIII İnnokenti xaç yürüşü fikrindən əl çəkməyərək "Contra Turcum" (türklərə qarşı) adlı konqres çağırdı . Konqresdə Venesiya xaric bütün xristian dövlətləri iştirak edirdilər. Sultanla münasibəti pozmaq istəməyən Sinyora uzaqda durmağı seçdi. Macar kralı Matias Korviniusun iflic keçirib vəfat etməsilə konqres işini yarımçıq qoydu. Lakin 3 iyunda yenidən bərpa olundu. Papa yeniçərilərin Sultan II Bəyazidi devirmək üçün üsyan hazırladığı xəbərini almışdı və "ayaqlarına gələn bu neməti tapdalamamağın vəzifə olduğunu" konqres iştirakçılarına çatdırdı. İnnokentinin tələbilə səfərə qatılacaq əsgər və gəmilərin sayı, maliyyə məsrəfi, ərzaq təchizatı, hərəkət planı, səfərbərlik müddəti hesablanmışdı. Üç qaynaqdan ümumilikdə 95 min əsgər bir araya gətiriləcək idi. Birinci qaynaqda Polşa və İtaliya, ikincidə Macarıstan, Bohemiya, Polşa, alman dövlətləri, üçüncüdə isə fransız, ingilis, ispan, portuqal, Navarra, İsveç yer alırdı. Üç il davam edəcək bu müharibələrdə xərcləri qarşılamaq üçün hər kral öz təbəəsindən vergi alacaq idi. Hərəkət planına görə ilk olaraq alman süvarilər Macarıstam və Əflakdan cənuba hərəkət edəcəkdi. Müttəfiq donanması Moreyaya və Əyriboz adasına hücum etməliydi. Fransız, ispan, italyan birləşmələr Albaniyaya və Şimali Yunanıstana irəliləməli idi. Papa sonradan səfərin üç il deyil, beş il olacağını elan etdi [1, s.223]. Misir məmlükləri də Osmanlı dövlətinə qarşı hücum edəcək idi. 30 iyul 1490- cı ildə konqres işini yekunlaşdırdı və bir daha toplanmadı.

Amma bu anti-osmanlı ittifaqı da əvvəlkilər kimi reallığa çevrilə bilmədi. Kilsənin xaç yürüşü xəyalı yenə suya düşdü. Sigizmondo de Kontiyə görə macar kralı Matias Korvinius ölməsəydi bu səfər reallaşardı. Onun ölümüylə Mərkəzi Avropanı türklərdən qoruyan sipər yıxılmış oldu. I Maksimilianla VIII Çarlz arasında başlanan müharibə isə papaya növbəti bir zərbə oldu [2, s.25].

2 yanvar 1492-ci ildə Qranadanın fəthiylə ərəblər İspaniyada olan son ərazilərini itirdilər. Pireney yarımadasında 800 illik hakimiyyət sona çatdı. Xəbər Romaya 1 fevralda çatmışdı və bu qələbə Qüdsün geri alınması ilə nəticələnəcək xaç yürüşü üçün ilk addım olaraq görüldü. Qeyd edək ki, Qranada müsəlmanları iki dəfə Sultan II Bəyazidin yanına elçilər göndərib kömək istəmişdilər. Sultan II Bəyazid isə kömək etmək əvəzinə İspaniya kralına məktub göndərdi: "Əgər Kastiliya kralı Qranadanın mühasirəsini davam etdirərsə, Rumelidə rəiyyət kimi yaşayan xristianlarla eyni cür rəftar ediləcək" [8, s.34]. Amma Sultanın bu məktubu Qranadanın işğalının qarşısını ala bilmədi. Sultan II Bəyazidin Əndəlusa kömək göndərə bilməməsini müxtəlif səbəblərlə əlaqələndirə bilərik:

1) Osmanlı donanması əvvəlki qüdrətini itirmişdi. Digər tərəfdən də Misir və Tunislə razılığın olmamasına görə donanma Aralıq dənizində hərəkət edə bilməzdi.

2) Osmanlı imperiyası qərb sərhədləri boyunca macarlar, şərqdə isə Misir məmlüklərilə mübarizə aparırdı.

3) Qardaşı Cem Sultan Sultan II Bəyazidin Avropaya qarşı hərəkətini əngəlləyirdi.

1492-ci ilin mayında yenidən Sultan II Bəyazid papayla görüşmək üçün elçilər göndərdi və görüş zamanı papaya vaxtilə vəd edilmiş "Iangimus"u (İsaya batırılan mizrağın ucu) hədiyyə kimi verildi. Papaya elçilər həm də II Bəyazidin adından iki məktub verdilər. Lakin məktubların tam mətni bizə məlum deyil [9, s.98].

Bütün bunlara baxmayaraq Osmanlı sultanın yeni müharibəyə hazırlaşması Papalığın Osmanlı sarayına təhdid xarakterli məktub göndərməsi ilə nəticələndi. Yazılan papa məktubunda deyilirdi ki, Sultan II Bəyazid Macarıstana və ya hər hansı bir xristian ölkəsinə hücum edəcəyi halda Cemi müharibə meydanına çıxaracaq. Papa bu təhdidləri İstanbula göndərdiyi elçilərlə də yenilədi. Amma Sultan II Bəyazid müharibəyə hazırlıqlarını davam etdirdi.

1492-ci ildə papanın vəziyyəti gözlənilmədən pisləşdi. 1492-ci il 25 iyul tarixində VIII İnnokenti vəfat etdi. 6 avqust 1492- ci ildə Sikstin kapellasında yığılan 23 kardinal Rodriqo Borcianı VI Aleksandr (1492-1503) adı ilə papa seçdilər.

Beləliklə Papa VIII İnnokentinin Cem Sultanı Osmanlı sultanına qarşı ittifaqa cəlb etmək planı baş tutmadı. Xristian kralları əvvəlki dövrlərdə olduğu kimi birlik nümayiş etdirə bilmədilər.

Papa VI Aleksandrın Osmanlı imperiyasına qarşı xaç yürüşü planı. VI Aleksandr 1493-cü ilin 25 aprelində Papalıq, Milan, Venesiya, Siena, Ferrara, Mantuadan ibarət ittifaqın yarandığını elan etdi. Bundan az sonra VI Aleksandr özü təhdidlə qarşılaşdı. Fransa kralı VIII Çarlz Napoli taxtına iddia irəli sürdü və 29 avqust 1494-cü ildə yürüşə çıxdı. Napoli kralı Osmanlı dövlətindən kömək istəmək məcburiyyətində qaldı və Sultan II Bəyazid Qasım bəyi yenidən 40 min dukat və məktubla VI Aleksandrın yanına göndərdi. Amma yolda elçi heyəti basqına uğradı və nəticədə Fransa kralının göndərdiyi adamlar məktubu ələ keçirərək krala apardılar. Məktuba deyilirdi: "Papa həzrətləri, əlinizdə olan qardaşım Cemin edamı bir an öncə yerinə yetirilməlidir. Bu onu sıxıntıdan qurtaracaq və sizin üçün də xeyirli olacaq. Bu məsələdə bizi razı salmağı qəbul edərsəniz Cemin nəşinin xərcləri tərəfimizdən qarşılanacaq. Biz sultan Bəyazid xan arzu etdiyiniz yerdə sizə təslim edilmək üçün 300 min dukat ödəməyə söz veririk. Bununla oğullarınız üçün mal-mülk satın ala bilərsiz" [5, s.31]. Məktubun davamında Sultan II Bəyazid papanı əmin edirdi ki, xristianlar türklərdən ziyan görməyəcək: "Əlimizdəki hər hansı bir xristiana zərər verməyəcəyimizə , rütbəsi nə olursa olsun istər quruda , istərsə də suda xristianlara maneə yaratmayacağımıza söz veririk. Təbii ki, bizə, ya da təbəələrimizə zərər verilmədiyi müddətdə. Şübhəni yox etmək üçün Biz, Sultan Bəyazid xan, yerləri, göyləri yaradan, hər şeyə qadir olan Allaha and içirik ki, biz bu andlaşmanın şərtlərinə əməl edəcəyik, heç bir şərt altında Papa həzrətlərinə zidd iş görməyəcəyik" [4, s.100]. VI Aleksandr nə qədər bu məbləği əldə etməyə can atsa da, Cemi öldürmək üçün səbəb yox idi.

Lakin bir maraqlı faktı diqqətə çatdıraq ki, qəfildən şahzadənin səhhəti pisləşməşdi. Mənbələrdə onun papa tərəfindən zəhərləndiyi deyilir. Şahzadə Cemin ölümündən sonra da onun cəsədi üstündə dövlətlər arasında yarış başladı. Cəsədi ələ keçirmək üçün ilk addım 1495-ci ildə papadan gəldi və VIII Çarlız təklifi rədd etdi. Lakin VIII Çarlızın vəfatı ilə Sultan II Bəyazidin Avropada əlqolu açıldı. Sutan II Bəyazid Fransa ilə müttəfiq olan Napoli krallığına xəbər göndərərək Cemin nəşini verməyə səkkiz gün vaxt verdi. Qeyd edək ki, Cemin nəşi Napolidə saxlanılırdı və Napoli krallığının Cemin nəşini Sultan II Bəyazidə göndərməkdən başqa çarəsi qalmadı.

1499-cu ildə Romaya Rodosun təhlükədə olması ilə bağlı məktub gəlməsi VI Aleksandrın ittifaq üçün krallara müraciət etməsinə səbəb oldu. Sultanın hədəfinin Korinfin cənubunda yerləşən Venesiya qalası Lepanto olması məlum idi. 1500-cü ildə türklərin Modon, Koron və Navarini ələ keçirtməsi Venesiya-Osmanlı müharibəsinin başlanmasına səbəb oldu. XVI əsrin əvvəllərindən başlayaraq Avropada krallara xaç yürüşləri vaxtı səfərbərlik strategiyasını, maliyyələşməni və hərəkət istiqaməti haqda məsləhətlər verən nəşrlər meydana çıxmışdı. Qərb dünyası öz məğlubiyyətlərini doğuran səbəbləri öyrənmək, həm də türk qələbələrinin qaynağını tapmaq üçün düşməni tanımağa cəhd edirdi. Türk ordusuyla müqayisədə Qərb ordusu zəif və nizamsız idi. Təhlükənin bu qədər yaxın olduğu halda türklər haqqındakı bilgilərin az olması o dövrün mütəfəkkirləri tərəfindən əskiklik kimi görülürdü. Xorvat humanisti Feliks Pentansiusun 1502-ci ildə yazdığı, macar kralı II Vladislasa ünvanlanan "Libellus de modo bellis Turcis ingerendi" (Türklərin səbəb olduqları müharibə) kitabı buna misaldır [4, s.110]. O, II Vladislasa üçün "Macarıstandan hərəkət edəcək ordu hansı yollardan istifadə etməlidir?" sualına aydınlıq gətirmişdir. Feliks Pentansius üç istiqamətdə hərəkəti məsləhət görürdü: 1) Belqrad, Nis, Sofiya, Filippopolis yolu ilə Ədirnəyə 2) Qərbi Balkanlardan türk ərazilərinə, cənubi Kosovaya, oradan da Pristinə, Skopyeyə 3) Transilvaniyadan şərqə, Qara dəniz sahillərinə, Varnaya.

Lakin birinci yol 400 il əvvəl birinci xaç yürüşü zamanı Qodfrey de Bouillonun tərəfindən keçilən yol idi və hamıya məlum idi. İkinci yol, yəni Kosova ovalığı Yanoş Hunyadinin ağır məğlubiyyətlərinə səhnə olmuşdu. Üçüncü isə Vladislas Drakulanı və Moldovalı Stefanın müharibələrini, eləcə də 1444-cü il Varna döyüşünü ağıla gətirir.

Müəllifin fikrincə türklərin vətənlərini işğal etməyini gözləmək lazım deyil. Macarlar cənuba hücum dərkən italyanlar da Makedoniyaya hücum etməlidi. O yazır: "Böyük İsgəndər Daranı Asiyada məğlub edib. Kserks müharibəni Afinaya daşımışdı. Hannibal İtaliyanı istila edib. Sezarın hücumları sürətlilik, sərtliklə seçilib. Eyni vaxtda Hunyadinin də fəaliyyətinə baxmaq lazımdır. Hücumu gözləməkdənsə müharibəni düşmənlərin torpaqlarına daşımışdı" [7, s.121].

1519-cu ildə I Maksimilian Habsburqun ölməsi ilə Fransa kralı I Fransisk və İspaniya kralı V Karl arasında Müqəddəs Roma imperiyasının taxtı uğrunda mübarizəsi başlandı. Bu iki kral arasında mübarizə Sultan I Süleymanın 1521-ci ildə Belqradı, növbəti il isə Rodosu fəth etməsini asanlaşdırdı. Rodos və Belqradın fəthi xristian torpaqlarında türk qorxusunu türk ümidi ilə əvəzlədi. Osmanlıların tolerant davranışı ağır şəraitdə yaşayan əhali üçün bir xilas oldu. Martin Lüter bu haqda yazır: "Türklər nə kimi pislik edir ki ? Ölkəni ələ keçirib bir müddət idarə edir. Eyni şeyi Papadan da çəkirik. Üstəlik Papa ruhumuza , bədənimizə əziyyət verir. Türk isə bunu etmir. Üstəlik türk heç kimi din dəyişdirməyə məcbur etmir" [6, s.67].

Nəticə. Rodos, Fransa və İtaliya saraylarda əsir olan Cem Sultanın həyatı haqqında bioqrafik mənbə olan "Vakiatı Cem Sultan" əsərindən bizə məlumdur ki, Katolik kilsəsi Osmanlı sarayında olan hakimiyyət uğrunda mübarizədən fayda əldə etməyə çalışmışdı. Cem Sultan həm papalar, həm də Avropa krallarının əlində oyuncağa çevrilmişdi. Tədqiqatın gedişatından məlum olur ki, papa VIII İnnokenti şahzadəni katolik etməyə ümidliydi və inanırdı ki, Cem Sultan Konstantinopolun alınmasında xristianlara köməklik edəcəkdi. "Vakiati-Cem Sultan" əsərindən bizə məlum olur ki, şahzadə katolik saraylarda əsir olsa da Osmanlı imperiyasına qarşı məkrli planlara uymamağa çalışmışdı: Əvvəlcə xəyanətlə və məğlubiyyətlə üzləşmiş, sonra aldadılaraq dustaq edilmiş və yaxınlarından uzaq düşmüşdü. Bütün dünyanın diqqətini üzərində cəmləyən bu adam sona qədər öz cızdığı yoldan çıxmayacaq, nə daş qəlbli qardaşına, nə də ondan faydalanmaya çalışan xristianlara alət olmayacaqdı. Onu əldən-ələ gəzdirən və satılan mal halına gətirən bu adamların qarşısında bir gün belə başını əyməyəcəkdi" [6, s.87].

ƏDƏBİYYAT

1. Danişmend İ.H. Gurbetname-i Sultan Cem // Fatih ve İstanbul, II (7-12), 1954, s.211-271.
2. Eyice S. II Beyazid Zamanında Davet Edilen Batılılar // Belgelerle Türk Tarihi Dergisi, 19/1969, s.23-30.
3. Freely J. The grand turk Sultan Mehmet II- Conqueror of Constantinople and master of empire. New York: The overlook press, 2010, 270 p.
4. Housley N. Religious warfare In Europe 1400-1536. Oxford: Oxford University Press, 2016, 156 p.
5. Kozanoğlu K. Cem Sultan Olayında Avrupaya Giden Hristiyan Kutsal Emanetleri // Tarih ve Toplum, 14, 1985, s.30-34.
6. Mehmet A. Cem Sultan. Vakiati Sultanı Cem. İstanbul: Pergole yayınları, 2019, 92 s.
7. Poumarede G. Haçlı seferine son çağrı Yeniçağ Avrupasında Osmanlı imgesi. İstanbul: İletişim, 2010, 136 s.
8. Ünver M.S. Osmanli'nin Endülüs'e doğrudan yardım edememesinin nedenleri // Karatekin Edebiyat Fakültesi Dergisi (KAREFAD) 2(1), 2013, s.29-48.
9. Verharen C. Allies with the infidel. The Ottoman and French alliance in the Sixteenth century. London: Tauris and Co.Ltd, 2013, 190 p.

ГЮНАЙ ГЕЙДАРЛИ
Докторант Бакинского Государственного Университета

ПРИНЦ ДЖЕМ СУЛТАН, СТАВШИЙ МИШЕНЬЮ ПОЛИТИЧЕСКИХ ИГР КАТОЛИЧЕСКОЙ ЕВРОПЫ

Борьба за власть, начавшаяся при османском дворе после смерти Фатиха Мехмеда II, создала благоприятные условия для христианского мира. Несмотря на поражение от принца Джема Султана Беязида II, он сыграл важную роль в антиосманских коалициях, возникших в

католической Европе против Османской империи. Цель статьи заключалась в рассмотрении роли Джема Султана в формировании антиосманских коалиций, существовавших в период правления пап Климента VIII и папы Александра VI. В настоящем исследовании проводится сравнительный анализ источников того периода.

Ключевые слова: Джем Султан, антиосманская коалиция, Папа Климент VIII, Папа Александр VI.

GUNAY HAYDARLİ
Doctoral student of Baku State University

PRINCE CEM SULTAN, WHO BECAME THE TARGET OF THE POLITICAL GAME OF CATHOLIC EUROPE

The struggle for power that began in the Ottoman court after the death of Fatih Mehmed II created favorable conditions for the Christian world. Although Prince Cem Sultan was defeated by Beyazid II, he played a major role in the anti-Ottoman coalitions that emerged in Catholic Europe against the Ottoman Empire. The purpose of the article was to examine the role of Cem Sultan in the formation of anti-Ottoman coalitions that existed during the reigns of Pope Clement VIII and Pope Alexander VI. The current research provides a comparative analysis of the sources of the period.

Keywords: Cem Sultan, anti-Ottoman coalition, Pope Clement VIII, Pope Alexander VI.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Əmrah Dadaşov, t.e.d. Sani Hacıyev.

UOT 94(479.24); UOT 94

QABİL ƏLİYEV
Bakı Dövlət Universiteti,
Azərbaycan Universiteti
Tarix elmləri doktoru, professor
Qabil-Aliyev@mail.ru

İRƏVAN MÜƏLLİM SEMİNARİYASI

İrəvan Müəllim Seminariyası XIX əsrin son – XX əsrin ilk onilliklərində Azərbaycanın çox mühüm təhsil ocağı olmuşdur. Seminariyanı bitirən azərbaycanlı gənclər müxtəlif bölgələrdə məktəb müəllimi kimi çalışaraq, gənc nəslin maariflənməsinə böyük töhfə vermişdilər. Onlar həmçinin işlədikləri bölgələrin mədəni həyatında fəal iştirak etmiş, tarixi, adət-ənənələri, folkloru haqqında materiallar toplayaraq dövri mətbuatda maraqlı məqalələrlə çıxış etmişdilər. Seminariya məzunlarının bir qismi isə daha sonra Rusiya və Avropa universitetlərində ali təhsil almış, önəmli vəzifələrdə çalışmışdılar.

Açar sözlər: İrəvan quberniyası, müəllim seminariyası, məktəb, azərbaycanlı tələbələr, ibtidai məktəb müəllimi.

Giriş. İrəvan şəhəri orta yüzilliklərdən Azərbaycanın qərb bölgəsinin mühüm iqtisadi-ticarət mərkəzi olmaqla yanaşı, həm də çoxlu sayda məktəb və mədrəsənin fəaliyyət göstərdiyi böyük əhəmiyyətə malik maarif-mədəniyyət beşiyi idi. Rusiya ağalığı dövründə İrəvanın quberniya mərkəzi olması, onun bu mövqeyini daha da möhkəmləndirdi. Müəllim Seminariyası açılması isə bu şəhəri XIX əsrin son - XX əsrin ilk onilliklərində Azərbaycanın çox mühüm təhsil ocağına çevirdi.

İrəvan Müəllim Seminariyası Rusiya imperiyası Dövlət Şurasının qərarının 20 oktyabr 1880-cı il tarixdə çar II Aleksandr tərəfindən təsdiq edilməsi əsasında yaradılmışdı. Çar II Aleksandrın təsdiq etdiyi həmin qərarda yazılmışdı: "İmperiyada Müəllim Seminariyası və Zaqafqaziya (Cənubi Qafqaz – Q.Ə.) Müəllim Seminariyası haqqında Əsasnamələr əsasında Kutais və İrəvan quberniyalarının hər birinin mərkəzində bir Müəllim Seminariyası açılsın. Ştat vahidləri üzrə layihələr əsasında seminariyaların saxlanılması üçün Kutais Seminariyasına 27800 rubl, İrəvan Seminariyasına 28350 rubl ayrılsın" [9, т.55-й, отд. I, с.630].

Qeyd etmək lazımdır ki, sonrakı dövrdə İrəvan Müəllim Seminariyasının saxlanmasının illik xərcləri əsasən dəyişməz qalmışdı. Məsələn, İrəvan quberniyasının 1891-ci il üzrə şərhinə görə, həmin il Seminariyanın və onun nəzdindəki nümunəvi ibtidai məktəbin, həmçinin pansionun saxlanmasına xəzinə tərəfindən 28173 rubl xərclənmişdi [7, за 1891 г., с.89] 1894-1896-cı illərdə də illik xərc elə bu məbləğdə olmuşdu [7, за 1894 г., с.31; 7, за 1895 г., с.32; 7, за 1896 г., с.32].

İrəvan Müəllim Seminariyası 1881-ci il noyabrın 8-də rəsmən fəaliyyətə başladı. Seminariya icarəyə götürülmüş binada yerləşirdi [12, 1898 г., №4, с.48]. Yaradıldığı vaxt Seminariyanın müəllim-işçi heyəti 11 nəfər idi. Seminariyanın ilk direktoru Yakov Stepanoviç Suşşevski olmuşdur. O, bu vəzifədə 1894-cü ilin sonuna kimi çalışmışdı [4, на 1897 г., адр.-кал., с.286].

İrəvan Müəllim Seminariyasında açıldığı zamandan digər Cənubi Qafqaz seminariyalarında olduğu kimi, rus dili və ədəbiyyatı, Rusiya tarixi, riyaziyyat, təbiət elmləri kimi məcburi fənlərdən əlavə, yerli xalqların dini qaydaları, dilləri tədris edilirdi. İrəvan Müəllim Seminariyasında da ilk vaxtdan tatar (Azərbaycan – Q.Ə.) dili və İslam dini qaydaları – şəriət dərslərinin tədris edilməsinə başlanmışdı. Rusiyanın hakim dairələri bu seminariyanın Qafqaz tatarı adlandırdıqları Azərbaycan türklərinin minillərboyu davamlı yaşadığı İrəvan mahalında yaradılmasının, bu regionda yerli əhalinin əksəriyyətini müsəlmanlar təşkil etməsinin fərqində idilər. İrəvan Müəllim Seminariyasında lap başlanğıcdan müsəlman dini təliminin – Şəriətin illik tədrisi üçün çar III Aleksandr 30 sentyabr 1881-ci il tarixdə 500 rubl vəsait ayrılması haqqında ayrıca fərman vermişdi [3, л.2]. Seminariyanın İslam dini üzrə ilk ilahiyyat müəllimi – Şəriət dərslərini keçən Axund Məmmədbağır Qazızadə idi. O, həm də tatar (Azərbaycan – Q.Ə.) dili müəllimi idi [4, на 1883 г., адр.-кал., с.91].

İrəvan Müəllim Seminariyasında bundan əlavə, Qafqazın digər müəllim seminariyalarda olduğu kimi tələbələrə kənd təsərrüfatının müxtəlif sahələri üzrə dərslər keçirilirdi. Onlara həmçinin skripkada çalmaq, meteoroloji müşahidə aparmaq öyrədilirdi [12, 1898, №4, c.49]. 1890-cı illərin ortalarında İrəvan Müəllim Seminariyasında əvvəliki dövrdə tədris edilən dərslərə əlavə olaraq, hüsnxət, rəsmxət və rəsm, coğrafiya fənləri keçilməsinə, cildləmə işi, xarrat, tokar sənətləri öyrədilməsinə başlanmışdı [4, на 1897 г., адр.-кал., с.286].

Qafqaz təqviminin Qafqaz Tədris Dairəsi müdirinin 1883-1884-cü illər üzrə hesabatları əsasında dərc etdiyi məlumatlara görə həmin dövrdə seminariyada 13 nəfər çalışmışdı. Y.Suşşevskinin 1885-ci ildə İrəvan qubernatoruna göndərdiyi məlumatda isə o, seminariya yaradıldığı vaxtdan 16 nəfərlə çalışdığını qeyd etmişdi. Onlardan 4 nəfəri Rusiyadan, 12 nəfəri Qafqazın müxtəlif bölgələrindən gəlmişdilər. Seminariyada çalışanlardan 8 nəfərinin ali, 6 nəfərinin orta təhsili var imiş, 2 nəfər isə ibtidai təhsil müəssisəsinin məzunu olmuşdu [11, c.56]. Qafqaz təqviminin 1885-1890-cı illər üzrə məlumatlarında da İrəvan Müəllim Seminariyasının pedaqoji heyətinin sayı həmin dövrdə 13 nəfər göstərilmişdir. Görünür ki, S.Suşşevski seminariyanın texniki heyətini də nəzərə almaqla 16 nəfər işçisi olduğunu bəyan etmişdi.

Seminariyada təhsil müddəti 4 il idi: hazırlıq sinfi, 1-ci sinif, 2-ci sinif və 3-cü sinif. Seminariyaya müxtəlif hazırlıq səviyyəsində olan gənclər qəbul edildiyi üçün tədris prosesi fərqli olurdu. İlkin təhsili zəif olanlar öncə hazırlıq sinfinə qəbul edilirdi. İkisinifli və üçsinifli ibtidai məktəbləri bititənlər daha savadlı və intizamlı olduqları üçün, birbaşa seminariyanın birinci sinfinə qəbul edilir, xəzinə hesabına təhsil alırdılar. Qafqaz Təhsil Dairəsi müdirinin 1890-cı il üzrə hesabatına görə Seminariyada bir tələbənin illik təhsil xərci orta hesabla 322 rubl, pansionda qalma xərci 194 rubl təşkil etmişdi [4, на 1891 г., отд.2, с.35].

Seminariyaya 15-18 yaş arasındakı oğlanlar qəbul edilirdi. Öz hesabına təhsil alanlar ilkin olaraq 30 rubl, sonra isə hər tədris ili üçün 180 rubl vəsait ödəyirdilər [4, на 1910, отд. справ., с.916]. Seminariyaya qəbul olmaq istəyən gənclərin ikisinifli məktəbin proqramı səviyyəsində bilikləri yoxlanırdı. Hər bir gənc seminariyaya qəbulla bağlı yoxlamalara buraxılması üçün ərizə yazmalı, doğum şəhadətnaməsi, daha öncə təhsil aldığı məktəbdən qiymətləri və davranışı haqqında arayış təqdim etməli idi. Əgər heç bir məktəbdə oxumamışdısa və ya kursu bitirməsindən bir il keçmişdisə, əxlaqi davranışı haqqında sənəd verməli idi. Bundan əlavə, həmin gənclərdən ictimai mənşəyi haqqında arayış, hərbi çağırış yaşına çatanlardan isə həm də qeydiyyata alındığı çağırış məntəqəsindən vəsiqə tələb edilirdi. Seminariyaqəbul edilən hər kəs oxuduğu müddətdə tətil vaxtı öz hesabına evinə gedəcəyini öhdəsinə götürməli idi [4, на 1910, отд. справ., с.916].

Seminariyanın fəaliyyətə başladığı birinci tədris ilində 42 tələbə qəbul edilmişdi. Onlardan hazırlıq və 1-ci sinif komplektləşdirilmişdi. 1882-ci ildə 2-ci sinif açıldı və tələbələrin sayı artaraq 54 nəfərə çatdı. 1883-cü ildə isə sonuncu – 3-cü sinif də açıldı [9] və tələbələrin sayı 69 nəfərə çatdı. Seminariyada ilk vaxtdan ilahiyyət fənnini pravoslavlıq üzrə baş keşiş Qriqori Qambarov, islam (Şəriət) üzrə axund Məmmədbağır Qazızadə, erməni-qriqorianlıq məzhəbi üzrə keşiş Gevond Atanasyans tədris edirdilər. Rus dili və ədəbiyyatı, Rusiya tarixi fənlərini İvan Klopov, riyaziyyatı Aleksandr Lyaudanski, təbiət elmlərini Andrey Karamosko, tatar (Azərbaycan – Q.Ə.) dilini axund Məmmədbağır Qazızadə, erməni dilini Sergey Bek-Nazaryan, gimnastikanı Adolf Rayteman, musiqini Emil Bayor, nəğməni Bazileviç tədris etməyə başlamışdılar. Hazırlıq sinfində İvan Tamamşev dərs deyirdi. Seminariyanın həkimi Mixail Porçinski, katibi (kargüzarlıq işi ilə məşğul olan – Q.Ə.) Bazileviç idilər [4, на 1883 г., адр.-кал., с.91].

İrəvan Müəllim Seminariyası yaradıldığı vaxt yerli xalqlardan olan və məktəb təhsili olmayan uşaqları Seminariyada təhsil almağa hazırlamaq üçün, onun nəzdində nümunəvi ibtidai məktəb yaradılmışdı. Həmin ibtidai məktəbin ilk müdiri və müəllimi 1887-cı ilə kimi Dmitri Popov olmuşdu [4, на 1886 г., адр.-кал., с.85; 4, на 1889 г., адр.-кал., с.73-74]. 1888-ci ildə bu ibtidai məktəbə Nikolay Suvorov müəllim təyin edilmiş [4, на 1890 г., адр.-кал., с.73-74], bir il sonra isə həmin məktəbin müdiri vəzifəsinə təyinat almışdı [4, на 1891 г., адр.-кал., с.163]. Qafqaz Tədris Dairəsi müdirinin təqdimatı ilə 1905-ci ildə İrəvan Müəllim Seminariyası nəzdindəki birsinifli ibidai məktəb ikisinifli məktəbə çevrildi [8, за 1905 г., с.XXII]. Seminariyanın tələbələri bu ibtidai məktəbdə pedaqoji təc-

rübə keçir, müəllimliyin sirlərinə yiyələnirdilər. Pedaqogika fənnindən dərsləri və pedaqoji təcrübəni bir qayda olaraq seminariyanın direktoru aparırdı.

1884-ci ildə Seminariyada 78, Seminariyanın nəzdindəki nümunəvi ibtidai məktəbdə 70 şagird təhsil alırdı [7, за 1884 г., таб. 9, с.69-70]. 1888-ci ilin sonuna olan məlumata görə Seminariyanın şəxsi heyəti yenə də 13 nəfər olaraq qalırdı. Lakin tələbələrinin sayı artaraq 83 nəfərə çatmışdı. Həmin vaxt Seminariyadan 19 nəfər: 5 tələbə xəstəliyinə, 13 tələbə ailə vəziyyətinə, 1 tələbə də davranışına görə xaric edilmişdi. Seminariyanın hazırlıq sinfinə 26, 1-ci sinfinə 5 nəfər bərpa olunmuşdu. Elə həmin il Seminariyanı 10 nəfər bitirmiş və onlardan 6 nəfəri kənd müəllimi kimi fəaliyyətə başlamışdı [7, за 1888 г., с.131].

1888-ci ildə Seminariyanın nəzdində fəaliyyət göstərən nümunəvi ibtidai məktəbdə 66 şagird oxuyurdu. Onların 10 nəfəri tatar (azərbaycanlı – Q.Ə.), 8 nəfəri rus, 4 nəfəri gürcü, 44 nəfəri erməni idi [7, за 1888 г., с.131].

İrəvan quberniyasının 1891-ci il üzrə şərhində qeyd olunmuşdur ki, həmin il İrəvan Müəllim Seminariyasında 66 tələbə oxuyurdu. Onların 27 nəfəri hazırlıq sinfində, 19 nəfəri 1-ci, 16 nəfəri 2-ci və 4 nəfəri 3-cü sinifdə təhsil alırdı [7, за 1891 г., с.89]. Həmin il Seminariyanı 12 nəfər bitirmiş və ibtidai kənd məktəblərində pedaqoji fəaliyyətə başlamışdı. 12 nəfər tələbə isə müxtəlif səbəblərdən Seminariyada təhsilini yarımçıq dayandırmışdı [7, за 1891 г., с.89]. 1894-cü ildə isə 5 nəfər seminariyanı yarımçıq tərk etmiş, 9 nəfər də seminariyanı bitirib ibtidai kənd məktəbi müəllimi olmuşdu [7, за 1894 г., с.31].

Ümumiyyətlə, bu illərdə Qafqazda mövcud olan Cənubi Qafqaz (Qori), Stavropol, Kutais və İrəvan Müəllim Seminariyalarının müəllim hazırlığı fəaliyyəti çox məhdud idi. Qafqaz Təhsil Dairəsi müdirinin 1891-ci il üzrə hesabatına görə, həmin ildə Qafqazda mövcud olan 4 müəllim seminariyasını cəmi 50 nəfər bitirib ibtidai məktəbdə müəllimlik etməyə başlamışdı [4, на 1893 г., отд. стат., с.80].

1895-ci ildə İrəvan Müəllim Seminariyasında təhsil alan tələbələrin sayı əvvəlki illərlə müqayisədə kəskin şəkildə azalmış, 49 nəfərə düşmüşdü. Bu tələbələrin 16 nəfəri hazırlıq sinfində, 18 nəfəri 1-ci, 8 nəfəri 2-ci, 7 nəfəri 3-cü sinifdə oxuyurdu. Həmin il 14 nəfər seminariyanı müvəffəqiyyətlə bitirib pedaqoji fəaliyyətə başlamış, 3 nəfər isə təhsilini yarımçıq qoyub getmişdi [7, за 1895 г., с.29].

Həmin dövrdə Seminariyada fundemental və tədris kitabxanaları mövcud idi. Bu kitabxanalarda 8972 rubl dəyəri olan 3896 adda 8320 cild kitab mühafizə olunurdu. Bundan əlavə, həmin kitabxanalarda 3301 rubl dəyərində 885 dərs vəsaiti də var idi. Seminariyanın fizika kabinetində 3674 rubl dəyərində 319 cihaz var idi [7, за 1895 г., с.29-30].

XIX əsrin 90-cı illərinin ortalarında İrəvan Müəllim Seminariyasının kollektivində xeyli dəyişikliklər baş vermişdi. 1896-cı ildə Seminariyanın direktoru vəzifəsinə Mixail Miropiyev təyin edilmişdi [4, на 1897 г., адр.-кал., с.286]. O, 1901-ci ildə Cənubi Qafqaz Müəllim Seminariyasına direktor vəzifəsinə keçirilənə qədər [4, на 1903 г., адр.-кал., с.383] həmin vəzifəni icra etmişdi. O dövrdə İrəvan Müəllim Seminariyasında ilahiyyət fənnini pravoslavlıq üzrə keşiş Aleksey Sokolov tədris etməyə başlamışdı. İlahiyyət fənnini islam (şəriət) üzrə axund Məmmədbağır Qazızadə, erməni-qriqorianlıq məzhəbi üzrə keşiş Gevond Atanasyans tədris etməkdə davam edirdilər. Rus dili və ədəbiyyatı, Rusiya tarixi fənlərini tədris edən İvan Klopov da vəzifəsində qalmışdı. Erməni dilini Yefrem Atamanov tədris etməyə başlamışdı. O, həm də tədris planına yeni əlavə edilmiş hüsnxət, rəsmxət və rəsm dərslərini keçirdi. Tatar (Azərbaycan – Q.Ə.) dilini Rəhim Xəlilov, riyaziyyat fənnini Aleksey Xrapko, təbiət elmləri və coğrafiyanı Vasili Devitski tədris etməyə başlamışdılar. Hazırlıq sinfinin yeni müəllimi Viktor Muxin idi. Seminariyanın nəzdindəki nümunəvi ibtidai məktəbin müdiri Nikolay Suvorov həm də cildləmə ustası kimi, bu sənəti tələbələrə öyrədirdi. Seminariyanın yeni katibi, hesabdarı və nəğmə müəllimi Simon Kasradze idi. Xarrat, tokar sənətlərini isə Mkırtiç Elimirzoyev öyrədirdi. Yeni gimnastika müəllimi Vasili Zaytsev, yeni həkim Aleksey Zrelov idilər [4, на 1897 г., адр.-кал., с.286].

1 saylı cədvəl.

İrəvan Müəllim Seminariyasında XIX əsrin son onilliklərində təhsil alan tələbələrin milli tərkibi

il	azərbay-canlı	rus	erməni	gürcü	dağlı	digər xalqlar	cəmi
1888	15	8	50	2	2	6	83
1889	13	8	40	2	2	4	69
1890	12	5	40	5	2	5	69
1891	11	6	39	3	-	7	66
1892	10	6	30	3	-	5	54
1893	7	10	21	5	1	8	52
1894	7	9	21	4	1	10	52
1895	7	9	18	1	1	13	49
1896	8	13	18	2	1	17	59
1897	15	17	15	1	-	10	58
1898	18	22	20	1	-	6	67
1899	13	28	22	2	-	8	73
1900	15	24	27	2	-	8	76

XIX əsrin sonunda İrəvan quberniyası əhalisinin yarıdan çoxunu Azərbaycan türkləri təşkil etməsinə baxmayaraq, bəhs edilən dövrdə Müəllim Seminariyasında təhsil alan azərbaycanlıların sayı, 1 saylı cədvəldən də aydın olduğu kimi, çox az idi. İrəvan gimnaziyasında və ümumiyyətlə rus dilində təhsil verən bütün məktəblərdə də oxuyan azərbaycanlı uşaqların sayı az olaraq qalırdı. Bunun başlıca səbəbi Rusiya hakim dairələrinin yeritdiyi müstəmləkəçi ruslaşdırma siyasətinə yerli müsəlman-türk əhalinin qarşı çıxması idi. Digər mühüm səbəb dini amil idi. Müsəlman kəndlərində, xristian yaşayış məntəqələrində olduğu kimi, rus dilində təhsil verən məktəb açmaq cəhdi çox vaxt müsəlman din xadimlərinin kəskin müqaviməti üzündən baş tutmurdu. Əhali üzərində güclü təsiri olan mollalar əhalini qorxudurdular ki, övladlarını hökumətin açdığı rus məktəblərinə qoysalar, orada xristianlaşmağa məruz qalacaq, öz dini etiqadlarından uzaqlaşacaqlar [7, за 1891 г., с.90]. Ona görə də, əksər azərbaycanlı ailələri uşaqlarını keçmişdə olduğu kimi, mollaxana və mədrəsəyə göndərməkdə davam edirdilər. Bu dini məktəblərdə dərslər ənənəvi qaydada keçilirdi. Yalnız İrəvan şəhərində baş məscidin nəzdindəki mədrəsədə ənənəvi fənlərdən əlavə, rus dili və hesab fənlərinin tədrisinə başlanmışdı [7, за 1891 г., с.91].

1888-ci ildə İrəvan quberniyasında məscidlərin nəzdində 20 məktəb fəaliyyət göstərirdi. Bu məktəb və mədrəsələrdə həmin il 509 şagird təhsil almışdı [7, за 1888 г., с.134]. 1887-ci illə müqayisədə məktəblərin sayı 4 ədəd, şagirdlərin sayı 58 nəfər azalmışdı [7, за 1888 г., с.135].

İrəvan Müəllim Seminariyasında tatar (Azərbaycan – Q.Ə.) dili fənnini Rəhim Xəlilov 1901-ci ilə kimi tədris etmişdi [4, на 1903 г., адр.-кал., с.385]. 1902-1904-cü illərdə seminariyada bu fənni Rəşid bəy Şahtaxtinski [4, на 1904 г., адр.-кал., с.406; 4, на 1906 г., адр.-кал., с.258], 1905-1907-ci illərdə Həmid bəy Şahtaxtinski [4, на 1907 г., адр.-кал., с.270; 4, на 1909 г., адр.-кал., с.271], 1908-1916-cı illərdə də Mirzə Cabbar Məmmədov [4, на 1910 г., адр.-кал., с.766; 4, на 1917 г., адр.-кал., с.396] tədris emişdilər. Seminariyada ilahiyyət fənnini islam (şəriət) üzrə tədris edən müəllim isə bütün bu müddət ərzində axund Məmmədbağır Qazızadə dəyişilməz olaraq qalmışdı.

XX əsrin ilk onilliklərində İrəvan Müəllim Seminariyasının direktoru aşağıdakı şəxslər olmuşdular: 1902-ci ildə İvan Postyuteviç [4, на 1904 г., адр.-кал., с.406], 1903-1905-ci illərdə Aleksandr Zazuboviç [4, на 1905 г., адр.-кал., с.415; 4, на 1907 г., адр.-кал., с.270], 1906-1909-cu ilərdə Sergey Streletski [4, на 1908 г., адр.-кал., с.271; 4, на 1911 г., адр.-кал., с.255], 1912-1916-cı illərdə Valentin Dobrotin [4, на 1914 г., адр.-кал., с.305; 4, на 1917 г., адр.-кал., с.396]. Sergey Streletski və Valentin Dobrotinin İrəvan Müəllim Seminariyasının direktoru olduqları dövrdə seminariyada təhsil alan azərbaycanlı gənclərin sayı əhəmiyyətli dərəcədə artmışdı. Bu da həmin dövrdə azərbay-

canlı tələbələrin seminariyada təhsil almalarını stimullaşdırmaq üçün onların təhsil xərclərinin dövlət tərəfindən ödənilməsi ilə əlaqədar idi.

Qafqaz Tədris Dairəsi müdiri 1905-ci ildə Qafqaz canişini qarşısında məsələ qaldırmışdı ki, İrəvan Müəllim Seminariyasında təhsil alan azərbaycanlı tələbələr üçün 20 təqaüd təsis edilsin. Həmin müraciətdə İrəvan Müəllim Seminariyasınıda tikinti işləri üçün 30 min rubl ayrılması da xahiş edilmişdi [8, за 1905 г, с.XX].

Qafqaz Tədris Dairəsi müdirinin 1905-ci il üzrə hesabatından həmçinin bəlli olur ki, həmin il baş verən qarışıqlıqlar, xüsusən erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı qətl və qarətləri gedişində İrəvan şəhərində baş verən toqquşmalar seminariyada tədris prosesinə ciddi zərbə vurmuşdu [8, за 1905 г., с.11]. Seminariyada çalışan azərbaycanlı müəllimlərin və təhsil alan azərbaycanlı tələbələrin təhlükəsizliyi üçün ciddi təhlükə yarandığı üçün, hətta bir müddət dərslər dayandırılmışdı. Seminariyanın nəzdindəki ibtidai məktəbə isə azərbaycanlı valideynlər uşaqlarını oxumağa qoymamışdılar. 1905-ci ildə həmin ibtidai məktəbdə 44 şagird oxuyurdu ki, onların da 7 nəfəri rus, 35 nəfəri erməni, 1 nəfəri gürcü, 1 nəfəri yunan idi [8, за 1905 г., с.17].

2 saylı cədvəl.

İrəvan Müəllim Seminariyasında XX əsrin ilk onilliklərində təhsil alan tələbələrin milli tərkibi

il	azərbay-canlı	Rus	erməni	gürcü	dağlı	digər xalqlar	cəmi
1901	19	17	31	2	-	9	78
1902	15	24	28	2	-	9	78
1903	10	26	23	1	1	9	70
1908	18	34	24	2	2	5	85
1910	30	36	36	2	9	7	120
1911	30	46	37	6	1	8	128
1915	22	36	35	4	3	17	117

XX əsrin ilk illərində İrəvan Müəllim Seminariyasında təhsil alan azərbaycanlıların sayı, 2 saylı cədvəldən aydın olduğu kimi, yenə də az olaraq qalırdı. Bu hal, həmin dövrdə Azərbaycan cəmiyyətinin qabaqcıl nümayəndələrini çox ciddi şəkildə narahat edirdi. İcbari ibtidai təhsil tələbini irəli sürən ziyalılarımız yaxşı bilirdilər ki, bu problemin həlli üçün daha çox sayda ibtidai məktəb müəlliminə ehtiyac vardır. Onlar bu ağır vəziyyətdən müxtəlif çıxış yolları təklif edirdilər.

1906-cı ilin fevral ayında Tiflisdə Qafqaz canişininin təşəbbüsü ilə regionda ermənilərlə azərbaycanlılar arasında başlanmış qətl və qarətlərin qarşısının alınması üçün onun sarayında azərbaycanlı və erməni nümayəndələrin iştirakı ilə keçirilən toplantıda azərbaycanlı nümayəndələr tərəfindən mühüm problemlərdən biri kimi azərbaycanlı əhalinin maarifləndirilməsi məsələsi qaldırıldı. Azərbaycanlı əhalinin sıx yaşadığı bölgələrdən xeyli uzaqda yerləşən Qoriyə nisbətən, daha münasib yerdə müəllim seminariyası açılması təklifi səsləndi [5, 11.03.1906 г., №56, с.3].

Bu müzakirələrə qoşulan Azərbaycanın görkəmli ictimai xadimi və yazıçısı Nəriman Nərimanov da Qori şəhərində azərbaycanlı əhalinin yaşamadığı və yaşadığı ərazidən uzaqda yerləşdiyi üçün bu şəhərdə fəaliyyət göstərən Cənubi Qafqaz Müəllim Seminariyasının Azərbaycan bölməsinin hər il cəmi 6-7 nəfər ibtidai məktəb müəllimi hazırlamasının kafi olmadığını bildirdi. O, "Həyat" qəzetinin 18 iyun 1906-cı il tarixli sayında dərc etdirdiyi məqaləsində Azərbaycanın hər il 40 müəllim hazırlanmasına ehtiyacı olduğunu, müəllim çatışmadığına görə bəzi kənd məktəblərinin bağlandığını ürək ağrısı ilə qeyd etmişdi. N.Nərimanov vəziyyətdən çıxış yolu kimi, Qori Seminariyasının Azərbaycan şöbəsini azərbaycanlı əhalinin çoxluq təşkil etdiyi bir şəhərə köçürülməsini, ya da Bakıda, Gəncədə yeni müəllim seminariyası yaradılmasını təklif etmişdi. Belə olardısa, Qori şəhərində olduğu kimi pansionda dövlət hesabına qalmaqla oxuyan 60 tələbədən əlavə, daha 60 nəfər öz evində yaşamaqla seminariyada təhsil ala bilər [6, с.99-100], müəllim kadrlarına ildən-ilə artan tələbat ödənərdi.

İrəvan quberniyasının 1908-ci il üzrə şərhində xüsusi qeyd edilmişdi ki, quberniyada ibtidai təhsili inkişaf etdirmək – yeni məktəblər açmaq üçün yaxşı hazırlıqlı müəllimlər çatışmır. Təəssüflə

bildirilirdi ki, İrəvan Müəllim Seminariyası bu boşluğu doldurmaq iqtidarında deyildir. Son iki ildə bu Seminariya yalnız 2 müəllim vermişdir [7, за 1908 г., с.15].

Qafqaz canişini İ.Voronsov-Daşkov da həmin dövrdə bütövlükdə Qafqaz regionunda tatar (azərbaycanlı – Q.Ə.) və daglılardan müəllim hazırlanmasında ciddi sıxıntı olduğunu qeyd etmişdi. O, 1910-cu ildə çar II Nikolaya ünvanladığı beşillik idarəçiliyi dövrü haqqında hesabatında bildirmişdi ki, bu sahədə dönüşə nail olmaq üçün "tatar (azərbaycanlı – Q.Ə.) və daglılardan müəllim hazırlanması üçün İrəvan Müəllim Seminariyasında 20 təqaüd təsis edilmişdir. Həmçinin Yelizavetpolda və Temir-xan-şurada daimi pedaqoji kurslar təşkil edilmişdir. Müəllim seminariyalarında oxuyan müsəlman tələbələr üçün təqaüdlərin sayı artırılmışdır" [2, с.47]. 1910-cu ildə bütün Qafqaz üzrə 1 müəllim institutu, 7 müəllim seminariyası və 10 pedaqoji sinifdə 763 nəfər (697 kişi və 66 qadın) xüsusi pedaqoji təhsil alırdı. 0nlardan 367 nəfəri rus, 128 nəfəri gürcü, 62 nəfəri tatar (azərbaycanlı – Q.Ə.), 48 nəfəri erməni, 18 nəfəri dağlı, 69 nəfəri digər xalqların nümayəndələri idi [2, с.51].

1915-ci ilə olan məlumata görə İrəvan Müəllim Seminariyasında əvvəlki onilliklərdə olduğu kimi, yenə də 13 nəfər pedaqoji işçi çalışırdı. Seminariyanın direktoru Valentin Dobrotin, İlahiyyat müəllimləri: provaslavlıq üzrə Varlaam Maxaradze, erməni qriqorianlıq məzhəbi üzrə Vartanes Makaryans, İslam üzrə Axund Məmmədbağır Qazızadə idilər. Seminariyada onlardan əlavə daha 9 müəllim, o cümlədən tatar (Azərbaycan – Q.Ə.) dili müəllimi Mirzə Cabbar Məmmədov çalışırdı [4, на 1917 г., адр.-кал., с.396].

1915-ci ildə İrəvan Müəllim Seminariyasında tələbələrin sayı 117 nəfər idi. 2 saylı cədvəldən göründüyü kimi, onların 22 nəfəri azərbaycanlı, 36 nəfəri rus, 4 nəfəri gürcü, 35 nəfəri erməni, 3 nəfəri dağlı xalqların, 17 nəfəri də digər xalqların nümayəndəsi idi. XX əsrin ikinci onilliyində İrəvan Müəllim Seminariyasında təhsil alan azərbaycanlıların sayında əhəmiyyətli artım nəzərə çarpırdı. Bu, da azərbaycanlı tələbələr üçün xəzinə hesabına təqaüd ayrılması ilə birbaşa bağlı idi. Müqayisə üçün qeyd edək ki, 1915-c ildə Qoridə yerləşən Cənubi Qafqaz Müəllim Seminariyasında 138 nəfər tələbə oxuyurdu: 52 nəfər azərbaycanlı, 26 nəfər rus, 19 nəfər gürcü, 12 nəfər erməni, 1 nəfər dağlı xalqların nümayəndəsi, 28 nəfər başqa xalqların nümayəndəsi. Həmin il Gəncə Müəllim Seminariyasında da 64 nəfər tələbə: 9 nəfər azərbaycanlı, 18 nəfər rus, 13 nəfər gürcü, 18 nəfər erməni, 1 nəfər dağlı, 5 nəfər digər xalqın nümayəndəsi təhsil alırdı [4, на 1917 г., отд. стат., с.290].

Nəticə. İrəvan Müəllim Seminariyası XIX əsrin son – XX əsrin ilk onilliklərində Azərbaycanın çox mühüm təhsil ocağı olmuşdu. Seminariyanı bitirən azərbaycanlı gənclər müxtəlif bölgələrdə məktəb müəllimi kimi çalışaraq, gənc nəslin maariflənməsinə böyük töhfə vermişdilər. Seminariyanın məzunu olan gənc azərbaycanlı müəllimlər pedaqoji fəaliyyətlərinə azərbaycanlıların yaşadığı kəndlərdə yeni ibtidai məktəblər açaraq, ya da mövcud ibtidai kənd məktəblərində müəllimlik edərək xalq kütlələri arasında maarifin və elmi biliklərin yayılması, kütləvi savadsızlığın aradan qaldırılması işində yaxından iştirak edirdilər. Onlar həmçinin işlədikləri bölgələrin mədəni həyatında fəal iştirak etmiş, həmin yerin tarixi, adət-ənənələri, folkloru haqqında materiallar toplayaraq dövri mətbuatda maraqlı məqalələrlə çıxış etmişdilər. Məsələn, Seminariyanın məzunu Rəşid bəy İsmayılov 1903-cü ildən Tiflisdə nəşr olunanan "Şərqi-Rus", "Tiflisskiy listok", "Novoe Vremya" qəzetlərində çalışmış, "Müxtəsər Qafqaz tarixi" əsərini yazmışdı. Seminariyanın digər məzunu Həşim bəy Vəzirov Şuşada real məktəbdə müəllimlik edərkən teatr tamaşaları təşkil etmiş, daha sonra Bakıda "İrşad", "Təzə həyat" qəzetlərinin redaktoru olmuşdu. Seminariyanın müəllimi Mirzə Cabbar Məmmədov və tələbələri 1917-ci ildə İrəvanda ilk dəfə Azərbaycan dilində "Burxani-həqiqət" jurnalını nəşr etmişdilər. Seminariya məzunlarının bir qismi isə daha sonra Rusiya və Avropa universitetlərində təhsillərini davam etdirmiş, müxtəlif ixtisaslar üzrə mütəxəssis kimi önəmli vəzifələrdə çalışmışdılar.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Səfərov R. Qori və İrəvan Müəllimlər Seminariyalarının milli təhsil tariximizdəki yeri və rolu haqqında / Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi, 2018-03-01. - http://www.milliarxiv.gov.az/az/qori-ve-i-revan-muellimler-seminariyalarinin-milli-tehsil-tariximizdeki-yeri-ve-rolu-haqqinda [Müraciət tarixi: 05.03.2022].

Rus dilində
2. Всеподданнейший отчет за пятилетие управления Кавказом генерал-адъютанта графа И.И.Воронцова-Дашкова / [соч. графа Воронцова-Дашкова]. - СПб.: Гос. тип., 1910. - 60 с.
3. Доклад попечителя Кавказского учебного округа об отпуске средств Бакинской женской учительской семинарии на введение преподавания татарского языка и мусульманского вероучения. 22 февраля 1917 года / РГИА, ф. 1276 (Фонд Совета Министров (1905-1917), оп. 19, д. 1369, л.1-3.
4. Кавказский календарь на 1881-1917 гг. Тифлис: Типография Канцелярии Наместника на Кавказе, 1882-1916.
5. Каспий, 1906 г.
6. Нариманов Н.Н. Где быть Горийской Семинарии? / Избранные произведения. В 3-х томах, т.1, Баку: Азернешр, 1988, с.96-100.
7. Обзор Эриванской губернии за 1883-1914 гг. - Эривань: Тип. Эриван. губ. правления, 1884-1915.
8. Отчет попечитетеля Кавказского Учебного Округа за 1905 год. Тифлис: Типография канцелярии наместника на Кавказе, 1906.
9. Полное собрание законов Российской Империи. (ПСЗРИ) Собрание второе. Том. LV (55-й). Отд. первое: с 19 февраля 1880 по 28 февраля 1881г. Санкт Петербург , 1884, ПСЗРИ, т.55-й, отд. 1, с.630.
10. Рустамов Ф. Иреванская учительская семинария – 140 / AzərTac, 18.01.2022. - https://azertag.az/ru/xeber/Irevanskaya_uchitelskaya_seminariya___140-1979214 [Müraciət tarixi: 05.03.2022].
11. Семенов И.Я. Русские в истории Армении. Ереван: «Издательский дом Лусабац», 2009, 298 с.
12. Современная летопись. Наши учебные заведения. Кавказский Учебный Округ в 1896 году // Журнал Министерства Народного Просвещения. 1898, №4, отд.4, с.29-60 // Кавказский Учебный Округ. - https://ourbaku. com/index.php [Müraciət tarixi: 05.03.2022].

ГАБИЛ АЛИЕВ
Бакинский Государственный Университет,
Азербайджанский Университет,
Доктор исторических наук, профессор

ЭРИВАНСКАЯ УЧИТЕЛЬСКАЯ СЕМИНАРИЯ

Ереванская учительская семинария была очень важным учебным заведением в Азербайджане в конце XIX - начале XX веков. После окончания семинарии молодые азербайджанцы работали школьными учителями в разных регионах и внесли большой вклад в просвещение подрастающего поколения. Они также принимали активное участие в культурной жизни регионов, где работали, собирали материалы об их истории, традициях и фольклоре, публиковали интересные статьи в периодических изданиях. Некоторые из выпускников семинарии, впоследствии получили высшее образование в российских и европейских университетах и занимали ответственные посты в стране.

Ключевые слова: Эриванская губерния, учительская семинария, школа, азербайджанские студенти, учитель начальной школы.

QABİL ALIYEV
Baku State University,
Azerbaijan University, Doctor of Hictorical Sciences, Professor

ERIVAN TEACHERS' SEMINARY

The Yerevan Teachers' Seminary was a very important educational institution in Azerbaijan in the late 19th and early 20th centuries. After graduating from the seminary, young Azerbaijanis

worked as school teachers in different regions and made a great contribution to the education of the younger generation. They also took an active part in the cultural life of the regions where they worked, collected materials about their history, traditions and folklore, published interesting articles in periodicals. Some of the graduates of the seminary subsequently received higher education in Russian and European universities and held responsible positions in the country.

Keywords: Erivan province, teacher's seminary, school, Azerbaijani students, elementary school teacher.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 05 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. İbrahim Zeynalov, t.e.d. İsmayıl Məmmədov.

UOT 94; UOT 94”16/18”

VÜSAL İSGƏNDƏROV
Gəncə Dövlət Universiteti
isgandarovvusal@gmail.com

ÇAR RUSİYASI TƏRƏFİNDƏN ŞİMALİ QAFQAZIN İŞĞALI

Məqalədə I Pyotrun dövründən başlayaraq Rusiyanın Qafqaza müdaxiləsinin mərhələli şəkildə həyata keçirilməsi, çarizmin Qafqazı bütövlükdə ələ keçirmək üçün Şimali Qafqaza üstünlük verməsi, rus tarixçilərinin çarizmin Qafqazda müstəmləkəçilik siyasətinə haqq qazandıran iddiaları kimi məsələlərdən bəhs edilir. Şimali Qafqazda rus qalaları, bəzi feodalların Rusiyanın himayəsində mövqe tutması, müqavimət göstərən əhaliyə qarşı sərt cəza tədbirlərinin görülməsi, Rusiyanın Şimali Qafqazda dini siyasəti, Şimali Qafqazda sosial dayaq yaratmaq cəhdləri, Qafqazda dini bayraq altında müstəmləkəçiliyə qarşı ümumxalq mübarizəsi, Osetiya Ruhani Komissiyasının həyata keçirdiyi tədbirlər, Qafqaz qoşunları komandanlarının fəaliyyəti və çar Rusiyasına qarşı müridizm bayrağı altında müqavimət hərəkatı və s. məsələlər tədqiqata cəlb edilmişdir.

Açar sözlər: Şimali Qafqaz, çar rusiyası, müstəmləkə siyasəti, Qafqaz canişinliyi, dini siyasət, etnik siyasət.

Giriş. Rusiyanın Şimali Qafqazı işğal etməsinin dərin tarixi kökləri vardır. I Pyotrun hakimiyyəti dövründən Rusiyanın işğalçılıq siyasəti daha da intensiv xarakter almağa başladı. Rusiyanın işğalşılıq siyasətinin mahiyyətində hərbi yol tarixən ön planda olmuşdur. Bununla yanaşı xristian “təəsübkeşliyi”ndən bəhrələnərək işğal zamanı dini amilldəndə məharətlə istifadə edilirdi. Rusiya bəzi yerli hakimlərdən istifadə edərək Qafqaz xalqlarının qüvvələrini parçalamaqla hərbi müqavimətini qırmağa çalışır və qismən də buna nail ola bilirdi. Nəticə etibarilə hərbi güc üstünlüyünə malik olan Rusiya müxtəlif vasitələrdən istifadə edərək Şimali Qafqazda müstəmləkə xarakterli bir rejim qurmuş və bu rejimin zaman-zaman formasını dəyişməsinə baxmayaraq mahiyyətcə bu gün də davam etməkdədir. Bu baxımdan problemin araşdırılması aktualdır.

Rusiyanın Qafqaza müdaxiləsi I Pyotrun zamanından mərhələlərlə həyata keçirilmiş bir işğal planı idi. Üç mərhələdə aparılmış Qafqazın işğal edilməsinin birinci mərhələsi bölgənin hərbi yolla işğalı edilməsi ilə bağlıdır. Növbəti mərhələ bölgədə rus siyasi formalarının təsdiqi və yerli qanunların tədricən imperiya qanunları ilə əvəz edilməsidir. Son mərhələ isə bütün ərazinin Rusiya imperiyasına iqtisadi və qəti şəkildə daxil edilməsi hesab olunur [13, s.25].

Qeyd etmək lazımdır ki, çar Rusiyasının Qafqaza müdaxiləsi burada yaşayan xristian gürcüləri dağlıların qarətçi basqınlarından qorumaq adı altında başlanmışdı. Qafqazdakı rus ordularının komandanlığından bu barədə çara mütəmadi məlumatlar verilirdi. Həmin məlumatlarda gürcülərin dağlıların, müsəlmanların yürüşlərindən qorumağın zəruriliyi vurğulanırdı. Bununla da çarizm bu bölgəyə müdaxilə üçün bir növ əsas, bəhanə əldə olunmuş olurdu [24, v.13-15].

Belə tədbirlərin sırasında ilk olaraq Azov-Mozdok möhkəmləndirilmiş xəttin təşkil olunmasını qeyd etmək lazımdır. Bura Qızılyardan Yekatorinadara kimi olan məsafədə artıq mövcud olan, eləcə də yeni tikilməkdə olan qalalar, redutlar daxil idi. Bu müdafiə tədbirləri ilə aşağıdakılar nəzərdə tutulmuşdu:

- Rusiyanın cənub ərazilərinə basqınların qarşısının alınması;
- Qafqazın bu hissəsindəki torpaqların mənimsənilməsi, burada əkinçiliyin (əkinçilik, maldarlıq, ipəkçilik və s.) inkişafı;
- Hərbi təhlükə yaranarsa, Həştərxandan Krıma qədər olan ərazidə operativ manevr etmək üçün Türkiyə və İrana qarşı vahid, bir-birinə bağlı sərhədlərin yaradılması;
- Şimali Qafqazın işğalı üçün Hərbi-Gürcüstan yolu ilə Cənubi Qafqaza çıxışı olan platsdarmın yaradılması [5].

1735-ci ildə Qızılyarda qala tikildikdən sonra onun komendantına Şimali Qafqazdakı kazak dəstələrinin idarə olunması funksiyası verilir. Bu məntəqə vasitəsilə Rusiya Şimali Qafqazın yerli əhalisi ilə əlaqələr qurmağa başlayır. Belə ki, hələ XVII əsrin sonlarından etibarən çeçenlərin düzən

torpaqları Rusiyanın nəzarətində idi və Terek və Sunja sahillərinə köçmək üçün çeçenlər ilk növbədə Qızılyar komendantının timsalında Rusiya hakimiyyətindən icazə almalı idilər [4, s.100].

Rus hərbi komandanlığı regionda son dərəcə məkrli taktiki gedişlərlə öz məqsədlərini reallaşdırmağa çalışırdı: Rusiyadan asılı və bəlli zamana kimi müəyyən daxili sərbəstliyə malik vassal hakimlər sistemi yaradılırdı, həmin hakimlər bəzən şirnikləndirmə, bəzən isə təzyiq yolu ilə lazımlı hərbi-siyasi hərəkətlərə sövq edilirdi [10, s.99-102].

Bu məqsədlə 1802-ci ilin dekabrın 26-da Azərbaycan və Dağıstanın bəzi feodal hakimlikləri arasında Rusiyanın vasitəçiliyi ilə Georgiyevskdə 12 bənddən ibarət müttəfiqlik müqaviləsi bağlanır [22, s.1009-1022]. Sisianovun xarici işlər naziri qraf A.R.Voronsova göndərdiyi məlumatında Georgiyevskdə 1802-ci ilin dekabrın 26-da dostluq ittifaqı və razılığı haqqında müqavilənin imzalanmasının təfərrüatlarından bəhs olunur [9, s.780-781].

Rusiya himayəsinə qəbul olunmuş feodal hakimliklərin ittifaqı olan bu müqavilə, bir növ I Pavelin Qafqazın geodal hakimliklərindən federativ dövlət yaratmaq planını xatırladırdı. Lakin bunun ardınca çar Rusiyasının Qafqazın hərbi cəhətdən işğalı yoluna qədəm qoyması həmin müqavilənin bu yolda bir keçid mərhələsi olduğunu göstərir.

Yerli feodalların mövqelərini zəiflətmək üçün həyata keçirilən tədbirlərdən biri də onlardan birini müdafiə edərək dirərinə qarşı istifadə etmək idi. Məsələn ruslar 1809-cu ildən Qazıqumuxlu Surxay xanla ədavətdə olan qardaşı oğlu Aslan bəydən Surxay xana qarşı fəal surətdə istifadə etməyə başlamışdılar [20, s.381].

Rusiya istilasının ilk illərindən bu diyarın ruhaniləri də müəyyən təqib və təzyiqlərə məruz qaldılar. Qeyd etmək lazımdır ki, müsəlman ruhaniləri ən çoxsaylı sosial təbəqə idi. Belə ki, XIX əsrin ortalarına doğru təkcə Dağıstanda onların sayı 8600 nəfərə çatırdı [18, s.148]. Yermolovun baş komandanlığı zamanından etibarən ruhani şəxslərin yüksək dini vəzifələrə təyin edilməsi müstəmləkə hakimiyyəti tərəfindən həyata keçirilməyə başlanır. Bu qaydaya uyğun olaraq ruhanilər öz vəzifələrinin icrasına yalnız çar administrasiyası tərəfindən təsdiq edildikdən sonra başlaya bilərdilər [18, s.150].

Müsəlmanların dini həyatına ümumi nəzarəti həyata keçirmək üçün 1810-cu ildə xüsusi olaraq bürokratik struktur yaradıldı. Bu struktur yalnız 1832-ci ildə Daxili İşlər Nazirliyinin Xaricilərin Ruhani İşləri Departamentinə çevrildi [7, s.36].

Hələ 1814-cü ildə Qafqazdakı rus ordularının baş komandanı general Rtişşev dağlılar üçün dövlət tərəfindən yüksək məvacib və güzəştlər verilməklə baş müfti təyin etməyi təklif etmişdi. Onun təklifinə görə dağlı ruhanilərinin hamısı ona tabe edilməli və o, yerli din xadimlərinin Quranı öyrətməkdən başqa digər işlərə qarışmasına imkan verməməli, dağlıları Allahın iradəsinə uyğun olaraq imperatora itaət etməyə çağırmalı idi [2, s.103].

1820-ci ildə Yermolov tərəfindən Qafqaz müsəlmanları üçün "Çar üçün dua" tərtib olunmuş və bütün məscidlərdə cümə günü və dini bayramlarda bu dua oxunmalı idi. Onun fikrinə görə bu dua İslam dini ayinlərinin ayrılmaz bir hissəsi olmalı və nəticədə rus hakimiyyətini müsəlmanların gözündə ucaltmalı idi [8, s.72].

Çarizmin Qafqazdakı əsas dayağının rus zadəganları olmalı olduğunu düşünən çar ideoloqları eyni zamanda hesab edirdilər ki, həm də siyasi etibarlılıq prinsipinə uyğun olaraq regionda artıq mövcud olan yuxarı təbəqədən "Müsəlman ruhaniləri" yaratmaq lazımdır. Onlar əsas vəzifəni yuxarı müsəlman silkinin silki hüquqlarını tanımaqda deyil, "ona xidmət xarakteri verməkdə və ondan Rusiya hakimiyyətinin maraqları üçün istifadə etməkdə" görürdülər [16, s.150]. Təbii ki, müsəlman ruhaniləri imtiyaz və mövqelərinin itirilməsi ilə barışmaq istəmir və bu siyasətə qarşı ciddi şəkildə müqavimət göstərirdilər.

Rusiyanın təbəəliyinə keçmiş ərazilərdə müstəmləkə hakimiyyətinin özbaşınalıqları sərhəd bilmirdi. 1807-ci ildə çeçenlərə qarşı keçirilmiş növbəti cəza ekspedisiyası zamanı həmin ilin fevralın 12-dən martın 18-ə kimi yerli əhaliyə qarşı apardıqları müxtəlif döyüşlərdə ruslardan 7-i zabit, 129-u sıravi olmaqla 136 nəfər öldürülmüş, 6-ı zabit, 276-ı sıravi olmaqla 282 nəfər yaralanmışdı [6, s.8-9]. Bundan sonra onların üzərində nəzarət etmək hüququ Axverdova həvalə olunur.

Bütün bunlar XIX əsrin əvvəllərindən Qafqazda müstəmləkəçiliyə qarşı ümumxalq mübarizəsinə səbəb olur. Qafqazda dini bayraq altında çarizmə qarşı mübarizənin başlanması XIX əsrin əvvəl-

lərində bu bölgədə yaranmış dini, hərbi-siyasi vəziyyət, etnomədəni xüsusiyyətləri ilə yanaşı bir sıra daxili və xarici amillərlə də bağlı idi.

XIX əsrin əvvəllərində bölgədəki dini və siyasi vəziyyətin təhlili Qafqazda həmin dövrdə müstəmləkəçiliyə qarşı ümumxalq mübarizəsinin yüksəlməsində daxili amillərin də mühüm rol oynadığını göstərir. Onların arasında Rusiyanın XIX əsrin 20-ci illərində açıq şəkildə aqressiv xarakter daşımağa başlamış Qafqaz siyasətini və belə siyasətə cavab olaraq İslamın radikallaşmasını qeyd etmək olar.

Qafqaz dağlılarının azadlıq hərəkatının tədqiqatçılarından N.İ.Pokrovskiy qeyd edir ki, çar mütləqiyyəti Qafqaza iki məqsədlə – rus sahibkarları üçün məhsuldar Qafqaz torpaqlarını və rus tacirləri üçün ticarət yollarını ələ keçirmək məqsədilə müdaxilə etmişdir. O, göstərir ki, 1713-cü ildən 1804-cü ilə qədər dağlılara məxsus 623306 desyatin, 241 kvadrat sajen torpaq ələ keçirilmişdi [19, s.103].

Çarizm iqtisadi sahədə yalnız imperiyanın zəruri ehtiyaclarını ödəyəcək sahələrin məhdud şəkildə inkişafında maraqlı idi. Başlıca məqsəd isə bu diyarı özünün xammal əlavəsinə çevirmək idi. Bu baxımdan onu qeyd etmək kifayətdir ki, Qafqazda mövcud olan və diyarın iqtisadi həyatında çox böyük rol oynayan suvarma şəbəkəsini saxlamaq üçün çar hakimiyyət orqanları uzun müddət heç bir tədbir görməmişdilər. Bütün bunlar diyarın iqtisadi və sosial inkişafını əhəmiyyətli dərəcədə ləngitmişdi.

Çarizmin ideoloji sahədəki siyasətindən bəhs edərkən XVIII əsrin son rübündən etibarən XIX əsrin sonlarına kimi dağlı xalqları arasında məqsədyönlü şəkildə apardığı zorakı xristianlaşdırma siyasəi xüsusi olaraq qeyd olunmalıdır. Bu məqsədlə 1745-ci ildə yaradılmış Osetin Ruhani Komissiyasının qarşısında məktəb və maarifçilik mərkəzlərinin təşkil olunması; osetin dilində kitab və dərsliklərin nəşri; yerli əhalidə rus mədəni dəyərlərini aşılamaq; pravoslavlığı islam təsirlərinə qarşı qoymaq vəzifəsi qoyulmuşdu. Komissiya tərəfindən eksperiment kimi 1764-cü ildə Mozdokda ilk dəfə uşaqlara xristian dininin əsaslarını öyrədən məktəb açılır. Bu məktəbdə oxuyan kasıb uşaqlara təqaüd verilirdi.

Bu komissiya dövlət tərəfindən bağlanmamış, 1793-cü ildə fəaliyyətini dayandırmışdı. Komissiyanın fəaliyyətinin birinci mərhələsi müəyyən qədər osetinlər arasında uğurlu alınmışdı. Qeyd olunur ki, 1771-ci ildə 2909 nəfər xaç suyuna çəkilən var idisə, 1792-ci ildə xaç suyuna çəkilənlərin sayı artaraq 8199 nəfərə çatmışdı. Yerli müsəlmanlar arasında isə onun fəaliyyəti uğursuzluğa uğramışdı [17, s.149]. Xristianlaşdırma zamanı son dərəcə zorakı vasitələrdən istifadə olunurdu. Belə zorakılıqlardan hərbi nazir qraf Ernışevə şikayət edən inquşlar bildirirdilər ki, "... onların xaş suyuna çəkilməsi zamanı şirnikləndirici, eyni zamanda son dərəcə zorakı üsullardan istifadə olunmuşdur". Zorla xaç suyuna çəkilmiş 700-ə qədər inquş yenidən İslama dönmək barədə arzularını bildirdikdə onlara qarşı həbs və sürgün olunmaya qədər hər cür sərt təzyiq vasitələrindən istifadə olunmuşdu [2, s.89-90].

Çar I Aleksandrın hakimiyyəti illərində (1801-1825) Rusiya hökumətinin Qafqazda həyata keçirdiyi siyasət daha da işğalçı şəkil alır. Qafqazda bu siyasətin təşəbbüskarları və təşkilatçıları olmuş baş komandanlar P.D.Sisianov (1802-1806) və onu əvəz etmiş İ.Qudoviçin (1806-1809) zamanında yenidən zorakı xristianlaşdırma problemi gündəmə gəlir.

Qafqazda mövcud olan bir çox problemlərin səbəbini xristianlığın yayılmasınnın dayandırılmasında görən İ.Qudoviç missionerlik fəaliyyətinin bərpa edilməsi üçün xeyli səy göstərmişdi. Həştərxan və Qafqaz arxiyepiskopu Anastasinin Qudoviçə yazdığı 27 avqust 1806-cı il tarixli məktubunda o, baş komandandan fəaliyyətini dayandırmış Osetin Ruhani Komissiyasının fəaliyyətinin yenidən bərpa edilməsinin zəruriliyini bildirirdi [11, s.75-76].

Nəticədə yenidən fəaliyyətini bərpa etmiş Osetin Ruhani Komissiyası tərəfindən Qafqazda 14 birsinifli kilsə məktəbi təşkil olunmuşdu. Bu məktəblərdən birində osetin, qalan məktəblərdə rus dili keçilirdi ki, yalnız Şimali Azərbaycanda təşkil olunmuş 3 prixod məktəbində gürcü dili keçilirdi. Onun fəaliyyəti ilə bağlı qeyd olunur ki, Osetin Ruhani Komissiyası vəsait çatışmazlığı səbəbindən yerli xalqlar arasında xristian dini təhsilin təşkil olunması istiqamətində kifayət qədər iş görə bilməmişdi.

Çar I Aleksandrın 6 aprel 1816-cı il tarixli reskripti ilə öz qəddarlığı ilə ad çıxarmış general A.P.Yermolov Qafqazdakı rus ordularının baş komandanı təyin edilir. Ona, eyni zamanda 1813-cü il

Gülüstan müqaviləsinə əsasən Qacar İranı ilə Rusiya imperiyası arasında torpaqların demarkasiya edilməsi məqsədi ilə İrandakı rus səfirliyinin başçısı vəzifəsi də həvalə olunur. Çara məktubunda "xarici müharibədən çəkinmək lazım deyil, daxildə həyəcanlar bizim üçün daha təhlükəlidir" [12, s.328-329] yazan Yermolov hesab edirdi ki, ən sərt vasitələrdən istifadə edərək yerli əhalinin tamamilə ram edilməsi ən vacib məsələlərdən biridir. Bu məqsədlə Yermolov çara özünün Qafqazdakı hərbi və inzibati fəaliyyət planını təqdim edir. Planın məqsədi Qafqaz xalqlarını tam itaətə gətirmək və Qafqazda rus inzibati-idarəetmə sisteminin təşkilini başa çatdırmaq idi. Yermolovun çar tərəfindən təsdiq edilmiş planının əsas qayəsi ondan ibarət idi ki, bütün Qafqaz Rusiya imperiyasının ayrılmaz hissəsi olmalıdır, burada istər müstəqil, istərsə də yarımmüstəqil dövlətlərin xristian, müsəlman və ya bütpərəst olmasından asılı olmayaraq mövcudluğu qəbul edilməzdir [23, s.35].

Şimali Qafqaz dağlılarının tabe edilməsi ilə bağlı Yermolovun planında aşağıdakılar nəzərdə tutulmuşdu:

1. Terekin sağ sahilində yerləşən torpaqların işğalı;
2. Terekin o tayındakı dağlıların torpaqlarında Mozdok və Qrebenski alaylarının kazaklarının məskunlaşdırılması;
3. Quba əyaləti və oradan da Gürcüstanla əlaqə saxlamaq üçün Sunja çayı boyunca Aksayevski, Andreyevski və Kostekovski kəndlərində rus qalalarının tikintisi;
4. Kabardinlərin və Qərbi Qafqazın digər döyüşkən xalqlarının tabe edilməsi. Yermolov bu planı 1820-ci ilə qədər həyata keçirmək niyyətində idi [3, s.747-748].

Çar Rusiyasının Şimali Qafqazda dağlıların torpaqlarında yeni qalalar ucaltması, yerli əhalidə qorxu hissi yaratmaq üçün onlara "Qroznaya", "Burnaya" kimi adlar verməsi, onların yaşayış yerləri yaxınlığında kazak məskənlərini salması, qalaların tikintisi işlərinə yerli əhalini zorla səfərbər etməsi, onların torpaqlarını əllərindən alması, tabe olmaq istəməyənlərə qarşı sərt repressiv tədbirlər həyata keçirməsi Şimal-Şərqi Qafqazda Rusiya idarəçiliyinin təşkili, imperiyanın milli ucqarlarının ümumrusiya idarəçilik sisteminə daxil edilməsi məhz Yermolovun bu planının tərkib hissəsi idi.

Əlahiddə Qafqaz Korpusunun qərargah rəisi, Yermolovun ən yaxın köməkçisi A.A.Velyaminovun Yermolov planı ilə bağlı fikri bu planın müstəmləkə mahiyyətinin üzə çıxarılması baxımından xüsusi maraq doğurur: "Dağların və orada yaşayan xalqların qəti tabe edilməsi üçün ən etibarlı və başlıca vasitə topoqrafik cəhətdən mühüm məntəqələrin tutulması və dağlıların əllərindən düzən ərazilərin alınması, orada kazak məskənlərinin salınması təşkil edir".

Yermolovun bir çox tədbirləri vaxtı ilə Sisianov, Qulyakov, Paskeviç, Voronsov və digərləri tərəfindən tətbiq olunmasına baxmayaraq, dağlı xalqlarını ram etmək, Rusiyaya birləşdirilmiş ərazilərdə möhkəmlənmək və orada imperiyanın faktiki hökmranlığını təmin etmək məhz Yermolova müyəssər olmuşdur. Bu səbəbdən onun bu istiqamətdə həyata keçiridiyi tədbirlər "Yermolov sistemi" adını almışdır.

Qafqazın tamamilə itaətə gətirilməsi məqsədilə Yermolov tərəfindən tərtib olunmuş plana əsasən müdafiə məqsədli Qafqaz xəttini Çeçenistanın və Osetiyanın dərinliklərinə çəkmək və onu Tərki şamxallığının mərkəzi Tərkiyə çatdırmaq nəzərdə tutulmuşdu.

Yermolovun Qafqazdakı rus ordularının baş komandanı təyin edilməsi və onun müstəmləkəçi planının həyata keçirilməsinə başlanması çarizmin Qafqaz siyasətində yeni mərhələnin başlanğıcı idi. Beləki, 1816-cı ildə hərbi gücünün zirvəsində olan Rusiya cənub sərhədlərini möhkəmləndirmək bəhanəsi ilə Şimali Qafqazı hərbi yolla zəbt etməyə başladı. Terek çayını keçərək, Arqun dərəsinin çıxışında Sunja çayının sol sahilində qala tikintisinə başladı. Qalanın təməlinin qoyulduğu vaxt burada 30-dan çox çeçen kəndi var idi" [1, s.5].

Forpostun əsasının qoyulması, qalanın salınması faktı əksər tədqiqatçıların fikrincə, Şimali Qafqazda rus hakimiyyətinin qurulması prosesinin başlanğıc nöqtəsi və dağlıların müstəqillikləri uğrunda milli-azadlıq mübarizəsinin başlanğıcı oldu. Tarixçilər və publisistlər bu müharibəni yarım əsrlik Qafqaz müharibəsi adlandırdılar və dağlıları tabe etmək yolunda ilk addım, yəni onun başlanğıcı "1817-ci ildə" Qroznaya qalasının təməlinin qoyulduğu vaxt hesab olunur [14, s.5].

Bununla belə, qafqazşünasların əksəriyyəti razılaşır ki, dağlılara məxsus ərazilərin Rusiyaya zorla birləşdirilməsinin birbaşa göstərisini alan A.P.Yermolovun Qafqaz korpusunun komandiri təyin edilməsindən sonra vəziyyət kökündən dəyişdi. Yermolov təkəbbürlə inanırdı ki, Şimali Qafqazda

danışıqlar aparacaq heç kim yoxdur və yerli əhalidən olan nüfuzlu adamların şəxsiyyətinə hörmətsizliklə yanaşırdı. Onun fikrincə, onlar adi bir vəhşi dağlıdırlar, onun diqqətinə layiq deyillər.

Yermolov planının həyata keçirilməsinə Çeçenistan və Dağlıq Dağıstanın tabe edilməsi ilə başlayır. Bu zaman sərt hərbi-müstəmləkəçi üsullardan istifadə olunurdu. Tabe olmayan kəndlər yandırılırdı, bağları qırılırdı, mal-qarası zorla aparılırdı, tabe olan xalqlar isə imperatora sədaqət andı içməyə məcbur edilirdi, onlardan əmanətlər alınır, üzərinə ağır vergi qoyulurdu [12, s.12].

1818-1820-ci illərdə Dağıstan və Çeçenistandakı hərbi əməliyyatlar dağlı xalqların əsasən tabe edilməsi ilə nəticələnir. Bu müddətdə feodal hakimlərin mütəşəkkil müqavimətini nizami ordu və artilleriyanın tətbiqi ilə yatırmaq mümkün olur. Yermolov Dağıstanın Mehdili, Akuşa, Qazıqumux kimi bölgələrini tabe etdi. Qaytaqda usminin hakimiyyəti ləğv olunur, onun mülkü Dərbənd quberniyasına tabe edilməklə imperiyanın tərkibinə qatılır. Mehdili xanlığı rus zabitinin başçılığı altında adi pristavlığa çevrilir. 1818-ci ildə Çeçenistanda da pristavlıq təşkil olunur. Yermolov anti-Rusiya əhval-ruhiyyəli Dağıstan feodallarını rus meyilli feodallarla əvəz edir. Tərki şamxalı və Kürə xanı kimi rus meyilli feodallarla xüsusi müqavilələr bağlanır, onlara imtiyazlar verilir. Beləliklə, XIX əsrin 20-ci illərinə qədər, Dağıstanın dağlıq hissəsi istisna olmaqla, bütün bölgələri, silah gücünə Rusiya İmperiya sisteminə daxil edilmişdi [15, s.33].

Qafqazdakı hərbi komandanlıq hesab edirdi ki, xalqın gözündə pristavların statusunu yüksəltmək üçün onlara daha çox hakimiyyət vermək lazımdır. Pristavların nüfuzu isə onları verilən məvacibdən asılı idi. Pristavların məvacibi dağ aullarından toplanmış verginin hesabına ödənilirdi.

Çar Rusiyasının bu siyasəti Qafqazda daim öz aparıcı mövqelərini qoruyub saxlayan yerli imtiyazlı zümrələrin, ilk növbədə din xadimlərinin maraqları ilə toqquşurdu. Bir çox tədqiqatçılar hesab edirlər ki, Yermolov və onun "yandırılmış torpaq taktikası"nın tərəfdarları Qafqaz probleminin həllini bir neçə onilliyə geriyə atmaqla Şimali Qafqazda müridizm imamlarının hakimiyyətə gedən yolunu təmizlədi. Çünki onlar üçün Rusiya bütpərəstlər ölkəsi olmaqla, onlara qarşı cihad edilməli idi. Bir çox tədqiqatçılar Yermolovun yerli əyanların hakimiyyətinin zəiflədilməsi siyasətini onun ən böyük strateji səhvi hesab edir və qeyd edirlər ki, məhz bu siyasət XIX əsrin 30-50-ci illərində çarizmin dağlıların idarə olunmayan hərbi-demokratik cəmiyyəti ilə üz-üzə qalmasına səbəb oldu [7, s.40].

Nəticədə XIX əsrin 20-ci illərindən başlayaraq Qafqazda çar Rusiyasına qarşı müridizm bayrağı altında müqavimət hərəkatının yeni dalğası qalxır. Bu təlimin meydana gəlməsi çarizmin müstəmləkəçi siyasəti ilə sıx şəkildə bağlı olmuşdur. Beləki, Qafqaz müharibəsinin ilk illərində çar hökuməti yalnız bölgənin işğal olunmuş hissələrinin müdafiəsi ilə məşğul olduğu və Rusiyanın Qafqazdakı hökmranlığının uzaq dağ icmalarına zəif şəkildə yayıldığı bir vaxtda dağlılar arasında əsrlərə dayanan qarşılıqlı ədavət davam etdiyindən, onlar hələ də bölünmüş şəkildə olduğundan Qafqaz ordusunun uğurlarına uyğun olaraq ruslar getdikcə dağları daha sıx mühasirəyə almağa başlamışdılar. Belə vəziyyətdə dağlılar aralarındakı düşmənçiliyə son qoyaraq Qafqaz xalqlarının əsrlərlə tarixi olan azadlığına qəsd edən düşmənə qarşı birləşməyin zəruri olması qənaətinə gəlirlər. Bu amil də XIX əsrin 20-ci illərin əvvəllərində Qafqazda müsəlmanları xristianlara qarşı müharibəyə çağıran müridizmin meydana çıxmasında xüsusi rol oynadı.

ƏDƏBİYYAT

1. Алексей Петрович Ермолов и Орловский край. Сост. А.А.Абрамова. Орел, Изд. Дом «ОРЛИК», 2012, 160 s.
2. Ахмадов Я.З., Хасмагомадов Э.Х. История Чечни в XIX-XX веках. Москва, Пульс, 2005, 996 с. - https://djvu.online/file/hPtrbgMcedING [Müraciət tarixi: 24.01.2022].
3. Всеподданнейший рапорт ген. Ермолова, от 14-го мая 1818 года. Акты Кавказской археографической комиссии. Т.VI. Ч.2. Док. 795, с.447-448.
4. Гапуров Ш.А. Особенности развития Российско-чеченских отношений в XVIII веке / Актуальные проблемы истории народов Северного Кавказа. Сборник материалов Всероссийской научной конференции с международным участием. Грозный, 2019, с.97-108.
5. Гарунова Н.Н. Роль русских городов-крепостей в политике России на Северо-Восточном Кавказе (XVIII-XIX вв.). Москва, Пульс, 2005, 496 с.

6. Гизетти А.Л. Сборник сведений о потерях Кавказских войск во время войн Кавказско-горской, персидских, турецких и в Закаспийском крае, 1801-1885 гг. Тифлис, Издательство Военно-исторического отдела при штабе Кавказского военного округа, 1901, 222 с.
7. Гичибекова Р.М. Идеологическое противостояние в мусульманской элите Дагестана 20-70-х гг. XIX века. Диссертация на соискание ученой степени кандидата исторических наук. Владикавказ, 2017, 156 с.
8. Гичибекова Р.М., Омаров А.И. Из истории политики самодержавия в отношении мусульманского мира Кавказа в первой трети XIX века // Вестник Дагестанского Государственного Университета. Махачкала, 2014, Вып. 4, с.71-75. - http://vestnik.dgu.ru/Stat/v2014-4-10.pdf [Müraciət tarixi: 24.01.2022].
9. Донесение кн. Цицианова гр. Воронцову, от 28 декабря 1802 г. // АКАК, т. 2, с.780-781.
10. Донесение статского советника, министра в Грузии и поверенного делах в Персии Коваленского. 1800 год. GMTA, f.2, siy.1, iş. 12, v. 99-102 arxa.
11. Духовная часть: православное духовенство // АКАК. Т.III. Тифлис, 1869, с.75–76.
12. Записки А. П. Ермолова. 1798-1826 гг. Составитель доктор исторических наук Федоров В.А. М., Высшая школа, 1991, 463 с.
13. Исмаил-заде Д.И. Русское крестьянство в Закавказье 30-е годы XIX-начала XX вв. М., Наука, 1982, 311 с.
14. Лапин В.В. Кавказская война – война взаимного непонимания // Россия и Кавказ: история, религия, культура. СПб., 2003, 192 с.
15. Магомедов Р. М. Борьба горцев за независимость под руководством Шамиля. Махачкала, Типография МСХ, 1990, 134 с.
16. Мамедов Э.С. Царизм и высшее мусульманское сословие Закавказья (проблема сословно-земельных отношений в начале XIX в. – 1917 г.). Автореф. канд. дис. Баку, 1987, 35 с.
17. Немашкалов П.Г. Становление и функционирование епархиальной системы управления Русской Православной церкви на Северном Кавказе (конец XVIII – 60-е годы XIX века). Диссертация на соискание ученей степени доктора ист. наук. Ставрополь, 2020, 149 с. - http://ncfu.net/export/uploads/dokumenty-dissertacii/disser_pv_nemashkalov.pdf [Müraciət tarixi: 24.01.2022].
18. Османов Г.Г. О социальном строе Дагестана в конце XVIII - начале XIX вв. // Ученные записки. Институт Истории, Языка и Литературы им. Г.Цадасы. т.7, Махачкала, 1959, с.133-167. - https://instituteofhistory.ru/media/library/publication/files/Ученые_записки._Т.7_1960.pdf [Müraciət tarixi: 24.01.2022].
19. Покровский Н. И. Кавказские войны и имамат Шамиля. М., Пульс, Российская политическая энциклопедия, 2000, 511 с.
20. Рапорт ген.-л. Репина гр. Гудовичу, от 5 марта 1809 г. // АКАК, т.3, 811 с.
21. Рапорт кн. Цицианова Государственной Коллегии иностранных дель, от 28-го декабря 1802 года. АКАК, т.2, Тифлис, 1868, док. 2014, с.1009-1012.
22. Сведения о Грузии. Доклад Кнорринга. 1801 год. GMTA, f.2, siy.1, iş. 4, v. 13 arxa-15 arxa.
23. Солтамурадов М.Д. Суфизм в культуре народов Северо-Восточного Кавказа. / Отв. Ред. И.П.Добаев. Ростов-на-Дону, Издательство СКНЦ ВШ, ЮФУ, 2008, 357 с.

ВУСАЛ ИСКЕНДАРОВ
Гянджинский государственный университет

ОККУПАЦИЯ СЕВЕРНОГО КАВКАЗА ЦАРСКОЙ РОССИЕЙ

В статье освещается поэтапное осуществление интервенции России на Кавказе со времен Петра I, предпочтение царизмом фактора Северного Кавказа, чтобы владеть Кавказом в целом, утверждения российских историков, оправдывающие колониальную политику царизма на Кавказе, строительство Россией крепостей на Северном Кавказе, положение феодалов под покровительством России, суровые карательные меры против населения, религиозная политика России на Северном Кавказе, попытки создания социальной опоры на Северном

Кавказе, причины общенациональной борьбы против колониализма под религиозным флагом на Кавказе, меры, предпринятые Осетинской духовной комиссии, деятельность главнокомандующих Кавказскими войсками и движение сопротивления царской России под знаменем мюридизма.

Ключевые слова: Северный Кавказ, царская Россия, колониальная политика, кавказское замещение, религиозная политика, этническая политика.

VUSAL ISGANDAROV
Ganja State University

OCCUPATION OF THE NORTH CAUCASUS BY TSARIST RUSSIA

The article discusses the gradual implementation of Russia's intervention in the Caucasus since the time of Peter I, Tsarism's preference for the North Caucasus to take over the Caucasus as a whole, the claims of Russian historians justifying Tsarism's colonial policy in the Caucasus, the construction of Russian fortresses in the North Caucasus, the position of the feudal lords under the protection of Russia, taking severe punitive measures against the resisting population , Russia's religious policy in the North Caucasus, attempts to create social support in the North Caucasus, the reasons for the nationwide struggle against colonialism in the Caucasus under the religious banner, the measures taken by the Ossetian Spiritual Commission, the activities of commanders of Caucasian troops and resistance movement under the banner of Muridism against Tsarist Russia.

Keywords: North Caucasus, Tsarist Russia, colonial policy, Caucasian substitution, religious policy, ethnic policy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 24 yanvar 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Şirxan Səlimov, t.e.d. Qabil Əliyev.

UOT 94

OĞUZ KAĞAN BAYRAKDAR
Bakı Dövlət Üniversiteti, Tarix Fakültesi,
Türk xalqları tarixi kafedrasının doktorantı
oguzkaganbayrakdar@outlook.com

19. YÜZYIL TAŞKENT ŞEHİR MEDENİYETİNE RUS ETKİSİ

Ortaya çıktığı tarihten itibaren siyasi, ekonomik, kültürel ve toplumsal merkez olan şehirler, süreç içerisinde dönüşüme uğramışlardır. Sel, deprem, kuraklık gibi doğal nedenlerle birlikte ticaret, din, tarım, sanayi gibi insanlar tarafından belirlenen birçok etmen de şehirlerin değişimine, gelişimine ya da dönüşümüne etki etmektedir. Değişen ve yenilenen bir mekanizma olan şehirler aynı zamanda medeniyet taşıyıcısı olma özelliğine de sahiptir. Tarih içerisinde insanların ürettikleri, ortaya çıkardıkları ya da düşünce yapısının yansıması olan herhangi bir figür kentler aracılığıyla somutlaştırılıp medeniyet dairesi içerisine eklenmektedir. Bu somut örneklerin yanında şehirde yaşamak başlı başına bir medeniyetin ifadesi olarak kabul edilmektedir.

Bu medeniyet tasavvuruna sahip şehirlerinden biri de, Özbekistan'ın başkenti Taşkent'tir. Bölgenin kadim şehirlerin olan Taşkent, Özbekistan'ın cazibe merkezlerinden biri olarak ön plana çıkmaktadır. Taşkent'in ilgi çekici merkez haline gelmesinde, tarihsel süreçte yaşadığı/maruz kaldığı olaylar etklili olmuştur. Kenti ön plana çıkaran etmenlerden birini de 19. yüzyılda Rusların Orta Asya'ya ilerleyişi ve Taşkent'i ele geçirmesi teşkil etmektedir. Makalede 19. yüzyıl Taşakent şehir tarihi aktarılacak ve şehrin dönüşümünde Rus imgesi araştırılacaktır.

Anahtar Kelimeler: Medeniyet, Şehir, Taşkent, Rus Etkisi.

Giriş. Sosyal bir varlık olan insan, tarih boyunca temel ihtiyaçlarını karşılamak için uğraşmıştır. Etrafına karşı bilinçli olan, tehditlere karşı savunma mekanizması geliştiren insanoğlu, birikimlerine bağlı olarak süreç içerisinde bir medeniyet meydana çıkarmıştır. Farklı dinamiklerin bir araya gelmesiyle oluşan bu medeniyetin önemli parçalarından birini de şehirler teşkil etmektedir.

Karmaşık bir toplum yapısına, kendine özgü niteliklere sahip kent; sosyal, ekonomik ve siyasi faaliyetlerin gerçekleştiği bir mekandır [3, 33]. Bu hususiyetlerin yanında Şehirler, medeniyeti tanımlayıcı insan eserleridir. İnsanlığın bütün başarıları ve bozgunları şehirlerde yatar. Bundan dolayı şehir medeniyeti diyebileceğimiz çalışmalar ve yaklaşımlar ortaya çıkmıştır. Etimolojik olarak bakıldığında hem Batı dillerinde hem de Doğu dillerinde "Şehir" kelimesi "medeniyet kelimesiyle bağıntılı olarak kullanılmaktadır. Şehirde yaşamayı, şehirli olmayı, şehir kültürünün bir parçası olmayı ifade eden "Medeniyet" anlayışı şehir hayatıyla birlikte süreklilik ifade eden bir olgu haline gelmiştir [7, 296-297].

İnsanların üretimi olan şehirlerin zamanla insanları şekillendirdiği, değiştirdiği de görülmüştür. Eğitim, Sanat, Kültür, Ekonomik merkezler olması dolayısıyla şehirler nüfusun yoğun olduğu birimler haline gelmişlerdir. Bu yoğun nüfus, şehrin sahip olduğu medeniyet düşüncesi ile tanıştıktan sonra onu benimsemiş ve zaman içerisinde nesiller arası aktarma görevini üstlenmişlerdir.

Kentler zamanla küresel güçlerin kontrol ettiği merkezler haline gelmişlerdir. Kültürel etkileşim sürecinde, kültürel üretimi elinde bulunduran hakim ülkelerin "kültür kodları" ve "kültür modelleri" diğer ülkeleri etkilemektedir. Bu bağlamda medyada yayımlanan kültürel bilişim ürünleri, ABD kaynaklı olduğu için, kültürel ve toplumsal alanda "Amerikalılaşma"dan söz edilebilir. George Ritzer, "Toplumun Mcdonaldlaşması" kavramıyla Amerikan yaşam tarzının küresel boyutlara ulaşmasını dile getirmektedir [12, 56-65]. Dünya genelinde etkili olan küreselleşmenin mekânı ise şehirlerdir. Şehir kültürü de küresel kültürü meydana getirmektedir. Bu süreçte küreselleşmenin yoğunluğu bölgeden bölgeye, şehirden şehre değişkenlik göstermektedir. İngiltere kentlerinin sergilediği küresel değerler ile Azerbaycan'da bulunan Şeki'nin küreselleşme oranı farklılık göstermektedir. Bu farklığa rağmen, tüm dünya üzerinde benzerliğe sahip husus kentlerde nüfusun artma oranı olmuştur. 2000-2010 yıllarında dünya genelinde kent nüfusu ilk defa kırsal nüfusu geride bırakmış, yeni dönüşümlerin de habercisi olmuştur [1, 216].

Küreselleşme ve nüfusun kentlerde artmasının yanında kentlerin hayatında dönüm noktası oluşturan tarihler söz konusu olmuştur. Değişime neden olan etmenlerin başında başka bir gücün, hegemonyanın etkisi altına girmek gelmektedir. Dışarıdan gelen güç, işgal ettiği bölgeyi kendi ideolojik görüşü doğrultusunda değiştirmiş ve bu süreç günümüze kadar devam edecek etkilere neden olmuştur. Bu etkinin görüldüğü şehirlerden biri de Taşkent olarak gözlemlenmiştir. Taşkent, diğer dünya şehirleri gibi bir medeniyet merkezi, nüfusun yoğun olduğu bir yerleşme alanı, şehirleşmenin hızlı olduğu bir birim olarak gözükse de 19. Yüzyılda yaşananlar şehirde günümüze kadar devam edecek değişikliklere neden olmuştur.

Çalışmada öncelikle medeniyet kavramı açıklanarak şehir medeniyet ilişkisine kısa şekilde değinilecektir. Bunun yanında Taşkent şehir tarihinde dönüşüme neden olan Rus faktörü tartışılacaktır.

Medeniyet / Şehir İlişkisi. Dünya literatüründe "medeniyet" kelimesinin ilk defa kim tarafından kullanıldığı bilinmemektedir. Bunun yanı sıra kavram 18. Yüzyılın son çeyreğinde Fransa'da ortaya çıkmıştır. Terim 16.yüzyılda kullanılmakta olan "medeni" (civilise) kelimesinden hareketle literatüre eklenmiştir [2, 27]. Batıda toplumsal dönüşüm, kelimenin modern anlamda ortaya çıkışına zemin hazırlamıştır. Orta Çağ'ın kapalı toplum yapısından Aydınlanma ile kurtulan Fransa, toplumdaki yeni durumu ifade etmek için "medeniyet" kelimesine ihtiyaç duymuştur. Kabaca "barbarlık", "ilkellik" "vahşilik" gibi davranış biçimlerimin karşısında yeni bir yaşam standardını ifade etmek için "Medeniyet" kelimesi ortaya çıkmıştır [2, 28].

Dillerimize Arapça'dan geçmiş olan "medeniyet" kelimesinin kökü şehir anlamına gelen "Medine" kelimesine dayanmaktadır. Şehirli olmayı, şehirde yaşamayı ve şehrin düşünce yapısına sahip olmayı ifade etmektedir. Batı dillerinde de benzer vurgunun yapıldığı ilk bölümde açıklanmıştır. Arap coğrafyasında "Medeniyet" kelimesi şehir sakinlerinin hayat standartlarını, yaşama biçimlerini ifade eden bir sözcüktür [7, 296-297]. Göçebe olarak hayatlarını devam ettiren bedevilerin hayat tarzı için "bedeviyet", kırsal kesimde yaşanlar için "hazariyet" ve nihayetinde şehirde yaşanların için de "medeniyet" kavramı kullanılmaktadır [6, 107].

Hayat tarzı, düşünce şekli, toplumun tefekkürü olarak da tanımlanan medeniyet, kültür kelimesi ile farklılıklar göstermektedir. Kafesoğlu'na göre medeniyet kültürden farklı bir anlam taşımaktadır. Ona göre "Medeniyet milletlerarası ortak değerler seviyesine yükselen, anlayış, davranış ve yaşama vasıtalarının bütünüdür". Kültür karakter bakımından "hususi" medeniyet ise umumidir. Bu yüzden Kafesoğlu medeniyetin toplumun genelini bağlayan bir olgu olduğunu savunmaktadır. Bunun yanı sıra yazar, medeniyetin kültürlerin birleşiminden doğduğunu iddia etmektedir [4, 16]. Bu doğrultuda, her coğrafyanın kendine özgü kültürel imgelerinin olduğu bütününde evrensel bir medeniyeti teşkil ettiği söylenebilir. Türk Medeniyeti'ni meydana getiren Azerbaycan, Türkiye, Türkmenistan, Özbekistan, Kırgızistan ya da Kazakistan kültürel değerleri buna örnek teşkil etmektedir.

Medeniyet şehirde meydana gelir, şehir medeniyetin bir parçasıdır. Tarihsel süreçte ortaya çıkan ilk büyük medeniyetler şehir devrimleriyle görünmüştür. Mezopotamya, Çin, Hindistan, Güney Amerika, Mısır, Anadolu gibi ilk şehir örneklerinin göründüğü yerler büyük medeniyet bölgelerine dönüşmüştür. Medeniyet şehirle birlikte somut bir hal alır. Mimari, sanat, gündelik yaşamın her türlüsü medeniyetin şehirde yansıtılmasında aracı durumundadırlar.

Bagby "Medeniyet"i (civilization) kültürün şehirlerde bulunan çeşidi olarak tanımlamaktadır [15, 45]. Bu hususta Bagby medeniyet merkezleri olarak şehirlere atıfta bulunmaktadır. Spengler'e göre ise "kültürün engellenemez kaderi medeniyettir" [14, 45]. Medeniyet bu manada tarihte oluşan eğitim, edebiyat, sanat, siyasi gelişmeler, şehirleşme gibi olguların bütününü teşkil etmektedir.

Şehir ve medeniyet vurgusunu yapan araştırmacılardan biri de İbn'i Haldun'dur. Şehir toplumunu "hadari" kırsal toplumu ise "bedevi" şeklinde tanımlayan İbn'i Haldun kültür ve medeniyetin gelişmesinde gerekli olan ilimlerin şehir toplumuyla iç içe olduğunu savunmaktadır. Bu nedenle "Medenilik" ve "Medeniyet" kırsal toplumlardan ziyade "hadari" yani şehir toplumlarına ait bir özelliktir [11, 115].

Şehir medeniyetine sahip merkezlerden biri de Taşkent'tir. Başkent oluşu, ekonomik ve sanayi merkezi olmasına neden olurken şehri kırsal bölgelerden de ayırmıştır. Şehre ait, medeni bir toplumun oluşması zamana bağlı olarak değişkenlik göstermiştir. Taşkent şehir medeniyetinin oluşumuna katkı sağlayan bir çok dinamik söz konusudur. Bunların başında siyaset, ekonomi, sanat, gastronomi,

din, mimari, tarih gibi olgular gelmektedir. Her şehir medeniyetinde farklı yoğunlukta bulunan bu dinamikler, bir bütün olarak şehrin ön plana çıkmasını sağlamaktadır. Bunlar arasında Taşkent şehir medeniyetinin dönüşünde "Rus Etkisi" hususi yere sahiptir. Önce Çarlık ve daha sonra Sovyet yönetimi altında kalan şehir, bu siyasi güçlerin tesiri ile değişime uğramıştır. Eski medeniyetinin yanına yeni bir medeniyet eklenmiş, var olan geleneksel kimlik zarar görmüş, yeni bir şehir medeniyeti ortaya çıkmıştır.

19. Yüzyıl Taşkent Şehir Medeniyetinde Rus Etkisi. Taşkentin tarihi millattan önce 2 bin yıllarına kadar iner. Şehrin yer konumlandığı bölgenin eski adı "Çâç" olup Çin kaynaklarında Çö-çi, Çö-şi ve Şi olarak yer almaktadır. Bu isimler şehrin günümüzdeki ismi "Taş" manasıyla bağlantılıdır [9, 146]. Taşkent adı ise 11. Yüzyıldan itibaren kaynaklarda gözükmeye başlamış ve 16. Yüzyıldan itibaren yaygınlık kazanmıştır.

Taşkent'in yer altı kaynaklarına sahip olması ve ipek yolunun güzergahında konumlanması kentin gelişimine ve tarihte önem atfetmesine neden olmuştur. Çoğu şehirde olduğu gibi Taşkent tarihinde de ticaret toplumsal hayatta aktif rol oynamış Çin'e kadar bulunan çoğu şehirle aktif ticaret ağının kurulmasına neden olmuştur [10, 146].

Tarihi boyunca Müslüman Emeviler (Kuteybe Bin Müslim), Çinliler, Abbasiler, Karluklular, Samaniler, Karahanlılar, Harzemşahlar, Moğollar gibi siyasi güçlerin kontrolü altına girmiştir. Çağatay hanlığının Maveraünnehir bölgesinde şehir önce bu hanlığın idaresine, ardından da onların yerine bölgede gücü ele geçiren Timur ve haleflerinin kontrolüne geçmiştir. 1410 yılında Mirza Ulubeğ'e mülk olarak tahsis edilen Taşkent, bu tarihten itibaren genişlemeye başlamıştır. Şehrin kalkınmasına hususi önem veren Ulubeğ ziraat, zanaat, ticaret ve mimari gibi alanlara yatırım yapmıştır [10, 147]. Timurlulardan sonra Taşkent yine el değiştirmiş, siyasi gücü elinde bulunduranın devraldığı bir şehre dönüşmüştür. Bu süreçte 1784 senesi Taşkent Devleti'ni kuran Yunus Hoca önemli bir lider olarak tarih sahnesinde yerini almıştır. Yunus Hoca'nın Hokand Hanlığı'ndan Alim Han'a yenilmesi Taşkent'in bu hanlığa bağlanmasına neden olmuştur.

Görüldüğü üzere Taşkent tarihi boyunca birçok siyasi gücün çatışma alanına dönüşmüştür. Gücü elinde bulanın kontrolü altında olan şehir, konumun getirdiği avantajlar sayesinde ekonomik olarak kazanç sağlayan bir merkez olmuştur. Şehrin asıl değişimi ise Rusların Orta Asya'ya gelişi ile gerçekleşmiştir.

1853-56 yılları arasında gerçekleşen Kırım Savaşı'ndan mağlup ayrılan Rusya, Avrupa ve Orta Doğu üzerindeki emellerinden vazgeçip yönünü Orta Asya'ya döndürmek zorunda kalmıştır. 2. Alexander savaştan sonra ekonomik, eğitim ve hususi olarak askeri alanlarda reformlar yapmış ve yayılma alanı olarak Türkistan havalisini belirlemiştir. [13, 315] Bu sürece paralel olarak bölgede ilerleyen Çarlık birlikleri 23 Haziran 1865 tarihinde Taşkent'i işgal ederek şehrin tarihinde kırılma noktası yaratmıştır.

Taşkent işgal edildikten sonra, Ruslar şehrin diğer tarafında yeni bir şehir kurmaya başlamışlardır. Bölgeye giden araştırmacılar Çarlık Rusya'sı tarafından kurulan şehir için "Yeni Şehir", "Şehrin Avrupa Kısmı" gibi ifadeler kullanılırken mevcut olan geleneksel Taşkent için "Eski Şehir" şehrin "Asya" tarafı gibi isimlendirmeler kullanılmıştır [9, 518-521].

Böylelikle Avrupai Slav halklarıyla geleneksel Asya insanının yan yana yaşadığı yeni bir kentsel form ortaya çıkmıştır. Kolonyal yönetimlerin uyguladığı kentsel politikaya paralel olarak Taşkent'te Çarlık yönetimi tarafından inşa edilen şehir eski şehrin yanında kurulmuş ve ticari, siyasi kurumlar şehrin farklı bölgelerine dağıtılmıştır. Bu uygulanın nedeni ise yerel kaynakların kullanımı ve iş dağılımında avantaj elde etmekti [5, 175].

1867 yılında Türkistan Genel Valiliği'nin kurulmuş merkezi ise Taşkent olarak belirlenmiştir. Bölgeye vali olarak atanan K. P. Von Kaufman, Taşkent'i Rusya'nın ve Avrupa medeniyetinin bir yansıması olacak şekilde düzenlemeye çalışmıştır. Beş yıl içerisinde Rus Taşkent'i (Yeni Taşkent), Kaufman'ın direktifleri doğrultusunda nüfusu 6000'in üzerinde canlı bir şehre dönüşmüştür. Yeni Taşkent modern Rus mimarisine uygun olarak tasarlanmıştır. Şehir diğer Sovyet şehirleri gibi geniş caddelerden ve ağaçlı yollardan oluşturulmuştur. Depreme karşı dayanıklı olsun diye yeni şehir tek katlı evlerden meydana getirilmiştir. Değişimi ve dönüşümü devam eden, siyasi ve ekonomik bir birim olarak bölgede cazibe merkezi haline gelen Taşkent, 1884 yıllarında bazı gazetelerde Rus İm-

paratorluğu'nun çoğu şehirlerinden daha avantajlı ve yaşanılabilir durumda olduğu ifade edilmiştir [8, 212].

Rusların hakimiyetinden önce etnik olarak homojen bir yapıya sahip olan Taşkent, Kaufman'ın politikalarıyla dışarıdan göç alan etnik olarak çeşitli bir şehir görünümüne kavuşmuştur. Taşkent hakimiyetinin ilk dönemlerinde Rusya'dan askeri ve seçkin kamu çalışanları bölgeye göç etmiş, daha sonra ise bu grubu diğer toplumsal tabakalar ve meslek grupları izlemiştir.1891 yılında Rusya'da meydana gelen kıtlık şehre yeni bir göç dalgasının gelmesine zemin hazırlamıştır. Bunun yanı sıra 1899 yılında Transkafkasya demiryolunun Taşkent'e ulaşması ve 1906 yılında Orenburg-Taşkent demiryolunun faaliyete girmesi bölgeye yapılan göçün sebeplerini oluşturmuştur. [9, 523] Bu göçlerin ve şehrin değişimine paralel olarak 1869 yılında 73.000 olarak Taşkent nüfusu %13,4 artış oranıyla 1910 yılında 128.900 ulaşmıştır [5, 177-178].

Taşkent'te kurulan yeni Rus şehri, geniş caddelerden meydana gelmekteydi. Dışarıdan gelen Rus nüfusunun sosyalleşebileceği mekanlar da bulunmaktaydı. Bunların yanı sıra nüfusun ihtiyaçlarını karşılamaya yönelik hastane, postane, park gibi kamusal alanlar da Taşkent'in yeni hissesinde tesis edilmiştir.

Sonuç. İnsanlık tarihinde önemli yer tutan şehirler, insanların ikamet ettiği birimden çok daha fazlasını ifade etmektedirler. Öncelikle, siyasi, toplumsal, kültürel, ekonomik merkez olarak bulunduğu bölgenin esas yerleşme alanlarını oluşturmaktalardır. Bu özelliğinin yanı sıra çalışmada şehirlerin ayrıca medeniyet ürünü olduğu saptanmıştır. Şehirler medeniyetin üretildiği, korunduğu ve nesiller arası aktarıldığı mekanlardır. Tarih sahnesinde, dönemin baskın ideolojisine göre şekillenen şehirlerin, toplum medeniyetinin yansıtıldığı yerler olduğu görülmüştür. Bu durumuna esasen, etimolojik olarak şehir-medeniyet vurgunun yapılması ve modern dillerde vurgulanması tarafımızca makul bulunmaktadır.

Şehir medeniyetine sahip şehirlerden biri de Taşkent'tir. Orta Asya'nın kadim şehirlerinden olan Taşkent, egemen gücün istekleri doğrultusunda değişmiş, dönüşmüştür. 19. Yüzyılın ikinci yarısı Taşkent tarihi ve medeniyetinde dönüm noktası olmuştur. Rusların bölgeyi ele geçirmesi, Rus etkisinin toplumsal hayatta ve kentin şekillenişinde etken bir konuma gelişine neden olmuş, şehir medeniyetinin Ruslar tarafından düzenlendiği görülmüştür.

Taşkent bu dönemde Rus kültür ve medeniyetini yansıtacak düzenlemelere sahne olmuş; geleneksel şehrin yanına yeni modern bir Rus şehri kurulmuştur. Bu yolla yönetim yerel insanları asimile etmeyi, tepki çekmeden bunu başarmayı amaçlamıştır. Çarlık döneminde başlayan ve Sovyet döneminde de etkili olan Rus imgesi Taşkent kent kimliğini oluşturan ve günümüze kadar devam eden bir imge olarak ortaya çıkmıştır. Bu etmen, Taşkent'in diğer şehrin nezdinde farklılaşmasına, gelişimine, ön plana çıkmasına neden olurken diğer taraftan geleneksel şehir yapılanmasının değişimine ya da zarar görmesine de neden olmuştur.

KAYNAKÇA

1. Bayram, Vehbi. (2014). "Küresel Kent, Küresel Özne ve Küresel İsyan". Doğu Batı Şehir Yazıları II, sayı:68, Doğu Batı Yayınları, ss.211-231.
2. Braudel, F. (2001). Uygarlıkların grameri. Çev. Mehmet Ali Kılıçbay,2.Baskı, Ankara: İmge Kitabevi, 613 s.
3. Huot, J.L. (2000). Kentlerin Doğuşu. İmge Kitapevi, Ankara, 475 s.
4. Kafesoğlu, İbrahim. (1989). Türk Milli Kültürü, Boğaziçi Yayınları, İstanbul, 447 s.
5.Kavuncu, A. Çolpan. (2012). Socio-Political Transformation In Uzbekistan: A Study of Urban Mahallas In Tashkent, Danışman: Prof. Dr. Melih Ersoy, Yayınlanmamış Doktora Tezi, Ankara, 528 s.
6. Koç, N. (2011). Kültür ve medeniyet kavramları etrafındaki tartışmalar ve Atatürk'ün düşünceleri. Cumhuriyet Tarihi Araştırmaları Dergisi. Sayı: 13, ss.103-122.
7. Kutluer, İlhan. (2003) "Medeniyet", Tdv İslâm Ansiklopedisi, ss.296-297. - https://Islamansiklopedisi.Org.Tr/Medeniyet#1 [Müraciət tarixi: 24.03.2022].
8. MacKenzie, David, (1969). "Tashkent Past and Present". Russian Review. 28. (2). P.207-216.

9. Maksudov, Farhad & Somuncuoğlu, Tumen & Kavuncu, Çolpan (2014). "Taşkent", Murat Yılmaz, A. Çolpan Kavuncu (Ed.), Türk Dünyası Başkentleri: Ankara Almatı-Astana-Aşkabat-Bakü-Bişkek-Duşanbe-Lefkoşa-Taşkent, SFN Yayıncılık. ss.505-583.
10. Muhammedcanov, Abdullah. "Taşkent", Tdv İslâm Ansiklopedisi, 2011, ss.145-148. - https://İslamansiklopedisi.Org.Tr/Taskent [Müraciət tarixi: 24.03.2022].
11. Recepcan, Şen. (2010). İbn Haldun'da Şehir Ve Medeniyet, Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü Sosyoloji Anabilim Dalı, Yüksek Lisans Tezi, Ankara, 141 s.
12. Ritzer, George. (2009). "Toplumun Mcdonaldlaşması", Sosyoloji. Başlangıç Okumaları, Editör: Anthony Giddens, (çev: Günseli Altaylar), Say Yayınları, İstanbul, 384 s.
13. Saray, Mehmet. (2014). Yeni Türk Cumhuriyetleri Tarihi, Türk Tarih Kurumu Yayınları, Ankara, 513 s.
14. Spengler, Oswald, (1997). Batı'nın Çöküşü, İstanbul: Dergah Yayınları, 560 s.
15. Toynbee, Arnold. (1978).Tarih Bilinci. İstanbul: Bateş Yayınları, 557 s.

ОГУЗ КАГАН БАЙРАКДАР
Докторант кафедры Истории тюркских народов Бакинского Государственного Университета

ВЛИЯНИЕ РОССИИ НА ГОРОДСКУЮ ЦИВИЛИЗАЦИЮ ТАШКЕНТА XIX ВЕКА

Города, которые с момента своего возникновения были политическими, экономическими, культурными и социальными центрами, в процессе претерпели изменения. Наряду с естественными причинами, такими как наводнения, землетрясения и засухи, многие факторы, определяемые людьми, такие как торговля, религия, сельское хозяйство и промышленность, также влияют на изменение, развитие или трансформацию городов. Города, представляющие собой изменяющийся и обновляющийся механизм, также обладают свойством быть носителем цивилизации. Любая фигура, созданная или раскрытая людьми в истории или отражающая их менталитет, воплощается через города и включается в круг цивилизации. Помимо этих конкретных примеров, жизнь в городе считается выражением цивилизации.

Одним из городов с таким представлением о цивилизации является Ташкент, столица Узбекистана. Ташкент, один из древних городов региона, выделяется как один из центров притяжения Узбекистана. События, которые он пережил в историческом процессе, сделали Ташкент интересным центром. Одним из факторов, выдвинувших город на передний план, было продвижение русских в Среднюю Азию и взятие Ташкента в 19 веке. В статье будет исследована городская история Ташкента XIX века и проанализирован русский образ в трансформации города.

Ключевые слова: цивилизация, город, Ташкент, русское влияние.

OGUZ KAGAN BAYRAKDAR
Baku State University, Faculty of History, Phd Student in History of Turkish World

INFLUENCE OF RUSSIA ON THE URBAN CIVILIZATION OF TASHKENT IN THE19TH CENTURY

Cities, which have been political, economic, cultural, and social centers since their emergence, have undergone transformation in the process. Along with natural causes such as floods, earthquakes and droughts, many factors determined by people such as trade, religion, agriculture, and industry also affect the change, development, or transformation of cities. Cities, which are a changing and renewing mechanism, also have the feature of being the carrier of civilization. Any figure that is produced or revealed by people in history or that reflects their mentality is embodied through cities

and added to the circle of civilization. Besides these concrete examples, living in the city is accepted as the expression of a civilization.

One of the cities with this idea of civilization is Tashkent, the capital of Uzbekistan. Tashkent, one of the ancient cities of the region, stands out as one of the attraction centers of Uzbekistan. The events that it has experienced/exposed in the historical process have been effective in making Tashkent an interesting center. One of the factors that brought the city to the fore was the advance of the Russians to Central Asia and the capture of Tashkent in the 19th century. In the article, the city history of Tashkent in the 19th century will be researched and the Russian image in the transformation of the city will be analyzed.

Keywords: Civilization, City, Tashkent, Russian Influence.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 12 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Əsməd Muxtarova, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24)

ŞÖLƏ MƏMMƏDOVA
AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun
Azərbaycanın tarixi coğrafiyası şöbəsinin kiçik elmi işçisi
shela.mammadova@yahoo.com

"DİFAİ" PARTİYASININ YARANMASI VƏ FƏALİYYƏTİ

Məqalədə Difai partiyasının yaradılması və fəaliyyətinə ümumi şəkildə nəzər salınmış, partiyanın tarixi ilə bağlı mühüm məqamlar tədqiq olunmuşdur. Partiyanın yaranma səbəbi, proqramı, fəaliyyəti və təsir dairəsi tədqiqata cəlb edilmişdir. Araşdırma zamanı müqayisəli təhlil, tarixi yanaşma metodlarından istifadə edilmişdir. Qeyd edək ki, 1906-cı ildə Gəncədə Əhməd bəy Ağaoğlu tərəfindən yaradılmış "Difai" partiyasının əsas məqsədi 1905-1906-cı illərdə Cənubi Qafqazı bürümüş erməni müsəlman davasının (ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınların) qarşısını almaq və Qafqazda ilk türk dövləti yaratmaq idi. Difaiçilərin Gəncədə fəaliyyətinin nəticəsi olaraq ermənilərin hücumları dəf edilmiş, ermənilərin terror fəaliyyətinə layiqli cavab verilmişdir. Məqalədə "Difai"nin təkcə Gəncənin deyil, bütün Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynaması, onun Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında rolu vurğulanır.

Açar sözlər: Azərbaycan, Difai, Gəncə, Qarabağ Birlik Məclisi, müsəlmanlar, ermənilər, qırğınlar.

Giriş. XIX əsrin ikinci yarısından etibarən Şimali Azərbaycanda formalaşmaqda olan milli ziyalılar təbəqəsi milli partiyaların yaranmasında həlledici rol oynadı. Əsas məqsədləri Azərbaycan cəmiyyətinin əsas sosial qruplarının intellektual və ideoloji tələbatını ödəmək olan bu ziyalı təbəqəsi sayca az olsa da Azərbaycan xalqının öz sosial, siyasi və milli hüquqlarını dərk etməsində mühüm rol oynamışdır. Lakin bu heç də asan başa gəlmirdi. Çünki onların üzərinə həm milləti maarifləndirmək, həm də dövrün şərtləri çərçivəsində informasiya cəbhəsində atılan iftiralara, həqiqətə uyğun olmayan məlumatlara cavab vermək vəzifəsi düşürdü. Əhməd bəy Ağaoğlu 1905-ci ildə baş verən Bakı qırğınları ilə bağlı qələmə aldığı "Bakı hadisələri haqqında həqiqət" adlı məqaləsində bu məqama diqqəti çəkərək yazırdı: *"Yalnız bizim rus mətbuatı deyil, əcnəbi mətbuatı da hər gün ən qərəzli, ən kobud və misli-bərabəri görünməmiş məqalə və xəbərlərlə, "işıqlandıran" və "aydınlaşdırılan" yazılarla doldurulur... Təbliğata rəhbərlik edən bacarıqlı əllər bütün vasitələrdən istifadə edir və nə yolla olursa olsun, öz çirkin məqsədlərinə çatmağa can atırlar"* [1, s.339]. Əhməd bəy Ağaoğlu fikirləri əslində o zaman Azərbaycan ziyalılarının nə qədər çətin sınaqlar qarşısında qaldığını və necə bir şəraitdə mübarizə apardıqlarını açıq-aşkar göstərir. Çünki milli ziyalılarımız Əhməd bəy Ağaoğlunun da qeyd etdiyi kimi hər işdə ermənilər kimi Qafqaz hakim dairələri tərəfindən müdafiə olunub ruhlandırılmırdılar. Ermənilər özlərinə partiyaları hələ XIX əsrin sonlarına yaradıb həmin partiyalar xətti ilə birbaşa terror aktları, daha sonra türk-müsəlman əhaliyə qarşı soyqırımları törətdikləri halda XX əsrin əvvəllərinə qədər Azərbaycanda hələ hansısa siyasi partiyanın mövcudluğundan söhbət belə getmirdi. Məhz belə bir şəraitdə "Difai" ortaya çıxdı. "Difai" qurucuları görürdü ki, ermənilər hakim dairələrdən aldıqları hər fürsəti müsbət dəyərləndirib özlərinə məktəblər açır, qəzetlər təsis edir, maarif və xeyriyyə cəmiyyətləri qurur, kitabxana və qiraətxanalar təsis edir və bütün bunlar sayəsində həm zehni, həm də iqtisadi cəhətdən sürətlə qabağa gedirdilər. Müsəlmanlar isə çar Rusiyası hüdudlarında böyük əksəriyyət təşkil etsələr də hakim dairələrin inamsızlığı, yaratdıqları müxtəlif maneələr onları bu cür imkanlardan məhrum edirdi. Bütün bunlara baxmayaraq ziyalılar öz xalqının vəziyyətini daha çox inkişaf etmiş millətlərin vəziyyəti ilə müqayisə edir, milli azadlıq və demokratiya ideyalarını təbliğ edir, bu da cəmiyyətin ideya-siyasi tərəqqisini sürətləndirir və Azərbaycan millətinin formalaşması prosesinə stimul yaradırdı. Buna görə də tamamilə qanuna uyğun haldır ki, məhz Azərbaycan ziyalıları milli hərəkatın rəhbər və əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Bu ziyalılar şurasından siyasi rəhbərlər və Azərbaycan milli hərəkatın ideoloqları çıxmışdı [3, s.82]. Məhz belə ideoloqlardan bir qismi başda Əhməd bəy Ağaoğlu, Kərim bəy Mehmandarov, Ələkbər bəy Rəfibəyli, Behbud xan Cavanşir olmaqla 1906-cı ildə "Difai" partiyasını yaratdı.

"Difai"nin yaranması və əsas prinsipləri. "Qafqaz Ümummüsəlman Müdafiə Komitəsi" adlandırılan "Difai"nin proqramı Əhməd bəy Ağaoğlu tərəfindən hazırlanmış və 1906-cı ildə "İrşad" qəzetinin 213-cü sayında çapdan çıxmışdır. Bu sənəddə iki mühüm çıxış yolu təklif olunurdu: maariflənmək və qüvvətlənmək! Həmin porqramda fəlakətin üç əsas istiqaməti qeyd olunurdu: *"Azərbaycan xalqının iradəsi ziddinə cəlb olunduğu erməni-müsəlman münaqişəsi, xalq kütlələrinin mütləq əksəriyyətinin cəhalət və nadanlığı, milli mühitin əksər dəyərlərinin ifrat tənəzzülə uğraması"* [1, s.15-16]. Erməni terrorçularının qarşısında davam gətirə biləcək döyüş qabiliyyəti olan müsəlman təşkilatı yaratmaq barədə qərar 1906-cı il fevralın 20-dən martın 6-na qədər canişin qraf İ.İ.Vorontsov-Daşkovun sədrliyi ilə Tiflisdə Azərbaycan və erməni nümayəndələri arasında keçirilən sülh danışıqlarından sonra qəbul edildi. Həmin danışıqlarda çıxış edən Əhməd bəy Ağaoğlu açıq şəkildə belə bəyan edirdi: *"Qafqazda olan mənsəb sahibləri və hakimlərin çoxu erməni terrorundan qorxub ədalət və insaf ilə iş görmürlər. Biz terror məsələsini qalxızdıqca ancaq sülhü, asayişi nəzərə almışıq ... nə qədər ki, Qafqazda terror var, bir o qədər sülh olmayacaq. Biz deyirik, əgər doğrudan doğruya sülh istəyirsinizsə, başqa təşəbbüslərlə bərabər gərək terroru da götürəsiniz. Buna cavabında bizə deyirlər ki, siz daşnaksütyundan danışırsız. Bizim əsla fikrimizdə daşnaksutyun yox idi. Biz deyirik ki, bu terror götürülsün. Lakin ermənilərin xəyalına daşnaksutyun gəlir... keçən gün cənab Xatisov... çıxışında aşkar dedi ki, bu daşnaksutyun Rusiyanın böyük şəxslərinin, generallarının və hətta Qafqaz canişini həzrətlərinin fikir və əqidələrinə qulluq edir... Görünür ki, daşnaksütyunun bu terrorla əlaqəsi vardır. İndi ki, belədir... belə partiyanın götürülməyini təmənna etməyimiz faydasızdır. Bizim də gərək mükəmməl və müsəlləh partiyalarımız olsun. Bizim də gərək daşnaksutyunlarımız olsun"* [5, s.112, 114-115]. Əhməd bəy Ağaoğlunun bu çıxışından da aydın olduğu kimi erməni-müsəlman davasını danışıqlarla həll etmək müşkül məsələyə çevrilmişdi. Sülh yolu ilə bu məsələni həll etmək üçün müsəlman tərəfi nümayəndələri əllərindən gələni etsələr də ermənilər və onları himayə edən Qafqaz hakim dairələri hər fürsəti öz xeyirlərinə çevirmək üçün hər yola əl atırdılar. Hətta törətdikləri terroru, soyqırımı belə xəbərsiz törətmədiklərini açıq-aşkar bəyan edirdilər. Belə bir şəraitdə bir çıxış yolu qalırdı ki, o da silahlı siyasi partiya yaratmaq və gərək duyulduqca sülh və danışıqlarla həll edilməsi mümkün olmayan problemləri qarşı tərəfin başa düşəcəyi dillə həll etmək idi.

"Difai" yaxşı təşkilatlanmış və silahlanmış "Daşnaksutyun"un müqabilində müdafiə təşkilatı kimi yaradılsa da sadəcə hərbi məqsəd güdmürdü. Bu, partiyanın proqramından da görünürdü. Həmin proqramın layihəsi bəndlər üzrə dəqiq ifadəedilmiş proqram adlandırmaq çətin olsa da, partiyanın əsas məqsəd və vəzifələri, eləcə də onlara çatmaq yolları burada kifayət qədər aydın şərh edilmişdir. Partiya öz xalqını erməni-müsəlman münaqişələrindən xilas etməyi və onu maarifləndirməyi özünün başlıca və əsas məqsədləri elan edirdi. Bu məqsədə çatmaq üçün partiyanın iki vasitəsi vardı: təhsil və güc, yəni partiya öz xalqına təhsil verməyə, nadan kütlələri maarifləndirməyə, digər tərəfdən güc vasitəsilə onu xarici düşmənlərdən və hökumətdəki satqınlardan xilas etməyə şərait yaratmalıdır. Proqramın mübariz tonu partiyanın özünün yaranmasını şərtləndirmiş və kütlələrin əhval-ruhiyyəsinə cavab verən səbəblərlə bağlı idi. Proqramda deyilirdi ki, hökumət dairələri, xüsusən cənab Vorontsov-Daşkovun canişin olduğu kədərli günlərdə erməni "Daşnaksutyun" təşkilatının bombaları və güllələri qarşısında qorxaqcasına baş əydilər, bu təşkilatın Qafqazda itaətkar alətlərinə çevrildilər. Yerli hakimiyyət orqanları "Daşnaksutyun"un əlində miskin bir vasitə oldular, o da mütəşəkkil qoşunlara malik olduğundan və hökuməti öz alətinə çevirdiyindən, müsəlmanları Qafqaz diyarından sıxışdırıb çıxarmağı, onları məhv etməyi, onların torpaqlarına yiyələnməyi, sonra isə öz Milli İdarəsini yaratmağı əsas məqsəd kimi qarşıya qoymuşdu [8, s.176]. Beləliklə, Azərbaycanın ilk siyasi partiyası olan "Difai" partiyası yarandı. Nağı bəy Şeyxzamanlı özünün xatirələrində Əhməd bəy Ağaoğlunun Gəncəyə gəlişini və partiyanın yaranmasını belə xatırlayır: *"Qafqaz general-qubernatorunun icazəsi ilə Bakıda qəzet çıxaran, xalqın xüsusi ilə də ziyalıların sevgisini qazanmış olan və milli Azərbaycan işləri ilə məşğul olan Ağaoğlu Əhməd bəy Gəncəyə gəlmişdi. Xalq hökümət tərəfindən böyük məscidə dəvət edilmişdi. Məscid ağzına qədər dolu idi. Mən də orda idim. Ağaoğlu minbərin ikinci pilləsinə çıxaraq, xalqa müraciət etməyə başladı: "Möhtərəm Gəncə xalqı, Türklərlə ermənilər arasında baş verən son hadisələr hamımızı mütəəssir etdi. Nə müsəlmanlıq, nə də insanlıq belə vəhşi hərəkətlə razı olmaz. Bu hadisə nədən oldu, nə üçün oldu, səbəbkarı kimdir, deyə tədqiqat və münaqişəyə başlasaq, heç bir nəticə əldə etməyəcəyik"* [7, s.19]. Nağı bəy Şeyxzamanlı daha sonra

fikrinə belə davam edir: *"O vaxt gizli təşkilatımız ilhamını bir neçə irəli gələn millətpərvərlərimizdən alırdı. Onların başında Rəfibəyli Ələkbər bəy, iki qardaş - Xasməmmədli Ələkbər və Ələsgər, Yusifbəyli Nəsib bəy, doktor Həsən Ağaoğlu dururdular. Bu böyüklərimiz Ağaoğlu Əhməd bəyi axşam yeməyinə dəvət edərkən xeyli söhbət aparırlar. Azərbaycan xalqının gələcəyi qaranlıq olduğu və irəlidə ruslar ermənilərin əli ilə hər bir pisliyi edə biləcəkləri üçün yenidən xalqı birləşdirmək, rus idarəsi ilə mücadilə etmək və ruslara anlatmaq ki, asanlıqla məhv olmayacağıq. Rusların gözlərini qorxutmaq. Bunun üçün gizli bir tədhiş komitəsi yaratmağa, gizli firqəni "Difai" firqəsi deyə adlandırmağa qərara verirlər"* [7, s.20]. Burada, "gizli tədhiş komitəsi" ifadəsində əsas məqsəd ermənilərin "Daşnaksütyun" partiyasının terror əməllərinə qarşı müdafiə xarakterli antiterror əməliyyatları aparmaqdır. Difai sözünün mənası da fars dilindən tərcümədə müdafiə deməkdir. Tadeuş Svyataxovski də Difainin Gəncədə yaradılmasını və qurulmasında Nağı bəy Şeyxzamanlının da sadaladığı şəxslərin iştirakını qeyd edir. Əlavə olaraq o, İsmayıl Ziyadxanovun da adını qeyd edir [6, s.56-57].

"Difai"nin fəaliyyəti və təsir dairəsi. Partiyanın təsir dairəsi bütün Azərbaycanı, həmçinin Cənubi Qafqazı əhatə edirdi. Partiyanın Qarabağda, Cəbrayılda, Qaryagində (həmin vaxtı Füzuli belə adlanırdı – Ş.M.) və s. şöbələri fəaliyyət göstərirdi. Partiyanın proqramından göründüyü kimi, "Difai" partiyası öz fəaliyyətinin xarakterinə və taktikasına görə çar Rusiyası ərazisində fəaliyyətə başlamış o biri siyasi partiyalara bənzəmirdi. Digər siyasi partiyalar milli məsələdə, milli dövlət quruculuğu məsələlərində konkret siyasi tələblər irəli sürür, seçkilərdə iştirak yolu ilə fəal siyasi mübarizə aparırdı. "Difai" isə ciddi konspirasiya şəraitində fəaliyyət göstərir, mədəni tərbiyə işinə, xalq qüvvələrinin konkret şəxslərlə, yerli çar administrasiyasının ali vəzifəli nümayəndələri və ya təşkilatlar ilə ("Daşnaksutyun" kimi) mübarizədə sıx birləşməsi və təşkilatlanması məsələsinə daha çox diqqət yetirirdi. Gəncə qubernatorunun 19 avqust 1907-ci il tarixli raportu buna sübutdur. Qubernator həmin raportda qeyd edirdi ki, "Difai" partiyası cəmiyyətin geniş təbəqələri arasında hələlik heç bir siyasi tələb irəli sürmür. Lakin sonradan aydın oldu ki, bu, partiya rəhbərlərinin düşünülmüş taktikası idi. Onlar mərkəzi hökuməti qorxutmamaq üçün perspektiv planlarını bəyan etmirdilər [3, s.96].

Rəsmi sənədlərdən göründüyü kimi, əksər hallarda partiya üzvlüyünə əhalinin orta və aşağı siniflərinə mənsub olan şəxslər: tacirlər, kəndlilər, tələbələr və sərbəst peşə sahibləri – həkimlər, öz liberal baxışları ilə tanınmış vəkillər qəbul edilirdi. Şəriət ideyalarının təbliğ edilməsi onu göstərirdi ki, ruhanilər arasında da bu partiyanın tərəfdarları vardı. Bəylərin və xanların, yəni müsəlman zadəganlarının nümayəndələrinin partiyaya daxil olması isə çətin idi, çünki "Difai" partiyası onları xalqın zülmkarları, rus hökumətinin tərəfdarları hesab edirdi [3, s.98]. Artıq qeyd etdiyimiz kimi, partiyanın proqramının müxtəsər variantı "İrşad" qəzetində dərc edilmişdi və geniş kütlələr üçün nəzərdə tutulurdu. Görünür, həmin proqramın tam variantı partiyanın ən iri bölməsi olan "Qarabağ Birlik Məclisi"nin 1907-ci il oktyabr ayında dərc etdiyi və partiya üzvləri üçün rəhbər sənəd olan proqram idi. Bundan əlavə, proqramın əsas müddəaları "Difai"nin proklamasiyalarında öz əksini tapmışdır. Difai partiyasının mərkəzi komitəsi Bakıda yerləşirdi. Polis məruzələrində MK üzvləri arasında aşağıdakıların adları çəkilir – 1) Əhməd bəy Ağaoğlu – "İrşad" qəzetinin redaktoru; 2) Qarabəy Qarabəyov – həkim, "Hümmət" təşkilatına mənsub idi və eyni zamanda "Difai"nin üzvü idi; 3) Məmmədhəsən Hacınski; 4)İsa bəy Aşurbəyov – Ağaoğlunun ən yaxın məsləkdaşı, onun sağ əli; agentura məlumatlarına görə "İrşad" qəzeti əsasən Aşurbəyovun vəsaiti hesabına saxlanırdı; 5) Behbud xan Cavanşir; 6) Niftalı bəy Behbudov [3, s.99].

İ.Bağırova öz tədqiqatında arxiv məlumatları əsasında müəyyən etmişdir ki, partiya üzvlərinin ümumi sayı 1000 nəfərdən çox idi. Bu nəticələr ona əsaslanırdı ki, əvvələn, partiyanın yerli (qəza) komitələrinə 7-15 nəfər daxil idi. Təxminən eyni sayda (6 nəfərdən 17 nəfərə qədər) təbliğatçı olurdu. İkincisi, partiya komitələrinin 7 şəhərdə - Şuşa, Gəncə, Ağdam, Bərdə, Yevlax, Qaryagin və Cəbrayılda fəaliyyət göstərdiyini nəzərə alsaq, Bakı da daxil olmaqla, partiya fəallarının ümumi sayı 160 nəfər idi. Bundan əlavə hər bir komitənin döyüş drujinası vardı. Belə drujinalardan ən böyüyünün say tərkibi məlumdur – Şuşa döyüş drujinası 400 nəfərdən ibarət idi. O biri komitələrdə döyüşçülərin sayının bir neçə dəfə az (50 nəfərdən 100 nəfərə qədər) olduğunu fərz etsək, həmin komitələrdə

1907-ci ildə cəmi 900-ə yaxın üzv olmalı idi [8, s.172]. Beləliklə, 1917-ci ilə qədər "Difai" istər say tərkibinə görə, istərsə də kütlələrə təsir qüvvəsinə görə, Azərbaycanın ən iri partiyası idi.

"Difai" partiyasının ən çoxsaylı, nüfuzlu və fəal bölməsi mərkəzi Şuşada olan Qarabağ bölməsi idi. Bu bölmədə 400-ə yaxın üzv vardı. 1907-ci ilin ortalarından həmin bölmə "Qarabağ Birlik Məclisi" adlanmışdır [3, s.102].

"Difai"nin fəaliyyətinə xitam verilməsinin dəqiq tarixi barədə tarixşünaslıqda vahid fikir yoxdur. H.Baykara qeyd edirlər ki, "Difai" partiyası öz mövcudluğuna 1908-ci ildə xitam vermişdir. Üzvlərinin bəziləri Stolıpinin irtica illərində həbs olunur, bəziləri isə Türküstana sürgün edilirlər [2, s.125]. X.Məmmədov isə belə hesab edir ki, partiya öz fəaliyyətini 1909-cu ildə dayandırıb. Difaiçilərin çoxu sonradan 1911-ciildə yaradılmış Müsavat partiyasına daxil olmuşlar [4, s.94].

"Difai" firqəsi sözün əsl mənasında vətənin müdafiəsinə qalxmış, bu yolda ən ciddi özünümüdafiə və hətta cəza tədbirlərinə də əl atmışdır. Məsələn, Hüseyn Baykara yazır ki, Difai partiyasının qərarı ilə erməniləri türklərə qarşı təhrik edən rus idarəsinin yüksək vəzifəli məmurları "aradan" götürülmüşdür. Şuşada ermənilərin törətdikləri qırğın zamanı onlara köməklik edən general Qoloşapov Tiflisdə Şuşa təşkilatından olan Hüsü adlı birisi tərəfindən öldürülür. Gəncə qubernatorunun müşaviri Kreşçinski Gəncə təşkilatından olan Topal Həsən kəndinin sakini Səməd adlı şəxs tərəfindən öldürülür. Gəncədə həbsxananın imamı olan müsəlman mollası Molla Atakişi (Molla Hədi) rus gizli polisinə xəfiyyəçilik edərək "Difai" partiyasının bir neçə üzvünü ələ verdiyi üçün partiyanın qərarı ilə öldürülür. Şuşada "dəli sudya" adı ilə tanınan rus hərbi məhkəməsinin prokuroru Lunyakin ermənilərə kömək etdiyi üçün "Difai"nin Şuşa komitəsinin qərarı ilə "aradan" götürülür. Gəncədəki polis rəisi Bannikov, Tərtərdəki polis rəissi Felikinski eyni səbəblə partiyanın qərarı ilə öldürülürlər [2, s.124-125]. Bu siyahını uzatmaq da olar. "Difai" partiyasının atdığı bu addımlar bütövlükdə Azərbaycanda azadlıq uğrunda mübarizənin başlanğıcı kimi də qiymətləndirilə bilər.

Nəticə. Azərbaycan xalqının milli azadlıq hərəkatında mühüm rol oynamış "Difai" partiyasının rolunu və yerini, eləcə də bu partiyanın fəaliyyətini birmənalı qiymətləndirmək çətindir. Müxtəlif səbəblərə görə "Difai"nin əsas arxivləri bizə gəlib çatmamışdır. Materialların çoxu, əsasən partiya üzvlərinin həyatını qoruyub saxlamaq məqsədilə məhv edilmişdir. Ona görə də bu mövzu ilə bağlı aparılan tədqiqatlar əsasən polis orqanlarında qalmış materiallara əsaslanır. Həmin orqanlar isə əsas diqqəti yalnız neqativ cəhətlər üzərində cəmləşdirir və hər şeyə qərəzli mövqedən yanaşırlar. Nəticədə "Difai"nin həyata keçirdiyi silahlı tədbirlər çox vaxt bu partiyanın əsas silahı kimi təqdim edilir. Lakin bu təşkilatın fəaliyyətini hərtərəfli nəzərdən keçirərkən belə bir qənaətə gəlmək olar ki, "Difai" partiyası qarşısına Qafqazda ilk türk dövləti yaratmaq kimi konkret siyasi məqsədlər qoymuş, xalqın maarifləndirilməsi, milli ideyanın inkişafına xüsusi əhəmiyyət vermişdir. Eyni zamanda sosial-hüquq bərabərliyi, sosial-demokratiya ideyaları da partiyanın fəaliyyətinə yad deyildi. Ona görə də bu gün inamla deyə bilərik ki, "Difai" Azərbaycanın ən önəmli siyasi partiyalarından biri olub.

ƏDƏBİYYAT

1. Ağaoğlu, Ə. Seçilmiş əsərləri / Ə.Ağaoğlu. – Bakı: Şərq-Qərb, – 2007. – 392 s.
2. Baykara, H. Azərbaycan istiqlal mübarizəsi tarixi /H.Baykara. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1992. – 276 s.
3. Əzizov, E. "Difai" XX əsrin əvvəllərində erməni azərbaycanlı münaqişəsinin ilkin tarixin şərtləri və səbəbləri / E.Əzizov. – Bakı: CBS Polygraphic Production, – 2009. – 364 s.
4. Məmmədov, X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər) /X.Məmmədov. – Bakı: Sabah nəşriyyatı, – 1996. – 174 s.
5. Ordubadi, M.S. Qanlı illər. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi (çapa hazırlayan Ə.Bağırov) / M.S. Ordubadi. – Bakı: Qarabağa Xalq Yardımı Komitəsi, – 1991. – 144 s.
6. Svyataxovski, T. Rusiya və Azərbaycan: Sərhədyanı bölgə keçid dövründə / T.Svyataxovski. – Bakı: Xəzər Universiteti, – 2000. – 374 s.

7. Şeyxzamanlı, N. Azərbaycan istiqlal mücadiləsi xatirələri /N. Şeyxzamanlı. – Bakı: Azərbaycan nəşriyyatı, – 1997. – 176 s.
8. Багирова, И. Политические партии и организации Азербайджана в начале XX века: 1900-1917 / И. Багирова. – Баку: Элм, – 1997. – 336 с.

ШОЛА МАМЕДОВА
Младший научный сотрудник отдела исторической географии Азербайджана Института Истории имени А.А. Бакиханова НАНА

СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ ПАРТИИ «ДИФАИ»

В статье даётся обзор создания и деятельности партии «Дифаи», исследуются важные аспекты истории партии. Были изучены причины создания, программа, деятельность и сфера влияния партии. В исследовании использовались сравнительный анализ и исторический подходы. Следует отметить, что основной целью партии «Дифаи», основанной Ахмед беком Агаоглу в Гяндже в 1906 году, было предотвращение армяно-мусульманского конфликта (резни армян против азербайджанцев) на Южном Кавказе в 1905-1906 годах и создание первое тюркское государство на Кавказе. В результате деятельности защитников Гянджи атаки армян были отбиты, а террористическая деятельность армян получила адекватный ответ. В статье подчеркивается, что «Дифаи» играет важную роль в общественно-политической жизни не только Гянджи, но и всего Азербайджана, его роль в создании Азербайджанской Демократической Республики значительна.

Ключевые слова: Азербайджан, Дифаи, Гянджа, Карабахский Меджлис Единения, мусульмане, армяне, резня.

SHOLA MAMMADOVA
Junior researcher of the department of historical geography of Azerbaijan of the Institute of History named after AA Bakikhanov of ANAS

ESTABLISHMENT AND ACTIVITY OF THE “DIFAI” PARTY

The article provides an overview of the establishment and activities of the “Difai” party, and explores important aspects of the party's history. The reasons for the establishment, program, activities and sphere of influence of the party were studied. Comparative analysis and historical approaches were used in the research. It should be noted that the main goal of the “Difai” party, founded by Ahmad beg Agaoglu in Ganja in 1906, was to prevent the Armenian-Muslim conflict (massacres committed by Armenians against Azerbaijanis) in the South Caucasus in 1905-1906 and to create the first Turkish state in the Caucasus. As a result of the activities of the defenders in Ganja, the attacks of the Armenians were repulsed, and the terrorist activities of the Armenians were adequately responded to. In the article emphasizes that “Difai” plays an important role in the socio-political life of not only Ganja, but all of Azerbaijan, its role in the establishment of the Azerbaijan Democratic Republic is significant.

Keywords: Azerbaijan, Difai, Ganja, Garabagh Union Assembly, Muslims, Armenians, massacres.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Raisə Cəfərova, t.e.d. Sevinc Əliyeva.

UOT 94(479.24)

GÜNAY HƏSƏNOVA
Azərbaycan Universitetinin
"İctimai elmlər" kafedrasının dissertantı
hesenovasiman6@gmail.com

QUBA BÖLGƏSİNDƏ XALÇA TOXUCULUĞU SƏNƏTKARLIĞININ İNKİŞAFI TARİXİNDƏN (XVIII YÜZİLLİYİN SONU - XX YÜZİLLİYİN ƏVVƏLLƏRİ)

Azərbaycan xalqının ənənəvi qədim sənətkarlıq istehsalı sahələrindən biri də xalçaçılıq olmuşdur. XVIII yüzillik və XIX yüzilliyin birinci rübündə müharibələr meydanına çevrilən Quba bölgəsində xalçaçılıq yaşadılırdı. Bölgənin təbii coğrafi şəraiti buna gözəl zəmin yaradırdı. Quba bölgəsində xalçaçılığın yaşadılması xalçaların toxunmasında istifadə olunan xammalın, yunun, ipliyi boyamaq üçün müxtəlif boyayıcı bitkilərin və mineralların, xalça toxuculuğuna bələd olan işçi qüvvənin olması ilə bağlı olmuşdur. Xalça ustalarının yun seçimi, yundan nazik iplikləri hazırlamaq bacarığı və müxtəlif təbii boyaları əldə etmək qabiliyyəti, fantaziyaları bir-birindən gözəl xalçaların toxunmasına gətirib çıxarmışdır.

Açar sözlər: Azərbaycan, Quba bölgəsi, xalça toxuculuğu, xovlu və xovsuz xalçalar, kustar sənətkarlıq, beynəlxalq sərgi.

Giriş. Müasir dövrdə ölkəmizə xaricdən çoxlu turistlərin gəldiyi bir şəraitdə onların daha çox milli xalçalarla maraqlanması xalçaçılıq sənətkarlığının tarixinin tədqiqi və təşviqini aktuallaşdırır. Bu sənətkarlıq sahəsi çox əsrlilik keçmişə malik olmuşdur ki, bunu qədim və orta əsrlərin yazı mənbələri və həmçinin arxeoloji materiallar da təsdiq edir. Azərbaycan xalçaları haqqında orta əsrlər [1, s.201-345; 2, s.963; 3, s.147-158; 4, s.204] və habelə XIX yüzillikdə ölkəmizdə olmuş bir sıra səyyahların qeydlərində, rus məmurlarının hesabatlarında, tədqiqatçıların əsərlərində yerli əhalinin bütün təbəqələrində geniş işlədilən çoxlu miqdarda gözəl xalçalar barədə məlumatlara rast gəlmək olur. Gürcüstandakı rus qoşunun baş komandanı general A.P. Tormasov Rusiyanın maliyyə naziri N.D. Quryevə 1810-cu il 2 avqust tarixli Cənubi Qafqazın iqtisadi durumundan bəhs edən məktubunda Quba əyalətində müxtəlif çeşidli xalçaların toxunduğu haqqında məlumat verilirdi [5, s.38].

Xalça çeşidləri. XVIII yüzilliyin sonlarında artıq Rusiyanın özündə də Quba xalçaçılıq mərkəzi kimi tanınmağa başlanmışdı [6, s.21]. XIX yüzilliyin 20-ci illərində Quba bölgəsində fransızlardan "flamand qobelen" tipində xalçaların toxunması ilə bağlı sifarişlər aldığı məlumdur [7, s.146].

P.V.Kotlyarevskinin yazdığına görə Quba qəzasının orta zolağında ən yaxşı xalçalar İmamqulukənd və Zeyxur kəndlərində toxunulurdu. Bu kəndlərdə toxunan xalça və sumaxlar özünün nazikliyinə, möhkəmliyinə və davamlığına görə fərqlənirdi. Xovsuz xalça hesab olunan sumaxların rəsmləri eyni cür olmasına baxmayaraq, təmtəraqlı görünürdü [8, s.365].

Xovlu xalçaların ölçüləri adətən 1 ½ arşın (=0,7112 m) enində, 3 arşın uzunluğunda, sumaxların ölçüləri müvafiq olaraq 3-6 arşın olurdu. Toxucular rəngləri özləri seçir və iplikləri çox vaxtlar özləri boyayırdılar. Bəzən də Quba şəhərinin boyaqçıların xidmətindən istifadə edirdilər [8, s.365].

1850-ci ilin məlumatına görə ən çox xalçalar Zeyxur, İmamqulukənd, Hil, Çiçi və Sədan kəndlərində toxunurdu [9]. Quba bölgəsinin Zeyxur kəndində toxunan "Zeyxur" xalça çeşniləri qəzanın şimal hissəsində daha geniş yayılmışdı. Sonralar bu çeşni qəzanın cənubunda da "Qollu çiçi" adı ilə toxunmasına başlandı. Bu gözəl və cazibədar çeşnili xalçaların sifarişçiləri çox olurdu və tez satılırdı [10, s.337]. A. Düma Quba ticarətinin əsas hissəsini qadınların toxuduğu xalçaların təşkil etdiyini yazırdı [11, s.179].

Quba xalçasına olan heyranlığını gizlədə bilməyən müəlliflərdən biri yazırdı: "Son vaxtlar bu şəhər sevindirici nailiyyətlər qazanmışdır. Özünə məxsus hamar toxunuşu, rənglərin davamlılığı və rəsmlərin orijinallığı ilə fərqlənən Quba xalçalarına layiqli tərif söyləmək vacibdir. Qafqazda toxunan xalçalar içərisində daha gözəl və qiymətinə uyğun gələn belə xalçalar yoxdur" [12, s.217].

Rusiyada çox vaxt İran xalçaları adı ilə satılan Quba xalçaları İran xalçalarından heç də geri qalmırdı. Həmin dövrün mütəxəsisi yazırdı: "Əgər bizdə ona (xalçaçılığa-H.G.) lazımı səviyyədə dəstək göstərilərsə, bu xalçalar həm gözəlliyi və həm də möhkəmliliyi ilə Avropa xalçalarını kölgədə qoyar. Əvvəllər keyfiyyətinə görə üstün hesab olunan Persiya xalçaları indiki şəraitdə Qafqaz (Quba) xalçaları ilə rəqabət apara bilmir" [12, s.105].

Tədqiqatçı Y.A. Qaqemeyster Quba xalçaların rənglərinin davamlı, yunu cod və naxışları eyni obrazlı olduğunu yazırdı [9]. Quba xalçalarının orta qiymətinin Qarabağ xalçalarından haradasa iki dəfə Dağıstan xalçalarından isə beş dəfə yuxarı olduğunu göstərən digər bir tədqiqatçı A.S. Piralov yazırdı: "Burada Qafqazın digər bölgələrindən fərqli olaraq daha orijinal və qiymətli xalçalar istehsal olunur. Nazik və sıx ilməli, qısa, eyni hündürlükdə hamar və çox da yumşaq olmayan xovlu, həddindən artıq harmonik seçilən rəngləri olan xırda naxışlı incədən-incəyə toxunan Quba xalçaları Qafqazın şöhrətini nümayiş etdirir" [14, s.64].

Xalçaçılıq sənətkarlığı ilə məşğul olanların say tərkibi. Əvvəllər olduğu kimi Quba bölgəsində xanlıq dövründə də xalça toxuculuğu əhalinin köməkçi gəlir mənbəyi olaraq qalırdı. Həmin dövrdə "kustar sənaye əsasən xanlığın iki-üç mahalında və Quba şəhərində xalçalar və palazların toxunması ilə məhdudlaşırdı" [15, s.324].

XIX yüzilliyin 30-cu illərində Quba bölgəsində xalçaçılıqla 850 ailə məşğul olurdu [16, s.137-138]. İlk əvvəllər xalçalar ailənin ehtiyacları, evlərin bəzədilməsi, cehizlik və nəhayət hədiyyə vermək məqsədilə toxunurdusa sonralar satlıq üçün toxunmağa başlandı. XIX yüzilliyin 40-cı illərində Çiçi və Hil, 50-60-cı illərində Cibir və Yasab, 70-ci illərində Həsənqala, Ləcət, Zeyxur, İmamqulukənd və Həzrə, 80-ci illərində isə Afurca, Buduq, Bilici, Pirəbədil, Zağlı, Sumaqova, Mirzəməmmədkənd və digər kəndlərdə satlıq xovlu xalçaların toxunmasına başlandı. Satlıq sumaxlar Hil, Yasab, Həzrə, Cibir, İmamqulukənd, Çiçi, Alpan, Ləcət və Zeyxur kəndlərində, palazlar isə Hil, Yasab, Həzrə, Ləcət, Çiçi, Pirəbədil, Xudat, Alpan kəndlərində toxunurdu [17, s.30]. XIX yüzilliyin 80-ci illərində Quba bölgəsinin yalnız şimal hissəsində xalça toxuculuğu ilə 7 300 ailə məşğul olduğu haqqında məlumat verilir [8, s.365].

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində Xudat kəndində 25 ailədə 63, Nərəcan kəndində 15 ailədə 41, Bilici kəndində 100 ailədə 254, Pirəbədil kəndində 25 ailədə 67, Zağlı kəndində 32 ailədə 117, Sumaqova kəndində 60 ailədə 117, Qalağan kəndində 50 ailədə 159, Gəndab kəndində 75 ailədə 181, Mirzəməmmədkənd kəndində 45 ailədə 79, Qımıl kəndində 115 ailədə 395, Susay kəndində 40 ailədə 152, Küsnətbala kəndində 65 ailədə 90, Alpan kəndində 86 ailədə 304, Həsənqala kəndində 25 ailədə 48, Həzrə kəndində 50 ailədə 120, İmamqulukənd kəndində 84 ailədə 209, Yasab kəndində 60 ailədə 182, Ləcət kəndində 25 ailədə 55, Cibir kəndində 20 ailədə 100, Zeyxur kəndində 12 ailədə 52, Hil kəndində 60 ailədə 186, Təkəşixi kəndində 24 ailədə 65, Çiçi kəndində 221 ailədə 517, Qonaqkənd kəndində 75 ailədə 190, Cimi kəndində 70 ailədə 240, Buduq kəndində 30 ailədə 70, Afurca kəndində 20 ailədə 85 nəfər xalça toxuculuğu ilə məşğul idi [17, s.67]. XX yüzilliyin əvvəllərində Quba şəhərinin özündə 200 ailə xalça toxuculuğuna başlamışdı [17, s.60-61]. Kənd iqtisadiyyatı və kənd təsərrüfatı statistika şöbəsinin kustar istehsal sahələri ilə bağlı tədqiqatların 1912-ci ilin məlumatına görə Quba qəzasının 111 kənd cəmiyyətinin 97-də təxminən 39 979 nəfər xalça toxuculuğu ilə məşğul olurdu ki, bu da əhalinin 22,7 faizini təşkil edirdi. Qubada qəzasında xalça toxuculuğu bütün kustar sənətkarların 80,5 faizinə bərabər idi [18, s.377].

Xalçaçılıq sənətkarlığının inkişaf etdirilməsi üçün hökumətin gördüyü tədbirlər. Quba bölgəsi yüksək keyfiyyətli xalçalar toxunduğu üçün Qafqaz Kustar Komitəsi tərəfindən həmişə xüsusi diqqətdə saxlanılırdı. Komitənin işçilərindən olan İ.M. Qara-Mirzə 1905-1906-cı illərdə ilk dəfə olaraq Quba bölgəsində xalça naxışlarını daha dəqiq və qüsursuz toxumaq məqsədilə damalı kağız üzərində "icra rəsmləri" toxuculara təqdim etdi. Bu rəsmlər əsasında toxunan xalçalar 1913-cü ildə Peterburqda keçirilmiş sərgidə layiqli qiymətini almışdır. 1912-ci ildə xalçalar araşdırılaraq, tipik yerli naxışlar əsasında xalçalar toxumaq üçün Quba şəhərində və İmamqulukənddə alqı-satqı məntəqələri açıldı. Belə məntəqələrin vəzifələrinə zövqlü rəsmlər üzrə xalçalar sifariş etmək, toxucuları keyfiyyətli yun və boyalarla təmin etmək və satışı həyata keçirmək daxil idi. Məntəqələr işlərini

müharibəyədək apara bilmişdi. Qubada xalçaçılıq sənətkarlığının inkişafına xidmət edən belə tədbir sonralar öz müsbət nəticəsini verdi [19, s.190].

Qafqaz canişinin təmimi sərəncamı əsasında Bakı quberniya idarəsinin tərtib etdiyi 1913-cü il üçün Cənubi Qafqaz diyarı quberniya torpaq vergilərinin smeta layihəsində Quba, Qusar və Xaçmazda fəaliyyət göstərən xalq məktəbləri yanında sənətkarlıq şöbələrinin təşkil edilməsi məqsədilə lazımi avadanlıqlarla təmin edilməsi məsələsi də yer almışdı [20, v.454].

1911-ci ildə İmamqulukənddə Qafqaz kustar komitəsi tərəfindən əhaliyə xalça toxuculuğunu tədris etmək məqsədilə atelye emalatxana açıldı. Kənd əhalisi bunu böyük maraqla qarşılamışdı. İki ildən sonra burada tədrisə gələnlərin sayı 10 nəfərədək artmışdı və bundan əlavə 176 nəfər də buraya gəlmək üçün yazılmışdı. Bu tədbirin uğur qazanmasının əsas səbəblərindən biri emalatxanada toxunan xalçaların keyfiyyətinin evlərdə toxunan xalçalara nisbətən daha keyfiyyətli olmasına əmin olmaları idisə, digər səbəbi burada toxunan xalçaların qiymətinin ev şəraitində toxunan xalçaların qiymətindən 2 dəfə baha satılması ilə bağlı olmuşdur. Bunu nəzərə alan quberniya vergi idarəsi Bakı quberniyasının Quba və Şamaxı qəzalarında yeni bu tip atelye emalatxanaların açılmasını qərara aldı və bunun üçün yaxın üç illiyə 13 500 rubl, avadanlıqların alınmasına 1 000 rubl ayırmışdı. Bundan əlavə İmamqulukənddə xalçaçılıq məktəbi üçün yeni binanın inşa edilməsi nəzərdən keçirilmiş və bu tədbirin həyata keçirilməsinə 12 600 rubl ayrılması nəzərdə tutulmuşdu [20, v.472].

Quba xalçalarının bir sıra sərgilərdə nümayiş etdirilməsi. Qürur verici haldır ki, Quba xalçaları bir sıra sərgilərdə nümayiş etdirilir və dövrün mütəxəsisləri tərəfindən yüksək qiymətləndirilirdi. 1847-ci ildə Tavriyada keçirilən birinci kənd təsərrüfatı sərgisində nümayiş etdirilən Quba bölgəsindən gətirilən xalça sərgiyə gələnlərin böyük marağına səbəb olmuşdu [21]. 1872-ci ildə Moskvada keçirilən Moskva politexnik sərgisində qubalı Narməmməd əfəndinin təqdim etdiyi xalça böyük gümüş medala layiq görülmüşdü [22]. 1872-ci ildə Vyanada təşkil edilmiş beynəlxalq sərgilərdə nümayiş etdirilən eksponatların əsas hissəsi Şimali Azərbaycandan aparılmış xalça və xalça məmulatlarından ibarət idi. 1882-ci ildə Moskvada Ümumrusiya sənaye və incəsənət sərgisində, 1889-cu ildə Tiflisdə Qafqaz Kənd Təsərrüfatı və Sənaye Məhsulları sırgisində Quba xalçaları mükafatsız qalmamışdı.

Quba xalçalarının fövqəladə yüksək texnikaya malik olduğunu yazan müəllif, Qafqazın heç bir yerində burada olduğu kimi incə ipliklərdən toxunmurdu. Bitki mənşəli boyalardan tamamilə imtina edilməmişdir [23, s.84]. Bunun nəticəsidir ki, 1911-ci ildə Turində, 1913-cü ildə Londonda və Berlində təşkil edilmiş beynəlxalq sərgilərdə nümayiş etdirilən eksponatların əsas hissəsi Şimali Azərbaycandan aparılmış xalça və xalça məmulatlarından ibarət olmuşdur.

Nəticə. Beləliklə, XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində Quba bölgəsində xalçaçılıq sənəti digər sənətkarlıq sahələrinə nisbətən daha çox inkişaf etməyə başlamışdı. Bu da Rusiya fabriklərində xalçaların toxunmasının qeyri-mümkünlüyü və xaricdə Azərbaycan xalçalarına tələbatın artması və habelə baha satılması ilə bağlı olmuşdur.

ƏDƏBİYYAT

1. Английские путешественники в Московском государстве в XVI веке. – Рязань: Александрия, 2006. – 400 с.
2. Подробное описание путешествие голштинского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах, составленное секретарем посольства Адамом Олеарием. – Москва: Университетская типография, 1870. – 1038 с.
3. Исторические путешествие. – Сталинград: Краевое книгоиздательство, 1936.– 456 с.
4. Бутков П.Г. Выдержки из проекта отчета о персидской экспедиции в виде писем. 1796. // История, география и этнография Дагестана XVIII-XIX вв. Архивные материалы. – Москва Издательство восточной: литературы, 1958. – С. 200-208.
5. Отношение ген. Тормасова к д.т.с. Гуреву, от 2-го августа 1810 года, № 94 // Акты, собранные Кавказской археографической комиссией: Том IV. – Тифлис: Тип. Главного Управления Наместника Кавказского, 1870. – 1019 с. Док. 37.
6. Абдуллаев Г.Б. Из истории Северо-восточного Азербайджана в 60-80-х гг. XVIII века. – Баку: Изд-во Акад. Наук Азерб. ССР, 1958. – 211 с.

7. Гугушвили П.В. Развитие промышленности в Грузии и Закавказье в XIX- XX веках. Т. I. – Тбилиси: Академия наук Грузинской ССР, 1957. – 344 с.
8. Экономический быть государственных крестьян северной части Кубинского уезда, Бакинской губернии, исследование П.В. Котляревского // Материалы для изучения экономического быта государственных крестьян Закавказского края. Т. II. Ч. I. – Тифлис: Типография А.А. Михельсона, 1886. – С. 289-446.
9. Гагемейстер Ю.А. Кубинский уезд // Кавказ, 2 августа 1850 года, № 60.
10. Константинов В. Куба // Кавказский календарь на 1852. – Тифлис: Типография канцелярии наместника кавказского, 1851. Отделение третье. – С. 334-339.
11. Düma A. Qafqaz. – Bakı: Qafqaz. – 2010. – 496 s. + 58 s. illüstrasiyalar.
12. Живописная Россия. Кавказ. Том IX. – СПБ.-Москва: Издание товарищества «М.О. Вульф», 1883. – 232 с.
13. Пиралов А.С. По поводу изучения кустарной промышленности Закавказского края // Северный вестник, 1887, март №3. – СПб.: Типография В. Демакова. Областной отдел. – С. 99-113.
14. Пиралов А. С. Краткий очерк кустарных промыслов Кавказа // Кавказский календарь на 1901 г. – Тифлис: Типография М. Шарадзе, 1900. Отдел II. – С. 43-73.
15. Дубровин Н. История войны и владычества русских на Кавказе. Том I, книга II. Закавказье. – СПб.: Печатано в типографии департамента уделов, 1871. – 422 с.
16. Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом, топографическом и финансовом отношениях. Часть 4. – СПб.: Типография департамента внешней торговли, 1836. – 408 с.
17. Кустарная промышленность на Кавказе. Выпуск I. Ковровый промысел в Кубинском уезде, Бакинской губернии. – Тифлис: Типография К.П. Козловского, 1902. – 76 с.
18. Пиралов А.С. Кустарная промышленность // Закавказье. Статистико-экономический сборник. ЗСФСР: Издание Высшего Экономического Совета, 1925. – С. 371-390.
19. Зуммер В.М. Современные Кубинские ковры // Известия об-ва обследования и изучения Азербайджана. №3. – Баку: Издание об-ва обследования и изучения Азербайджана, 1926. – С.185-194.
20. Проект сметы губернских земских повинностей Закавказского края, составленной Бакинским губернским правлением на основании циркулярной распоряжении наместника императорского величества на Кавказе от 8-го апреля 1913 года за № 9973 // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, fond 44, siy. 4, iş 363 (II cild).
21. Первая выставка сельских произведении в Таврической губернии // Кавказ, 5 апреля 1847 года, №14.
22. Список наград присужденных по Кавказскому Отделу Московской политехнической выставки 1872 года, на основании докладов экспертных комиссий и заключений Совета Императорского Общества любителей естествознании при Московском университете // Кавказ, 15(27) ноября 1872 года № 134.
23. Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа // Кавказский календарь на 1914 г. – Тифлис: Типография канцелярии наместника кавказского, 1913. Общий отдел. – С.57-108.

ГЮНАЙ ГАСАНОВА
Диссертант кафедры «Общественных наук»
Азербайджанского Университета

ИЗ ИСТОРИИ РАЗВИТИЯ РЕМЕСЛО КОВРОТКАЧЕСТВО В ГУБИНСКОМ РЕГИОНЕ (конец XVIII - начало XX вв.)

В статье на основе источников и исторических трудов рассматриваются вопросы развитии ремесло ковроткачества в Губинском регионе конца XVIII - начала XX вв. В конце XVIII в. ремесло ковроткачество в Губинском регионе носило еще натурально-хозяйственный характер. В начале XIX в. это ремесло стало развиваться. Учитывая, что это прибыльное отрасль

приносило огромную пользу казне, царское правительство для улучшении развития ковроткачество в начале XX в. принимал ряд специальных мер.

Ключевые слова: Азербайджан, Губинский регион, ковроткачество, ворсовые и безворсовые ковры, кустарное ремесло, международная выставка.

GUNAY GASANOVA
Doctoral student of the Department of "Social Sciences" of the Aazerbaijan University

FROM THE HISTORY OF THE DEVELOPMENT OF CARPET WEAVING CRAFTS IN THE GUBA REGION (LATE 18th - EARLY 20th CENTURIES)

Based on sources and historical works, the article examines the development of carpet weaving craft in the Guba region of the late 18th - early 20th centuries. At the end of the 18th century the craft of carpet weaving in the Guba region was still of a natural character. At the beginning of the 19th century this craft began to develop. Considering that this lucrative industry brought enormous benefits to the treasury, the tsarist government to improve the development of carpet weaving at the beginning of the 20th century took a number of special measures.

Keywords: Azerbaijan, Guba region, carpet weaving, pile and napless carpets, handicraft, international exhibition.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d.Ramil Niftəliyev, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

SAMIR İSMAYILOV
Bakı Dövlət Universitetinin Tarix fakültəsi Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, t.ü.f.d.
samirismayilov@bsu.edu.az

BAKI DÖVLƏT UNİVERSİTETİ İLƏ BAĞLI AZƏRBAYCAN MÜVƏQQƏTİ İNQİLAB KOMİTƏSİ VƏ XALQ MAARİF KOMİSSARLIĞININ QƏRARLARI (1920-1923)

Məqalədə 1920-ci il aprel işğalından sonra Bakı Dövlət Universiteti ilə bağlı Azərbaycan Müvəqqəti İnqilab Komitəsi və Xalq Maarif Komissarlığının qəbul etdiyi müvafiq qərarlar və Azərbaycanın ali məktəb quruculuğunun yeni siyasi sistemə uyğunlaşdırılması araşdırılır. Məlumdur ki, 1918-ci il mayın 28-də Azərbaycanın istiqlalının elan edilməsindən sonra Cümhuriyyət xadimləri ölkənin gələcək taleyini, milli mənafeyini, dünyaya çıxış imkanlarını tam zamanında qiymətləndirib daha bir taleyüklü məsələnin əsas həlli yollarından biri kimi ali məktəb quruculuğuna böyük önəm verdilər. Məhz görülən bu tədbirlər sayəsində xalqımızın övladları müasir universitet təhsili almaq üçün imkan qazandılar. Azərbaycan Xalq Cümhuriyyəti daha bir ilkə imza atdı, Azərbaycanda universitet təhsilinin təməli qoyuldu. Bununla belə, 1920-ci il aprelin 27-də Azərbaycan Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğal edilməsindən sonra bütün sahələrdə olduğu kimi, Bakı Dövlət Universitetinin gələcək taleyində də yeni siyasi sistemin tələbləri açıq-aydın icra olunmağa başlandı. Bütün bunlar məqalədə dövrün arxiv sənədləri və tarixi ədəbiyyat əsasında işıqlandırılaraq təhlil edilir.

Açar sözlər: Bakı Dövlət Universiteti, ali məktəb, sovetlər, Azərbaycan Müvəqqəti İnqilab Komitəsi, Xalq Maarif Komissarlığı.

Giriş. 1920-ci il aprelin 28-də Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal edildi. Azərbaycan Cümhuriyyətinin varlığına son qoyuldu. Müstəqil dövlət süqut etdi. Daxili və xarici siyasət Mərkəzin əlində cəmləndi. Bakı Dövlət Universitetinin tarixində yeni bir dövr başlandı.

Azərbaycan Xalq Cümhuriyyətinin varlığına son qoyulması və Azərbaycanda yeni bir rejimin qurulması Bakı Dövlət Universiteti üçün də şəraiti kökündən dəyişdirdi. Bu, o demək idi ki, universitetin siması hər cəhətdən dəyişirdi. Azərbaycan SSR-nin partiya və dövlət orqanları yeni ideoloji və siyasi reallıqlara uyğun olaraq universitetin işinin təxirə salmadan yenidən qurulmasına rəhbərlik edirdilər.

Universitetdə təlim-tərbiyə və elmi fəaliyyətin əsas istiqamətləri sinfilik və partiyalılıq prinsiplərinə əsaslanaraq yenidən qurulmağa başladı. Sovet hakimiyyətinin ilk illərində bütün mədəni-maarif işlərinə rəhbərlik etmək səlahiyyətini Azərbaycan SSR Xalq Maarif Komissarlığı öz əlində cəmləşdirdi. Yeni qurulmuş cəmiyyətin mənəvi həyatının əsas sahələri – təhsil, elm, ədəbiyyat, incəsənət faktiki olaraq partiya, dövlət rəhbərliyinin nəzarəti altına alındı.

Xalq Maarif Komissarlığının Bakı Dövlət Universiteti ilə bağlı qərarları (1920-1923). 1920-ci ildə Azərbaycan sovet hökuməti Azərbaycan təhsil sisteminin yeni inkişafını istiqamətləndirən bir sıra dekret və sərəncamlar verdi. Azərbaycan Cümhuriyyətinin Maarif Nazirliyinin aparatı ləğv olundu [15, v.10], yeni tərkibdə xalq maarif komissarlığı orqanları fəaliyyətə başladı. Eyni zamanda, qəza inqilab komitələri nəzdində maarif şöbələri təsis edildi [12, v.15-15a]. İlk xalq maarif komissarı Dadaş Bünyadzadənin imzası ilə bir sıra dekretlər verildi.

Azərbaycan SSR Xalq Maarif Komissarlığının və Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 10 may 1920-ci il və 22 may 1922-ci il tarixli dekretləri ilə universitetdə "yenidənqurma işləri" aparıldı.

Azərbaycanda yeni cəmiyyət qurulmasında ən mühüm vəzifələrdən biri sovet mütəxəssisləri hazırlamaq, ələlxüsus fəhlə və kəndlilərdən ziyalı kadrlar hazırlamaq idi. Lakin bu sahədə Azərbaycanın konkret spesifik şəraitini nəzərə almadan, RSFSR-in ali məktəb təcrübəsindən istifadə edildi, orada isə təhsil xüsusi dekretlə təlimin "proletariatlaşdırılmasına" istiqamətləndirilmişdi. Həmin

dekretdə göstərilirdi: "Birinci yerdə sözsüz, proletariat və yoxsul kəndlilər mühitindən şəxslər qəbul edilməlidir. Onlara geniş həcmdə təqaüdlər veriləcəkdir... [20, v.13]. Beləliklə, Azərbaycanda ali məktəb quruculuğu işinə ana dilində dərs deməyi bacaran kifayət qədər yüksək ixtisaslı mütəxəssis kadrların olmaması, bina və zəruri avadanlıqların çatışmaması, təsərrüfat dağınıqlığı ilə əlaqədar maddi çətinliklər şəraitində başlandı.

1920-ci il mayın 11-də Azərbaycan SSR Xalq Maarif komissarı D.X.Bünyadzadə universitetin rektoru V.İ.Razumovskiyə göndərdiyi sərəncamda yazırdı: "Xahiş edirəm, bütün tələbələrin və müəllimlərin nəzərinə çatdırın ki, Xalq Maarif Komissarlığında universiteti genişləndirmək və onu sosialist əmək quruluşunun vəzifələrinə uyğun ruhda yenidən təşkil etmək layihəsi hazırlanır. Əsl elm və elmi biliklər proqramına hər hansı başqa hakimiyyətdən daha çox fəhlə-kəndli hakimiyyətinin marağı var. Buna görə də o, var qüvvəsi ilə çalışacaqdır ki, universitet lazımi səviyyədə olsun." [16, v.162]. Bu məqsədlə Xalq Maarif Komissarlığı Rusiyadan dekretlər, universitet nizamnamələri və s. almaq üçün təcili tədbirlər gördü. Həmin dekretlər, nizamnamələr və s. universiteti yeni şəraitə müvafiq surətdə yenidən qurmaq planı üçün əsas götürülməli idi. Sərəncamda daha sonra deyilirdi: "Professorlar nizamnaməyə uyğun olaraq müsabiqə yolu ilə qəbul edilməlidir. Hazırda Sovet Rusiyası ilə əlaqələr yaradılmışdır və kafedralarda boş yerlər olduğu barədə Rusiya universitetlərinin alimlərinə və professorlarına xəbər göndərmək imkanı vardır. Müsabiqə yolu ilə görkəmli alimləri dəvət etmək mümkün olmadıqda "bəsit seçki üsulu"na əl atmaq olar. Sərəncamın sonunda D.Bünyadzadə professorlar şurasına təklif etmişdi ki, gələn il açılacaq fizika-riyaziyyat və sosial-iqtisadi elmlər fakültələrinin təşkili planını və smetasını Xalq Maarif Komissarlığı ilə birlikdə hazırlamaq üçün komissiya təşkil olunsun [16, v.162]. Sərəncamın mətnindən göründüyü kimi, universitetin elmi fəaliyyəti və təlim-tərbiyə istiqamətləri sinfilik və partiyalılıq prinsiplərinə uyğunlaşdırılırdı. Azərbaycanda sovet məktəbi, hər şeydən əvvəl, yeni cəmiyyət quruculuğunun, "proletariat diktaturasının" müdafiəçiləri olan kadrların "kommunist ideologiyası" ruhunda hazırlanması vəzifələrinə xidmət etməli idi. Bu prinsip yeni dərsliklər, tədris planı və proqramlarının tərtib edilməsinin əsasını təşkil edirdi.

1920-ci il 7 iyulda Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiya iclasında Bakı Dövlət Universitetinin sayca ikinci nizamnaməsi qəbul edildi [18, s.11]. Qəbul edilmiş yeni Nizamnamədə bütün məcburi kursların və məşğələlərin müvəqqəti olaraq rus dilində aparılması nəzərdə tutulurdu [18, s.17]. As zonra, 30 iyul 1920-ci ildə Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri N.Nərimanovun və Azərbaycan SSR Xalq Maarif komissarı D.Bünyadzadənin imzası ilə "Azərbaycan SSR-də yeni yazı qaydalarına keçid" adlı dekret verildi [8, v.23]. Dekretə görə, 1 may 1920-ci ildən etibarən bütün hökumət və dövlət nəşrlərinin, dövrü mətbuatın yeni yazı qaydaları ilə (bu daha çox əski rus qrafikasının yeni kiril əlifbasına uyğunlaşdırılması və bəzi latın hərflərinin - "i"-nin "и" hərfi ilə əvəzlənməsi, bəzi söz sonluqlarının yeni qrammatik qaydalara tabe edilməsi ilə bağlı idi – Z.Ə.) nəşri, bütün məktəblərin yeni yazı qaydalarına keçməsi nəzərdə tutulurdu [8, v.23-23a].

1920-ci ilin noyabrında universitet nəzdində fəhlə fakültəsi açmaq haqqında Bakı şəhər və rayonlarının fəhlələrinə AHİŞ mədəni-maarif şöbəsinin müraciəti dərc edildi [13].

1921-ci il mayın 14-də I Ümumazərbaycan Sovetlər Qurultayında D.Bünyadzadənin məruzəsinə əsasən qəbul edilmiş qətnamədə universiteti milli tərkibi baxımından yerli kadrların artırılmasının (sənəddə türkləşdirməyin – S.İ.) əhəmiyyəti qeyd olunurdu [19, s.11]. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin qərarında deyilirdi: "Türk dilinin tədrisi Dövlət Universitetinin və Politexnik İnstitutunun bütün fakültələrinin tələbələri üçün məcburi hesab edilsin." [5, v.5]. Qərarda daha sonra deyilirdi: "Türk dilini öyrənmək və bu dildə mühazirələr oxumaq istəyən müəllimlərin maaşı artırılacaq, professorlar üçün 50 min manat, dosentlər üçün 40 min manat, digərləri üçün 30 min manat." [5, v.5].

1922-ci il mayın 5-də II Ümumazərbaycan Sovetlər Qurultayı belə bir qərar qəbul etdi: "Xalq təsərrüfatının bütün sahələri və ictimai iş üzrə yüksək dərəcəli mütəxəssislərə Azərbaycan SSR-nin çox böyük ehtiyacını nəzərə alaraq, ... Dövlət Universitetini və Politexnik İnstitutunu hər vasitə ilə müdafiə etmək, möhkəmlətmək və inkişaf etdirmək lazımdır" [2, cild 2, s.335]. Qəbul edilmiş qərarda daha sonra deyilirdi: "Ali Məktəblər yerli dillərə və məişətə yaxşı bələd olan yerli gənclərin sırasından yaxşı hazırlıqlı, müstəqil elmi işçilər, ali tədris müəssisələri üçün müəllimlər yetişdirməli-

dirlər. Respublika rəhbərliyi onlar üçün elə bir şərait yaratmalıdır ki, özlərini bütünlüklə bu işə həsr etsinlər [2, cild 2, s.335]. Qərardakı bəndlərin birində deyilirdi: "Universitetin tibb fakültəsi Xalq Səhiyyə Komissarlıının sərəncamına, elm və tədris həyatına ideya və inzibati rəhbərlik Xalq Maarif Komissarlığının öhdəsinə verilir..." [2, cild 2, s.338]. Göründüyü kimi, Ümumazərbaycan Sovetlər Qurultayları müvafiq dövlət orqanlarına təklif vermişdi ki, ali məktəb xadimlərinin güzəranına dərhal "qayğı" göstərib onların "elmi işi üçün lazımı şərait" yaratsınlar.

Üçüncü Ümumazərbaycan Sovetlər Qurultayı da yeni Xalq Maarif komissarı M.Z.Quliyevin məruzəsinə əsasən qəbul etdiyi qətnamədə ali məktəbin möhkəmləndirilməsinə, ana dilində təhsil almaq imkanının təmin edilməsinə tərəfdar çıxdı. Qətnamədə qeyd edilirdi ki, məzlum Şərq üçün nümunə olan Azərbaycanın siyasi-ideoloji əhəmiyyəti ali məktəblərin üzərinə məsul vəzifələr qoyur. Bu vəzifələr aşağıdakılardan ibarət idi: 1) fəhlə-kəndli gəncləri ali məktəblərə cəlb etmək; 2) türk gənclərini elmi, texniki peşə fəaliyyətinə hazırlamaq [1, s.100]. Qurultay Xalq Maarif Komissarlığına təklif etmişdi ki, "özünün bu əsas vəzifəsini ali məktəblərin necə yerinə yetirməsinə daim göz qoysun."[1, s.100]. Göründüyü kimi, Sovetlər Qurultayı 1920-ci ilin dekabrında universitetdə açılmış fəhlə fakültəsinin əhəmiyyətini xüsusi olaraq önə çəkir, onun yaradılmasını isə sovet hakimiyyətinin çox böyük nailiyyəti kimi qiymətləndirirdi.

Aparılan araşdırmalar göstərir ki, Xalq Maarif Komissarlığının, demək olar ki, bütün iclaslarında, xüsusilə 1920-1922-ci illərdə universitetə aid olan məsələlərə baxıldı. Məsələn, 1920-ci il iyunun 30-da Xalq Maarif Komissarlığının kollegiyasında universitet rektorunun və İdarə Heyətinin qaldırdıqları 7 məsələyə, o cümlədən "Bakı Universitetinin xəbərləri"nin çap olunması, univrsitet "Əsərlərinin" nəşr olunması və bunların kağız ilə təmin olunması, tarix-filologiya fakültəsinə elmi işlər üçün materiallar verilməsi və s. məsələlərə baxılmışdı [1, s.100].

1920-ci ilin sentyabrı-1921-ci ilin mayı ərzində Xalq Maarif Komissarlığı kollegiyasının iclaslarında universitet məsələləri geniş müzakirə edildi. Xalq Maarif Komissarlığı universitetin maarifçilik cəmiyyətinin xahişi ilə fəhlə fakültəsinin rus bölməsində elmi katib vəzifəsini təsis etdi. Ona fəhlə fakültəsinin türk bölməsinin elmi katibi ilə eyni hüquqlar verdi. Universitetə əlavə qəbula razılığını bildirdi, akademik heyətin vəziyyətini yaxşılaşdırmaq haqqında dekret qəbul etdi, 6 saylı məktəbdəki kitabxananı universitetə verdi, cihazlar, alətlər və kitablar almaq üçün 3 milyon manata qədər vəsait ayırdı [4, v.630].

1921-ci il iyunun 23-də respublika hökuməti xarici ticarət birliyinə tapşırdı ki, universitet üçün cihaz və kitablar alsın [11, v.1]. 1922-ci il noyabrın 27-də Xalq Komissarları Soveti Xalq Maarif Komissarlığının xahişi ilə universitetin və Politexnik İnstitutunun saxlanması üçün ilin sonunadək 6 milyard manatlıq kredit açdı. Bundan əlavə, 1922-ci il sentyabrın 6-da şərq fakültəsinin təşkili üçün Xalq Maarif Komissarlığının semtasından əlavə 25 milyard manat, 1922-ci ilin dekabrın 26-da isə universitetin təmiri üçün 43 milyard 750 milyon manat ayırdı [3, s.88].

1923-cü ilin yanvarın 16-da Xalq Komissarları Soveti Xalq Səhiyyə Komissarlığının Cərrahiyyə xəstəxanasını universitetə xəstəxana və zöhrəvi xəstəliklər klinikası kimi vermək barədə təklifi təsdiq etdi [14, v.41-44]. Kitabxananın şərq bölməsini təşkil etmək üçün İstanbuldan xarici valyuta ilə 2 mindən çox kitab alındı. Nəticədə universitet kitabxanasının fondu xeyli artdı. Belə ki, 1920-ci ilin əvvəllərində 4660 cilddən ibarət olan kitabxana, 1924-cü ilin yayında 24713 cildə çatdı [14, v.41-44].

Bakı Dövlət Universiteti yarandığı gündən universitetdə boş vəzifələrin tutulması üçün yüksək ixtisaslı kadrların, professor və dosentlərin universitetə dəvət edilməsi də universitet həyatında ən mühüm məsələ olaraq qalırdı. 1920-ci il iyulun 7-də Azərbaycan Müvəqqəti İnqilab Komitəsi "Bakı Dövlət Universitetinin professorlarının və müəllimlərinin əvəzedilməz ixtisaslı işçilər dərəcəsinə aid edilməsi haqqında" dekret verdi [8, v.24]. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri Nəriman Nərimanov və Azərbaycan SSR Xalq Maarif komissarı Dadaş Bünyadzadə tərəfindən imzalanmış dekretdə deyilirdi: "Azərbaycanın elmi qüvvələrə böyük ehtiyacını və Bakıda ali məktəblər təşkil etməyin son dərəcə zəruri olduğunu nəzərə alaraq, professorlar və müəllimlər əvəzedilməz ixtisaslı işçilər dərəcəsinə aid edilsin. Professorların və müəllimlərin əməyi müəyyənləşdirilmiş tarif dərəcələrindən yüksək olan xüsusi normalar ilə ödənilsin..."[8, v.24]. Dekretin mətnindən də göründüyü

kimi, Bakı Dövlət Universitetinin idarə edilməsinə sovet hakimiyyət orqanları göstərişlər versə də, müstəqillik hələ tam itməmişdi. Professor-müəllim heyətinə nisbi qayğı qalmaqda idi.

1920-ci il noyabrın 1-də Azərbaycan SSR Xalq Maarif komissarı D.Bünyadzadə Bakı Universiteti tələbələrinin və müəllimlərinin maddi təminatı haqqındakı dekretlərin tezliklə dərc edilməsinin zəruriliyi barədə Azərbaycan Müvəqqəti İnqilab Komitəsinə məktub ünvanladı [17, v.21-22]. 1920-ci ilin iyununda və iyulunda Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin göstərişi ilə Xalq Maarif Komissarlığı "Bakı Dövlət Universitetinin akademik heyətinin maddi vəziyyətini yaxşılaşdırmaq haqqında" və Bakı Universitetində dərs deyən elmi mütəxəssislərin ehtiyacları haqqında dekret layihəsini qəbul etdi. Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarına əsasən Bakı Universitetində dərs deyən elmi mütəxəssislərin ehtiyacını nəzərə alaraq: 1. Bakı Universiteti professorlarının və müəllimlərinin mənzilləri ayrı-ayrı şəxslərin ehtiyacları üçün deyil, yalnız qismən müsadirə edilə bilər; 2. Bakı Universiteti professorlarının və müəllimlərinin mənzilləri sıxlaşdırılarkən onlar üçün normadan əlavə bir otaq iş kabineti kimi saxlanılırdı [9, v.8]. Dekret sonra Azərbaycan Müvəqqəti İnqilab Komitəsi tərəfindən təsdiq edildi. Dekretə əsasən, professor-müəllim heyətinin maaşının ikiqat artırılması nəzərdə tutulmuşdu. Elmi cəmiyyətin professor və müəllimləri onlara təyin edilmiş maaşı almaq üçün həftədə azı 6 saat, maarifçilik cəmiyyətinin müəllimləri və dil mühazirəçiləri həftədə azı 8 saat mühazirə oxumalı idilər. Normadan əlavə oxunan bu mühaziərlər üçün əlavə haqq verilirdi, digər tərəfdən isə saathesabı ödənişin məbləği əvvəlkindən 3 dəfə çox idi [9, v.8].

Xalq Maarif Komissarlığının icazəsi ilə Bakı Dövlət Universiteti və Politexnik İnstitutunda əvəzçilik qaydası ilə dərs deməyə icazə verilirdi. Bu zaman professor və müəllimlər maaşı tam alırdılar.

Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin Bakı Dövlət Universiteti ilə bağlı qərarları. Azərbaycan Müvəqqəti İnqilab Komitəsi Bakı Dövlət Universiteti ilə bağlı 1920-ci il 13 iyulda daha bir dekret verdi. Dekretə əsasən universitetin tədris işi dövlət əhəmiyyətli olduğuna görə onun professor və akademik heyətinin digər üzvləri hərbi və əmək səfərbərliyinə alınmırdılar [10, v.25].

1920-ci il noyabrın 1-də D.Bünyadzadə Bakı Şəhər İcraiyyə Komitəsinə müraciət edib Rusiyadan gəlmiş professorlara mənzil verilməsini xahiş etdi. Müraciətdə deyilirdi: "Bütün bunların sayəsində ... elmin müxtəlif sahələrini təmsil edən görkəmli işçilər Bakıya həvəslə gəlirlər. İndi Universitet Avropanın ali məktəbləri ilə eyni səviyyədə dayanır. Onun professorları arasında həm Rusiyada, həm də Qərbi Avropda yaxşı tanınmış böyük alimlər var..." [6, v.179].

1922-ci ilin yanvarın 30-da Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiyası universitetin yeni, üçüncü nizamnaməsini təsdiq etdi [21, v.1]. Yeni nizamnamənin əsas maddələri 1920-ci il nizamnaməsinə uyğun gəlirdi. Universitet şurası əsas idarəetmə orqanı olaraq qalırdı. Şura professorlardan, assistentlərdən, dosentlərdən və kiçik müəllimlərdən, ikincisi, qalan akademik heyətin nümayəndələrindən – professorların və dosentlərin ümumi sayının ¼ hissəsindən, üçüncüsü, kiçik müəllimlərin nümayəndələri qədər tələbə nümayəndəsindən ibarət idi [21, v.2]. Professor və dosentlər 7 il müddətinə, prozektorlar və assistentlər 5 il müddətinə, qalan kiçik müəllim heyəti 3 il müddətinə, elmi əməkdaşlar isə 2 il müddətinə seçilirdi [21, v.3].

Universitetlə bağlı 1920 və 1922-ci il qəbul edilmiş hər iki nizamnamədə "özünüidarə prinsipləri" saxlanılsa da, Azərbaycan SSR Xalq Maarif Komissarlığı tədricən bu məsələnin də öhdəsindən gələ bildi. Xalq Maarif Komissarlığının fikrincə, bu və bundan əvvəlki nizamnamələrin əsas qüsurlu tərəfi bu idi, universitet müstəqil və özü idarə olunan təşkilat idi. Bununla bağlı olaraq 1923-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının Azərbaycan SSR Xalq Komissarları Sovetinə göndərdiyi hesabatında deyilirdi: "Əlbəttə, belə vəziyyətə dözmək olmazdı, çünki ölkənin dəyişmiş ictimai-siyasi və təsərrüfat-iqtisadi şəraitinə uyğun olaraq dövlət həm öyrədənlərin və öyrənənlərin tərkibi, həm də bu məktəblərdə keçilən dərslərin planları və fənlər baxımından ali məktəblər qarşısında özünün xüsusi tələblərini qoyur. Ona görə də Xalq Maarif Komissarlığı universitetin nizamnaməsini Xalq Maarif Komissarlığına universitetə rəhbərlik etmək və dövlətin ali məktəblər qarşısında qoyduğu tədbirləri onun vasitəsilə həyata keçirmək imkanı verən "yeni tələblər ruhunda" işləyib dəyişdirməyi zəruri sayır [14, v.41-44].

Bakı Dövlət Universitetinin həyatında başlanmış "yeniliklər" tezliklə onun rəhbər strukturlarında da özünü göstərdi. Bakı Dövlət Universitetinin yaradılmasında misilsiz xidmətləri olmuş, 8 sentyabr 1919-cu ildə rektor seçilmiş Vasili İvanoviç Razumovski Azərbaycanda aprel çevrilişindən az sonra, 1920-ci il mayın 26-da rektor vəzifəsindən uzaqlaşdırıldı. O, əvvəlcə tibb fakültəsinin operativ cərrahiyyə kafedrasının direktoru (1920-ci ilin oktyabrınadək) işlədi. 1920-ci ilin payızında isə V.İ.Razumovski sərt təzyiqlər qarşısında dözməyərək həmişəlik Saratova köçərək orada yerli universitetin ümumi cərrahiyyə kafedrasına rəhbərlik etməyə başladı [18, s.20].

Nəticə. Beləliklə, aparılan araşdırmalar göstərir ki, 1920-ci il aprel işğalı Azərbaycanın təkcə siyasi həyatında deyil, həmçinin, onun elm və təhsil sahəsində də köklü dəyişikliklərə gətirib çıxardı. Azərbaycan Müvəqqəti İnqilab Komitəsi və Xalq Maarif Komissarlığının qəbul etdiyi müvafiq qərarlar ilə Bakı Dövlət Universiteti yeni siyasi sistemə uyğunlaşdırıldı. Universitetdə təlim-tərbiyə və elmi fəaliyyətin əsas istiqamətləri sinfilik və partiyalılıq prinsiplərinə əsaslanaraq yenidən qurulmağa başladı. Sovet hakimiyyətinin ilk illərində bütün mədəni-maarif işlərinə rəhbərlik etmək səlahiyyətini Azərbaycan SSR Xalq Maarif Komissarlığı öz əlində cəmləşdirdi. Yeni qurulmuş cəmiyyətin mənəvi həyatının əsas sahələri – təhsil, elm, ədəbiyyat, incəsənət faktiki olaraq partiya, dövlət rəhbərliyinin nəzarəti altına alındı.

ƏDƏBİYYAT

Azərbaycan dilində:
1. Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı: Bakı Universiteti nəşriyyatı, 1991, 528 s. +54 s şəkil.
2. Sovet Sosialist Respublikaları Sovetlərinin qurultayları. Sənədlər Məcmuəsi. M., Elm, 1960, 234s.
3. S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin tarixindən // Azərbaycan Arxivi, 1971 (9), s.73-114.

Rus dilində:
4. Выписка из протокола № 52 заседания коллеги Наркомпроса Аз.ССР о предоставлении Бакгосуниверситету учебных приборов. 8 ноября 1920 г. – ARDA, f.57, siy.1, sax.vah.23, v.630.
5. В Азерревком. - ARDA, f.57, siy.1, sax.vah.144, v.5.
6. В Совнарком. Протокол №27. - ARDA, f.57, siy.1, sax.vah.177, v.179.
7. Декрет Азревкома о Аз-ской ССР о введении нового правописания. 30.07.1920 г. – ARDA, f. 410, siy. 1, sax. vah. 3, v. 23.
8. Декрет Азревкома №15. – ARDA, f. 410, siy. 1, sax. vah. 3, v. 24; О причислении профессоров и преподователей Бакгосуниверситета к разряду незаменимых квалифицированных работников. 7 июля 1920 г. – Коммунист, 8 июля 1920 г., № 55.
9. Декрет Наркомпросс №7.- ARDA, f. 410, siy. 1, sax. vah. 3, v. 8.
10. Декрет Азревкома № 16. – ARDA, f. 410, siy. 1, sax. vah. 3, v. 25.
11. Из протокола заседания Совнаркома Аз-ской ССР о приобретании за границей книг... 23 июня 1921 г. – ARDA, f. 411, siy. 1, sax. vah. 11, v. 1.
12. Местным Ревкомом. 15.05.1920. – ARDA, f. 57, siy. 1, sax. vah. 9, v. 15-15a.
13. Обращение культурно-просветительного отдела АСПС к рабочим г. Баку и его районов об открытии рабочего факультета при Университете. – Коммунист, 19 ноября 1920 г.
14. Отчет Наркомпроса Аз-ской ССР в Совнарком Аз-ской ССР о работе Азгосуниверситета. – ARDA, f. 411, siy. 4, sax. vah. 274, v. 41-44.
15. Постановление Комиссара Народного Просвещения Аз. ССР, № 9. – ARDA, f. 410, siy. 1, sax. vah. 3, v. 10.
16. Предписание народного комиссара просвещения Д.Х.Буниатзаде ректору Бакгосуниверситета Разумовскому В.И. о проведении мероприятый по упорядочению работы университета. 11 мая 1920 г. – ARDA, f. 410, siy. 1, sax. vah. 175, v. 162.
17. Письмо народного комиссара просвещения Д.Х.Буниатзаде в Азревком о необходимости скорейшего опубликования декретов о материальном обеспечении студентов и преподователей Бакгосуниверситета. – ARDA, f. 57, siy., sax. vah. 144, v. 21-22.

18. Разумовский В.И. Основание Университета в гор. Баку. – Азербайджанский Государственный Университет. Стати профессоров В.И.Разумовского и С.Н.Давиденкого. Баку: Гостипография Азполиграфтреста, 1922, 120 с.
19. Резолюции и постановления сьездов Советов Аз.-ской ССР (1921-1937 гг. Баку, Наука, 1961, 326 с.
20. Уездному Ревкому, №12. – ARDA, f. 410, siy.1, sax.vah. 9, v.13.
21. Устава Бакинскаго Государственнаго Университета. – ARDA, f.1640, siy.1, sax.vah.19, v.1.

САМИР ИСМАИЛОВ
Доцент кафедры Источниковедение, историография и методологии Бакинского Государственного Университета

РЕШЕНИЯ ВРЕМЕННОГО РЕВОЛЮЦИОННОГО КОМИТЕТА АЗЕРБАЙДЖАНА И НАРОДНОГО КОМИССАРИАТА ПРОСВЕЩЕНИЯ О БАКИНСКОМ ГОСУДАРСТВЕННОМ УНИВЕРСИТЕТЕ (1920-1923 гг.)

В статье рассматриваются соответствующие решения, принятые Временным революционным комитетом Азербайджана и Народным комиссариатом просвещения относительно Бакинского государственного университета после оккупации в апреле 1920 года и приспособления здания университета Азербайджана к новому политическому строю. Известно, что после провозглашения независимости Азербайджана 28 мая 1918 года республиканские деятели своевременно оценивали будущее страны, национальные интересы, выход в мир и придавали большое значение строительству университетов как одному из главных решений другого. судьбоносный вопрос. Благодаря этим мерам дети нашего народа имеют возможность получить современное университетское образование. Азербайджанская Демократическая Республика подписала еще один принцип, в Азербайджане заложены основы университетского образования. Однако после оккупации Азербайджанской Республики большевистской Россией 27 апреля 1920 года в будущем Бакинского государственного университета, как и во всех областях, стали четко реализовываться требования новой политической системы. Все это анализируется в статье на основе архивных документов и исторической литературы того времени.

Ключевые слова: Бакинский Государственный Университет, Азербайджанский Временный Революционный Комитет, Народного Комиссариата Просвещения.

SAMIR ISMAYILOV
Associate Professor of Department of Source Studies, Historiography and Methodology, Baku State University

DECISIONS OF THE AZERBAIJAN PROVISIONAL REVOLUTIONARY COMMITTEE AND THE PEOPLE'S COMMISSARIAT OF EDUCATION REGARDING BAKU STATE UNIVERSITY (1920-1923)

The article examines the relevant decisions made by the Azerbaijan Provisional Revolutionary Committee and the People's Commissariat of Education regarding Baku State University after the occupation in April 1920 and the adaptation of Azerbaijan's university building to the new political system. It is known that after the declaration of Azerbaijan's independence on May 28, 1918, the Republican figures assessed the country's future, national interests, access to the world in time and attached great importance to the construction of universities as one of the main solutions to another fateful issue. Thanks to these measures, the children of our people have the opportunity to receive a modern university education. The Azerbaijan Democratic Republic has signed another principle, the foundation of university education has been laid in Azerbaijan. However, after the occupation of the

Republic of Azerbaijan by Bolshevik Russia on April 27, 1920, the requirements of the new political system began to be clearly implemented in the future of Baku State University, as in all areas. All this is analyzed in the article on the basis of archival documents and historical literature of the time.

Keywords: Baku State University, university, soviets, Azerbaijan Provisional Revolutionary Committee, People's Commissariat of Education.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 yanvar 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Sevinc Qasımova, t.e.d. Anar İsgəndərov.

UOT 32:93/94

KƏMALƏ RUİNTƏN
s.e.f.d, Bakı Slavyan Universitetinin dosenti
k.ruintan@rambler.ru

AZƏRBAYCAN-İSRAİL ƏMƏKDAŞLIĞINI ŞƏRTLƏNDİRƏN AMİLLƏR. MÜDAFİƏ SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdiyi vaxtdan İsrail dövləti ilə arasında münasibət və əməkdaşlıq qurulub. Sonrakı illərdə bu əməkdaşlıq strateji tərəfdaşlıq xarakteri daşımağa başlayıb. İki ölkə arasında münasibətlər bir sıra amillərlə şərtlənir. İki ölkə arasında ən sıx əməkdaşlıq Azərbaycan və İsrail dövlətlərinin əsas ehtiyaclarının təmin olunmasına yönəlmiş müdafiə, enerji və təhlükəsizlik sahələrini əhatə edir. Bu əməkdaşlıq Azərbaycanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində Azərbaycanın uğur qazanmasında əhəmiyyətli rol oynayıb. Göstərilənləri nəzərə alaraq, məqalədə Azərbaycan-İsrail əməkdaşlığını şərtləndirən amillər və ölkələr arasında hərbi-müdafiə sahəsində əməkdaşlıq nəzərdən keçirilir.

Açar sözlər: Azərbaycan, İsrail, İkinci Qarabağ Müharibəsi, hərbi əməkdaşlıq.

Giriş. Müstəqilliyinin ilk dövrlərindən Azərbaycan özünü xarici təhdidlərdən qorumaq və Ermənistanın öz güclü himayədarlarının köməyi ilə işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək üçün dövlətin müdafiə qabiliyyətini möhkəmləndirməyi və hərbi gücünü artırmağı ölkənin xarici siyasəti və təhlükəsizliyi qarşısında məqsəd olaraq qoymuşdu. Müstəqilliyinin ilk illərindən Azərbaycanın öz daxili və xarici siyasətini, o cümlədən dövlətlərlə münasibətlərini iki mühüm amilin təsiri ilə formalaşdırmışdır. Bu amillərin birincisi - Dağlıq Qarabağın və ətrafındakı 7 rayonun Ermənistan tərəfindən işğalı; ikincisi - Azərbaycanın karbohidrogen ehtiyatları ilə zəngin olması və kommunikasiya yollarının üzərində yerləşməsidir. Azərbaycanın hərbi gücünü artırmaq üçün əsas vəsait məhz təbii karbohidrogen ehtiyatlarından gələn gəlir olmuşdur.

Baxmayaraq ki, Azərbaycan 30 ilə yaxın bir müddətdə işğal altında olan əraziləri dinc yolla azad etməyə çalışmışdır, nəticədə bu yolun səmərəsizliyi ölkəni problemi güc yolu ilə həll etməyə vadar etmişdi.

Azərbaycanın-İsrail əməkdaşlığını şərtləndirən amillər. Müstəqilliyin ilk illərində Azərbaycanın təhlükəsizliyinin qarantı kimi çıxış edən və sonradan Azərbaycan enerji daşıyıcılarının dünyaya çıxış nöqtəsi rolunu oynayan Türkiyə Cümhuriyyəti olmuşdur. Lakin həmin illərdə Türkiyənin Azərbaycanı iqtisadi cəhətdən dəstəkləmək imkanları nisbətən məhdud idi və hərbi texnologiyası növbəti illərlə müqayisədə yetərincə inkişaf etməmişdi. Buna baxmayaraq, Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əməkdaşlıq regionda sülh və təhlükəsizliyin təminatı baxımından mühüm əhəmiyyət kəsb edirdi. Eyni zamanda, Türkiyə-Azərbaycan əməkdaşlığı NATO-nun hərbi-siyasi məqsədləri üçün böyük əhəmiyyətə malik idi. Türkiyə NATO-Azərbaycan əməkdaşlığını stimullaşdıran əsas amillərdən hesab edilirdi. Azərbaycan və Türkiyə arasında hərbi sahədə əməkdaşlıq iki ölkə arasında hərbi təhsil sahəsində əməkdaşlıqla başlayıb. Ölkələr arasında hərbi təhsil sahəsində əməkdaşlıq 11 avqust 1992-ci ildə imzalanmış "Hərbi təhsil sahəsində əməkdaşlıq haqqında" müqavilə və 10 iyun 1996-cı ildə imzalanmış "Hərbi sahədə təhsil, texniki və elmi əməkdaşlıq razılaşması" çərçivəsində həyata keçirilir (2).

Göstərilən illərdə Türkiyənin hərbi sahədə Azərbaycanı lazımi səviyyədə dəstəkləyə bilməməsi Azərbaycanın digər ölkələrlə (bir sıra digər sahələrlə yanaşı) hərbi sahədə əlaqələr qurmasına səbəb oldu. İsrail dövləti ilə əməkdaşlıq bu problemin ən mühüm həlli yollarından birinə çevrildi (11). Azərbaycanın İsrail ilə hərbi sahədə sıx əlaqələr qurmasının səbəblərindən biri də Rusiyanın özünün yardım etdiyi Ermənistana qarşı Azərbaycanı müasir silah sistemləri ilə təchiz etməməsi və erməni lobbisinin təzyiqi ilə qabaqcıl silah texnologiyasına malik Qərb dövlətlərinin Azərbaycana silah satışı ilə bağlı açıq və gizli embarqo tətbiq etməsi oldu (11).

Azərbaycanla münasibətlərin İsrail üçün əhəmiyyəti, əməkdaşlığın əsas istiqamətləri. İsrail dövləti Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb. İki ölkə arasında diplomatik əla-

qələr 7 aprel 1992-ci ildə qurulub. 29 avqust 1993-cü ildən Bakıda İsrail səfirliyi açılıb. Azərbaycan dövləti isə bir sıra səbəblərdən İsrail dövlətində öz səfirliyini açmayıb. Əsas səbəblərdən biri BMT çərçivəsində Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamələr qəbul edilərkən Azərbaycanın ərəb-müsəlman blokunun dəstəyini itirməkdən çəkinməsi göstərilir (16; 17).

İsrail dövləti üçün Azərbaycanla münasibətləri əsasən iki amildən əhəmiyyətlidir. Əvvəla, Azərbaycan ərəb ölkələri tərəfindən baykot edilmiş İsrail üçün neft idxalının əsas mənbəyinə çevrilib. Bu gün Azərbaycan nefti İsrailin istehlakının təxminən 40 faizini təşkil edir. Digər tərəfdən, Azərbaycanın İranla həmsərhəd olması İsrail üçün strateji əhəmiyyət kəsb edir. Bu coğrafi yaxınlıq İran əleyhinə kəşfiyyat məlumatları toplamaq və ehtiyac yaranarsa hərbi əməliyyatlar keçirmək məqsədilə Azərbaycanı İsrail dövləti üçün cəlbedici müttəfiqə çevirib (17; 19).

Azərbaycan-İsrail əməkdaşlığı informasiya texnologiyaları, təhlükəsizlik, müdafiə, kənd təsərrüfatı, su ehtiyatlarının idarəçiliyi, əczaçılıq sahələrində inkişaf edib. İki ölkə terrorizm, nüvə silahının yayılması, kibertəhlükəsizlik, radikal islamçılıq ideologiyasının yayılması kimi ümumi təhdidlərə qarşı, həmçinin regional təhlükəsizliyi təmin edilməsində də əməkdaşlıq edirlər.

Müdafiə sahəsində əməkdaşlıq. Azərbaycan dövlətinin xarici siyasəti və təhlükəsizliyi qarşısında duran ən əsas məsələ olan Ermənistan işğalı altındakı əraziləri azad etmək məqsədilə öz hərbi potensialını inkişaf etdirmək, ölkənin müdafiə qabiliyyətini möhkəmləndirmək idi. Bu da Azərbaycanın İsrail dövləti ilə əməkdaşlığını şərtləndirirən amillərdəndir. Müdafiə məqsədilə Azərbaycan-İsrail əməkdaşlığı müstəqilliyin ilk illərindən başlandığı və birinci Qarabağ müharibəsi dövründə İsrailin Azərbaycana müxtəlif silah və raket sistemləri göndərdiyi iddia edilir (12, 2).

Rəsmi məlumatlara əsasən isə Azərbaycan və İsrail dövlətləri enerji və müdafiə sənayesi sahəsində əməkdaşlığı 1997-ci ildən başlayıb və həmin dövrdən ölkələr arasında ikitərəfli münasibətlər strateji səviyyəyə qaldırılıb (5). 2009-cu ildə iki ölkə arasında Azərbaycanda pilotsuz uçuş aparatları istehsal edən zavodun yaradılması barədə müqavilə imzalanıb (5), İsrailin Azərbaycan Silahlı Qüvvələri üçün hazırladığı "Namer" zirehli döyüş maşınlarının birgə istehsalı ilə bağlı danışıqlar aparılıb. 2012-ci ildə İsrailin Aerospace Industries (IAI) şirkətinin Azərbaycana 1,6 milyard dollar dəyərində pilotsuz uçuş aparatları, hava hücumundan müdafiə və raketdən müdafiə sistemlərindən ibarət silah sistemləri və avadanlıqları ixrac edəcəyi nəzərdə tutulurdu (5). Razılaşmaya uyğun olaraq, Azərbaycan İsrail dövlətindən "Arrow" raketdən müdafiə sistemi və bu sistemin tərkib hissəsi olan "Green Pine" radar kompleksi alıb. "Arrow" raketdən müdafiə sisteminin dünyada "yer-yer" tipli istənilən raketləri zərərsizləşdirə bilən yeganə sistem olduğu bildirilir. Sistemin tərkibinə daxil olan radar kompleksi yer-yer tipli raketləri onların start nöqtəsindən qeydə alır, onu izləməklə yanaşı Arrow raketlərini hədəfə buraxır. Raketlər hədəfi ən yüksək məsafədə yüz faiz dəqiqliklə zərərsizləşdirir. Green Pine radarı isə ballistik raketləri bütün yolboyu izləyir. O, eyni vaxtda çox sayda raketi izləyərək onların uçuş trayektoriyası barədə idarəetmə mərkəzinə xəbərdarlıq göndərmək qabiliyyətinə və məlumatları Arrow sisteminə ötürmək imkanına malikdir. Ballistik raketlər ölkəyə doğru yönələrsə radar avtomatik olaraq hər raketin təhlükəlilik dərəcəsinin çoxfunksiyalı qiymətləndirilməsini aparır və özü raketləri hansı ardıcıllıqla vuracağını hesablayır. 2010-cu ildə hazırlanmış bu sistem bütün sınaqları keçərək İsrail ordusuna daxil edilib. Azərbaycan İsraildən sonra bu raketdən müdafiə sisteminə malik olan ikinci ölkədir (10).

2016-cı il aprel döyüşləri zamanı Azərbaycan torpaqlarının bir hissəsini erməni işğalından azad edərkən də İsrail istehsalı olan dronlardan istifadə etmişdi. Məhz həmin il iki ölkə arasında 5 milyard dollar dəyərində müqavilə imzalandığı və Azərbaycanın həmin dövrədək İsraildən 4 milyard 850 milyon dollar civarında hərbi texnika aldığı açıqlandı (20). 2016-cı il aprel döyüşlərindən sonra Rusiyanın öz hərbi müttəfiqi Ermənistana "9K720 İsgəndər" raket kompleksini bağışlaması haqda məlumat yayıldı. Buna cavab olaraq Azərbaycan İsraildən bir çox silahlarla bərabər "İsgəndər" raketlərini havada məhv etmək qabiliyyətinə malik, ondan daha dəqiq və güclü olan İsrail Aerokosmik Sənayesi şirkətinin istehsalı olan LORA (LOng-Range Artillery Missile) əməliyyat-taktiki raket kompleksi aldı (12). Öz göstəricilərinə görə LORA-nın ABŞ-ın ATACMS operativ-taktiki raketlərinə və Rusiyanın "İsgəndər-E" operativ-taktiki raketlərinə yaxın olduğu, yaxud onlarla eyni sinif raketlərdən olduğu bilidirilir (9). LORA düşmənin infrastruktur obyektlərini, hərbi bazalarını, komanda

məntəqələrini, idarəetmə sistemlərini, raketdən müdafiə sistemlərini, elektrik stansiyalarını və s. məhv etmək üçün nəzərdə tutulub. LORA maksimim 300-400 kilometr (döyüş başlığından asılı olaraq dəyişə bilir), minimum 30 kilometr mənzilə sahibdir. Atışdan hədəfədək uçuş vaxtının 10 dəqiqədən az olduğu bildirilir (1)**.** Bu silah Aralıq dənizində uğurla sınaqdan keçirilsə də, 44 günlük müharibəyədək heç bir döyüşdə istifadə edilmədiyi deyilir. Müharibənin əvvəllərində Laçın rayonunun Aşağı Sus kəndinə yaxın ərazidə Həkəri çayı üzərindəki körpünün LORA ilə vurularaq dağıdılması videolarının yayılmasından dərhal sonra ABŞ-ın The Drive informasiya agentliyi bildirdi ki, göstərilənlər doğrudursa, bu, LORA-nın müharibədə ilk istifadəsi deməkdir (21). İsrailin LORA raketləri satdığı ilk ölkə də Azərbaycandır (9; 23).

Stokholm Sülh Araşdırmaları İnstitutunun (SIRPI) məlumatlarına əsasən İsrail 2017-2018-ci illər ərzində Azərbaycana 50-ə yaxın LORA raketi satıb (21; 12). Daha əvvəl Azərbaycan İsraildən 150 km mənzilli Extra operativ-taktiki raketləri almışdı və onların bir hissəsi Naxçıvanda yerləşdirilmişdi. Həmin raketlər oradan Ermənistanın paytaxtını vurmaq imkanına malikdir. Nəticədə, Azərbaycanın regionda Rusiyadan və İrandan sonra ən güclü raket potensialına malik ölkəyə çevrildiyi deyilir (9). 2019-cu ilin əvvəllərində İsrailin Elbit Systems şirkətinin Azərbaycana uzaq məsafəyə və dəqiq taktiki zərbə endirmək qabiliyyətinə malik ən müasir pilotsuz uçuş kamikaze-aparatı Sky Striker satdığı məlum oldu. Beləliklə, Azərbaycan İsraildən sonra ən müasir pilotsuz uçuş aparatına sahib olan ilk və yeganə ölkə oldu (20).

Azərbaycanın "İsgəndər" tipli raketlərdən özünü müdafiə məqsədilə İsraildən aldığı daha bir qurğu "Dəmir Günbəz"dir (Iron Dome). Rafael Advanced Systems şirkətinin istehsal etdiyi bu raketin təyinatı 4 kilometrdən 70 kilometrədək məsafədə kiçik mənzilli raketləri və artilleriya mərmilərini zərərsizləşdirməkdir. Bir "Dəmir günbəz" batareyası 150 kvadratkilometr ərazinin müdafiəsini təmin edir. Şirkətin məlumatına əsasən, "Dəmir günbəz"in hədəfi vurma dəqiqliyi 90 faizdir (4).

2009-cu ildən başlayan bu əməkdaşlıq nəticəsində 2019-cu il üçün Azərbaycan İsrail hərbi sənayesinin sifarişçiləri arasında Hindistandan sonra ikinci yeri tutdu. Sifarişin həcmi İsrail dövlətinin ixrac etdiyi avadanlığın 17%-ini təşkil edirdi (18). "The Jerusalem Post" qəzetinin Stokholmdakı Sülh və Müharibə Araşdırmaları İnstitutunun (SIRRI) hesabatına istinadən verdiyi məlumata əsasən Azərbaycanın 2016-cı ildən sonrakı beş ildə silah idxalının 69 %-i İsrailin payına düşmüşdür (7).

İkinci Qarabağ müharibəsi dövründə Azərbaycan dövlətinin hərbi gücü qarşısında Ermənistanın məqlub olduğunu görən İsraildə yaşayan ermənilər Azərbaycan ordusunun İsrail silahlarından istifadə etdiyini əsas gətirərək nümayişlər keçirib İsrail dövlətindən Azərbaycana silah tədarükünün dayandırılmasını tələb etdilər. İsrailli fəal Eli Josef 11 oktyabr 2020-ci ildə İsrailin Ali Məhkəməsinə müraciət edərək Azərbaycana İsrail silahlarının tədarükünün dayandırılmasını tələb etdi. Sübut kimi Azərbaycana silahların 60%-nin İsraildən gəldiyinə və müharibənin başlanmasına bir neçə gün qalmış Azərbaycana təyyarə ilə silahlar gətirildiyinə dair materiallar təqdim edilmişdi (22). Lakin həmin ayın 12-də İsrail Ali Məhkəməsinin hakimi Yosef Elron təqdim olunan materialları sübut kimi qəbul etməyib və bunun, ən yaxşı halda İsrail silahlarının həqiqətən də Azərbaycana satıldığını sübut etdiyini və onlardan yalnız müdafiə məqsədləri üçün istifadə oluna biləcəyini bildirmişdi (22; 23).

İkinci Qarabağ müharibəsinin nəticələri Azərbaycanla İsrail arasında sıx və möhkəm hərbi-texniki və strateji tərəfdaşlığın olduğunu bir daha təsdiqlədi.

Stokholm Beynəlxalq Sülh Problemləri Tədqiqatları İnstitutunun (SİPRİ) 2017-2021-ci illər üçün dərc etdiyi qlobal silah ticarətinin vəziyyəti haqqında hesabatına əsasən, Azərbaycan göstərilən illərdə silah idxalına görə dünyada 37-ci yeri tutub. Araşdırmaya əsasən, həmin dövrdə Azərbaycanın əsas silah təchizatçıları İsrail (61%), Rusiya (22%) və Belarus olmuşdur (6,6%) (3).

Azərbaycanın İsraildən AIL Storm ("Sufa") nəqliyyat vasitəsi, 160 mm-lik Lynx LAR və Lynx Extra raket sistemləri, 155 mm-lik Atmos-2000, "Semser" haubitsası, 120 mm-lik "Cardom" minaatanı, İMİ Shipon və "Spayk" tank əleyhinə raketləri, UZİ markalı tapança-pulemyot, Tavor TAR-21 və Tavor MTAR-21 kimi avtomat tüfəngləri, "Harop" silahlarını, "Heron" və "Hermes" tipli pilotsuz uçuş aparatlarını, Barak-8 ZRK raketini, "Sand Cat" və "Samson MLS" döyüş modulu 4×4, 6×6, 8×8 təkər formuluna malik döyüş maşınlarını, T-72SİM1 tankını, hava hücumuna və raket hücumlarına qarşı "Dəmir gümbəz" komplekslərini aldığı bildirilir (3).

Göstərilənlərlə yanaşı, Azərbaycan və İsrail dövlətləri arasında həyata keçirilən silah təminatının həcmi və növləri haqqında tam dəqiq məlumat verilmir.

44 günlük müharibədən sonra işğaldan azad edilmiş Azərbaycan ərazilərində də İsrail dövləti ilə kənd təsərrüfatı sahəsində geniş əməkdaşlıq aparılır (11). 2021-ci ilin iyul ayında Azərbaycan İsraildə Turizm və Ticarət Nümayəndəliklərini açdı. İsrail dövlətinin Prezidenti İsxak Hersoq bu nümayəndəliklərin açılmasının təbii davamı olaraq Azərbaycan Respublikasının İsraildə səfirliyinin də açılacağına ümid etdiyini bildirmişdi (8).

Diaspor amili. Azərbaycana qarşı Ermənistanın və onu himayə edən qüvvələrin beynəlxalq hüququn norma və prinsiplərinə zidd əməllərini dünya ictimaiyyətinə çatdırmaq və öz hüquqlarını qorumaq və tələb etmək istiqamətində Azərbaycanın nail olduğu daha bir önəmli addımı onun yumşaq güc kimi qəbul edilən KİV-ləri və diaspor təşkilatlarını bu proseslərə səfərbər etməyi bacarması olmuşdur.

Azərbaycan İsraillə münasibətlər qurarkən məqsədlərindən biri də ABŞ-da erməni lobbisinə qarşı yəhudi lobbisinin dəstəyinə nail olmaq olmuşdur. İki ölkə xalqları arasındakı əlaqələr dövlətlər arasında ikitərəfli əməkdaşlığın mühüm hissəsini təşkil edir, Azərbaycan yəhudiləri ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır və Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına böyük töhfə verirlər (6). Qeyd etmək lazımdır ki, 57 müsəlman ölkəsi arasında ən böyük yəhudi icması Azərbaycandadlr (13). Eyni zamanda, İsrail dövlətində əvvəllər Azərbaycan vətəndaşı olmuş yəhudi əsilli insanlardan ibarət Azərbaycan diasporu mövcuddur (6).

Nəticə. Azərbaycanın müstəqilliyinin ilk illərindən dövləti xarici təhdidlərdən qorumaq və Ermənistan işğalı altında olan torpaqları azad etmək məqsədilə qarşısında duran vacib məsələlərdən biri ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi olmuşdur. Keçən dövr ərzində Azərbaycan Türkiyə, İsrail və digər dövlətlərlə hərbi-strateji əməkdaşlıq qurmağa, ordusunda islahatlar apararaq onu müasir standartlara uyğunlaşdırmağa, öz hərbi sənaye kompleksini yaratmağa, hərbi qüvvələrini müasir hərbi avadanlıqlar və silahlarla təchiz etməyə nail oldu.

Azərbaycanın hərbi-müdafiə sahəsində ən sıx əməkdaşlıq etdiyi ölkə İsrail dövlətidir. İsrailin verdiyi hərbi dəstək və inkişaf etmiş hərbi texnologiyalar 30 ilə yaxın işğal altında qalmış Azərbaycan torpaqlarının əksəriyyətinin 44 gün ərzində azad edilməsində və ölkənin müharibədə qələbə qazanmasında mühüm əhəmiyyətə malik olmuşdur. Müharibənin nəticələri və regionda yaranmış yeni geosiyasi reallıqlar Azərbaycan-İsrail münasibətlərinin daha da yaxşılaşması üçün real imkanlar yaradır.

ƏDƏBİYYAT

1. Ağalarlı Ağalar. Azərbaycan İsraildən uzaq mənzilli ballistik raket aldı – LORA, (11 İyun 2018). - URL: https://ordu.az/az/news/134275 [Müraciət tarixi: 01.03.2022].
2. "Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq inkişaf etdirilməlidir" Türkiyənin müdafiə naziri Vecdi Gönülün "Trend"ə müsahibəsi. 525-ci qəzet.- 2011.- 11 mart.
3. Azərbaycan ən çox silahı bu ölkədən alıb (14-03-2022) URL: https://turkustan.az/news.php?id=14361... [Müraciət tarixi: 01.03.2022]
4. Azərbaycanın "Dəmir günbəz" xəbəri Ermənistanda vahimə yaratdı. - URL: https://baku.ws/incident/17670 [Müraciət tarixi: 01.03.2022].
5. Elnur İsmayıl. Azerbaycan-İsrail Stratejik Ortaklığı (05 Ocak 2013). – URL: http://www.bilgesam.org/incele/1101/.../#.XKHnW9Izbs0 [Müraciət tarixi: 01.03.2022].
6. İlham Əliyev: Azərbaycan-İsrail münasibətləri çox geniş, şaxələnmiş münasibətlərdir, bir çox sahələri əhatə edir (13 Dekabr 2016). - URL: https://az.trend.az/azerbaijan/politics/2697581.html [Müraciət tarixi: 01.03.2022].
7. İsrail mediası 44 günlük savaşla bağlı SİRLƏRİ AÇDI: Bu, böyük üstünlük qazandırdı (15 Oktyabr 2021). – URL: https://www.gununsesi.info/... [Müraciət tarixi: 01.03.2022].
8. İsrail prezidenti İlham Əliyevi ölkəsinə dəvət etdi və səfirliyin açılmasını istədi (27.12.2021). - URL: https://sputnik.az/20211227/...437657022.html [Müraciət tarixi: 01.03.2022].

9. İsraildən yeni alınan “LORA” raketləri Azərbaycanda (11 İyun 2018). - URL: https://femida.az/az/news/83096/... [Müraciət tarixi: 01.03.2022].
10. İsrailin Azərbaycana satdığı yenilməz “Arrow” - Ermənistanı neytrallaşdıran raket kompleksinin göstəriciləri (27 Noyabr 2018). - URL: http://femida.az/az/news/95388/ [Müraciət tarixi: 01.03.2022].
11. Prezident İlham Əliyev: "İsrail və Azərbaycan diasporları münasibətlərimizin inkişafına mühüm töhfələr verir" (20 may 2021). - URL: https://apa.az/az/xeber/... 643876 [Müraciət tarixi: 01.03.2022].
12. Verdiyev Ə. LORA taktiki raketinin real döyüşdə ilk istifadəçisi Azərbaycan oldu... (12 May 2021). – URL: https://www.moderator.az/cemiyyet/377017/... [Müraciət tarixi: 01.03.2022].
13. Səfir: “İsrail-Azərbaycan münasibətləri çox sınaqlardan keçib” (02 dekabr 2021). - URL: https://apa.az/az/xarici-siyaset/sefir-israil-azerbaycan-munasibetleri-cox-sinaqlardan-kecib-673865 [Müraciət tarixi: 01.03.2022].
14. Esma Özdaşlı. Azerbaycan-İsrail: Dar ama derin bir ilişki (13 Eylül 2021). - URL: https://fikirturu.com/jeo-strateji/azerbaycan-israil-dar-ama-derin-bir-iliski/ [Müraciət tarixi: 01.03.2022].
15. Çalışkan Burak. “İsrail’in Güney Kafkasya Stratejisi”, Araştırma 88, İNSAMER, Aralık 2018, 9s. – URL: https://docplayer.biz.tr/113800906...html [Müraciət tarixi: 01.03.2022].
16. Brenda Shaffer. Israel’s role in the Second Armenia-Azerbaijan War (December 3, 2021) | The Karabakh Gambit: Responsibility for the Future. Central Asia-Caucasus Institute & Silk Road Studies Program Joint Center. – URL:https://www.fdd.org/analysis/2021/12/07/israels-role-armenia-azerbaijan-war/ [Müraciət tarixi: 01.03.2022].
17. Potential Gains for Israel After Azerbaijan’s Victory in Nagorno-Karabakh / by Daniel Edelstein (March 10, 2021) https://www.justsecurity.org/75135/... [Müraciət tarixi: 01.03.2022].
18. Rusif Huseynov. Armenia-Azerbaijan conflict: where does Israel stand? (01-08-2020). – URL: https://top-center.org/en/analytics/3036/... [Müraciət tarixi: 01.03.2022].
19. Why Does Israel Support Azerbaijan in Hostilities with Armenia? (October 25, 2021). By Bill McEwen, News Director https://gvwire.com/2021/10/25/why-does-israel-support-azerbaijan-in-hostilities-with-armenia/ [Müraciət tarixi: 01.03.2022].
20. The Jerusalem Post: «Израиль и Азербайджан укрепляют и расширяют стратегическое партнерство / Газета «Бакинский рабочий», 2019, 25 января.
21. Азербайджан первый в мире применил баллистическую ракету LORA (3 октября 2020). - URL: https://lenta.ru/news/2020/10/03/lora/ [Müraciət tarixi: 01.03.2022].
22. Верховный суд Израиля отказался обсуждать поставки Азербайджану (13.10.2020). - URL: https://jewish.ru/ru/news/articles/194415/ [Müraciət tarixi: 01.03.2022].
23. Минин Дмитрий. Роль Израиля в войне за Нагорный Карабах (14.10.2020). – URL: https://news-front.info/2020/10/14/... [Müraciət tarixi: 01.03.2022].

КЯМАЛЯ РУИНТАН
Доцент Бакинского Славянского Университета,
Доктор философии политическим наукам

ФАКТОРЫ, ОПРЕДЕЛЯЮЩИЕ АЗЕРБАЙДЖАНО-ИЗРАИЛЬСКОЕ СОТРУДНИЧЕСТВО. СОТРУДНИЧЕСТВО В ОБЛАСТИ ОБОРОНЫ

С момента восстановления независимости Азербайджана в 1991 году были установлены широкие отношения и сотрудничество с Государством Израиль. В последующие годы это сотрудничество переросло в стратегическое партнерство. Отношения между двумя странами обусловлены рядом факторов. Самое тесное сотрудничество между двумя странами охватывает сферы обороны, энергетики и безопасности и направлено на удовлетворение основных потребностей Азербайджана и Израиля. Это сотрудничество сыграло важную роль в успехе Азербайджана во Второй карабахской войне 2020 года. С учетом вышеизложенного в статье

рассматриваются факторы, определяющие азербайджано-израильское сотрудничество и сотрудничество в области обороны между странами.

Ключевые слова: Азербайджан, Израиль, Вторая Карабахская война, военное сотрудничество.

KAMALA RUINTAN
Associate professor of Baku Slavic University,
Doctor on Philosophy in Political Science

FACTORS DETERMİNİNG THE AZERBAİJANİ-ISRAELİ COOPERATİON. DEFENSE COOPERATİON

The attitude of many countries to the Azerbaijani-Israeli relations has not been one-sided. However, relations between the two countries are conditioned by a number of factors. The closest cooperation between the two countries covers the areas of defense, energy and security, and is aimed at meeting the basic needs of Azerbaijan and Israel. This cooperation has played an important role in Azerbaijan's success in the 2020 Second Karabakh War. Taking into account the above, the article considers the factors determining the Azerbaijani-Israeli cooperation and military-defense cooperation between the countries.

Keywords: Azerbaijan, Israel, the Second Karabakh War, military cooperation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Musa Qasımlı, t.e.d. Sevinc Yusifzadə.

UOT 32:93/94

NƏRGİZ NAĞIYEVA
Bakı Dövlət Universitetinin
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının
elmlər doktoru proqramı üzrə doktorantı, s.e.ü.f.d., dos.
nargiz_nagiyeva@mail.ru

KOLONİALİZM: ƏNƏNƏ VƏ MÜASİRLİK

Məqalənin əsas məqsədi dünya müstəmləkə sisteminin inkişaf və tənəzzül səbəblərini və dinamikasını təsvir və təsnif etməkdir. Bu gün kolonializm yeni şəkillərdə dünyanın əksər ərazilərində öz mövcudluğunu davam etdirməkdədir. Hazırda bu siyasi hadisə yeni ad altında – postkolonializm şəklində mövcuddur. Kolonializm və postkolonializmin araşdırılmasında əsas məqsəd keçmiş ənənələrdən imtina etmək və müstəmləkəçi dövlətlə müstəmləkə dövlət arasındakı qütbləşməni aşmaqdan ibarətdir. Müstəmləkə siyasətindən imtina etməklə keçmiş imperiyalar işğalçılıq siyasətindən, ideoloji təsirdən, iqtisadi ekspansiyadan da imtina etmiş olur. Məqalənin sonunda isə İmperialist sistemin formalaşmasının müstəmləkəçi meylin təşviq edilməsinin əsas istiqaməti olduğu qənaətinə gəlinir.

Açar sözlər: kolonializm, postkolonilaizm, metropoliya, kapitalizm.

Giriş. Tarixin ən qədim dövrlərindən etibarən mövcud olan, müxtəlif vaxtlarda fərqli şəkillərdə təzahür edən kolonializm fenomeni, XX əsrin ortalarında demək olar ki, əsasən özünün klassik formasında mövcudluğunu dayandırdı. Bu gün elə düşünülə bilər ki, klassik kolonializm artıq geridə qalıb, tarixə qovuşub, onun haqqında danışmaq, araşdırma aparmaq öz aktuallığını itirib. Ənənəvi, klassik kolonializm bu gün demək olar ki, dünyanın heç bir yerində yoxdur. Artıq bütün müstəmləkə dövlətlər, xalqlar zahirən "azadlığa qovuşub", müstəqilləşib. Əslində isə kolonializm adlanan bu nəhəng sistem bütün zamanlarda fərqli formalara düşüb, fərqli şəkillərdə mövcud olub.

Kolonializm üzrə ixtisaslaşmış bir sıra mütəxəssis (məs.: Vijay Mishra və Bob Hodge) öz araşdırmalarında kolonializm termininin etimoloji bazasını təhlil etmiş və göstərmişlər ki, "colony" anlayışının semantikası, tarixi dinamikası, istifadə sahəsi aydınlaşarsa, o zaman "colonializm" anlayışının da hardan gəldiyi məlum olacaqdır. Latın mənşəli "colonia" və "colonus" sözlərindən yaranmış və fransız dilində "colere" kimi işlənən "colere", əkib-biçmək və yerləşmək mənasını, "colonia" və "colonus" isə kəndli mənasını daşıyır. Websterin 1905-ci il lüğətinə görə insanların öz ölkələrindən uzaq ölkəyə, şəhərə yerləşdirilsə də öz ölkələrinin hüququna bağlı qalaraq yaşayan insan cəmiyyətlərinin hər birinə "colony" deyilməkdədir [9, 22].

"Colony" sözünün əsas mənası əkib-becərmək, dözmək, bir yerə yerləşmək və yaşamaq mahiyyətini daşıyır. Bundan başqa, yer üzündə çalışmaq, əkib-becərmək, məcazi mənada isə zehni və ruhu işlədərək tanrılara ibadət etmək anlamını qazanmışdır. Müasir ingilis dilində də bu söz toplu şəkildə yaşamaq, torpağı əkib-becərmək mənasını verməkdədir. "Colonus" col sözcüyündən əmələ gəlmişdir. İlkin mənası kəndli və ya müəyyən bir yerdə yaşayan insan deməkdir. Bundan irəli gələrək müasir dövrdə yad (qürbət) yerdə yaşayan insana "colonist" deyilmişdir. Bu kəlmənin mənası isə göründüyü qədər məsum deyildir, tərkibində işğal mənası daşıyır. Beləliklə, "colony" və ya koloniya sadəcə əkib-becərmək mənasını deyil, həm də işğal edib yerləşmək mənasını ifadə edir. Müasir "colonization" sözü məhz belə bir məna daşıyır. "Coloni" sözünün müstəmləkəçi mənasını daşıması ilə paralel olaraq həm də, müstəmləkəçilik mənasını da daşımaqdadır. "Colonist" yeni və qürbət yerə gedən, "colonialist" isə gedilən yerdə olanlardır [9, 26].

Kolonializm siyasi hadisəsi sanki bəşəriyyətin ictimai-siyasi həyatının ayrılmaz, tərkib hissəsinə çevrilib. Müasir dövrdə demək olar ki, ənənəvi klassik kolonializmin sistemi mövcud deyil. Bu gün daha çox siyasi aləmdə postkolonializm barədə bəhs etmək olar. Təbii ki, postkolonializm bir tarixi, siyasi, mədəni, iqtisadi sistem kimi kolonializmin davamı olsa da öz semantik strukturuna görə ondan ciddi şəkildə fərqlənir.

Kolonializm bu gün mövcud olmasa da, onun bəşəriyyətə vurduğu yaralar hələ də qalır, müasir dövrümüzdə müxtəlif xalqlar, ölkələr bu bəladan əziyyət çəkməkdə davam edir. Sadəcə olaraq bu

gün kolonializm yeni şəkillərdə dünyanın əksər ərazilərində öz mövcudluğunu davam etdirməkdədir. Hazırda bu siyasi hadisə yeni ad altında – postkolonializm şəklində mövcuddur. Təbii ki, tarixin dərslərini unutmaq olmaz: zaman-zaman dünyanın müxtəlif məkanlarında özünü büruzə verən kolonializm siyasətinin yaratdığı fəsadları öyrənməyə, onlardan dərs almağa ehtiyac var. Eyni zamanda da müasir dövrdə, dünya sivilizasiyasının yeni mərhələsində bu ictimai-siyasi hadisənin (fenomenin) mövcud olub-olmaması faktorunu öyrənməli, ona münasibət bildirilməlidir. Postkolonializm hadisəsinin və anlayışının bir siyasi fenomen olaraq beynəlxalq münasibətlər sahəsinə daxil olma tarixi elə də böyük keçmişə malik deyil. Bu siyasi anlayış əsasən keçən əsrin ikinci yarısından, xüsusilə də 90-cı illərin əvvəllərindən etibarən işlənməyə başlanmışdır. XX əsrin sonları - XXI əsrin əvvəllərində dünya siyasi elmində və siyasi həyatında postkolonializm anlayışı daha çox istifadə olunan bir elmi istilah, siyasi anlayış, hətta artıq kifayət qədər sabitləşməkdə və formalaşmaqda olan elmi kateqoriya kimi özünü göstərməyə başlamışdır. Əslində isə, postkolonializm hadisəsi dünya siyasi aləmində bir qədər "qədim" tarixə malikdir. Belə ki, bu siyasi hadisə XIX əsrin sonları - XX əsrin əvvəllərində dünyada klassik formalı və mündəricəli müstəmləkəçilik siyasətinin iflasa uğraması və süqutu tarixi ilə bağlı olmuşdur. Doğrudur, postkolonializmin nəzəri prinsipləri və elmi kateqoriyaları bir qədər gec, XX əsrin 70-ci illərindən etibarən Qərb dünyasının bir sıra görkəmli siyasət nəzəriyyəçisi (politoloqu), filosofu, sosioloqu, siyasət tarixçisi, hətta filoloqu bu siyasi hadisənin yaranma səbəbləri, mövcudluq dərəcəsi, ideoloji əsasları sahələrində araşdırmalar aparmağa başlamışdır [4; 13; 14].

Postkolonializm siyasi hadisəsinin elmi cəhətdən işlənməsi, gündəmə gətirilməsi əsas etibarilə postmodernist mütəfəkkirlərin - filosofların, siyasətçilərin, filoloqların fəaliyyəti sayəsində baş vermişdir. Bu sahədə əhəmiyyətli araşdırmalar aparan, qiymətli elmi-nəzəri əsərlər yazan postmodernist mütəfəkkirlər sırasına Arnold C.Toynbi, Frans Fenon, Mişel Fuko, Edvard Səid, Samuel Handiqton, Qayati Çakraborti Spivak, Homi K.Bhabha, Paul Gibroy, S.Rüşdi və s. tədqiqçılar daxildir. Buradan belə bir qənaətə də gəlmək olar ki, postkolonializm bir siyasi sistem olaraq əsas etibarilə postmodernist tendensiyanın təzahür formasıdır.

Postkolonializm hadisəsinin dərindən mənimsəmək üçün ilk növbədə kolonializm anlayışını araşdırmaq və onun postkolonializmlə qarşılıqlı əlaqələri, onunla uyğunluqları və fərqli xüsusiyyətlərinin müəyyən edilməsinə ehtiyac var. Koloniazlizm bir siyasi fenomen kimi qədim tarixə malikdir. Bu, əsasən siyasi və iqtisadi hadisə lap qədim dövrlərdə də dünyanın müxtəlif ərazilərində mövcud olmuş, zaman və məkana görə öz forma və məzmununu dəyişə-dəyişə bu günə qədər mövcudluğunu davam etdirməkdədir. Qədim Şərqdə, antik dövr, orta əsrlər və intibah dövrlərində Avropada kolonializm müəyyən mənada bəsit (primitiv) səciyyə daşımış, yalnız XVII əsrin əvvəllərindən etibarən, demək olar ki, Qərb dünyasının rəsmi siyasəti şəklinə düşmüşdür.

Tarixən əhalisi həddindən artıq çox olan şəhərlər, onun bir hissəsini kənara, adətən adalara və dənizin o tayına köçürərək, burada onlar üçün müstəmləkə yaradırdı və bir müddət onu himayə edirdi. Bu şəhər-dövlətlər metropoliya adlanırdı. Metropoliya (yunanca paytaxt) onun müstəmləkələri, sərhədləri xaricindəki yaşayış məntəqələri, istismar olunan ərazilər, müstəqil ölkələrlə bağlı dövlətdir [3]. Müstəmləkəçiliyin ilk yarandığı dövr quldarlıq quruluşuna (e.ə. 250-ci ildən b.e.480-ci ilinədək) təsadüf edir. Misirlilər, finikiyalılar, yunanlar, romalılar metropoldan uzaq ərazilərdə kənd təsərrüfatı və ya ticarətlə məşğul olmaq məqsədi ilə məskunlaşırdılar. Halbuki bu cür koloniyalar metropoldan izolyasiya olunmuş halda əsrlərlə mövcud ola bilirdilər. Bəzən "bala" şəhər "ana" şəhərdən daha güclü olurdu. Məsələn finikiyalıların yaratdığı Karfagen tezliklə "anası" Tir əhalisinin sayına, siyasi qüdrətinə və iqtisadi inkişafına görə xeyli geridə qoymuşdu. Müstəmləkəçiliyin mövcudluğuna dənizçiliyin inkişafı yeni həyat verdi. Bu zaman italyan şəhər-dövlət olan Genua və Venesiya xüsusilə seçildilər. Onların hər ikisi nüfuz dairəsi uğrunda mübarizə aparırdılar. Yeni coğrafi kəşflərin ardından və kapitalist cəmiyyətinin yaranmasından sonra isə müstəmləkərin mövcudluğunda yeni mərhələ başlayır. Avropalılar Amerikanı kəşf etdikdən dərhal sonra oralarda yerləşməyə başladılar, yerli dövlət və xalqları özlərinə tabe edərək qızıl və digər qiymətli tapıntıları Avropaya daşıdılar.

Amerika qitəsinin kəşfi ilə İspaniya və Portuqaliya müstəmləkəçi dövlətlərə çevrilmiş, bu ölkələrin ardınca İngiltərə, Fransa, Hollandiya, Belçika və Almaniya da bu siyasi prosesə qoşulmuş, ölkələrinin müstəmləkəçilik (kolonialist) siyasətini genişləndirmişlər. Beləliklə, demək olar ki, əksər

imperialist Avropa ölkələri kolonializm siyasətinin iştirakçısı və daşıyıcısına çevrildi. Fransız geosiyasətçisi İv Lakost öz məqaləsində yazır: "Kolonialaşma istisnasız olaraq geopolotik (geosiyasi) fenomendir, belə ki, o, faktiki olaraq bütün qitələrdə (Arktika istisna olmaqla): bütün Afrikada və Amerikada, Asiyanın böyük hissəsində mövcud olmuşdur. Koloniyalaşmaya məruz qalmayan dövlətlər də, öz növbəsində kolonial məsələnin diqqət mərkəzində yerləşir, ona görə ki, onların da az qala əksəriyyəti bizim dövrümüzdə Qafqaz xalqlarına və Sibirə nəzarət edən Rusiya, istərsə də Qərbi Avropa olsun kolonial işğalçılıq etmişlər" [1, 4].

Məlum olduğu kimi, Avropanın müəyyən hissəsinə, Orta Asiyanın və Şimali Amerikanın bəzi ərazilərinə nəzarət edən Osmanlı imperiyası XIX əsrin II yarısında get-gedə zəifləməyə və öz koloniyalarını itirməyə başladı. Ona məxsus kolonial olan ərazilər yeni yaranmaqda olan İngiltərə, Avstriya-Macarıstan imperatorluqları arasında bölüşdürüldü.

I Pyotrun hakimiyyəti dövründən başlayaraq rus çarizmi də geniş kolonialist siyasət yürütməyə başladı. XVII əsrdə Rusiya Sakit okean sahillərindən Baykala qədər əraziləri tutmuş, eyni zamanda cənuba, Qafqaza doğru irəliləyirdi.

Həm Amerikanın (Cənubi və Şimali), həm də Orta və Yaxın Asiya, Uzaq Şərq, Afrika ölkələrinin əksəriyyəti imperialist Qərbi Avropanın koloniyalarına çevrildi. Demək olar ki, XVII əsrdən XX əsrin əvvəllərinə qədər olan dövr kolonializmin çiçəklənmə dövrü olmuşdur.

XVI əsrin sonu XVII əsrin əvvəllərində böyük müstəmləkəçi dövlətlərdən biri də Hollandiya meydana gəldi. XVII əsrin ortalarında öz gücünün ən pik nöqtəsinə çatan Hollandiya portuqal müstəmləkələrinə sahib oldu. Hollandiyanın müstəmləkə hegemonluğuna İngiltərə XVII əsrdə İngiltərə-Hollandiya müharibəsi nəticəsində son qoydu. XVII əsrin sonu XVIII əsrin əvvəllərində müstəmləkə işğalçılığına başlayan dövlətlərdən biri də Fransa oldu. Fransa Napoleon Bonapartın dövründə öz müstəmləklərinin sayını maksimum səviyyəyə yüksəltdi. Kanadanın bir hissəsinin, Misirin, Əlcəzairin işğalı dünya kolonial siyasətinin yeni mərhələsini yaratdı.

Kapitalizm dövrünün başlanması ilə Böyük Britaniya da nəhəng müstəmləkə dövlətinə çevrilir. XVIII-XIX əsrlərdə uzun mübarizələrdən sonra Fransanı məğlub edərək Böyük Britaniya onun müstəmləkələrinə, eləcə də Hollandiya, İspaniya və Portuqaliyanın da müstəmləkələrinə sahib olur. Böyük Britaniya Hindistanı özünə tabe edir. Böyük Britaniya Çində Syanqana (Honkonq), Fars körfəzindəki önəmli nöqtələrə, Adenə sahib oldu, Əfqanıstanı tabe etməyə cəhd etdi. Müstəmləkəçilik siyasəti Böyük Britaniyanı XIX əsr boyunca ən böyük müstəmləkəçi dövlət etdi. Müstəmləkə işğalçılığı eyni zamanda digər dövlətlər tərəfindən də aparılırdı. Fransa Əlcəzairi, Vyetnamı öz müstəmləkəsinə çevirdi, Laos və Kambocada öz protektoratlığını qurdu. Rus çarizmi isə müstəmləkə işğalçılığını cənub-şərq və şərq istiqamətində aparırdı. O, Orta Asiyanı və Qafqazı öz müstəmləkəsinə çevirdi. XIX əsrin I yarısında müstəmləkə işğalçılığına ABŞ da qoşuldu. 1823-cü il Monro doktrinası ABŞ-ın Latın Amerikasına iddiasının göstəricisi idi. XIX əsrin 40-50-ci illərində ABŞ Çin və Yaponiyanı bərabərhüquqlu olmayan müqavilə imzalamağa məcbur etdi [12, 1].

Müstəmləkəçilik siyasətinin qurbanı olan xalqlar və dövlətlər asılı olduqları dövlətlərə qarşı qəhrəmancasına mübarizə apardılar. Məsələn, Əlcəzairin müstəqilliyi uğrunda Abdul Kadirin başçılığı altında 1832-47-ci illərdəki vətəndaş müharibəsi, 1810-26-cı illərdə Amerikada ispan müstəmləkələrinin müstəqilliyi uğrunda müharibə və s.

XIX əsrin sonu-XX əsrin əvvəlləri Qərbi Avropanın dünya üzərində həm siyasi, həm iqtisadi, həm də mədəni hegemonluğu pik həddə çatmışdır.

Məhşur Amerika siyasətçisi Z.Bjezinski Qərb klassik kolonializmini səciyyələndirərək yazır: "XVI əsrdən etibarən XX əsrin ortalarına qədər bu mədəni-siyasi mənimsəmə Şimali Atlantik regionuna daxil olan Avropa dövlətlərinə az qala bütün yer kürəsində diskret siyasi hakimiyyət təmin etmişdir" [4, 18].

Müstəmləkələrin yenidən bölüşdürülməsi I Dünya müharibəsinin əsas səbəblərindən idi. Məğlub olan Almaniyanın bütün müstəmləkələri Fransaya, Böyük Britaniyaya, Yaponiyaya, Belçika, Portuqaliya və Avstraliyaya, Yeni Zelandiyaya keçdi. Keçmiş Osmanlı imperiyasının əraziləri Suriya, Livan, İrak isə ingilis və fransız hökmranlığına keçdi. Beləliklə də I Dünya müharibəsi, xüsusilə də Böyük Oktyabr Sosialist inqilabı ümumkapitalizm böhranının əsasını qoydu ki, imperializmin müstəmləkə sisteminin böhranı bunun nəticəsi oldu. İmperializmin müstəmləkə sisteminin böhranı

nəticəsində Çində (1919), Koreyada(1919), Hindistan, İndoneziya, Misir, Suriya, İraq, Fələstin, Türkiyə, İran, Əfqanıstan, Monqolustan, Cənubi Afrika və digər ölkələrdə kütləvi milli-azadlıq hərəkatları baş verdi. Türkiyə, İran və Əfqanıstana öz müstəmləkəçi dövlətlərinə qarşı mübarizədə Sovet Rusiyası kömək etdi. Monqolustan da sovet xalqının dost köməyi nəticəsində qeyri-kapitalist inkişaf yoluna qədəm qoydu. İmperializm hələ də müstəmləkə sistemini saxlamaqda davam edirdi. Lakin I Dünya müharibəsində qalib olan imperialist dövlətlərin müstəmləkələrinin bölüşdürülməsini Millətlər Cəmiyyəti adı altında gizlətməyə çalışdılar [12, 3].

İkinci dünya müharibəsi dövründə də müstəmləkə sisteminin böhranı ciddiləşirdi. II Dünya müharibəsi müddətində (1939-1945) və xüsusilə də müharibədən sonrakı dövrdə müstəmləkə sisteminin böhranında yeni mərhələ başladı.

Yalnız keçən yüzilin ortalarından etibarən klassik, ənənəvi kolonializmin ana sütunları laxlamış, bu siyasi sistem tarixin arxivinə qovuşmuş, öz hakim mövqeyini itirmişdir.

Kolonializm tarixi və siyasi hadisəsi dünya tarixşünaslığında kifayət qədər əsaslı şəkildə araşdırılmış, bu sahədə xeyli sayda monumental, əsaslı nəzəri tədqiqat əsəri yazılmışdır. Bu əsərlərin hamısını sadalamağa ehtiyac olmasa da, E.V.Tarlenin [2], Vijay Mişra və Bob Hodqenin [3] kolonializmin tarixi və nəzəri əsərləri xüsusi olaraq qeyd edilməlidir. Kolonializm haqda yazan E.V.Tarle qeyd edir: "Kolonializm daimi kateqoriya deyil məhz, kapitalizmin inkişafı ilə zəif inkişaf etmiş ölkələrin uzunmüddətli istismarı sistemidir" [2, 8]. E.V.Tarle erkən müstəmləkəçiliyin tarixi mənbələrinə inanmayaraq yazır: "Avropa qəsbkarlarına qarşı yüzillər boyu aparılan mübarizələr haqda biz yalnız onların və yaxud onların ideologiyasının təmsilçilərinin dediklərini bilirik, başqa sözlə desək, biz bu mübarizənin əksini hələ də salnamə və ədəbiyyatlarda sanki əyri güzgü kimi görürük: okeanı qarət etmək məqsədilə peyda olan işğalçı onun işğalına işğal olunanların necə reaksiya verdiyini özü təsvir edirdi" [2, 15].

Beləliklə, XX əsrin ortalarında demək olar ki, yalnız Qərbi Avropada deyil, dünyanın digər regionlarında kolonializmin klassik forması öz mövcudluğunu dayandırdı. Təbii ki, kolonializm elə bir cəlbedici siyasi hadisədir ki, imperialist (daha dəqiq desək müstəmləkəçi (kolonial)) dövlətlər bu nemətdən məhrum olmaq istəməzdilər və onlar, yeni dövrün reallığını qəbul etmək məcburiyyətində qalmalı oldular. Bu sahədə öz siyasətlərini, yanaşmalarını korrektə etməyə məcbur oldular.

XX əsrin ortalarında böhrana məruz qalsa da, günbəgün süqut etməyə başlasa da Qərbi Avropanın, ABŞ və Rusiyanın imperialist iddiaları səngimək bilmirdi. Tarixi, siyasi və ictimai reallıqları qəbul etməyə (xüsusilə də, BMT-də dekolonizasiyaya bağlı xüsusi komitənin yaranması) məcbur oldular. II Dünya müharibəsi nəticəsində alman və italyan faşizmi, militarist Yaponiya məhv edildi, bütün imperialist dövlətlər zəiflədildi. Bir çox müstəmləkələrdə milli silahlı qüvvələr yarandı. Alman, fransız, amerikan, holland imperialistlər öz rəqibləri üzərində qələbə çaldıqdan sonra faşist blokunun müharibə illərində işğal etdiyi müstəmləkələrdə möhkəmlənməyə çalışsalar da xalqların güclü qarşıdurması ilə rastlaşdılar. Artıq vəziyyət o yerə gəldi ki, imperialist dövlətlər müstəmləkələrdəki milli-azadlıq hərəkatlarını yatırtmaq gücünü də itirdilər. Belə bir şəraitdə yaranan milli-azadlıq inqilabları, nəhayət 1997-ci ildə Böyük Britaniyanın Honkonqu Çinə qaytarması ilə imperialist müstəmləkə sisteminə son qoyuldu. Azad olmuş bir çox dövlətlər kapitalizmin alternativi olan sosializm sisteminə qədəm qoydular.

Amma bununla belə, dünyanın əsas imperialist kolonialist ölkələri öz qənimətlərini əllərindən vermək istəmədi və yeni dövrün reallıqlarına uyğun olaraq bu sahədə özlərinin siyasətini, yanaşmasını korrektə etməli oldular. Nələri qurban versələr də, nələrdənsə imtina etməli olsalar da, yeni koloniyal modellər üzərində işlər görüldü, yeni konsepsiyalar, siyasi məfhumlar, yeni nəzəri sistemlər yazılıb hazırlandı.

İmperialist kolonialist dövlətlər anladılar ki, artıq klassik mərhələdə olduğu kimi, qəsbkarlıq, işğalçılıq siyasətini açıq-aşkar şəkildə həyata keçirmək qeyri-mümkündür və onlar yeni yollar axtarmağa və seçməyə başladılar. Türkiyə postkolonializm araşdırıcısı Ali Balcı bununla bağlı yazır: "Hökmranlığı davam etdirəcək yeni bir dilə ehtiyac vardı. Yeni dövrdə insan hüquqları, hüququn üstünlüyü və demokratiya bölgədəki dövlətləri nəzarət altında saxlamanın qanuni dili olaraq meydana çıxarkən, radikal "islamçı" terrorla mübarizədə hərbi əməliyyat və müdaxilələrin səbəbi oldu" [6, 22]. Hegemon dövlətlər siyasi oyunlara əl ataraq terror kimi bəşəri cinayəti İslamla əlaqələndir-

məyə çalışırlar. Ekstremizm, terrorizm və bu kimi anlayışları İslamla əlaqələndirən qüvvələrin məqsədi İslam dininin sürətlə yayılmasının və müsəlman qardaşlığının daxildən dağıdılmasına yönəlmişdir.

Birinci Dünya müharibəsi ərəfəsində və müharibə illərində yarımmüstəmləkə vəziyyətində olan bəzi şərq dövlətləri, o cümlədən də Latın Amerikası ölkələri dünya kapitalist əmək bölgüsünə daxil oldular.

Müstəmləkəçilik siyasətinin qurbanı olan xalqlar və dövlətlər asılı olduqları dövlətlərə qarşı qəhrəmancasına mübarizə apardılar. Məsələn, Əlcəzairin müstəqilliyi uğrunda Abdul Kadirin başçılığı altında 1832-47-ci illərdəki vətəndaş müharibəsi, 1810-26-cı illərdə Amerikada ispan müstəmləkələrinin müstəqilliyi uğrunda müharibə və s. [12, 1].

XIX əsrin 70-ci illərində kapitalizmdən imperializmə keçid dövrü başladı. İmperializmin müstəmləkəçilik sistemi yarandı – buraya siyasi tabeçilik sistemi, iqtisadi istismar, zəif inkişaf etmiş Asiya dövlətlərinə ideoloji basqı daxil idi. Bu müddətdə müstəmləkə işğalçılığı artmaqda idi.

Birinci dünya müharibəsindən əvvəl 1914-18-ci illərdə yarımmüstəmləkə vəziyyətində olan dövlətlər Çin, İran, Türkiyə, Əfqanıstan, Siam və Latın Amerikasının bir çox olkələri misal çəkmək olar. 1914-cü ildə müstəmləkə və asılı dövlətlər yer kürəsinin 66.8 %-ni, əhalisinin isə 60%-ni təşkil edirdi. Müstəmləkə işğalığına məruz qalan dövlətlər dünya kapitalist əmək bölgüsünə daxil edilmiş oldular. Metropoliyalar üçün bazar rolunu oynayan müstəmləkələr və asılı dövlətlər müstəmləkə kapitalizmi dövründə daha çox kapital yatırımı sahəsinə çevrildilər [12, 2]. Metropoldan kifayət qədər yüksək gəlir gətirməyən kapital müstəmləkə dövlətlərə ixrac olunurdu, çünki bu dövlətlərdə uyğun şərait, ucuz işçi qüvvəsi mövcud idi.

Müstəmləkə və asılı dövlətlərin istismarı metropolların ən əsas gəlir mənbəyi idi. Müstəmləkəçilik siyasəti, öz növbəsində həm də milli özünüdərk və milli azadlıq duyğularının (tendensiyalarının) yaranması ilə nəticələndi. A.A.Qorelov kolonializm hadisəsi haqqında yazır: "İnkişaf etmiş olkələrin ekspansiyası və onların nə vaxtsa bütün dünyanın yerdə qalan ölkələrini öz aralarında bölüşdürməsini, metropoliyalar və koloniyalar arasında müvcud olan iqtisadi, siyasi, ideoloji münasibətlərin bütün sistemini kolonializm adlandırırlar" [5, 3].

Müstəmləkə və yarımmüstəmləkə dövlətlər müstəmləkəçi dövlətlərin əsas iqtisadi geopolitik bazası sayılır. Böyük imperialist dövlətlərin yeni koloniyalar uğrunda öz aralarında apardıqları mübarizə öz növbəsində müstəmləkə ölkələrinin daxili siyasi və iqtisadi siyasətinə təsir edirdi. Belə ki, müstəmləkə işğalına məruz qalan ölkələrdə siyasi mübarizə əhval-ruhiyyəsi formalaşır, münaqişə və toqquşmalar baş verirdi ki, bu da bir tərəfdən yerli əhalinin sosial və maddi həyatına(güzəranına) mənfi təsir edirdi, digər tərəfdən isə imperialist dövlətlərin siyasətinə zərbə vururdu.

İv Lakost kolonial məsələyə münasibətdə fərqli mövqe tutur. O, yazır: "Kolonial məsələni effektiv araşdırmaq üçün, yalnız müstəqillik qazanılan dövrdən keçən zamana diqqət yetirmək kifayət deyil. Baxmayaraq ki, bu hadisə bütün problemləri həll etmədi, iqtisadi asılılıq qalmaqda davam edir, siyasi müstəqillik əhali üçün son dərəcə mühüm əhəmiyyət kəsb edir" [1, 9].

İmperializm dövründə müstəmləkələr uğrunda mübarizə o dövrün imperiyalararası müharibə, münaqişə və toqquşmalarının əsas səbəbi idi. Kapitalizmin qeyri-bərabər iqtisadi və siyasi inkişafı bu mübarizəni daha da gücləndirirdi. Güclənən imperialist dövlətlər zəifləmiş dövlətlərin qənimətlərini əllərindən almağa çalışırdılar. XIX əsrin sonu, XX əsrin əvvəllərində Almaniya, Yaponiya, İtaliya və ABŞ bu iddia ilə çıxış etdi. Dünyanın yenidən bölüşdürülməsi uğrunda ilk müharibə ABŞ-ın İspaniyaya qarşı (1898) apardığı müharibə oldu. ABŞ Filippin adalarını, Quam adalarını və Puerto-Rikonu işğal etdi, Kubanı öz nəzarəti altına aldı. Həmin il ABŞ Havay adalarını da öz nəzarəti altına aldı. 1903-cü ildə Panama kanalını ələ keçirdi. Silahlı müdaxilə də daxil olmaqla ABŞ bütün vasitələrlə Mərkəzi və Cənubi Amerika dövlətlərində hökmranlığı öz əlinə aldı. "Açıq qapı" siyasəti ilə Çinə yol açaraq ABŞ buradakı imperialist rəqibləri olan Böyük Britaniya, Fransa, Rusiya, Almaniya və Yaponiyanı sıxışdırıb çıxarmağa çalışdı. Almaniya isə Böyük Britaniya, Fransa və Rusiyanın mövqelərinə güzəştə gedərək Türkiyədə, Yaxın və Orta Şərqin digər ərazilərində, Şimali Afrikada və Uzaq Şərqdə geniş ekspansiya siyasəti yeritdi. İtaliya 1911-1912-ci illərdə Tripolini və Keraniakanı (Livanın ərazisi) işğal etdi. Yaponiya 1904-1905-ci illərdə Rusiyanı məğlub edərək Laodun yarımadasına,

Cənubi Saxalinə sahib oldu. 1910-cu ildə Koreyanı işğal etdi və Mancuriya üzərində faktiki nəzarəti tətbiq etdi [12, 2].

Nəticə. Beləliklə, kolonializm XVI əsrdən XX əsrə kimi qərbin qlobal siyasi hakimiyyəti layihəsini təşkil edirdi. Bu, müstəmləkələrin əldə olunması və asılı ərazilərə, eləcə də onların əhalisinə hökmranlıq və istismar etmək siyasəti idi. Kolonializm - ərazi ekspansiyasına istiqamətlənmiş ideoloji nəzəriyyə və təcrübədir. Kolonializmin səbəbi isə kapitalizmdən irəli gələn qərb sivilizasiyasına xas olan ictimai-iqtisadi formasiyadır ki, bu da ərazi ekspansiyasına cəhddir.

Qloballaşma ənənəsi isə iqtisadi səbəblərdən meydana gəlmişdir. Gəlir əldə etmək etmək üçün əldə olunan məhsula dəyərindən əlavə qiymət qoyulmalıdır. Müstəmləkəçi dövlət isə həmin məhsulu istehsal edən dövlətin özünə sata bilmir,çünki onların həyat səviyyəsi bu məhsulları bu qiymətə almaq üçün aşağıdır. Ona görə müstəmləkəçi dövlətlərə yeni xammal bazarına ehtiyacı yaranır. Beləliklə də, kapitalizm işğal olunmuş xalqların daha da zəifləməsinə səbəb oldu. O zaman belə nəticə çıxır ki, dünyanın kapitalizm yolu ilə birləşdirilməsi istismarın zəifləməsinə deyil məhz güclənməsinə gətirib çıxardı. Klassik kolonializmi isə kapitalizmdən kənarlaşdırmaq olmaz. Belə ki, məhz kolonializm kapitalizmin imperializmə çevrilməsinə səbəb olmuşdur. Kapitalizm XIX əsrin sonunda məhz müstəmləkəçiliyin (kolonializm) vasitəsi ilə imperializm mərhələsinə qədəm qoymuşdur. XX əsrin sonunda kapitalizm qlobalizmə çevrilərək qlobal neokolonializm ideologiyasını yaratmışdır.

Kolonializm və postkolonializmin araşdırılmasında əsas məqsəd keçmiş ənənələrdən imtina etmək və müstəmləkəçi dövlətlə müstəmləkə dövlət arasındakı qütbləşməni aşmaqdan ibarətdir. Müstəmləkə siyasətindən imtina etməklə keçmiş imperiyalar işğalçılıq siyasətindən, ideoloji təsirdən, iqtisadi ekspansiyadan da imtina etmiş olur. Çünki imperialist kolonialist dövlətlər təkcə digər dövləti kolonialaşdırmaqla kifayətlənmir. Eyni zamanda onun mənəvi dəyərlərini, mədəniyyətini, həyat tərzini də dəyişməyə çalışırlar. Əvəzində isə öz mənəvi dəyərlərini, mədəniyyətini, həyat tərzini təbliğ edərək bir xalqın tarixini, özünəməxsusluğunu, identikliyini məhv edirlər. Beləliklə də, kolonial siyasət tək xaricdən deyil, daxildən də həyata keçirilir. Ona görə də, bir müstəmləkə dövlətin müstəqilliyinin bərpa olunması kolonializmin hələ başa çatması demək deyil.

ƏDƏBYYAT

1Лакост И. Постколониальный вопрос. - https://www.diplomatie.gouv.fr/IMG/pdf/0704-LACOSTE-RU.pdf [Müraciət tarixi: 28.02.2022].
2. Тарле Е.В. Очерки истории колониальной политики (конец XV - начало XIX в.) / вступ. статья В. Рутенбурга; Акад. наук СССР. - Москва ; Ленинград : Наука. [Ленинградское отдние], 1965, 427 с.
3. Крысин Л. Толковый словарь иноязычных слов М.: Эксмо, 2008. 944 с.
4. Vijay Mishra, Bob Hodqe. "What Was Postkolonialism, New Literary History". Vol. 36, No 3. Critical Esseys, Summer, 2005, p.378.
5. Бжезинский З. Стратегический взгляд: Америка и глобальный кризис. М.: АСТ, Астрель, 2012, с. 288.
6. Горелов А.А. От мировой колониальной системы до глобального неоколониализма // "Век глобализации", Выпуск №2 (14), 2014. - https://cyberleninka.ru/article/n/ot-mirovoy-kolonialnoy-sistemy-do-globalnogo-neokolonializma/viewer [Müraciət tarixi: 28.02.2022].
7. Balcı A. Ortadoğu və Postkolonializm. İstanbul: Pınar Yayınları, 2018, s.204.
8. Young R.J. Postkolonyalizm. İstanbul, Matbu Kitap, 2016, 652 s.
9. Özdemir M. Post-kolonyalizm nedir? Dünyalar arasında və Türkiyede Bilim, Kavram və Teorilerin İşlevleri. İstanbul, Açılım Kitap, 2017, 299 s.
10. Chibber V. Post-Kolonyal Teori ve Kapitalizmin Hayaleti. Çeviren Afife Yasemin Yılmaz. İstanbul, İletişim Yayınları, 2016, 462 s.
11. Tanilli S. Yüzyılların Gerçeyi ve Mirası. VI. Cilt 20. Yüzyıl: Yeni Bir Dünyanın Aranışında. İstanbul, Türkiye İB Kültür Yayınları, 2019, 656 s.
12. Колонии и колониальная политика. Главная \ Советская историческая энциклопедия \ Козь - Коми. - http://enc.biblioclub.ru/termin/1504862 [Müraciət tarixi: 28.02.2022].

13. Ashcroft Bill, Gareth Griffiths,Helen Tiffin, The Empire Writes Back,London and New York: Routledge, 2002, 296 p.
14. Edward W.Said, Orientalism, New York: Vintage Books, 1979, 395 p.

НАРГИЗ НАГИЕВА
Доцент Бакинского Государственного Университета,
доктор философии по политическим наукам

КОЛОНИАЛИЗМ: ТРАДИЦИИ И СОВРЕМЕННОСТЬ

Главной целью данной статьи является описание и классификация причины и динамика развития и гибели мировой колониальной системы. Сегодня колониализм продолжает существовать в большинстве частей мира в новых формах. В настоящее время это политическое событие существует под новым названием - в виде постколониализма. Основная цель исследования колониализма и постколониализма - отказ от прошлых традиций и преодоление поляризации между колониальным государством и колонизуемым. Отказавшись от колониальной политики, бывшие империи отказались от политики оккупации, идеологического влияния и экономической экспансии. Делается вывод, что становление системы империализма является основным направлением продвижения тенденции колониализма.

Ключевые слова: колониализм, постколониализм, метрополия, капитализм.

NARGIZ NAGIYEVA
Associate professor of Baku State University,
Doctor of Philosophy in Political Science

COLONIALISM: TRADITION AND MODERNITY

Today, colonialism continues to exist in most parts of the world in new forms. At present, this political event exists under a new name - in the form of post-colonialism. The main goal in the study of colonialism and post-colonialism is to abandon past traditions and overcome the polarization between the colonial state and the colonial state. By renouncing colonial policy, former empires renounced the policy of occupation, ideological influence, and economic expansion. The conclusion is made that the formation of the imperialist system is the main direction of promoting the colonialist tendency.

Keywords: colonialism, postcolonialism, metropolis, capitalism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Adil Mirabdullayev, t.e.d. Sani Hacıyev.

UOT 94(479.24)

FUAD MƏMMƏDOV
T.ü.f.d., Azərbaycan Tibb Universitetinin
İctimai sağlamlıq və Səhiyyənin təşkili kafedrasının baş müəllimi
fuadmammadov603@mail.com

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN SƏHİYYƏSİ

Təqdim olunan məqalə Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra ulu öndər Heydər Əliyev və Azərbaycan səhiyyəsinin böhrandan çıxarılması və yenidən qurulması probleminə həsr edilmişdir. Məqalə yazılarkən mövcud ədəbiyyatdan, arxiv sənədlərindən istifadə edilmiş, səhiyyə islahatlarının qismən də olsa mənzərəsinin yaradılmasına səy göstərilmişdir.

Açar sözlər: mürəkkəb, yenidənqurma, baza, mülkiyyət.

Giriş. Məqalədə səhiyyənin hüquqi bazasının yaradılmasında, səhiyyə ocaqlarının maddi-texniki bazasının gücləndirilməsində, cəhiyyə ocaqlarının təmirində və yenilərinin inşasında, səhiyyə ocaqlarının dərman pereparatları və müasir tibbi aparatlarla təminində ulu öndərin rolu müxtəsər olsa da nəzərdən keçirilir.

Bütün tarix boyu azadlıqsevər xalqımız öz azadlığı və müstəqilliyi uğrunda dönə-dönə ayağa qalxmış, XX əsrin əvvəllərində bu ilahi nemətə qovuşa bilmişdi. O, bu müstəqilliyi bir çox obyektiv və subyektiv səbəblərdən 23 ay əldə saxlaya bildi. Buna baxmayaraq iqtisadi və mədəni quruculuq sahəsində, xarici siyasətdə olduqca əhəmiyyətli işlər görə bildi. AXC-nin süqutundan sonra Azərbaycanın 70 il sovet imperiyası təkibində olması, xalqın müstəqillik arzususnu söndürə bilmədi. Nəticə də 1991-ci il oktyabrın 18-də Azərbaycan bir əsr ərzində ikinci dəfə öz müstəqilliyinə qovuşa bildi [1, s.141-142]. Lakin 1991-1993-cü illərin iqtidarlarının səriştəsizliyi, ölkəni idarə etmək qabiliyyətindən uzaq olmaları, ermənilərin təcavüzü, daxili və beynəlxalq maneələr kövrək müstəqilliyimizi təhlükə altına aldı və onun itirilməsi qorxusunu yaratdı. Səriştəsiz iqtidarların yaratdığı xaos ölkəni parçalanma və vətəndaş müharibəsinin hər an baş verə biləcəyi məqama çatdırmışdı [2, s.18].

1991-1993-cü illərdə respublikamız dərin sosial-iqtisadi və mənəvi böhranla da üzləşmişdi. Böhran Azərbaycanın səhiyyəsindən də yan çekməmişdi. Mövcud səhiyyə ocaqlarının illərlə təmirsiz qalması, yenilərinin açılmaması, onların maddi-texniki bazasının eroziyası, müasir avadanlıqlarla təmin edilməməsi, dərman preparatlarının çatışmaması, ehtiyac üzündən kadrların digər sahələrə axını, elmi axtarışlara marağın azalması, kökü kəsilmiş bəzi xəstəlik ocaqlarının közərməyə başlaması, əhalinin sağlamlığının qorunmasına diqqətin azalması, bütün bunlar 1991-1993-cü illərin reallıqları idi.

Belə bir ağır vəziyyətdə böyük vətənpərvər, xalqının görkəmli oğlu, böyük siyasətçi və dövlət xadimi dünya siyasətində xüsusi yeri və nüfuzu olan ümummilli liderimiz Heydər Əliyev şübhəsiz biganə qala bilməzdi. Xalqı düşdüyü bu ağır vəziyyətdən yalnız o xilas edə bilərdi. Çünki o, ən mürəkkəb ziddiyyətli tarixi proseslərdən bacarıqla baş çıxaran, ən çətin vəziyyətdə də təmkinini itirməyən, qibtəolunacaq iradə nümayiş etdirən və dünyadakı gesiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirməyi bacaran təkrarsız lider idi. Xalqın təkidli tələblərindən sonra böyük siyasətə yenidən qayıdan ulu öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri, oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildi və çox keçmədən dövlətçiliyimizi faciələrdən və iflasdan xilas etdi [3, s.322-325].

Ulu öndər yaxşı bilirdi ki, müstəqilliyimizin qurulması və möhkəmləndirilməsi, hüquqi, iqtisadi və sosial islahatların keçirilməsindən, məmləkətin iqtisadi cəhətdən möhkəmləndirilməsindən asılıdır. O, bu münasibətlə demişdi: "...yalnız iqtisadi islahatlar, bazar iqtisadiyyatına keçid yoludur, sərbəst iqtisadiyyata, təşəbbüskarlığa sahibkarlığa geniş imkanlar yaratmaq yoludur. Respublika ictimaiyyətinin də xüsusən iqtisadçıların, təsərrüfatla, iqtisadiyyatla məşğul olanların əksəriyyətinin də fikri belədir" [4, s.240].

Ulu öndərin ikinci də hakimiyyətə qayıdışından sonra səhiyyə sistemimizin də yenidən qurulmasına, onun bazar iqtisadiyyatına uyğunlaşdırılmasına xüsusi qayğı ilə yanaşıldı. Səhiyyə sistemi-

mizdə yenidənqurma və islahatların keçirilməsi üçün ilk növbədə onun hüquqi bazasının yaradılmasında ulu öndərin təşəbbüslərinin və əməyinin rolu xüsusi ilə qeyd edilməlidir. Bu sahədə ilk qanun 1995-ci il oktyabrın 12-də keçirilən Azərbaycan Respublikasının Referendumunda qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdı: "Sağlamlığın qorunması hüququ" adlı 41-ci maddədə deyilir:

1. Hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır.

2. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçünzəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi söğortanın müxtəlif növləri üçün imkanlar yaradır.

3. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktorları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər [5, s.83].

Ulu öndərin bilavasitə rəhbərliyi və təşəbbüsü ilə 26 iyun 1997-ci ildə qəbul edilən "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu nəinki səhiyyə işçiləri üçün eləcə də bütün xalqımız üçün çox böyük əlamətdar və sevindirici bir hadisə oldu [6].

Qanunun preambula hissəsində deyilir: "Əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzunömürlülüyünün artırılmasına, tibbi yardımın təminatına yönəldilmiş, siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigyena xarakterli tədbirlərin məcmusundan ibarətdir. Bu qanun əhalinin sağlamlığının qorunması sahəsində vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyir" [7, s.3]. Səhiyyə sistemimizdə yenidənqurmanın müvəffəqiyyəti bu qanunun tezliklə tətbiq edilməsindən çox asılı idi. buna görədə onun tezliklə icrası ilə bağlı ölkə başçısı 25 iyun 1997-ci il tarixdə xüsusi fərman verdi [8].

Ulu öndər Azərbaycan Respublikasında "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması barədə" 13 mart 1998-ci il tarixli sərəncamı bu işlərin daha geniş miqyasda aparılması üçün şərait yaratdı [9].

Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu binasının açılışı mərasimində ulu öndərin "Səhiyyə bizim üçün əziz, qiymətli bir sahədir, onun inkişafı üçün lazımi tədbirlər görüləcəkdir" sözləri onun həyatımızın bu vacib sahəsinə qayğısının təcəssümü idi.

Ümummilli lider heydər Əliyev bu problemə xüsusi diqqət ayırdığı vaxtdan 2003-cü ilə qədər onlarla qanuna imza atdı. O, eyni zamanda xarici ölkələrə etdiyi səfərlərdə, beynəlxalq təşkilatlarla apardığı danışıqlarda Azərbaycan səhiyyəsinin ehtiyacları üçün qrantların alınmasında böyük rol oynadı. Alınan qrantlar və daxili imkanlar hesabına yeni-yeni səhiyyə ocaqları inşa edildi., köhnələri təmir edilib, maddi-texniki bazaları möhkəmləndirildi. Onlarla özəl tibb müəssisəsi meydana gəldi ki, onların da əksəriyyətinin açılışında ölkə başçısı bilavasitə iştirak etdi. Ulu öndərin bilavasitə təşəbbüsü ilə qəbul edilmiş "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun səhiyyəmizin dünya standartlarına uyəunlaşdırılmasında böyük rolu oldu [10]. Qəbul edilmiş hüquqi aktların əksəriyyətində "Özəl sektor" probleminin qoyuluşu, bu sahədə ayrıca qanunun qəbul edilməsi Azərbaycan səhiyyəsinin də yenidənqurulmasına marağı artırdı.

Heydər Əliyev dönə-dönə qeyd edirdi ki, səhiyyə sistemimizin yenidən qurulmasının müvəffəqiyyəti kadrların hazırlanmasından çox asılıdır. O, bu problemə xüsusi qayğı ilə yanaşırdı. 1998-ci ilin sentyabrında Azərbaycan Tibb Universitetinin 11 mərtəbəli yeni tədris binasının açılışında iştirak edən ulu öndərin "Cəmiyyət qarşısında məsuliyyət hər birimizdən tələb edir... son dərəcə səmərəli işləməlisiz ki, hər bir məzunumuz yüksək dərəcəli mütəxəssis olsun" kimi dediyi sözlər qayğının və diqqətin bariz nümunəsidir.

Nəticə. Səhiyyəmizdə yenidənqurma və islahatlar bu gün də davam etdirilir. Azərbaycan səhiyyəsinin dünya standartlarına uyğunlaşdırılması üçün ümummilli liderimiz Heydər Əliyevin siyasi-iqtisadi kursunun layiqli davamçısı İlham Əliyev bu vacib sahəyə xüsusi əhəmiyyət verərək əlindən gələni əsirgəmir. Ölkənin paytaxtı Bakı şəhəri ilə yanaşı ölkə başçısının bilavasitə təşəbbüsü ilə qəbul edilmiş 2004-2008 və 2009-2013-cü illəri əhatə edən regionların sosial-iqtisadi inkişafına dair birinci və ikinci Dövlət Proqramlarına uyğun olaraq nəinki rayon mərkəzlərində eyni zamanda digər yaşayış məntəqələrində poliklinikaların, diaqnostika mərkəzlərinin inşası və istifadəyə verilməsi ulu öndərimizin başlamış olduğu işin uğurlu davamıdır.

ƏDƏBİYYAT

1. Sultanov O.B. 80-ci illərin sonu-90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə. Bakı, "Maarif" nəş., 1995, 232 s.
2. Zeynalov Ə.M. Heydər Əliyev və Azərbaycanda səhiyyəyə dövlət qayğısı //Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 85-illik yubileyinə həsr olunmuş "Xalqa, Dövlətə, Vətənə sədaqət nümunəsi"mövzusunda elmi konfransın materialları, s.18-24.
3. Azərbaycan tarixi. 7 cilddə, VII cild, Bakı, "Elm" nəş., 2008, 626 s.
4. Əliyev H. Müstəqillik yollarında. 2 cilddə II cild, Bakı, "Azərbaycan" nəş., 1997, 446 s.
5. Azərbaycan Respublikası Milli Məclisinin arxivi, F.2941, s.1, iş 488,v.147.
6. Azərbaycan Respublikası Milli Məclisinin arxivi. F. 2941, s. 1, iş 488, v.147.
7. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, "Göytürk" nəş., 1997, 31 s.
8. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı / "Şəfqət" qəz., 6 avqust 1997.
9. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Arxivi: KM, q. 19, s.143.
10. Azərbaycan Respublikası Milli Məclisinin arxivi. f.2941, s.1, iş 716, v.37-64.

ФУАД МАМЕДОВ
Д.ф.п.и., ст. преп. кафедры Общественного здоровья и организации здравоохранения Азербайджанского Медицинского Университета

ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКОЕ ЗДРАВООХРАНЕНИЕ

Несмотря на восстановление независимости Азербайджан в 1991-1993 годах столкнулся с экономическим кризисом. Этот кризис не прошел мимо и здравоохранения Азербайджана. Второй приход к власти Общенационального лидера Гейдара Алиева к власти открыл новую страницу в развитии здравоохранения Азербайджана. Как и в других сферах жизни, он искоренил кризис в системе здравоохранения. Здравоохранение Азербайджана сделало существенные шаги на пути интеграции в мировую систему здравоохранения.

Ключевые слова: сложный, перестройка, база, собственность.

FUAD MAMMADOV
Ph.D., Senior Lecturerof Department of Public Health and Healthcare Organization of the Azerbaijan Medical University.

HEYDAR ALIYEV AND AZERBAIJAN HEALTHCARE

Despite the restoration of independence, Azerbaijan faced an economic crisis in 1991-1993. This crisis did not pass by the healthcare of Azerbaijan either. The second coming to power of national leader Heydar Aliyev opened a new page in the development of healthcare in Azerbaijan. As in other areas of life, he eradicated the crisis in the health care system. Azerbaijan's healthcare has taken significant steps towards integration into the global healthcare system.

Keywords. complex, restructuring, base, property.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Cavanşir Sadıqov, t.e.d. İbrahim Zeynalov.

UOT 94(479.24)

NAZİM MƏMMƏDOV
Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Qarabağ tarixi" şöbəsinin baş elmi işçisi, t.e.d.
mamedov-n@yahoo.com

ON NOYABR BƏYANNAMƏSİ VƏ TARİXİ ƏHƏMİYYƏTİ

Rusiya Federasiyasının təkidi ilə 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Beləliklə, işğal altında olan ərazilərimizin bir hissəsi hərbi yolla, digər hissəsini isə Ermənistan üçün kapitulyasiya aktı kimi dəyərləndirilən 10 noyabr Bəyanatından irəli gələn öhdəlik əsasında azad edildi. Dekabrın 1-də Azərbaycanın bütün ərazisi üzərində siyasi-hüquqi suverenliyimiz və ərazi bütövlüyümüz bərpa edildi. Azərbaycan Beynəlxalq hüquqla təsbit edilmiş ərazi bütövlüyü təmin olundu. 10 noyabr Bəyannaməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq, dövlətlərarası xarakterini bir daha təsdiqlədi. Dağlıq Qarabağın statusu məsələsi danışıqların predmetindən çıxdı və orada yaşayan ermənilərə "öz müqəddəratını təyinetmə" prinsipinin aspekti də istisna edildi. Münaqişənin tənzimlənməsinin beynəlxalq hüquqi bazası yeniləndi. Azərbaycan BMT TŞ-nin 4 qətnaməsini təkbaşına icra etdi.

Açar sözlər: Azərbaycan, Qarabağ, Zəngəzur qəzası, Türkiyə, Rusiya, Ermənistan, Bəyannamə, ikinci Qarabağ müharibəsi.

Giriş. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi dövlət başçımızla Müzəffər ordumuzun, xalqımızın sarsılmaz iradəsi, birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə Azərbaycanın silahlı qüvvələrinin qələbəsi ilə sona çatdı [5]. 10 noyabr 2020-ci ildə Ermənistan Qarabağda atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması haqqında kapitulyasiya aktı imzalamağa məcbur edildi. Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi. Belə ki, Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağkənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Şüküraz yüksəkləri və daha 5 adsız yüksəklik erməni daşnak terrorçularından azad edildi [8]. Azərbaycan, Böyük Qələbənin şanlı müjdəsini noyabrın 8-də Qarabağın tacı sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim və müqəddəs yurdumuzun xilası ilə şanlı qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldıraraq kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə, bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın onlar üçün əziz olan və inandıqları Prezidentini necə dəstəklədiyini, onun ətrafında sıx birləşdiyini bir daha təsdiqləndi. "Ali Baş Komandanın bircə əmrinə hazırıq" – deyən Azərbaycan əsgər və zabitləri öz sözlərinin sahibi olduqlarını döyüşdə sübuta yetirdilər.

Onu da qeyd edək ki, 10 noyabr gecəsi, sülh razılaşmasının rəsmi elanından əvvəl vəziyyət həddən artıq gərginləşdi. Belə ki, Rusiyanın Mi-24 helikopteri Ermənistan üzərində, Naxçıvanla sərhədin yaxınlığında Azərbaycan tərəfindən vuruldu, helikopterdəki iki hərbçi öldü, üçüncüsü isə ağır yaralandı [6]. Həmin insident müdaxilə üçün əsas ola bilərdi, lakin Azərbaycan tərəfi qurbanların ailələrinə təzminat ödəməyə hazır olduğunu bildirərək baş verənlərə görə məsuliyyəti etiraf etdi. Son sülh müqavilələrini imzalamağa hazırlaşan Moskva bu faciəyə həddən artıq əhəmiyyət vermədi. Sülh sazişinin məhz indi bağlanması Azərbaycan ordusunun əhəmiyyətli sahəyə malik olan əraziləri əldə etməsi ilə bağlıdır. Rəzil Ermənistanın Müzəffər Azərbaycan ordusu qarşısındakı cəbhədəki biabırçı məğlubiyyəti 9 noyabr 2020-ci il tarixində Rusiya Federasiyasının təklifi ilə hərbi əməliyyatların dayandırılması və üç dövlət başçısının iştirakı ilə müqavilə imzalanmasına səbəb oldu. Qəbul edilmiş həmin Bəyannamədə qərara alındı:

1. 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

2. 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

3. Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

4. Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq 5 ilə uzadılır.

5. Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

6. Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 km. enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır.

Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşaatı planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

7. Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

8. Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

9. Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətində maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının tikintisi təmin ediləcəkdir [11].

Müqaviləyə əsasən Azərbaycan geri qaytardığı əraziləri, eləcə də Şuşa şəhərində nəzarəti qoruyur, erməni silahlı qüvvələri 1 dekabr tarixinədək digər işğal altındakı əraziləri boşaldır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 10-da xalqa müraciətində üç dövlət başçısı arasında imzalanmış Bəyannamənin böyük əhəmiyyət kəsb etdiyindən bəhs edərək demişdir: "Əziz həmvətənlər, bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır... Bu bəyanat bizim şanlı qələbəmizdir. Şadam ki, bu gün bu müjdəni Azərbaycan xalqına verirəm. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəblərindən biri də dünən qeyd etdiyimiz parlaq qələbəmizdir, tarixi qələbəmizdir, Şuşanın işğaldan azad edilməsidir, Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq və işğaldan azad edilmiş digər bütün torpaqlarda həyat qaynayacaq. İnsanlar o torpaqlara qayıdacaq, orada yaşayacaq, insanlarımızın 3 illik həsrətinə son qoyulur" [13].

İmzalanmış müqaviləyə əsasən Ermənistanın Müdafiə Nazirliyi beynəlxalq səviyyədə Azərbaycanın bir hissəsi kimi tanınan, lakin son zamanlara qədər ermənilər tərəfindən tam nəzarət edilən Qarabağda hərbi əməliyyatların dayandırıldığını və sakitliyin bərpa olunduğunu bildirdi. Eyni zamanda, müqavilə minlərlə insanın ölümünə, çox sayda insanın didərgin düşməsinə səbəb olan və

daha geniş bölgənin müharibəyə cəlb olunması təhlükəsini yaradan proseslərin siyasi həllinə yol açdı və bu bəyanat uzun illərlə davam edən işğala son qoydu. Özünü "Dağlıq Qarabağ Respublikası" adlandırılan tanınmamış qurum bütün ərazilərin itirilmək riski olduğundan sülh sazişi bağlamaqdan (kapitulyasiyadan) başqa seçim olmadığını hiss etdi. Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində işğal altındakı 11,4 min kvadrat kilometr ərazinin 3 716 kvadrat kilometri döyüşlər zamanı, 5 174 kvadrat kilometr isə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli razılaşmasının bəndlərinə uyğun olaraq Ermənistan Ordusunun 1 dekabra qədər tərk edəcəyi ərazilərdir [4, s.64].

İmzalanmış üçtərəfli müqaviləyə əsasən İşğal altında olan ərazilərimizin bir hissəsi hərbi yolla, digər hissəsini isə Ermənistan üçün kapitulyasiya aktı kimi dəyərləndirilən 10 noyabr Bəyanatından irəli gələn öhdəlik əsasında azad edildi. Dekabrın 1-də Azərbaycanın bütün ərazisi üzərində siyasi-hüquqi suverenliyimiz və ərazi bütövlüyümüz bərpa edildi. Bu isə Azərbaycanın beynəlxalq hüquqla təsbit edilmiş ərazi bütövlüyünün təmin edilməsi deməkdir. Həmçinin, 10 noyabr Bəyannaməsi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq, dövlətlərarası xarakterini bir daha təsdiqləmiş oldu. Ermənilərin onu 1988-1991-ci illərdə SSRİ-nin tərkibində olduğu kimi daxili münaqişə formasında saxlamaq cəhdləri birdəfəlik aradan çıxdı. Dağlıq Qarabağın statusu məsələsi danışıqların predmetindən silindi, orada yaşayan ermənilərə öz müqəddəratını təyinetmə prinsipinin aspekti də istisna edildi. Münaqişənin tənzimlənməsinin beynəlxalq hüquqi bazası yeniləndi. Azərbaycan BMT TŞ-nin 4 qətnaməsini təkbaşına icra etdi və bu istiqamətdə BMT Nizamnaməsinin 51-ci maddəsini əldə rəhbər tutaraq fərdi qaydada həmin qətnamələrin tələblərini yerinə yetirmiş oldu. İmzalanmış müqaviləyə əsasən, istər Ermənistanla, istərsə də İran İslam Respublikası ilə dövlət sərhədimiz işğaldan azad edilərək sərhəd zastavaları quruldu. Uzun müddət həmin istiqamətdə transmilli cinayətkarlığın bəzi təzahürləri geniş inkişaf etmiş və kriminal işbirliyi formasında həyata keçirilmişdir. Artıq həmin ərazilər öz həqiqi sahibinə qaytarılmışdır. Bütün bunlarla yanaşı Bəyannamədə Dəhlizlərin mübadiləsi ideyası gerçəkləmə mərhələsinə qədəm qoydu. Bu, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan, Ermənistanla Xankəndi arasında birbaşa quru yolunun olması deməkdir. Ermənistana yalnız Laçın dəhlizi vasitəsilə və qarşıdan gələn 3 il ərzində o istiqamət üzrə inşası nəzərdə tutulan yolla Azərbaycana daxil olmağa icazə verildiyi halda, Azərbaycana isə həm Laçın, həm də ölkəmizin digər qərb rayonları vasitəsilə Naxçıvana çıxış imkanı verilir. Şübhəsiz, Azərbaycandan Naxçıvana, oradan isə Türkiyəyə çıxış, əks-istiqamətdə isə Türkiyədən Cənubi Qafqaz, Orta Asiya və Çin Xalq Respublikasına kimi nəhəng türk zolağı uzanacaq.

On noyabr bəyannaməsinin Naxçıvan Muxtar Respublikası əhalisi üçün tarixi əhəmiyyətindən bəhs edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarından birində qeyd edib: "Digər önəmli məsələ, xüsusilə qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Həm bütün kommunikasiyaların, yolların açılması, eyni zamanda, burada göstərilir ki, yeni nəqliyyat kommunikasiya infrastrukturu yaradıla bilər və yaradılmalıdır. Biz bunu, əlbəttə ki, çox dəstəkləmişik. Deyə bilərəm ki, mənim təkidimlə bu bənd bu bəyanata salındı. Çünki birbaşa Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bu bəndin əlaqəsi yoxdur. Ancaq mənim təkidli tələblərim, şadam ki, qəbul olundu. Beləliklə, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla, Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmə istiqamətində tarixi addım atıldı. Çünki mənfur düşmən 1990-cı illərin əvvəllərində və ondan da bir qədər əvvəl Naxçıvanı faktiki olaraq mühasirəyə almışdı. Bütün kommunikasiya xətləri kəsildi – çünki o vaxt Azərbaycanın əsas hissəsindən oraya enerji resursları ötürülürdü – faktiki olaraq Naxçıvan Muxtar Respublikası çox ağır vəziyyətdə qalmışdı. Eyni zamanda, Ermənistan ərazisindən oraya hücumlar da edilirdi. Dəfələrlə demişəm, məhz ulu öndər Heydər Əliyevin cəsarəti və fəaliyyəti nəticəsində Naxçıvan işğal altına düşmədi. Erməni vandallarının belə planları da var idi". Ona görə bu bəndi xüsusilə qeyd etmək istərdim və əziz naxçıvanlıları da bu hadisə münasibətilə təbrik etmək istərdim. Bildirməliyəm ki, naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər" [4, s.72].

Bütün bunlarla yanaşı, üçtərəfli imzalanmış müqaviləyə əsasən işğaldan azad edilmiş ərazilər qeyri-qanuni iqtisadi fəaliyyətlərdən, cinayətkar qruplaşmalardan və məskunlaşmalardan azad edilərək Azərbaycana qaytarıldı. Həmin ərazilərin təbii ehtiyatlarının istismarından, yaxın gələcəkdə isə azad edilmiş ərazilərimizin rekreasiya (istirahət) potensialından ölkəmizin və xalqımızın rifahı üçün istifadə ediləcək və Ermənistan son 27 il ərzində ölkəmizə vurduğu ziyanı ödəməli olacaqdır. 44 günlük müharibə Azərbaycan xalqının qürurunu, mənliyini və şərəfini özünə qaytardı. Xalqımızın və ordumuzun milli vətənpərvərlik ruhu və mənəvi-psixoloji vəziyyəti yüksəldi. Müasir döyüş sirlərinə dərindən bələd olan, döyüş meydanında intizamlı savaş aparan, beynəlxalq qaydaları əldə rəhbər tutan qalib bir Azərbaycan Ordusu haqqında stereotip formalaşdı. Apardığı peşəkar əməliyyatlarla dünyanı şoka salan Azərbaycan Ordusunun beynəlxalq reytinqi yüksəldi. Bu uğur beynəlxalq miqyasda bundan sonra aparılacaq sülhə məcburetmə əməliyyatlarında Azərbaycan Ordusunun potensialından və təcrübəsindən geniş yararlanmağa imkan verəcəkdir. Azərbaycan işğaldan azad etdiyi torpaqlarda düşmənin tariximizə tutduğu divanı, dini və mədəni abidələrimizə qarşı vandal davranışı dünyaya nümayiş etdirmək imkanı qazandı. 27 ildir ki, işğal altında saxlanılan torpaqlarımızdakı şəhər və kəndlərimizin xarabalığa çevrilməsi Ermənistanın əslində bu torpaqların əsl sahibinin bir gün geri dönəcəyinə olan inamından xəbər verir. Azərbaycan haqq savaşında qalib gəlməklə yanaşı, işğalçı dövlətin əsl simasını ortaya qoymaq imkanı əldə etdi. Müharibədə Azərbaycanın qələbəsi ətraf mühitin mühafizəsini reallaşdırdı, ərazidəki mövcud təbii ehtiyatlardan istifadəni tarazlaşdırdı və dünyanı əhatə edən ekoloji problemin aradan qaldırılmasını şərtləndirdi. Silah, narkotik və insan alverinin qarşısı alınmaqla bəşəriyyət üçün mənəvi və fiziki təhlükəsizlik təmin olundu. Qələbənin əldə olunması ilə müharibə gedən ərazilərə bitişik olan rayonların dinc sakinlərinin həyat və ləyaqətinin təhlükəsizliyi təmin edilməklə Beynəlxalq humanitar hüququn prinsipləri reallaşdı. Azərbaycan cəmiyyətinin iqtisadi münasibətlərində, bu münasibətlərin təkmilləşdirilməsi və iqtisadi yüksəlişində işğaldan azad olunmuş bütün təbii sərvətlərin (əkin sahələrinin, meşələrin, təbii ehtiyatların, su mənbələrinin və s.) rolu artmaqla dövlətimizin iqtisadi inkişafı təmin edildi.

On noyabr Bəyannaməsinin məcburi köçkünlərimizin 30 illik Vətən həsrətinə son qoymasından bəhs edən Prezident İlham Əliyev çıxışlarından birində demişdir: "...Məcburi köçkünlərimizin əsas arzusu doğma torpaqlara qayıtmaqdır və görüşlər zamanı onlar məndən xahiş edirdilər, cənab Prezident qaytar bizi. Mən də hər dəfə onlarla görüşəndə həm onlarda güclü iradə görürdüm, yenilməzlik görürdüm, dövlətə sədaqət görürdüm, eyni zamanda, onların gözlərində nisgil, həsrət görürdüm. Buna son qoyulub, əziz soydaşlarım gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi!

Məcburi köçkünlər yaxşı bilirlər ki, onların öz dədə-baba torpaqlarına qayıtması üçün biz əlimizdən gələni edəcəyik, işğaldan azad edilmiş bu torpaqları yenidən quracağıq. İndi bütün dünya görür ki, mənfur düşmən bu torpaqları hansı vəziyyətə salıb. Bizim bütün binalarımız dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, muzeylərimiz talan edilib, təbiətimizə böyük ziyan vurulub, məscidlərimiz dağıdılıb, təhqir edilib. Azad edilmiş torpaqlarda yarımdağılmış məscidlərdə vəhşi düşmən bizi təhqir etmək üçün, bizim qürurumuza toxunmaq üçün donuz saxlayırdı. Amma biz onların qisasını artıqlaması ilə aldıq. Xocalı qurbanlarının da qisasını aldıq, şəhidlərimizin də qisasını aldıq" [16].

İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin yüksək sərkərdəlik səriştəsi, qarşıdakı çətinliyi əvvəlcədən görüb ondan düzgün çıxmaq bacarığı, rəhbərlik-liderlik istedadı, diplomatik danışıq ustalığı, soy-kökünə barizliyi, xalqına, dövlətinə, torpağına ürəkdən bağlılığı və digər sadalamadığımız ülvi dəyərləri üzə çıxdı və bütün bunlar şanlı qələbəmizi labüd etdi. Alternativi olmayan sərkərdənin fitri istedadı, yüksək bacarığı nəticəsində bir milyondan artıq Azərbaycan vətəndaşının ən müqəddəs arzusu reallaşdı, 30 illik yurd həsrətinə son qoyuldu. Azərbaycanın əsarətdə olan torpaqları işğaldan azad edilməklə BMT-nin 4 mühüm qərarı reallaşdı [2]. Eyni zamanda, torpaqlarımız işğaldan azad olunmaqla Qarabağın əzəli Azərbaycan ərazisi olduğu təsdiqləndi.

Nəticə. Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan İlham Əliyev 10 noyabr 2020-ci ildə xalqa müraciətində demişdir: "....Bu müharibə bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi – yenilməz xalq, dəmir iradəli xalq, müzəffər xalq,

müzəffər ordumuz! Fəxr edirik xalqımızla, ordumuzla! Əminəm, hər bir Azərbaycan vətəndaşı hesab edir ki, onun həyatında bu günlər, bu dəqiqələr ən xoşbəxt günlər, dəqiqələrdir. Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz! "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!" [4, s.75].

ƏDƏBİYYAT

1. Baxşəliyev R. "Şuşa Bəyannaməsi – müttəfiqliyin qızıl dövrü" // "Azərbaycan" qəzeti. Bakı, 18 iyun 2021-ci il, №125 (8118), s.3.
2. Baxşəliyev R. Qarabağı azadlığa qovuşduran yolun müəllifi // "Azərbaycan" qəzeti. Bakı, 12 dekabr 2021-ci il, №270 (8863), s.7.
3. Əliyev R. İlham Əliyev qətiyyətinin təcəssümü // "Azərbaycan" qəzeti. Bakı, 30 dekabr 2021-ci il, №285 (8878), s.1, 7.
4. Mehdiyev R., Həbibbəyli İ., Şükürov K. Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. Bakı, "Elm", 2021, 904 s.
5. Nərimanoğlu M. "Qəhrəmanlıq Salnaməsi // "Azərbaycan" qəzeti. Bakı, 17 noyabr 2021-ci il, №248 (8841), s.6.
6. İsabalayeva İ. "Xilaskarın quruculuq missiyası" // "Azərbaycan" qəzeti. Bakı, 16 noyabr 2021-ci il, №247 (8840), s.5.
7. İmaməliyev B. "Zəngəzurun dəhlizi reallığa çevrilir". "Azərbaycan" qəzeti. Bakı, 5 dekabr 2021-ci il, №264 (8857), s.4.
8. Hüseynov İ. Müzəffər Komandan, qüdrətli qurucu lider // "Azərbaycan" qəzeti. Bakı, 21 dekabr 2021-ci il, №277 (8870), s.4.
9. Cəfərli R. İnkişaf və Zəfər yolu // "Azərbaycan" qəzeti. Bakı, 20 dekabr 2021-ci il, №284 (8877), s.1 və 5.
10. Şəfəq N. "Zəfərə aparan yol" // "Respublika" qəzeti. Bakı, 13 noyabr 2020-ci il, №284, s.8.

Elektron mənbələr

11. İlham Əliyev xalqa müraciət edib. 10 noyabr 2020. - https://president.az/articles/45924 [Müraciət tarixi: 01.03.2022].
12. İlham Əliyev xalqa müraciət edib. 04 oktyabr 2020. - https://president.az/articles/41713 [Müraciət tarixi: 01.03.2022].
13. İlham Əliyev xalqa müraciət edib. 10 noyabr 2020. - https://president.az/articles/45924 [Müraciət tarixi: 01.03.2022].
14. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda və Şəhidlər xiyababnında olublar. 08 noyabr 2020. - https://president.az/articles/45756 [Müraciət tarixi: 01.03.2022].
15. İlham Əliyev xalqa müraciət edib. 01 dekabr 2020. - https://president.az/articles/48205 [Müraciət tarixi: 01.03.2022].
16. İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında iştirak ediblər. 10 dekabr 2020. - https://president.az/articles/48788 [Müraciət tarixi: 01.03.2022].
17. İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib. 26 fevral 2021. - https://president.az/articles/50738 [Müraciət tarixi: 01.03.2022].
18. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. 16 iyun 2021. - https://president.az/articles/52122 [Müraciət tarixi: 01.03.2022].
19. Azərbaycan və Türkiyə prezidentlərinin mətbuat üçün bəyanatları. 15 iyun 2021. - https://president.az/articles/52173 [Müraciət tarixi: 01.03.2022].

НАЗИМ МАМЕДОВ
Старший научный сотрудник отдела «История Карабаха» Института Истории имени А.А. Бакиханова Национальной Академии Наук Азербайджана, д.и.н.

ДЕКЛАРАЦИИ ДЕСЯТОГО НОЯБРЯ И ЕЕ ИСТОРИЧЕСКОЕ ЗНАЧЕНИЕ

Наконец, 10 ноября 2020 г. по настоянию политического руководства Российской Федерации с 00.00 часов по Московскому времени было объявлено о полном прекращении огня и всех военных операций в зоне Нагорно-Карабахского конфликта. Таким образом, часть Азербайджанской Республики была освобождена военным путем, а другая часть оккупированных армянами земель, была освобождена мирным путем на основе обязательства побежденной Армении, Декларации от 10 ноября, оцененной для Республики Армения как «акт о капитуляции». 1 декабря 2020 г. была восстановлена территориальная целостность и политико-правовая суверенность Азербайджанской Республики над всей территорией нашей страны. Таким образом, была обеспечена территориальная целостность Азербайджанской Республики, закрепленная международным правом. Декларация от 10 ноября 2020 г. еще раз утвердила международный, межгосударственный характер армяно-азербайджанского нагорно-карабахского конфликта. Вопрос о статусе Нагорного Карабаха перестала быть предметом переговоров, и был исключен аспект принципа «самоопределения» армян, живущих в этом регионе нашей республики. Была обновлена международная юридическая база урегулирования этого конфликта. Азербайджанская Республика самостоятельно, без посторонней помощи претворила в жизнь 4 резолюции СБ ООН.

Ключевая слова: Азербайджан, Карабах, Зангезурском уезд, Турци, Россия, Армения, Декларация, Вторая Карабахская война.

NAZIM MAMMADOV
Chief researcher of the "History of Karabakh" department of the Institute of History named after A.A. Bakikhanov of the National Academy of Sciences of Azerbaijan, Doctor of Historical Sciences

THE TENTH OF NOVEMBER DECLARATION AND HISTORY

On November 10, 2020, at the insistence of the political leadership of the Russian Federation, from 00:00 Moscow time, a complete ceasefire and all military operations in the zone of the Daghlig Garabagh conflict were announced. Thus, part of the Republic of Azerbaijan was liberated by military means, and the other part of the lands occupied by the Armenians was liberated peacefully on the basis of the commitment of the defeated Armenia, the Declaration of November 10, assessed for the Republic of Armenia as an “act of capitulation”. On December 1, 2020, the territorial integrity and political and legal sovereignty of the Republic of Azerbaijan over the entire territory of our country was restored. Thus, the territorial integrity of the Republic of Azerbaijan was ensured, enshrined in international law. The declaration of November 10, 2020 once again confirmed the international, interstate nature of the Armenian-Azerbaijani Daghlig Garabagh conflict. The issue of the status of Daghlig Garabagh ceased to be a subject of negotiations, and the aspect of the principle of “self-determination” of Armenians living in this region of our republic was excluded. The international legal framework for the settlement of this conflict was renewed. The Republic of Azerbaijan independently, without outside help, implemented 4 UN Security Council resolutions.

Keywords: Azerbaijan, Karabakh, Zangazur uyezd, Turkey, Russian, Armenia, Declaration, The Second Karabakh war.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.e.d. Ədalət Qasımov, t.e.d. İsmayıl Məmmədov.

UOT 32:93/94

XƏYYAM İSMAYILZADƏ
Bakı Dövlət Universitetinin dosenti
ekonika22@yahoo.com

CAHAN ƏLİYEVA
Bakı Dövlət Universiteti
cahan.a.262@gmail.com

AZƏRBAYCAN-PAKİSTAN: QARŞILIQLI FAYDALI İQTİSADİ-TİCARƏT ƏMƏKDAŞLIĞINDA POTENSİAL VƏ REAL İSTİQAMƏTLƏR

Məqalədə Asiya regionunun aparıcı dövlətlərindən biri olan Pakistan İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin, xüsusilə, iqtisadi-ticarət əlaqələrinin analizi göstərilir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iki dövlət arasındakı münasibətlər siyasi və hərbi sahədə intensiv inkişaf etsə də, iqtisadi-ticarət əlaqələrinin mövcud vəziyyəti və onun inkişafına maneəçilik törədən amillər burada geniş şəkildə öz əksini tapmışdır.

Açar sözlər: Azərbaycan Respublikası, Pakistan İslam Respublikası, İƏT, iqtisadi münasibətlər, ticarət əlaqələri, qarşılıqlı əməkdaşlıq, enerji sektoru, kənd təsərrüfatı sektoru, nəqliyyat infrastrukturu, kommunikasiya xətləri.

Giriş. Beynəlxalq siyasətdə iki dövlət arasındakı iqtisadi-ticarət əlaqələr ölkələr arasındakı qarşılıqlı əlaqənin mahiyyətini və dinamikasını proqnozlaşdırmaq və təhlil etmək üçün bir sınaq testi hesab olunur. Azərbaycan Respublikası və Pakistan İslam Respublikası tarixi, dini və siyasi cəhətdən ümumi olan iki qardaş müsəlman ölkəsidir. Pakistan və Azərbaycan fərqli coğrafi bölgələrdə yerləşsələr də, bu dövlətlər beynəlxalq siyasi gündəmə əməl etməkdə çox güclü bir koordinasiyaya malikdirlər. Hər iki dövlət bir-birinin beynəlxalq aləmdəki mövqeyini bütün məsələlərdə dəstəkləməyə meyllidir. Əlaqələr hər iki xalqın Fars İmperatorluğunun bir hissəsi olduğu dövrlərə gedib çıxır. Azərbaycanın 1991-ci ildə Sovet İttifaqından ayrılmasından sonra qurulan diplomatik əlaqələr bu iki ölkənin əməkdaşlığının sürətlə inkişaf etməsinə imkan yaratmışdır. Rəsmi diplomatik əlaqələr qurulduqdan sonra ikitərəfli münasibətlər sabit bir sürətlə inkişaf edir. O vaxtdan bəri ölkələr arasında getdikcə güclənən və daha da möhkəmlənən qardaşlıq əlaqələri qurulmuşdur. Azərbaycan torpaqlarını işğal etdiyi üçün Ermənistanın müstəqilliyini tanımaqdan imtina etməsi Pakistanın səmimi münasibətinin bir göstəricisidir. Buna cavab olaraq, Azərbaycan Respublikası da bu ölkənin Kəşmir probleminin həlli istiqamətində atdığı addımları dəfələrlə dəstəklədiyini bəyan etmişdir [2, s.320].

1995-ci ildə Pakistanın Baş naziri Nəvaz Şərifin Bakıya ilk səfərindən və 1996-cı ilin aprelində Azərbaycanın Ümumilli lideri Heydər Əliyevin Pakistana cavab səfərindən əvvəl siyasi sahədə əhəmiyyətli irəliləyiş əldə edilməsinə baxmayaraq, ölkələr iqtisadi sahədə istədikləri əməkdaşlıq səviyyəsinə çata bilmirdilər. İkitərəfli əlaqələrin qurulmasından sonra iki ölkə arasındakı ticarət həcmini artırmaq üçün səylər göstərildi və bir neçə il ərzində ticarət yaxşılığa doğru çox dəyişdi. Bununla belə, 1995-1997-ci illərdə Pakistanın Azərbaycanla ticarət dövriyyəsi bir qədər artdı. 1995-ci ildə 5 milyon ABŞ dolları, sonrakı ildə 12 milyon ABŞ dolları, 1997-ci ildə isə 13 milyon ABŞ dollarına yüksəlməsinə baxmayaraq, tədricən Pakistanın Azərbaycana ixracı durmadan azaldı. Təəssüf ki, nə Azərbaycan, nə də Pakistan öz potensialından kifayət qədər istifadə edə bilmirdi. Son illərdə Azərbaycanda sürətli iqtisadi artım və Pakistanın Asiya regionunun əsas iqtisadiyyatlarından biri olduğunu nəzərə alsaq, mövcud reallıq hər iki ölkə arasındakı əlaqələrin inkişaf imkanlarını əks etdirmədiyi aydın görünür [4, s.69].

Azərbaycan Respublikası və Pakistan İslam Respublikası ortaq tarixi keçmişə və dini yaxınlığa malik olsa da, ikitərəfli ticarət ildə cəmi 7,3 milyon ABŞ dolları təşkil edirdi. Sonra iki dövlət bu rəqəmi növbəti illər ərzində 500 milyon ABŞ dollarına yüksəltmək üçün əməkdaşlıq müqaviləsi imzalamışlar. İkitərəfli münasibətlərin yaranmasından keçən onilliklər ərzində hər iki tərəfdə iqtisadi əlaqələri ən yüksək səviyyəyə qaldırmaq üçün güclü istək vardır. Həm Azərbaycan, həm Pakistan tərəfi bu istiqamətdə əllərindən gələni əsirgəmirlər. Yalnız XXI əsrin əvvəllərindən Azərbaycanın neft və iqtisadi region kimi yüksəlişindən sonra iqtisadi əlaqələr sürətlənməyə başladı [6].

1995-ci ildə İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində müqavilə imzalanaraq iki dövlət arasında ticarət əlaqələrinə başlanılmışdır. Bu təşkilat ilk dəfə 1964-cü ildə İran, Türkiyə və Pakistanın iştirakı ilə "Regional İnkişaf Əməkdaşlığı Təşkilatı" olaraq qurulmuşdur. 1976-cı ildə imzalanmış İzmir Anlaşması bu təşkilatın inkişafında əhəmiyyətli rol oynamışdır. Belə ki, müqavilədə iştirakçı ölkələr həm azad ticarət zonasının, həm də gömrük ittifaqının yaradılmasını zəruri hesab edirdilər. Azərbaycan Respublikası İƏT Nazirlər Şurasının 1992-ci ilin 28 noyabr tarixində İslamabadda keçirilmiş növbədənkənar iclası zamanı təşkilata üzv olmuşdur. Bundan başqa, 1992-ci ildə İstanbulda keçirilmiş xarici işlər nazirlərinin toplantısında yeni üzvlər qəbul edildi. Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tacikistan və Əfqanıstan. Üzv dövlətlər 14 may 1996-cı ildə Türkmənistan sammitində qarşılıqlı iqtisadi əməkdaşlığın inkişaf etdirilməsini müzakirə etdilər və iqtisadi-ticarət əlaqələrinin prioritet sahələrini müəyyənləşdirdilər. Üzv ölkələr arasında nəqliyyat və kommunikasiya xətlərinin birləşdirilməsində əhəmiyyətli olan Tejeh-Saraxs-Məşhəd dəmiryolunun açılışı da olmuşdur [3, s.51].

İki dövlət arasında 1995-ci ildə bağlanmış Ticarət və İqtisadi Əməkdaşlıq Sazişinin müddəti 1998-ci ildə başa çatdı. Əfsuslar olsun ki, o vaxtdan bəri iki ölkə arasında iqtisadi məsələlərdə əhəmiyyətli razılaşma əldə edilməmişdir. Ticarət sektorunda rəsmi institusional tənzimləmələrin olması iş adamlarının iki ölkə arasında iqtisadi fəaliyyətə başlamasına birbaşa mane olurdu. Pakistanla Azərbaycan arasında mövcud olan yeganə iqtisadi institusional razılaşma Birgə Nazirlər Komissiyası (JMC) olaraq bilinirdi. Birgə Nazirlər Komissiyası təəssüf ki, hər iki tərəfin iqtisadi potensialından tam şəkildə istifadə edə bilməyən yeganə ikitərəfli ticarət quruluşu idi [5, s.46]. Bu vahid qurum hər iki tərəfin səlahiyyətlərinə lazımi qədər diqqət yetirmir və ölkələrin iqtisadi potensialını və mövcud ticarətin həcminin perspektivli olmamasını nəzərə alaraq tərəfdaşların hər biri Biznes Korporasiyasını daha da gücləndirmək üçün iş dünyasına müraciət edir. Azərbaycan-Pakistan Birgə Nazirlər Komissiyasının beşinci sessiyası 6-7 dekabr 2011-ci il tarixlərində Bakıda keçirildi. Tərəflər müxtəlif sahələrdə iqtisadi əlaqələrin genişləndirilməsi imkanlarını nəzərdə tutan protokol imzaladılar. Qarşılıqlı işgüzar səfərlərin, biznes forumların və sərgilərin keçirilməsi, Pakistan və Azərbaycan şirkətlərinin birgə infrastruktur layihələrinin həyata keçirilməsi barədə qərar qəbul edildi. İstər Azərbaycan, istərsə də Pakistan iş təcrübələrini paylaşaraq və bazarları birləşdirərək ikitərəfli ticarəti artırmaq imkanına malikdirlər. Belə ki, neft Azərbaycanın əsas əmtəəsi olduğu və Pakistanın ciddi enerji çatışmazlığını nəzərə alaraq, Pakistan Azərbaycana neft və qaz sektorunda sərmayə qoyan qarşılıqlı bazardır.



Azərbaycanın Pakistanla Ticarəti: 2001-2010 [4, s.69].



1 Mart 2017-ci il tarixində Pakistanın paytaxtı - İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Zirvə Toplantısı keçirildi. Görüşdə Pakistan İslam Respublikasının Baş naziri - Məhəmməd Nəvaz Şərif və Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın hərbi sənaye kompleksi məhsullarının Azərbaycana idxalına dair müqavilə bağlamaq üçün qarşılıqlı razılığa gəldilər. Öz növbəsində, müdafiə sənayesi və iqtisadiyyatla bağlı məsələlər də müzakirə edildi. Pakistan və Azərbaycanın energetika nazirlikləri arasında 2017-ci ilin fevral ayında bağlanmış ikitərəfli müqaviləyə əsasən, Azərbaycan Pakistana neft və qaz məhsulları, o cümlədən, qızdırıcı neft, benzin, dizel yanacağı və təbii qaz ixrac etdi. 2017-ci ildə iki ölkə arasındakı əməliyyatların ümumi dəyəri 8,34 milyon dollar olması təxmin edilirdi. Bu da, 2016-cı ilin eyni dövrü ilə müqayisədə 22,46% artım demək idi [8].

Əməkdaşlıq və müştərək müəssisələr üçün digər əhəmiyyətli sektorlardan biri enerji sektorudur. Bildiyimiz kimi, Azərbaycan neft və enerji istehsal edən ən böyük dövlətlərdən biridir. Pakistan isə bu məhsulların ən böyük istehlakçılarındandır. Hər iki dövlət Pakistanın enerji ehtiyaclarını ödəmək üçün əməkdaşlıq müqaviləsi imzaladı. Azərbaycandan mayeləşdirilmiş təbii qazın (LNG) idxalı ilə bağlı Pakistanla Azərbaycan arasında dialoqlar da bu işə idmət edirdi [6].

Azərbaycan neft və qaz kəşfiyyatı sahəsində öz təcrübəsini Pakistan tərəfinə təklif edə bilər. Belə ki, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), AZ Petrol, Branobel, Xəzər Beynəlxalq Neft Şirkəti (CIPC), Nobel Petrol Grupu, Şimali Abşeron İdarəetmə Şirkəti (NAOC) və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti də (SOCAR) daxil olmaqla yeddi şirkət bu sektorda tanınır və Pakistana sərmayə qoya bilər. Pakistanda mövcud olan "1976-cı il Xarici İnvestisiyaların Mühafizəsi Qanunu"na əsasən, yerli qanunlar nəzərə alınmaqla, Pakistanın neft sektoruna sərmayə qoyulması yüksək təhlükəsizlik ilə təmin olunur [5, s.50].

Azərbaycanın Pakistanda, xüsusən də Xayber-Paxtunxva və Bəlucistan əyalətlərində neft və təbii qaz hasilatına sərmayə qoyması üçün geniş imkanları var. Pakistan hazırda ölkədə enerji və qaz çatışmazlığı problemi ilə üz-üzədir. Azərbaycandan enerji mənbələri alaraq bu çatışmazlıqları aradan qaldırmaq mümkündür. Məsələn, hazırda enerji böhranı yaşayan Sind əyalətində, bölgə hökuməti azərbaycanlı sahibkarları qaz və alternativ enerji mənbələri üzərində işləyən kiçik elektrik stansiyalarının inşasına sərmayə qoymağa dəvət edir. Bu sahədə geniş təcrübəyə malik olan Azərbaycan qardaş ölkədə bu sektorun inkişafına töhfə verə bilər. Prezident İlham Əliyev Xayber-Paxtunxva əyalətində Azərbaycan milli şirkətinə 1000 meqavat elektrik enerjisi istehsal edəcək bir stansiya tikməyi göstəriş verməsi əməkdaşlığın konkret nümunəsi hesab oluna bilər. Əlbəttədə ki, oxşar layihələrin gələcəkdə də həyata keçirilməsi planlaşdırılırdı [4, s.59].

İki dövlət arasında münasibətlərin inkişafı və keçirilən görüşlər gələcəkdə ikitərəfli ticarətin inkişafına daha yaxşı istiqamətlənməli idi. Pakistan potensial olaraq Azərbaycan bazarlarında digər rəqiblərini əvəz edə bilər. Əvvəllər qeyd edildiyi kimi, bütün dünyada ucuz əmtəə olan neft və qaz Azərbaycan iqtisadiyyatının böyük bir hissəsini təşkil edir və qiymətlərin sabit qalacağı ehtimal olunurdu. Beləliklə, Azərbaycan Pakistanın iqtisadiyyatına qidalandırmaq üçün yeni gəlir mənbələrinin tapılmasına kömək edə bilər. Bu səbəbdən, paralel olaraq, 2012-ci ildə Azərbaycan iqtisadi bazarların və ticarət yollarının şaxələndirilməsini nəzərdə tutan '2020-ci ildə Azərbaycan-Gələcəyə Baxış' iqtisadi vizyonunu başlatdı. Azərbaycan Pakistanın kənd təsərrüfatı və tekstil geyim sektoruna diqqət ayırması böyük bir potensial ola bilər. Pakistan Azərbaycanın enerji sektoruna investisiya yatırmaqla yanaşı, ticarət sektorlarına da sərmayə qoya bilər. Eyni zamanda, tələb olunan mal və xidmətlərin tədarükünü uğurla davam etdirmək də mümkündür. Bütün bunlar yaxın gələcəkdə hər iki tərəfdə imkanların və işgüzar fəaliyyətin yaxşı nəticələnə biləcəyindən xəbər verir [6].

2005-ci ildə iki ölkə arasında iqtisadi və ticarət əlaqələrini inkişaf etdirmək üçün yeni imkanlar yaranmışdır. 2005-ci ildə Bakıda Pakistan Milli Bankının nümayəndəliyinin açılması iki ölkə arasındakı iqtisadi əlaqələrin inkişafına töhfə verə biləcək əhəmiyyətli bir hadisə idi ki, bu da Azərbaycan ilə Pakistan arasında əlaqələrin inkişafının sürətləndirilməsində mühüm rol oynayırdı. Pakistan Milli Bankının Bakı filialının açılması və Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti cənab Ələkbər Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyətinin və Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən şirkət nümayəndələrinin 10 fevral 2005-ci ildə Karaçi şəhərində keçirilən “Expo Pakistan 2005” beynəlxalq ticarət sərgisində iştirakı yuxarıda

göstərilənlərə bariz nümunədir. Hər iki ölkə ticarət həcmini artırmaq niyyətində idi və bütün bunlar əməkdaşlığın hüquqi əsası olmuşdur [1, s.182].

2013-14-cü illərdə Azərbaycana Əsas İxrac Məhsulları
(Milyon ABŞ dolları)

İxrac məhsulları	**Miqdar**
Düyü	28.06
Meyvə	3.31
Yağ toxumları və yağlı meyvələr	1.99
Sintetik parçalar	0.98

Azərbaycan Pakistan təcrübəsi nəzərə alınmaqla, dərman və cərrahiyyə mallarının istehsalı üzrə birgə müəssisələr yarada bilər. İqtisadi əməkdaşlıq fəal şəkildə inkişaf edərsə, hər iki ölkə on il ərzində ildə 10 milyard ABŞ dolları həcmində gəlir əldə etməyi ümid edir. Artıq 20 ildir ki, Pakistanla Azərbaycan arasında ikitərəfli əlaqələr yüksələn xətlə inkişaf edir. Müşahidələr göstərir ki, hər iki dövlət beynəlxalq aləmdə fəal əməkdaşlıq edir və beynəlxalq təşkilatlar platformasında bir-birinin mövqeyini təmənnasız olaraq dəstəkləyirlər. Ticarətin inkişafının aşağı səviyyədə olmasına baxmayaraq, dövlətlər beynəlxalq ticarət vasitəsilə müxtəlif məhsullar daxil olmaqla bir-birilərinin istehsal və xidməti ilə yaxından maraqlanırlar. Hər iki tərəfin səlahiyyət sahibləri iqtisadi sahədə əldə etdikləri nailiyyətlərin səviyyəsini mövcud olan siyasi səviyyəyə qaldırmaq öhdəliklərini nümayiş etdirirlər. Son zamanlar Azərbaycan və Pakistan bütün sahələrdə arzu olunan əməkdaşlığa nail olmaq məqsədilə iqtisadi əlaqələri genişləndirmək üçün yeni təşəbbüslərlə çıxış etməyə başlamışlar.

Hər iki ölkənin bank, maliyyə, təhsil, kənd təsərrüfatı, elm, informasiya texnologiyaları, eləcə də neft-qaz, turizm, mühəndislik, mədəniyyət və investisiya sektorlarında əlaqələri inkişaf etdirmək üçün bir sıra potensial və real imkanları var. Pakistan toxuculuq sənayesi üçün Azərbaycandan pambıq almaqda maraqlıdır. Eyni zamanda, Pakistan tekstil markalarının hələ sovet dövründə məşhur olduğu 55 hazır tekstil məhsulunu, həmçinin, Azərbaycanda yüksək tələbat olan şəkər və tibbi ləvazimatları da ixrac edə bilər. Həmçinin, Azərbaycan digər Asiya ölkələrinə daha çox məhsul ixrac etmək məqsədilə öz məhsullarının Karaçi limanında saxlanılması imkanından istifadə etməyə çalışır. Hər iki ölkə ticarət və iqtisadi əlaqələrin inkişafında israrlıdır. Həm Azərbaycan, həm də Pakistan hesab edir və əmindir ki, dövlətlər arasında iqtisadi inkişafa mane olan problemlərin dərindən öyrənilməsi və onların aradan qaldırılması yaxın gələcəkdə ticarətin həcmini dəfələrlə artıra bilər.

2021-cu ilin yanvar-iyun aylarında Azərbaycanın Pakistan İslam Respublikası ilə xarici ticarətinə dair məlumatlar (min ABŞ dolları)		
İxrac (Export)	**İdxal** (Import)	**Dövriyyə** (Turnover)
176,71	5.123,14	5.299,85

Mənbə: *Dövlət Gömrük Komitəsi*
Qeyd: *hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməsi başa çatdırılmış ixrac olunan xam neft və təbii qazın dəyərinə dair məlumatlar nəzərə alınmışdır[7].*

Pakistanın aqrar sektorda böyük təcrübəsi, o cümlədən düyü, pambıq məhsulları, hazır geyim və tekstil parçaları, kənd təsərrüfatı ilə bağlı məhsullarının Azərbaycana ixrac etməsi potensialı iki ölkə arasında ticarətin həcmini əhəmiyyətli dərəcədə artıra bilər. Prinsipcə, mühəndislik və istehlak malları, dərman vasitələri, idman malları, cərrahiyyə alətləri və çadırlar və s. məhsullarla da ticarəti inkişaf etdirmək mümkündür. Hər iki tərəfin özəl sektorunun nümayəndələri bu işi görməklə əlaqələr gücləndirməlidir. Onlar müstəqil surətdə qarşılıqlı maraq doğuran sahələri müəyyən edə bilər və bu istiqamətdə ticarət əlaqələrinin də genişləndirilməsinə nail ola bilərlər. İş adamları birgə müəssisələ-

rin yaradılması imkanlarını da araşdıra bilər. İki qardaş dövlət bir-birilərinə ən çox sevilən millət (MFN) statusu verərək ticarət fəaliyyətini asanlaşdıra və əlaqələri əhəmiyyətli dərəcədə artıra bilər, üstəgəl, siyasi və strateji əlaqələr də əlverişlidir, buna görə də Azad Ticarət Sazişi (FTA) və ya Güzəştli Ticarət Sazişini asanlıqla (PTA) imzalamaq mümkündür. Bu müqavilələr özəl sektor üçün qarşılıqlı bazara çıxış üçün daha təsirli vasitə hesab olunur. Bütün bunları həyata keçirtmək mümkün olarsa, Azərbaycan-Pakistan ikitərəfli münasibətləri, o cümlədən iqtisadi-ticarət əlaqələrini daha yüksək səviyyəyə qaldırmaq olar [5, s.50].

Nəticə. Tam əminliklə söyləmək olar ki, bu gün Azərbaycan-Pakistan münasibətləri nəinki iqtisadi-ticarət sahəsində, bütün sahələrdə dövlət və hökumət başçılarının səyi nəticəsində özünün ən yüksək inkişaf mərhələsini yaşayır. Belə ki, son vaxtlar iki ölkə arasındakı hərbi-siyasi və iqtisadi əlaqələri intensivləşdirmək və mövcud potensialdan daha səmərəli istifadə etmək üçün hər iki dövlət əllərindən gələni əsirgəmirlər. Azərbaycanın II Qarabağ müharibəsində qazandığı qələbə və regionda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları ölkələrimiz arasında əlaqələrin dərinləşməsi istiqamətində yeni perspektivlər açır və gələcəyə nikbin baxmaq üçün böyük ümidlər vəd edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi - AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ – (sənədlər məcmuəsi) 2005, I hissə, s.182-183.
2. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, Azərbaycan nəşriyyatı, 2005, 631 s.
3. Şəkərəliyev A.Ş Dövlətin İqtisadi Siyasəti: Reallıqlar və Perspektivlər. B.: Təhsil, 2009, 414 s.
4. Azerbaijan&Pakistan 20 Years of Friendship and Cooperation - Mohammed Asif Noor / The Diplomatic Insight, 2013, p.53-57.
5. Pakistan-Azerbaijan Economic and Defence Cooperation - Kamal Makili-Aliyev and Khurram Abbas / IPRI Journal Pakistan XVI-Azerbaijan, No.1: 42-58
6. Azerbaijan and Pakistan Trade and Business Potential - Muhammad Asif Noor/ Daily Times, October 18th 2018. - https://dailytimes.com.pk/311389/azerbaijan-and-pakistan-trade-and-business-potential/
7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi – rəsmi səhifə. - https://economy.gov.az/en/article/international-economic-cooperations
8. Azerbaijan, Pakistan discuss energy co-op / Ləman Məmmədova / Azernews.az İnformasiya Agentliyi, 30 January 2019. - https://www.azernews.az/oil_and_gas/144816.html

ХАЙЯМ ИСМАИЛЗАДЕ
Доцент Бакинского Государственного Университета

ДЖАХАН АЛИЕВА
Бакинский Государственный Университет

АЗЕРБАЙДЖАН-ПАКИСТАН: ПОТЕНЦИАЛЬНЫЕ И РЕАЛЬНЫЕ НАПРАВЛЕНИЯ ВЗАИМОВЫГОДНОГО ЭКОНОМИЧЕСКОГО И ТОРГОВОГО СОТРУДНИЧЕСТВА

В статье анализируются отношения между Исламской Республикой Пакистан, одной из ведущих стран азиатского региона, и Азербайджанской Республикой, в частности торгово-экономические отношения. Хотя отношения между двумя странами интенсивно развивались в политической и военной сферах после восстановления независимости Азербайджана, здесь широко отражены современное состояние торгово-экономических отношений и факторы, препятствующие их развитию.

Ключевые слова: Азербайджанская Республика, Исламская Республика Пакистан, ОЭС, экономические отношения, торговые отношения, взаимное сотрудничество, энергетический сектор, сельскохозяйственный сектор, транспортная инфраструктура, линии связи.

KHAYYAM ISMAILZADEH
Associate Professor of Baku State University

JAHAN ALİYEVA
Baku State University

AZERBAIJAN-PAKISTAN: POTENTIAL AND REAL DIRECTIONS OF MUTUALLY BENEFICIAL ECONOMIC AND TRADE COOPERATION

The article analyzes the relations between the Islamic Republic of Pakistan, one of the leading countries in the Asian region, and the Republic of Azerbaijan, in particular, economic and trade relations. Although relations between the two countries have developed intensively in the political and military spheres since the restoration of Azerbaijan's independence, the current state of economic and trade relations and the factors hindering its development are widely reflected here.

Keywords: Republic of Azerbaijan, Islamic Republic of Pakistan, ECO, economic relations, trade relations, mutual cooperation, energy sector, agricultural sector, transport infrastructure, communication lines.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 yanvar 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: s.ü.f.d. Fərhad Hüseynov, t.e.d. Sevinc Yusifzadə.

UOT 32:93/94

CAHANGİR CAHANGİRLİ
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

ELZA HACIYEVA
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
elza.hajiyeva25@gmail.com

İKİNCİ QARABAĞ SAVAŞI DÖVRÜNDƏ İNFORMASİYA MÜHARİBƏSİ

Məqalədə 2020-ci ilin sentyabr-noyabr aylarında İkinci Qarabağ müharibəsi dövründə həyata keçirilən hərbi əməliyyatlar zamanı ölkəmizə qarşı olunan informasiya təxribatları, eləcə də sosial şəbəkələrdə və digər media platformaları üzərindən müşahidə olunan informasiya təhdidlərinə qarşı mübarizə, informasiya müharibəsində buraxılan səhvlər və onların nəticələrindən bəhs olunur.

Qeyd edək ki, hərbi və siyasi müstəvidə sarsıdıcı zərbələr alaraq məğlubiyyətə düçar olan Ermənistan sosial şəbəkələr və digər yeni media platformaları vasitəsilə ölkəmizə qarşı informasiya təxribatlarını genişləndirməyə cəhd etmiş, lakin buna baxmayaraq, Azərbaycan bütün bu təxribatların qarşısını alaraq, Ermənistan üzərində təkcə döyüş meydanında deyil, həmçinin diplomatiya sahəsində də üstünlüyünü qoruyub saxlamış, işğalçı dövləti beynəlxalq miqyasda ifşa etməyə nail olmuşdur.

Açar sözlər: informasiya təhlükəsizliyi, informasiya siyasəti, informasiya təxribatı, informasiya müharibəsi.

Giriş. Müasir dövrümüzdə informasiya təhlükəsizliyinin təmini hər bir dövlətin siyasətində prioritet təşkil edir. Belə ki, informasiya təhlükəsizliyi siyasəti dövlətin arzuolunmaz daxili və xarici təhdidlərdən qorunması, milli mənafelərinin müdafiəsi, hətta belə demək mümkünsə, siyasi arenada üstünlük qazanması baxımından müstəsna əhəmiyyət kəsb edir. Xüsusən də fövqəladə və ya hərbi vəziyyət rejimlərində ölkənin təhlükəsizliyinə yönəlmiş məqsədli informasiya təhlükələrinin neytrallaşdırılması və ictimai rəyin düzgün formalaşdırılması olduqca zəruridir. Hətta belə dövrlərdə milli informasiya məkanının mühafizəsi məqsədilə onun məhdudlaşdırılması, qanunvericiliklə zəruri hesab edilən məlumatların əhatə dairəsinin dəqiq müəyyənləşdirilməsi bu baxımdan xüsusi qeyd olunmalıdır (1). Bunun fonunda biz İkinci Qarabağ müharibəsi dövründə informasiya təhlükəsizliyinin təşkili və təmin olunmasına diqqət yetirsək, bu məsələnin ölkə siyasətində nə qədər əhəmiyyətli olduğuna bir daha şahidlik etmiş olarıq.

Müstəqil Azərbaycan Respublikasının təxminən 30 ilə yaxın bir müddətdə işğal altında olan ərazilərinin azad edilməsi məqsədilə 2021-ci ilin sentyabrın 27-dən noyabrın 10-dək 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsinin gedişi ölkəmizin informasiya təhlükəsizliyi siyasətində mühüm uğurları ilə yanaşı, bəzi zəif cəhətlərini də aşkara çıxarmışdır.

Müharibə dövründə, eləcə də post-müharibə dövründə ölkəmizin qarşısında duran əsas vəzifələrdən biri Ermənistanın və ermənipərəst dairələrin ölkəmizə qarşı apardıqları informasiya müharibəsinin, informasiya təxribatlarının qarşısının alınması məsələləri olmuşdur. Müşahidələr də göstərmişdir ki, hərbi və siyasi müstəvilərdə sarsıdıcı zərbələr almış və məğlubiyyətə düçar olmuş Ermənistan məhz kütləvi informasiya vasitələri, sosial şəbəkələr və digər media platformaları üzərindən ölkəmizə qarşı informasiya təxribatlarını genişləndirməyə çalışmışdır. Lakin buna baxmayaraq, respublikamız təkcə döyüş meydanında deyil, həmçinin informasiya müharibəsində də Ermənistan üzərində üstünlüyünü qorumuş və təcavüzkar Ermənistan dövlətinin beynəlxalq miqyasda ifşasına və məğlubiyyətinə nail olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müharibə və post-müharibə dövründəki fəaliyyəti, yerli və xarici mediada müsahibələri, xalqa müraciətləri, həmçinin mühüm açıqlama və bəyanatları ölkəmizə qarşı informasiya təxribatlarının qarşısının alınması və milli həqiqətlərin, yəni münaqişənin tarixi, səbəbləri və bu günü ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə, beynəlxalq aləmə çatdırılması informasiya mü-

haribəsində üstünlüyün əldə olunması baxımından xüsusi əhəmiyyət kəsb etmişdir. 44 günlük Vətən müharibəsi dövründə 30-dək əcnəbi media qurumuna müsahibələr verən Prezident İlham Əliyev Ermənistanın və onu açıq şəkildə dəstəkləyən dövlətlərin beynəlxalq hüququn norma və prinsiplərinə zidd mövqelərini real faktlar və konkret arqumentlər vasitəsilə əsaslandırmışdır. Ölkə başçısı İlham Əliyev müharibə dövründə "Əl-ərəbiyyə" və digər televiziya kanallarına müsahibəsində ölkəmizin hərbi əməliyyatların dayandırılması üçün prinsipial və qətiyyətli mövqeyini ifadə etmiş, həmçinin həmin dövrdə "Əl-Cəzirə", "TRT Haber", CNN-Türk, "CNN İnternational", "Sky News", "Fox News", "Figaro", "La Republica", "Perviy kanal", "Rossiya1" telekanallarına verdiyi müsahibələrində Ermənistanın münaqişənin yenidən alovlanmasına gətirib çıxaran açıq təxtribatlarını, beynəlxalq hüququn norma və prinsiplərini açıq şəkildə pozaraq ağır müharibə cinayətləri törətməsini, eləcə də ATƏT-in Minsk Qrupunun fəaliyyətinin səmərəsizliyi, Ermənistanın qeyri-konstruktiv davranışlarının və işğalçılıq siyasətinin region üçün təhdidləri və münaqişənin həllinin regionun gələcək taleyi baxımından mühüm əhəmiyyətinə dair məsələləri konkret faktlar və arqumentlərlə dünya ictimaiyyətinin diqqətinə çatdırmışdır (2; 3; 4).

44 günlük Vətən müharibəsi dövründə bir sıra informasiya təxribatları ilə üz-üzə qalmışdıq. Belə ki, hərbi əməliyyatların gedişi zamanı müşahidə edilən informasiya təxribatları ölkənin informasiya təhlükəsizliyini real təhdid qarşısında qoyurdu. Vətən müharibəsi dövründə, demək olar ki, hərbi əməliyyatların başlandığı ilk günlərdən Ermənistan tərəfi ölkəmizə qarşı açıq informasiya təxribatlarına əl atmışdır. Belə ki, Ermənistan tərəfi rəsmi Bakının guya Türkiyə vasitəsilə Yaxın Şərq dövlətlərindən muzdlu döyüşçülər cəlb etməsini iddia etmişdir. Hətta Ermənistan xüsusi xidmət orqanları bu ittihamla bağlı saxta videogörüntülər hazırlayaraq sosial şəbəkələrdə dezinformasiyalar şəklində yaymışdır. Təəssüflə qeyd etmək lazımdır ki, 44 günlük Vətən müharibəsi dövründə, eləcə də post-müharibə dövründə Ermənistana və onun işğalçılıq siyasətinin bariz nümunəsi olan belə təxribat xarakterli dezinformasiyalara açıq formada dəstək vermiş bəzi dövlətlər və KİV-lər də mövcud idi. Təbii ki, onların bu cür əsassız və saxta məlumatları yaymaqda məqsədləri aydın məsələ idi. Belə ki, Azərbaycanın apardığı haqq mübarizəsinin mahiyyətinə kölgə salmaq, beynəlxalq ictimaiyyətin diqqətini işğal faktından yayındıraraq, dünya ictimaiyyətində azərbaycanlılar haqqında mənfi rəy formalaşdırmaq, informasiya cəbhəsində üstünlüyü ələ almaq, bölgədə guya "terrorçuların sayının artması" iddiası ilə narahatlıq yaratmaq, Türkiyənin guya münaqişədə "üçüncü tərəf" olması kimi əsassız iddialarla qardaş ölkənin regionda getdikcə güclənən nüfuzundan narahat olan bir sıra dövlətləri Azərbaycana qarşı qoymaq, Azərbaycanın apardığı əks-hücum əməliyyatlarını "terrorçuluq" kimi təqdim etmək, İslam dinini terrorla əlaqələndirmək, dünya siyasətinə təsir imkanları olan ölkələrin əks-hücum əməliyyatlarını dayandırması üçün Azərbaycana təzyiq göstərmələrinə nail olmaq, Rusiyanı və onun təsirində olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını Türkiyə və Azərbaycanla üzbəüz qoymaq və s. bu kimi məsələlər mənfur düşmənin məqsədləri sırasına daxil idi. Xüsusi tapşırıq alan bəzi Qərb jurnalistləri mətləbi yayındıraraq, əsasən, dezinformasiyalara istinad edib, Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar səsləndirirdilər. Belə ki, münaqişədə Türkiyənin iştirakı, F-35-lərdən istifadə, Suriya və Liviyadan muzdluların cəlb olunması, atəşkəs rejiminin guya pozulması və bir çox digər məqamlarla bağlı qıcıqlandırıcı suallar ölkə başçısına ünvanlanırdı. Lakin bütün bunlara baxmayaraq, dövlətimizin başçısı hər dəfə bu ittihamları təkzibolunmaz fakt və dəlillərlə təkzib edir, Qarabağın tarixindən, münaqişənin səbəblərindən danışaraq, dünya ictimaiyyətinin diqqətinə əsl həqiqətləri çatdırırdı.

Lakin bütün bu dezinformasiyalara, yalan və heç bir əsası olmayan məlumatların yayılmasına və bəzi dairələr tərəfindən dəstək görməsinə baxmayaraq, ölkə başçısı İlham Əliyev yerli və xarici KİV-lərə müsahibələrində kifayət qədər ciddi arqumentlərlə bu saxta iddiaların əsassızlığını sübuta yetirmiş, hətta "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında təşkil olunmuş debatda Ermənistanın baş naziri Nikol Paşinyanı debat çərçivəsində çıxılmaz vəziyyətə salmışdır (5).

Hətta sentyabrın 29-da Rossiya 1 telekanalında yayımlanan "60 dəqiqə" proqramı çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev aparıcıların suallarını cavablandırarkən, öz açıqlamalarında, Türkiyə polemikasına dair: "Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstək-

lədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır." - deyə cavab verib. Aparıcının Suriya Milli Ordusunun Qarabağda döyüşməsinə dair verdiyi suala isə: "Bu, növbəti feyk-nyusdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur və bunu erməni təbliğatı ortaya atıb." - deyə bildirib (7).

Təbii ki, bütün bu arqumentlərin qarşısında Azərbaycanı muzdlu döyüşçüləri hərbi əməliyyatlara cəlb etməkdə təqsirləndirən Ermənistan rəsmiləri, habelə ermənipərəst dairələr, KİV-lər bununla bağlı heç bir fakt ortaya qoya bilməmişlər. Ali Baş Komandan bildirmişdir ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının sayı Ermənistan ordusu ilə müqayisədə üç dəfə çoxdur. Belə ki, ölkəmiz apardığı əks-hücum əməliyyatları ilə bağlı qismən səfərbərliyə ehtiyac duyduğu halda, Ermənistan tam səfərbərlik elan etmişdir. Hətta Azərbaycanda əsasən 35 yaşınadək olan gənclər səfərbərliyə cəlb olunduqları halda, təcavüzkar ölkənin 50 yaşadək olan vətəndaşları polis və zor gücünə döyüş bölgəsinə göndərilmişlər. Əhalisinin sayı 10 milyon nəfər təşkil edən, 100 min nəfərlik yüksək döyüş qabiliyyətli və texniki təchizatlı peşəkar orduya, habelə 300 min nəfərlik ehtiyat qüvvəyə malik Azərbaycanın isə Yaxın Şərqdən hansısa muzdlu döyüşçü cəlb etməyə ehtiyacı yoxdur. Dövlət başçısı onu da vurğulamışdır ki, yüksək texnologiyaların, uzaqgörmə cihazlarının mövcudluğu, kosmosdan yüksək dəqiqliklə foto və videoçəkilişlərin aparıldığı bir zamanda muzdlu döyüşçülərdən istifadə faktının gizlədilməsi mümkün deyildir (1).

Müharibə dövründə Ermənistan və ermənipərəst dairələrin səsləndirdiyi cəfəng iddialardan biri də guya Türkiyə Respublikasının hərbi hava qüvvələrinə məxsus "F-16" qırıcı təyyarəsinin təcavüzkar ölkənin "Su-25" qırıcı təyyarələrini vurması ilə bağlı olmuşdur. Bununla ermənipərəst dairələr dünya ictimaiyyətində Azərbaycanın guya müharibədə Türkiyənin hərbi dəstəyindən istifadə etməsi ilə bağlı saxta rəy formalaşdırmağa çalışmışlar. Lakin Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın "Fiqaro" qəzetinə və digər nüfuzlu xarici KİV-lərə müsahibələrində bu iddiaların əsassızlığını bəyan etmiş, Ermənistanın hərbi cinayətlərini gizlətmək üçün davamlı olaraq dezinformasiya və "feyk" xarakterli məlumatlardan istifadə etdiyini vurğulamışdır (6). Bildirmişdir ki, belə yalanların məqsədi Türkiyənin münaqişədə guya "hərbi tərəf kimi iştirakı" barədə saxta rəy formalaşdırmaq, Rusiya Federasiyasının da təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) regiondakı hərbi əməliyyatlara cəlb etməkdir. Yeri gəlmişkən, onu da bildiririk ki, Azərbaycanın Vətən müharibəsi günlərində informasiya cəbhəsində mühüm uğurlarından biri də Ermənistanın saxta məlumatlar, dezinformasiyalar əsasında KTMT-ni hərbi əməliyyatlara cəlb etmək cəhdlərinin qarşısını alması olmuşdur. Belə ki, Rusiya Prezidenti Vladimir Putin ilk günlərdən hərbi əməliyyatların Ermənistan ərazisində getmədiyini vurğulamaqla, KTMT-nin bu prosesə hər hansı bir formada müdaxilə etməyəcəyini və Ermənistanın bu qurumdan hərbi dəstək gözləntilərinin mənasızlığını bildirmişdir. Rusiya Prezidentinin bu açıqlaması isə Rusiyanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və Ermənistanın işğalçı tərəf olduğunu açıq şəkildə nümayiş etdirir. Xüsusi qeyd etmək lazımdır ki, Rusiya Federasiyasının hərbi əməliyyatlara bu cür loyal və bitərəf münasibəti, təbii ki, Azərbaycanın siyasi sferada diplomatik uğurları fonunda təmin edilmişdir.

Müharibə dövründə ön cəbhədə olduğu kimi, arxa cəbhədə də ölkəmizə qarşı sosial şəbəkə və digər media platformalarında müşahidə edilən açıq informasiya təhdidləri onlara qarşı ciddi mübarizə aparılması zərurətini ortaya qoymuşdur.

Vətən müharibəsi dövründə Ermənistanın və ermənipərəst dairələrin həmçinin sosial şəbəkələrdə və digər rəqəmsal media platformalarında ölkəmizə qarşı apardıqları informasiya müharibəsinin, informasiya təxribatlarının qarşısının alınması da diqqət mərkəzində olmuşdur. Belə ki, müharibə dövründə Ermənistan və ermənipərəst dairələrin daha çox "facebook" sosial şəbəkəsi və "Telegram" kanalı üzərindən ölkəmizlə bağlı yalan və iftira xarakterli məlumatlar paylaşması geniş müşahidə olunmuşdur.

Müxtəlif ölkələrdə yaşayan ermənilər şəxsi "Telegram" kanalları üzərindən Azərbaycana qarşı məkrli təbliğat aparmış, Dağlıq Qarabağdakı qondarma "status" məsələsini qabartmağa çalışmışlar. Ermənistan tərəfi regionda baş verən hadisələrin mahiyyətini təhrif olunmuş formada beynəlxalq ictimaiyyətin diqqətinə çatdıraraq, beynəlxalq rəyi çaşdırmağa cəhd göstərmişlər. Lakin Azərbaycan

tərəfi "Telegram" kanalında fəal iş apararaq müəyyən informasiya təhdidlərinin və təxribatlarının zərərsizləşdirilməsini təmin edə bilmişdir.

Daxili informasiya məkanının mühafizəsi məqsədilə müharibə dövründə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli "Hərbi vəziyyət elan edilməsi haqqında" Fərmanı ilə sentyabrın 28-i saat 00:00-dan etibarən Bakı, Gəncə, Sumqayıt, Yevlax, Mingəçevir, Naftalan şəhərlərində, Abşeron, Cəbrayıl, Füzuli, Ağcabədi, Beyləqan, Ağdam, Bərdə, Tərtər, Goranboy, Göygöl, Daşkəsən, Gədəbəy, Tovuz, Şəmkir, Qazax və Ağstafa rayonlarında hərbi vəziyyət elan edilmişdir [5]. "Hərbi vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, vətəndaşların internetdən istifadə hüquqlarının qismən məhdudlaşdırılması zərurəti ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədindən irəli gəlmişdir [6].

Müharibə dövründə inernetdən istifadə hüquqlarının məhdudlaşdırılması zərurəti isə əvvəlki lokal hərbi əməliyyatlar şəraitində KİV-lərin və bəzi dövlət qurumlarının mətbuat xidmətlərinin informasiya yayımı sahəsində yol verdiyi ciddi nöqsanlar, eləcə də sosial şəbəkələrdə dövlət maraqları baxımından arzuolunmaz informasiya xaosunun yaranması səbəbindən irəli gəlmişdir. Məhz buna görə də 44 günlük Vətən müharibəsi dövründə dövlətin bu sahədə müəyyən tənzimləmə tədbirləri həyata keçirməsi, hərbi əməliyyatlar zamanı dövlət və hərbi əhəmiyyətli sirlərin qanunvericiliyə müvafiq şəkildə qorunması, habelə gözlənilən risk və təhdidlərin ciddiliklə nəzərə alınması baxımından zəruri addım olmuşdur.

Bütün bunları həyata keçirmək üçün müharibə şəraitində operativ əlaqələndirmə qurumunun – Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzinin (HİM) yaradılmasına ehtiyac yaranmış, mərkəz qarşısında hərbi əməliyyatlar dövründə Azərbaycanın hərbi informasiya siyasətini idarə etmək, tənzimləmək, informasiya təhdidlərini dəf etmək kimi vəzifələr qoyulmuşdu. Müharibə dövründə cəmiyyətin cəbhədəki vəziyyətlə bağlı informasiya tələbatını təmin etmək məqsədilə Hərbi İnformasiya Mərkəzində KİV-lər üçün müntəzəm mətbuat konfransları təşkil olunmuş, ən son hərbi məlumatlar açıqlanmışdır.

Həmçinin cəbhə bölgəsindəki vəziyyətlə bağlı bütün informasiyaların, foto və videoların yalnız Müdafiə Nazirliyinə və onun nəzdində fəaliyyət göstərən Hərbi İnformasiya Mərkəzinə istinadla yayımının təmin edilməsi media və ictimaiyyət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmişdi.

Müharibə dövründə dezinformasiyaların qarşısının alınması, eləcə də informasiya cəbhəsində üstünlüyün əldə olunması baxımından dünyanın aparıcı KİV-lərinin nümayəndələrinin cəbhə bölgəsinə səfərlərinin təşkili də olduqca əhəmiyyətli məqam olmuşdur. Eyni zamanda, sosial şəbəkələrdə geniş izləyici kütlələrinin diqqəti informasiya savaşının aparılması zərurətinə yönəldilmiş, geniş əhatə dairəsinə nail olmaq üçün qabaqcadan hazırlanmış video və fotoların sosial şəbəkə istifadəçiləri arasında yayımlanması, geniş paylaşılması təmin edilmişdir. Erməni silahlı qüvvələrinin canlı qüvvə və texnika baxımından itkilərinin yalnız Müdafiə Nazirliyinin foto və videogörüntüləri əsasında ictimaiyyətə təqdim edilməsi də müsbət məqam kimi diqqəti çəkmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəsmi "Twitter", "facebook" və "instagram" səhifələrindəki paylaşımları Azərbaycanın Ermənistan üzərində informativ-siyasi və psixoloji üstünlüyünün təmin edilməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Müharibə dövründə ölkəmizə qarşı informasiya təxribatlarına qarşı mübarizə şəraitində informasiya cəbhəsində bəzi nöqsanlar buraxılmış və bu isə öz növbəsində informasiya müharibəsində əldə olunan üstünlüyə maneələr törətmişdir.

Müharibə günlərində Azərbaycan Silahlı Qüvvələrinin apardığı hərbi əməliyyatlarla bağlı qeyri-rəsmi sayının artması narahatlıq doğuran əsas məqamlardan olmuşdur. Belə ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatların gedişində əldə etdiyi üstünlüklər barədə qeyri-rəsmi mənbələrə əsaslanan məlumatların yayılması ölkənin informasiya təhlükəsizliyinə ciddi təhdidlər yaratmışdır. Əsasən, cəbhə bölgəsinə yaxın ərazilərdə yaşayan vətəndaşlardan, eləcə də həqiqi hərbi xidmətdə olan hərbi qulluqçulardan alınmış məlumat, foto və videokadrlar əsasında sosial şəbəkə və KİV-lərdə hərbi əməliyyatların gedişi, habelə işğaldan azad edilmiş ərazilərlə bağlı informasiyaların yayımı narahatedici məqamlar olmuşdur. Təəssüflə bildirmək lazımdır ki, sərt

qadağalara baxmayaraq döyüş əməliyyatlarından, eləcə də azad edilmiş kənd, rayon və qəsəbələrdən foto və videogörüntülərin yayılmasında bəzi hallarda hərbi qulluqçular özləri də yaxından iştirak etmişlər. Müdafiə Nazirliyi və Baş Prokurorluq bununla bağlı bir neçə dəfə ictimaiyyətə müraciət edərək hərbi sirlərin yayılmasının hüquqi məsuliyyət doğurduğunu bəyan etsə də, təəssüflər olsun ki, müharibə dövründəbelə halların sayı kifayət qədər olmuşdur.

Hərbi əməliyyatlar zamanı zərərsizləşdirilmiş erməni hərbçilərin nəşinə qarşı qeyri-sivil davranışları əks etdirən bəzi video və foto görüntülərin ictimailəşdirilməsi isə xüsusi neqativ hal kimi, Azərbaycanın informasiya təhlükəsizliyinə, informasiya cəbhəsindəki üstünlüyünə xələl gətirmiş əsas amillərdən olmuşdur. Belə ki, Ermənistan tərəfi emosional və ruhi həyəcan vəziyyətində telefonla çəkilmiş bu videoları sosial şəbəkələr vasitəsilə əldə edərək, Azərbaycan dövləti əleyhinə istifadə etməyə çalışmış, təəssüflər olsun ki, belə xoşagəlməz görüntülərin xarici KİV-lərdə geniş yayılmasını təmin etmişdir.

Müharibə dövründə olduğu kimi, həmçinin postmüharibə dövründə də Azərbaycan informasiya siyasəti ölkə qarşısında prioritet məsələlərdən biri kimi qoyaraq, bu sahədə üstünlüyün təmin edilməsi istiqamətində mühüm işlər görmüşdür.

Bu xüsusda yerli və beynəlxalq auditoriyaya təsir imkanları olan xarici KİV-lərin, eləcə də diplomatik korpus nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə səfərlərinin təşkili, onların müəyyən informasiyalara əyani çıxış imkanlarının yaradılması Ermənistanın ifşası baxımından da əhəmiyyətlidir. Xarici auditoriyaya çıxış imkanları olan xarici KİV-lərin işğaldan azad edilmiş ərazilərdən hazırladıqları yazı və süjetlər, reportajlar Ermənistanın ifşası prosesini daha da sürətləndirmişdir. Həm müharibə dövrü, həm də postkonflikt mərhələsində Ermənistan ordusunun Cenevrə konvensiyalarına zidd olaraq mülki əhalini ağır artilleriyalardan – "Tocka-U", "Elbrus" və s. kimi ballistik raketlərdən atəşə tutması, kasetli, fosforlu bomba və raketlərdən istifadə etməsi ilə bağlı faktlar xarici media tərəfindən geniş işıqlandırılmışdır. Fəal və genişmiqyaslı hərbi əməliyyatlar dövründə cəbhə bölgəsindən 20-150 kilometr məsafədə yerləşən rayon, şəhər, qəsəbə və kəndlərin artilleriya atəşinə tutulması, habelə Gəncə, Mingəçevir, Şəmkir, Xızı, Bərdə və s. ərazilərə ballistik raketlərin atılması, 100-dək mülki şəxsin həlak olması ilə bağlı faktlar dünya ictimaiyyətinə dolğun və əhatəli şəkildə çatdırılmışdır. Bundan əlavə, Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə, fərdi evlərə, inzibati binalara, təsərrüfatlara, ictimai iaşə və xidmət müəssisələrinə vurduğu ziyanla bağlı marteriallar hazırlanmışdır. Ermənistanın işğal altında saxladığı ərazilərdə məqsədli şəkildə dağıntılar törətməsi, mülki vətəndaşlara məxsus fərdi evləri, habelə inzibati binaları sökməklə inşaat materiallarını azğınlıqla talaması da xarici media nümayəndələrinini xüsusi diqqətini çəkmişdir. 90-cı illərin arxiv foto və videokadrlarından istifadə edilməsi və müvafiq müqayisələrin aparılması yolu ilə Ermənistanın Azərbaycana məxsus zəngin tarixi mədəniyyət abidələrini, muzeyləri, eləcə də məscidləri vandallıqla dağıtmasına dair material və süjetlər xarici KİV-lərdə yerləşdirilmişdir.

Ermənilərin məscidləri dağıdaraq ferma kimi istifadə etmələri, azərbaycanlıların və digər müsəlman xalqların dini heysiyyətini aşağılamaq məqsədilə dini ziyarətgahlarda donuz saxlamaları ilə bağlı foto və videokadrlar da təbliğati-siyasi baxımdan əhəmiyyətli olmuşdur. Bundan əlavə, yerli və xarici KİV-lərdə işğal altında olan ərazilərdə flora və faunaya dəyən zərərlə bağlı xüsusi reportajlar hazırlanmış, meşələrin yandırılması və qırılması faktlarına geniş yer verilmişdir.

İşğal altındakı ərazilərdə məqsədli şəkildə törədilmiş yanğınlar – mülki ermənilərin qeyri-qanuni məskunlaşdırıldıqları Ağdam, Kəlbəcər və Laçın rayonlarını tərk edərkən fərdi evləri, yaşıllıq və meşə zolaqlarını yandırmaları ilə bağlı materiallar hazırlanmış, ermənilərin tarixi Azərbaycan abidələrini, alban məbədlərini, habelə milli toponimləri ermənləşdirməsi, bu məqsədlə geniş saxtakarlıqlara yol verməsi faktları beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmışdır.

Nəticə. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli və xarici KİV-lər üçün keçirdiyi mətbuat konfransları, mühüm mesaj və açıqlamaları ölkəmizin informasiya cəbhəsindəki üstünlüyünün təmini, eləcə də informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi və Ermənistanın ifşası baxımından əhəmiyyətli olmuşdur.

ƏDƏBİYYAT

1. İlham Əliyev "Əl-Ərəbiyə" televiziya kanalına müsahibə verib. - https://president.az/articles/41712 [Müraciət tarixi: 15.02.2022].
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa 26.10.2020 tarixli müraciəti. - https://president.az/articles/44435 [Müraciət tarixi: 15.02.2022].
3. İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb. - https://president.az/articles/41172 [Müraciət tarixi: 15.02.2022].
4. İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi. - https://president.az/articles/44170 [Müraciət tarixi: 15.02.2022].
5. Hərbi vəziyyət elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. - https://president.az/articles/40979 [Müraciət tarixi: 15.02.2022].
6. Hərbi vəziyyət haqqında Azərbaycan Respublikasının Qanunu. - http://www.e-qanun.az/framework/35170 [Müraciət tarixi: 15.02.2022].
7. "Ermənistan və Azərbaycan arasında razılaşmaların yerinə yetirilməsi vəziyyəti haqqında" qətnamə. - https://www.virtualkarabakh.az/az/new-item/6/3199/italiya-parlamenti-terefinden-qebul-edilmis-qetnamede-azerbaycanin-minalanmis-erazilerinin-xeritelerinin-verilmesi-teleb-olunub.html [Müraciət tarixi: 15.02.2022].
8. Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi) , Bakı, 2021. - http://dim.gov.az/upload/iblock/7e3/7e301bee04e71e6c5b79a7f2db719f2f.pdf [Müraciət tarixi: 15.02.2022].
9. Qarabağ həqiqətləri beynəlxalq medianın gözü ilə. - https://xalqqazeti.com/mobile/az/news/65772 [Müraciət tarixi: 15.02.2022].

ДЖАХАНГИР ДЖАХАНГИРЛИ
Доктор философских наук, доцент Академия государственного управления при Президенте Азербайджанской Республики

ЭЛЬЗА ГАДЖИЕВА
Академия государственного управления при Президенте Азербайджанской Республики

ИНФОРМАЦИОННАЯ ВОЙНА В ПЕРИОД КАРАБАХСКОЙ ВОЙНЫ

В статье рассматриваются ошибки информационной войны и её последствия, информационные провокации против нашей страны, в ходе боевых действий, во время второй Карабахской войны в сентябре-ноябре 2020 года, а также говориться о борьбе с информационными угрозами в социальных сетях и в других медиа платформах.

Следует отметить что, потерпевшие поражение сокрушительными ударами в военно-политических сферах, Армения пыталась распространить информационные провокации против нашей страны через многие другие платформы но, тем не менее, Азербайджан предотвратил всé ети провокации, приобрел господства в сфере дипломатии, сумел разоблачить оккупационную державу в международном маштабе.

Ключевые слова: информационная безопасность, информационная политика, информационная провакация, информационная война.

JAHANGIR JAHANGIRLI
Academy of Public Administration under the President of the Republic of Azerbaijan

ELZA HAJIYEVA
Academy of Public Administration under the President of the Republic of Azerbaijan

İNFORMATION WARFARE WHILE THE SECOND KARABAKH WAR

The article underlines the information provocations against our country during the military operations while the Second Karabakh War in September-November 2020, as well as the fight

against information threats on social networks and other media platforms, misunderstandings in the information warfare and their consequences.

It should be noted that Armenia, which was defeated by crushing blows in the military and political spheres, tried to expand information provocations against our country through social networks and other new media platforms, but nevertheless, Azerbaijan prevented all these provocations. It also maintained its dominance in the field of diplomacy and managed to expose the occupying power on an international scale.

Keywords: information security, information policy, information sabotage, information warfare.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. Sevinc Yusifzadə.

UOT 32:93/94

NAZİM İBADOV
Bakı Dövlət Universitetinin dosenti
ibadov.nazim1@gmail.com

RAFİQ İBRAHIMOV
Bakı Dövlət Universitetinin magistrantı
ibrahimovrafiq123@gmail.com

II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA CƏNUBİ QAFQAZDA YARANAN YENİ SİYASİ REALLIQLAR

Bu məqalədə II Qarabağ Müharibəsindən sonra region dövlətlərinin bir-birilə, habelə dünya dövlətlərinin Cənubi Qafqaz ölkələri ilə münasibətlərində və tərəflərin regionla bağlı həyata keçirdikləri siyasətdə baş verən dəyişikliklərdən bəhs olunur. Burada post-konflikt dövründə yaranmış reallıqlar çərçivəsində müxtəlif aktorların yenidən formalaşdırdığı xarici siyasət strategiyalarına – əməkdaşlıq imkanlarının və vasitəçilik səylərinin artırılmasına, təhlükəsizlik amilindən irəli gələrək güc nümayişinə və sülh quruculuğu perspektivlərinin dəyərləndirilməsinə diqqət yetirilir.

Açar sözlər: münasibətlər, Azərbaycan, Türkiyə, Rusiya, İran, gərginlik, vasitəçilik, Gürcüstan, bəyanat, Zəngəzur, müharibə.

Giriş. Münaqişənin hərbi yollarla həllini tapması müxtəlif beynəlxalq dairələri narahat etsə də, bütün narazılıqlara rəğmən Cənubi Qafqaz yeni dövrə qədəm qoyur. Unutmaq lazım deyil ki, Azərbaycan tərəfi 30 ilə yaxın bir müddətdə münaqişənin sülh yolu ilə həllinə cəhd göstərib. Lakin xüsusilə son dövrlərdə Ermənistan Baş naziri Nikol Paşinyanın qıcıqlandırıcı və destruktiv fəaliyyəti münaqişənin sülh danışıqları vasitəsilə həllini bloklamış və işğal altında olan torpaqların güc yolu ilə azad edilməsini şərtləndirmişdir. Yekun nəticədə nəinki Cənubi Qafqaz ölkələri arasında mövcud siyasi münasibətlər, habelə regionda siyasi aktivliyə malik qonşu və dünya dövlətlərinin mövqeyi, siyasi nüfuzu və təsir imkanları da əhəmiyyətli dəyişikliklərə məruz qaldı. Bu dəyişikliklər fonunda xüsusilə də mühüm geostrateji əhəmiyyətə malik "3+3" formatı diqqəti cəlb edir. Azərbaycan və Türkiyə Prezidentlərinin təşəbbüsü ilə yaradılan format çərçivəsində ilk görüş müvafiq ölkələrin Xarici İşlər nazirlərinin müavinləri səviyyəsində 2021-ci ilin 10 dekabr tarixində Moskva şəhərində baş tutub [1]. Gürcüstan nümayəndəsi iclasa qatılmayıb, buna rəğmən iclas iştirakçıları aparılan müzakirələrin nəticələri haqqında Gürcüstan tərəfini də məlumatlandırmaq barəsində qərar qəbul edib və gələcəkdə Gürcüstanın da platformaya qoşulması təqdir olunub. Görüşdə bütün tərəflər üçün əhəmiyyət kəsb edən məsələlər müzakirə olunub və bu format çərçivəsində gələcək görüşlərin ümumi təşkili qaydaları müəyyən edilib.

Strateji tərəfdaşlıqdan müttəfiqliyə doğru: Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələ. Müharibənin ilk günündən Azərbaycanın haqq mübarizəsini dəstəkləyən Türkiyə müharibədən sonra Cənubi Qafqazda xüsusi siyasi aktora çevrildi. Prezident Recep Tayyib Ərdoğanın müharibədən sonrakı 1 ildə 3 dəfə ölkəmizə səfər etməsi bunun əyani sübutudur. Onun 2021-ci ilin iyun ayında Azərbaycana gerçəkləşən səfəri zamanı Şuşa şəhərində "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması hər iki ölkə arasında münasibətləri ən yüksək, yəni müttəfiqlik səviyyəsinə qaldırdı [2]. 2022-ci il fevralın 1-də Azərbaycan Respublikasının Milli Məclisi, fevralın 4-də isə Türkiyə Böyük Millət Məclisi tərəfindən "Şuşa bəyannaməsi"nin ratifikasiya olunması ilə müttəfiqlik münasibətlərinin hüquqi baxımından təsdiq olunması prosesi tamamlandı. Bəyannamədə tərəflər Qafqazda təhlükəsizliyin möhkəmləndirilməsində, region və qonşu ölkələr arasında bütün kommunikasiya xətlərinin açılmasında və münasibətlərin normallaşdırılmasında səylərini davam etdirəcəklərini bildirirlər [3]. Eyni zamanda bu mühüm sənəd Türkiyə və Azərbaycanın bir-birinə qarşılıqlı hərbi yardım imkanlarını özündə ehtiva etməklə 1918-ci ildə imzalanmış tarixi Batum müqaviləsini xatırladır. Bəyannamə nəinki regionda sülh və təhlükəsizliyə böyük töhfə verir, həmçinin iqtisadi inkişafı və əməkdaşlığı təşviq edir. Bu baxımdan

Zəngəzur dəhlizinin açılmasının Azərbaycanın Naxçıvanla quru əlaqəsinin yaranmasında və Türkiyə ilə daha intensiv ticarət əlaqələrinin qurulmasında xüsusi rolu qeyd olunur [3].

2021-ci ilin oktyabrın sonlarında Füzuli Beynəlxalq Hava Limanının açılışına gələn Prezident Rəcəp Tayyib Ərdoğanın İlham Əliyevlə birlikdə həmçinin Zəngəzur dəhlizinin – Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyması [4] təsadüfi deyil. Dövlət başçılarının Zəngilanda keçirilən görüşündən sonra mətbuat konfransında R.T.Ərdoğanın "Gün gələcək, Zəngəzur dəhlizindən çıxıb İstanbula qədər gedə biləcəyik." fikirlərini səsləndirməsi [5] məhz Zəngəzur dəhlizinin regionun yeni nəqliyyat arteriyasına və logistik mərkəzinə çevriləcəyinə işarədir. Öz çıxışı zamanı Prezident Ərdoğanın Ermənistanın Azərbaycanla münasibətlərini qaydaya salacağı halda Türkiyənin də Ermənistanla münasibətlər qurmağında heç bir əngəl qalmayacağını söyləməsi [5] Ermənistan siyasi rəhbərliyi üçün həm pozitiv mesaj, həm də nəzərə alınmalı xüsusi məqam idi.

Təsadüfi deyil ki, Prezident Ərdoğanın bu bəyanatından bir müddət sonra Türkiyə və Ermənistan arasında münasibətlərin bərpası istiqamətində danışıqların həyata keçirilməsi üçün hər iki tərəf xüsusi səfirlər təyin etdi. Türkiyənin Xarici İşlər naziri Mövlüd Çavuşoğlu Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı qarşılıqlı olaraq xüsusi nümayəndələrin təyin olunmasına fikir bildirərkən onun "Qafqazda regional sülh və rifah yaratmaq üçün Azərbaycanla birlikdə intensiv diplomatik səylər göstəririk" söyləməsi [6] Azərbaycanın da bu prosesdə fəal iştirakından xəbər verir. Həmin xüsusi nümayəndələrin ilk görüşü yanvarın 14-də Moskvada baş tutdu [7]. Görüşün detalları barədə ictimaiyyətə tam açıq məlumat verilməsə də, Türkiyənin Xarici İşlər nazirliyi görüşün pozitiv və konstruktiv atmosferdə reallaşdığını bildirdi. Fevralın 2-də isə İstanbul-Yerevan hava marşrutu üzrə uçuşların bərpa olunması münasibətlərin normallaşması istiqamətində ilkin uğurlar sırasında yer alır [8].

Beləliklə, Türkiyə-Azərbaycan münasibətlərinin yeni səviyyəsi Cənubi Qafqazda cərəyan edən həm iqtisadi, həm də siyasi proseslərin gedişatına kifayət qədər böyük təsir göstərmək iqtidarındadır.

Post-münaqişə dövründə Rusiyanın vasitəçi kimi aparıcı rolu və Azərbaycan-Ermənistan sərhəd böhranı. Məlumdur ki, Azərbaycan və Ermənistan arasında 10 Noyabr atəşkəs razılığının imzalanması üçün vasitəçilik missiyasını obyektiv səbəblərdən məhz Rusiya öz üzərinə götürmüşdür. Azərbaycanın qələbəsinin rəsmi deklarasiyası, Ermənistanın isə kapitulyasiyası olan bu sənəd regionda yeni siyasi və iqtisadi reallıqların yaranmasını şərtləndirmişdir. Üçtərəfli Bəyanatın bəndlərini diqqətlə nəzərdən keçirdikdə Rusiyanın Cənubi Qafqazda nüfuzunu qoruduğunu və Azərbaycanla Ermənistan arasında ATƏT-in Minsk Qrupunun Həmsədrləri təsisatından da yüksək legitimliyə malik mediatora çevrildiyini görürük. Rus sülhməramlıların təmas xətti və Laçın dəhlizi boyu yerləşdirilməsi [9], hər iki ölkə rəhbərinin müharibədən sonra ilk dəfə 2021-ci il yanvarın 11-də Moskvada görüşməsi və həmin görüşün yekunu olaraq regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpası məqsədilə üç ölkənin baş nazirlərinin müavinlərindən ibarət işçi qrupunun yaradılması [10] bir daha bu faktı sübut edir.

Rusiyanın post-münaqişə dövründə vasitəçi kimi aparıcı rolu özünü xüsusilə Azərbaycan-Ermənistan sərhədində Qaragöl ətrafında baş verən gərginlik fonunda göstərdi. Bu böhran 2021-ci ilin may ayından başlayaraq noyabrdək müxtəlif səviyyələrdə davam etdi. Hətta o həddə çatdı ki, noyabrın 16-da dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Azərbaycan Ordusunun 7 hərbi qulluqçusu həlak olmuş, 10 nəfər isə yaralanmışdır [11]. Azərbaycan Silahlı Qüvvələri qısa müddət ərzində müvafiq ərazidə əməliyyat şəraitinə tam nəzarəti ələ keçirərək qarşı tərəfin bu təxribatının qarşısını almışdır.

Diqqət çəkən digər bir məqam oktyabrın 21-də Rusiya Prezidenti Vladimir Putinin Valday Beynəlxalq Diskussiya Klubunun iclasında öz çıxışı zamanı SSRİ respublikaları arasındakı sərhəd xəritələrinin hal-hazırda Rusiya ordusunun Baş Qərargahında olması haqqında fikir söyləməsidir [12]. Rusiya Prezidenti bununla da Azərbaycan-Ermənistan sərhədində mövcud gərginliyi azaltmaq və gələcəkdə delimitasiya və demarkasiya işlərini həyata keçirmək üçün yalnız Rusiyanın tərəflərə zəruri hüquqi dəstək göstərə biləcəyinə işarə etmişdir.

2021-ci ilin noyabrın 26-da Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderlərinin sayca 2-ci görüşü keçirilmişdir. Görüşün yekununda birgə bəyanat qəbul olunmuşdur. Bəyanatda tərəflər Azərbaycan-Ermənistan sərhədində delimitasiya və demarkasiya işlərini yerinə yetirmək üçün iki-

tərəfli komissiyanın yaradılması haqqında razılığa gəldilər [13]. Məhz Soçidə baş tutan danışıqlardan sonra dekabrın 4-də Azərbaycan tərəfi 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistana təhvil verib. Bunun qarşılığında isə Ermənistan tərəfi Azərbaycan Respublikasının işğaldan azad olunan digər ərazilərinin mina xəritələrini Azərbaycana təqdim edib [14].

Müharibədən sonra ATƏT-in Minsk Qrupunun Həmsədrləri təsisatının Azərbaycan-Ermənistan arasında vasitəçilik missiyası tamamilə iflasa uğradı. Nəticədə bu istiqamətdə böyük bir boşluq yarandı ki, onu da Rusiya yuxarıda qeyd olunan səyləri ilə doldurmağa cəhd göstərir. Lakin Rusiya vasitəçilik təşəbbüslərində tək deyil.

Gürcüstan Cənubi Qafqazda yeni rol axtarışında və Avropa İttifaqının vasitəçilik səyləri. Gürcüstan Respublikası da fəal şəkildə hər iki qonşusu ilə mövcud münasibətləri çərçivəsində tərəfləri barışdırmaq istiqamətində öz xidmətlərini təklif etməkdədir. Gürcüstanın baş naziri İrakli Qaribaşvili 2021-ci ilin mayın 5-də və sentyabrın 29-da Azərbaycana, hər iki səfərinin ardınca isə uyğun olaraq mayın 12-də və oktyabrın 9-da Ermənistana səfər edib. Yüksək səviyyədə baş tutan görüşlər nəticəsiz ötüşməyib. Belə ki, bu ilin iyunun 12-də Azərbaycan tərəfi "Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələr"in əvəzinə saxlanılan 15 erməni Gürücüstan hökumətinin, ABŞ Dövlət Katibliyinin, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və ATƏT-in İsveç sədrliyinin vasitəçilik səyləri ilə Ermənistana təhvil verib [15]. Bu mübadilə həyata keçirilməzdən bir neçə gün əvvəl ABŞ Dövlət Katibinin köməkçisi vəzifəsini icra edən Filip Rikerin ard-arda Gürcüstana, Azərbaycana və Ermənistana səfərləri də xüsusilə qeyd olunmalıdır. Anlaşılan odur ki, ABŞ və Aİ Cənubi Qafqazda öz nüfuzlarını bir növ Gürcüstanın vasitəçilik missiyası ilə qorumağa və artırmağa cəhd göstərirlər [16].

Bu siyasi təşəbbüslərlə paralel olaraq biz Avropa İttifaqının müstəqil aktor kimi də Cənubi Qafqazda sülh və sabitlikdə maraqlı olduğunu görürük. Avropa İttifaqının Şərq Tərəfdaşlığı proqramına üzv ölkələrin zirvə toplantısından bir gün əvvəl – dekabrın 14-də Belçikanın paytaxtı Brüssel şəhərində Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə növbəti görüş baş tutmuşdur. Görüşdən sonra Şarl Mişel verdiyi bəyanatda Aİ-nin regionda dayanıqlı sülhə nail olmaq üçün münaqişənin aradan qaldırılmasında, habelə tərəflər arasında əməkdaşlığın və etimad mühitinin yaradılmasında Ermənistan və Azərbaycanla birlikdə çalışacağına dair öhdəliyini bir daha təsdiq etdi [17]. Bəyanatda Şarl Mişelin təşəbbüsü ilə hər iki ölkənin Müdafiə Nazirlikləri arasında birbaşa kommunikasiya kanalının yaradılmasının əhəmiyyəti vurğulanır, həmçinin Azərbaycan-Ermənistan sərhədində delimitasiya və demarkasiya işinə texniki dəstək olmaq üçün müvafiq ekspert missiyasının/məsləhət qrupunun Aİ tərəfindən təqdim olunacağı vədi verilir. Brüssel görüşünün praktiki nəticəsi bir qədər sonra – dekabrın 19-da Azərbaycan tərəfinin humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirərək 10 nəfər erməni əsilli hərbi qulluqçunu Ermənistana geri qaytarması oldu [18].

Avropa İttifaqının Cənubi Qafqazda dayanıqlı sülh məsələlərində maraqlı olması Aİ-nin "Avropanın Qonşuluq Siyasəti" proqramı ilə üst-üstə düşür. İkinci Qarabağ Müharibəsi dönəmində Aİ rəhbərləri və İttifaqa üzv dövlətlərin liderləri tərəfindən gərginliyi azaltmaq üçün cəhdlər edilsə də, heç bir uğur əldə olunmamışdır. İndi isə Aİ öz vasitəçilik təşəbbüsləri ilə Cənubi Qafqazda yenidən nüfuzunu artırmağa və mövqeyini möhkəmləndirməyə çalışır.

İranın yeni hökumətinin Azərbaycana qarşı aqressiv davranışları və deeskalasiya. 30 ilə yaxın idi ki, erməni işğalı altında qalan 132 kilometrlik Azərbaycan-İran sərhəd xətti bir çox qanunsuz və çirkin fəaliyyətlərin həyata keçirilməsi üçün dəhliz rolunu oynayırdı [19]. Vətən Müharibəsi gedişində Azərbaycan Ordusu Ağbənd qəsəbəsini işğaldan azad edərək Azərbaycan-İran dövlət sərhədini tam nəzarətə götürmüş və bununla da, bütün qeyri-qanuni fəaliyyətlərə son qoymuşdur. Təəssüflər olsun ki, İranda hakimiyyətə gələn yeni hökumət müharibənin yaratdığı reallıqları qəbul etməkdən imtina edərək Qarabağın Rusiya sülhməramlılarının nəzarəti altında olan hissəsinə yük maşınları vasitəsilə daşımalar həyata keçirməyə davam etmişdir. Azərbaycan tərəfinin həm şifahi, həm də yazılı xəbərdarlıq etməsinə baxmayaraq bu yük daşımalarının davam etməsi iki ölkə arasında münasibətləri gərginləşdirmişdir.

2021-ci ilin oktyabrın əvvəllərində İran Quru Qoşunlarının Azərbaycanla sərhəd bölgəsində hərbi təlimlərə başlaması onsuz da gərgin olan ikitərəfli münasibətləri daha da kəskinləşdirmişdir. Azərbaycanın İrana təyin olunan yeni səfiri Əli Əlizadənin etimadnaməsinin əvvəlcə ölkə Prezidenti deyil, Xarici İşlər naziri tərəfindən qəbul edilməsi və görüş zamanı Azərbaycana qarşı narahatedici və əsassız iddiaların irəli sürülməsi münasibətlərdə mövcud gərginliyin praktiki davamı kimi qiymətləndirilməlidir. Lakin oktyabrın 20-də İran hökumətinin Qarabağa qanunsuz gedən tırlara qadağa qoyması [20], oktyabrın 27-də İran XİN Hüseyn Əmir Abdullahianın "Düşünürəm ki, biz açıq gərginlik mərhələsini başa çatdırdıq" söyləməsi [21] və ardından dekabrın 22-də onun Bakıya gəlməsi [22] iki ölkə arasında münasibətlərin nisbətən yumşalmasına gətirib çıxardı.

Nəticə. Heç bir diplomatik münasibətlərə malik olmayan Azərbaycan və Ermənistan üçün də tədricən yeni imkanlar görünməkdədir. 2021-ci ilin iyun ayında Ermənistanda keçirilən parlament seçkilərində revanşist qüvvələrin qəti məğlubiyyətə uğraması [23] erməni xalqının Cənubi Qafqaz üçün daha sabit gələcəyə səs verdiyinə işarədir. Prezident İlham Əliyevin dəfələrlə "...Biz səhifəni çevirmək, qonşumuz Ermənistanla əlaqələr qurmaq istəyirik. Biz sülh razılaşması, delimitasiya, kommunikasiyaların açılması ilə bağlı danışıqlara başlamağa hazırıq..." kimi fikirlər söyləməsi də [24] Azərbaycan xalqının iradəsini özündə əks etdirir. 6 oktyabr 2021-ci il tarixində qarşılıqlı olaraq Ermənistan və Azərbaycanın bir-birinə öz hava məkanını açıq elan etməsi iki tərəf arasında yüksək səviyyədə sülh danışıqlarının davam etməsinin mümkünlüyünü təsdiq edir. Ermənistan və Azərbaycanın qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü tanıması, habelə sonradan tərəflər arasında sülh müqaviləsinin imzalanması hər iki ölkə üçün əhəmiyyətli dərəcədə böyük siyasi-iqtisadi üstünlüklər vəd edir.

Beləliklə, 44 Günlük Müharibədən sonra Cənubi Qafqazda yaranmış yeni siyasi reallıqları aşağıdakı kimi təsvir edə bilərik:

- Azərbaycan-Türkiyə münasibətlərinin yeni səviyyəsi Cənubi-Qafqazda mövcud ənənəvi siyasi və iqtisadi münasibətlərə aparıcı təsir göstərmək iqtidarındadır, Türkiyənin Cənubi Qafqazda nüfuzu əhəmiyyətli dərəcədə artıb;
- Rusiya Azərbaycan və Ermənistan arasında ATƏT-in Minsk Qrupunun Həmsədrləri təsisatından da yüksək statusa malik mediatora çevrilib;
- Gürcüstan və Avropa İttifaqı birlikdə, həmçinin ayrı-ayrılıqda Azərbaycan və Ermənistan arasında dialoqun və sülh quruculuğu perspektivlərinin saxlanılmasına cəhdlər göstərir, Aİ bu dialoq vasitəsilə Cənubi Qafqazda mövqelərini daha da möhkəmləndirməyə çalışır;
- İranın yeni hökuməti 44 Günlük Müharibənin nəticəsi olaraq Cənubi Qafqazda Azərbaycanın dominant mövqeyinə qarşı ilk vaxtlarda sərt reaksiya versə də, sonradan tədricən Azərbaycanla münasibətlərdə daha ehtiyatlı olmağa çalışır və iki tərəf arasında əməkdaşlıq imkanlarını artırmaq istiqamətində səylər göstərir.

ƏDƏBİYYAT

1. "3+3" formatında keçirilən görüşdə regionda etimadın artırılması, iqtisadiyyat və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı fikir mübadiləsi aparılıb, AZƏRTAC, 10 dekabr 2021. - https://azertag.az/xeber/33_formatinda_kechirilen_gorusde_regionda_etimadin_artirilmasi_iqtisadiyyat_ve_neqliyyat_elaqelerinin_berpasi_ile_bagli_fikir_mubadilesi_aparilib-1948384 [Müraciət tarixi: 15.01.2022].
2. Prezident: "Şuşa Bəyannaməsi Türkiyə ilə əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırdı", APA İnformasiya Agentliyi, 27 sentyabr 2021. - apa.az/az/xeber/resmi-xeber/prezident-susa-beyannamesi-turkiye-ile-elaqelerimizi-daha-da-yuksek-seviyyeye-qaldirdi-663266 [Müraciət tarixi: 15.01.2022].
3. Şuşa Bəyannaməsinin TAM MƏTNİ, Report İnformasiya Agentliyi, 16 iyun 2021. - report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/ [Müraciət tarixi: 15.01.2022].
4. Azərbaycan və Türkiyə prezidentləri Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoyublar, AZƏRTAC, 26 oktyabr 2021. - azertag.az/xeber/_Azerbaycan_ve_Turkiye_prezidentleri_Zengezur_dehlizinin___Horadiz_Cebrayil

_Zengilan_Agbend_avtomobil_yolunun_temelini_qoyublar_YENILANIB_VIDEO-1909128 [Müraciət tarixi: 15.01.2022]
5. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın birgə mətbuat konfransı, Oxu.az xəbər saytı, 26 oktyabr 2021. - https://oxu.az/politics/540871 [Müraciət tarixi: 15.01.2022].
6. Turkey, Armenia to appoint special envoys for normalization: Minister, Anadolu Agentliyi, 14 dekabr 2021. - https://www.aa.com.tr/en/turkey/turkey-armenia-to-appoint-special-envoys-for-normalization-minister/2446648 [Müraciət tarixi: 15.01.2022].
7. Türkiye ile Ermenistan Normalleşme Süreci Özel Temsilcileri Büyükelçi Serdar Kılıç ve Ermenistan Parlamentosu Başkan Yardımcısı Ruben Rubinyan'ın Görüşmeleri Hk, Türkiyə Xarici İşlər Nazirliyinin rəsmi veb-saytı, 14 yanvar 2022. - https://www.mfa.gov.tr/no_-18_-turkiye-ile-ermenistan-normallesme-sureci-gorusmeleri-hk.tr.mfa# [Müraciət tarixi: 17.01.2022].
8. Türkiye-Ermenistan arasında uçuşlar yeniden başladı, TRT Haber, 2 fevral 2022. - https://www.trthaber.com/haber/gundem/erivandan-kalkan-ucak-istanbula-inis-yapti-651363.html [Müraciət tarixi: 05.02.2022].
9. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı, AR Prezidentinin rəsmi veb-saytı, 10 noyabr 2020. - president.az/articles/45923 [Müraciət tarixi: 17.01.2022].
10. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı, AR Prezidentinin rəsmi veb-saytı, 11 yanvar 2021. - president.az/articles/50070 [Müraciət tarixi: 17.01.2022].
11. Döyüşlərdə Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid olub, AR Müdafiə Nazirliyinin rəsmi veb-saytı, 17 noyabr 2021. - https://mod.gov.az/az/news/doyuslerde-azerbaycan-ordusunun-herbi-qulluqculari-sehid-olub-38430.html [Müraciət tarixi: 17.01.2022].
12. Putin: "Ermənistan və Azərbaycan sərhəd məsələsini sovet dövrünün xəritələri əsasında həll edə bilər", APA İnformasiya Agentliyi, 21 oktyabr 2021. - https://apa.az/az/foreign-politics/putin-ermenistan-ve-azerbaycan-serhed-meselesini-sovet-dovrunun-xeriteleri-esasinda-hell-ede-biler-667062 [Müraciət tarixi: 17.01.2022].
13. Soçi görüşünün nəticələrinə dair Bəyanat, Report İnformasiya Agentliyi, 26 noyabr 2021. - https://report.az/xarici-siyaset/rusiya-prezidenti-azerbaycan-prezidenti-ve-ermenistanin-bas-naziri-metbuata-beyanatla-cixis-ediblerg/ [Müraciət tarixi: 20.01.2022].
14. 10 erməni əsilli şəxs qarşı tərəfə təhvil verilmişdir, AR Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəsmi veb-saytı, 4 dekabr 2021. - http://human.gov.az/az/news/view/485/10_ermeni_esilli_shexs_qarshi_terefe_tehvil_verilmishdir#.YgTK1FXP3IU [Müraciət tarixi: 20.01.2022].
15. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatı, AR Xarici İşlər Nazirliyinin rəsmi veb-saytı, 12 iyun 2021. - mfa.gov.az/az/news/no21721-azerbaycan-respublikasi-xarici-isler-nazirliyinin-metbuat-xidmeti-idaresinin-melumati [Müraciət tarixi: 25.01.2022].
16. US Asks Georgia to Mediate Between Armenia and Azerbaijan, "Eurasia Daily Monitor" Cild: 18, Nəşr: 94, 14 iyun 2021. - jamestown.org/program/us-asks-georgia-to-mediate-between-armenia-and-azerbaijan/ [Müraciət tarixi: 25.01.2022].
17. Statement of President Charles Michel following the trilateral meeting with President Ilham Aliyev and Prime Minister Nikol Pashinyan, Avropa İttifaqı Şurasının rəsmi veb-saytı, 14 dekabr 2021. - https://www.consilium.europa.eu/en/press/press-releases/2021/12/14/statement-of-president-charles-michel-following-the-trilateral-meeting-with-president-ilham-aliyev-and-prime-minister-nikol-pashinyan/ [Müraciət tarixi: 25.01.2022].
18. Avropa İttifaqının təşəbbüsü ilə daha 10 erməni qarşı tərəfə təhvil verilmişdir, AR Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının rəsmi veb-saytı, 19 dekabr 2021. - http://www.human.gov.az/az/news/view/488/Avropa_Ittifaqinin_teshebbusu_ile_daha_10_ermeni_qarshi_terefe_tehvil_verilmishdir_#.Ygiq4lXP3IU [Müraciət tarixi: 25.01.2022].

19. İlham Əliyev: "Ermənistan İranla əlbir olaraq Azərbaycanın keçmiş işğal altında olan ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib", Report İnformasiya Agentliyi, 15 oktyabr 2021. - report.az/qarabag/ilham-eliyev-ermenistan-iran-ile-elbir-olaraq-isgal-edilmis-eraziler-vasitesile-avropaya-narkotik-vasitelerin-dasinmasini-heyata-kecirib/ [Müraciət tarixi: 28.01.2022].
20. İran yük maşınlarının Qarabağa getməsini qadağan edən qərar qəbul edib, APA İnformasiya Agentliyi, 20 oktyabr 2021. - apa.az/az/xeber/xarici-siyaset/iran-yuk-masinlarinin-qarabaga-getmesini-qadagan-eden-qerar-qebul-edib-video-666852 [Müraciət tarixi: 28.01.2022].
21. XİN rəhbəri İranla Azərbaycan arasında gərginliyin başa çatdığını bildirib, APA İnformasiya Agentliyi, 27 oktyabr 2021. - apa.az/az/xeber/xarici-siyaset/xin-rehberi-iranla-azerbaycan-arasinda-gerginliyin-basa-catdigini-bildirib-667893 [Müraciət tarixi: 28.01.2022].
22. İranın XİN başçısı Azərbaycana gəlib, Report İnformasiya Agentliyi, 22 dekabr 2021. - https://report.az/xarici-siyaset/iranin-xin-bascisinin-azerbaycana-sefer-proqrami-aciqlanib/ [Müraciət tarixi: 28.01.2022].
23. Paşinyanın partiyası seçkilərdə qalib gəldi, AzVision.az internet saytı, 21 iyun 2021. - azvision.az/news/264669/-pasinyanin-partiyasi-seckilerde-qalib-geldi-.html [Müraciət tarixi: 31.01.2022].
24. Prezident İlham Əliyev: Biz səhifəni çevirmək, qonşumuz Ermənistanla əlaqələr qurmaq istəyirik, Trend xəbər agentliyi, 6 oktyabr 2021. - az.trend.az/azerbaijan/politics/3494786.html [Müraciət tarixi: 31.01.2022].

НАЗИМ ИБАДОВ
доцент Бакинского Государственного Университета

РАФИК ИБРАГИМОВ
магистрант Бакинского Государственного Университета

НОВЫЕ ПОЛИТИЧЕСКИЕ РЕАЛИИ НА ЮЖНОМ КАВКАЗЕ ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

В статье рассматриваются изменения, произошедшие в отношениях между странами региона после Второй Карабахской войны, а также в отношениях мировых держав со странами Южного Кавказа и в общей политике сторон. Основное внимание в нем уделяется внешнеполитическим стратегиям, пересмотренным различными участниками в контексте постконфликтных реалий - расширению возможностей для сотрудничества и посредничества, демонстрации силы, основанной на факторах безопасности, и оценке перспектив миростроительства.

Ключевые слова: отношения, Азербайджан, Турция, Россия, Иран, напряженность, посредничество, Грузия, заявление, Зангезур, война.

NAZIM IBADOV
senior lecturer of Baku State University

RAFIQ IBRAHIMOV
Master of Baku State University

NEW POLITICAL REALITIES IN THE SOUTH CAUCASUS AFTER THE SECOND KARABAKH WAR

This article discusses the changes that have taken place in the relations between the countries of the region after the Second Karabakh War, as well as in the relations of the world powers with the countries of the South Caucasus and in the overall policies of the parties. It focuses on foreign policy strategies redesigned by various actors in the context of post-conflict realities - increasing

opportunities for cooperation and mediation efforts, demonstrating strength based on security factors, and assessing the prospects for peacebuilding.

Keywords: relations, Azerbaijan, Turkey, Russia, Iran, tension, mediation, Georgia, statement, Zangazur, war.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: f.ü.f.d.İsmayıl Eyyubov, t.e.d. Adil Mirabdullayev.

UOT 327

AFƏT SƏFƏROVA
Bakı Dövlət Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru
afasafarova66_66@mail.ru

HÜSEYN BAĞIROV
Bakı Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Diplomatiya ixtisaslaşması üzrə magistrantı
huseyn.bagirov1999@mail.ru

HEYDƏR ƏLİYEVİN BALANSLAŞDIRMA SİYASƏTİ FONUNDA KİPR PROBLEMİNİN TARİXİ VƏ HƏLLİ PERSPEKTİVİ

Ümummilli Lider Heydər Əliyevin balanslaşdırılmış siyasəti Azərbaycan Respublikasının 1990-cı illərdən sonrakı beynəlxalq fəaliyyətinin uğurunu təmin etmişdir. Bu siyasətin nəticəsi olaraq bir çox dövlətlərlə münasibətlər tamamilə yenidən qurulmuşdur və ya yeni mərhələyə keçid etmişdir. Kiprin münaqişə tarixi və tarix boyunca təklif olunan planların uyğunsuzluğu araşdırılmışdır. Kipr münaqişəsinin müasir dövrdə inkişaf dinamikası araşdırılmış, dövrü situasiya dəyərləndirilmişdir. Qarabağ münaqişəsinin dondurulmasında Heydər Əliyevin siyasətinin xüsusları müasir dövr Şimali Kipr liderlərinin davranış və diplomatiyası ilə müqayisə edilmişdir.

Açar sözlər: Heydər Əliyevin siyasi kursu, Azərbaycan, Kipr, Federal idarə etmə, Türkiyə, Mustafa Akıncı, Ersin Tatar, Avropa Birliyi, Cənubi Kipr, Şərqi Aralıq dənizi, Xəzər.

Giriş. Ötən əsrin 90-cı illərinin başlanğıcında SSRİ-in süqutu siyasi arenaya yeni dövlətlərin çıxması ilə nəticələndi. Müstəqil olan dövlətlərdən biri də Azərbaycan Respublikası idi. Azərbaycan Respublikası müstəqil olduqdan sonra regiondakı köhnə aktorlar olan Rusiya, Türkiyə və İrandan başqa bu regionda siyasi və iqtisadi maraqları toqquşan yeni aktorlar da meydana gəlmişdi. Gənc dövlətin öz xarici siyasət və strategiyasını qurub həm region gücləri ilə, həm də regiondan kənar güclərlə münasibətləri tənzimləməsi başlıca prioritet məsələ idi. Bundan əlavə daha ilk günlərdən başlamış Qarabağ münaqişəsinin tənzimlənməsində də bəzi qüvvələrlə hesablaşıb, bəzi qüvvələri bu problemin həllinə cəlb edilməsi yüksək səriştə və diplomatik bacarıq tələb edirdi. Gənc dövlət daha ilk günlərindən ən çətin anlarını yaşayırdı [1].

Müstəqilliyin ilk illərində hakimiyyət daxili çaxnaşmalar və kadrların səriştəsizliyi düzgün xarici siyasət yürüdülməsinə əngəl olurdu. Qarabağ münaqişəsi bir yana, ölkə daxili başqa münaqişə və parçalanmalar üçün zəmin yaranmış, Rusiya, Türkiyə kimi region gücləri ilə münasibətlər kəskinləşmişdi. Yürüdülən tək tərəfli siyasət nəticə vermir, situasiyanı daha da pisləşdirirdi [1].

Heydər Əliyevin balanslı siyasətinin xarici siyasətdə əksi. Heydər Əliyevin hakimiyyətə gəlməsi Azərbaycan daxilindəki böhran və qarışıqlığın dayanmasında, xarici siyasətin tənzimlənməsində və beynəlxalq arenada münasibətlərin qaydasına düşməyində ən önəmli rolu oynadı. Heydər Əliyevin qətiyyəti və düzgün siyasəti nəticəsində ölkə daxilində vətəndaş müharibəsi və çevriliş cəhdlərinin qabağı alındı, Qarabağda atəşkəs imzalandı [2].

Xarici siyasət kursunu milli və beynəlxalq maraqlara uyğun şəkildə yenidən nizamlayan Heydər Əliyev regionda maraqları kəsişən aktorlar-dövlətlərlə münasibətdə tək tərəfli siyasət yerinə balanslı siyasət yürütməyi seçdi. Bununla həm Rusiyanın regiondakı təhlükəsini azaldıb, Ermənistanla atəşkəsə nail oldu, həm də Qərblə münasibətləri genişləndirdi [2].

Qərblə münasibətlərin inkişafı Heydər Əliyevin Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan haqiqətlərini dünyaya çatdırılmasında önəmli rol oynadı. Qərbdəki beynəlxalq təşkilatlarla münasibətləri inkişaf etdirən Heydər Əliyev hətta Azərbaycanın siyasi və hərbi təhlükəsizlik maraqları naminə NATO ilə əməkdaşlığa da böyük üstünlük verirdi. Bu məqsədlə o NATO-un mərkəzi qərargahının yerləşdiyi Brüssel şəhərinə səfər edərək 1994-cü il mayın 4-ündə "Sülh Naminə Tərəfdaşlıq Proqramı"ın çərçivə sənədini də imzalamışdır [2].

Heydər Əliyevin balanslı xarici siyasətində Avropa Birliyi ilə münasibətlər də önəmli yer tuturdu. 1996-cı ildə Lüksemburqda Azərbaycanla Avropa Birliyi arasında "Tərəfdaşlıq və Əməkdaşlıq"

sazişi imzalanmışdır. Bu münasibətlərin inkişafı Heydər Əliyevin Avropa Şurası ilə münasibətləri inkişaf etdirməyə də təkan vermiş, 2001-ci ildə Azərbaycan AŞ-ın tam hüquqlu üzvü seçilmişdir [1].

Heydər Əliyevin balanslı siyasətinin əsas prioritetlərindən biri də yaxın xaric və post-sovet dövlətləri ilə əlaqələrin inkişafı və tənzimlənməsi idi. Azərbaycanın Müstəqil Dövlətlər Birliyi təşkilatına üzv olması bu yolda atılan ilk addımlardan idi. Bu təşkilat daxilində post-sovet respublikaları ilə iki tərəfli və çox tərəfli əlaqələrin möhkəmləndirilməsi istiqamətində önəmli işlər görüldü [2].

Post-sovet ölkələri içərisində balanslı siyasətin əsas məqsədi Rusiya ilə münasibətləri qaydasına salmaq idi. Heydər Əliyevin səyləri nəticəsində iki ölkə arasında dostluq münasibətləri inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmişdir [2].

1997-ci ildə iki tərəfli münasibətlərin müqavilə-hüquqi bazasını təşkil edən "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik" müqaviləsi imzalandı. Elə o tarixdə Heydər Əliyev Boris Yeltsinin dəvəti ilə Rusiyaya ilk rəsmi səfərini etdi və bu iki tərəfli münasibətlərin qurulmasına ən əhəmiyyətli hadisələrdən biri sayılır. 2000-ci ildə Heydər Əliyevlə kifayət qədər yaxşı münasibəti olan Vladimir Putinin Rusiya prezidenti seçilməsi Azərbaycan-Rusiya diplomatik əlaqələrində yeni bir dövr başlatdı və siyasi, iqtisadi, sosial-mədəni sferalarda inteqrasiyanı sürətləndirdi. 2001-ci ildə Vladimir Putinin Azərbaycana, 2002-ci ildə Heydər Əliyevin Rusiyaya səfəri, 1997-ci il müqaviləsinin 2001-ci il Bakı və 2004-cü il Moskva bəyannamələri ilə daha da inkişaf etdirilməsi dostluq və mehriban qonşuluq münasibətlərini daha da dərinləşdirdi [2].

Qarabağ münaqişəsinin həllində Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi önəmli rol oynayırdı və Heydər Əliyev o zaman bunu yüksək dəyərləndirirdi. Bu gün bu siyasətin nəticəsi olaraq Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabər hüquqlu münasibətlər yaratmağa nail olmuş yeganə dövlətdir [1].

Rusiya ilə münasibətlərin qurulması ilə yanaşı balanslı siyasətin digər prioritet vəzifəsi olan Qərb dövlət və təşkilatları ilə münasibətlərin yaxşılaşdırılması və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da Heydər Əliyev xeyli iş görmüş, gərgin diplomatik səylər nəticəsində uğur əldə etmişdir [2].

Heydər Əliyevə qədərki dövrdə yəni 1992-ci ildə xarici siyasətin yarıtmazlığı ucbatından ABŞ Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "Azadlığı Dəstək Aktı"-na 907-ci düzəliş deyə sənəd qəbul etmişdi. Lakin Heydər Əliyevin fəal diplomatiyası Azərbaycan haqqında yaradılmış mənfi propaqanda əngəllərini aşaraq Azərbaycanın müsbət imicini və beynəlxalq nüfuzunu gücləndirə bilmişdi. Heydər Əliyevin 1997-ci ildə Vaşinqtona rəsmi səfəri və Bill Klintonla görüşünün nəticəsi olaraq "Azərbaycan-Amerika münasibətləri haqqında Birgə bəyanat" imzalanıb. Daha sonra isə bir sıra iqtisadi sazişlər imzalanıb. Və bu bəyanatlar Azərbaycanla Amerika arasında siyasi və iqtisadi əlaqələrin inkişafında önəmli rol oynayıb. Münasibətlərdə bu inkişaf 2001-ci ildən etibarən ədalətsiz 907-ci düzəlişin tətbiqinin ABŞ prezidenti tərəfindən dayandırılması ilə nəticələnib [3].

Amerika ilə münasibətlərin inkişafında iqtisadi maraqlar xüsusi çəkiyə malikdir. Belə ki, 1994-cü ildə Azərbaycanın iqtisadi inkişafında başlıca rol oynayan "Əsrin Müqaviləsi"ndə Amoco, UNOCAL, Penzzoil, McDermott kimi ABŞ şirkətləri önəmli paya sahib idilər. Qeyd etmək vacibdir ki, çətinliklə reallaşdırılmasına nail olunmuş "Əsrin Müqaviləsi" Heydər Əliyevin balanslı siyasət xəttinin ən çox tətbiq olunduğu və özünü əks etdirdiyi məsələ idi. Burada xüsusilə Britaniya və ABŞ kimi dövlətlərin şirkətlərinin pay sahibi olması Rusiya və İran tərəfindən narazılıqla qarşılanırdı [4].

Xüsusilə Rusiyanın narazılığı o dövrdə Rusiya XİN-in sərt xəbərdarlıq etməsi və daha sonra Xəzərdə demarkasiya məsələsini önə çəkərək Xəzərin 5 dövlətinin razılığı olmadan belə müqavilənin bağlanmasına etirazında öz əksini tapdı [4].

Məhz bu səbəbdən Heydər Əliyev problemdən çıxış yolu kimi yenə balanslı siyasət yürütməkdə və hər iki tərəfin maraqlarını qarşılamaqda gördü. Rusiyanın "Lukoil" şirkəti müqaviləyə dəvət edildi və pay verildi. İran məsələsi isə daha qarışıq idi. İran pay tələb etdikdən sonra o dövrdə ABŞ-ın Azərbaycanda səfiri olan Richard Kauzlarich Heydər Əliyevə İrana pay veriləcəyi təqdirdə ABŞ şirkətlərinin müqavilədə iştirak edə bilməyəcəklərini bildirdi. Çünki o dövrdə ABŞ-ın İrana qoyduğu sanksiyalar ABŞ şirkətlərinə İran şirkətləri ilə kommersiya əlaqələrini qadağan etmişdi.

Lakin İrandan imtina etmək də düzgün seçim deyildi, çünki İran müharibədə Ermənistanı dəstəkləməyə meyilli idi və Azərbaycanın cənubunda seperatçı hərəkatların baş memarı idi.

Bu zaman Heydər Əliyev hər iki tərəfi razı salacaq addım ataraq, Amerika şirkətlərinin iştirak etmədiyi "Şahdəniz" yatağında İrana bir pay verdi [4].

Heydər Əliyevin ABŞ və Qərblə yanaşı Rusiyaya münasibətdə balanslı siyasət yürütməsi eyni zamanda Xəzərin statusunun müəyyənləşdirilməsində də rol oynadı. Yaranmış qarşılıqlı anlaşma mühiti 2003-cü ildə Astanada Rusiya-Azərbaycan-Qazaxıstan arasında "Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi, su səthinin ümumi istifadəsi" haqqında 3 tərəfli sazişin bağlanması ilə nəticələndi.

Heydər Əliyevin uğurlu balanslaşdırılmış xarici siyasəti bugünkü Azərbaycanın xarici siyasət doktrinasının və strategiyasının əsaslarını, özülünü təşkil edir. Bu siyasət Azərbaycanın beynəlxalq arenada münasibətləri yoluna qoyaraq münaqişələrin və problemlərin həllində önəmli rol oynamışdır.

Balanslı siyasət kontekstində Şimali Kipr liderlərinin mövqeyi. Balanslı siyasi xəttlə Şimali Kipr liderlərinin yürütdüyü siyasi xətti müqayisə etməzdən qabaq Kipr münaqişəsinin tarixi inkişaf dinamikasına nəzər yetirmək məqsədə uyğundur və suala axtardığımız cavabı tapmaqda bir növ cığır rolu oynayır.

Hələ 1828-ci ildə Yunanıstanın "Enozis" ideyaları ilə ilk rüşeymləri cücərən münaqişə Lozanna müqaviləsi ilə İngiltərəyə ilhaq olunduqdan sonra nisbətən bitmişdi. Münaqişə ikinci dəfə 1954-cü ildən qızışmağa başladı və 1959-cu ildə Kiprin iki icması, İngiltərə, Türkiyə və Yunanıstan arasında Sürix və London sazişləri imzalandı. Təminat və İttifaq müqavilələri ilə 1960-cı ildə Kipr Respublikası yarandı və ona münasibətdə Türkiyə və Yunanıstanın davranışları tənzimləndi. 1968-ci ildən etibarən 6 il boyunca beynəlxalq danışıqlar getdi, amma tərəflər heç bir sülhə nail ola bilmirdilər. Bunun bir səbəbi də yunanların Enozis siyasətlərinə sadiq qalmaları idi [5].

Türkiyə Kiprlə bağlı mövqeyində federativ sistemi dəstəkləyirdi və münaqişənin tezliklə həll edilməsinin tərəfdarı idi. Və bu həll prosesində Türkiyə güzəştlər gedərək konfliktin həllində əngəl kimi görünmək istəmirdi. Çünki əks halda bu onun Avropa Birliyinə girməsini çətinləşdirərdi. Bir müddət Kiprə münasibətini dəyişərək unitar sistem qurulmasını və Türklərin orada muxtariyyətə sahib olmasını dəstəkləsə də, 1973-də seçilən Bülent Ecevitin prezident olduğu koalisiya hökuməti funksional federativ sistem tezisini mənimsəmişdilər. Bu tezisə görə torpaqların bölünməsi yox, vəzifə və səlahiyyətlərin iki cəmiyyət arasında bölünməsi müzakirə predmenti və həll yolu olmalı idi.

1974-cü ildə Türkiyənin Egey dənizində neft araşdırmalarına başlaması Yunanıstanla anlaşılmazlıq yaratdı. Sülh danışıqlarının uzanması enozis istəyən yunan xuntası hirsləndirmişdi. Onlar Kipr yunan icmasının rəhbəri Makariosu bütün adanın ilhaqına çağırırdılar, amma Makarios bu ilhaqa əngəl idi [5].

Bu zaman paytaxt Afina Makariosu iqtidardan salmaq cəhdlərinə başladı. Yunanıstan Makariosun devrilməsini təmin etdi. Bu açıq aşkar Yunanıstanın Kiprə təcavüzü və əvvəlki müqavilələrin şərtlərini pozması idi. Beləcə 1974-cü ildə Kipr münaqişəsi yenidən böhran səviyyəsinə qalxdı [5].

Vəziyyət gərginləşdiyi halda Təhlükəsizlik Şurası hərəkətə keçərək 22 iyulda atəşkəs imzalanmasını təmin etdi. 23 iyul qondarma Kipr hökuməti istefa verdi və Sampsonun yerini Glafko Kleridis tutdu.

25 iyulda İngiltərə, Yunanıstan və Türkiyə konstitusiyanı bərpa etmək məqsədi ilə Cenevrədə toplandılar və bəyannamə imzaladılar. Bəyannaməyə görə 1960-cı il konstitusiya nizamı yenidən təsis edildi. Tərəflər 30 iyul atəşkəs xəttini sərhəd xətti təyin etdilər. BMT qüvvələrinin təsiri altında təhlükəsiz zona təsis edildi. İkinci konfrans təyin edildi. Konstitusiya nizamı bərpa edilənə qədər idarəçilik Kipr Respublikası başçısının köməkçisi Rauf Denktaş tərəfindən həyata keçiriləcəkdi.

2-ci Cenevrə konfransı avqustun 8-i başladı və gərginliklə avqustun 14-ü dağıldı. Konfransa İngiltərə, Yunanıstan və Türkiyədən əlavə Kiprin iki icmasının lideri Glafko Kleridis və Rauf Denktaş da qatılmışdı. Konfransda Türkiyə tərəfi federativ idarə etməni dəstəkləsə də, Yunan tərəfi danışıqları pozurdu. Atəşkəsin də tez-tez pozulması konfransın bitməsi ilə nəticələndi.

Konfransın bitməsi ilə 2-ci Kipr hərəkatı başlandı və Türklər bu dəfə adanın 38%-i tutdular. İkinci hərəkat birincidən fərqli olaraq dünyada Türkiyəyə qarşı əks reaksiya doğurdu. Birinci hərəkat hüquqi müdaxilə kimi qiymətləndirilsə də, ikinci hərəkat işğal kimi qiymətləndirildi.

Birləşmiş Millətlər Təşkilatına görə görə Kipr Respublikası adanın tək hakimidir. Və Təhlükəsizlik Şurasının dərc etdiyi 550 saylı qərarla Şimali Kipr Türk Respublikasını BMT-in digər dövlətləri tərəfindən tanınmamasını istədi.

2002-ci ilə qədər təklif olunan Peres de Quelyerin "Dialoq və Alternativ Planlar"planı, Nelson Nevskinin Denktaşın xoş niyyətli paketinə bənzər humanitar tədbirlər planı, münaqişənin həlli ilə bağlı irəli sürülmüş 3 variant və 4 ssenaridən ibarət Avropa İttifaqının türk şöbəsinin rəhbəri Raynın raportu münaqişənin həllinə heç bir nəticə vermədi.

2002-ci ildə BMT-in baş katibi olmuş Kofi Annan tərəfindən daha uğurlu bir plan irəli sürüldü. Kleridis və Denktaşa təqdim edilən plan hər iki tərəfin istəklərində ortaq bir məxrəc yaradırdı. Həm türklərə bərabər idarəçilik verir, həm də yunanlara torpaq məsələsində istədikləri güzəşt və ölçüləri verirdi. Plana əsasən müstəqil və federativ dövlət qurulacaqdı. On aydan bir prezidentlik və baş nazirlik vəzifələri türklər və rumlar arasında dəyişəcəkdi [5].

2004-cü ildə Kofi Annanın planına əsasən referendum keçirildi. Türklərin 64%-i birləşmənin lehinə səs verdi. Rumların 75%-i əleyhinə səs verdi. Hər iki tərəfin də lehinə səs verməsi tələbi olduğu üçün referendum nəticə vermədi [7].

2008-ci ildə danışıqlar yenidən ümidverici olmağa başladı. Kipr Respublikasının yeni prezidenti Dimitri problemin həllinə isti yanaşdığını bildirərək, Şimali Kipr Türk Respublikası prezidenti Mehmet Əli Tələt ilə danışıqlara başladı. 2008-dən 2010-a qədər 60-a yaxın görüş gerçəkləşdi. Görüşlərdə federal konstitusiya və idarə etmənin ədalətli paylaşdırılması müzakirə predmenti idi.

2008-ci il mayın 23-ündə tərəflər bəyannamə yayımlayaraq "tək beynəlxalq hüquqi suverenliyə malik federal dövlət" hədəflərinin olduğunu elan etdilər. Müzakirələrin nəticəsi olaraq Lokmacı sərhəd qapısı açıldı.

Mehmet Əli Tələtdən sonra ŞKTR-in 3-cü prezidenti seçilən Dərviş Əroğlu da Cənubi Kipr Respublikasının prezidentləri Dimitri Xristofos və Nikos Anastadiasla danışıqları davam etdirdi.

Daha sonra danışıqlar ŞKTR-in yeni prezidenti Mustafa Akıncı ilə Anastadias arasında yenə davam etdi.

BMT baş katiblərindən U.Thant, Kurt Valdheim, Perez de Kuelyer, Butros Gali, Kofi Annan, Ban Ki Moon və Antonio Quttereş də bu danışıqlar və sülh prosesinin inkişafına öz töhfələrini zamanında verdilər.

Lakin nə qədər ŞKTR və Cənubi Kipr Respublikası liderləri, BMT baş katibləri dəyişsə də, münaqişə axarını dəyişmədi.

Bəzən danışıqlarda ümidli zamanlar yaransa belə, rum tərəfinin maksimalist iddiaları, idarə etmə və resursları paylaşmamaq istəyi danışıqların əsas pozulma səbəblərindən idi.

2004-cü il referenduma çıxarılan Kofi Annan planı bu danışaqlarda münaqişənin həllinə qalxan yolda ən pik nöqtə oldu. Bütün problemləri həll edib boşluqları dolduran plan rum rəhbərliyi tərəfindən bəyənilsə də, rum xalqı tərəfindən rədd edildi. Buna baxmayaraq Cənubi Kipr Respublikası 2004-cü ildə AB-yə üzv qəbul edildi, referendumu qəbul edən şimal türk icmasının dövləti ŞKTR isə qəbul edilməyib kənarda qaldı [7].

2017-də danışıqlarda yenidən yüksəliş oldu. Krans-Montanada keçirilən Kipr konfransında İngiltərə, Yunanıstan, Türkiyə ilə yanaşı Birləşmiş Millətlər Təşkilatı iştirak edirdi. Konfransda BMT-in baş katibi Antonio Quttereş yeni plan təklif etdi.

Rum tərəfi yenidən müxtəlif bəhanələr gətirdi, qəbul edilməz şərtlər irəli sürdü. Sonda Antonio Quttereş konfransın uğursuzluqla nəticələndiyini elan etdi.

2019-da Antonio Quttereşin vasitəçiliyi ilə Mustafa Akıncı və Nikos Anastadias arasında 3lü qeyri-rəsmi görüş olsa da, bu görüş də nəticə vermədi.

Bir müddət əvvəl, 18 oktyabrda Şimali Kipr Türk Respublikasında seçkilər keçirildi və Beynəlxalq Birlik Partiyasının namizədi Ersin Tatar Mustafa Akıncıya qalib gələrək yeni prezident seçildi. Ersin Tatarın seçimi Kipr danışıqlarında türk tərəfinin fərqli paradiqmadan yanaşacağına işarədir. Federativ Dövlət modelinin artıq işə yaramadığını bildirən Ersin Tatar bərabər hüquqlu, müstəqil iki ayrı dövlət modelini müdafiə edir. Türkiyə də bu fikri müdafiə edərək Krans-Montanada federativ dövlət tezisinin çürüdüyünü bildirir. Türkiyə xarici işlər naziri Mevlut Çavuşoğlunun bəyanatı və 8 oktyabrda yunan tərəfinə aid Maraş şəhərinin türklər tərəfindən ictimaiyyətə açıq edilməsi də türk

tərəfinin bu münaqişəyə artıq fərqli prizmadan baxdığının və reaksiya verdiyinin göstəricisidir. Digər tərəfdən Kipr münaqişəsi artıq etnik münaqişədən kənara çıxıb Şərqi Ağdənizdəki yataqlardan istifadə uğrunda mübarizənin getdiyi daha geniş münaqişəyə çevrilib [6].

Mustafa Akıncı həm Yunanıstan və Rum icmasının rədd etdiyi federasiya, birləşmə tezisini davam etdirmək israr edir, həm də Türkiyə ilə əlaqələrdə problem yaşayırdı. Akıncının Türkiyənin Suriyada etdiyi "Barış Pınarı" hərbi hərəkatını tənqid etməsi Türkiyə siyasətində geniş rezonans yaratdı və əks reaksiyalara səbəb oldu [8]. Bundan sonra davamlı Mustafa Akıncı ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan arasında sözlü münaqişələr iki dövlət arasında münasibətləri soyuqlaşdırdı [9]. Mustafa Akıncı Kipr münaqişəsinin həllində Türkiyədən asılılığı sonlandırmaq istəyirdi və bu onun hər addımında hiss olunurdu [10]. Federativ dövlət modeli tərəfdarı olması səbəblərindən biri də bu idi ki, Kipr üzərində Türkiyə təsirini və müdaxiləsini azaltsın və məhdudlaşdırsın. Türkiyə hökuməti bunu görür və qınayırdı. Buna bariz nümunə Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun Akıncının "Guardian" qəzetinə verdiyi müsahibəyə sərt reaksiyasını saymaq olar [11].

Türkiyədəki rejimi avtoritar rejim adlandıraraq ondan uzaq duran Mustafa Akıncı Yunan-Rum tərəfi ilə də razılığa gələ, eyni zamanda Qərb dövlətlərinə və Beynəlxalq Təşkilatlara Şimali Kipr həqiqətlərini çatdıra da bilmir. Bu da Mustafa Akıncının dövründə ABŞ-ın Cənubi Kiprə qoyduğu silah embarqosunu qaldırmağı, Avropanın Şərqi Ağdənizdə yunan-rum tərəfinin araşdırmalarına və qazıntılara göz yumması, Cənubi Kiprin Avropa Birliyinə üzv olduğu halda, ŞKTC-in hələ də üzv ola bilməməsi və tanınmaması kimi prosedurlarla müşayiət olundu [12].

Nəticə. Yekun nəticə olaraq onu qeyd edə bilərik ki, müasir dövrümüzün ən aktual münaqişələrindən biri olan Kipr münaqişəsində də Şimali Kiprin öz həqiqətlərini dünyaya çatdırmasına, Cənubi Kiprlə münaqişənin həllində və Şərqi Ağdəniz konfliktində Şimali Kipr liderləri Heydər Əliyevin "Balanslı Siyasət" doktrinasından yararlanaraq münaqişənin dinamikasını necə dəyişə bilərlər sualı mövzumuzun ən önəmli hissəsidi. Mustafa Akıncının prezidentlik dövrü Heydər Əliyev hakimiyyətə gələnə qədərki dövrlə bənzərlik təşkil edir. Heydər Əliyevdən əvvəlki hakimiyyət Ermənistanla yanaşı həm qarşı tərəf Rusiya ilə münasibətləri düzəltmək əvəzinə get-gedə korlayırdı ki, bu münaqişəni davam etdirirdi. İkinci məsələ, həmin hakimiyyət müttəfiq Türkiyə ilə də münasibətləri əlində tam saxlaya bilmir, Qərblə xüsusən ABŞ-la münasibətlərə də soyuqluq çökürdü. Mustafa Akıncı da həm Yunanıstan və Rum icmasının rədd etdiyi federasiya, birləşmə tezisini davam etdirmək israr edir, həm də Türkiyə ilə əlaqələrdə problem yaşayırdı. Bu münaqişənin də həllində Heydər Əliyevin Xəzərin ehtiyatlarının "Əsrin Müqaviləsi" ilə bölüşdürülməsi zamanı balanslı xətt yürüdərək həm ABŞ, Türkiyə, İngiltərə şirkətlərinin, həm Rusiyanın, həm də İranın maraqlarını öz maraqları ilə müqayisə edib təmin etmişdi. Bu daha sonra Rusiya ilə münasibətlərin yaxşılaşmasına və Xəzərin statusunun müəyyənləşməsində həll edici rola malik oldu. Eyni zamanda Şərqi Ağdənizdəki ehtiyatların araşdırılma və bölüşdürülməsi zamanı da Şimali Kipr və Cənubi Kipr digər dövlətlərlə əməkdaşlıqdan istifadə etməyi istisna etməməli, maksimalist yanaşmamalıdırlar. İsmət İnönüyə niyə İstanbulu yox Ankaranı paytaxt etdin sualı soruşanlara, İsmət İnönü "Sənin tərəfində olanlara bir şey verməsən, niyə sənin tərəfində olsunlar ki?" cavabını vermişdi. Kipr də güclü dövlətlərlə balanslı əməkdaşlıqların qurulmasına önəm verilməlidir.

ƏDƏBİYYAT

1. Novruz Məmmədov - Heydər Əliyev və xarici siyasətin Azərbaycan modeli. - http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm [Müraciət tarixi: 03.03.2022].
2. Ziyafət Əsgərov - Heydər Əliyevin xarici siyasət strategiyası və Azərbaycanın milli təhlükəsizliyi. - http://anl.az/down/meqale/azerbaycan/2011/may/173640.htm [Müraciət tarixi: 03.03.2022].
3. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına (27 iyul-5 avqust 1997-ci il) ilk rəsmi səfərinin iqtisadi aspektlərinə dair ümumi tarixi arayış / "Heydər Əliyev İrsi" beynəlxalq elektron kitabxana. - https://lib.aliyevheritage.org/az/3262064.html [Müraciət tarixi: 03.03.2022].

4. BBC | Keçmiş ABŞ səfiri: "Əsrin Müqaviləsi"ni reallaşdırmağa qadir olan yeganə şəxs Heydər Əliyev olub". - https://www.google.com/amp/s/www.bbc.com/azeri/azerbaijan-49738435.amp [Müraciət tarixi: 03.03.2022].
5. Muhammet İkbal Arslan - 52 yıldır çözülemeyen düğüm: Kıbrıs. - https://www.aa.com.tr/tr/dunya/52-yildir-cozulemeyen-dugum-kibris-meselesi/2014857 [Müraciət tarixi: 03.03.2022].
6. Ceyda Karan – 'Kıbrıs sorunu artık Doğu Akdeniz sorunu haline geldi'. - https://www.google.com/amp/s/tr.sputniknews.com/amp/20191122/kibris-sorunu-artik-dogu-akdeniz-sorunu-haline-geldi-1040687102.html [Müraciət tarixi: 03.03.2022].
7. Azər Nuriyev - Kipr problemi həllini tapacaq? - https://kaspi.az/az/kipr-problemi-hellini-tapacaq [Müraciət tarixi: 03.03.2022].
8. Deutshce Welle – Ankara'dan Akıncı'nın sözlerine kınama. - https://m.dw.com/tr/ankaradan-ak%C4%B1nc%C4%B1n%C4%B1n-s%C3%B6zlerine-k%C4%B1nama/a-50813661 [Müraciət tarixi: 03.03.2022].
9. Deutshce Welle – Akıncı: Bu makama kimin geleceğine sadece Kıbrıs Türk halkı karar verir. - https://m.dw.com/tr/ak%C4%B1nc%C4%B1-bu-makama-kimin-gelece%C4%9Fine-sadece-k%C4%B1br%C4%B1s-t%C3%BCrk-halk%C4%B1-karar-verir/av-50976809 [Müraciət tarixi: 03.03.2022].
10. Eski KKTC cumhurbaşkanı Akıncı: Tek adam rejimi iki ülkeyi de yıkıma sürüklüyor. - https://www.diken.com.tr/eski-kktc-cumhurbaskani-akinci-turkiyede-tek-adam-rejimi-yikima-surukluyor/ [Müraciət tarixi: 03.03.2022].
11. Çavuşoğlu: Böylesine dürüst olmayan siyasetçiyle çalışmadım / Deutsche Welle. - https://m.dw.com/tr/%C3%A7avu%C5%9Fo%C4%9Flu-b%C3%B6ylesine-d%C3%BCr%C3%BCst-olmayan-siyaset%C3%A7iyle-%C3%A7al%C4%B1%C5%9Fmad%C4%B1m/a-52325354 [Müraciət tarixi: 03.03.2022].
12. Akıncı:Federasyon iki eşit kurucu devletli bir yapıdır. Üniter tek bir yapıdan söz eden yoktur. - https://brtk.net/akincifederasyon-iki-esit-kurucu-devletli-bir-yapidir-uniter-tek-bir-yapidan-soz-eden-yoktur/ [Müraciət tarixi: 03.03.2022].
13. Adıyeke A.N., Geçmişten bu güne Kıbrıs sorunu ve Türkiye / 9. Askeri tarih semineri bildirileri 1, 22-24 Ekim 2003, İstanbul, 2005, 155 s.
14. Alasya H.F. Kıbrıs ve Rum Yunan emelleri. Lefkoşa- Kıbrıs, 1992, 182 s.
15. Denktaş R.R. Son Çağrı. İstanbul, Remzi Kitab evi, 2007, 192 s.
16. Gazioğlu A.C. Kıbrıs Tarihi: İngiliz dönemi (1878-1960). Mersin, Gazioğlu Kitapları ve Cyper neşr, 1997, 232 s.
17. Aydınoğlu A. Kıbrıs sorunu Çözüm arayışları-Annan Planı ve Referendum süreci. Ankara, Asil Yayın, 2005, 515 s.

АФЕТ САФАРОВА
Доцент Бакинского Государственного Университета,
Доктор философии по политическим наукам

ГУСЕЙН БАГИРОВ
Магистрант Бакинского Государственного Университета
по специальности Международные оношения и дипломатия

ИСТОРИЯ И ПЕРСПЕКТИВЫ РЕШЕНИЯ КИПРСКОЙ ПРОБЛЕМЫ НА ФОНЕ УРАВНОВЕШИВАЮЩЕЙ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА

Сбалансированная политика общенационального лидера Гейдара Алиева обеспечила Азербайджанской Республике после 1990 года успешное международное взаимодействие государства. В результате этой политики полностью обновились отношения с другими государствами и перешли на новый уровень. Исследована история конфликта на Кипре и несоответствие предложенных планов на пути урегулирования этой проблемы. Исследовано течение

обстоятельств в настоящее время, а также предусмотрена динамика конфликта. Было произведено сравнение действий лидеров Кипра по урегулированию конфликта и роль Гейдара Алиева в замораживании Карабахского военного конфликта.

Ключевые слова: политический курс Гейдара Алиева, Азербайджан, Кипр, федеральное правительство, Турция, Мустафа Акынджи, Эрсин Татар, Европейский Союз, Южный Кипр, Восточное Средиземноморье, Каспий.

AFAT SAFAROVA
Associate professor of Baku State University,
Doctor of Philosophy in Political Science

HUSEYN BAGIROV
Master student of Baku State University
Majoring in İnternational Relations and Diplomacy

HISTORY AND PROSPECTS RESOLVING THE CYPRUS PROBLEM AGAINST THE BACKGROUND OF HEYDAR ALIYEV'S BALANCING POLICY

The balanced policy of the National Leader Heydar Aliyev ensured the success of the international activity of the Republic of Azerbaijan after the 1990s. As a result of this policy, relations with many countries have been completely rebuilt or entered a new phase. The history of the Cyprus conflict and the inconsistency of the proposed plans throughout history have been investigated. The dynamics of the development of the Cyprus conflict in the modern period was studied, the periodic situation was assessed. The features of Heydar Aliyev's policy in freezing the Karabakh conflict have been compared with the behavior and diplomacy of the leaders of modern Northern Cyprus.

Keywords: Heydar Aliyev's political course, Azerbaijan, Cyprus, Federal government, Turkey, Mustafa Akinci, Ersin Tatar, European Union, Southern Cyprus, Eastern Mediterranean, Caspian.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. K.Məmmədov, s.e.d. Adil Mirabdullayev.

UOT 94(479.24)

ƏZƏT MƏHƏRRƏMOVA
Bakı Dövlət Universitetinin doktorantı
ezetmeherremova@gmail.com

SOVET HAKİMİYYƏTİ İLLƏRİNDƏ AZƏRBAYCANDA DÖVLƏT-DİN MÜNASİBƏTLƏRİ

1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycanda siyasi hakimiyyət bolşeviklərin əlinə keçdi. AXC-yə məxsus bütün dövlət qurumları ləğv edildi, Kommunist partiyası istisna olmaqla, bütün siyasi partiyalar buraxıldı. Çox keçmədi ki, rus bolşevizmi digər sahələrdə olduğu kimi, din məsələsində də ideoloji mübarizəyə başladı və İslama qarşı qəti hücuma keçdi. Dinə qarşı mübarizə "Mədəni inqilab" siyasəti çərçivəsində həyata keçirilir, ateizm təbliğ olunurdu. 1920-ci ildə "Vicdan azadlığı haqqında" dekretin qəbul olunması, 1924-cü ildə Bakıda "Allahsızlar Cəmiyyəti" təşkil edilməsi Sovet hakimiyyətinin öz ideologiyasını həyata keçirilmək yolunda atdığı addımlar idi. Aparılan siyasət nəticəsində bütün məktəblərdə dinin tədrisi və dini ayinlərin icrası qadağan olundu; bir çox din xadimləri sürgün və repressiyalara məruz qaldı, məscidlərin əksəriyyəti bağlandı va ya dağıdıldı. Lakin həyata keçirilən bütün tədbirlərə baxmayaraq Azərbaycan xalqı öz adət-ənənələrindən, dini etiqadından uzaqlaşmadı. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra uzun illər tətbiq edilən qadağalara son qoyuldu, ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin edildi, dini qurumların fəaliyyətinə və dini ayinlərin icrasına şərait yaradıldı.

Açar sözlər: tarix, din, dövlət, qanun, sənədlər,qadağa, etiqad, kommunist.

Giriş. Tarixinin müxtəlif mərhələlərində bir çox xalqlar kimi, azərbaycanlılar da məhrumiyyətlərlə üzləşmiş, çətin sınaqlardan keçərək müasir dövrümüzə adlamışlar. Müqayisə olaraq qeyd edək ki, sovet hakimiyyətinin ilk illəri Azərbaycan tarixinin ən tələtümlü və gərgin mərhələlərindən biri sayıla bilər. Dövr başlıca olaraq milli adət-ənənələrə və dini dəyərlərə qarşı ciddi qadağaların tətbiq edilməsi, Azərbaycan ziyalıları və din xadimlərinin repressiyalara məruz qalması, sürgünə məhkum olunması və qətlə yetiriməsi ilə yadda qalmışdır.

Azərbaycan XX əsrin əvvəllərində inkişaf mərhələsinin yeni, ictimai-siyasi proseslərin ardıcıl surətdə bir-birini əvəzlədiyi qaynar dönəminə daxil oldu. 1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulmuş, Xalq Cümhuriyyətinin bütün dövlət qurumları ləğv edilmiş, Kommunist Partiyası istisna olunmaqla, bütün siyasi partiyalar buraxılmışdı. Belə bir zamanda «İttihad» Partiyası ölkədəki mövcud ictimai və siyasi vəziyyəti nəzərə alıb, Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə partiyanın məqsədlərinin həyata keçirildiyini bildirdi və bütün ittihadçılara Kommunist Partiyasına üzv olmağı tövsiyə etdi.

Bolşeviklər bu ərazidə öz hakimiyyətlərini qoruyub saxlamaq üçün müxtəlif üsullara əl atır, insanların şüurunda kommunist ideologiyasını formalaşdırmağa çalışırdılar. Sovetlər Birliyi dövründə Azərbaycanda əsas milli-ideoloji problemlərindən biri də dinlə, əsasən də İslam dini ilə bağlı olmuşdur. Bolşeviklər digər sahələrdə olduğu kimi, din məsələsində də ilk dövrlərdə loyallıq göstərmiş, lakin bu proses çox uzun çəkməmiş və rus bolşevizmi İslama qarşı qəti hücuma keçmişdi. "Mədəni inqilab" siyasəti çərçivəsində ölkədə dinə qarşı mübarizə aparılır, ateizm təbliğ olunurdu.

Həmin dövrdə dövlət vicdan və etiqad azadlığı prinsiplərindən uzaqlaşdı, bütün dini imtiyazlar ləğv olundu, məscid və kilsələrin dövlətdən ayrıldığı barədə qərar qəbul edildi. Azərbaycanda antisovet əhval-ruhiyyəli ruhanilərin mövqelərinin zəiflədilməsi üçün dini ayinlər haqqında yerli qanunvericilik Aktı təsbit olundu ki, sözügedən sənəd bu sahədə həyata keçirilən ciddi və təsirli tədbirlərdən hesab edilə bilər. Leninin «Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında» məşhur Dekreti (5 fevral 1918-ci il) əsasında tərtib edilən və Nəriman Nərimanovun təşəbbüsü ilə Azərbaycan SSR Xalq Maarifi Komissarlığında qəbul olunan «Vicdan azadlığı haqqında» (15 may 1920-ci il) Dekret bu sahədə sovet qanunvericiliyinin formalaşdırılması və dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynadı. Bu Dekretlə həmin dövrdə fəaliyyət göstərən Dini Etiqad Nazirliyi ləğv

edildi, dinin dövlətdən ayrıldığı elan olundu, Sovet Azərbaycanı vətəndaşlarının istədikləri dinə etiqad göstərməkdə, yaxud heç bir dinə inanmamaqda azad olduqları bildirildi [1, 73].

Dini Etiqad Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin din siyasətini həyata keçirən icra hakimiyyəti orqanı idi. Bu orqan milli ənənələrə qayıtmaq, əhalinin dini ehtiyaclarını ödəmək məqsədilə yaradılmışdı. Sovet rəhbərliyi Dini Etiqad Nazirliyini ləğv etməklə həm AXC dövründən qalan dövlət qurumlarının aradan qaldırılması yolundan daha bir addım atmış, həm də öz dini siyasətini yeritmiş oldu.

Beləliklə, «Kilsənin dövlətdən və məktəbin kilsədən ayrılması haqqında» Dekretlə Xalq Maarifi Komissarlığının (XMK) nəzdindəki bütün məktəblərdə dinin tədrisi və dini ayinlərin icrası qadağan olundu. XMK-nin xüsusi əmri ilə tədris müəssisələri və məktəb şuralarının sədri vəzifəsini tutan dinlə əlaqəli şəxslər vəzifələrindən azad edildilər [5, 166]. Bu Dekret dini dəyərlərə və dini təşkilatlara münasibətdə sovet hakimiyyəti üçün əsas sənəd sayılırdı. Dekretdə dini təşkilatların mülkiyyət hüququnun ləğv edildiyi aydın şəkildə göstərilirdi. Bu sənədlə dini qurumlar hüquqi şəxs olmaqdan məhrum edildi, dini qurumların bütün əmlakının xalqa məxsusluğu, o cümlədən, dövlətin və məktəbin dünyəviliyi elan edildi. Eyni zamanda, Dekretdə təşkilatların bərabərhüquqlu və qeyri-hökumət qurumları olub könüllü əsaslarla yaradıldığı, dini inanclı insanların hesabına saxlanıldığı, bütün kilsə və dini təşkilatlara maddi yardım göstərilməsinin dayandırıldığı, rəsmi sənədlərdə vətəndaşların dini mənsubiyyətinin göstərilməsinin ləğv edildiyi və digər məsələlər öz əksini tapırdı.

Kilsə və dini təşkilatlara yardım göstərilməsinin dayandırılması bu təşkilatların maddi vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərirdi. Dindarların könüllü yardımı və ayinlərin icrası üçün verylən vəsait dini təşkilatların və ruhanilərin maddi tələbatını tamamilə ödəyə bilmirdi.

Azərbaycan Sovet Sosialist Respublikasının 1921-ci il mayın 19-da qəbul olunmuş ilk konstitusiyasında da din dövlətdən və təhsildən ayrılır, həmçinin vətəndaşlara dini etiqad azadlığı verilirdi. Lakin buna baxmayaraq, din azadlığı formal xarakter daşıyırdı.

Din xadimlərinin vətəndaşların ailə-məişət münasibətlərinə qarışmasının qarşısını almaq məqsədilə Azərbaycan Xalq Komissarları Soveti (XKS) və Respublika Ədliyyə Komissarlığı 1920-ci ilin may-avqust aylarında vətəndaş nikahı haqqında, Vətəndaşlıq Vəziyyəti Aktlarının Qeydiyyatı (VVAQ), Notariat orqanları haqqında, uşaqlar və vətəndaşlıq vəziyyətinin qeydə alınması qaydası haqqında bir sıra dekret və qərarlar qəbul etdi [9, 73]. Dekret qəbul edildikdən sonra, din xadimləri amansız repressiyaya məruz qalaraq, təqib olunmağa başladılar. Bolşeviklər respublikanın bütün ərazisində dindarları izləyir, onlara «sinfi düşmən» damğası vurub Sibirə sürgün edir və güllələyirdilər. Bu dövrdə yüzlərlə din xadimi amansızlıqla qətlə yetirildi, canlarını qurtaranlar vətənin hüdudlarından xaricdə yaşamağa məcbur oldular [4, 193-194].

1923-cü ilin sentyabrın 29-da AK(b)P yuxarı orqanların göstərişlərini rəhbər tutaraq, azərbaycanlılar arasında din əleyhinə geniş təbliğata başlamaq üçün tədbirlər planı hazırladı. Bu plana əsasən şiələr və sünnilər arasında ziddiyyətlər gücləndirilməli və loyal müsəlman dini liderlər kommunistlərin tərəfinə çəkilməli idi. Bununla əlaqədar, hətta "qırmızı mollalar ordusu" yaradıldı. Bu plan MK tərəfindən bəyənildi və həyata keçirilməsi tövsiyə olundu. Elə həmin ilin oktyabr ayının əvvəllərində AK(b)P MK katibliyinin müşavirəsində Respublika Xalq Komissarlığına din əleyhinə təbliğatı gücləndirmək tövsiyə olundu [6, 28].

Din əleyhinə təbliğatı daha da genişləndirmək məqsədilə 1924-ci ilin yanvar ayının 8-də AK(b)P Siyasi Bürosunun iclasında "Din Əleyhinə Komissiya" yaradıldı. Komissiyanın tərkibinə R.Axundov, Çaqin və İ.Kasparov da daxil edildi. Həmin ilin may ayının 19-da komissiyanın iclası keçirildi, "məscidlərdə birinci dərəcəli sovet məktəblərini bitirmiş uşaqlara şəriət dərsinin tədrisi" məsələsi müzakirə olundu və çıxış edənlər şəriət dərslərinin keçirilməsinin əleyhinə danışdılar. İclasın qərarında Azərbaycan SSR-də buraxılmış səhvlərin, yol verilmiş çatışmazlıqların Rusiyada və digər yerlərdə yayılmaması üçün tədbirlər görülməsi tövsiyə olundu.

Dövrün daha bir bəlası maddi-mədəni abidələrin dinsizlik pərdəsi altında talan edilməsi oldu; məbədlər, məscidlər «sinfi düşmən yuvası» elan edilərək bağlanır, yaxud anbar və muzeylərə çevrilirdi. İyirminci əsrin əvvəllərində, inqilab ərəfəsində Qafqazda 2000-ə yaxın məscid və ziyarətgah

mövcud idi. 1927-ci ildə Bakı şəhərində və Bakı qəzasında 120-dən artıq məscid fəaliyyət göstərirdi. Lakin bu məscidlərin fəaliyyəti əvvəlki intensivliyini itirmişdi. Onlardan bəzisi dini bayram və matəm günləri, bəzisi isə yalnız cümə günləri işləyirdi. Məscidlərin təxminən yarısı dindarlara gündəlik xidmət göstərirdi. Məscidlərdə dini həyat tənəzzül edirdi. Odur ki, din xadimləri məscidlərdə aparılan təbliğatı gücləndirərək, onun formalarını dəyişmək yolu ilə dini canlandırmağa çalışırdı.

1980-ci illərdə isə burada, təqribən, 25 məscid və bir neçə müqəddəs ocaq fəaliyyət göstərirdi. Ən ağır və acı itkilərdən biri isə 1936-cı ildə yol salınması bəhanəsi ilə IX əsrin möhtəşəm abidəsinin – Bibiheybət məscidinin dağıdılması oldu [3, 157].

Bundan əlavə 1924-cü ildə Bakıda "Allahsızlar Cəmiyyəti" təşkil edildi. Bu cəmiyyətin üzvləri əsasən, fəhlələrdən ibarət idi [2, 7]. Sonralar isə kənd fəallarını da ətrafına toplayan "Allahsızlar Cəmiyyəti" din əleyhinə aparılan təbliğat sahəsində "böyük iş" görürdü. Bir müddət sonra bu cəmiyyətin kənd yerlərində şöbələri fəaliyyətə başladı, mütəmadi olaraq mühazirələr, kurslar və kitabxanalar təşkil edildi.

Sovet rəhbərliyi dinə qarşı mübarizədə elə ilk zamanlardan yoxsul təbəqələrdən – fəhlə və yoxsul kəndlilərdən istifadə etməyə çalışırdı. Çünki bu təbəqə mövcud vəziyyətindən narazı idi. Sovet hakimiyyəti isə bu amildən istifadə edərək yoxsul təbəqəni şirnikləndirmək və onlardan öz məqsədləri üçün istifadə etməyə çalışırdı.

Dinə qarşı mübarizə formalarından biri də gənc nəsil arasında anti-din təbliğatı aparmaqdan ibarət idi.

SSR MİK və XKS 1924-cü ilin iyununda məhərrəmlik mərasimlərinin keçirilməsini qadağan etdi. 1926-cı ildən etibarən isə məhərrəmliyə qarşı tədbirlər daha da gücləndirildi. Məhərrəmlik mərasimlərində iştirak edən komsomolçular cəzalandırılır, kommunistlər isə partiya üzvlüyündən xaric edilirdilər. Aşura günü ərəfəsində mətbuatda kəskin yazılar dərc olunurdu. Lakin buna baxmayaraq, sovet rəhbərliyi məhərrəmliyin ləğvinə nail ola bilmədi.

Sovet hakimiyyəti illərində bir çox ibadət ocaqları, başqa dinlərə məxsus abidələr, o cümlədən Bakıdakı Aleksandr kilsəsi partlayıcı maddə vasitəsilə dağıdıldı, din xadimlərinə, dini adət-ənənələrə qarşı zorakı tədbirlər görülməyə başlandı, xalqın əsrlərlə etiqad etdiyi pirlərin ziyarət edilməsi qadağan edildi [8, 296]. "Allahsızlar cəmiyyəti"nin işini sürətləndirmək üçün, AK(b)P 1929-cu ilin aprelində keçirilən plenumunda dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni də müzakirəyə çıxarmışdı. Bir qədər sonra "Allahsızlar cəmiyyəti" dinə qarşı mübarizəni gücləndirmək adı altında "Mübariz Allahsızlar İttiifaqı"na çevrildi.

1928-ci ildə məktəblərdə, məscidlərin nəzdində, hətta evlərdə belə dini təlim qadağan edildi [7, 318]. Mərkəzin göstərişlərinə əməl etməyən din xadimləri Sibirə, Qazaxıstana sürgün edilir və güllələnirdilər. Rza Əfəndi Qadirov, Hafiz Ramazan Əfəndi kimi yüzlərlə din xadimi də bu terrordan yaxa qurtara bilməmiş və bu dəhşətin qurbanı olmuşlar.

Nəticə. Sonda belə nəticəyə gəlmək olar ki, sovet hakimiyyəti İslam dini üzərində müəyyən nəzarətə sahib olsa da, onu cəmiyyətin həyatından tam formada çıxara bilməmişdir. Bəhs olunan illərdə din xadimlərinin xeyli hissəsi repressiyaya məruz qalmiş, bir hissəsi isə hakimiyyətin ciddi nəzarəti altına alınmışdı. Bu amil özünü daha çox Bakıda biruzə verirdi. Bölgələrdə isə İslam dini öz təsirini qismən qoruya bilmişdi. Onu da qeyd edək ki, sovet dövründə xalqın milli dəyərlərindən, mədəni irsindən, dini adət-ənənələrindən, tarixi keçmişindən uzaqlaşdırılması yolunda bir çox məqsədli addımlar atıldı. Ərəb əlifbası latın qrafikası, latın qrafikası kiril hərfləri ilə əvəz edildi. Məscidlər dağıdıldı, bir çoxu bağlanaraq, anbarlara çevrildi, din və din adamları təqibə məruz qaldılar. Qiymətli əlyazma əsərləri, qədim kitablar dini ədəbiyyat adı ilə yandırıldı. Lakin bütün görülən əks tədbirlərə baxmayaraq, Azərbaycan xalqı öz adət-ənənələrindən, dini etiqadından uzaqlaşmadı, əksinə bu dövr ərzində böyük bir mədəni inkişaf yolu keçdi. Sovet dövründə Azərbaycan müsəlman Şərqində ilk dəfə olaraq ötən əsrin 30-cu illərinin axırlarında savadsızlığın aradan qaldırılmasına nail oldu.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsindən sonra yetmiş il ərzində tətbiq edilən qadağalara son qoyuldu, ölkə vətəndaşlarının dini etiqad və vicdan azadlığı təmin edildi, dini qurumların fəaliyyətinə və dini ayinlərin icrasına şərait yaradıldı.

ƏDƏBİYYAT

1. A.Əhədov, Azərbaycanda din və dini təsisatlar, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 200 s.
2. A.Göyüşov, "Azərbaycanda Sovet Hakimiyyətinin İslama Münasibətdə Apardığı Dövlət Siyasəti" // Qütb jurnalı, iyul 2004, №4, 57 s.
3. A.Paşazadə, Qafqazda İslam, Bakı: Azərnəşr, 1991, 224 s.
4. A.İsgəndərov, Mövlayi A. Şeyxülislamlığın tarixi. Bakı: Elm və təhsil, 2016, 448 s.
5. H.Orucov, Azərbaycanda din: ən qədim dövrdən bu günədək. Bakı: İdrak İB, 2012, 388 s.
6. M.Quluzadə, Azərbaycanda dövlət-din münasibətləri (İslam dininin timsalında 1920-2000-ci illər). Bakı: Açıq dünya, 2002, 300 s.
7. Z.Bünyadov, İslam Tarixi, Fəlsəfə və İbadətlər, Bakı: "İrşad" İslam Araşdırma Mərkəzi Nəşriyyatı, 1998, 231 s.
8. XX əsr Azərbaycan tarixi. II cild. Bakı: Təhsil Nəşriyyat-Poliqrafiya, 2009, 560 s.
9. Seyfettin Erşahin, Türkistanda İslam ve Müslümanlar , Ankara: 2007, 344 s.

АЗАТ МАГЕРРАМОВА
Докторант Бакинского Государственного Университета

ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ В АЗЕРБАЙДЖАНЕ В ГОДЫ СОВЕТСКОЙ ВЛАСТИ

После распада Азербайджанской Демократической Республики 28 апреля 1920 года политическая власть в Азербайджане перешла в руки большевиков. Все правительственные учреждения, принадлежавщие ADP, были упразднены, а все политические партии, кроме Коммунистической, были распущены. Не так давно русский большевизм, как и везде, начал идеологическую борьбу в вопросе религии и сильную атаку на ислам. Борьба с религией велась в рамках политики «Культурная революция», где пропагандировался атеизм. Принятие Декрета о свободе совести в 1920 году и создание Общества неверующих в Баку в 1924 году были шагами, предпринятыми советскими властями для реализации своей идеологии. В результате этой политики религиозное образование было запрещено во всех школах; многие священнослужители подвергались изгнанию и репрессиям, а многие мечети были закрыты или разрушены. Однако, несмотря на все принятые меры, азербайджанский народ не остался в стороне от своих традиций и религиозных убеждений. После восстановления независимости Азербайджана были сняты долгосрочные запреты, обеспечена религиозная свобода и совесть граждан страны, созданы условия для религиозных организаций и религиозных обрядов.

Ключевые слова: история, религия, государство, закон, документы, запрет, вера, коммунистическая.

AZAT MAHARRAMOVA
PhD student at Baku State University

STATE-RELIGIOUS RELATIONS IN AZERBAIJAN DURING THE SOVIET ERA

After the Democratic Republic of Azerbaijan fell on April 28, 1920, political power in Azerbaijan shifted to the Bolsheviks. All government offices of the Democratic Republic of Azerbaijan were abolished, and all political parties except the Communist Party were dismissed. Russian Bolshevism, as elsewhere, initiated an ideological struggle against religion and had a strong attack on İslam. The struggle against religion was carried out within the framework of the "Cultural Revolution" policy, where atheism was promoted. The adoption of the Decree on Freedom of the Conscience in 1920 and establishing of the Society of Unbelievers in Baku in 1924 were steps taken by the Soviet authorities to implement their ideology. As a result of this policy religious education

was prohibited in all schools; many priests were exiled and repressed, and many mosques were closed or destroyed. However, despite all the measures taken, the Azerbaijani people did not give up from their religious traditions and beliefs. After the Republic of Azerbaijan gained it's independence again, long-term bans were cancelled, religious freedom and conviction of citizens were ensured, religious organizations were able to activate and people were able to carry out rituals.

Keywords: history, religion, state, law, documents, prohibition, faith, communist.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Sevda Süleymanova, t.e.d. Sevinc Əliyeva.

UOT 327

SULTAN ZAHİDOV
Bakı Dövlət Universitetinin
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının dissertantı
sultanzahidov@gmail.com

TÜRKİYƏNİN MÜASİR YAXIN VƏ ORTA ŞƏRQ SİYASƏTİNƏ TÜRKİYƏ-İRAN MÜNASİBƏTLƏRİ PRİZMASINDAN BAXIŞ

Məqalədə Türkiyənin Yaxın və Orta Şərqdə regional güclərdən hesab olunan İranla münasibətlərinə və bu münasibətlərin Türkiyənin Yaxın Şərq siyasətinin formalaşmasında roluna diqqət ayrılır. Müasir dönəmdə Türkiyə-İran münasibətlərini enişli-yoxuşlu xarakterizə etmək olar. Orta Şərq regionunda nüfuz uğrunda bir-birilə rəqabətdə olan iki dövlət Suriya, Yəmən və digər məsələlərdə fərqli mövqeyə malik olsalar da, geostrateji maraqlar və ticari-iqtisadi əməkdaşlıq zərurəti iki ölkə arasındakı münasibətləri çəkişmədən çox, əməkdaşlıq səviyyəsində saxlamışdır.

Açar sözlər: Türkiyə, Yaxın və Orta Şərq, İran, Yeni-Osmanlıçılıq.

Giriş. Yaxın və Orta Şərq regionu şübhəsiz ki, həm geostrateji mövqeyinə görə, həm enerji resursları baxımından, həm də ki, tarixi və mədəni əlaqələr baxımından Türkiyə üçün böyük əhəmiyyət kəsb edir. Regionu Türkiyə üçün əhəmiyyətli edən faktorlardan biri də Orta Şərqdə böyük və regional dövlətlərin bir-birlərilə ifrat dərəcədə rəqabət aparmaları və öz siyasi oyunlarını oynamağa cəhd göstərmələridir. Bununla belə uzun illər Türkiyə xarici siyasətdə özünütəcridə üstünlük verərək regionda proseslərdən kənarda qalmışdır. Ələlxsüs, soyuq müharibə dövründə NATO-dakı müttəfiqi ABŞ-ın yanında mövqe alan Türkiyə Cümhuriyyəti əsasən qərbyönümlü siyasət yürütmüş və bununla da regionda öz nüfuzunu artırmaq imkanından lazımınca faydalana bilməmişdir. Qeyd olunmalıdır ki, əsasən 80-ci illərdə Türkiyədə Turqut Özalın başçılığı ilə neo-liberal siyasətə üstünlük verən rəhbərliyin hakimiyyətdə olması ilə Türkiyədə ixracat yönümlü iqtisadiyyat inkişaf etmiş və Türkiyənin xaricdə yeni bazarlara çıxış əldə etmək istəməsi fonunda Yaxın və Orta Şərq regionu dövlətləri ilə münasibətlərə üstünlük verilmişdir. 1990-cı illərdə isə ölkə daxilindəki problemlər və ordunun siyasətdə daha qüvvətli olması səbəbindən Türkiyə yenidən qərbyönümlü və əsasən milli təhlükəsizliyin təminin yönəlik Yaxın Şərq siyasətinə üstünlük vermişdir. 2002-ci ildə Ədalət və İnkişaf Partiyasının (AKP) hakimiyyətə gəlişi ilə Türkiyənin xarici siyasətindən 180 dərəcə dəyişiklik baş vermiş və Türkiyə region dövlətlərinə münasibətdə "Qonşularla sıfır problem" siyasətini tətbiq etməyə başlamışdır. Əhməd Davudoğlunun "Strateji dərinlik" konseptinə əsaslanan bu siyasətin təməl daşı tarixi, mədəni, dini və etnik bağlardan istifadə edərək region dövlətləri ilə münasibətlərin inkişaf etdirilməsi idi. Bəzi mütəxəssislər tərəfindən "Yeni-Osmanlıçılıq" adlandırılan bu siyasət Ərəb baharından sonrakı dövrdə kifayət qədər effektiv olmamış və nəticə etibari ilə Türkiyə xarici siyasətində növbəti dəyişikliklərə əl atmalı olmuşdur. Həmin dönəmdə Türkiyənin bölgə dövlətləri ilə yaşadığı gərginliklər, o cümlədən regionda baş verən vətəndaş müharibələri və terror təhdidi Türkiyənin fərqli siyasət yürütməsinə rəvac verərək Türkiyə xarici siyasətində yeni bir dönəminin başlanğıcını qoymuş oldu.

Bu məqalədə Türkiyənin Yaxın və Orta Şərqdə regional güclərdən hesab olunan İranla münasibətlərinə və bu münasibətlərin Türkiyənin ümumi Yaxın Şərq siyasətinin formalaşmasında roluna diqqət ayrılır.

Türkiyə-İran münasibətlərinə tarixi nəzər. Türkiyə-İran münasibətlərində müasir tendensiyaları dərindən anlamaq üçün münasibətlərin tarixi inkişafına qısa nəzər salmaq məqsədəuyğundur. Yerləşdikləri regionda ən qədim dövlətçilik ənənələrinə malik iki qonşu dövlət – Türkiyə və İran arasında münasibətlər öz kökünü tarixin ən uzaq dönəmlərindən götürür. 16-19-cu əsrlərdə müharibələrlə yadda qalan Türkiyə-İran münasibətləri, 19 və 20-ci əsrlərdə rəqabət və nüfuz əldə etmək yarışına çevrilmişdir. 1920-ci illərdə hər iki dövlətdə köhnə rejimlərin devrilməsi ilə dövlətlərarası münasibətlərdə yeni səhifə açılmış və 1979-cu ilə kimi bu münasibətlər yüksələn xəttlə inkişaf etmişdir. Həmin il İranda baş verən İslam İnqilabından sonra dövlətlərarası münasibətlərdə zaman-zaman gərgin anlar müşaiyət olunsa da, Türkiyənin həmin dönəm yürütdüyü iqtisadi təmələ əsaslanan praqmatik

siyasət səbəbindən İranla münasibətlərdə müsbət tendensiyalar da özünü göstərmişdir. Türkiyə məhz iqtisadi amili nəzərə alaraq yeni qurulan İran İslam Respublikası ilə əlaqələrə xüsusi əhəmiyyət vermiş və İrandakı yeni hakimiyyəti rəsmən tanımışdır. İranın Türkiyənin ticari əlaqələrində önəmli yerə malik olması və ölkənin neftə olan tələbatın böyük hissəsinin məhz İrandan təmin olunması Türkiyəni bu cür siyasət yürütməyə vadar edən amillərdən biri olmuşdur (3, s.8-9).

Türkiyə eyni siyasəti 1980-1988-ci illər İran-İraq müharibəsində də davam etdirmiş və özünü "fəal tərəfsiz" dövlət kimi qələmə vermişdir. Yəni ki, müharibə dövründə rəsmən bitərəf mövqe sərgiləməsinə baxmayaraq Türkiyə həm İran, həm də İraqla ticari əməkdaşlığını davam etdirmişdir. Belə bir siyasətin fonunda 1981-1982-ci illərdə iki ölkə arasında önəmli ticari razılaşmalara imza atılmış və nəticədə 1979-1982-ci illərdə Türkiyənin İranla ticarət dövriyyəsi 9 dəfə artmışdır (2, s.24).

1983-cü ildə Türkiyədə Turqut Özalın hakimiyyəti gəlişi ilə İranla münasibətlərdə yaxınlaşma davam etmişdir. Özal hökuməti İranla yaxın iqtisadi əlaqələrin qurulmasının Türkiyənin milli maraqlarına uyğun olduğuna inanmış və Tehranın təcrid olunmasına qarşı çıxmışdır. 1984-cü ildə Özalın Tehrana səfər edərək mühüm ticari razılaşmalara imza atması dövlətlərarası iqtisadi münasibətlərdə yeni səhifə açmış oldu. Bu səfərlə Türkiyə bir daha İranla münasibətlərə verdiyi önəmi dünya ictimaiyyətinə göstərmiş olur. Qeyd edək ki, həmin dönəm İran Yaponiya və Qərbi Almaniyadan sonra Türkiyənin üçüncü ən böyük ticari tərəfdaşı idi. Təkcə 1984-cü ildə İran Türkiyəyə hər gün 100.000 barel neft satmış və bu da ölkəyə ümumilikdə 1 milyard dollara yaxın gəlir gətirmişdir (5, s.351). Bununla belə 1985-ci ildən etibaren İranda neft qiymətlərinin düşməsi və valyuta ehtiyatlarının tükənməsi səbəbindən iqtisadi geriləmə baş vermiş və bu proses Türkiyə-İran arasındakı ticari münasibətlərə də mənfi təsir göstərmişdir. Eyni zamanda həmin dönəmdə iki ölkə arasında PKK (Kürd Fəhlə Partiyası) və iranlı müxaliflər məsələsində gərginlik yaşanmış, üstəlik İranın Türkiyə üçün həyati əhəmiyyət kəsb edən Kərkük-Yumurtalıq boru xəttini təhdid etməyə başlaması dövlətlərarası münasibətlərə mənfi təsir göstərmişdir. Bu gərginlik 1989-cu ilə kimi davam etmiş, Xomeyninin ölümündən sonra Əli Əkbər Haşimi Rəfsəncaninin hakimiyyətə gəlişi ilə İran yenidən praqmatik siyasətə baş vurmuşdur (8, s.14).

Müasir dövrdə Türkiyə-İran münasibətlərinin xarakterik cəhətləri. 1990-cı illərdə İran-Türkiyə münasibətlərini enişli-yoxuşlu adlandırsaq yanılmarıq. Bu dönəmdə İraqla müharibədən yenicə çıxmış İran çökmüş iqtisadiyyatını dirçəltmək üçün praqmatik və liberal iqtisadi siyasət tətbiq etməyə və xarici dövlətlərlər münasibətlərini bərpa etməyə səy göstərmişdir. Bu proses əsasən Körfəz müharibəsinə qədərki dövrdə iki dövlət arasındakı münasibətlərdə müsbət izlər qoymuş olsa da, hadisələrin sonrakı inkişafı və ələlxsüs, Türkiyədə ordu və xarici siyasət bürokratiyasının İranı milli təhlükəsizliyə təhdid olaraq görməsi ölkələr arasındakı gərginliyin artmasına səbəb oldu. Türkiyənin həmin dövrdə İranı milli maraqlara təhdid olaraq görməsinin arxasında üç əsas faktor dayanır:

1. İranın PKK-nı dəstəkləməsi ilə bağlı iddiaların mövcud olması.
2. İranın Türkiyədə İslam inqilabını həyata keçirmək istəyində olması ilə bağlı fikirlər.
3. İran və Türkiyə arasında Yaxın Şərq, Orta Asiya və Qafqaz bölgələrində rəqabətin mövcudluğu.

Burada qeyd etmək yerinə düşər ki, Sovet İttifaqı dağıldıqdan sonra Mərkəzi Asiya və Qafqaz regionlarında yeni yaranmış dövlətlərdə nüfuz əldə etmək uğrunda mübarizə hər iki dövlət arasındakı münasibətlərə təsir göstərən faktorlardan birinə çevrilmişdi. Xüsusilə, Qafqaz regionunda Türkiyənin yenicə yaranmış Azərbaycan Respublikası ilə yaxın münasibətləri İranın Ermənistanı dəstəkləməsi xəttində təkanverici amillərdən biri olmuşdur. Bununla belə 1990-ların ikinci yarısında, xüsusilə Nəcməddin Ərbakanın hakimiyyəti dövründə İranla yenidən yaxınlaşma siyasətinə üstünlük verilmiş və enerji sahəsində əməkdaşlığın daha da inkişafı etdirilməsi yönündə müxtəlif addımlar atılmışdır. Bu tendensiya 1997-ci ilin fevral çevrilişinə qədər davam etmiş və Ərbakanın hakimiyyətdən getməsi ilə münasibətlərdə yenidən soyuqluq yaranmışdır. Ümumilikdə götürsək, haqqında yuxarıda bəhs olunan hadisələrə əsaslanaraq 90-cı illərdə İran-Türkiyə münasibətlərini əməkdaşlıq və çəkişmə dövrü kimi xarakterizə etmək olar.

1990-ların sonlarında İranda Məhəmməd Hatəminin hakimiyyətə gəlişi ilə ölkənin xarici siyasətində yeni bir dönəm yaşanmış olur. Türkiyəli siyasi tədqiqatçı Təyyar Arı "İraq, İran, ABŞ və neft" əsərində qeyd edir ki, Hatəminin siyasəti sülh və sabitliyin inşasına töhfə verməyə, qonşu dövlətlərə güvən verməyə və dünya iqtisadiyyatına inteqrasiya olaraq İranı təcriddən çıxartmağa yönəlmişdi. Əslində Hatəminin bu cür detente (yumşalma) siyasəti Rəfsəncaninin praqmatik siyasətinin daha da inkişaf etdirilməsi demək idi (1, s.370). Bu siyasət çərçivəsində İran regional dövlətlərə, o cümlədən Səudiyyə Ərəbistanı, Küveyt, Qətər və Türkiyə ilə münasibətləri daha da inkişaf etdirmək xəttinə üstünlük vermiş olur. Öz növbəsində Türkiyədə də İrana qarşı münasibət dəyişmiş, ələxsüs PKK lideri Abdullah Öcalanın həbs olunması, 2000-ci ildə Türk Hizbullahının məhv edilməsi və Rəfah partiyasının bağlanması ilə Türkiyənin İrana baxışında irtica təhdidinin arxa plana düşməsi, iqtisadi maraqlarının təhlükəsizlik maraqlarından önə keçməsi baş vermişdir. Bu dönəmdə Türkiyə və İranı yaxınlaşdıran faktorlardan biri də ABŞ-ın İraqda müdaxiləsinə əks mövqe nümayiş etdirmələri idi. Hər iki dövlət bu müdaxilənin regionu daha da sabitsizləşdirəcəyi inancında olmuş və müxtəlif forum və tədbirlərdə bu müdaxiləni qınamışdılar. Burada önəmli olan amillərdən biri də ABŞ-ın mümkün müdaxiləsi nəticəsində İraqın şimalında Kürd dövləti yaranması ehtimalı və belə bir ssenarinin həm İran, həm də Türkiyə üçün qəbuledilməz olmasıdır. Bununla belə o da vurğulanmalıdır ki, İran münasibətlərin ən yaxşı olduğu zamanlarda belə Türkiyəyə qarşı ehtiyatla davranmış, Türkiyənin regionda nüfuzunu artırmaq istəyinə qarşı çıxmışdır. Hər nə qədər ticari-iqtisadi tərəfdaş olaraq Türkiyənin İran üçün əhəmiyyəti böyük olsa da, Türkiyəni İranın gözündə təhdid göstərəcək faktorlar da mövcuddur. Həmin faktorları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dünyada ən böyük sünni əhaliyə malik olan dövlətlərdən biri olan Türkiyənin İranın şiə inqilabının ixracı yolunda bir əngəl olması.
2. Türkiyənin Yaxın və Orta Şərq, Qafqaz və Mərkəzi Asiya regionlarında nüfuz əldə etmək uğrunda İranın başlıca rəqiblərindən biri olması.
3. İranda 30 milyondan çox türkəsilli azərbaycanlıların yaşaması.
4. Türkiyənin NATO üzvü olması.
5. Türkiyənin İranın özünə təhdid hesab etdiyi ABŞ və İsraillə yüksək əlaqələrə malik olması.

Bütün bu ayırıcı amillərin fonunda daha çox iqtisadi və geostrateji amillər hər iki dövlətin birbirinə yaxınlaşmasında böyük rola malikdirlər. Yalnız 2003-cü ildə Türkiyə və İran arasında təhlükəsizlik və ticari əlaqələrin inkişafı sahəsində mühüm protokollar qəbul olunmuşdur. 2005-ci ildə İranın xarici işlər naziri Mənuçehr Mötəkkinin Türkiyəyə rəsmi ziyarəti ərəfəsində tərəflər arasında ticarət, nəqliyyat, rabitə və gömrük sahələrində əməkdaşlığın genişləndirilməsi, ortaq enerji layihələrinin həyata keçirilməsi ilə bağlı razılaşmalar əldə olunmuşdur. 2007-ci ildə dünya birliyi İrandakı nüvəni zənginləşdirməsi prosesi səbəbindən bu ölkəyə qarşı sanksiyaların tətbiq olunmasını müzakirə edərkən Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan İranla enerji layihələrini davam etdirəcəyini bildirmişdi. Bu cür siyasət həm də, həmin dönəm Türkiyədə hakimiyyətdə olan Ədalət və İnkişaf Partiyasının (AKP) xarici siyasət prioritetlərinə uyğun idi. Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlunun "Strateji dərinlik" konsepsiyasına dayanan və bəzi mütəxəssislər tərəfindən "Yeni Osmanlıçılıq" adlandırılan bu xarici siyasət xətti Yaxın və Orta Şərq regionunda daha fəal siyasət yürütməyi özündə əks etdirirdi. Ötən əsrin 80-ci illərində Türkiyənin siyasi-iqtisadi intellektual dairələrində formalaşmağa başlayan "Yeni Osmanlıcılıq" konsepsiyası Türkiyənin bir zamanlar Osmanlı İmperiyasının tərkibində olan bölgələrdə nüfuz dairəsinin artırılmasına dayanır. "Strateji dərinlik" kitabında Əhməd Davudoğlu "Yeni Osmanlıçılığı" belə izah edir: "Türkiyə özünə qapanma siyasətini tərk edərək bir zamanlar əksər hissələri Osmanlının tərkibində olan bu hövzələrdəki dövlətlərlə yaxın münasibətlər yaratmalı və regionda öz nüfuzunu bərpa etmək üçün yeni kimliyə dayanan çoxölçülü xarici siyasət həyata keçirməlidir. Bu yeni kimlik özündə demokratiya və qərb dəyərlərini, islamı, mədəni və etnik ünsürləri birləşdirir. Yəni, bu o deməkdir ki, Türkiyə Orta Asiya və Qafqaz regionu ilə münasibətləri etnik və mədəni ünsürlərə, Orta Şərq dövlətləri ilə münasibətləri dini ünsürlərə və Balkanlarla münasibətləri qərb dəyərlərinə əsaslanan siyasətlə inkişaf etdirmək iqtidarındadır və Türkiyə bu imkanlardan yararlanaraq bəhs olunan dövlətlərə açılmaq siyasətini həyata keçirməli-

dir. Davudoğlunun təbirincə desək, dünyanın şimal-cənub və şərq-qərb istiqamətindəki ən strateji mövqeyin mərkəzi xətti üzərində yerləşən Türkiyənin içinə qapanması coğrafi baxımdan mümkün deyildir(4,s.556). Həmin dönəm xarici siyasətdə "Qonşularla sıfır problem" istiqamətini rəhbər tutan Türkiyə bu baxımdan İranla da münasibətlərini inkişaf etdirməyə cəhd göstərmişdir.

Bununla belə 2011-ci ildən etibarən regionda inqilablarla müşaiyət olunan Ərəb Baharının vüsət alması Türkiyənin xarici siyasət kursunda müəyyən dəyişikliklərə səbəb olduğu kimi Türkiyə-İran münasibətlərində gərgin anlar yaratmış oldu. Bu gərginliyin əsas səbəbi hər iki dövlətin İraq, xüsusilə də Suriya məsələsində fərqli mövqeyə malik olmaları idi. Əgər rəsmi Tehran Suriyada Bəşər Əsəd hakimiyyətini dəstəkləyirdisə də, Ankara Əsəd rejiminə qarşı müxalif qüvvələrin yanında idi. İran Türkiyəni Suriyada rejimi devirməyə cəhddə günahlandırarkən, Türkiyə Suriyanı öz əhalisinə qarşı qətliam törədən rejimi müdafiə etməkdə günahlandırırdı. Hadisələrin bu cür inkişafı fonunda Türkiyənin Suriya ilə sərhəddə NATO-ya məxsus "Patriot" raket əleyhinə müdafiə sistemlərini yerləşdirməsi iki ölkə arasındakı gərginliyi daha da artırmış oldu(10). Türkiyəli araşdırmaçı Hasan Kösebalabanın da qeyd etdiyi kimi, "Qonşularla sıfır problem" konsepti Ərəb Baharına kimi Türkiyədə müvəffəqiyyətlə tətbiq olundu. Türkiyə bu ərəfədə İran və Suriya ilə, o cümlədən Balkan dövlətləri ilə münasibətlərini daha da inkişaf etdirdi (7, s.366). Bundan sonrakı proseslər isə əks effekt verərək Türkiyənin region dövlətləri ilə münasibətlərində mənfi dinamikaya səbəb oldu.

İranla Türkiyə arasında siyasi və təhlükəsizlik məsələlərində fikir ayrılığı olsa da, əvvəllər olduğu kimi yenə də münasibətlərdə aparıcı faktor, məhz ticari-iqtisadi əməkdaşlıq idi. Həsən Ruhaninin İranda hakimiyyəti gəlişi ilə xarici siyasətdə yenidən praqmatik iqtisadi inkişaf xəttinə üstünlük verilməsi Türkiyə-İran münasibətlərinin yenidən dirçəlməsinə şərait yaratmış oldu (9, s.31). Bu ərəfədə Türkiyə rəsmi Tehranla qısa zamanda sıx təmaslar həyata keçirmiş, dövlət rəsmiləri yeni seçilmiş İran prezidentinin andiçmə mərasimində iştirak etmişdilər. Həmin dönəm Türkiyənin xarici işlər naziri olan Əhməd Davudoğlu mətbuat konfransındakı çıxışında İran ilə Suriya ətrafında üç məsələdə - humanitar faciənin aradan qaldırılması, Suriya xalqının demokratik tələblərinin təmin olunması və siyasi keçid dönəminin dinc olması məsələlərində razılığa gəlindiyini qeyd etmişdir. İkitərəfli münasibətlərdə dönüş nöqtəsi kimi isə 2014-cü ilin yanvarında Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın Tehrana rəsmi səfərini vurğulamaq olar. Səfər zamanı dövlətlər arasında üç razılaşma (Müştərək Ticarət Komitəsinin qurulması sazişi, Preferensial Ticarət Sazişi və İran Xəbərlər Agentliyi (İRNA) və Anadolu Agentliyi (AA) arasında əməkdaşlıq razılaşması) və bir bəyannamə (Yüksək Səviyyəli Əməkdaşlıq Şurası haqqında) imzalanmışdır.

Türkiyə və İran arasında ticari-iqtisadi əlaqələr dünya birliyinin İrana qarşı tətbiq etdiyi iqtisadi sanksiyalar dövründə belə səngiməmiş, əksinə yüksələn xəttlə inkişaf etmişdir. Türkiyə, xüsusilə enerji sahəsində İranla əməkdaşlığa böyük önəm vermiş və hətta 2010-cu ildə Braziliya ilə birgə İranla nüvə yanacağının mübadiləsi ilə bağlı Tehran Bəyannaməsini imzalamışdır(11). Bundan əlavə Türkiyə milli maraqlarına ziyan verəcəyi səbəbindən ABŞ və Avropa Birliyinin İrana qarşı həyata keçirdiyi sanksiyalara qoşulmamış, yalnız BMT çərçivəsindəki sanksiyaları tətbiq etmişdir.

2013-cü ildə İranda Həsən Ruhaninin hakimiyyətə gəlişi ilə ölkə nüvə enerjisi ətrafında müzakirələrə hazır olduğunu elan etmiş və 2015-ci ildə Cenevrədə başlanan danışıqlar nəticəsində həmin ilin 14 iyul tarixində İran və P5+1dövlətləri (Rusiya, ABŞ, Çin, Fransa, Böyük Britaniya və Almaniya) arasında Müştərək Hərtərəfli Fəaliyyətlər Planı adlı saziş imzalanmışdır (12). Bu saziş İrana sanksiyalardan qurtularaq tənəzzüldə olan iqtisadiyyatını dirçəltmək, o cümlətən Türkiyə və digər dövlətlərlə ticari əlaqələri inkişaf etdirmək imkanı yaratmış oldu. İranla nüvə danışıqları prosesində Türkiyənin də böyük rol aldığını xüsusilə vurğulamaq gərəkdir. 2015-ci ilin aprel ayında ABŞ dövlət katibi Con Kerri çıxışında Türkiyənin bu prosesə olan dəstəyini xüsusilə qeyd edərək öz təşəkkürünü ifadə etmişdir. Nüvə müzakirələri prosesindən sonra İranla ticari əlaqələrini əvvəlki səviyyəyə gətirmək imkanına malik olan Türkiyə baş naziri R.T.Ərdoğan aprel ayında Tehrana səfər edərək Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının ikinci yığıncağında iştirak etmişdir (13).

Növbəti ili Türkiyə və İran arasında siyasi dialoq ili kimi qələmə versək yanılmarıq. Xüsusilə, Suriya ətrafında yaranan böhran səbəbindən tərəflər arasında tez-tez təmaslar sürdürülmüş, xarici işlər nazirləri və dövlət rəhbərləri səviyyəsində görüşlər həyata keçirilmişdir. 2016-cı ildə İstanbulda baş tutan İslam Əməkdaşlıq Təşkilatı sammitində iştirak edən İran prezidenti Həsən Ruhani, tədbirin

ardından Ankarada Türkiyənin baş naziri R.T. Ərdoğanı ziyarət etmiş və bu görüşdə iki ölkəni maraqlandıran məsələlər, o cümlədən ticari-iqtisadi əlaqələr, Suriya böhranı və s. ətrafında geniş fikir mübadiləsi həyata keçirilmişdir. Həmin il Türkiyə, Rusiya və İranın birgə səyləri ilə Suriyada hakimiyyət və müxalif qüvvələr arasında atəşkəs sazişi imzalanmış və bununla da ölkədə müvəqqəti də olsa sabitliyin təsis olunmasına birgə töhfələr verilmişdir. 2017-ci ildə Suriyadakı vəziyyətlə əlaqədər tərəflər arasında "Astana prosesi" deyilən danışıqlar sürəci başlamış olur (14). Eyni böhranı aradan qaldırmaq məqsədilə tərəflər arasında 2018-ci ildə daha da intensivləşən müzakirələr həmin ilin aprel ayında Ankara, sentyabr ayında isə Tehranda baş tutan yüksək səviyyəli üçtərəfli görüşlərlə pik həddinə çatmışdır. Tehran görüşündə Suriyanın İdlib regionunda atəşkəslə bağlı tərəflər arasında hər hansı razılıq əldə olunmasa da yekun bəyanatda böhranın hərbi yollarla çözümünün yolverilməz olduğu vurğulandı (15). Bununla belə, həmin görüşdən bir neçə gün sonra Rusiyanın Soçi şəhərində baş tutan görüşdə Suriyada hərbsizləşdirilmiş zonaların yaradılması ilə bağlı Türkiyə və Rusiya arasında baş tutan razılıq bölgədə vəziyyətin sabitləşdirilməsinə müəyyən qədər də olsa töhfə vermiş oldu. Bu dövrdə İranla Türkiyə arasında, xüsusilə Suriya və Yəmən məsələsində fikir ayrılığı olsa da, tərəflərin siyasi maraqlarını birləşdirən faktorlar da mövcud idi və bu faktorları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qətər ətrafında yaranmış diplomatik böhranda tərəflərin yaxın mövqeyə malik olması (16).
2. ABŞ tərəfindən hər iki dövlətin sanksiyalara məruz qalması və bu sanksiyalar əleyhinə qarşılıqlı dəstəyin göstərilməsi (6, s.27-29).
3. İŞİD və PKK əleyinə hər iki dövlətin müştərək maraqlardan çıxış etməsi.
4. Hər iki dövlətin İsrail və Səudiyyə Ərəbistanı ilə gərgin münasibətlərə malik olması.

Bununla belə, iki ölkə arasındakı münasibətlərdə 2019-ci ildə Türkiyənin Suriyada başlatdığı "Sülh Bulağı" əməliyyatı səbəbindən yenidən gərginlik yaşanmışdır. Suriyada Əsəd rejiminin qalmasını özünün həyati əhəmiyyətli maraqlarından biri kimi qələmə verən rəsmi Tehran Türkiyənin bu addımını pisləmiş və bunun regional sülhə töhfə verməyəcəyini bildirmişdir (17). O da əlavə olunmalıdır ki, İranla-Türkiyənin maraqlarının kəsişdiyi bölgələrdən biri də məhz Qafqaz regionudur. Ələxsüs, İkinci Qarabağ Savaşından sonra Azərbaycan və Türkiyənin Qafqazda möhkəmlənməsi İranı qane etməmiş və bununla da o, yeni yaranmış reallığı tanımaqdan çəkinmişdir. R.T.Ərdoğanın Bakıdakı Zəfər paradında iştirakı və orada ifadə etdiyi şer İran tərəfindən birmənalı qarşılanmamış və bu da öz növbəsində tərəflər arasında müəyyən xoşagəlməz halların yaranmasına səbəb olmuşdur. Bu hadisələrin müqabilində növbəti gün İranın səfiri Türkiyə xarici işlər nazirliyinə dəvət olunmuş və orada səfirə şerdə İranın ərazi bütövlüyünə zidd ifadələrin yer almadığı bildirilərək qarşı tərəfə diplomatik dillə əks bəyanatlar verərkən ehtiyatlı olmaq tövsiyə edilmişdir (18).

Nəticə. Yekun nəticə olaraq onu qeyd edə bilərik ki, Yaxın və Orta Şərq regionunda aparıcı regional güclərdən olan Türkiyə və İranın münasibətləri uzaq keçmişə dayanır. Dövlətlərin coğrafi cəhətdən bir-birinin qonşuluğunda yerləşməsi və müəyyən ortaq tarixi, ticari, mədəni əlaqələrə malik olması bu münasibətləri zəruri edən amillərdəndir. Müasir dövrdə isə Türkiyə və İran arasında münasibətlər enişli-yoxuşlu mərhələlərdən keçmişdir və bu münasibətlərin təməlində ticari-iqtisadi faktorlar dayanır. İki dövlət arasında Yaxın və Orta Şərq, Mərkəzi Asiya və Qafqazlarda nüfuz əldə etmək uğrunda rəqabət mövcuddur. Yaxın və Orta Şərqdə tərəflər arasında xüsusilə, Suriya, Yəmən böhranları ətrafındakı məsələlərdə kəskin fikir ayrılıqları mövcud olasa da, Qətər və İraqdakı proseslərdə tərəflər bir-birinə dəstəkləmiş və bundan əlavə Türkiyənin ABŞ və İsraillə korlanan münasibətləri fonunda Türkiyə tərəfindən İranla yaxınlaşma xəttinə üstünlük verilmişdir. Bununla belə məhz ticari-iqtisadi faktorlar, yəni hər iki dövlətin bir-birilə iqtisadi əlaqələrin inkişafına, Türkiyənin İranın enerji resurslarına, İranın isə Türkiyədən müxtəlif məhsulların ixracatına ehtiyac duyması iki dövlət arasında münasibətlərdə çatışmadan çox əməkdaşlığın konturlarını cizmişdir. Bununla belə İranın regionda hegemonluğa cəhd etməsi Türkiyəni hiddətləndirən faktorlardan biridir və bu faktor iki dövlətin gələcəkdəki münasibətlərinə də təsirsiz ötüşməyəcəkdir.

ƏDƏBİYYAT

1. Arı T. İrak, İran, ABD ve Petrol. İstanbul: ALFA Basım Yayım Dağıtım Ltd.Şti, 2007, 607 s.
2. Aydın M., Aras D. Political Conditionality of Economic Relations between Paternalist States: Turkey's Interaction with Iran, Iraq and Syria" // Arab Studies Quarterly, Cild 27, № 1&2, qış/bahar, 2005, s.24.
3. Bölükbaşı S. Türkiye ve Yakınındakı Orta Doğu, Dış Politika Enstitüsü Yayınları, Ankara, 1992, 114 s.
4. Davutoğlu A.M. Stratejik Derinlik, İstanbul: Küre Yayınları, 2001, 584 s.
5. Hiro.D İran under the Ayatollahs: Routledge Revivals 2011, Abington, England, 437 s.
6. İnat K., Caner M. Türkiyenin İran Politikası 2018, Türk Dış Politikası Yıllığı, İstanbul, SETA Yayınları, 2019, s.27-29.
7. Kösebalaban H. Türk Dış Politikası, Ankara: BigBang Yayınları, 2014, 432 s.
8. Sarıaslan F.K Orta Doğu ve Türkiye: Tarih, Krizler ve Dış Politika: Ankara, Nobel Akademik Yayıncılık, 2019, 258 s.
9. Sinkaya B. "Ahmedinecaddan Ruhaniye İran Dış Politikasında Değişim: İtidalli Dış Politika", Orta Doğu Analiz, cild 6, Nömrə: 61, Mart-Aprel, 2014, s.31.
10. Nato deploying Patriot missiles to Turkey-Syria border. - https://www.bbc.com/news/av/world-europe-20929753 [Müraciət tarixi: 22.02.2022].
11. Text of the Iran-Brazil-Turkey deal. - https://www.theguardian.com/world/julian-borger-global-security-blog/2010/may/17/iran-brazil-turkey-nuclear [Müraciət tarixi: 22.02.2022].
12. Iran nuclear deal: What it all means. - https://www.bbc.com/news/world-middle-east-33521655 [Müraciət tarixi: 22.02.2022].
13. Erdogan to visit Iran despite tensions: presidency. - https://english.alarabiya.net/News/middle-east/2015/04/05/Erdogan-to-visit-Iran-despite-tensions-presidency [Müraciət tarixi: 22.02.2022].
14. Syria: the Astana peace process. - https://www.france24.com/en/20180905-syria-astana-peace-process [Müraciət tarixi: 22.02.2022].
15. Iran, Russia and Turkey fail to agree on ceasefire for Syria's Idlib. - https://www.dw.com/en/iran-russia-and-turkey-fail-to-agree-on-ceasefire-for-syrias-idlib/a-45391626 [Müraciət tarixi: 22.02.2022].
16. Saudi-led Qatar blockade brings Iran, Turkey together. - https://www.al-monitor.com/originals/2017/06/saudi-qatar-blockade-iran-turkey-convergence-crisis.html [Müraciət tarixi: 22.02.2022].
17. Iran Urges Turkey to Show Restraint in Syria. - https://iranprimer.usip.org/blog/2019/oct/09/iran-urges-turkey-show-restraint-syria [Müraciət tarixi: 22.02.2022].
18. Turkey summons Iranian ambassador over Azeri poem tensions. - https://abcnews.go.com/International/wireStory/turkey-summons-iranian-ambassador-azeri-poem-tensions-74687809 [Müraciət tarixi: 22.02.2022].

СУЛТАН ЗАХИДОВ
Диссертант кафедры «Дипломатия и современные интеграционные процессы» Бакинского Государственного Университета

ВЗГЛЯД НА СОВРЕМЕННУЮ БЛИЖНЕВОСТОЧНУЮ ПОЛИТИКУ ТУРЦИИ ЧЕРЕЗ ПРИЗМУ ТУРЕЦКО-ИРАНСКИХ ОТНОШЕНИЙ

Статья посвящена отношениям Турции с Ираном, одной из региональных держав Ближнего Востока, и роли этих отношений в формировании ближневосточной политики Турции. В наше время турецко-иранские отношения характеризуются взлетами и падениями. Две страны, конкурирующие за влияние на Ближнем Востоке, хотя и имеют разные позиции по Сирии, Йемену и другим вопросам, геостратегические интересы и необходимость торгово-экономического сотрудничества способствовали поддержанию двусторонних отношений на уровне сотрудничества, а не конфликта.

Ключевые слова: Турция, Ближний Восток, Иран, новый османизм.

SULTAN ZAHIDOV
PhD student of theDepartment of Diplomacy and Modern Integration Processes
Of Baku State University

A VIEW AT TURKEY'S MODERN MIDDLE EAST POLICY THROUGH THE LENSES OF TURKISH-IRANIAN RELATIONS

The article focuses on Turkey's relations with Iran, one of the regional powers in the Middle East, and the role of these relations in shaping Turkey's Middle East policy. In modern times, Turkish-Iranian relations can be characterized with its ups and downs. The two countries, which are competing for influence in the Middle East, though having different positions on Syria, Yemen and other issues, geostrategic interests and the need for trade and economic cooperation have kept their relations at a level of cooperation rather than conflict.

Keywords: Turkey, Middle East, Iran, New Ottomanism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: s.ü.f.d. Afət Səfərova, s.e.d. Adil Mirabdullayev.

UOT 94

AYGÜN İSMAYILOVA
Bakı Dövlət Universiteti Tarix fakültəsinin doktorantı
aygun.ismayilova.vilayat@gmail.com

NATO-NUN KOSOVO BÖHRANININ TƏNZİMLƏNMƏSİNDƏ İŞTİRAKI

Yuqoslaviyanın digər Balkan ölkələrindən fərqli xüsusiyyətləri; iqtisadi quruluş, etnik struktur, federal sistem və xarici siyasəti idi. Buna görə də rejimin bu dəyişiklikləri Yuqoslaviyanın parçalanmasına gətirib çıxardı və bununla bərabər, millətçilik ön planda idi və etnik münaqişələr güclənirdi. Yuqoslaviya Sosialist Federativ Respublikasının parçalanması müddətində, Kosovoda Kosovo Azadlıq Ordusu ilə serb polisi, milisləri və Yuqoslaviya təhlükəsizlik qüvvələri arasında 1998-ci ildə bir vətəndaş müharibəsi başladı. Qarşıdurmaya mane olmaq üçün vasitəçilik edən dövlətlərin və beynəlxalq təşkilatların müvəffəqiyyət əldə edə bilməməsi nəticəsində, artan vətəndaş ölümləri və getdikcə şiddətlənən hücumları dayandırmaq üçün 1999-cu il martın 24-də NATO müdaxiləsi başladı. Məqalədə NATO-nun Kosovoda həyata keçirdiyi əməliyyat və onun nəticəsi, eləcə də bu əməliyyata olan müxtəlif yanaşmalardan bəhs edilir.

Açar sözlər: Yuqoslaviya, Kosovo, NATO, etnik münaqişələr, serblər, albanlar.

Giriş. Yuqoslaviyanın tarixinə nəzər salsaq, bu ərazidə uzun müddət fərqli din və etnik xüsusiyyətlərə sahib olan müxtəlif millətlər yaşamışlar. Lakin Yuqoslaviyanın dağılması prosesində bu millətlərdən birinin digəri üzərində siyasi üstünlüyə sahib olmaq istəyi etnik zəmində qarşıdurmalara gətirib çıxarmış oldu. Bu proseslərə təsir göstərən amillərdən biri də Yuqoslaviya Federasiyasına daxil olan ərazilərin iqtisadi baxımdan fərqli inkişaf etməsi və bu iqtisadi inkişafdan əldə edilən gəlirləri hər bir millətin öz ərazisi daxilində saxlamağa çalışması ilə əlaqədar idi.

XX əsrin sonunda Şərqi və Cənub-Şərqi Avropa ölkələrində kommunist rejimlərinin süqutu baş verdi, Varşava Müqaviləsi ölkələrinin sosialist sistemi və təşkilatı dağıldı. Beynəlxalq aləmdə yeni dövlətlər yaranmışdır: keçmiş Yuqoslaviya respublikalarından altı müstəqil dövlət formalaşmışdır. YSFR-nin parçalanma prosesi on minlərlə qurbanla etnik qrupların toqquşması ilə müşayiət olundu. Hərbi əməliyyatlar müxtəlif dərəcədə və müxtəlif vaxtlarda keçmiş Yuqoslaviyanın bütün altı respublikasına təsir göstərmişdir. Mərkəzi hökumət rəhbərləri federasiya quruluşunu saxlamağa çalışsalar da, milli məsələ ilə bağlı düzgün addımlar atmağa nail olmadılar. Hadisələr beynəlxalq müdaxilə ilə nəticələnmiş oldu. Balkanlarda münaqişələrin qurbanlarının ümumi sayı 1990-cı illərin əvvəllərindən 130 mindən artıqdır. Maddi ziyan on milyardlarla dollar təşkil edir. Keçmiş Yuqoslaviya ərazisində çoxsaylı etnik münaqişələr regionu dərin sosial-iqtisadi böhran vəziyyətinə gətirib çıxarmışdır ki, bu gün də milli zəmində olan qarşıdurmaların fəsadları qalmaqdadır [3, s.78].

Yuqoslaviyanın dağılmasını istəməyən əsas iki qüvvə - Yuqoslaviya Xalq Ordusu və Serbiya idi. Yuqoslaviya Xalq Ordusu milli-etnik zəmində başlayan hadisələrin qarşısını hərbi müdaxilə ilə dayandırmağa çalışır, bununla da müstəqilliyə can atan millətlərin müqavimətini qıracağını düşünürdü. Lakin bu müdaxilələr etnik münaqişələri daha da alovlandırdı və nəticələri çox ağır oldu. Serblər isə Yuqoslaviya ərazisində digər millətlər üzərində siyasi üstünlüyə sahib olmağa çalışır, müstəqillik istəyən federasiya subyektlərini özündən asılı hala salmağa çalışırdı. Bu da hərbi toqquşmalarla müşayiət olunurdu.

Yuqoslaviya ərazisində toqquşmaların sürətlənməsinə görə BMT 25 iyul 1991-ci ildə verdiyi 713 saylı qərara əsasən, bu ərazidə hər hansı silah satışına və təchizatına qadağa qoydu. Lakin təəssüflər olsun ki, bu qərar da hərbi toqquşmaların və insan tələfatının qarşısını ala bilmədi. 1990-cı ildə Yuqoslaviyanın kommunistlərinin İttifaqı dağıldı. Sloveniya, Xorvatiya, Makedoniya, Bosniya və Herseqovinada keçirilən sərbəst seçkilərdə millətçi partiyalar qalib gəldilər. 1991-ci ildə Sloveniya müstəqilliyini elan etdi. Sloveniyanın müstəqilliyi uğrunda müharibə kimi tanınan silahlı münaqişə Sloveniya müstəqilliyinin elan edilməsindən sonra 25 iyun 1991-ci ildə başlamışdır. Hücuma başlayan Yuqoslav Xalq Ordusunun bölmələri yerli özünümüdafiə dəstələri tərəfindən şiddətli müqavi-

mətlə üzləşdilər. Müharibə Aİ-nin vasitəçiliyi ilə 7 iyul 1991-ci il tarixli Brion sazişinin imzalanması ilə başa çatdı. Lakin bu hərbi müdaxilə Sloveniyanın müstəqilliyinin qarşısını ala bilmədi [7, s.101].

1991-ci ilin martında Yuqoslaviya ordusunun müdaxilə etdiyi serblər və xorvatlar arasında silahlı toqquşmalar baş verdi. Xorvatlar bu müharibəni Xorvatiya üçün Vətən müharibəsi adlandırırlar. Xorvatiyada yerli serblər Serb Krayina dövlətini elan etdilər və Xorvatiya hökumətini tanımaqdan imtina etdilər. Yalnız 1995-ci ildə ölkə hakimiyyəti həmin rayonlara nəzarəti bərpa edə bildi [9, s.43].

Bosniya və Herseqovinada vətəndaş müharibəsi başlandı. Bosniyanın rəhbəri müsəlman Aliya İzzetbeqoviç İslam dövlətinin yaradılmasının tərəfdarı idi. Amma bu, yerli xorvat və serbləri qane etmirdi. Serblərin lideri həkim-psixiatr Radovan Karaciç Bosniyanın Serb rayonlarının SRİ-a qoşulmasına nail oldu. Yerli xorvatlar öz dövlətini - Bosniya və Herseqovinanı yaratdılar. Serblər, xorvatlar və müsəlmanlar müxtəlif bölgələrdən bir-birini sıxışdırmağa başladılar. Etnik təmizləmələr başlandı: Silahlı qiyamçılar yaş və cinsiyyətə diqqət yetirmədən rəqiblərini məhv etdilər. "Təmizləmə"lərdə ən azı 200 min nəfər həlak oldu. ABŞ-da Deyton razılaşmasının imzalanmasıyla Bosniya və Herseqovina üç milli icmanın Federasiyasına çevrilir, qaçqınlar evə qayıtmaq imkanı əldə edir, BMT və NATO hərbi kontingenti isə dinc sakinlərin təhlükəsizliyinə zəmanət verirdi [8, s.77].

Keçmiş Yuqoslaviya ərazisindəki böhran istər Avropa miqyasında istərsə də dünya miqyasında beynəlxalq təşkilatların – NATO, ATƏT, BMT, Aİ-nin fəaliyyətini aktivləşdirmişdir. Bu təşkilatlar arasında xüsusi rol NATO-ya məxsus idi. 1999-cu ildə Kosovo münaqişəsinin meydana çıxması regionun beynəlxalq aləmdə gündəm yaratmasına səbəb olmuşdur. Tarix boyu Kosovo torpaqları uğrunda serblər və albanlar arasındakı mübarizə soyuq müharibənin ideoloji qarşıdurmasında dondurulmuş vəziyyətdə idisə, Soyuq müharibə bitdikdən sonra, iki qütblü sistemin aradan qalxması ilə, yəni 1990-ci ildən sonra Yuqoslaviyanın dağılmağa başlaması ilə yenidən canlanmış oldu. Kosovodakı iki etnik qrup arasındakı mübarizə qaldığı yerdən davam etməyə başladı [8, s.79].

Bu dövrdə Kosovonun serbləşdirilməsi proqramı çərçivəsində Kosovo albanları işlərindən çıxarılmış və onların yerinə Kosovoda yaşayan etnik serblər yerləşdirilmişdir. Serbiya Daxili İşlər Nazirliyinə aid xüsusi bir polis qüvvəsi yaradılmışdır. Həmçinin Kosovonun nəzarət altında tutulması istiqamətində Kosovo daxilində Serbiya hərbi dayağı artırılmışdır.

Albanların arasında böyük nüfuza malik olan Kosovolı yazıçı İbrahim Ruqova qeyri-zorakı müqavimətə çağırırdı. Miloşeviç hökumətinin mövqeyi isə qəti olaraq qalırdı: Serb lideri albanlara istənilən güzəştdən imtina edirdi. Muxtar vilayətdə Kosovo Azadlıq Ordusu (KAO) – Kosovo albanlarının silahlı qruplaşması meydana gəldi. Buna səbəb serb polis dəstələrinin albanlara qarşı terror əməlləri törətməsi idi. KAO bölgənin azad edilməsi üçün partizan müharibəsinə səbəb oldu [1, s.30].

Məhz KAO-nun səyləri nəticəsində bu böhran dünya mediyasının gündəmində mərkəzi yer tutmuş və siyasi həll yolunun tapılmasını mütləq etmişdir. Yuqoslaviya ordusu separatçılar adlandırdıqları bu hərəkatı amansızcasına yatırmağa başladı. KAO-nun həyata keçirdiyi əməliyyatlardan sonra cavab olaraq hücuma keçən serb hərbi və polis birlikləri kəskin şəkildə güc təbiq etməyə başlamış və KAO ilə əlaqəsi olan və ya ona kömək etdiyinə görə alban ailələrinin bütün üzvlərini qətlə yetirmişdilər.

Kosovo albanları 1995-ci ilin noyabrında imzalanmış Deyton sazişində özlərinə aid müsbət bir istiqamətdə dəyişiklik olacağına ümid edirdilər. Lakin Miloşeviçin sözü gedən sazişdə Kosovo məsələsinə toxunulmaması şərtini qoyduğuna görə Kosovo ilə bağlı heç bir maddə daxil edilməmişdir. Miloşeviçi qısa zamanda danışıqlar masasına oturtmaq və Bosniyadakı müharibəni dayandırmaq istəyən beynəlxalq ictimaiyyət də Deyton görüşlərində manea yaratmasından ehtiyat etdikləri üçün Kosovo məsələsini gündəmə gətirməkdən çəkinirdilər. Deyton sazişində Kosovoya aid heç bir məqamın yer almaması Kosovo albanlarının ümidlərini puç etmişdir [7, s.201].

Beynəlxalq ictimaiyyət müharibədən sonra Yuqoslaviyanının təminatçısı olmaq funksiyasını S. Miloşeviçə vermişdir. Halbuki Kosovodakı vəziyyətin gərginləşməsində S. Miloşeviç birbaşa məsuliyyət daşıyırdı. Beynəlxalq ictimaiyyət Kosovo böhranının inkişaf dinamikasını uzun müddət kiçik bir problem hesab etmişdi. Kosovoda silahlı qarşıdurmanın başlamasına qədər, yeridilən siyasət, Kosovo böhranı ilə bağlı daha qətiyyətli bir siyasətin həyata keçirilməsinə mane oldu. Kosovo

albanlarına öz gələcəklərini müəyyən etmək imkanı verilməməsi haqqında qərarlılığının dilə gətirilməsi S.Miloşeviçin mövqeyinin daha da güclənməsinə səbəb olmuşdur.

1998-ci ilin martın 22-də albanların parlament seçkiləri keçirəcəklərini bildirməsi serb ordusunun 1998-ci il fevralın 28-də KAO nəzarətində olan Drenitsa şəhərinə hücum etməsi ilə nəticələndi. Buna görə Amerika, İngiltərə, İtaliya, Almaniya, Fransa və Rusiyadan ibarət olan və Yuqoslaviyanın dağıldığı mərhələdə qurulan Təmas Qrupu 1998-ci il martın 9-da Londonda toplanaraq bəzi tövsiyə xarakterli qərarlar vermişdir. Kosovodakı vəziyyətin gərginliyin yumşaldılması, serb xüsusi polis qüvvələrinin geri çəkilməsi və münaqişənin həlli istiqamətində dialoqun başlanması üçün serb rəhbərliyinə dörd həftə vaxt verilmişdir.

1998-ci ilin sonlarında isə bu gərginlik daxili müharibəyə çevrildi. Avropanın mərkəzində bir müharibə gedirdi və regionun gələcəyi naməlum idi.1999-cu il yanvarın 18-də Priştinanın 25 km şimalındakı Raçak kəndində edilən və 45 nəfərin həyatını itirməsinə səbəb olan serb hücumu, 1998-ci il oktyabr ayından etibarən olan atəşkəsi pozmuşdur. KAO ilə serb qüvvələri arasında qarşıdurmalar təkrarən başlamış oldu. Bu dövrdə Miloşeviçə BMT TŞ-nin qətnamələrinə məhəl qoymasa, NATO tərəfindən hava hücumlarına məruz qalacağı haqqında xəbərdarlıq edilmişdir [5].

1998-ci il dekabrın 8-də Brüsseldə Şimali Atlantika Şurası nazirlərinin iclasında Kosovo ilə bağlı bir bildiriş yayınlanmışdır [10; s.503]. Bu bildirişdə aşağıdakı məqamlara toxunulmuşdur:

1. NATO-nun məqsədi Kosovodakı böhrana son qoymaq üçün edilən beynəlxalq cəhdlərə yardım etmək, buradakı zorakılığı sona çatdırmaq və daimi, uzun müddətli siyasi həll yolunun tapılmasına humanitar yardım etmək kimi göstərilmişdir. NATOnun oktyabr ayında verdiyi qərarlar YFR qüvvələrinin Kosovodan geri çəkilməsində və insan fəlakətinin qarşısının alınmasında əhəmiyyətli olmuşdur;

2. Kosovonun təhlükəsizliyi narahatçılıq doğurmaqda davam edirdi. Noyabr ayının əvvəlindən bəri bəzən serb təhlükəsizlik qüvvələrinin zorakılıqları, bəzən isə silahlı kosovoluların hücumları gərginliyi artırmışdır;

3. Hər iki tərəfin atəşkəsi davam etdirməyində BMT TŞ qətnamələrinə tamamilə əməl etmələri ilə bağlı təkid edirik. Həmçinin müharibə cinayətlərinin, günahkarlarının araşdırılması keçmiş Yuqoslaviyanın bu müharibə cinayətləri məhkəməsinin işini asanlaşdırmasını gözləyirik;

4. Kosovoya daha güclü status və daha muxtar olmağı təmin edəcək YFR-nin ərazi bütövlüyünü mühafizə edəcək və etnik kökləri nə olursa olsun, bütün Kosovo xalqının insan və vətəndaşlıq hüquqlarını qoruyacaq siyasi həll yolunu dəstəkləməyə davam edirik. Bu çərçivədə prezident S.Miloşeviçin müstəqil mediya və siyasi plüralizmin qarşısını almaqla bağlı hərəkətlərini qınayırıq;

5. YFR ilə NATO arasında imzalanan razılaşmaya əsasən, İttifaqın hava nəzarəti missiyası "Qartal Gözü"nün fəaliyyətini və ya əməliyyatını davam etdirəcəyik və biz BMT Baş katibinə qətnamələrin yerinə yetirilməsi barədə mütəmadi məlumat verəcəyik;

6. ATƏT-in Kosovo Nəzarət Missiyası ilə əməkdaşlığı davam etdirəcəyik. ATƏT nəzarətçilərinin təhlükəsizliyi bizim üçün çox vacibdir. YFR-i bu məsələ ilə bağlı BMT TŞ-nin 1199 və 1203 saylı qətnamələrinə və 16 oktyabr tarixli ATƏT-YFR razılaşması ilə nəzərdə tutulan öhdəliklərə əməl etməyə dəvət edirik. Biz həm YFR və Serbiya orqanlarının, həm də Kosovo ictimaiyyətinin ATƏT-in Kosovonun nəzarət missiyası ilə əməkdaşlıq etmələrini, xüsusilə də müfəttişlərin hərəkət etmək və rahat giriş-çıxış etmək hüquqlarına hörmət etmək, istənilən təhdidlərə, güc tətbiq edilməməsinə və ya müdaxilə edilməməsinə təminat verməsini gözləyirik;

7. Şimali Atlantika Şurası NATO-nun başçılıq etdiyi təxliyə gücünün "Birgə Təminatçı" əməliyyatına dair əmr verib. Fövqəladə hallarda, Kosovoda ATƏT Missiyasının personalını tez bir zamanda geri çəkmək üçün bu gücün hazır qüvvələrini Makedoniya Respublikasında dərhal çıxaracağıq.

Kosovo böhranının ilk günlərində NATO baş katibi Xavier Solana "NATO-nun Kosovo böhranının həlli ilə bağlı "NATO-nun hərbi variantlar üzərində çalışmaları davam etdir"diyini və istənilən alternativin mümkün ola biləcəyinə işarə etmişdir. Solananın bəyanatı ABŞ rəhbərliyinin NATO-

nun Bosniya dramının təkrarlanmasına artıq icazə verməyəcəyini aydın şəkildə göstərdi. NATO Bosniya və Herseqovinada mülki vətəndaşlara qarşı olan hücumların və etnik təmizləmənin Kosovoda təkrarlanmasına icazə verilməyəcəyini xüsusi vurğulayırdı.

Rusiya Kosovo böhranının baş verməsinə görə narahat idi, lakin NATO-nun müdaxiləsinin əleyhinə idi. Birləşmiş Ştatlar və Böyük Britaniya Miloseviçə təzyiqləri artırmağa çalışarkən, Fransa və İtaliya kimi ölkələr böhranla bağlı daha mülayim bir siyasət yeritməyi üstün etdi.Bu məqsədlə 1998-ci il oktyabrın 8-də London Hava limanında yüksək vəzifəli şəxslərin görüşü keçirilmişdir. 1999-cu ilin fevralın 14-də ABŞ xarici işlər naziri M. Olbrayt Rambuyede səfərdə olmuşdur. M.Olbrayt Təmas Qrupunun planını qəbul etmədikləri halda, NATO-nun hava hücumlarına məruz qalacağı haqqında serbləri bir daha xəbərdar etmişdir [1, s.5]. Kosovo probleminin siyasi müzakirələrlə sülh yolu ilə həllinin tapılması mqsədi ilə Rambuyedə təşkil edilən iki tərəfli müzakirələrin birinci mərhələsində heç bir nəticə əldə olunmamışdır. Ancaq 1999-cu il martın 15-də tarixindən etibarən iclas keçirilməsi ilə bağlı bir uzlaşma təmin edildi. Bu razılaşma nəticəsində Serbiya və Kosovo albanlarının sülh danışıqları martın 15-də Parisdə Kleber Konfrans Mərkəzində başlamışdır. Sülh danışıqlarının birinci mərhələsində vasitəçilik 46 vəzifəsini öz üzərinə götürən Təmas Qrupunun hər iki tərəfi sülh sazişi imzalamağa inandırmağa çalışması uğursuz olmuşdur və danışıqlar fevralın 23-də dayandırılmışdır. Daha sonra tərəflər arasında yeridilən diplomatik səylər nəticəsində martin 11-nə qədər davam etdirilən danışıqlar bir nəticə verməmişdir.

ATƏT-in Kosovo Nəzarət Missiyası YFR-in BMT Təhlükəsizlik Şurasının 1160, 1199 və 1203 saylı qətnamələrinə əməl edilməsi və atəşkəsin bərpa olunmasını izləmək və hərbi qüvvələrin hərəkətlərini müşahidə etmək məqsədi ilə 1998-ci il oktyabr – 1999-cu il mart ayları arasında fəaliyyət göstərmişdir. Lakin 1999-cu il 47 yanvar ayından etibarən silahlı qarşıdurmaların təkrar başlaması nəticəsində 1999-cu il martın 20-də Kosovodan geri çəkilmişdir, yəni fəaliyyətini dayandırmışdır [4].

Bu mübahisəli əyalətdə sülh və təhlükəsizliyin bərqərar olunması üzrə geniş beynəlxalq cəhdlərin dəstəyi olaraq NATO 1999-cu ilin iyunundan Kosovoda sülhməramlı əməliyyata rəhbərlik edir. NATO-nun rəhbərlik etdiyi Kosovo Qüvvələri və ya KFOR qatı açılmamış insanlıq faciəsinə son qoymaq üçün 1999-cu ilin martında Alyans tərəfindən yaradılmışdır. NATO tərəfindən "İttifaq gücü" adlanan 78 günlük hərbi hava əməliyyatının həyata keçirilməsinə başladı. NATO-nun sayca ikinci olan bu hərbi kampaniyası əyalətdə bir ildən artıq davam edən döyüşlər və münaqişəni diplomatik yolla həll etmək üzrə beynəlxalq cəhdlərin uğursuzluğundan sonra başlandı [4].

NATO-nun siyasi məqsədləri bütün hərbi əməliyyatlara, zorakılıq və zülmə səssiz bir şəkildə son qoymaq, Kosovodan hərbi heyəti, polis və yarımhərbi qüvvələri geri çəkmək, orada yalnız beynəlxalq hərbi qüvvələri saxlamaq, bütün qaçqın və məcburi köçkünləri qeyd-şərtsiz təhlükəsiz bir yolla geri qaytarmaq, onlara humanitar yardım təşkilatlarından maneəsiz istifadə şəraiti yaratmaq və bunları həyata keçirmək üçün beynəlxalq hüquq və Birləşmiş Millətlərin Nizamnaməsinə uyğun olaraq Kosovo üzrə siyasi sazişi razılaşdırmaqdan ibarət idi. İyunun 3-də Rusiya və Avropa Şurası tərəfindən irəli sürülən diplomatik səylərə əməl edərək iyunun 9-da NATO və Yuqoslaviya Federativ Respublikası arasında Hərbi Texniki Müqavilə imzalandı. Ertəsi gün Yuqoslaviya hərbi qüvvələrinin Kosovodan çıxarılması təsdiqləndikdən sonra NATO hərbi hava hücumunun dayandırılmasını elan etdi. İyunun 10-da Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsi qəbul edildi və əməliyyatın dayandırılmasına gətirib çıxaran proses başlandı [6, s.347].

NATO-nun Kosovodakı hadisələrin tənzimlənməsi məqsədilə həyata keçirdiyi bu əməliyyata münasibət birmənalı deyil. Bölgədə baş verən hərbi qarşıdurmalara son qoyduğuna görə NATO-nun bu addımı sülhməramlı bir missiya kimi qiymətləndirilsə də, Rusiya başda olmaqla onu tənqid edənlər də az deyil. NATO-nun müdaxiləsinin hüquqi baxımdan tənqid olunmasının əsas səbəbi BMT nizamnaməsinin 42-ci maddəsində nəzərdə tutulan beynəlxalq sülhə təhlükə yarandığı halda hərəkətə keçmək üçün BMT TŞ-nin qətnaməsinin olmasıdır. Bu əməliyyatın BMT TŞ-nın qətnaməsi olmadan həyata keçirilməsi NATO-nun "təcavüzü" kimi qiymətləndirilir.

KFOR-un öhdəsinə düşən tapşırıq qaçqın və məcburi köçkünlərin geri qaytarılması və ya başqa yerlərə yerləşdirilməsi, yenidənqurma və ərazinin minadan təmizlənməsi, tibbi yardım, etnik azlıqların təhlükəsizliyini təmin etmək, ata-babadan qalma tarixi ərazilərin mühafizəsi, təhlükəsizliyin təmini və ictimai asayişin yenidən bərpası, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi, sərhəd zonasında

silah qaçaqmalçılığı hallarının qarşısının alınması, Kosovo miqyasında silah, döyüş sursatı və partlayıcı maddələri ilə bağlı ümumi amnistiya, silahların məhvi, mülki obyektlərin yaradılmasına kömək etmək, qayda və qanununun tətbiqi, burada məhkəmə və cəzalandırma sistemi tətbiq etmək, əyalətin siyasi, iqtisadi və ictimai həyatının seçicilik hüququ və digər bu kimi məsələlərinə nəzarət etməkdən ibarət idi. KFOR ilk olaraq NATO-ya üzv, tərəfdaş və qeyri-NATO ölkələrindən vahid komanda və nəzarət altında birləşmiş 50000 nəfərlik şəxsi heyətdən ibarət idi. 2002- ci ilin əvvəllərində KFOR təqribən 39000 nəfərə qədər azaldıldı. Təhlükəsiz bir 51 mühitdə əldə edilən irəliləyişlər NATO-ya ilin sonunda və 2003-cü ilin iyununda heyətin tərkibini daha da azaltmaq və onu 26000 nəfərlik heyətə çevirmək imkanı verdi, 2003-cü ilin sonunda isə bu göstərici 17500 nəfərə çatdırıldı. Sabitliyin bərqərar olduğu, etnik tərkibcə zəngin və demokratik 2004-cü ilin martında alban və serblər arasında yenidən başlayan zorakılıq və KFOR qoşunlarına edilmiş hücumla Kosovoda inkişafa gedən yolda ləngimə baş verdi. NATO-nun belə hallar üçün nəzərdə tutduğu plana uyğun olaraq mövcud KFOR qüvvələrinin gücünü 2500 nəfərlik qoşun əlavə etməklə artırıldı [1, s.25].

İstanbul Sammitində NATO hökumət və dövlət başçıları 2004-cü ilin martında yenidən baş qaldırmış zorakılığa qarşı etirazlarını bildirdilər və Birləşmiş Millətlərin Təhlükəsizlik Şurasının 1244 saylı qətnaməsinə uyğun olaraq təhlükəsiz, sabit və etnik tərkibcə zəngin Kosovo ilə bağlı öz öhdəliklərini bir daha vurğuladılar. Onlar həmçinin razılaşdırılmış "Statusdan öncə Standartlar" siyasəti və bununla bağlı Standartlar İcmalının vacibliyini bir daha təsdiqlədilər.

NATO Serbiyanın təcavüzkar hərəkətinin dayandırılması üçün beş maddə açıqlamışdır. Bunlar aşağıdakılardır:

1. Kosovoda bütün hərbi aksiyaların dayandırılması, şiddət və hücumun dərhal sona çatdırılması;
2. Kosovodan Yuqoslaviya əsgər, polis qüvvələrinin çəkilməsi;
3. Kosovoda beynəlxalq hərbi qüvvələrin varlığının qəbul edilməsi;
4. Bütün qaçqınların qeyd şərtsiz geri dönməsi;
5. Rambuye sazişi əsasında BMT nizamnaməsi və beynəlxalq hüquqa uyğun bir şəkildə siyasi bir çərçivə sazişinin yaradılması üçün Miloşeviçin birgə fəaliyyətə istəkli olduğuna dair etibarın təmin edilməsi [2; s.147].

NATO liderləri Kosovoda yaşanan böhranın insan fəlakəti həddinə çatmasını vurğulayaraq həyata keçirdikləri əməliyyatın məcburiyyət qarşısında qalaraq etdiklərini bidirmişlər. Bu mərhələdə humanitar müdaxilənin beynəlxalq hüquqdakı yerini araşdırmaq lazımdır.

Nəticə. NATO liderləri Kosovoda yaşanan böhranın insan fəlakəti həddinə çatmasını vurğulayaraq həyata keçirdikləri əməliyyatın məcburiyyət qarşısında qalaraq etdiklərini bidirmişlər. Bu mərhələdə humanitar müdaxilənin beynəlxalq hüquqdakı yerini araşdırmaq lazımdır. Bu məsələdə qərb və rus tarixşünaslığında fikirlər bir-birinə ziddir. Lakin NATO-nun buradakı missiyasının nəticəsi olaraq davam edən qırğınların miqyasnı kiçiltməyə nail oldu. Amma bir şey də unutmaq olmaz ki, həmçinin, NATO-nun buradakı fəaliyyəti Rusiyanın bu regiondakı mövqeyini zəiflətmiş oldu.

ƏDƏBİYYAT

1. Kokott J. The Development of the Human Rights Situation in Kosovo1989-1999, Kosovo and International Community. The Hague, Kluwer Law International, 2002, 1-35 p.
2. Petiffer J. The Albanians in Western Macedonia After FYROM Independence, The New Macedonian Question (Ed. by James Petiffer). Basingstoke(UK) Palgrave MacMillan 1999, 138 p.
3. Radan P. The National question and Intenal Administrative Borders in Yugoslavia, The Break up of Yogoslavia and İnternational Law. New York, Routledge and Taylor & Francis group, 2002, 144 p.
4. Operation Allied Force. - https://www.history.navy.mil/browse-by-topic/wars-conflicts-and-operations/allied-force.html [Müraciət tarixi: 15.02.2022].
5. Serbian Nationalism and the Origins of the Yugoslav Crisis. - https://www.usip.org/publications/1996/04/serbian-nationalism-and-origins-yugoslav-crisis [Müraciət tarixi: 15.02.2022].

6. Гуськова Е.Ю. История Югославского кризиса (1990-2000). Москва, Рус. Право: Рус. нац. фонд, 2001, 720 с.
7. Маначинский А.Я., Денисов Д.О. Косово и Метохия: между автономией и сепаратизмом. История и современность. Москва, Центр стратегической конъюнктуры, 2014, 316 с.
8. Преступления НАТО в Югославии (перевод с югославского). Москва, «Индрик», 1999, 190 с.
9. Романенко С.А. Распад Югославии и образование независимых государств на Балканах. Москва, Московский общественный научный фонд, 2000, 495 с.
10. Югославия в XX веке: Очерки политической истории. Москва, «Индрик», 2011, 888 с.

АЙГЮН ИСМАИЛОВА
Докторант Бакинского Государственного Университета

УЧАСТИЕ НАТО В УРЕГУЛИРОВАНИИ КОСОВСКОГО КРИЗИСА

Отличительные черты Югославии от других балканских стран; это была экономическая структура, этническая структура, федеральная система и внешняя политика. Поэтому эти изменения режима привели к распаду Югославии, а вместе с ней на первый план вышел национализм, усилились этнические конфликты. Во время распада Социалистической Федеративной Республики Югославии в 1998 году в Косово началась гражданская война между освободительной армией Косово и сербской полицией, ополченцами и силами безопасности Югославии. В результате неспособности государств-посредников и международных организаций добиться успеха в предотвращении конфликта 24 марта 1999 года была начата интервенция НАТО, чтобы остановить рост числа гражданских смертей и все более насильственных нападений. В статье рассказывается об операции НАТО в Косово и ее последствиях, а также о различных подходах к этой операции.

Ключевые слова: Югославия, Косово, НАТО, этнические конфликты, сербы, албанцы.

AYGUN İSMAYILOVA
PhD student of Baku State University

NATO'S PARTICIPATION IN THE SETTLEMENT OF THE KOSOVO CRISIS

The distinctive features of Yugoslavia from other Balkan countries were; economic structure, ethnic structure, federal system and foreign policy. Therefore, these changes in the regime led to the disintegration of Yugoslavia, while nationalism was at the forefront and ethnic conflicts intensified. During the disintegration of the Socialist Federal Republic of Yugoslavia, a civil war began in Kosovo in 1998 between the Kosovo Liberation Army and the Serbian police, militias and Yugoslav security forces. As a result of the inability of the mediating states and international organizations to achieve success to prevent conflict, NATO intervention began on March 1999, 24, to stop the growing civilian deaths and increasingly violent attacks. The article deals with NATO's operation in Kosovo and its consequences, as well as various approaches to this operation.

Keywords: Yugoslavia, Kosovo, NATO, ethnic conflicts, Serbs, Albanians.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Abutalıb Cəlilov, t.e.d. Qabil Əliyev.

UOT 327

ELGÜN TAĞIZADƏ
Bakı Dövlət Universitetinin
Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının doktorantı
elgunTaghizadeh@gmail.com

XXI ƏSRDƏ TEXNOLOGİYA ƏSASLI TRANSMİLLİ KORPORASİYALARIN "GÜC" KONTEKSİNDƏ DÜNYA SİYASƏTİNƏ TƏSİRİ

Məqalədə texnologiya şirkətlərinin inkişafı, güc prizmasından təhlil olunaraq, ETT dövrləri boyunca şirkətlərin inkişaf istiqamətləri, şirkətlərin TMK-lara keçidi, dövlətlərin siyasətlərinin şirkət siyasətləri ilə toqquşması, müasir dövrdə texnologiya şirkətlərinin əsas istiqamətləri və onların dövlətlərlə güc savaşı, müasir dövr şirkətlərinin maddi güclərinin dövlətlərin maddi gücləri ilə müqayisəsi, günümüz texnologiyalarının istiqamətvericiləri prizmasından şirkətlərinin necə böyük gücə sahib olduğu üzə çıxarılır.

Açar sözlər: Şirkət, Transmilli Korporasiyalar, Texnologiya Şirkətləri, Neo-Qramşizm, Elmi Texniki Tərəqqi, Güc, Dünya Siyasəti, Texnologiya.

Giriş. Günümüzdə Elmi Texniki Tərəqqi (ETT) ilə keçən əsrlərdə gördüyümüz şirkətlər, birliklər, dövlətlər, ictimai qurumlar, təsisatlar və b. yeni bir dövrə keçmişdir. Yüzilliklər boyunca toplumların əsas məşğuliyyətləri texnologiyadan uzaq qurulmuş yaxud ETT zəif irəliləyiş dövrü gerçəkləşdirmişdir. Bu əsasda zirvədəki böyük şirkətlər, TMK-lar da zamanla dəyişərək texnologiya şirkətləri ilə əvəz olunmuşdur. Şirkətlərin və Korporasiyaların inkişaf tarixinə baxdığımız zaman bu prosesləri daha aydın şəkildə görmək mümkündür. George Orwellin məşhur romanı "1984"də insanlar, "Böyük Qardaş"ın onları izlədiyini deyərək gündəlik həyatlarını davamlı olaraq kontrol altında tutulurdu. Romanın qəhrəmanlarından O`Brien, baş qəhrəman Winstona "Biz həyata hər səviyyədə nəzarət edirik" deyirdi. Həyatımızın hər sahəsinin kantrolunu günümüz dünyasında sadəcə texnologiya təmin edə bilər. Bu baxışdan texnologiyaya sahib olanlar gücü əldə edir və bu baxımdan böyük şirkətlərin, TMK-ların texnologiya şirkətləri olması iki ucu da kəskin bıçağa bənzəyir. Şirkətlərin bəzi hallarda dövlətlərdən belə üstün gəlməsi isə mövzunu yetərincə actual edir ki, belə texnologiya şirkətləri modern siyasətdən tutun təbiətdəki proseslərə qədər müdaxilə edə bilir. Günümüzdə bir dövləti "Texnoloji Dövlət" anlayışı kimi tam xarakterizə etmək olmaz, çünki dövlətlərin tək öhdəlikləri texnologiya üzərində qurulmamışdır. Fəqət belə şirkətlər və texnologiya sin qua non`dur. Kapitalizmdə dövlət tənzimləyici rol oynayır, ancaq sosializmdə bütün proseslər mərkəzi hakimiyyət tərəfindən idarə edilir. Günümüzdə TMK-lar qloballaşdıqca aidiyyətləri də itir. TMK-lar tətbiq olunan qadağalara, məhdudiyyətlərə və oxşarlarına həll yolları tapır yaxud güc nümayiş etdirir. Ümumilikdə TMK-ların günümüzdə alternativ həmlələri yetərincə çoxdur.

Şirkət sözü Kembric lüğətinə görə "pul qazanmaq üçün mal və ya xidmət satan təşkilat" [13] kimi şərh olunur. Korporasiya sözü isə latıncada "corporatio", yəni "birlik" deməkdir. Korporasiya sadə mənada şirkətlərin birliyi kimi qəbul edilir, ancaq geniş mənada "vahid təşkilat kimi birlikdə nəzarət edilən böyük şirkət və ya şirkətlər qrupu" kimi izah edilir. Şirkətlərin əsas məqsədi sadəcə kapital artırmaq deyildir. Şirkətlərin məqsədlərini mənfəət əldə etmək, insanlara və iqtisadiyyata fayda vermək, böyümək və güclənmək kimi kriteriyalar altında toplaya bilərik. Transmilli Korporasiyalar dünyanın bir çox ölkəsində filialları, müəssisələri olan şirkətlər birliyidir. Şirkətlər dövlət siyasətlərinə, cəmiyyətdəki sosio-dinamik vəziyyətlərə, inkişaf trendlərinə və bu kimi bir çox vacib məsələlərə təsir göstərə bilir.

"Güc" fenomeni elm sahələrinə görə izahı fərqlilik göstərir, ancaq elmlərarası metaforal bağlılıqlar var. Güc beynəlxalq münasibətlər (BM) sahəsində bir neçə mənada istifadə olunur. Siyasi güc baxımından: 1. Dövlətlərin və ya liderlərin bir məqsədi olaraq güc, 2. Nəticələr, hadisələr, aktyorlar və məsələlər üzərində təsir, nüfuz və ya nəzarət ölçüsü kimi güc, 3. Münaqişədə qələbəni əks etdirmək və təhlükəsizliyə çıxışı təmin etmək gücü, 4. Resurslar və imkanlar üzərində nəzarət kimi güc. Modern dövrdə güc sözü siyasi sahədə əsasən iqtisadi və hərbi gücü müəyyən edən dövlət gücü baxımından özətlənilməyə çalışılır. Ümumilikdə "Güc" fenomeninə bir çox faktorlar təsir göstərir və bu

faktorlar dolayı yolla "Güc" demək mümkündür. Məsələn ABŞ-ın dünya müharibələrindən kənar bir coğrafiyada yerləşməsi geostrateji gücüdür. Bu əsasdan coğrafi mövqe, resurslar, texnoloji inkişaf, insan resursu və bu kimi bir çox əsas hər hansı bir aktorun güclü olmasını dəstəkləyəcək faktorlardır. Bəzi aktorların bu resurslara sahib olmasına baxmayaraq həmin resursları gücə çevirə bilmirlər və burada aktorların potensial gücünə vurğu etmiş oluruq. Potensial gücün nəticəyə çevrilməsi prosesi ilə biz gerçək gücdən danışa bilərik. Eyni zamanda BM-də nəzəriyyələrə görə gücün fərqli istiqamətlərini görə bilərik.

Neo-Qramşizm aspektindən "güc" və TMK. Gücün tarixi təkamül prosesi zamanla inkişaf edərək başqa perspektivlərə keçid etmişdir. Sənaye inqilabına qədər milli güc ən önəmli ünsürü əsgər sayına bağlı hərbi güc olmuşdur. Fransız İnqilabına qədər hərbi gücün müəyyənedici amili əsgərlərin hazırlıq səviyyəsi və döyüş qabiliyyəti idi. Bu əsasda ETT ilə yeni texnologiyaların, sənayenin inkişafı kimi faktorlarla gücü müəyyən edən faktorlar da dəyişməyə başladı. Eyni zamanda Yumşaq güc, Sərt güc və Ağıllı gücə də toxunmaq gərəklidir. Yumşaq gücün yayılmasının əsas səbəbləri olaraq 2-ci Dünya Müharibəsindən sonra beynəlxalq təşkilatların, hüquqi qanunların və beynəlxalq siyasətdə dünya ictimaiyyətinin artan rolu səbəbilə əsgər sayına əsaslanan hərbi gücün istənilən nəticələri əldə etmək üçün kifayətsizləşməsi və asimmetrik idarəetmə sistemlərinin klassik orduların təsirliliyi və çəkindirmə qabiliyyətlərini azaltması kimi vurğulana bilər. Sərt güc ənənəvi vasitə olsa da günümüzdə istifadəsi çətinləşmişdir və Yumşaq güc daha məntiqli bir versiya olaraq görünür, ancaq beynəlxalq sistemin anarxik təbiəti gərəyincə Sərt gücün təsirliliyi hələ də tam yox olmamışdır [5, s.156]. Eyni zamanda Ağıllı güc də vardır ki, bu gücün istifadəsi zamanı həm Yumşaq gücdən həm də Sərt gücdən məntiqli qarışıq şəklində istifadə edilməsi nəzərdə tutulur. Günümüzdə güc əsaslı şəkildə texnoloji inkişafa əsaslanır və bu sahədə dövlətlərlə yarışabiləcək əsas qüvvə şirkətlərdir. Bu əsasda Neo-Qramşizm nəzəriyyəsini əsas almaq gərəklidir. Neo-Qramşizmə görə dövlət suverenliyini transmilli maliyyə sisteminin və müvafiq transmilli istehsal sisteminin yaranması ilə əlamətdar olan qlobal iqtisadi sistemə tabe olaraq qəbul edir. Bu sistemlərin əsas oyunçuları, transmilli korporasiyalar və Dünya Bankı və Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq maliyyə institutları qlobal hegemonluğu həyata keçirən "transmilli tarixi bloka" çevrilmişlər [8, s.130-131]. Tarixi blok öz səlahiyyətlərini əsasən zorakılıq olmadan, intellektual və mədəni inandırmanın məcburi üsulları vasitəsilə əldə edilən idarə olunan əhalinin səssiz razılığı ilə əldə edir. O, təsirini genişləndirmək üçün siyasi mübarizələrdə iştirak etmiş digər sosial qruplarla əlaqə qurur və vahid tənzimləmə rejimi (məsələn, Ümumdünya Ticarət Təşkilatı) yaratmaqla milli iqtisadiyyatların standartlaşdırılması və liberallaşdırılması yolu ilə öz gücünü möhkəmləndirməyə çalışır [3]. Ümumiyyətlə Neo-Qramşiçilik müasir neo-marksizmdir. Neo-Qramşizmə əsasən TMK dövlət səviyyəsində güclənirlər və öz iradələrini dövlətlərə yetirməyə çalışırlar. Bu əsasda məsələn ABŞ-ın İraq müdaxilə müdaxiləsini ən çox istəyənlər neft-qaz şirkətləri idi. Təbii ki, burada həmin şirkətlər böyük mənada prosesdən özlərinə pay almağa çalışırdılar. Eyni zamanda Corc Buşa bu şirkətlərin təsiri də yüksək idi. Oğul Buşun vitse-prezidenti Dik Çeyni ilk dəfə ata Buşun dövründə ABŞ admistrasiyasına gətirilir və Səhrada tufan əməliyyatı zamanı ABŞ-ın Müdafiə naziri idi. Dik Çeyni Yaxın Şərqdəki proseslərdə çox maraqlı idi ki, burada bir vacib əsas var. Belə ki, Dik Çeyni enerji sənayesində nəhənglərdən olan Halliburton şirkətinin keçmiş CEO-su idi [10]. Bu əsasda Dik Çeyninin ifadələri də önəmlidir ki [16], bu əsasda enerji sahəsinə aid olan lobbinin təsiri görünür. Geniş əsasda demək olar ki, ABŞ-ın xarici siyasətinə TMK-ların təsiri yüksəkdir. Şirkətlər birbaşa xarici sərmayələr vasitəsilə yayıldıqları coğrafiyalarda milli dövlətlərin güc və nəzarət imkanlarını paylaşaraq, bu dövlətlərin gücünü aşındırır və qlobal genişlənmə məqsədi ilə milli dövlətlərin sərhədlərini sıxışdırır, milli dövlətlərin gücündən faydalanırlar. Milli dövlətlərin ehtiyac duyduqları dəstəyi almaq və qlobal arenada milli iqtisadiyyatın ideoloji və siyasi mahiyyətinə töhfə vermək, güclərini artırmaq üçün bu dövlətləri dəstəkləyən geniş geosiyasi təsir gücünə malikdirlər. Bu əsasda ABŞ ordusunun bir çox layihələrinin Locked Martin kimi şirkətlər tərəfindən gerçəkləşdirildiyini görürük.

Texnologiya əsaslı TMK-ların inkişafı və Dünya siyasətinə təsiri. 1-ci Sənaye İnqilabının baş verməsi üçün sadəcə dövlətlərin iştirakının olduğunu demək yanlış olardı. Əsas səbəblərindən biri də böyük miqyaslı talanlar Sənaye İnqilabının ən mühüm maliyyə mənbəyi idi. İstər ispanlar tərəfindən

talan edilən Mərkəzi Amerika qızılları, istərsə də ispan gəmilərini vuran və talançıları talayan İngilis gəmiləri tonlarla qızılı Avropaya aparırdı. Bütün bunlar 16-17-ci əsrlərdə Sənaye İnqilabına gətirib çıxaran prosesləri dəstəklədi. Bu proseslərə böyük fayda verənlərdən biri də ümumən şirkətlər idi. Şirkətlər vergi verdikcə dövlət də qazanırdı və win-win situasiyasında şirkətlər də güclənirdi. Ceyms Vatt`ın buxar matorunu kəşf etməsi ilə başlayan Sənaye İnqilabı günümüz texnologiya şirkətləri üçün bir başlanğıc nöqtəsidir deyə bilərik. Buxar maşınından sonra 1760-cü illərdən başlanan Sənaye İnqilablarında hazırda 4-cü Sənaye İnqilabını yaşayırıq. Günümüz şirkətlərinin yaranmasına bir səbəb də 2-ci Sənaye İnqilabı yaxud da "Texnologiya İnqilabı" deyilir. Bu dövr 1860-1914-cü illəri əhatə edir ki, günümüzün texnologiya nəhənglərindən biri olan Nokia şirkəti 1865-ci ildə yaranıb və günümüz nəhəngləri içərsində ən uzun fəaliyyət tarixinə sahib şirkətdir. Günümüzün nəhəng şirkətlərinin əsasən 20-ci əsrdə yaranması da təsadüfi proses deyildir.

Günümüzün nəhəng texnologiya şirkətləri əsasən 1865-ci ildən etibarən yaradılmışdır. Tarixi ardıcıllıqla önəmli deyəbiləcəyimiz şirkətlərin bəzilərindən IBM 1911-ci ildə, Samsunq 1938-ci ildə, HP 1939-cu ildə, İntel 1968-ci ildə, Microsoft 1975-ci ildə, Apple 1976-cı ildə, Amazon 1994-cü ildə, Quql 1998-ci ildə yaradılmışdır. Nəhəng şirkətlərin yaranma tarixlərinə diqqət etdiyimiz zaman hazırda dünyanın nəhəng şirkətlərinin çoxluqla 1960-cı illərin ortalarından başlayaraq yaradıldığını görürük. Təbii ki, bilgisayar texnologiyalarında və ümumilikdə texnoloji inkişafın nəticələri kimi vurğulamaq olar. Burada bazar payına görə ilk onluqdakı şirkətlərin müəyyən statistikaları ilə bu informasiya dəstəklənir. 10 şirkət arasında 8-i ABŞ, 1-i Səudiyyə Ərəbistan və 1-i isə Çin şirkətidir. 10 şirkətdən 8-i isə texnologiya şirkətidir. Ardıcıllıq trilyon dollarla Apple-2.3, Saudi Aramco 1.9, Microsoft-1.7, Amazon-1.6, Alphabet-1.2, Feysbuk-0.8, Tencent-0.7, Tesla-0.7, Alibaba-0.6, Berkshire Hathaway-0.5 şəklindədir. Göründüyü kimi günümüzdə bu 10 şirkətin bazar dəyəri, yəni 11.8 trilyon dollarlıq güc, sadəcə 21 trilyonluq ÜDM ilə ABŞ və 15 trilyonluq ÜDM ilə Çindən geri qalır [21]. Bu fakt texnologiya şirkətlərinin "güc" sahibi olduqlarını deməyə əsas verir ki, günümüz etibarilə bu şirkətlərin önlərində maneələr olsa da qloballaşmış haldadırlar. Bu qlobalist genişləmə təkmərkəzli olmaması ilə vahid təhdiddən yan keçəbiləcəkləri deməkdir. Örnək kimi Donalt Trump dövründə izlənilən iqtisadi siyasətdə Apple kimi şirkətlərin öz istehsal mərkəzlərini Çindən çəkmələri və ABŞ-a daşımaları istənildi, fəqət Apple kimi böyük şirkətlər bu qərarlara və siyasi-iqtisadi istəklərə qarşı çıxa bilirlər. Apple kimi şirkətlər hüquqi və digər baxımdan bu gücə sahibdirlər. Bu prosesə başqa bir örnək kimi 2019-cu ilin dekabr ayında Florida ştatında yerləşən Pensakola hərbi dəniz bazasına hücum gerçəkləşdirilmiş üç amerikalı dənizçi həlak olmuşdu. Terror aktını təşkil edən Muhammed Alshamrani əməliyyatdan sonra öldürülmüşdüş və araşdırma nəticəsində Muhammed Alshamraninin iPhone istifadə edildiyi aydınlaşmışdı, fəqət smartfon şifrəli idi və FTB (FBİ) yardım üçün Apple müraciət etmiş, ancaq Apple gizlilik siyasətlərini əsas gətirərək FTB-nin bu tələbini rədd etmişdi. Tramp isə öz tənqidi fikirlərini hazırda bloklandığı Tvitter sosial media platformunda bildirmişdi. Trump tvitində Apple yardım ticarət və daha bir çox əsasda yardım etdiklərini, fəqət Apple`ın qatilləri, narkotacirləri və digər zorakı cinayətkarları dəstəklədiyini ifadə edərək, Apple`ın ABŞ hökumətini dəstəkləməli olduğunu qeyd etmişdi. Təbii ki, şirkətin bu tələbi rədd etməsinin bir çox əsası var idi. Öncəliklə bu hadisə Apple`ın belə hadisələrə görə aldığı ilk sərt reaksiya deyil və back-door`lara keçid verməyən Apple, gizlilik müqavilələrinin bir dəfə pozulduğu zaman artacağının da fərqindədir. Bu səbəbdən də Apple güzəştə getmək istəmir. Bu hadisə eyni zamanda Apple timsalında texnologiya şirkətlərinin gücünü göstərir ki, burada da bu güc eyni zamanda hüquqi güclə dəstəklənir, amma sonda yenə də bu güc Apple tərəfdədir. Təbii ki, FTB həmin iPhone`u İsrailli texnologiya şirkətinin yardımı ilə milyonlarla dollar verərək şifrəsini qırmağı bacardı, ancaq bu proses həddindən çox maliyyə xərci deməkdir. Oxşar hadisədə 2015-ci ilin dekabrında San Bernardino şəhərində terror aktı törədən Seyid Rıdvan Faruka aid iPhone markalı smartfonun şifrəsinin qırılması üçün 900 min dollar xərcləmişdi [22]. Göründüyü kimi texnologiya şirkətlərinin güc prizmasından əsaslı şəkildə günümüz dünyasını formalaşdırma potensialına sahib olduğu faktı potensial güclü ehtimaldır və bir çox hallarda ehtimaldan da irəli qəbul edilir. Bu keys şirkətlərin, TMK-ların güc konteksində təsirli olduqlarını göstərən faktlardan biridir.

2022-ci ilin yanvar ayında texnologiya şirkətlərinin gücünü göstərəcək bir məqam da Microsoft şirkətinin gerçəkləşdirdiyi satınalmadır. Microsoft Activision Blizzard firmasının 68.7 milyard dolla-

ra satın aldı. Şirkət oyunlar düzəldir, ancaq Microsoft tarixinin ən böyük xərcləməsini Activision Blizzardı alaraq gerçəkləşdirdi [20]. Bu rəqəmlərin böyüklüyünü müqayisə etmək üçün dünyadakı 211 ölkədən 135-inin ÜDM-sından yüksək olduğunu demək kifayətdir deyə düşünürəm. Qeyd edim ki, Azərbaycanın ÜDM-sı 42.6 milyard dollardır. Microsoftun Activision Blizzardı alması dünyanın elektronlaşdığı gerçəyini və bir növ oyunlaşdığını görmək olar. Eyni zamanda Microsoftun oyun əsasına yatırım etməsini dəstəkləyəcək xırda bir faktda dəstəkləmək olar ki, sadəcə bir bilgisayar oyunu olan PUBG:Battlegrounds oyununun mart 2021 statistikasına əsasən 1 milyard 213 milyon oyunçusu olduğunu deyə bilərik. Müqayisə üçün deyək ki, Azərbaycan əhalisindən 121 dəfə çox və Çin əhalisindən 180 milyon az [23]. Təbii ki, dövlətləri bu statistikalarla qarşılaşdırmaq yeni deyil, fəqət qloballaşan dünyada bir oyun ətrafında birləşən insanların ayrıca bir dövlət yaratdığını metaforik şəkildə qeyd etmək olar. Şirkətlərin yatırımları və texnoloji inkişaf istiqamətləri prizmasından eyni zamanda böyük şirkətlərin istiqamətlərini də görmək olar. Belə ki, Feysbuk öz şirkətlərini 2021-in oktyabrında "Meta" adı altında birləşdirdi. Dekabr ayında isə Tvitterin qurucusu və CEO-su Jack Dorsey öz vəzifəsindən istefa edərək bir neçə şirkəti birləşdirdi və adına "Block" dedi. Bu iki ifadə, yəni "Meta" və "Block" böyük şəkili görməyə kömək edir ki, Meta "Metaverse"-ə, Block isə "Blockchain"-ə istinaddır. Metaverse`ə sadə şəkildə desək dünyamızın onlayn formatı, virtual dünya demək olar. Blockchain isə bu əsasda bir növ zəncirvari kriptoqrafik əlaqədən istifadə edən bir texnologiya məhsuludur ki, bu texnologiyanı istifadə edən ən məşhur örnəklərdən biri Bitcoin`dir. Təbii ki, bu iki texnoloji əsasın çox daha geniş izaha ehtiyacı var. Bu iki texnologiya məhsuluna edilən yatırımlar təbii ki, trend deyil, çünki dünyanın meqa şirkətləri bu texnologiyanın əsas iştirakçılarıdır. Təbii ki, toplumlar bu texnologiyalara yönəldikcə texnologiya şirkətlərinin güc dəyərləri artaraq davam edir. Texnologiya şirkətlərinin resursları getdikcə artır və bu resursların artması ilə dövlətlərin güc mərkəzlərinə, işləyiş mexanizmlərinə və bu prizmadan demək olar ki, bir çox əsasa da təsir edir. Məsələn dünyada demək olar ki, hər bir prezidentin, baş nazirin önəmli sosial media platformlarında hesabları var, yəni eyni zamanda texnologiya şirkətlərinin məhsullarına asılılıq var. Təbii ki, Rusiyanın öz maraqlarına çatmaq üçün Avropa ölkələrinə tətbiq etdiyi enerji diplomatiyası kimi bir diplomatiyanı texnologiya şirkətlərinin tətbiq etməyəcəyini demək yanlış olardı deyə düşünürəm. Örnək kimi 2-ci Qarabağ Müharibəsi zamanı Xarici İşlər Nazirimizin Tvitter hesabının bloklanması təbii ki, informasiya trafikini nisbətən zədələmiş və eyni zamanda Azərbaycanın haqq səsinin çatdırılmasına maneə törətmişdi. Bu əsasda kommunikasiya trafikinin nisbətən yavaşlamasına səbəb olan Tvitter, eyni zamanda kommunikasiya baxımından gücünü göstərir. Bu əsasdan göründüyü kimi texnologiya şirkətinin dünyadakı proseslərə nəinki təsir etməyi, dəyişdirmə gücünə sahib olduğu görünür.

Şirkətlərin "Big Data"-ya sahib olması və məlumatları işləyərək vacib proseslərə təsiri də görünür. Bu baxımdan Cambridge Analytica örnəyi bu baxımdan önəmli araşdırma və örnəkdir. Sənaye 4.0, suni intellekt, sosial əlaqələr, şəbəkə texnologiyaları kimi müxtəlif proseslər informasiya cəmiyyəti dövrü adlanan prosesin mühüm və aktual müzakirə sahələrini təşkil edir. Eyni zamanda bilgi və texnologiyadakı yüksəlmə ilə adminstrasiyaların daha təsirli, səmərəli və daha demokratik olacağının qəbul edilməsi bir çox konseptual və nəzəri inkişaflar yaratmışdır. E-demokratiya/dijital demokratiya, e-idarəetmə və bu kimi sistemlər ilə elektronlaşma sayəsində proseslər daha rahat şəkildə idarə olunması, idarəedicilərə daha tez reaksiya verməsi və digər pozitiv tərəfləri ilə birlikdə təhlükəsizlik prioritetini önə gətirir. Eyni zamanda bu proseslərdə dövlətlərin və ictimai qurumların təhlükəsizlik standartlarını yenidən gündəmə gətirmələri gərəkdiyini görürük. Dijitallaşmanın gətirdiyi şəffaf ictimai münasibətlərin, fərdlərin demokratik sistem içərisində manipulyasiyaya, dezinformasiyaya, misinformasiyaya və malinformasiyaya açıq hala gəlir. Bu prosesin ən yaxın örnəklərindən olan Cambridge Analytica (CA) hadisəsi ilə CA şirkətinin örnəyində, bu tip şirkətlərin və ümumilikdə təhlükəsizlik mühitinə, demokratik siyasət üçün yaratdığı təhlükələrə diqqət ayırmaq vacibdir.

1900-cü illərin ortalarına doğru ABŞ Müdafiə Nazirliyin araşdırmaları ilə internet ilə tanış olduq, ancaq yüzilliyin son 30 ilində fərqli coğrafiyalarda internetin çox ciddi təsirləri göründü. Şəbəkə cəmiyyəti fenomeni post-sənaye, informasiya cəmiyyəti, post-fordizm, postmodernizm və qloballaşma kimi bəzi anlayış və transformasiyalarla birlikdə düşünülə bilər və bu prizmadan Van Dijk`in fikirləri önəmlidir. Dijk fikirlərini 4 əsasda ifadə edir: 1. Elmə, rasionallığa və refleksivliyə əsaslanan sosial təşkilat, 2. Kənd təsərrüfatı və sənaye daxil olmaqla bütün sektorlar üzrə biliklər istehsalı ilə

formalaşan iqtisadi quruluş, 3. Funksiyalarının çoxunda məlumat və yüksək təhsilə ehtiyac duyan iş qüvvəsi bazarı, 4. Media və məlumat məhsullarının məna, işarə və simvollarının basqın olduğu bir mədəniyyət [1, s.2]. Dijkin bu fikirləri ümumi şəkildə cəmiyyətin münasibət bütününü açıqlamaqla bərabər iqtisadi, mədəni və sosial sahələrdə çevirici roluna vurğu edir. Bu səbəbdən CA örnəyi də siyasi, praktik və nəzəri baxımdan da bu hallarla bərabər düşünülməlidir. Bu proseslər nəticəsində meydana gələn krizisləri, böhranları da demokratik siyasət üçün əhəmiyyətli bir meydan oxuma kimi qiymətləndirməliyik. Dijitallaşma ilə sosial media və ümumilikdə internet üzərində "yeni xəyali cəmiyyətlə" yarandığını demək mümkündür və bu proseslər timsalında sosial sərməyənin güclənməsi, fərdlərin daha böyük bir sosial varlığın parçası olmağı düşünmələri və şəxslərin bu texnologyalarda fərdlərin həm anonim həm də şəxsiyyəti ilə özlərini göstərmələri insanların fərdi və cəmiyyət olaraq fərqli bir mədəni sistem təmin etməkdədir. Bu proseslərin ən aktiv iştirakçıları isə "dörd atlı" dediyimiz Amazon, Apple, Feysbuk və Quql kimi şirkətlərdir. CA qalmaqalına keçmədən öncə böyük şəkili tamamlayacağım son hissə "Ərəb Baharı" deyə adlandırdığımız ictimai hərəkatdır. "Ərəb Baharı"nın yayılmasının və böyük dərəcədə təsirlərinin olmasının səbəbləri çoxdur. Bu səbəblərə aiddir: 1. Avtoritarizm, 2. Monarxiya, 3. Demoqrafik struktur amilləri, 4. 2000-ci illərin enerji böhranı, 5. Siyasi korrupsiya, 6. İnsan hüquqlarının pozulması, 7. İşsizlik, 8. İnflyasiya, 9. Kleptokratiya, 10. Yoxsulluq, 11. Məzhəbçilik və sair. Bu səbəblərə İraqın "Failed State" və daha bir çox örnəyi əlavə etmək olar, ancaq bu üsyanın yayılmasında ən vacib rollardan birini də texnologiya şirkətləri tutur. Feysbuk və Tvitter sosial media platformlarında fərdlər komunikasiya quraraq bu proseslərin böyük coğrafiyaya yayılmasında bir növ baza rolunu oynamışdır. Prosesin davamında coğrafiyada 4 dövlətdə hökumətlər devrilmiş, 2 ölkədə silahlı atışmalar baş vermiş, 6-dan çox dövlətdə hökumətlər dəyişmiş, 5-dən çox dövlətdə kiçik miqyasda minitqlər baş vermiş və Ərəb dünyasının kənarında olan 3-dən çox dövlər də bu proseslərdən təsirlənmişdir. Burada "Ərəb Baharı"-nın yayılmasının ən vacib şərti kimi kommunikasiya, informasiya ötürülməsi sayıla bilər və kütlə psixologiyası baxımından bu fikri əsaslandıra bilərik. Fərdi psixoloji baxımdan Muhammed Buazizi`nin özünü yandırması kütlə reaksiyasına səbəb olmuşdur və bu informasiya daha az təsirli olan yazılı informasiya yerinə, videolar, şəkillərlə təsirlilik dərəcəsi xeyli artmışdır. Başqa bir örnək isə Barak Obamanın 2008 seçkiləri zamanı texnologiya şirkətlərinin məhsullarını seçim kampaniyası zamanı geniş və effektiv şəkildə istifadə etmişdir. Burada sosial media platformlarının aid olduğu şirkətlərin sadəcə kommunikasiya ilə məşğul olduqlarını demək yanlış olardı, çünki bu şirkətlər öncəliklə sadəcə sosial media platformlarından ibarət deyil və adicə Feysbukun, Quqlın, Tvitterin yaratdığı imkanlar reklam, təbliğat və digər instrumentlərə əsasən bu fikri demək olar ki, "Big Data" bu əsasın vacib tərkib hissəsidir. CA örnəyi də bu fikirlər işığında çox daha maraqlı bir örnəyə çevrilir. CA krizisi Feysbuk üzərindən baş vermişdi. Feysbuk 2018-ci il etibarilə 2 milyarddan çox istifadəçiyə sahibdir və internet dünyasının ən böyük sosial platformu halındadır. Bu fakt işığında CA-Cambridge Analytica qalmaqalı xülasəylə, istifadəçilərin onların şəxsi sosial şəbəkələrini genişləndirmək üçün öz razılığı ilə Feysbuk şirkətinin mühafizə öhdəliyi müqabilində təqdim etdikləri şəxsi məlumatların, istifadəçilərin xəbəri və razılığı olmadan CA araşdırma şirkəti vasitəsilə toplanaraq seçki dövrlərində müxtəlif siyasətçilərə təqdim olunmuş və bu məlumatların işığında siyasətçilər regional təhlili aparır və hətta şəhər əsaslı internet reklamlarının nəşrini və siyasi diskurslarını inkişaf etdirmək imkanına sahib olurdular. Şirkətin şüarı "məlumatlar bizim nə etdiyimizi müəyyənləşdirir" (Data drives all we do.) şəklindədir ki, bu da şirkətin misyasını ilkin olaraq bildirir və eyni zamanda vurğu etdiyim "Big Data"ya da vurğu edir, çünki edilənləri datalar üzərində işləyərək mümkün ediblər. CA, araşdırmaçı Aleksandr Koqan ilə şəxsiyyət testi proqramı hazırlamaq üçün razılaşmış və Koqan "The Big Five" testini istifadə edərək, CA-nın istəklərini cavablandırmışdı. "The Big Five" şəxsiyyət testi 5 əsas hissəyə söykənir: 1. Nevrotiklik, emosional tarazlıq (Neuroticism), 2. Razılıq, rahatlıq, münasiblik (Agreeableness), 3. Ekstraversiya, ekstrovertlik (Extraversion), 4. Açıqlıq, yeni təcrübələrə açıq olma (Openness), 5. Vicdanlılıq, dürüstlük (Conscientiousness) [14]. "The Big Five" şəxsiyyət testi nəticəsində əldə edilən informasiyalar sayəsində şirkət öz məqsədləri prizmasında hərəkətə keçmişdir. İlk başda onlayn platformlardan 270 min könüllü istifadəçi testi gerçəkləşdirmiş və daha sonra domino effekti kimi yayılmışdır. Sonda 50 milyondan çox insanın datasına sahib olan CA dataları əldə etməkdən işlənilməsinə keçid etmişdi. CA bu dataların işlənməsində və fəaliyyətlərini üç əsasda edirdi. Bunlar

davranış elmləri, data analitikası və fərdiləşdirilmiş reklamlar idi. Təbii ki, bu istiqamətdə Feysbukdan sızan bu böyük datanın bir çox məqsədlərlə istifadə olunması ilə yanaşı proseslərə təsiri ilə şirkət prizmasından günümüz təhlükəsizlik standartlarını və bir çox standartların yenidən gözdən keçirilməli olduğumuzu bizlərə göstərmişdir. CA-nın siyasi səhnədə bilinən ilk fəaliyyəti 2014-cü ildə ABŞ-da Senat Seçkilərində olmuşdur. Şirkət respublikaçı senat namizədlərini senat seçilmələri üçün dəstəkləmiş və bu dövrdən etibarən CA-nın fəaliyyəti getdikcə artmışdır. 2015-ci ilin noyabrında İngiltərənin Avropa Birliyindən (AB) çıxması prosesində (Brexit) AB-dan ayrılmağı müdafiə edən Leave.EU qrupu ilə işləmişdi. Eyni ilin dekabrında CA ABŞ-da Demokrat Partiyasının prezident namizədi Ted Kruz üçün çalışmışdır. Bu dövrdə CA əlindəki feysbuk profillərinindən təbliğat maşını kimi istifadə etmişdir [17]. CA Ted Kruzun namizədlik kampaniyasını uduzması ilə D. Trump ilə razılaşmışdır. CA-nın aid olduğu şirkət SCL Group şirkəti fərqli ölkələrdə başqa adlarla şirkətlər qurmuş və oxşar fəaliyyəti gerçəkləşdirməyə çalışmışdır ki, Kanada qolu olan AggregateİQ, Brexit-i dəstəkləyən digər bir qrup olan "Vote Leave" ilə 2016-cı il boyunca Brexit kampaniyası çərçivəsində işləmişdir [11].

Nəticə. Yekun nəticə olaraq onu qeyd edə bilərik ki, 20-ci əsrin ortalarından daha da sürətlənərək irəliləyən texnologiya özü ilə bərabər gücü də gətirir. Günümüz reallıqlarında güc texnologiyadan keçir və qarşılıqlı inteqrativ mühitdə texnologiya şirkətləri bu inkişafda söz sahibi olaraq "Güc"-ə də sahib olurlar. Texnologiya əsaslı TMK-lar yeni texnologiyalarda söz sahibi olaraq, dövlətlərin səlahiyyətlərini sorğuladacaq təsirə, iqtisadi, sosioloji, psixoloji, siyasi əhatə dairələri kimi bir çox sahədə əsas hərəkətverici qüvvəyə çevrilirlər. Dünyada 200 mindən çox olan TMK-ların sayı günügündən artır və bu TMK-lar arasında texnologiya əsaslı TMK-lar elektronlaşan dünyada daha çox güc qazanaraq davam edirlər. Dövlətlərlə şirkətlərin əlaqələrində qarşılıqlı inteqrasiya və güc qatma kimi proseslər davam edir. Bu proseslər milli dövlətlərlə TMK-ları qarşılıqlı asılılıq halına gətirir. Eyni zamanda Qloballaşma ilə TMK-lar ilə milli dövlətlərin əlaqələri və qarşılıqlı bağlılıqları artmışdır. Günümüz texnologiya əsaslı TMK-lar etibarilə birbaşa xarici investisiyalar hesabına fərqli coğrafiyalarda güc və nəzarət imkanlarını paylaşaraq milli dövlətin gücünü sarsıdan və qlobal inkişaf məqsədləri naminə milli dövlətləri sıxışdırmağı bacaran, təsir edə bilən, öz maraqlarına uyğun istiqamətləndirməyi bacaran güclü bir aktordur. Eyni zamanda TMK-lar gərəkdiyi zaman milli dövlətini gücünü istifadə edirlər. Milli dövlət tərəfindən müdafiə edilən, qorunan şirkətlərin dövlətlərdən daha azad davranması və bəzi hallarda qarşı çıxması halları da güc timsalında milli dövlətin təsirinin azalmasına və əksinə TMK-ların güclərinin artdığına vurğu edir. Maraqlar baxımından qiymətləndirildikdə, şirkətlər üstünlük əldə etmək üçün dövlətlərdən faydalanarkən, dövlətlər güc qavrayışını gücləndirmək üçün şirkətlərdən faydalanır. Nəhayət, gücləndirici əlaqələr olaraq, dövlətlər yenidən strukturlaşdırmaqla şirkətləri gücləndirir, şirkətlər isə geosiyasi təsəvvürlər yaratmaqla dövlətləri dəstəkləyir. Bu qarşılıqlı asılılıqda toplumda daxilində də zamanla daha çox söz sahibi olan və daha çox inteqrasiya olunan TMK-lar milli dövlətdən daha güclü olur və milli dövlətlərin xarici siyasətlərinə təsir edir. 21-ci əsrin ilk 20 illiyi çərçivəsində bu inkişafın sürətlə getdiyini deyə bilərik ki, əsas kökdə də texnologiya şirkətlərinin olduğu faktdır. Texnologiya əsaslı TMK-ların günü-gündən milli dövlətlərə olan təsirləri artır və güclənməyə davam edirlər.

ƏDƏBİYYAT

1. Abdulkadir Aksoy, Onur Türkölmez, "Dijital Çağa Demokrasiyi Çağırmak: Cambrıdge Analytıca Skandalı" // Journal of Political Administrative and Local Studies (JPAL), 05.2005, № 3, 1, s.41-59.
2. Alexander Wendt, "Social Theory of International Politics", Cambridge: Cambridge University Press, 1999, p. 452.
3. Emre İseri, "Neo-Gramscian Analysis of US Hegemony Today", Keele University, 2007, p.14.
4. Greg N. Gregoriou, Luc Renneboog, "Understanding Mergers and Acquisitions Activity Since 1990: Recent Research and Quantitative Analysis", San Diego,USA: Elsevier, 29.06.2007, p.320.
5. Joseph Nye, "The Changing Nature of World Power," // Political Science Quarterly, 1990, 105/2: 177-192.
6. Kenneth Waltz, "Theory of International Relations", New York: Waveland Pr Inc, 1979, p.251.

7. Norihisa Yoshimura, Hidekazu Sone, “Observations of Kongo- Gumi' s Corporate Creed:Research on the Corporate Creed Observed in the Living Companyin Japan” // Wakayama University Academic Repository, 2006, p.143-152.
8. Theodore H. Cohn, “Global Political Economy: Theory and Practice” // Pearson: 2005, p.130-131.
9. Thomas Haigh, “The history of information technology” // Annual Review of Information Science and Technology, Volume 45, Issue 101, 2011, p.431–487.
İnternet mənbələri:
10. Britannica, The Editors of Encyclopaedia. "Dick Cheney". Encyclopedia Britannica, 26 Jan. 2022, p. 6 - https://www.britannica.com/biography/Dick-Cheney [Müraciət tarixi: 15.02.2022].
11. Carole Cadwalladr, Mark Townsend, “Revealed: the ties that bound Vote Leave's data firm to controversial Cambridge Analytica”, 24.03.2018, p.8. - https://bit.ly/3Mjz1vV [Müraciət tarixi: 15.02.2022].
12. Cambridge Analytica main page - https://web.archive.org/web/20180825115020/https://cambridgeanalytica.org/ [Müraciət tarixi: 15.02.2022].
13. Company, p.1. - https://dictionary.cambridge.org/dictionary/english/company [Müraciət tarixi: 15.02.2022].
14. Daniel Nettle, “A test of character: The Big Five Chracter Test”, 07.03.2009, p.3. - https://www.theguardian.com/lifeandstyle/2009/mar/07/personality-test [Müraciət tarixi: 15.02.2022].
15. Erin Brodwin, “Here’s the personality test Cambridge Analytica had Facebook users take”, 20.03.2018, p.6. - https://bit.ly/3t7xdgo [Müraciət tarixi: 15.02.2022].
16. Full text of Dick Cheney's speech, 24.04.2002, p.10. - https://bit.ly/3IIx89T [Müraciət tarixi: 15.02.2022].
17. Harry Davies, “Ted Cruz using firm that harvested data on millions of unwitting Facebook users”, 11.12.2015, p.10. - https://bit.ly/35dA3IY [Müraciət tarixi: 15.02.2022].
18. Hilary Osborne, “What is Cambridge Analytica? The firm at the centre of Facebook's data breach”, 18.03.2018, p.7. - https://bit.ly/3HtfDJ9 [Müraciət tarixi: 15.02.2022].
19. Jing Daily, “A digital Gucci?”, 07.06.2021, p.4. - https://bit.ly/3K2fDl2 [Müraciət tarixi: 15.02.2022].
20. Microsoft News Center, “Microsoft to acquire Activision Blizzardto bring the joy and community of gaming to everyone, across every device”, 18.01.2022, p.9. - https://bit.ly/3tyajPR [Müraciət tarixi: 15.02.2022].
21. “Dünyanın en değerli 10 şirketi”, 02.01.2021, s.3. - https://www.ekonomist.com.tr/teknoloji/pandemi-onlara-yaradi-iste-dunyanin-en-degerli-10-sirketi.html [Müraciət tarixi: 15.02.2022].
22. “FBI'ın iPhone'un şifresini kırmak için harcadığı para belli oldu”, 09.05.2017, s.11. - https://bit.ly/3p8byUl [Müraciət tarixi: 15.02.2022].
23. “List of most-played video games by player count”, 2021, p.9. - https://thereaderwiki.com/en/List_of_most-played_video_games_by_player_count [Müraciət tarixi: 15.02.2022].

ЭЛЬГЮН ТАГИЗАДЕ
Докторант кафедры «Дипломатия и Современные интеграционные процессы» Бакинского Государственного Университета

ВЛИЯНИЕ ТЕХНОЛОГИЧЕСКИХ ТРАНСМИТАЛЬНЫХ КОРПОРАЦИЙ НА МИРОВУЮ ПОЛИТИКУ В КОНТЕКСТЕ “СИЛЫ” В XXI ВЕКЕ

В статье анализируется становление и развитие компаний через призму власти, как компании распоряжаются финансовыми и человеческими ресурсами в современное время, развитие компаний в период научно-технического прогресса, переход компаний в транснациональные корпорации, столкновение государственная политика с корпоративной политикой Война

за власть с государствами, сравнение материальных сил современных компаний с материальными силами государств, великая мощь их компаний раскрываются сквозь призму проводников сегодняшних технологий.

Ключевые слова: компания, транснациональные корпорации, технологические компании, неограмшианство, научно-технический прогресс, власть, мировая политика, технологии.

ELGUN TAGİZADEH
Doctoral student of the Department of Diplomacy and Modern İntegration Processes of Baku State University

THE EFFECT OF TECHNOLOGY-BASED TRANSMITTAL CORPORATIONS ON WORLD POLITICS IN THE "POWER" CONTEXT IN THE 21ST CENTURY

The article analyzes the formation and development of companies through the prism of power, how companies have financial and human resources in modern times, the development of companies during the period of scientific and technological progress, the transition of companies to transnational corporations, the collision of state policies with company policies. The power war with the states, the comparison of the material forces of modern companies with the material powers of the states, the great power of their companies are revealed through the prism of the guides of today's technologies.

Keywords: Company, Transnational Corporations, Technology Companies, Neo-Gramscianism, Scientific and Technical Progress, Power, World Politics, Technology.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: s.ü.f.d. Afət Səfərova, s.e.d. Adil Mirabdullayev.

UOT 94

NƏRMİN KƏRİMOVA
Bakı Dövlət Universiteti
nermin0304@gmail.com

MÜASİR DÖVRDƏ QAFQAZ BÖLGƏSİNDƏ TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

İnsanın təhlükəsizliyi cəmiyyətdə, dövlətdə, təhlükəsizliyin digər istiqamətləri olan hərbidə, iqtisadiyyatda, ictimaiyyətdə, informasiyada və milli təhlükəsizlikdə münasibətlərin qurulması əsasında durur, çünki bütün bu "təhlükəsizliklər" sonda konkret insanın təhlükəsizliyini təmin etmək vəzifəsini daşımalıdır. Nəzərə almaq lazımdır ki, son yüzillikdə dünya ölkələrinin əlaqələrinin genişlənməsi və siyasi mənada Yer Kürəsinin "kiçilməsi" bir çox qlobal problemlərin ortaya çıxmasına gətirib çıxarmışdır ki, bu da təbii olaraq yerli və regional problemlərin yaranmasına səbəb olmuşdur.

Açar sözlər: Qafqaz, təhlükəsizlik, Azərbaycan, Gürcüstan, terrorizim.

Giriş. Regionda və ya hər hansı ayrıca götürülmüş ölkədə təhlükəsizlik deyəndə hər şeydən əvvəl real təhlükələr identifikasiya olunmalıdır. Başqa sözlə desək, "təhlükəsizlik" və "təhlükə" qoşa tədqiq edilməlidir. Təhlükələr mövcud və ya gözlənilən problemlərlə bağlı ola bilər. Hər bir ölkə üçün təhlükələr yerli, regional və qlobal kimi qruplaşdırıla bilər. Adətən bir çox yerli problemlər regional və qlobal problemlərin yerlərdə və ya regionda təzahürüdür. İctimaiyyətin geniş təbəqəsi yerli və regional problemləri qlobal problemlərdən daha tez hiss edir.

Müasir dövrdə Qafqazda təhlükəsizlik məsələlərinə dair konfanslar da keçirilir. Belə konfranslardan biri də 2014-cü ildə Ankarada "Cənubi Qafqazda təhlükəsizlik məsələləri" mövzusunda beynəlxalq konfrans keçirilib. Türkiyənin aparıcı mərkəzlərindən olan Beynəlxalq Strateji Araşdırmalar Qurumu və Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi tərəfindən birgə təşkil edilən toplantıda Azəbaycan, Türkiyə və Gürcüstandan olan nüfuzlu siyasətçilər, tədqiqatçılar, Ankaradakı diplomatik korpusun təmsilçiləri iştirak edirdilər. Tədbirin açılışında çıxış edən Prezident Administrasiyasının xarici əlaqələr şöbəsinin sektor müdiri Ərəstü Həbibbəyli bildirib ki, Cənubi Qafqaz hər zaman geosiyasi baxımdan həssas bölgə olub. Müasir dövrdə Azərbaycan, Gürcüstan və Türkiyənin iştirakı ilə həyata keçirilən enerji və infrastruktur layihələri regionda sabitlik üçün əsas amildir, lakin münaqişələrin həll edilməmiş qalması bölgədəki əmin-amanlıq üçün böyük təhlükə yaradır.

Müasir dövrdə Qafqaz bölgəsində təhlükəsizlik problemləri. Qafqaz regionunda təhlükəsizlik məsələlərinə yanaşmalar. Qafqaz Avrasiyanın və bütövlükdə qlobal dünyanın mühüm geosiyasi, geoiqtisadi və geostrateji əhəmiyyət kəsb edən bir bölgəsində yerləşir. Bu gün Qafqaz müxtəlif hərbi, siyasi və təhlükəsizlik maraqlarını və güc mərkəzlərini özünə cəlb edən strateji məkana çevrilib. Qafqazın təhlükəsizlik məsələlərinə müxtəlif yanaşmalar, qlobal, regional və milli maraqlar, onlar arasındakı üst-üstə düşən və kəsişən məqamlar geniş müzakirə olunan mövzulardandır. Qafqaz subregionunda təhlükəsizlik mühitinin təşkil olunmasını müxtəlif məzmunlu və istiqamətli faktorlar müəyyənləşdirir [3, 220-221].

SSRİ dağıldıqdan sonra Rusiya tərəfindən əkilmiş düşmənçilik toxumları cücərmiş və silahlı münaqişələrə çevrilmişdir. Çoxetnoslu tərkibi ilə seçilən Qafqaz regionu Rusiyanın eksperimentlərinin qurbanına çevrilmiş, istər Şimali, istərsə də Cənubi Qafqaza SSRİ dağıldıqdan sonra bir neçə münaqişə miras qalmışdır. Qanlı münaqişələrin yaranması və etnik problemlərin davamlı şəkildə qızışdırılması bəzi qüvvələrin məsuliyyətsiz hərəkətləri ilə birlikdə regionu yeni çətinliklərə və mübahisələrə qərq etdi. Region dövlətləri arasında səngiməyən gərginlik digər amillərlə yanaşı, iqtisadi inkişaf fəaliyyətinə mənfi təsir göstərərək regionda müsbət əlaqələrin yaranmasının qarşısını aldı [6, 39-40].

Çeçenistanda mövcud olan uzunmüddətli münaqişə digər Şimali Qafqaz ölkələrində terrorizm və ekstremizmin yayılmasına təsir göstərmiş, bu da öz növbəsində Rusiyanın yeni müstəqillik qazanmış Cənubi Qafqaz dövlətləri və müəyyən mənada qeyri-region dövlətləri, eləcə də beynəlxalq təşkilatlarla münasibətlərinə təsirsiz ötüşməmişdir. Çeçenistanda ikinci əməliyyat zamanı seperatçıların məğlubiyyətindən sonra bu faktor əsasən gündəmdən çıxarıldı. Lakin mütəmadi olaraq, İnquşetiya, Dağıstan və digər Şimali Qafqaz respublikalarında radikal və terrorçu silahlı qruplaşmaların fəaliy-

yəti göstərir ki, bu, Qafqaz subregionunun təhlükəsizliyi baxımından aktual problemdir. Bütün bunlar Azərbaycan və Gürcüstan ərazisində mövcud həll olunmamış münaqişələr və separatçı qüvvələrə diqqəti cəlb edir. Abxaziya, Cənubi Osetiya və Dağlıq Qarabağ münaqişələri Azərbaycan, Gürcüstan və Ermənistanın təhlükəsizlik siyasətinə, onların Rusiya, başqa qonşu dövlətlər və qeyri-region dövlətlərilə münasibətlərinə təsir edir [4, 204].

Qafqaz öz coğrafi vəziyyətinə görə əzəldən önəmli strateji region sayılırdı. Sovet İttifaqının süqutundan sonra onun əhəmiyyəti daha da artmışdır. Regionun hazırda çox mühüm vəziyyəti, onun strateji önəmi və çəkisi bir sıra amillərdən asılıdır:

1. Strateji ehtiyatlar - Xəzər hövzəsinin zəngin neft və qaz sərvətləri bir çoxlarını cəlb edir, Qafqaz isə bu ehtiyatların enerjiyə ehtiyacı olan (xüsusilə Avropada yerləşən) bazarlara çatdırılması üçün ən qənaətbəxş və etibarlı dəhlizdir;

2. Regional qeyri-sabitlik - regionda silahlı münaqişələr və qeyri-sabitlik baş alıb gedir, bunların daha da artması və genişlənməsi ehtimalı vardır;

3. Mütəşəkkil cinayətkarlıq - geniş yayılmış yoxsulluq və yenicə müstəqil olmuş respublikaların institusional zəifliyi regionun müxtəlif cinayətkar ticarət fəaliyyətləri üçün tranzit dəhlizinə çevrilməsinə təkan vermişdir [1, 229-230].

Sadalanan amillər Qafqaz regionunu böyük dövlətlər, xüsusən Rusiya və ABŞ arasında rəqiblik zonasına döndərmişdir. Bu dövlətlərin hər biri öz regional siyasətini yürüdür, onların maraqları fərqli, hətta bir-birinə ziddir. Bu cür rəqiblik geosiyasi liderliyi əldə etmək məqsədilə Rusiyanın cənub cinahı boyunca yerləşən "böhran qövsü"ndə aparılan "yeni böyük oyun" kimi qələmə verilir [5, 316]. "Soyuq müharibə" başa çatdıqdan sonra Qafqazda təhlükəsizliyə təsir göstərən amillər aşağıdakılardır:

1. Beynəlxalq konsepsiyaların və diskursların əhəmiyyətli şəkildə dəyişməsi, xüsusilə Qərbdə təhlükəsizlik və təhdid anlamlarının yenidən təyin edilməsi;

2. Rusiyada hələ də davam edən daxili siyasi və iqtisadi yetişmə prosesi, onun ölkənin beynəlxalq statusuna və dünyadakı, xüsusilə Qafqazdakı xarici siyasətinə təsiri;

3. Qərb dövlətlərinin region ölkələrində, xüsusilə də Azərbaycanda və Gürcüstanda daxili siyasi hadisələrə təsir etmək üçün müdaxilələri;

4. Qafqaz daxilində və ümumiyyətlə, dünya iqtisadiyyatı üçün enerji ehtiyatlarının artan əhəmiyyəti [2, 203].

Sovet İttifaqının süqutu, Qafqazda və Mərkəzi Asiyada yeni müstəqil dövlətlərin yaranması regionda bir sıra geosiyasi təlatümlərə gətirib çıxartdı. Bu təlatümlər, habelə sovet üsuli-idarəsindən miras qalmış institutlar, həll metodları, davranışlar və mentalitetlər vəziyyəti xeyli mürəkkəbləşdirmişdi. Bunlardan savayı və daha önəmlisi daxili zəiflik və təhlükə ilə səciyyələnən vəziyyətin davam etməsi nəticəsində regionda və hətta ondan kənarda qeyri-sabitliyin yayılması riski ilə bağlı idi [9, 255-256].

Qafqaz ölkələrinin daxili inkişafı və xarici münasibətləri region ölkələri arasında güc tarazlığını dəyişə bilər. Qafqazdakı güc tarazlığında mümkün dəyişikliklər ilk növbədə, regionun qonşularına, yəni Rusiya, İran və Türkiyəyə, sonra isə digər ölkələrə də təsir göstərəcəkdir. Qafqazda hazırkı vəziyyət regionun gələcəkdə qarşılaşacağı yeni münaqişələrdən və təhdidlərdən xəbər verir. Bu cür təhdidlərin əsas mənbələrini etnik münaqişələr, qeyri-sabitlik, ifrat millətçilik, separatçı meyillər və qeyri-bərabərlik təşkil edir. Regiona kənardan güclü dövlətlərin müdaxiləsi nəticəsində vəziyyət daha da pisləşə bilər.

Qafqazda təhlükəsizlik məsələlərinə müxtəlif yanaşmalar mövcuddur:

a) Strateji yanaşma. Bu yanaşmaya əsasən regionun təhlükəsizlik vəziyyətini müəyyən edən başlıca amil böyük dövlətlərin siyasətidir, çünki bu yanaşmada məhz həmin dövlətlərin siyasətinin təhlili vurğulanır. Sovet İttifaqının süqutundan sonra regionda hərbi imkanlar, siyasi təsir və enerji daşınması yollarına nəzarət uğrunda Rusiya və ABŞ arasındakı rəqabət regional siyasi tənliyin mühüm hissəsidir. Dağlıq Qarabağ ətrafındakı danışıqlarda hərəkətsizlik, Çeçenistanda və Gürcüstanda separatçı fəaliyyətlərin davamı, Azərbaycanda və Gürcüstanda qoşunların yerləşdirilməsinə dair aşkarcasına ifadə olunan ziddiyyətli fikirlər kimi problemlərin bütün regionda davam etməsinə də adı çəkilən rəqabət nöqteyi-nəzərindən baxmaq olar [4, 246].

b) Etnik-siyasi yanaşma. Bu yanaşmada Qafqazda təhlükəsizlik məsələləri əsas etibarilə regionda baş verən etnik münaqişələr zəminində təhlil edilir. Sözü gedən təhlilə əsasən, ixtilaf və mübahisə tarixinə malik olan bu regionda 50-dən çox etnik qrupun olması (bu, qismən sovet dövründə yürüdülən etnik siyasətin nəticəsidir) Qafqazda təhlükəsizlik vəziyyətini xeyli mürəkkəbləşdirir. Bu baxımdan regiondakı təhlükələr kənar mənbələrdən deyil, daha çox daxili köklərdən qaynaqlanır və nəticə etibarilə, regionda təhlükəsizliyin inkişafı mədəni, siyasi və sosial islahatların icrası vasitəsilə regionun daxilində təhlükələr barədə ortaq baxışların yayılmasından asılıdır [2, 265].

Etnik münaqişələr yeni müstəqil olmuş Cənubi Qafqaz dövlətlərini uğurlu sülh, əmin-amanlıq və iqtisadi inkişaf siyasətini aparmaq imkanından məhrum etdi. Bunun müqabilində həmin dövlətlər hərbi büdcələrinin maliyyələşdirilməsinə, qaçqın və məcburi köçkünlərə külli miqdarda xərclər çəkməyə məcbur oldular. Bundan başqa, davam edən etnik münaqişələrin regiondakı qonşu dövlətlərə yayılması təhlükəsi də mövcuddur. Ölkəmiz Aİ, ATƏT, AŞ, MDB, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq qurumlarla da yaxından əməkdaşlıq edir. Respublikamız indiyədək Avropa İttifaqının terrorizmə qarşı mübarizəni nəzərdə tutan 9 konvensiyasını ratifakasiya edib. AR həmçinin Avropa Şurası ilə Terrorçuluq üzrə Ekspert Komitəsi çərçivəsində birgə fəaliyyət göstərir. MDB Antiterror Mərkəzinin "MDB iştirakçı dövlətlərin ərazisində fəaliyyəti qadağan olunacağı mümkün terrorçu və ekstremist təşkilatların vahid siyahısı"nın hazırlanmasında ölkəmiz xüsusilə fərqlənib. Belə ki, bir sıra terror və ekstremist təşkilatların adları məhz Azərbaycanın təklifi əsasında bu siyahıya daxil edilib. Regionda Türkiyə və Gürcüstanla, hər sahədə olduğu kimi, terrorizmə qarşı mübarizə sahəsində də ciddi əməkdaşlıq münasibətləri qurulub [8, 53-54].

Milli hökumətlər və ya müəyyən iddialı siyasi cərəyanlar tərəfindən etnik problemlərdən bir alət kimi istifadə, xarici dövlətlərin etnik ixtilaflardan və mübahisələrdən öz maraqları naminə yararlanması və regionda münaqişə həlli mədəniyyətinin çatışmazlığı Qafqazda təhlükəsizlik məsələlərinin həll edilməsini əngəlləyən amillərdir. Çeçenistan, Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya kimi ciddi regional böhranların həll olunmamış qalması onu göstərir ki, vəziyyətdə müsbətə doğru əhəmiyyətli dəyişiklik rəqib etnik qrupların ümumi mədəni, siyasi və sosial anlaşmaya nail olmasından asılıdır, bu isə ləng və vaxt aparan bir prosesdir [7,314].

c) İqtisadi yanaşma. Təhlükəsizlik məsələsi bəzi tədqiqatçılar tərəfindən iqtisadi amillərə nəzərən də təhlil edilir. Qafqazdakı təhlükəsizlik vəziyyətinə iqtisadi yanaşmanın tətbiq edilməsi neft və enerji məsələləri ətrafında dövr edir, çünki bunlar təhlükəsizliyə təsir edən vacib amillərdir. Regionda təhlükəsizliyin yaradılmasında enerjinin roluna gəldikdə isə belə bir fikir irəli sürmək olar ki, neft ehtiyatlarının istismarı təhlükəsizliyi zəruriləşdirir. Başqa sözlə desək, regionda təhlükəsizlik nə qədər çoxdursa, investisiyaların qoyuluşu imkanları da bir o qədər əlverişlidir. Regiondakı neft ehtiyatlarının istismarı nəticəsində xarici dövlətlər arasında rəqabət yüksəlir. İqtisadi yanaşmaya əsasən gəlirlərin daha da bərabər bölüşdürülməsi və toplanmış gəlirlərin regionun iqtisadi, sosial inkişafı üçün istifadə edilməsi regionda təhlükəsizliyin möhkəmləndirilməsinə imkan yaradır.

İqtisadi inkişaf və təhlükəsizliyin təkmilləşdirilməsi arasında qarşılıqlı əlaqə mövcuddur. İqtisadi rifahın artması təhlükəsizliyin yaxşılaşdırılmasına yardım etdiyi kimi, daha yaxşı təhlükəsizlik vəziyyəti də iqtisadi artıma və inkişafa öz töhfəsini verir. Cənubi Qafqazın üç ölkəsi arasında yalnız Azərbaycan öz enerji sərvətlərinin hesabına xarici investisiyaları cəlb edə və öz iqtisadi inkişafı üçün əhəmiyyətli maliyyə vəsaiti toplaya bilər. Ermənistan və Gürcüstan bu baxımdan daha zəif mövqedədirlər. Bu ölkələrdə infrastrukturun daha az inkişaf etməsi də onların iqtisadi zəifliyinin bir səbəbidir. Eyni zamanda, xarici investisiyalar, xüsusilə də transmilli şirkətlər tərəfindən qoyulan sərmayələr ölkədə iqtisadi və sosial uçurumların dərinləşməsinə də gətirib çıxara bilər [1, 389].

Nəticə. İnsanların həyat təhlükəsizliyinin təminatı bütün zamanlarda onun həyat təşkilatının ümdə vəzifələrindən biri olub. Tədqiqatlar göstərir ki, bu tələbat ilkin olaraq, yer üzündə bütün canlılara xasdır. Bununla belə, heyvanlardan fərqli olaraq insanda bu hissiyat təkcə özünüqoruma instinkti ilə məhdudlaşmır. Bu, ümumilikdə cəmiyyətin və sivilizasiyanın təhlükəsizliyinin qorunub saxlanması arzusu ilə də bağlıdır.

XXI əsrdə enerji çatışmazlığı, ərzaq qıtlığı, balansın pozulması və əhali artımı ilə bağlı problemlər çox ciddi təhlükələrin yaranmasına səbəb ola bilər ki, bu vəziyyət istisnasız olaraq bütün ölkə-

lərə, o cümlədən Qafqaz ölkələrinə ciddi təhlükələr vəd edir. Deməli, Azərbaycan cəmiyyəti üçün də eyni nəticələr gözlənilir. Başqa sözlə desək, Qafqazda təhlükəsizlik məsələləri dünya miqyasında mövcud olan bu problemlərlə birbaşa əlaqəlidir. Odur ki, Azərbaycanın geniş mənada təhlükəsizliyi bu problemlərin həllindən və qlobal təhlükələrin qarşısının alınmasından keçir.

Bütün bunlar beynəlxalq əməkdaşlığın mövcud mexanizmlərinin təkmilləşdirilməsini və yenilərinin yaradılmasını, bu prosesin daha da gücləndirilməsini zəruri edir. Diqqət ilk növbədə terrorizmlə mübarizədə universal institusional və hüquqi əsasların formalaşdırılmasına, "terrorizm", "təcavüzkar separatizm", "dini ekstremizm" və digər anlayışların hüquqi tərifləri kimi işlənib hazırlanmasına və onların hər bir dövlət tərəfindən qəbul edilməsinə yönəlməlidir. Qafqaz ölkələri də bütün bu istiqamətlər üzrə əməkdaşlığa hazırdır.

ƏDƏBİYYAT

1. Abbas Piriyev. Siyasi strategiya və milli təhlükəsizlik. Bakı, BDU nəşriyyatı, 2005, 530 s.
2. Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, "Nurlar" nəşriyyat-Poliqrafiya Mərkəzi, 2011, 584 s.
3. Cem Başar. Terror dosyası ve Yunanistan. İNAF-Eylul, 1995, 192 s.
4. Əli Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 631 s.
5. Əli Həsənov. Azərbaycana qarşı erməni təcavüzü və xarici havadarlıq. Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2004, 214 s.
6. Hadi Rəcəbli. BMT-nin ixtisaslaşmış qurumları. Bakı, Azərbaycan, 1997, 80 s.
7. Ирада Гусейнова. История народов Кавказа. Баку, Тахсил, 2006, 604 s.
8. İradə Hüseynova. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.
9. Reha Yılmaz. Türkiye-Gürcistan ilişkileri üzerine. Bilgesam Strateji Bülteni, 2011. - http://www.bilgesam.org/incele/173/- turkiye-gurcistan-iliskileri-uzerine/# [Müraciət tarixi: 15.02.2022].

НАРМИН КЕРИМОВА
Бакинский Государственный Университет

ПРОБЛЕМЫ БЕЗОПАСНОСТИ В КАВКАЗСКОМ РЕГИОНЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ

Безопасность человека лежит в основе построения отношений в обществе, государстве, армии, экономике, обществе, информационной и национальной безопасности, в других областях безопасности, потому что все эти «безопасности» должны в конечном итоге отвечать за безопасность личности. Следует отметить, что в последнее столетие расширение отношений между странами мира и «сжатие» Земли в политическом смысле привели ко многим глобальным проблемам, которые естественным образом привели к проблемам локальным и региональным.

Ключевые слова: Кавказ, безопасность, Азербайджан, Грузия, терроризм.

NARMIN KARIMOVA
Baku State University

SECURITY PROBLEMS OF THE CAUCASUS REGIONS IN MODERN TIMES

Human security is the basis for building relationships in society, the state, the military, the economy, information and national security in other areas of security, because all of these "security" must ultimately be responsible for the security of the individual**.** It should be noted that in the last century, the expansion of relations between the countries of the world and the "shrinking" of the

Earth in the political sense have led to the emergence of many global problems, which And this naturally caused local and regional problems.

Keywords: Caucasus, security, Azerbaijan, Georgia, terrorism.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Aynur Hüseynova, t.e.d. Sevinc Yusifzadə.

UOT 94; UOT 94”19/...”

FATMA BETÜL AYDEMİR BAŞ
Bakı Dövlət Üniversiteti, Tarix Fakültesi,
Türk xalqları tarixi kafedrasının doktorantı
betul270@hotmail.com

ŞEYDA ÇEVİKEL
Hazar Üniversitesi, Uluslararası İlişkiler Bölümü, doktorant
seydacevikel@gmail.com

BAĞIMSIZLIK YOLUNDA AZERBAYCAN VE ORTA ASYA'DAKİ KİTLESEL HAREKETLER

SSCB yarım yüzyıldan fazla bir süre Kafkasya, Orta Asya ve Doğu Avrupa'da hakimiyetini sürdürmüştür. 1985'te Gorbaçov'un yönetime gelmesinin ardından uygulamaya karar verdiği yeni reformlar SSCB'nin çöküşünü hızlandırmıştır. Kafkasya'da ve Orta Asya da bu reformlar neticesinde problemler ortaya çıkmıştır. Kafkasya'da Dağlık Karabağ Özerk Bölgesinde hakimiyeti ele almak isteyen Ermenistan harekete geçmiştir. Önce kendi lehine kamuoyu oluşturmak için yaptıkları açıklamalar sonrasında ise düzenlediği saldırılar neticesinde bölgede Azerbaycan ve Ermenistan arasında çatışmalar başlamıştır. Bu durumu protesto etmek amacıyla ilk olarak 1988'de devamında Ocak 1990'da Azerbaycan halkı Bakü'deki Azatlık meydanında toplanarak protestolar düzenlemiştir. Orta Asya'da da aynı şekilde ilk olarak 1986 yılında Kazakistan yönetimine Rus asıllı Kolbin'in getirilmesi üzerine Alma-Ata'da protestolar düzenlenmiş ve kanlı bir şekilde bastırılmış, ardından 1989 yılında Fergana'da Özbekler ve Ahıska Türkleri arasında çatışmalar yaşanmış ve Ahıska Türkleri ikinci kez göç etmek zorunda kalmışlardır. Çok geçmeden 1990 yılında Oş'ta Özbekler ve Kırgızlar arasında meydana gelen çatışmalarda yüzlerce insan yaralanmış ve ölmüştür. Çalışmada bu kitlesel hareketlerin ve çatışmaların hangi sebeplerden gerçekleştiğine ve neticesinde neler olduğu tartışılacaktır.

Anahtar kelimeler: Azerbaycanda 1988 mitingi, 20 Ocak (Kara Yanvar) hadisesi, Alma-Ata hadisesi (Jeltoksan), Fergana olayları, Oş olayları (1990).

Giriş. 1917 yılında I. Dünya Savaşı esnasında Rusya'da gerçekleşen devrimlerin (Şubat ve Ekim) ardından Lenin önderliğinde Bolşevikler hakimiyeti ele geçirmiştir. Ancak hakimiyet çekişmesi kısa sürede iç savaşa dönüşerek 1922 yılına kadar devam etmiş, ardından 1922 yılında Bolşevik yönetimin hakimiyeti tamamen ele almasıyla birlikte Sovyet Sosyalist Cumhuriyetler Birliği kurulmuştur. SSCB dünyada kurulan ilk sosyalist devlet olması hasebiyle önem arz etmektedir. 1991 yılına kadar yaklaşık olarak 70 yıl yaşayan SSCB, iki kutuplu dünyada kapitalizme karşı sosyalizmin temsilcisi konumunda olmuştur. SSCB yönetimi altında bulunan 15 devlet, sistem içerisindeki baskılar ve ekonomik çöküş neticesinde 1991'de Sovyetler Birliği'nden ayrılmış ve bağımsızlıklarını ilan etmişlerdir.

1985'te Sovyetler Birliği Komünist Partisi Genel Sekreterliği koltuğuna oturan Mihail Gorbaçov, Glastnost (açıklık) ve Perestroyka (yeniden yapılanma) politikaları ile yeni reform girişiminde bulunmuş ancak çok geçmeden bu durum SSCB'nin daha kısa sürede çöküşüne sebep olmuştur. Bu politikaların etkisiyle birlikte Azerbaycan'a bağlı olan Dağlık Karabağ bölgesinde hâkim olmak isteyen Ermeniler bu amaçları doğrultusunda kendilerine bir kamuoyu oluşturmak için uluslararası arenada girişimlerde bulunmaya başlamışlar, yurtdışında Ermeni lobileri kamuoyu oluşturma gayreti içerisine girmişler, hatta daha da ileri giderek Ermeniler bölgede silahlı saldırılara başlayarak Azerbaycanlıların göç etmesine sebep olmuşlardır.

Orta Asya da ise ilk olarak rahatsızlık 1986 yılının Aralık ayında Kazakistan Alma-Ata'da ortaya çıkmıştır. Jektoksan adı ile de bilinen bu olayda Kazakistan yönetimine Rus asıllı bir yöneticinin geçmesini protesto eden öğrencilerle başlayan protestolar kanlı bir şekilde bastırılmıştır. Diğer taraftan 1944'te kendi yaşadıkları topraklardan Stalin'in emri ile Özbekistan'a sürülen Ahıska Türkleri, 1989 yılında Özbekistan'da Özbekler ile yaşanan çatışmalardan sonra ikinci defa farklı ülkelere göç etmek zorunda kalmışlardır. Fergana olayları olarak adlandırılan bu olayların nedenleri günümüzde

de hala tam olarak açıklığa kavuşturulamamıştır. Kısa süre sonra 1990 yılında Kırgızlar ve Özbekler arasında Oş'ta yaşanan karışıklık aslında bölgede birçok sorun olduğunu ortaya koymaktadır.

Bağımsızlığa doğru Azerbaycan'daki kitlesel hareketler. SSCB yönetimi ilk kurulduğu yıllarda hakimiyeti altındaki özerk cumhuriyetlerde net olmayan sınırları kendisi belirlemiş ve çizdiği sınırlar 1936 yılında son halini almıştır. Ancak çizilen bu sınırlarda hep sorunlu bölgeler oluşturmayı ihmal etmemiş ve böylece herhangi bir problem durumunda kendisinin bölgede söz sahibi olmasını sağlamıştır. Kafkasya'da da aynı politikayı izlenmiştir. Dağlık Karabağ bölgesi SSCB kurulduktan sonra özerk bir yönetime tabi tutularak Azerbaycan Sovyet Sosyalist Cumhuriyetine bağlanmıştır (1923) [10, 181].

1936'da yeni anayasanın kabulü ile Güney Kafkasya Sovyet Sosyalist Federasyonu lağvedilmiş ve üç Sovyet ülkesi kurulmuştur (Azerbaycan, Gürcistan ve Ermenistan). Ermeniler dönem dönem Dağlık Karabağ'ın Ermenistan'a bağlanması isteklerini Moskova yönetimine sunmuşlar ama olumlu bir cevap alamamışlardır. Dağlık Karabağ noktasında istediklerini elde edemeseler de 1947'de Ermenistan, *Anavatana dönüş* projesi adı altında yurtdışında yaşayan Ermenilerin Ermenistan'a döneceğini söyleyerek SSCB bakanlar kurulunun aldığı 23 Aralık 1947 tarihli 4083 no'lu ve 10 Mart 1948 tarihli 754 no'lu iki karar ile Ermenistan'da yaşayan Azerbaycanlıların Azerbaycan SSC'ye göç ettirilmesine karar vermiştir [1, 395].

1965 yılına gelindiğinde sözde Ermeni soykırımının 50.Yılı münasebetiyle Ermeniler Erivan'da büyük çapta Türkiye ve Azerbaycan karşıtı gösteriler düzenlemişlerdir [4, 3]. Sonraki dönemde ise istekleri Haydar Aliyev'in Moskova ile yakın ilişkisinden dolayı sonuçsuz kalmıştır [8, 184]. 1975'te Ermeniler Dağlık Karabağ'ın Ermenistan'a bağlanması konusunu tekrar gündeme getirip Moskova'ya başvurmuşlar lakin Komünist Partisi Bölge Komitesi reddetmiştir [11, 124].

1985'te Gorbaçov'un yönetime gelmesiyle birlikte Ermeniler bu isteklerini tekrar yoğun bir biçimde gündeme getirmeye başlamışlardır. 1985' te Fransa'da gerçekleştirilen Ermeni kongresinde alınan karar neticesinde Dağlık Karabağ'ın Ermenistan'a ait olduğunu iddia etmişler ve daha önceki gibi yurtdışındaki Ermeni lobileri kendine taraftar toplamak için siyasi propagandalar yapmaya devam etmiştir [11, 164]. Özellikle Gorbaçov reformlarının etkisiyle bu isteklerini daha yüksek sesle dile getirmeye başlamışlardır.

1988 mitingi ve Azatlık (Azadlıq) meydanı. 80'li yılların ortalarından itibaren, Ermeni çevrelerinin Türk karşıtı kampanyaları ve Dağlık Karabağ ile ilgili isteklerini somut bir şekilde ortaya koyarak bunu kendilerine hak görmeleri neticesinde 1987'de Gorbaçov'un Ekonomi danışmanı olan Ermeni asıllı Abel Aganbenyan'ın Paris'te Humanite dergisine verdiği röportajda Dağlık Karabağ'ın Ermenistan ile birleştirilmesi meselesini Gorbaçov ile görüştüğünü ve Gorbaçov'unda bunu onayladığını söylediği yönündeki demeçleri ortalığın iyice karışmasına sebep olmuştur [5, 376]. Ayrıca yerli ve yabancı basının da bu süreci yakından takip etmesi olayları daha da kızıştırmış, Ermeni diasporası ve Ermeni kilisesinin de bu açıklamaya destek vermesi neticesinde Ermenistan'da yaşayan Azerbaycanlılar (yaklaşık olarak 7 bin Azerbaycanlı) yaşadıkları yerlerden zorunlu göçe maruz kalmıştır.

28-29 Şubat 1988'de Sumgait'te karışıklıklar meydana gelmiştir. Günümüzde *Sumgait hadiseleri* olarak bilinen olayda 32 insan hayatını kaybetmiştir, bunlardan 26'sı Ermeni, 6'sı Azerbaycanlı'dır. Bu olayın sebebi Ermenistan'daki Ermenilerin Azerbaycanlılara saldırıları ile ilgili gelen haberlerdi. Sumgait olaylarından önce şubat ayının 20'sinde Dağlık Karabağ Özerk Yönetiminde olan Ermeni milletvekilleri Dağlık Karabağ'ın Azerbaycan'dan ayrılarak Ermenistan'a bağlanması yönündeki isteklerini öne sürmeleri ve Eskeran (Asgaran)'da iki Azerbaycanlı'nın öldürülmesi de olayları tetiklemiştir. Bakü'den sonra en büyük sanayi şehri olan Sumgait'ın nüfusu 1960'lı yıllarda 60.000 iken 1980'e gelindiğinde 223.000 kişiye ulaşmıştır. [12,35] Olaylar başlamadan önce Ermeni provokatörlerin şehre geldiği tespit edilmiş (olayın birkaç saat öncesinde Ermeni basınının şehre gizlice girmesinin sağlanması ve tüm olayların videoya çekilip yurt dışındaki Ermeni cemaatlerin bulunduğu yerlere gönderilmesi, yurtdışında bu videoları yayınlayarak Azerbaycan'da yaşayan Ermenilerin saldırılara maruz kaldığının iddia edilmesi, Sumgait'ta yaşayan Ermenilerin banka kasalarından 2 milyondan fazla para çıkarması) lakin olaylar her ne kadar araştırılsa ve soruşturmanın devam ettiği beyan edilse de günümüze kadar bir netice ile sonuçlanmamıştır [10, 52-53]. Bu olaydan

sonra Ermenistan'da yaşayan Azerbaycanlılar üzerlerinde artan baskıdan dolayı Azerbaycan'a göç etmeye devam etmişlerdir.

Dağlık Karabağ'da yaşayan Azerbaycanlılara saldırılar devam etmiş ve 18 Eylül'de Ermenistan'dan gelen Ermeni milliyetçileri Hankendi'nde yaşayan Azerbaycanlılara saldırmışlar, evlerini yakıp yıkmışlardır (Xankəndi talanları). Aynı yıl Dağlık Karabağ bölgesinde bulunan Şuşa şehrine yakın bir yerde olan Tophane Ormanı (Topxana meşəsi)'nında bulunan yüzlerce yıllık ağaçların Ermeniler tarafından kesilip Ermenistan'a taşınması yeni bir gerginliğin fitilini ateşlemiştir. Hem Ermenilerin Dağlık Karabağ'ın Ermenistan'a verilmesi isteğini hem de Tophane Ormanındaki ağaçların kesilmesini protesto etmek amacıyla insanlar 17 Kasım 1988'de Bakü'deki Lenin (bu mitingden sonra halk arasında Azatlık (Azadlıq) meydanı olarak adlandırılmaya başlanmıştır.) meydanında toplanmıştır. Bu protestolar yaklaşık olarak 18 gün sürmüştür [13]. İnsanlar çadırlar kurarak uzun süre meydanı terk etmemişlerdir. Aralık ayının 5'ine kadar bu mitingler devam etmiştir. 5 Aralık 1988'de Sovyet yönetiminin sıkı yönetim ilan edip, meydandan insanları zorla dağıtmasıyla bu miting sona ermiştir.

20 Ocak (Kara Yanvar). 1988 yılında gerçekleşen miting ile Azerbaycanlılar, Ermenilerin Dağlık Karabağ'ı ele geçirmeye uğraşlarına karşı koymaya çalışmışlar ancak Dağlık Karabağ bölgesi ve çevresinde çatışmalar devam etmiştir. Ermenistan'ın Dağlık Karabağ'ın kendisine bağlanması isteği Moskova tarafından reddedilmiş ancak Dağlık Karabağ Özerk Bölgesinin yönetilmesi de Azerbaycan'dan alınıp direk olarak Özel Karabağ Komitesine bağlı olarak Moskova'ya verilmiştir. (12 Ocak 1989) [4, 69]. Bu süreçte alınan her karar bölgede çatışmaların sona ermesini sağlayamamış aksine daha da artmasına neden olmuştur. 2 Ocak 1990'da Hankendi'nde olayların çığırından çıkmasıyla Sovyet Hükümeti bölgedeki çatışmalara müdahale etmek kararı almıştır. İlk olarak Sovyet yönetimi 4 Ocak'ta Azerbaycan sınırını dışarıdan basın mensuplarının girişine kapatmış sonra 9 Ocak'ta Ermenistan Karabağ bölgesini "ekonomik plan" içerisine aldığını ilan etmiş fakat Sovyet yönetimi Ermenistan'ın bu kararını geçersiz saymıştır. Bu olaylar neticesinde 13 Ocak'tan itibaren Azerbaycanlılar Bakü'de mitinglere başlamışlardır. Özellikle Azadlık meydanı yeniden kalabalıkların toplandığı büyük bir miting alanı haline gelmiştir. Diğer taraftan Azerbaycan'da yaşayan Ermeniler ve Azerbaycanlılar arasındaki gerginlikler de had safhaya ulaşmış ve karşılıklı saldırılar gitgide artmış durumdayken Moskova yönetimi bu olaylara müdahale etmek amacıyla Sovyet ordusunu 17 Ocak'tan itibaren Bakü'ye sevk etmeye başlamıştır. 19 Ocak tarihine gelindiğinde şehirdeki asker sayısı 24.000'i bulmuştur. 19 Ocak'ı 20 Ocak'a bağlayan gece ilk önce iletişim kanalları kesilmiş ardından Olağanüstü Hal ilan edilerek halkın sokağa çıkışı yasaklanmış ancak tüm iletişim hatlarını patlattıkları için halkın bu durumdan haberi olmamıştır. Sovyet ordusu tanklarla şehre girmiş, tankları engellemek isteyen insanları öldürerek şehir merkezine ilerlemiştir. Bu katliamda 130'u aşkın insan ölmüş ve 700'den fazla insan yaralanmıştır. Bu yaşananların ardından hayatını kaybedenler için Azadlık meydanında toplanıp anma töreni düzenlenmiş ardından cenazeler Dağüstü Park (Şəhidlər Xiyabanı)'a defnedilmiştir. Azadlık meydanı hem 20 Yanvar olaylarından önce hem de sonrasında Azerbaycanlıların toplandığı, bağımsızlık yolunda ilk mitinglerini yaptıkları, olaylar sonrasında acılarını paylaştıkları bir mekân olmuştur.

Orta Asya'daki kitlesel hareketler. Sovyetler Birliği kurulduktan kısa bir süre sonra Türkistan'da bulunan hanlıkları lağvetmiş ve 1924'ten sonra Stalin'in emri ile Orta Asya Türk Cumhuriyetleri yeniden şekillendirilmiştir. Üç cumhuriyet (Türkistan Özerk Cumhuriyeti, Buhara ve Harezm Halk Cumhuriyetleri) ortadan kaldırılmış, bölge etnik temellere göre yeniden düzenlenerek Özbekistan ve Türkmenistan Cumhuriyetleri ile Özbekistan'a bağlı Tacikistan Özerk Cumhuriyeti kurulmuştur. Bunun yanında, Rusya'ya bağlı Kırgızistan (aslında Kazakistan), ve Kara-Kırgızistan Özerk Cumhuriyetleri ile Karakalpakistan Özerk Bölgesi yaratılmıştır. Bu bölünmeler zaman içerisinde değişerek 1936 yılında son halini almış ve Kazakistan, Kırgızistan, Türkmenistan, Özbekistan ve Tacikistan Sovyet Sosyalist Özerk Cumhuriyetleri olarak kurulmuş, Karakalpakistan ise Özbekistan'a bağlanmıştır. Ardından başlayan Sovyetleştirme siyaseti ve baskı neticesinde Gorbaçov dönemine kadar bu baskıcı yönetim devam etmiştir. Gorbaçov'un reformlarının ardından hem baskıya karşı hem de kendilerine yapılan haksızlara karşı düşüncelerini dile getirmek için ilk olarak 1986'da Kazakistan'da protestolar düzenlenmiştir.

Orta Asya'daki ilk kitlesel olay 1986 yılında gerçekleşen *Alma-Ata (Jeltoksan)* hadisesidir. 1964'ten itibaren Kazakistan yönetiminde olan Kazak asıllı Dinmuhammet Kunayev'in yerine Rus asıllı olan Gennadi Kolbin'in atanması üzerine Kazak üniversite öğrencileri ilk olarak Alma-Ata şehir meydanında toplanıp durumu protesto etmeye başlamışlardır. Ardından olaylar kısa sürede farklı şehirlere de yayılmıştır. Öğrencilerin ardından halkın da katıldığı bu protestolar iki gün gibi kısa sürede çok büyük grupların toplanıp itirazlarını dile getirdiği bir büyüklüğe ulaşmış ancak bu protestolar Sovyet yönetimin emri ile kanlı bir şekilde bastırılmıştır. Alma-Ata'da meydana gelen bu hadiseleri Sovyet basın ajansı olan TASS; üniversite gençleri arasında yaşanan ufak bir gerginlik olarak lanse etse de, kısa süre sonra olayların asıl nedeni dünya basınına ait farklı muhabirlerin haber yapmasıyla birlikte ortaya çıkmıştır. Kazakistan'ı bir Kazak'ın yönetmesini isteyen gençlerin düzenledikleri bu protestolarının tek sebebi sadece Kazak bir yönetici tarafından yönetilme isteği değildi. Bu durum bir nevi bardağı taşıran son damlaydı. Kazakistan topraklarına Slav asıllıların yerleştirilmesi neticesinde Kazakların kendi topraklarında nüfuslarının gitgide azalması, Kazakistan topraklarının nükleer deneme poligonu olarak kullanılması, ekolojik dengenin bozulması görünen dağın ardındaki sorunlardan birkaçıydı [6, 422].

Fergana olayları. Sovyetler Birliği 1924-1929 arasında Orta Asya'da 5 cumhuriyetin sınırlarını çizmiştir. Etnik grupların yaşadığı bölgeler göz önüne alındığında bu sınırların, bölgede yaşayan halklara göre çizilmediğini, yani bir nevi yapay sınırların oluşturulduğunu zaman içerisinde ortaya çıkan sorunlar göz önüne sermiştir. 1989 yılında meydana gelen Fergana Olayları da bunun bir göstergesidir.

1944 yılında Stalin'in onayladığı karar ile kendi toprakları olan Gürcistan'dan sürülen Ahıska Türkleri; Kazakistan, Kırgızistan ve Özbekistan toprakları içerisinde birçok farklı bölge ile birlikte Fergana vadisine de yerleştirilmişlerdi. Yerleştirildikleri bu topraklar da birçok zorluklarla karşılaşmalarına rağmen bir şekilde uyum sağlamaya çalışmışlardır. Stalin öldükten sonra anavatanlarına dönmek için birçok başvuru yapsalar da buna izin verilmemiştir.1989 yılına gelindiğinde ise zorunlu göçe maruz kalan Ahıska Türklerinin sayısı 106 bine ulaşmıştı. 16 binden fazla Ahıska Türk'ü de Fergana vilayetinde yaşamaktaydı. 1989 yılına gelindiğinde bahar aylarından itibaren Özbekler ve Ahıska Türkleri arasında gerginlik başlamıştı. İlk olarak Mayıs ayının 23-24'ünde Fergana bölgesinin kuzeybatısında yer alan Kuvasay şehrinde Özbek ve Ahıskalı gençler arasında çatışma yaşanmış ve 1 kişi ölmüş, 53 kişi de yaralanmıştır. Bu olay üzerine soruşturma başlatılmış, ardından olaylar sakinlemiş gibi görünse Haziran ayının 1-5'i arası olaylar büyümüştür [3, 1178]. Ahıska Türklerinin, Özbeklere eziyet ettikleri, Özbeklerle alay ettikleri, Özbek kadınlarına tecavüz ettikleri şeklindeki dedikoduların bilinçli bir şekilde yayılmasıyla birbirlerine karşı kışkırtılmış ve ardından Özbekler ve içlerinde bir kısım da Tacik olmakla beraber Ahıska Türklerinin evleri kırmızı renkte işaretler konularak hedef noktası haline getirilmiştir. Bu haberler özellikle gençler üzerinde etkili olmuş ve gençler Ahıska Türklerine saldırmışlardır. Bu olayların neticesinde birçok insan ölmüş ve yaralanmıştır. Yaklaşık olarak 45 yıl yaşadıkları bu topraklardan ikinci kez göç etmek zorunda kalan Ahıskalılar birçok zorlukla karşı karşıya kalmışlardır [8, 35; 14; 15]. Ahıska Türklerinin en fazla göç ettiği ülke Azerbaycan olmuştur. Göçler sonucunda bugün Azerbaycan'da 135.000, Kazakistan'da 105.000, Kırgısiztan'da 35.000, Rusya'da 65.000 (çoğunlukla Krasnodar, Stavropol ve Rostov bölgeleri), Ukrayna'da ise 6000 kadar Ahıska Türkü bulunduğu tahmin edilmektedir [14; 15]. Fergana hadiselerinin birçok sebebi olmakla birlikte Özbekistan'da o dönem "Özbekistan Özbeklerindir" sloganıyla dile getirilen zihniyetin etkisi de büyüktür. Bazı araştırmacılar bu durumun Özbekistan'ı Özbekleştirme düşüncesi ile ilgili olabileceğini ileri sürmüşlerdir [15].

1990 Oş olayları. Gorbaçov'un reformlarının bir sonucu olarak tüm cumhuriyetlerde hareketlenmeler başlamıştı. Fergana'da yaşanan olayların üzerinden çok geçmeden Kırgızistan yönetimi altında bulunan Oş şehrinde de karışıklık çıkmıştır. O dönem Oş şehrinde nüfusun %60'ını Kırgızlar, %26'sını Özbekler, %6'sını ise Ruslar oluşmaktaydı. Kalan %8'lik kesim ise Tacikler, Tatarlar, Ukraynalılar v.b. etnik gruplardan oluşturmaktaydı. Özbekler daha çok şehirlerde ticaret ile uğraşmaktaydı. Kırgızlar da daha ziyade kırsalda tarım ve hayvancılık ile meşgullerdi. Zamanla kırsalda yaşayan Kırgızlar şehre gelerek açılan sanayi tesislerinde çalışmaya başladılar. Ancak bu göçlerin neticesinde şehre gelen Kırgızlar konut sıkıntısı yaşamakta fakat şehirde yeterli derecede konut bulunma-

maktaydı. Ayrıca Gorbaçov reformları da Kırgızları tarım ve hayvancılıkla ilgilendikleri için olumsuz anlamda etkilemiş ve gelirleri iyice düşmüştü. Şehre gelen gençler bu durumlardan dolayı politize olmuşlar ve son olarak Özbeklerin evinde kiracı olarak yaşayan 700 Kırgız'ın yaşadıkları evlerden çıkarılması ise gerginliği had safhaya çıkarmıştır. Bu olayın ardından Oş'un bir kesiminde Özbekler ve Kırgızlar karşı karşıya gelmişlerdir (4 Haziran 1990). Ardından yöneticiler tarafından Özbeklerin yaşadıkları bölgede, Kırgızlara ev yapılması için yer tahsis edilmesi de ayrıca problem olmuştur. Gerginlik kısa süre içerisinde Özbekler ve Kırgızlar arasında çatışmalara dönüşmüştür. Rakamlar net olarak bilinmese de 300'den fazla ölü yüzlerce de yaralanan olduğu bilinmektedir [2, 57]. Olayların ardından Sovyet hükümeti tarafından soruşturma açılmış ve Kırgızistan bağımsız olduktan sonra hüküm giyip hapis cezasına çarptırılan Kırgızlar olmuştur [15].

Sonuç. 1985 yılında Gorbaçov'un yönetime geldikten sonra açıkladığı ve uygulamaya koyduğu yeni reformlar neticesinde basın üzerindeki sansür azalmış, buna müteakip Ermeniler de Dağlık Karabağ üzerindeki iddialarını daha yüksek sesle dillendirmeye, uluslararası kamuoyunda bu minvalde açıklamalar yapmaya ve Ermenistan'da yaşayan Azerbaycanlılara baskı uygulamaya başlamışlardır. Bu baskı ve saldırılar neticesinde Ermenistan'da ve Dağlık Karabağ'da yaşayan Azerbaycanlılar, Azerbaycan'a göç etmek zorunda kalmışlardır. 1988 yılında art arda yaşanan Sumgait hadisesi, Hankendi olayları ve Tophane Ormanlarındaki ağaçların kesilmesi ve Ermenistan'a taşınması süreci Azerbaycan'da büyük yankı uyandırmıştır. 1988 yılı sonunda Azatlık meydanında toplanan ve Ermenistan'ı protesto eden Azerbaycanlılar aynı zamanda Moskova yönetimini de protesto etmişlerdir. Mitingin başlangıç tarihi olan 17 Kasım tarihi günümüzde Azerbaycan'da Milli Diriliş günü olarak kutlanmaktadır. Bu durum Azerbaycanlıların haklarını korumak ve baskıya karşı koymak amacıyla yaptığı ilk miting olması açısından da önem arz etmektedir. Azerbaycan ve Ermenistan arasındaki çatışmalar zaman zaman durulsa da 1990 yılına kadar devam etmiş ve 20 Ocak faciası Azerbaycan tarihinde dönüm noktası olmuştur. Bu hadiseden sonra Azerbaycan bağımsızlık yolunda daha somut adımlar atmaya başlamış, 18 Ekim 1991'de bağımsızlığını ilan etmiştir.

Orta Asya'da ise 1986 yılında yaşanan Alma-Ata hadiseleri Kazakistan'daki toplumsal rahatsızlığı ortaya koymak adına önemli bir kitlesel harekettir. Kazakların kendilerinden olan bir yönetici talebiyle başlattığı protestoların arka planında; aslında uzun süreli baskı, Kazakistan topraklarının nükleer deneyler için kullanılması, bölgenin tarımsal açıdan verimsiz hale getirilmesi gibi birçok neden vardır. 1989 ve 1990 yıllarında Fergana Vadisi olayları ve ardından Oş'ta yaşanan çatışmalar bölgede yapay sınırlar altında yaşayan farklı cumhuriyetlere mensup gruplar arasındaki huzursuzluğu göstermektedir. Yine aynı şekilde bu protestolar baskı altında yaşayan ve kaynakları sömürülen halkın Sovyet yönetimine karşı bir itirazıdır. Fergana ve Oş hadiselerinin nedenleri günümüze kadar resmi olarak açığa kavuşturulamasa da hadiselerin kökeninde; siyasi, ekonomik ve kültürel açılardan birçok neden bulunmaktadır. Sovyet sisteminin çöküşe geçmesi neticesinde ekonomik yetersizlik her bölgeye olduğu gibi Orta Asya'ya da tesir etmiştir. Çöküş döneminin getirdiği azalan kaynaklar ve bu kaynakların nasıl dağıtılacağı, kimlerin hangi kaynaklardan ne ölçüde yararlanacağı yönündeki yaklaşımlar bölgede yaşayan ve sınırları Sovyetler tarafından sorunlu biçimde çizilen halklar arasında gerginliğe ve çatışmalara neden olmuştur. Yaşanan tüm bu hadiseler kısa bir süre sonra Sovyetler Birliğinin dağılmasını; Kafkasya ve Orta Asya'da devletlerin bağımsızlıklarına kavuşmasını sağlamıştır.

KAYNAKÇA

1. Bayramov, A., Edi, A. Ermenistan Devleti'nin Kurulması ve Bölgeden Azerbaycan Türklerinin Zorunlu Göç Ettirilmesi (1906-1953), ADAM Akademi Sosyal Bilimler Dergisi, C.10, sayı 2, 2020, s.377-398.
2. Derviş, L., Devrisheva, K. Sovyet Sosyalist Cumhuriyeti Dönemi Kırgız Tarihine Bir Bakış, Türk Dünyası Araştırmaları, C. 111, sayı 219, 2015, s. 49-66.
3. Devrisheva, K. Türk ve Rus Kaynakları Işığında 1989 Fergana Olayları, Belgi Dergisi, C.2, Sayı 17, 2019, s.1170-1187.
4. Ekici, Y. Azerbaycan ve Ermenistan Arasında Bitmeyen Dağlık Karabağ Sorunu, Vakanüvis-Uluslararası Tarih Araştırmaları Dergisi, C.1, sayı 2, 2017, s.62-77.

5. Qasımlı, M. SSCB-Türkiye ilişkileri Türkiye'de 1980 darbesinden SSCB'nin dağılmasına kadar, İstanbul, Kaknüs Yayınları, 2012, 376s.
6.Kara, F. Alma Ata'da 1986 Olayları:Jeltoksan, Turkish Studies, C.7, sayı 4, 2012, s. 417-426.
7. Məmmədli, N. Mərkəzi Asiyanın Türk dövlətləri və Türkiyə, Bakı, Adiloğlu, 2005, 233 s.
8. Neciyev, E. Azerbaycan'ın Sovyetleştirilmesi sürecinde Karabağ Problemi, Ermeni Araştırmaları, sayı 3, 2011, s.163-186.
9. Sarı, M. Terörden Siyasete Dünya Ermeni Kongreleri (1979-1985), Akademik Bakış, C.8, sayı 16, 2015, s.147-170.
10. Sarıahmetoğlu, N. Karabağ, İstanbul, IQ Kültür ve Yayıncılık, 2011, 336 s.
11. Taşkıran, C. Ermeni- Azeri Çatışması, Avrasya Dosyası Dergisi, C.2, sayı 4, 1996, s.121-128.
12. Tuncerli, Ö. Dağlık Karabağ Sorunu Kapsamında 1988 Sumgayıt Olayları, Ulisa: Uluslararası Çalışmalar Dergisi, C.3, sayı 2, s.132-144.
13. Yerfi, Rövşən. 17 Noyabr 1988 – Unudulmaz gün və gecə (sənədli xatirə) / İnternet Archive, 07.11.2010. -
https://web.archive.org/web/20130726172629/http://rovshenyerfi.wordpress.com/2010/11/07/17-noyabr-1988-unudulmaz-gun-ve-gece [Erişim tarihi: 26.02.2022].
14. Осипов А.Г. Ферганские события: конструирование этнического конфликта. – В кн.: Ферганская долина: этничность, этнические процессы, этнические конфликты. Москва, Наука, 2004, с.164-223.
15. Межнациональные отношения в СССР. Серия А: Документ №2С. Брусина О.И., Осипов А.Г. К вопросу о состоянии межэтнических отношений в Узбекской ССР. Москва, Институт Этнологии и Антропологии АН СССР, 1991, 24 с.- http://static.iea.ras.ru/neotlozhka/20-Brusina.pdf [Erişim tarihi: 26.02.2022].

ФАТЬМА БЕТЮЛЬ АЙДЕМИР БАШ
Докторант кафедры Истории тюркских народов Бакинского Государственного Университета

ШЕЙДА ЧЕВИКЭЛ
Докторант факультета Международные отношения Хазарского Университета

МАССОВЫЕ ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНЕ И ЦЕНТРАЛЬНОЙ АЗИИ НА ПУТИ К НЕЗАВИСИМОСТИ

СССР сохранял свое господство на Кавказе, в Средней Азии и Восточной Европе более полувека. Новые реформы, которые Горбачев решил провести после прихода к власти в 1985 году, ускорили распад СССР. Проблемы возникли в результате этих реформ на Кавказе и в Средней Азии. Армения, которая хочет взять под свой контроль Нагорно-Карабахскую автономную область на Кавказе, приняла меры. В результате сделанных ими заявлений для сбора общественного мнения и последовавших за ними нападений между Азербайджаном и Арменией начались конфликты в регионе. Чтобы выразить протест против этой ситуации, сначала в 1988 году, а затем в январе 1990 года азербайджанский народ собрался на площади Азадлыг в Баку и организовал акции протеста. Так же и в Средней Азии протесты прошли в Алма-Ате и были кроваво подавлены в 1986 году, когда к администрации Казахстана был доставлен Колбин, русский по происхождению. Точно в Средней Азии вспыхнули конфликты между узбеками и турками-месхетинцами в Фергане в 1989 году, и туркам-месхетинцам пришлось мигрировать во второй раз. Вскоре после этого сотни людей были ранены и погибли в столкновениях между узбеками и кыргызами в Оше в 1990 году. В исследовании будут обсуждаться причины этих массовых движений и конфликтов то, что произошло в результате.

Ключевые слова: митинг 1988 года в Азербайджане, площадь Азадлыг, Черный январь 1990 г., Алма-атинские события (Желтоксан), Ферганские погромы, Ошская резня (1990).

FATMA BETUL AYDEMIR BASH
PhD student of Baku State University

SHEYDA CHEVIKEL
PhD student of Hazar University

MASS MOVEMENTS IN AZERBAIJAN AND CENTRAL ASIA ON THE PATH TO INDEPENDENCE

The USSR maintained its dominance in the Caucasus, Central Asia and Eastern Europe for more than half a century. The new reforms that Gorbachev decided to implement after he came to power in 1985 accelerated the collapse of the USSR. Problems arose as a result of these reforms in the Caucasus and Central Asia. Armenia, which wants to take control of the Nagorno-Karabakh Autonomous Region in the Caucasus, has taken action.As a result of the statements they made to gather public opinion and the attacks afterwards, conflicts started between Azerbaijan and Armenia in the region. In order to protest this situation, firstly in 1988 and then in January 1990, the Azerbaijani people gathered in Azatlik Square in Baku and organized protests. Likewise in Central Asia, protests were held in Alma-Ata and bloodily suppressed after the Russian-born Kolbin was brought to the administration of Kazakhstan in 1986, then clashes broke out in Fergana in 1989 between the Uzbeks and the Meskhetian Turks. Meskhetians had to emigrate. Not long after, hundreds of people were injured and died in the clashes between Uzbeks and Kyrgyz in Osh in 1990. In the study, the reasons for these mass movements and conflicts and what happened as a result will be discussed.

Keywords: 1988 protests in Azerbaijan, Azadlıq square, Black January 1990, Alma-Ata incident (Jeltoksan), Fergana events, 1990 Osh riots.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 yanvar 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Sevinc Ruintən, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

ƏZİZAĞA QƏNİ-ZADƏ
SQ Hərbi Akademiyasının dissertantı
Yupiter57@mail.ru

AZƏRBAYCANIN DÖYÜNƏN ÜRƏYİ ŞUŞA ŞƏHƏRİNİN TARİXİNƏ DAİR

Məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın göz bəbəyi, tarixi-mədəni, ictimai-siyasi həyatın mühüm mərkəzlərindən olan Şuşa şəhərinin tarixi, Şuşa sözünün etimoloji mənası, Şuşa şəhər-qalasının inşa olunmasının tarixi səbəbləri, şəhərin inkişaf mərhələləri, həmçinin ermənilərin Şuşaya köcürülməsi tarixi mötəbər mənbələr əsasında araşdırılmışdır. Məqalədə Şuşa şəhərinin ən qədim zamanlardan Ermənistan silahlı birləşmələri tərəfindən işğalınadək olan bir dövrü işıqlandırılmışdır.

Açar sözlər: Qarabağ, ilk insan məskəni, Şuşa qalası, Şuşa-Pənahabad, köçürmə.

Giriş. Əsrlər boyu Azərbaycanın, eləcə də bütün Cənubi Qafqazın iqtisadi, siyasi və mədəni həyatında mühüm rolu olmuş, ən qədim insan məskənlərdən biri olan Qarabağ zəngin tarixə malikdir. Dəfələrlə yadellilərin aramsız hücumlarına qarşı mətanətlə dayanmış qədim Qarabağ nəinki öz varlığını qoruyub saxlamağı bacarmış, həmçinin xalqımızın çoxəsrlik tarixini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini özündə əks etdirən zəngin maddi-mədəniyyət abidələri yaşatmışdır.

XVIII əsrin ortalarında Azərbaycan ərazisində yaranmış xanlıqlardan ərazicə ən böyüyü Qarabağ xanlığı idi. Belə ki, xanlıq cənubdan Araz çayı, şimaldan Kür çayı sərhəddində Sınıq körpü, şərqdən Kür çayı, qərbdən isə Ermənistanla həmsərhəd olan Qarabağ dağlarını əhatə edirdi [1, s.25]. Xanlığın paytaxtı Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən olan Şuşa şəhəri idi.

Qarabağın döyünən qəlbi, Azərbaycan musiqisinin beşiyi Şuşa şəhərinin əsasının qoyulması Qarabağ xanlığının banisi Pənahəli xan Sarıcalı-Cavanşirin (1748-1763) adı ilə bağlıdır. Nadir şah Əfşarın ölümündən sonra 1747- ci ildə özünü xan elan edən Pənahəli bəy Qarabağ xanlığını düşmən hücumundan qorumaq məqsədi ilə qala inşa etmək qərarına gəlir. 1748-ci ildə Bayat və 1751/52-ci ildə salınmış Şahbulaq qalalarının etibarlı olmadığını görən Pənahəli xan «dağların içində, möhkəm və keçilməz yerdə … əbədi və sarsılmaz qala»nın bünövrəsini qoyur. Xanlığın mərkəzi hələ Şahbulaq qalasında olarkən dəniz səviyyəsindən 1300-1600 m hündürlükdə yerləşən əlçatmaz dağ yaylasında yeni şəhər-qalanın tikinti işlərinə başlanılır. Əhalinin təhlükəsizliyi üçün zəruri işlər görüldükdən sonra 1756/57-ci ildə Pənahəli xan Qarabağ xanlığının paytaxtını Şahbulaq qalasından yeni salınmış şəhər-qalaya köçürdür [5]. Bu şəhər ilk dövrlərdə öz banisinin adı ilə Pənahabad, onun ölümündən sonra isə Şuşa adlandırıldı.

Şəhər üç tərəfdən sıldırım qayalarla, dördüncü tərəfdən isə möhkəm qala divarları ilə əhatə olunmuş, uzun müddət alınmaz qala kimi şöhrət qazanmışdı. Şuşa şəhərinin müdafiə qurğularından bəhs edən müəlliflərdən biri yazırdı: «Ağa Məhəmməd xan Qacarın dövründə Şuşa kiçik gözəl şəhər idi. Möhkəm hasarının hündurlüyü şəhərin bütün tərəflərində bərabərdi və hasarın elə yerləri var idi ki, oradan hücum edənlərin başına daş, qaynar su və ya ərimiş qurğuşun tökmək olurdu» [3].

Şuşanın ən yüksək zirvəsi 2725 metr olan Böyük Kirs dağıdır. Şəhərin yerəşdiyi ərazi geoloji dövr olaraq Yura və Təbaşir dövrü çöküntüləri ilə zəngindir [9]. Şəhərin kənarında dərin Daşaltı dərəsinin baxan Cıdır düzü yerləşir. Ondan bir qədər aşağıda Qırx pilləkan deyilən dik pilləli yol Daşaltı çayına aparır [2].

Şəhər şiş qayaların əhatəsində yerləşdiyinə görə əvvəlcə onu "Şişə", sonra "Şuşa" adlandırıblar. Digər bir versiyaya görə, şəhərin adı "şüşə" sözündən əmələ gəlib. Şuşa bulaqlarının suyu elə duru və şəffaf olub ki, yerli sakinlər onu şüşə ilə müqayisə ediblər [7]. Xalq arasında Şuşanı sadəcə qala da adlandırmışlar [1, s.72].

Şuşanın bir şəhər kimi formalaşması 3 əsas mərhələdən keçmişdir. Pənahəli xanın hakimiyyət dövrünü (1748-1763) əhatə edən birinci mərhələdə Şuşanın ilk böyük məhəlləsi, sonralar Aşağı məhəllə adlandırılan Təbrizli məhəlləsi salınmışdır. Əhalisinin əksəriyyətini vaxtilə Təbriz və Ərdəbildən Bayat qalasına köçürülmüş sənətkarlar təşkil edən bu məhəllədə aşağıdakı kiçik məhəllələr –

Çuxur, Qurdlar, Culfalar, Seyidli, Quyular, Merdinli, Hacı Yusifli, Qazançalı və Çöl qala məhəllələri yerləşirdi [5].

Şuşanın bir şəhər kimi formalaşmasının ikinci mərhələsi İbrahimxəlil xanın hakimiyyəti dövrünü (1763-1806) əhatə edir. Pənahəli xanın ölümündən sonra taxta çıxan öz dövrünün böyük dövlət xadimlərindən biri sayılan İbrahimxəlil xanın (1763-1806) hakimiyyəti illərində Qarabağ xanlığı qüdrətinin çiçəklənmə dövrünü yaşayır. Mir Mehdi Xəzaninin yazdığına görə İbrahim Xəlil xanın xanlığa rəhbərliyi dövründə Şuşa, Yaxın Şərqin ən məşhur şəhərlərində birinə çevrilmişdi [1, s.72]. Bu dövrdə Şuşanın 8 kiçik məhəllədən (Xanlıq, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam qabağı, Təzə) ibarət olan ikinci böyük məhəlləsi – Yuxarı məhəllə formalaşmışdır [5].

Qeyd edək ki, şəhər ümumilkdə əvvəlcə 17 məhəlləyə bölünüb: Böyük Qurdlar, Kiçik Qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamamqabağı, Dəmirçilər Quyuluq, Xocamircanlı, Mamayı, Saatlı, Köçərli, Mərdinli, Çölqala, Hacı Yusifli, Çuxur məhəllə və Ağadədəli. Şəhərdəki bütün məhəllələrin adları bu şəhəri yaradan, onun aborigen əhalisi olan Azərbaycan türklərinə məxsus idi. Hər məhəllənin isə öz hamamı, məscidi və bulağı olmuşdu [8, s.8-9].

Şuşa şəhərinin formalaşmasının üçüncü mərhələsi Qarabağ xanlığının 1806-cı ildə Rusiya imperiyası tərəfindən işğal edilməsindən sonra başlamış və daha uzun müddət davam etmişdir [5].

XIX əsrdə şəhərin qərb hissəsindəki dağlıq ərazidə daha 12 məhəllə salınıb və bununla da şəhərin siması tam formalaşır.

Şəhərin xarici aləmlə əlaqəsi Gəncə, Ağoğlan və İrəvan qapıları vasitəsilə həyata keçirilirdi [8, s.8-9].

Əsası Azərbaycan türkləri tərəfindən qoyulmuş və uzun müddət əhalisinin mütləq əksəriyyətini Azərbaycan türkləri təşkil edən Şuşa şəhəri, XIX əsrin əvvəllərində baş vermiş Rusiya işğalından sonra ciddi demoqrafik dəyişikliklərlə üzləşir. Azərbaycanın digər yaşayış məntəqələri kimi, Şuşaya da ermənilərin köçürülməsinə başlanılır.

XIX əsrin əvvəllərindən başlayaraq Qarabağın dağlıq hissəsində aparılmış tarixi, arxeoloji, etnoqrafik və toponimik tədqiqatlar sübut edir ki, orada yaşamış ermənilər mənşə etibarı ilə 3 qola ayrılır. Onlardan birincisi farsdilli ermənilərdir.

Qeyd etmək yerinə düşər ki, XIX əsrin əvvəllərində Qarabağın dağlıq hissəsində cəmi 2 farsdilli erməni kəndi qeydə alınmışdısa, XIX əsrin 30-cu illərində belə kəndlərin sayı 20-ni keçmişdi [15, s.48]. Farsdilli ermənilərin Qarabağa köçürülməsi prosesi isə 1828-ci ildən sonra Rus-Qacar müharibəsinin qurtarması ilə bağlanan Türkmənçay müqaviləsinin 25-ci bəndinə əsasən başlanmışdı.

Tədqiqatlar göstərir ki, 1826-1828-cu illərdə ruslar tərəfindən Cənubi Qafqaza- xüsusilə də Azərbaycan torpaqlarına 40 000 nəfərdən çox erməni köçürülmüşdür. Bu ermənilər, əsasən, Qarabağın dağlıq hissəsində və Göycə gölü ətrafında, həmçinin Şirvanda yerləşdirilmişdir. N. N. Şavrov qeyd edir ki, 1828-ci ilin təkcə üç ayı ərzində Arazdan 8249 erməni ailəsi keçirilərək Qarabağda və Şirvanda yerləşdirilmişdir [15, s.27]. Onlar yerli əhalinin əlindən 200 min desyatin, yəni 2 milyon manatlıq torpaq sahəsini alaraq, V.L.Veliçkonun təbirincə desək «yerli əhalinin şirəsini sormağa başladılar» [14].

Qarabağın yuxarı hissəsində yaşayan ermənilərin bir qismini isə, Osmanlı imperiyasından köçürülən ermənilər təşkil edirdi. Təxminən 90 000 yaxın erməni, rus-türk müharibəsi bitdikdən sonra Ədirnə sülh müqaviləsinə əsasən, Azərbayan trpaqlarına köçürümüşdür [13].

1832-ci ildə Qarabağ əhalisinin 91 faizini azərbaycanlılar, 8,4 faizini isə ermənilər təşkil edirdi. Köçürülmə siyasəti nəticəsində azərbaycanlıların sayı azalaraq 64,4 faizə, ermənilərin sayı isə artaraq 34,8 faizə çatmışdır [8, s.10].

Azərbaycanda Sovet hakimiyyətinin qurulması ilə Şuşanın fəlakətli günləri də başlandı. 1923-cü ildə DQMV-nin yaradılması və Xankəndinin onun mərkəzi seçilməsi ilə Şuşa Qarabağın inzibati mərkəzi olmaq funksiyasından məhrum edildi. Bununla da vilayət rəhbərliyinin ögey münasibəti nəticəsində Şuşa şəhəri sürətlə tənəzzül etməyə başladı. Azərbaycan xalqının tarixi-memarlıq abidələrinin bir çoxu uçurdulub dağıdıldı. Əhalinin sayı təxminən, 50 il ərzində 3 dəfədən də çox azaldı. 1917-ci ildə Şuşada 43869 nəfər əhali yaşadığı halda, 1970-ci ildə onların sayı azalıb 13664 nəfərə enmişdi [5].

Şuşanın yenidən dirçəlməsi yalnız 1969-cu ildə Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gətirilməsindən sonra mümkün oldu. 1977-ci ildə Azərbaycan SSR Nazirlər Soveti «Şuşa şəhərinin tarixi hissəsinin tarix-memarlıq qoruğu elan etmək haqqında» qərar qəbul etdi. Şəhərin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün mühüm tədbirlər həyata keçirildi. Bütün bu tədbirlər nəticəsində şəhərdə əhalinin sayı artaraq 1989-cu ildə 20579 nəfərə çatdı [13].

Ümummilli lider Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğratmışdı. Ulu öndərin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu güclənirdi. Ölkənin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular [11].

XX əsrin 80-ci illərinin ortalarından etibarən keçmiş SSRİ məkanında və ilk növbədə, Ermənistan SSR ərazisində anti-Azərbaycan, antitürk təbliğatı daha da güclənməyə başladı. Bu proses M.Qorbaçovun SSRİ rəhbəri seçilməsindən sonra daha geniş miqyas aldı. 1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü. Bunun ardınca noyabrın 18-də A.Aqanbekyanın Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı [6; 12].

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir [10].

Müzəffər Ali Baş Komandan İlham Əliyevin və onun qüdrətli ordusunun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa işğaldan azad olunan gün - noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində verdiyi bu xoş xəbər Azərbaycanı ayaq üstə qaldırdı [4].

Tez bir zamanda Şuşaya, onun tarixi-mədəni irsinə vurulmuş zərərin inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır [4].

Xalqımız üçün son dərəcə müstəsna mənəvi dəyərə malik olması Şuşa şəhərinə xüsusi qayğı və həssaslıqla yanaşılmasını,burada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi onun daim inkişafına şərait yaradacaqdır.

Nəticə. Beləliklə, Şuşa şəhərinin işğalı ilə Ermənistan hərbi birləşmələri bütünlüklə Qarabağın işğal edilməsini təmin etdi. Erməni mətbuatının məlumatına görə, Şuşaya hücumda 100-ə qədər zirehli maşın, 72 tank, 11 min nəfər canlı qüvvə iştirak etmişdi. Şuşaya hücumda MDB-nin 366-cı alayının 180 hərbi mütəxəssisi 90 ağır hərbi texnikası ilə Şuşanın işğalında böyük fəallıq göstərmişdir. Erməni silahlı birləşmələri ilə birgə xaricdən gətirilmiş muzdlular da döyüşürdülər. Nəticədə, Şuşa özünümüdafiə dəstəsinin qəhrəmancasına döyüşməsinə və düşmənə layiqli müqavimət göstərməsinə baxmayaraq, təpədən dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 7-dən 8-nə keçən gecə 24 min nəfər əhalisi olan, 289 kvadrat kilometrlik əraziyə malik 1 şəhər və 30 kənddən ibarət Şuşa şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğurunda döyüşlərdə 300-dən artıq həmyerlimiz şəhid olmuşdur ki, onların da 196 nəfəri əslən şuşalı idi. Döyüş əməliyyatlarında 150 nəfərədək insan əlil olmuş**,** 165 nəfər yaralanmış, 58 nəfər itkin düşmüş, 20 min nəfə-

rədək sakin isə öz evlərindən didərgin düşmüşdü. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlanılan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirilmişdi.

ƏDƏBİYYAT

1. Axundov N. Qarabağ səlnamələri. Bakı, Yazıçı, 1989, 232s.
2. Cahandarov B. Şuşanın ermənilər tərəfindən işğalından 25 il keçir 8 May. - https://web.archive.org/web/20210206211542/https://1news.az/az/news/u-an-n-erm-nil-r-t-r-find-n-i-al-ndan-25-il-ke-ir [Müraciət tarixi: 18.02.2022].
3. Əhmədov E. 29 ildən sonra Şuşada, evimizdə! - Şuşalı alimin təəssüratları. - https://www.musavat.com/news/29-ilden-sonra-susada-evimizde-susali-alimin-teessuratlari_801805.html [Müraciət tarixi: 20.02.2022].
4. Əziz Şuşa, sən azadsan! - Bu 8 May Şuşadayıq 08.05.2021 ~ 16.11.2021) https://www.trt.net.tr/azerbaycan/az-rbaycan/2021/05/08/ziz-susa-s-n-azadsan-bu-8-may-susadayiq-1636320 [Müraciət tarixi: 18.02.2022].
5. Şuşanın tarixi. - http://tarixinstitutu.azpage99shusha [Müraciət tarixi: 22.02.2022].
6. Dağlıq Qarabağ münaqişəsi,Şuşa 28 iyun, 2015. - http://cls.az/front/1099/az/more/text/17491 [Müraciət tarixi: 18.02.2022].
7. Nağısoylu Möhsün, Kərimov Raqub, Rəhimov Mütəllim. Şuşa Azərbaycan mətbuatında (1875-1920). Bakı, Elmin inkişafı fondu, 2017, 199 s.
8. Şuşa Azərbaycan ədəbi salnaməsində 30 aprel 2021. - https://kayzen.az/blog/politologiya/26691/şuşa-azərbaycan-ədəbi-salnaməsində.html [Müraciət tarixi: 18.02.2022].
9. Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı: tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova, L.Qafarova; red. və buraxılışa məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, Azərbaycan Milli Kitabxanası, 2021, 49 s.
10. Şuşa rayonunun ərazisi və təbii sərvətləri, tarixi və memarlıq abidələri. - https://web.archive.org/web/20190517115027/http://shusha.az/susanin-tarixi-və-memarliq-abidələri/ [Müraciət tarixi: 18.02.2022].
11. Şuşa şəhərinin işğalı. - https://web.archive.org/web/20190517122126/ http://shusha.az/susa-səhərinin-isgali [Müraciət tarixi: 22.02.2022].
12. Vaqifli A, Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi / Respublika qəzeti, 30 aprel 2014-cü il, № 88, S.3.
13. Vaqifli A, Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi / Respublika qəzeti, 1may 2014-cü il, №89, s.4.
14. Vaqifli A, Heydər Əliyevin 1960-1970-ci illərdə erməni-daşnak qüvvələrinin Azərbaycan əleyhinə yönəlmiş məkrli planlarına qarşı qətiyyətli mübarizəsi / Respublika qəzeti, 2 may 2014-cü il, № 90, s.6.
15. Шавров Николай Николаевич, Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам Баку, Элм, 1990, 156с.

АЗИЗАГА ГАНИ-ЗАДЕ
Диссертант Военной академии ВС Азербайджана

ОБ ИСТОРИИ ГОРОДА ШУША, БЬЮЩЕГОСЯ СЕРДЦА АЗЕРБАЙДЖАНА

В статье на основе авторитетных источников исследованы очерки Карабаха, являющегося неотъемлемой частью Азербайджана, история города Шуша, одного из важных центров историко-культурной и общественно-политической жизни, этимологическое значение слова Шуша, исторические причины строительства города-крепости Шуша, этапы развития города,

а также история переселения армян в Шушу. Статья освещает историю города Шуша с древнейших времен до оккупации его армянскими вооруженными формированиями.

Ключевые слова: Карабах, поселение первого человека, шушинская крепость, Шуша - Панахабад, переселение.

AZIZAGA GANI-ZADE
Dissertation student of the Military Academy of the Armed Forces of Azerbaijan

ABOUT THE HISTORY OF THE CITY OF SHUSHA, THE BEATING HEART OF AZERBAIJAN

Based on authoritative sources, the article examines the essays of Karabakh, which is an integral part of Azerbaijan, the history of the city of Shusha, one of the important centers of historical, cultural and socio-political life, the etymological meaning of the word Shusha, the historical reasons for the construction of the fortress city of Shusha, the stages of development of the city, and See also the history of the resettlement of Armenians in Shusha. The article covers the history of the city of Shusha from ancient times to its occupation by Armenian armed forces.

Keywords: Karabakh, settlement of the first man, Shusha fortress, Shusha-Panahabad, resettlement.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Vahid İsmayılov, t.e.d. Qabil Əliyev.

UOT 94(479.24)

MİNARƏ AĞAMALIYEVA
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
"Beynəlxalq münasibətlər və diaspor tarixi" şöbəsinin böyük laborantı
TarixVeOnunProblemleri@gmail.com

AZƏRBAYCAN DİASPORUNUN ERMƏNİ YALANLARININ İFŞASI UĞRUNDA MÜBARİZƏSİ

"Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın, düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur".

İlham Əliyev.

44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbədə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının da böyük rolu olmuşdur. Azərbaycan dövlətinin xarici ölkələrdə bir parçası olan səfirlik, konsulluq və diplomatik nümayəndələri ilə birgə çalışan diaspor təşkilatları ölkəmizin xarici siyasətinin dünyada dəstəklənməsində, təbliğində yaxından iştirak edirlər. Azərbaycan diaspor təşkilatları Azərbaycanın əks-hücum əməliyyatları dönəmində Ordumuza, Dövlətimizə dəstəklə bağlı təşkilatlandığı ölkələrdə fəaliyyətsiz qalmamış, erməni təxribatçılarının yalanlarına qarşı əzmlə mübarizə aparmışlar. Məqalədə Azərbaycan diaspor təşkilatlarının Beynəlxalq aləmdə ayrı-ayrı dövlətlərdə Azərbaycanın haqq səsini həmin ölkələrin cəmiyyətinə, rəsmi və qeyri-rəsmi qurumlarına çatdırmaq məqsədilə keçirdikləri aksiya, sərgi və s. təbliğat xarakterli tədbirlər, eləcə də bütün fəaliyyəti əks olunmuşdur.

Açar sözlər: II Qarabağ müharibəsi, Azərbaycan diasporu, soyqırımı.

Giriş. Azərbaycan xalqına qarşı erməni millətçiləri tərəfindən müntəzəm yeridilən bədnam soyqırımı, deportasiya və işğal siyasətinin yüz illərlə ölçülən uzun tarixi vardır. Azərbaycan xalqı öz mentalitetinə xas olaraq zor-xoş Azərbaycan ərazilərində məskunlaşdırılmış ermənilərlə qonşuluq münasibətləri qurmuşdu. Lakin erməni millətçiləri zaman-zaman xəyanətkar mövqe tutaraq 1905, 1915-1918, 1948-ci illərdə ən nəhayət 1987-1988-ci illərdə Azərbaycan xalqına qarşı nankorluq etmiş, deportasiya, soyqırımı siyasəti həyata keçirmişlər.

XX əsr boyunca erməni millətçiləri tərəfindən bu siyasət davam etdirilərək, 1988-ci ildə Azərbaycana qarşı ərazi iddiaları yenidən gündəmə gətirildi. Ermənistanın Azərbaycana qarşı apardığı əsassız ərazi iddiaları 1991-ci ilin sonlarından elan olunmamış müharibəyə çevrildi. Sovetlər İttifaqının süqutundan sonra genişmiqyaslı hərbi əməliyyatlara başlayan Ermənistan silahlı qüvvələri birbirinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı yaşayış məntəqələrini ələ keçirdilər.

Erməni millətçilərinin azərbaycanlılara qarşı apardığı soyqırımı siyasətinin vəhşiliyi, qəddarlığı ilə seçilən ən son nümunəsi Xocalı şəhərində törədildi. Həmin dəhşətli gecədə 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü, 1000 nəfər Xocalı sakini güllə yarası alaraq şikəst oldu, 1275 nəfər əsir alındı, 8 ailə bütövlükdə məhv edildi, 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı [10, s.194]. Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində Xocalı faciəsi haqqında qeyd etmişdir ki, "XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi. Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" [1, s.110].

Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal edən ermənilərin təcavüzkar siyasəti vüsət aldı. 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4 400 kv.km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları (17 000 kv.km) Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. I Qarabağ müharibəsində 20 000 nəfərdən çox Azərbaycan vətəndaşı həlak olmuş, 100 000 nəfər yaralanmış, 50 000 nəfər isə əlil olmuşdur. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyona qədər əhali öz torpağında qaçqın vəziyyətinə düşmüş, yüzlərlə yaşayış məntəqəsi dağılmış, talan edilmiş və yandırılmışdır [14, s.56].

Məlum olduğu kimi erməni millətçiləri bir tərəfdən Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya siyasəti törətmiş, onları yaşadıqları ərazilərdən didərgin salaraq həmin əraziləri zəbt etmiş, tarixi-memarlıq və mədəniyyət abidələrini dağıtmış, coğrafi adları dəyişdirmişlər. Digər tərəfdən də tarixi saxtalaşdırmaq, "Böyük Ermənistan dövləti" yaratmaq cəhdlərinə, öz vəhşi hərəkətlərinə bəraət qazandırmaq, dünya ictimaiyyətini aldatmaq üçün qondarma erməni soyqırımı məsələsini ortaya atmışlar. Onlar həmçinin bütün dünyada genişmiqyaslı informasiya-təbliğat işi apararaq, riyakarlıqla dolu müxtəlif saxta kinofilmlər, videofilmlər nümayiş etdirmiş, kitab və rəsm əsərlərinin, tarixi-mədəniyyət abidələrinin sərgilərini təşkil etmişlər. Bu məqsədlə xarici ölkələrdə yaşayan həmvətənlərimiz erməni millətçilərinin saxtakarlığına biganə qalmamış, yaşadıqları ölkələrdə haqq səslərini ucaltmış, beynəlxalq təşkilatlara müraciət etmiş, torpaqlarımıza təcavüz etmiş erməni millətçilərinin işğalçılıq əməllərinin, haqsız ərazi iddialarının ifşa olunması, əsl həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında böyük səy göstərmişlər. Bu məqsədlə Avropa ölkələrində soydaşlarımız "Qarabağ" təşəbbüs qrupu, "Qarabağ" komitəsi, "Qarabağa yardım təşkilatı" kimi qurumlar yaratmışlar. Bu təşkilatlar Dağlıq Qarabağ hadisələri haqqında həqiqətləri yayır, Qarabağa yardımlar göndərir, mitinqlər təşkil edirdilər [8, s.129].

Qeyd etmək istərdim ki, əsrlər boyu Azərbaycan xalqına qarşı törədilən soyqırımı və deportasiya siyasətinin mahiyyətinin dövlət səviyyəsində araşdırılıb dünya ictimaiyyətinə çatdırılması məsələsinin təşkilatçısı və rəhbəri ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra baş vermişdir. Belə ki, Azərbaycan xalqının həyatında baş verən bu faciələr Ümummilli lider Heydər Əliyevin "1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il və "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanlarında geniş əksini tapmış, tarixi qiymətini almışdır [4, s.131]. Həmin tarixi fərmanda istər Azərbaycanda, istərsə də Vətənimizdən kənarda yaşayan ziyalılara – tarixçi alimlərimizə tövsiyə olunur ki, zaman-zaman ört-basdır edilmiş, əsl deportasiya, soyqırımı və genosid olan tarixi hadisələr araşdırılıb, onların mahiyyətini dünya dövlətlərinə və millətlərinə çatdırsınlar.

Bu məqsədlə Azərbaycanda bir sıra görkəmli alimlərin və mütəxəssislərin rəy və tövsiyələri, eyni zamanda Azərbaycan diaspor təşkilatlarının təklifləri əsasında hazırlanmış "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" adlı sənəd Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının 2008-ci il noyabr ayının 18-də Bakı şəhərində keçirilmiş iclasında qəbul edilmişdir. Həmrəylik Xartiyasında Azərbaycan diasporunun ayrı-ayrı regionlar üzrə fəaliyyətinin əsas istiqamətləri öz əksini tapmışdır. Sənəddə Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi kurs əsasında diasporun üzərinə düşən vəzifələr öz əksini tapmışdır.

1. Azərbaycan həqiqətlərinin təbliği:

a) Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş terror və soyqırımı aktlarına həsr olunmuş elmi-praktik konfransların, simpoziumların, film festivallarının, foto və rəsm sərgilərinin təşkili;

b) "31 mart azərbaycanlıların soyqırımı" günü, 20 yanvar faciəsi, Xocalı soyqırımı və digər faciəli tarixlərlə bağlı dünya ictimaiyyətinin dəqiq məlumatlandırılması istiqamətində davamlı iş aparılması, ermənilərin törətdiyi qanlı cinayətlər haqqında beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin parlamentlərinə müraciətlər ünvanlanması, dinc insanların milli mənsubiyyətlərinə görə kütləvi şəkildə məhv edilməsinin beynəlxalq ictimaiyyət tərəfindən tanınmasına nail olunması;

c) Azərbaycan diaspor təşkilatlarının ofislərində "Azərbaycanlıların soyqırımı" muzeylərinin yaradılması;

d) Türkdilli və digər xalqların diaspor təşkilatları ilə əməkdaşlıq çərçivəsində erməni uydurmalarının ifşa edilməsi istiqamətində tədbirlərin görülməsi, bu məqsədlə konfransların, elmi simpoziumların təşkili;

e) Xarici ölkələrin parlamentlərinin "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qərarlara etiraz olaraq türk icmaları ilə birgə aksiyaların təşkili, beynəlxalq ictimaiyyətin bu barədə obyektiv məlumatlandırılması məqsədilə digər zəruri tədbirlərin görülməsi və başqa vəzifələr öz əksini tapmışdır [5, s.10-11].

Azərbaycan xalqının yaşadığı tarixi faciələrə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağrılı nəticələrinə Türkiyədə yaşayan soydaşlarımız da biganə qalmamış və bu sahədə zəruri tədbirlər həyata keçirmişlər. Türkiyədə yaşayan minlərlə soydaşımız dövlət müstəqilliyimizin əbədiliyi, Azərbaycanın ərazi bütövlüyü naminə milli birlik və həmrəylik ideyaları ətrafında birləşərək türk diaspor təşkilatları ilə əlaqələr qurmuşlar. Onu da qeyd etmək istərdim ki, azərbaycanlı mühacirlərin ən çox məskunlaşdığı ölkə olan Türkiyə Cümhuriyyətində Azərbaycan diasporu XX əsrin əvvəllərində təşkilatlanmış və ətrafında dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıları birləşdirən tədbirlər də elə ilk dəfə olaraq bu ölkədə keçirilmişdir. 1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlılar Konqresi, 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresinin və 1990-cı il noyabrın 3-dən 6-dək İstanbulda Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayının keçirilməsi dünya azərbaycanlılarının həmrəyliyi və əlaqələrinin genişlənməsində mühüm rol oynamışdır [8, s.117].

Hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı və türk yaşayır. Bu böyük qüvvənin xalqlarımızın və dövlətlərimizin ümumi maraqlarının müdafiəsi istiqamətində 2007-ci il mart ayının 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və Türk Diaspor Təşkilatları rəhbərlərinin I forumunda "Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası" və "Bakı Bəyannaməsi" qəbul edilmişdir [2, s.112].

Strategiyada Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyətində Avropa, ABŞ və Kanada, MDB ölkələri, Asiya və Afrika ölkələri, Avstraliya, Mərkəzi və Cənubi Amerika ölkələri üzrə siyasi, iqtisadi diaspor quruculuğu, lobbi quruculuğu, təbliğat sahəsində istiqamətləri müəyyənləşdirilmişdir. Həmçinin strategiyada erməni terroru ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması, ermənilərin türklərə və azərbaycanlılara qarşı tarixin müxtəlif mərhələlərində törətdikləri terror və soyqırımı aktları beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terror təşkilatlarının fəaliyyəti barədə məlumatların dünya ictimaiyyətinin diqqətinə çatdırılması alim və tədqiqatçıların bu mövzuda apardığı araşdırmaların nəticələrinin, məqalə və nəşrlərinin, kitabların təbliğ olunması və yayılması nəzərdə tutulmuşdur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış münaqişə ilə bağlı faktların, sənədlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində birgə səylər göstərilməsi, ermənilərin münaqişə zamanı törətdikləri vəhşiliklər haqqında materialların, audio-vizual təsvirlərin yayılması məqsədilə elmi-praktik konfransların təşkili kimi vəzifələr öz əksini tapmışdır [8].

Bu vəzifələrlə əlaqədar Azərbaycan və Türk diaspor təşkilatları nəinki Türkiyənin şəhərlərində, həmçinin bütün dünya ölkələrində də qondarma erməni soyqırımı iddialarına cavab olaraq ermənilərin vaxtı ilə Azərbaycanda və Türkiyənin şərq əyalətlərində törətdikləri qətliamlara dair müxtəlif səpgidə tədbirlər həyata keçirmişlər. Bu təşkilatların əməkdaşlıq əlaqələrinin birləşdirilməsi erməni yalanlarının ifşası sahəsində keçirilən tədbirlərin genişlənməsinə, kəsərliliyinin artmasına müsbət təsir göstərərək Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin daha geniş ictimaiyyət tərəfindən qəbuluna yol açdı.

Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması istiqamətində Azərbaycan və türk diasporları öz səylərini birləşdirərək erməni uydurmalarına qarşı birgə mübarizəsi, ABŞ-da "erməni soyqırımı"nın müzakirəyə çıxarılmasına qarşı keçirdiyi birgə etiraz tədbirləri öz təsirini göstərmişdir. Nəticədə ABŞ-nın 22 ştatı Xocalı soyqırımını rəsmən tanımışdır. Latın Amerikası ölklərində aparılan fəal təbliğat və diaspor təşkilatlarının dəstəyi sayəsində 2012-ci ildə Meksika Senatı və Kolimbiya Parlamenti, 2013-cü ildə Peru və Panama, 2014-cü ildə Honduras Xocalı soyqırımına ədalətli mövqe

nümayiş etdirmişdir [6, s.183]. Bundan əlavə İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla Bosniya və Hersoqovina, Cibuti, İordaniya, Rumıniya və Çexiya parlamenti faciəni soyqırımı adlandırmışlar. Diaspor sahəsində daha sistemli və davamlı işlər görmək naminə prezident İlham Əliyevin 6 iyul 2018-ci il tarixli sərəncamı ilə "Azərbaycan Diasporuna Dəstək" Fondunun yaradılması Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli addım oldu. Həmçinin dünya ölkələrində Azərbaycan diasporunun təşkilatlanmasına xidmət edən 12 Koordinasiya Şurası yaradılmışdır ki, bu da ümumilikdə 26 ölkəni əhatə edir.

Ermənistan bədnam işğalçı siyasətindən əl çəkməyib sentyabrın 27-də növbəti dəfə təxribat törədərək cəbhə boyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutuldu. Ermənistan silahlı qüvvələrinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun Komandanlığı tərəfindən bütün cəbhə boyu əks-hücum əməliyyatı başlanması barədə qərar verildi. Sentyabr ayının 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğal altında olan ərazilərimiz azad edildi. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış II Qarabağ Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun göstərdiyi şücaət, mərdlik xalqımızın tarixinə şərəflə həkk olunan zəfər qazandırdı.

II Qarabağ Vətən müharibəsində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları milli birlik nümayiş etdirərək bütün imkanları ilə Azərbaycan dövlətinə və ordusuna dəstək göstərərək, fəal şəkildə böyük şücaətlə mübarizə apardı. Erməni millətçiləri ilə mübarizədə yeni bir cəbhə – Azərbaycan diasporu cəbhəsi açıldı. Bu cəbhənin aparıcı qüvvəsi Azərbaycan diasporunun ziyalıları, sayılıb-seçilən məşhur şəxsiyyətləri, ictimai xadimləri, ən əsası isə qəlbi vətənlə döyünən soydaşlarımızdır. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Azərbaycan diaspor hərəkatında yeni dövr başlayır" məqaləsində diasporun fəaliyyətinə yüksək qiymət verərək qeyd etmişdir ki, "Ali Baş Komandan Əliyevin çıxışlarında dünya azərbaycanlılarına dair səsləndirdiyi fikirlərə istinad edərək, tam əminliklə söyləyə bilərik ki, informasiya mübarizəsində düşmən üzərində əldə etdiyimiz qələbənin əhəmiyyətli hissəsi, məhz Azərbaycan diasporunun peşəkar və əzmli fəaliyyəti sayəsində əldə edilmişdir. Bu mübarizədə hər bir həmvətənimiz əlindən gələni əsirgəmədən yaşadığı ölkədə Azərbaycanın haqq səsinin duyulması istiqamətində yorulmadan fəaliyyət göstərmişdir [9, s.9].

Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən 500-ə yaxın diaspor təşkilatları Azərbaycanın haqq səsinin duyulması istiqamətində əsl vətənpərvərlik və doğma Vətənə dəstək nümunəsi göstərdi.

Azərbaycan ordusunun maddi-texniki və digər təchizatını yüksək səviyyədə təmin olunmasına baxmayaraq, xaricdə yaşayan soydaşlarımız, diaspor təşkilatları orduya və əhaliyə dəstəyi, özlərinə mənəvi borc hesab edərək bu istiqamətdə davamlı yardımlar etmişlər. Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə Amerika və Avropanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporu tərəfindən ordumuza, şəhid və qazi ailələrinə 332 min 640 man., 188 min 416 ABŞ dolları və 118 min 782 avro məbləğində (cəmi 900 min 073 man) maddi dəstək göstərilmişdir. Vəsaitlər Azərbaycan Diasporuna Dəstək Fondu və Silahlı Qüvvələrə Yardım Fondu vasitəsilə, eləcə də birbaşa olaraq çatdırılmışdır [12].

Azərbaycan diasporu müharibə dönəmində informasiya savaşında da önəmli addımlar atdı. Bu addımın örnəyini prezident İlham Əliyev göstərdi. Prezident Vətən müharibəsinin gedişində xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri və xalqa müraciətləri, bütün dünyada yaşayan azərbaycanlıları ölkəmizin milli maraqları, birlik və həmrəyliyi istiqamətində birləşdirən amilə çevrildi.

Azərbaycan diaspor nümayəndələri istər müharibə davam edən dövr və istərsə də müharibə bitdikdən sonra Ermənistanın işğalçı siyasəti ilə yanaşı Gəncə, Bərdə və digər şəhərlərimizdə törətdiyi aktları, eyni zamanda işğal müddətində Azərbaycana vurduğu maddi və mənəvi zərər, həmçinin digər vandalizm aktları ilə yanaşı dünyanın müxtəlif ölkələrinin mətbuat orqanlarında yazılarla çıxış etdi və bəzi xarici media qurumlarına açıqlamalar verdi. Bu ölkələrə Belçika, İspaniya, İngiltərə, Əlcəzair, Misir, Səudiyyə Ərəbistanı, Moldova, Ukrayna və digər dövlətlərin media orqanları aiddir [16].

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda başladığı savaşda qardaş Türkiyə Cümhuriyyətindən davamlı olaraq dəstək gəlmiş və bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatları, cəmiyyət və birliklər xüsusi fəallıq göstərmişlər. Müharibənin ilk saatlarından Azərbaycan dövləti və xalqı Türkiyə Cümhuriyyətinin dəstəyini hiss etdi. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Necə ki, 103 il öncə ermənilərin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törətdikləri soyqırımı və Azərbaycanın bu ağır günlərində Türkiyənin göstərdiyi qardaşlıq köməyi xalqımızın və dövlətimizin tarixi taleyində mühüm rol oynamışdır. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz-İslam Ordusu 1918-ci ilin iyun ayından sentyabr ayına qədər Gəncədən Bakı şəhərinə kimi şanlı qələbələr əldə edərək, Azərbaycanı erməni daşnak-bolşevik birliyindən xilas etmişdir. Türkiyə Cümhuriyyətinin Vətən müharibəsində siyasi və mənəvi dəstəyi qələbənin qazanılmasında böyük rol oynadı. Son tarixi proseslər isə Ümummilli lider Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətlərini dəyərləndirərək irəli sürdüyü "Bir millət, iki dövlət" formulunu gerçək həyatda bir daha reallığa çevirdi.

Nəticə. Ümumiyyətlə, bu gün dünyanın dörd bir yanında Avropadan tutmuş Asiyaya, Birləşmiş Ştatlardan tutmuş Avstraliya, Yeni Zelandiyaya qədər bütöv bir coğrafiyada Azərbaycan diaspor təşkilatları tərəfindən Azərbaycan həqiqətləri, erməni təcavüzü, eyni zamanda Azərbaycanın haqq işi uğrunda apardığı mübarizə bütün aspektləri üzrə dünya ictimaiyyətinə çatdırılır.

Səudiyyə Ərəbistanı Krallığı, Pakistan İslam Respublikası, Oman Sultanlığı və Əlcəzair Xalq Demokratik Respublikasında yaşayan azərbaycanlılar da Azərbaycan dövlətinin yanında olduqlarını bəyan edərək, yaşadıqları ölkənin yerli ictimaiyyətini Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə və işğalçı Ermənistanın təcavüzkarlıq siyasətini pisləməyə çağırmışdılar [7, s.87]. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının Həmrəylik nümayiş etdirərək, Azərbaycanın haqq səsinə dəstək tədbirlərinin sayını artırmaq olar. Azərbaycan diaspor təşkilatlarının fəallığı, mövcud olduqları ölkələrin rəsmi dairələri, qanunverici və idarəedici orqanları ilə qurduqları səmərəli əməkdaşlıq, müntəzəm olaraq keçirdikləri görüşlər, həmçinin apardıqları müzakirələrin nəticəsidir ki, onların mütəşəkkilliyi Azərbaycanda, xüsusilə də cəbhədə gedən proseslərlə həmahənglik təşkil etdi. Müharibənin Azərbaycanın qələbəsi ilə başa çatması da soydaşlarımızı dərindən sevindirdi. Dünya azərbaycanlılarının qürurlandıran bir məsələ də odur ki, 30 il ərzində nüfuzlu beynəlxalq təşkilatların nizamlaya bilmədikləri münaqişəni Azərbaycan öz gücü ilə 44 gün ərzində həll etdi.

ƏDƏBİYYAT

1. Azərbaycan diasporu: Ensiklopedik məlumatlar toplusu. Bakı: Səs MMC, 2012, 654 s.
2. Azərbaycan diasporu: Transmilli əlaqələr. Bakı: Avropa, 2018, 200 s.
3. Azərbaycan və Türk Diaspor Təşkilatlarının birgə fəaliyyət strategiyası. Bakı: Adiloğlu, 2009, 42s.
4. Dünya Azərbaycanlılarının I qurultayı. Bakı: Azərbaycan, 2002, 351 s.
5. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Bakı: Adiloğlu, 2009, 30 s.
6. Dünya Azərbaycanlıları: Tarix və müasirlik. Bakı: "Turxan" NPB, 2018, 387 s.
7. Diasporlarımızın fəaliyyəti 2020-ci il: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Bakı: Çaşıoğlu, 2020, 253 s.
8. Əsgərova Z. Türkiyədə Azərbaycan diasporunun formalaşması (XX əsr). Bakı: "Afpoliqraf", 2021, 164 s.
9. Muradov F. Azərbaycan diaspor hərəkatında yeni dövr başlayır // Respublika, 2020, 31 dekabr, №277.
10. Məmmədov M. Dağlıq Qarabağ gerçəkləri: Soyqırım, terror, deportasiya. İşğal (XX yüzillik). Bakı: Təhsil, 2009, 272 s.
11. Məmmədov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009, 143 s.
12. Milli diaspor Azərbaycanın dünyadakı tək səsidir // "Hürriyyət" qəzeti, 2021, 14-15 yanvar, №4.
13. Qarabağ tarixinin aktual problemləri (məqalələr toplusu). Bakı: Avropa, 2021, 155 s.
14. Şıxəliyev E.A. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və təhsil, 2011, 321 s.

15. Zəfər yolu: Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları, müsahibələri. Bakı: "Qanun" 2021, 340 s.
16. Zülfüqaroğlu Ə. Qələbədən sonrakı dönəm: informasiya savaşı // Xalq cəbhəsi, 2020, 19 yanvar, №6.

МИНАРА АГАМАЛЫЕВА
Старший лаборант отдела «Международные отношения и история диаспоры» Института Истории имени А.А. Бакиханова НАНА

БОРЬБА АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ ЗА РАЗОБЛАЧЕНИЕ АРМЯНСКОЙ ЛЖИ

Действующие за рубежом организации азербайджанской диаспоры также сыграли важную роль в славной победе в 44-дневной Отечественной войне. Диаспорские организации, работающие совместно с посольствами, консульствами и дипломатическими представителями, являющимися частью азербайджанского государства в зарубежных странах, принимают активное участие в поддержке и пропаганде внешней политики нашей страны во всем мире. В период контрнаступательных операций Азербайджана организации азербайджанской диаспоры не бездействовали в странах, где они были организованы в поддержку нашей армии и государства, вели упорную борьбу против лжи армянских провокаторов. В статье описываются действия организаций азербайджанской диаспоры в различных странах на международной арене с целью донести истинный голос Азербайджана до общества, официальных и неофициальных институтов этих стран выставочными и др. пропагандистскими мероприятиями, в которых отражалась вся деятельность.

Ключевые слова: II Карабахская война, азербайджанская диаспора, геноцид.

MINARA AGAMALIYEVA
Department of "International relations and history of diaspora" Institute of History named after AA Bakikhanov of ANAS

THE STRUGGLE OF THE AZERBAIJANI DIASPORA TO EXPOSE THE ARMENIAN LIES

Organizations of the Azerbaijani diaspora operating abroad also played an important role in the glorious victory in the 44-day Patriotic War. Diaspora organizations working together with embassies, consulates and diplomatic representatives that are part of the Azerbaijani state in foreign countries are actively involved in supporting and promoting the foreign policy of our country throughout the world. During the counter-offensive operations of Azerbaijan, the organizations of the Azerbaijani diaspora did not stay idle in the countries where they were organized in support of our army and state, and fought stubbornly against the lies of the Armenian provocateurs. The given article describes the actions of the Azerbaijani diaspora organizations in various countries in the international arena in order to convey the true voice of Azerbaijan to the society, official and unofficial institutions of these countries with exhibition and other propaganda events, which reflected all the activities.

Keywords: II Karabakh War, Azerbaijani diaspora, genocide.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Zəminə Əsgərova, t.e.d. İbrahim Zeynalov.

UOT 32:93/94

AYTƏN QURBANOVA
dissertant, AMEA Hüquq və İnsan Haqları İnstitutu
ayten.qurbanovaa@gmail.com

SOYUQ MÜHARİBƏDƏN SONRAKI REALİZMİN ETNİK MÜNAQİŞƏLƏRƏ DAİR YANAŞMALARI

Məqalədə əsasən Soyuq müharibədən sonrakı realizmin etnik münaqişələrə dair yanaşmaları təhlil olunur. Bu yanaşmalar klassik beynəlxalq münasibətlər nəzəriyyələrindəki boşluqları tamamlamağa çalışaraq ənənəvi müharibə anlayışı ilə müasir münaqişələrin baş vermə səbəbləri arasındakı ziddiyyətləri aradan qaldırmağa cəhd edir. Beləliklə də, bu yanaşmalar Soyuq müharibədən sonrakı münaqişələri araşdırmaq üçün qeyri-dövlət aktorları olaraq etnik qrupları və ya hərbi-siyasi birləşmələri və şəxsiyyəti tədqiq edir.

Açar sözlər: realizm, dövlət, soyuq müharibə, təhlükəsizlik, yeni müharibələr, etnik münaqişə, anarxiya, təhlükəsizlik dilemması.

Giriş. Soyuq müharibə dövründə klassik realizmin etnik münaqişələrə dair araşdırmaları kifayət qədər məhdud çərçivədə aparılıb. Nəticə etibarilə bu sahədə yaranmış boşluq sonrakı mərhələdə münaqişələrin xüsusiyyətlərinin və fərqli cəhətlərinin tədqiq olunmasına da təsirsiz keçməyib. Corc Vaşinqton Universitetinin professoru, siyasi elmlər üzrə tədqiqatçı-alim Maykl Braun bu boşluğu yaradan səbəbləri araşdırarkən üç əsas faktı xüsusilə vurğulayır. İlk olaraq müharibədən sonrakı dövrdə dünyanın müxtəlif yerlərində etnik problemlərin və milli çağırışların boğulması faktı vurğulanır. İkincisi, Brauna görə soyuq müharibə dövründə beynəlxalq təhlükəsizlik üçün ən ciddi təhdid Şərq-Qərb qarşıdurmasının nüvə müharibəsinə gətirib çıxarması ehtimalı kimi qəbul edilir. Bu səbəbdən bir çox tədqiqatçılar mövzuya bu nöqteyi-nəzərdən yanaşaraq intellektual enerjilərini nüvə müharibəsi ssenarilərinin araşdırılmasına yönəltmiş və beləliklə də, etnik münaqişələrin tədqiq edilməsi ilə bağlı laqeyd münasibət formalaşmışdır. Üçüncüsü, Braunun fikrincə Avropada inteqrasiya proseslərinin sürətlənməsi və beynəlxalq platformada dövlətlər arasında qarşılıqlı asılılığın artması milli kimlik əsasında qarşıdurmaların olması ehtimalının azalacağı kimi yalnış yanaşmaların təşəkkül tapmasına səbəb olmuşdur [5]. Beləliklə də, soyuq müharibə dövründə bu və ya digər səbəbdən yaranmış etnik münaqişələrin araşdırılmasına klassik beynəlxalq münasibətlər nəzəriyyələrində az diqqət ayrılmışdır. Əslində beynəlxalq münasibətlərə dair mənbələrə istinad etsək, müstəmləkələşmə prosesi kontekstində aparılan vətəndaş müharibələrinə dair kifayət qədər çox ədəbiyyat mövcuddur [6]. Ancaq bu elmi ədəbiyyatlar əsasən müstəmləkələrdə aparılan vətəndaş müharibələri ilə əlaqədar olduğu üçün onlara müstəmləkəçilik əleyhinə mübarizə ilə bağlı hüquqi baza kimi yanaşılır. Beləliklə də, fərqli və spesifik hadisələrin araşdırılması zamanı bu ədəbiyyatlara istinad etmək çətin olur.

Neo-realistlərin yanaşmalarında münaqişə anlayışı. Soyuq müharibənin sona çatmasından sonra isə beynəlxalq münasibətlər nəzəriyyəsində bu tip münaqişələrə diqqət artmağa başlamışdır. Yunan politoloqu Stathis N.Kalyvas hesab edir ki, dünya siyasətindəki iki oxşar siyasi prosesin paralel şəkildə inkişaf etməsi faktı bu marağın artmasına səbəb olmuşdur. İlk olaraq, dövlətlərarası müharibələrlə eyni vaxtda daxili müharibələr də artdı. Digər tərəfdən isə "ideoloji" və ya siniflərarası qarşıdurma kimi təsnif edilən vətəndaş müharibələrinin azalması ilə paralel olaraq etnik zəmində qarşıdurmaların artması prosesinin təkzib olunmaz təsirləri nəzərə alınmalıdır.

Həmçinin realizmin istənilən dövrdə etnik münaqişələri daha dərindən araşdırmaq cəhdləri onun ontoloji xüsusiyyəti ilə də əlaqələndirilə bilər. Belə ki, realistlər beynəlxalq münasibətlər sistemini milli maraqların təmin olunması baxımından gücə əsaslanan dövlətlərin birliyi olaraq xarakterizə edirlər. Bu yanaşma realistlərin etnik zəmində baş verən millətlərarası qarşıdurmaları bu qədər uzun müddət görməzlikdən gəlməsinin səbəbini hərtərəfli izah etməyə bizə imkan verir. Buna baxmayaraq, Soyuq müharibənin başa çatmasından sonra realistlərin etnik münaqişələrin araşdırılmasına dair yanaşmalarında əsaslı dəyişikliklər olmuşdur [3].

Belə ki, Soyuq müharibənin bitməsindən dərhal sonra neo-realistlər Sovet İttifaqının dağılmasına və dünya nizamında çoxqütblülüyün yaranmasına istinad edərək etnik qarşıdurmaların tədqiq edilməsinə xüsusi diqqət ayırmağa başladılar. Bu nöqteyi-nəzərdən yanaşdıqda, hücum realizminin (offensive realism) banisi hesab olunan Con Mirşaymer [3] Soyuq müharibənin bitməsindən sonra etnik münaqişələrin getdikcə artmasının səbəblərini əsasən çoxqütblü dünya nizamının formalaşması ilə əlaqələndirir. Mirşaymer bu fikrini əsaslandırmaq üçün neo-realizmin beynəlxalq münasibətlərə dair üç başlıca yanaşmasını xüsusilə vurğulayır. Birincisi, ona görə milli dövlət hələ də beynəlxalq münasibətlərdə əsas aktor olaraq qəbul edilir [4: s.217]. İkincisi, beynəlxalq münasibətlərin anarxik xarakteri müharibənin əsas səbəbi kimi qəbul edilir, qütbləşmə (güc bölgüsü) isə dövlətlərarası qarşıdurmaları təşviqedici amil kimi dəyərləndirilir. Üçüncüsü isə dövlətlərarası münasibətlərdə münaqişələr dövlət idarəçilik forması yarandığı andan bugünə qədər daima mövcud olduğu üçün müasir beynəlxalq münasibətlərin xarakterik xüsusiyyətlərində iyerarxik asılılıqdan daha çox anarxiya ön plana çıxır.

Soyuq müharibə dövrünün bitməsindən sonra etnik qarşıdurmaların ortaya çıxmasını izah etməyə çalışan Mirşaymerə görə çoxqütblü dünya nizamında dövlətlər öz mövcudluqlarını davam etdirmək üçün qarşılıqlı şəkildə bu gərgin siyasi proseslərin tərkib hissəsinə çevrilməkdədirlər [3: s.57]. Mirşaymer həmçinin Soyuq müharibə dövründə ideoloji mübarizə çərçivəsində nəzarətdə saxlanılan etnik çağırışların anarxik xarakterə sahib müasir beynəlxalq münasibətlər sistemində artıq idarə oluna bilməyəcəyini xüsusilə vurğulayır [3: s.57]. Beləliklə də, ifrat millətçiliyin təsirləri beynəlxalq münasibətlərin anarxik xarakteri kontekstində araşdırılır.

Digər tərəfdən, münaqişələrin başlanmasına təsir edən başlıca faktorları araşdıran Mirşaymer hesab edir ki, dövlətlərarası qarşıdurmaların əsas səbəbi milli təhlükəsizliyin təmin olunması qayğısı ilə digər dövlətlərə və ya etnik qruplara qarşı etimadsızlıqdan irəli gələrək formalaşan ifrat millətçilik deyil, məhz beynəlxalq münasibətlərdə hökm sürən anarxiyadır [4: s.221]. Ona görə də, anarxiya tərəflər arasındakı gərginliyi artıran əsas təşviqedici amil olaraq qəbul edilir. Eyni zamanda, ifrat millətçiliyin dövlətlərin hücum qabiliyyətlərinə mütləq təsir etdiyi də vurğulanır. Çünki millətlər və ya milli dövlətlər bu vasitə ilə öz məqsədlərinə nail olmaq üçün istənilən qəddarlıqları etməkdən çəkinmirlər [4: s.221].

Massaçuset Texnologiya İnstitutunun Təhlükəsizlik Araşdırmalar Proqramının direktoru Barry Posen (1993, 1993a) isə müdafiə realizminin (defensive realism) banisi Kenned Waltzun yanaşmalarından istifadə edərək milli qarşıdurmaların səbəblərinin daha ətraflı izahını təqdim edir. O hesab edir ki, "təhlükəsizlik dilemması və realist beynəlxalq münasibətlər nəzəriyyəsi ümumiyyətlə imperiyaların dağılmasına səbəb olan qruplar arasında hərbi qarşıdurmaların olması ehtimalını və intensivliyini izah etmək və ilkin proqnozlar vermək üçün kifayət qədər imkanlara sahibdir" [1: s.43]. Belə ki, dövlətlərarası qarşıdurmanı izah etmək üçün neo-realistlər tərəfindən geniş istifadə olunan "təhlükəsizlik dilemması" konsepsiyası, Posen tərəfindən həmçinin etnik-milli zəmində baş verən qarşıdurmaları tədqiq etmək üçün də istifadə olunur.

Ümumiyyətlə, "təhlükəsizlik dilemması" dörd amil mövcud olduqda uğurlu şəkildə tətbiq oluna bilər. Birincisi, qrup daxilində anarxiya qarşılıqlı əlaqələrin daimi şərtidir. İkincisi, aktorlar arasında daimi inamsızlıq mövcuddur. Yəni, indiki dostumuz gələcəkdə düşmənə çevrilə bilər prinsipi hər an aktualdır. Üçüncüsü, dövlətlərin başlıca məqsədi olaraq suverenliyin qorunması prinsipinin təmin olunması zamanı ya yalnış məlumatlandırılma, ya da ünsiyyət çatışmazlığı səbəbilə qarşıdurmaların olması ehtimalı daima mövcuddur. Dördüncüsü, hücum və müdafiə qabiliyyətləri arasındakı balansla əlaqəli olaraq yaranan qeyri-müəyyənlik daima münaqişəni təşviq edən amil kimi qiymətləndirilir.

Etnik münaqişələrin xüsusiyyətlərini araşdırmaq üçün neo-realist yanaşmalardan istifadə edən bu konsepsiya beynəlxalq münasibətlərin anarxik xarakteri ilə imperiyaların süqutu və ya siyasi rejimlərin uğursuz idarəçiliyi nəticəsində yaranmış daxili qarşıdurmalarla arasında müqayisəli təhlil aparır. Belə ki, bu təhlilə əsasən dövlətdən ayrılmaq istəyən etnik, dini və ya mədəni qruplar (potensial dövlətlər kimi görünür) arasındakı mübarizə [1] və ya mütləq əksəriyyətin fikri nəzərə alınmadan ərazinin müəyyən hissəsinin üsyançıların nəzarətinə keçməsi nəticəsində dövlətin daxili iyerarxik hakimiyyəti dağılmış hesab olunur [7].

Soyuq müharibədən sonrakı neo-realist yanaşmalarda etnik, dini və ya mədəni qruplar arasındakı fərqliliklərdən çox, beynəlxalq münasibətlərdəki anarxiya münaqişələrin əsas başlanma səbəbi olaraq qəbul edilir [1: s.27]. Dövlətin öz nüfuzunu itirməsindən sonra yaranan bu vəziyyəti Hobbsun heç bir hökmdarın fərdləri bir-birindən gələ biləcək təhlükələrdən qorumadığı və təhlükəsizliyin bütün iştirakçıların ali məqsədi olaraq dəyərlədirildiyi "təbii vəziyyət" anlayışı ilə müqayisə oluna bilər. Dövlətin süqut etməsindən və ya zəifləməsindən sonra yaradılan strukturların anarxik təbiəti isə bir çox hallarda qeyri-müəyyənlik mənbəyi kimi qəbul edilir. Digər tərəfdən, öz təhlükəsizliyini və ya ümumi təhlükəsizliyi təmin etmək üçün mövcud təhdidlərə qarşı fəaliyyət göstərən qruplar nəticə etibarilə dövlətin sərhədləri daxilində hər kəs üçün olmasa da, əksəriyyət üçün artan təhlükə və azalan təhlükəsizlik mühitinin yaranmasına səbəb olur.

Təbii ki, yeni yaranan qruplar bir-birlərinin niyyətlərindən əmin olmurlar. Ona görə də, anarxiya qrupları öz-özünü təmin etmək vərdişlərini formalaşdırmağa məcbur edən təşviqedici vasitə olaraq görülür. Bu çərçivədə qrupların potensial düşmənlərə qarşı təhlükəsizlik zəmanəti axtaran siyasət həyata keçirmələri gözlənilməndir. Beləliklə də, bu qruplar üçün başqalarının təhlükəsizlik siyasətinin zəiflədilməsi yolu ilə öz potensialını artırması imkanının əhəmiyyəti vurğulanır. Bu vəziyyət Dünya Sülh Fondunun prezidenti Robert Rotberg tərəfindən biraz daha ümumiləşdirilmişdir. O hesab edir ki, "dövlət hakimiyyəti daxili anarxiya şərtləri ilə eyniləşdirildikdə 'təhlükəsizlik dilemması' yaranır. Çünki nə vaxtsa birlikdə yaşayaraq özlərini qorumaq üçün dövlətdən asılı olan qruplar anidən birbirlərinə qarşı ehtiyatlı davranmağa başlayırlar" [7: s.58].

Bu yanaşma insanlar və dövlətlər arasında anarxiya və ya onun olmamasının zorakılığa gətirib çıxardığını iddia edən Waltzun fikirləri ilə də oxşarlıq təşkil edir. Beləliklə, həm dövlətlərarası, həm də qruplararası səviyyədə qarşıdurmanın səbəbi anarxik xarakterə sahib olan və iştirakçılar qarşısında təhlükəsizliyin təmin olunması zərurəti yaradan strukturun xüsusiyyətləri ilə əlaqələndirilir.

Ənənəvi neo-realist yanaşmalardan fərqli olaraq, Posen etnik qarşıdurmaları tədqiq edən zaman onların əsas səbəbi olaraq dövlətçiliyin bir çox atributlarından məhrum olmuş və ya suveren dövlətlər dağıldıqdan sonra meydana çıxan "etnik, dini və mədəni qruplara" işarə edir [1: s.28]. Lakin hər etnik qrup tədqiqat obyekti olaraq presedent qəbul edilmir. Stuart Kaufman [9] isə iddia edir ki, əgər hökumətin öz xalqını qorumaq üçün ərazisi daxilində mütləq hakimiyyətə sahib olmadığı anarxiya şəraitində etnik zəmində formalaşmış təşkilatlar bunu edə bilirsə, demək ki, onlar suverenlik çağırışları ilə çıxış edərək "təhlükəsizlik dilemması" yaratmaq iqtidarındadır [9: s.151].

Rotberqin fikrincə isə hər hansı bir qrupun "təhlükəsizlik dilemması" yarada biləcəyini müəyyənləşdirmək üçün bu qrupa qoşulan fərdlərin onun daxili xüsusiyyətlərinin nə qədər daşıyıcısı olması faktını araşdırmaq lazımdır [7: s.63]. Beləliklə də, qruplara "qara qutu" kimi baxılır və qrupdaxili əlaqələrdən və ya rəhbərlərin şəxsi keyfiyyətlərindən daha çox üzvlərin davranışlarının müşahidə olunmasının vacibliyi diqqətə çatdırılır. Bu nöqteyi-nəzərdən yanaşdıqda qruplara daxil olan fərdlər irsi və ya ilkin xüsusiyyətləri nəzərə alınmadan qiymətləndirilir [7: s.63].

Nəticə. Beləliklə də, neo-realizmə görə "təhlükəsizlik dilemması" həmçinin ümumi normaların təmin olunması missiyası daşıyan dövlətin zəifləməsindən sonra ortaya çıxan "anarxiyanın" məhsulu kimi başa düşülür. Çünki neo-realistlər "təhlükəsizlik dilemması"nı mərkəzi idarəçiliyi ayrı-ayrı vahidlərlə əlaqələndirən və onlar arasındakı rəqabətin münaqişəyə çevrilmə ehtimallarını izah edən bir vasitə olaraq qəbul edilir.

Bəzi alimlər isə etnik münaqişələrin ortaya çıxmasını izah etmək üçün "təhlükəsizlik dilemması"ndan istifadə edərkən qarşıdurmaların başlamasında qavrayış və ideologiyaların rolu haqqında fərqli fikirlər səsləndirirlər. Məsələn, Posen millətçiliyi "özünəməxsus hücum gücünə sahib olmaq" bacarığı kimi təqdim edir [1]. Belə ki, ona görə yerli siyasətçilərin hakimiyyət uğrunda apardıqları mübarizədə irəli sürdükləri millətçilik yalnız "hərbi qrupların döyüş qabiliyyətlərini yaxşılaşdırmaq məqsədinə" xidmət edir [2: s.81]. Çünki Posenin sözləri ilə ifadə etsək millətçilik "hərb meydanında döyüş gücü üçün fərdi öhdəlik və mütəşəkkil əməkdaşlıq yaratmağa kömək edir" [2]. Belə olduğu halda millətçiliyin istifadəsindən əldə edilən hücum qabiliyyətlərinin üstünlüyü qarşıdurmanın meydana gəlməsini təşviq edən amil kimi qiymətləndirilməlidir. [1: s.33] Pozen ilə oxşar mövqeyə sahib olan Kaufman, bir qrupun və ya dövlətin təhlükəsizlik tədbirlərinin digər qrup və ya dövlətlər tərəfindən təhdid olaraq qəbul edildiyi üçün düşmənçiliyə təhrik etdiyini dərk etmədikdə "təhlükə-

sizlik dilemması"nın ortaya çıxdığını iddia edir [10: s.151]. Beləliklə, həm millətçilik ideologiya olaraq, həm də millətçiliyi istifadə edən siyasətçilərin niyyətləri anarxiya əlaməti olaraq nəzərdən keçirilir.

Nəticə etibarilə, etnik münaqişə anlayışı Soyuq müharibədən sonrakı neo-realistlər tərəfindən "təhlükəsizlik dilemması" əsasında izah olunaraq dövlət daxilində və ya beynəlxalq münasibətlərdə yaranmış anarxiya dövründə güc rəqabəti fonunda bu cür münaqişələrin yaranmasının qaçınılmaz olduğu fikri müdafiə olunur.

ƏDƏBİYYAT

1. Barry R. Posen, "The Security Dilemma and Ethnic Conflict", Survival 35(1), 2003, pp. 27-47.
2. Barry R. Posen, "Nationalism, the Mass Army, and Military Power", International Security 18(2), 2003a, pp. 80-124.
3. John J. Mearsheimer, "Back to the Future: Instability in Europe After the Cold War" International Security 15 (1), 2009, pp. 5-56.
4. John J. Mearsheimer, "Disorder Restored", In Graham Allison and G.F. Treverton eds. Rethinking America's Security, New York: W.W. Norton, 2008, pp. 213-237.
5. Michael E. Brown, "Ethnic Conflict and International Security". Princeton University Press, 1993, 288 p.
6. Mostafa Rejai and H. Enloe Cynthia, "Nation-States and State- Nations", International Studies Quarterly 13(2), 1960, pp. 140-158.
7. Robert Rotberg, "When States Fail: Causes and Consequences", Princeton: Princeton University Press, 2010, 358 p.
8. Steven R. David, "The Primacy of Internal War", New York St. Martin's Press, 1998, pp. 77-101.
9. Stuart. J. Kaufman, "An International Theory of Inter-Ethnic War", Review of International Studies 22(2), 1996, pp. 149-172.
10. Stuart. J. Kaufman, "Possible and Impossible Solutions to Ethnic Civil Wars", International Security 20 (4), 2006, pp. 136-175.

АЙТАН ГУРБАНОВА
аспирант Института права и прав человека НАНА

ПОДХОДЫ ПОСЛЕХОЛОДНОЙ ВОЙНЫ РЕАЛИЗМА К ЭТНИЧЕСКИМ КОНФЛИТАМ

В статье в первую очередь обсуждается неореализм после «холодной войны» и его подходы к конфликтам. Эти подходы пытаются устранить противоречия между традиционным пониманием войны и практикой современных конфликтов, пытаясь компенсировать недостатки традиционных подходов к международным отношениям. По сути, эти подходы рассматривают негосударственных акторов, таких как этнические группы или военно-политические образования, и идентичность для изучения конфликтов после холодной войны.

Ключевые слова: реализм, государство, постхолодная война, безопасность, новые войны, этнический конфликт, анархия, дилемма безопасности.

AYTAN GURBANOVA
Ph.D. student, Law and Human Rights Institute of ANAS

APPROACHES OF POST-COLD WAR REALISM TO ETHNIC CONFLITS

The article primarily discusses post-Cold war neo-realism and its approaches to conflicts. These approaches attempt to resolve the tensions between the traditional understanding of war and the practice of contemporary conflicts by trying to mediate for the weaknesses of traditional

international relations approaches. In sense, those approaches look at non-state actors such as ethnic groups or politicomilitary formations and identity to examine the post-cold War conflicts.

Keywords: realism, state, post-Cold War, security, new wars, ethnic conflict, anarchy, security dilemma.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: s.e.f.d. Afət Güləliyeva, s.e.d. Adil Mirabdullayev.

UOT 32:93/94

RAUF HƏSƏNOV
Bakı Dövlət Universiteti
Beynəlxalq Münasibətlər kafedrasının doktorantı
azmiu.hasanov@mail.ru

BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRDƏ RUSİYA VƏ TÜRKİYƏNİN ROLU

Məqalədə dünyada baş verən beynəlxalq iqtisadi proseslərdən bəhs edilir. Rusiya-Türkiyə arasında olan 1992-ci ildən bu günə qədər ticarət və iqtisadi əlaqələrin dinamikası, struktur xüsusiyyətləri təhlil edilir. Xüsusilə "Türk axını" layihəsindən danışılır. Beynəlxalq münasibətlərdə ikitərəfli Rusiya-Türkiyə əlaqələrinə də diqqət yetirilir.

Açar sözlər: Dünyada iqtisadi proseslər, Mavi axın, Cənub axını, Türk axını, Rusiya-Türkiyə münasibətləri.

Giriş. Beynəlxalq iqtisadi münasibətlərin qloballaşması dünyada bütöv iqtisadi sistem yaradaraq dövlət və dövlət birliklərinin milli iqtisadiyyatını, təsərrufatını getdikcə bir-birindən asılı vəziyyətə salmışdı. Birbaşa transmilli və xarici investisiya bazasında yüksək texnoloji istehsal proseslərinin və əlaqələrinin beynəlmiləşməsi, ölçüsünə görə qlobal, iş rejiminə görə fasiləsiz maliyyə və xammal bazarlarının yaranması dünyanın iqtisadi həyatını tam qloballaşdırmışdır. Dünyanın iqtisadi maraq mübarizəsi, rəqabət, əməkdaşlıq və tərəfdaşlıq kimi xarakterizə edilən geoiqtisadi proseslərə ayrı-ayrı dövlətlər və onlara məxsus korporasiyalar, milli və transmilli komersiya strukturları, formal və qeyri-formal beynəlxalq, regional və yerli iqtisadi təşkilatlar qoşulublar. İqtisadi qloballaşma beynəlxalq əmək bölgüsünü dərinləşdirmiş və onun meyllərini müəyyən etmişdir. İnsanların sərbəst hərəkəti milli sərhədləri və ayırıcı hədləri aşaraq bazar seqmentlərinin meyarlarını dəyişmişdir. Bütün bunlar və digər bölmələrdə təhlil olunan qlobal iqtisadi proseslər dünyanın yeni geoiqtisadi məkan və münasibətlər anlayışını meydana gətirmişdir. Bunlar da geosiyasətin müasir kateqoriyalarından hesab olunan geoiqtisadiyyata aiddir (1, s.285-286).

Müasir dövrdə Türkiyə və Rusiyanın beynəlxalq iqtisadi münasibətlərini nəzərdən keçirərək görürük ki, Türkiyə SSRİ-nin varisi Rusiya Federasiyası ilə bütün sahələr üzrə əlaqələrin canlanmasına güclü təkan verib və bunun başlanğıcı 1992-ci il mayın 25-də imzalanmış Türkiyə-Rusiya münasibətlərinin əsasları haqqında müqavilə ilə (müqavilənin 1994-cü ildə hər iki dövlətin parlamentləri tərəfindən təsdiq edilməsi ilə) qoyulmuşdur. Müşahidəçilər bu müqaviləni yeni dövrə qədəm qoyan iki dövlət arasındakı münasibətlərdə keyfiyyətcə yeni səhifə kimi dəyərləndirirlər. Müqavilə iki dövlət arasında iqtisadi-ticarət əlaqələrinə geniş imkanlar yaratdı. Nəticədə onların arasında ticarət dövriyyəsi artaraq 2010-cu ildə 30 milyard ABŞ dollarına çatmışdı (3, s.149-150).

Rusiya iqtisadiyyatçılarının dediklərinə görə, Rusiya ilə Türkiyə arasındakı iqtisadi əlaqələrin maliyyə dövriyyəsi əgər 2013-cü ildə 32.7 milyard ABŞ dolları idi, 2020-ci ildə bu rəqəm 100 milyard dollara çatmışdı. Dövlətlər arasında bu cür güclü iqtisadi əlaqələrin olması ondan xəbər verir ki, Türkiyənin Avropa İttifaqı dövlətlərindən sonra ən çox iqtisadi-ticarət əlaqələri apardığı dövlət Rusiyadır, hansi ki, bu siyahıda 2-ci yerdədir. Türkiyə isə öz növbəsində Rusiyanın beynəlxalq iqtisadi müttəfiqlər sırasında 8-ci yerdədir. Bu işdə Rusiya və Türkiyə siyasətinin uğuru iqtisadi əlaqələrin milli valyuta ilə həyata keçirilməsindən ibarətdir. Bundan əlavə hələ 2014-cü ildə Türkiyə tərəfindən qeyd edilmişdi ki, "Avrasiya İqtisadi Birliyinin azad ticarət məkanının yaradılmasında Türkiyə maraqlıdır" (4, s.17).

Avrasiyadan deyərkən, bu bölgə geostrateji və geosiyasi əhəmiyyətinə görə dünyanın bütün aparıcı dövlətlərinin qloballaşma və inteqrasiya mərkəzlərinin, beynəlxalq və regional təşkilatların diqqətini daim özünə cəlb etmişdir. Bu bölgənin Avropa ilə Asiya qovşağında yerləşməsi onu dünyanın əsas nəqliyyat-kommunikasiya (su, hava və quru) dəhlizi kimi tanıtmış və transmilli bir faktora çevirmişdir. Ərazi xarakteristikası (təbii xammal mənbələri ilə zənginliyi, mühüm geostrateji əraziləri), əmək resurslarının potensialı (ucuz işçi qüvvəsi, istehsalat, satış bazarları imkanlarının genişliyi, transmilli inkişafa meyliyi və s.), dünya enerji və xammal ehtiyyatlarının böyük qisminə malik olması və s. onun transmilli geostrateji əhəmiyyətini artırmışdır. Hər iki faktor eyni zamanda beynəl-

xalq sülh, təhlükəsizlik üçün kəsb etdiyi əhəmiyyəti də nəzərə alınmaqla, bu bölgəni dünya siyasətinin mərkəzinə çevirmişdir. Avrasiya beynəlxalq əhəmiyyəti ilə yanaşı, həm də region xalqlarının yaşadığı, region ölkələrinin mövcud olduğu konkret bir məkandır. Hər bir Avrasiya ölkəsi böyüklüyündən və kiçikliyindən asılı olmayaraq, bölgədə öz milli marağını təmin etmək məqsədilə xüsusi xarici siyasət aparır, dünya və region dövlətləri ilə münasibət qurur, iqtisadi, siyasi, hərbi, mədəni bloklar yaradır, transmilli və regional inteqrasiya və b. proseslərdə iştirak edir. Bu anlamda onlar bəzən bir-biri ilə və regionda marağı olan digər böyük dövlətlərlə toqquşur, münaqişəyə girir ki, bu da regionda qruplaşmalara, qarşıdurmalara və subregional bloklaşmalara şərait yaradır (2, s.542).

Dünya enerji resursları sırasında neftdən sonra ən önəmli yeri təbii qaz tutur. Bu yanacaq neftdən həm ucuzdu, həm də onun ehtiyyatları yer kürəsində daha çoxdur, təxminən 120-150 trilyon ton təşkil edir. Buna görə qaz əslində "ehtiyat yanacaq" növü kimi dəyərləndirilir. Mütəxəssislərin fikrinə görə, yer kürəsində neft ehtiyatları 50-100 il, qaz ehtiyatları isə 100-150 il insanların ehtiyacını tam ödəmək iqtidarındadır. Dünyanın ən çox qaz ehtiyatına malik və ən çox qaz istehsal edən ölkələri sırasında Rusiya durur. Dünya qaz ehtiyatlarının 23 faizi bu ölkəyə məxsusdur və hər il orta hesabla 574 milyard kubmetr qaz istehsal edir. ABŞ-a isə müvafiq olaraq qazın 21,3 faizi məxsusdur və 550 milyard kubmetr qaz istehsal edir. Rusiya özünün və Türkmənistan qazının Avropa və Asiya məkanına əsas ixraccısıdır. Hər il bu ölkə dünyanın qaz təminatının təxminən 40-45 faizini ödəyir. Rusiyanın hər il təxminən 15-20 milyard dollarlıq Avropaya ixrac etdiyi təbii qaz və ona malik olduğu qaz kəmərlər sistemi həm ölkə üçün, həm də Avropanın geosiyasi mexanizmlərinə geniş imkanlar yaradır. Rusiya təbii qazını Avropanın bir sıra dövlətlərinə ixrac edir. Urenqoydan başlayaraq Ukrayna, Macarıstan, Slovakiya, Avstriya, Çexiyadan keçən boru kəməri, Rusiyadan Baltik dənizin dibi ilə Almaniyaya keçən "Şimal axın" kəməri, "Türk axını" və tam tikilmiş "Şimal axın-2" nəhəng qaz kəməri layihələri Rusiyaya faktiki olaraq bütün Avropa bazarları ilə ticarət etmək imkanı verir. Həmçinin, Rusiya Türkmənistan qazını ucuz qiymətə alandan sonra dünya bazarlarına ixrac edir. Rusiya həm də geniş qaz və kəmər üstünlüklərindən istifadə edərək özünün xüsusi geosiyasi maraqlarını, xarici dövlətlərlə əlaqələrini qoruyub saxlayır (2, s.657-658).

Əlbəttə ki, ABŞ və Avropa İttifaqının 2014-cü ildə Rusiyaya qarşı tətbiq etdiyi iqtisadi sanksiyalardan sonra Rusiya Prezidenti V.Putin bildirdi: "Rusiyadan Avropaya çəkilməli olan "Cənub axını" layihəsi ləğv olunur". Bundan sonra, 2014-cü il dekabrın 1-də Rusiya və Türkiyə arasında qaz boru kəməri barədə saziş imzalandı. Daha sonra Rusiyadan Avropaya satılacaq təbii qaz Qara dənizin dibi ilə Türkiyədən keçməli olan "Türk axını" layihəsi hazırlandı. Layihəyə aid olan sənəd Rusiya Prezidenti V.Putin və Türkiyə Prezidenti R.T.Ərdoğan tərəfindən 2016-cı il oktyabrın 10-da imzalandı. Layihəyə əsasən, təbii qaz Rusiyadan Türkiyəyə və cənub-şərqi Avropa ölkələrinə (Bolqarıstan, Serbiya, Macarıstan) çatdırılmalıdır. "Türk axını" layihəsinin həyata keçirilməsi həm Rusiya, həm də Türkiyə üçün xüsusi önəmlidir.

"Türk axını" layihəsini Cənub axınından fərqləndirən əsas cəhət ondan ibarətdir ki, Rusiyaya məxsus olan bu boru kəməri Qara dənizin dibi ilə Ukraynadan yan keçərək Türkiyəyə, oradan da Avropa dövlətlərinə qaz çatdıracaq. Türkiyə isə öz növbəsində boru kəməri vasitəsi ilə təbii qazın onun ərazisindən ötürülməsinə əsaslanaraq regionda mövqeyini daha da möhkəmləndirəcək. Bu layihə ilə Türkiyə həm Rusiyadan təbii qaz idxal olunur, həm də Rusiya qazını Avropa dövlətlərinə nəql olunmasında tranzit dövlət qismində iştirak edir. "Türk axını" layihəsi beynəlxalq münasibətlər sistemində və beynəlxalq iqtisadi əlaqələrdə Rusiya və Türkiyənin geosiyasi, geoiqtisadi və geostrateji mövqelərini gücləndirir, çünki Rusiyanın enerji potensialı və Türkiyənin coğrafi məkanı iki dövlətin Avrasiya regionundakı nüfuzunu artırır. Avropa İttifaqının əksər dövlətləri ABŞ qazı deyil, məhz Rusiya qazı idxal etməkdə maraqlıdırlar. Bu ölkələr əsasən Almaniya, Fransa, İtaliya, Bolqarıstan, Macarıstan, Serbiya və Avstriyadır. Bunun əsas səbəbi isə ondan ibarətdir ki, Rusiyanın təbii qazı ABŞ-ın qazından qat-qat keyfiyyətlidir, daşınması asandır, qiyməti isə aşağıdır. ABŞ qazı isə müasir qeyri-ənənəvi şist qazı kimi çıxarılır sonradan maye halına çevrilir, bu həm kifayət qədər vaxt tələb edir, həm də maliyyə cəhətdən sərfəli deyil. Deyilən səbəblərə görə bir çox Avropa dövlətləri Rusiyanın təbii qazını ABŞ-ın şist qazından üstün tuturlar.

"Türk axını" layihəsinin tikintisi 2017-ci ilin may ayında Rusiyanın sahillərindən başlandı. Növbəti ilin, yəni 2018-ci ilin noyabr ayında boru kəmərin artıq 930 kilometri tikilmişdi, 2019-cu

ildə isə layihənin həm Rusiyaya, həm də Türkiyəyə aid olan boru kəmərinin hissələri tikildikdən sonra təbii qaz öz ünvanına çatdı. Qeyd etmək lazımdır ki, "Türk axını" istismara verilənə qədər Rusiyadan Türkiyəyə qaz "Mavi axını" vasitəsilə ilə ötürülürdü. Bu layihənin tikintisində yüksək texnologiyaya malik olan ən son avadanlıqlar istifadə olunmuşdu, tikinti zamanı 1 gündə 6 kilometr boru kəmərin salınması barədə məlumat verilmişdi (5).

"Türk axını" layihəsi dövlətlər arasında çox gərgin beynəlxalq münasibətlər olan zamanda həyata keçirilib. "Cənub axını" layihəsinin reallaşmaması Rusiya- Avropa İttifaqı münasibətlərində gərginliyin olmasından baş vermişdi. "Cənub axını" vasitəsi ilə ildə 30 milyard kubmetr qaz ixrac edilməli idi, lakin, 2014-cü ildən Bolqarıstan tərəfindən boru kəmərinin tikintisi barədə əvvəlcə bəzi narazılıqların meydana çıxması, sonradan isə Bolqarıstanın kəmərin tikintisinə razılıq verməsinə baxmayaraq bu layihədən imtina edildi. Eyni zamanda "Türk axını" boru kəmərinin tikintisi üçün qanun qəbul edildi, 2015-ci il ərzində Rusiya və Türkiyə arasında danışıqlar aparıldı, bir müddət sonra 2016-cı ilin ortalarında "Türk axını" barədə Rusiya-Türkiyə danışıqları davam etdirildi. Bu dövrdə ABŞ tərəfindən "Türk axını" və "Şimal axını-2" layihələrinə qarşı sanksiya tətbiq edildi (7).

Türkiyənin Prezidenti R.T.Ərdoğan xüsusilə qeyd etmişdi ki, "Türkiyə Avropa üçün tranzit dövlət olmaq istəyir və Rusiya ilə enerji dəhliz yolunu qurmaq planlaşdırır. Türkiyə Rusiyanın "Türk axını" layihəsini müsbət qarşılayır. Bu qaz boru kəməri ilə Rusiya qazı Qara dənizdən keçərək Balkan yarımadasına çatacaq". Bu boru xəttinin ilk tikilmə məsələsi 2014-cü ilin dekabr ayında Türkiyədə də səslənmişdi. Həmin dövrdə Bolqarıstan ilə keçən "Cənub axın" layihəsi əvəzinə Türkiyədən keçən "Türk axını" layihəsi qəbul edildi. Səbəb isə Rusiya ilə Avropa İttifaqının siyasi və iqtisadi qarşıdurmasıdır. Rusiyanın "Qazprom" şirkəti ilə Türkiyənin "Botaş" şirkəti arasında layihəyə aid olan sənəd tez bir zamanda imzalandı. Sənədə görə, ildə 63 milyard kubmetr qazın 14 milyard kubmetri Türkiyəyə, qalan hissəsi isə Avropaya çatmalıdır. Rusiyanın Energetika naziri A.Novak layihə ilə əlaqədar bildirmişdi ki, "Türk axını layihəsinin dəniz hissəsinə Qazprom, kəmərin Türkiyə hissəsinə isə Botaş şirkəti rəhbərlik edəcək" (6).

Dünya dövlətləri sırasında Rusiyanın ən yaxın müttəfiqlərindən biri, siyasi cəhətdən Avrasiya dövləti hesab olunan Türkiyədir. Bu dövlətin ərazisi 780,6 min kvadrat kilometrdir. Ərazisinin 23,7 min kvadrat kilometri Avropa qitəsinə düşür. Əvvəllər Türkiyə beynəlxalq münasibətlər sistemində Avropa və qərb yönümlü olsa da, son zamanlar xarici siyasət və beynəlxalq əlaqələr sistemində Rusiyaya yaxınlaşır. Təbii ehtiyyatların o qədər də zənginliyi ilə seçilməyən, 80 milyon nəfər əhalisi olan Türkiyə üçün iqtisadiyyatının genişlənməsi və möhkəmlənməsi çox önəmlidir. Türkiyənin Asiya, Afrika və Avropa qitələrinə gedən beynəlxalq tranzit yolların mərkəzində yerləşməsi onun iqtisadiyyatı üçün çox önəmlidir.

Türkiyənin qeyri-neft sektorunun çox inkişaf etməsinə baxmayaraq, Türkiyədə neft sənayesi də inkişaf edib. Türkiyənin beynəlxalq neft şirkətləri Britiş Petrolium Korporayşın (British Petroleum Corporation) və BOTAŞ dünyanın bir çox ölkələrində neft, neft məhsulları və təbii qaz sahəsində ticarət aparır. Türkiyənin beynəlxalq iqtisadi əlaqələr sistemində ərazi faktoru da mühüm rol oynayır, onun 4 dənizlə (Aralıq, Qara, Egey, Mərmərə) əhatə olunması gələcək inkişafı üçun vacibdir, çünki bu dənizlər ticarət nəqliyyatında əsas yer tutur.

Rusiya və Türkiyə dövlətləri arasında iqtisadi əlaqələrin inkişafından danışarkan Rusiya Prezidenti V.Putin deyib: "Türkiyə ilə əlaqələrimiz həm dərinləşir, həm də əhatə dairəsi genişlənir". Əsasən iqtisadiyyat və enerji sahələrində olan əlaqələrin inkişafı bu dövlətlər üçün çox mühüm yer tutur. Türkiyə və Rusiya arasında olan Türk axınından başqa "Akkuyu" AES-ı da var. Rusiyanın "Rosatom" şirkəti tərəfindən Türkiyənin Aralıq dənizi sahilində yerləşən Mersin şəhərində Atom Elektrik Stansiyasının tikilməsi, tikinti işlərinin 2018-2023-cü illərdə həyata keçirilməsi planlaşdırılır. Bunlardan başqa Rusiya ilə Türkiyə arasında turizm, idman, mədəniyyət , təhsil, səhiyyə sahələrinə də aid olan dövlət sənədləri imzalanıb. Əsas hesab olunan energetika, ticarət, nəqliyyat, maşınqayırma və s. sahələrə də vacib yer verilir.

İki dövlət arasında hərbi sahədə əməkdaşlıq artmaqda davam edir, məsələn Türkiyənin Rusiyadan "S-400" ZRK-nın alması bu ölkələri daha da yaxınlaşdırdı. Lakin bu əlaqələrinin inkişafını sanksiyalarla pozmaq istəyən ABŞ Türkiyəni özünə qarşı etdi. "Türkiyə baxmayaraq ki, NATO-nun üzvüdür o Rusiya ilə siyasi, iqtisadi, hərbi və s. münasibətlərini kəsmək fikrində deyil" - deyə Türki-

yə Prezidenti R.T.Ərdoğan bildirib. "Türk axını" layihəsinin əhəmiyyəti hər iki dövlət üçün çox önəmlidir. Bu layihə Rusiya üçün geosiyasi və iqtisadi tərəfdən onun ixrac marşrutlarını şaxələndirəcək və qərb dövlətlərini Rusiya ilə daha geniş münasibətlər yaratmağa təkan verəcək. Türkiyə üçün də bu layihənin böyük əhəmiyyəti var, Yaxın Şərq ölkələri, Rusiya və Azərbaycandan keçən enerji marşrutları Türkiyədə cəmləşəcək. Bu o deməkdir ki, Türkiyə dünyada olan enerji marşrutlarının keçdiyi tranzit dövlət olacaq. Rusiya və Türkiyə dövlətləri tərəfindən bir çox layihələr həyata keçirilib. Amma, "Türk axını" layihəsi bu iki dövlətin beynəlxalq iqtisadi əlaqələrinin stabil bazasının bünövrəsini qoydu.

Xüsusilə qeyd etmək lazımdır ki, V.Putin Prezident seçilməsi ilə Rusiyada dirçəlişə doğru yeni dövr başlandı, çünki SSRİ-nin dağılmasından başlayaraq Rusiyanın iqtisadi vəziyyəti böhran içində idi. Böhran ölkə sənayesinin bütün sahələrini əhatə edirdi, xüsusən xammal emalı sahələri olan maşınqayırma, gəmiqayırma, kimya, neftkimyası, metallurgiya, hərbi sənaye müəssisələri daha çox ziyan çəkirdilər. Rusiya Federasiyası həm siyasi, həm də iqtisadi cəhətdən ABŞ və Avropa İttifaqından asılı idi. SSRİ-nin dağılması Rusiyanın iqtisadiyyatına güclü zərbə vurdu, nəticədə idxal olunan malların qiyməti xeyli artdı. Əlbəttə ki, bunlarda öz növbəsində istehsal xərclərinin yüksəlməsinə və daxili bazarda qiymətlərin bahalaşmasına gətirib çıxartdı. Lakin, V.Putin Rusiya Prezidenti seçilməndən sonra ölkənin həm daxili, həm də xarici siyasi və iqtisadi sistemi yenidən quruldu. İslahatlar nəticəsində keçmiş sənaye sahələr yenidən bərpa olundu və nəticədə iqtisadiyyatda ciddi dəyişikliklər müşahidə olundu. Beynəlxalq standartlara uyğun yeni sənaye sahələri yaradıldı, bununla da iqtisadiyyatda maliyyə yatırımı artdı.

Son zamanlar Rusiya Federasiyası dinamik inkişaf edən ölkə olaraq ABŞ və Avropa İttifaqı ilə yanaşı dünyanın iqtisadi güc mərkəzlərindən biri sayılır. Rusiya Avrasiya regionunda xarici ticarətdə ən qabaqcıl yerlərdən birini tutur. Rusiyanın 2014-cü ildən xarici siyasətində də keyfiyyətcə yeni meyllər meydana gəlmişdi, beynəlxalq münasibətlərdə və beynəlxalq inteqrasiya prosesində həlledici qüvvəyə çevrilmək kursu götürülmüşdür. Xüsusilə, 2011-ci ildə "Ərəb baharı" və Suriya problemindən sonra ABŞ-ın digər dövlətlərlə hərbi tərəfdaşlıq siyasəti tam iflasa uğradı. Rusiya Suriya problemini həll edəndən sonra özünü dünyada ən güclü fövqəldövlət statusunu bərpa etməyə başladı. Qeyd etmək lazımdır ki, 2014-cü ildən bəri Rusiyanın xarici siyasətində güclü inkişaf müşahidə olunmuşdu. Siyasi, iqtisadi və hərbi gücün kifayət qədər yüksəlişi Rusiyaya imkan yaratmışdır ki, beynəlxalq münasibətlər sistemində dövlətlərarası problemlərin həllində iştirak etsin və bu problemləri aradan qaldırsın. Bütün bu deyilənləri nəzərə alan siyasətçilər artıq belə bir qənaəti tez-tez dilə gətirirlər.

Türkiyənin iqtisadiyyatından danışarkan, Ədalət və İnkişaf Partiyasının hakimiyyəti dövründə R.T.Ərdoğanın apardığı siyasətin əsasını yerli iqtisadi şərtlər beynəlxalq standartlara çatdırılmasını təşkil edir, aparılan bu siyasət öz müsbət nəticələrini verir. Məhz, son 15 il ərzində Türkiyənin qazandığı həm daxili, həm də xarici siyasi və iqtisadi uğurlar Prezident R.T.Ərdoğanın sahəsində əldə edilib. Həmçinin, qeyd etmək lazımdır ki, Türkiyə misli görünməyən bir sürətlə inkişaf etməkdə olan ölkədən (İEOÖ) inkişaf etmiş ölkəyə (İEÖ) çevrildi. Türkiyə neft ölkəsi olmasada, neft emalı sahəsində dünyada ən qabaqcıl ölkələrdən biri sayılır. Qeyd etmək lazımdır ki, Türkiyəyə neft Azərbaycandan ixrac olunur, neft emalı sənayesində isə Türkiyədə neft avadanlıqlarının istehsalı xüsusi yer tutur. Bunlardan əlavə Türkiyə texniki avadanlıqlar istehsal etməyə də başladı. Türkiyənin iqtisadiyyatında maşınqayırma, gəmiqayırma, hərbi məhsulların istehsalı və s. tikinti sənayesinin məhsulları həm daxili tələbatda, həm də ixracda mühüm yer tutur. Türkiyədə aqrar sahədə də islahatlar aparıldı. Kənd təsərrufatının sürətli inkişafına dair qəbul edilmiş qərarlara görə, kəndlilərin təsərrufat fəaliyyətinə və məsuliyyətinə xüsusi önəm verilməyə başlandı. Kəndlilərin müxtəlif şərtlər daxilində müstəqil təsərrufat aparılmasına şərait yaradıldı.

Qısa zaman ərzində Türkiyə nəinki regionun eləcə də dünyanın güclü siyasi və iqtisadi potensialına malik olan qüvvətli dövlətə çevrildi. Bu qüdrət Türkiyəyə imkan verdi ki, öz keçmiş nüfuzunu bərpa edə bilsin. Əgər, Türkiyə bu günə qədər iqtisadi məsələlərdə idxal edən dövlət idisə, artıq bu gün Türkiyə ixrac edən dövlətdir. Yuxarıda deyildiyi kimi Türkiyə R.T.Ərdoğana qədər daha çox idxal edən ölkə idi. Lakın R.T.Ərdoğan hakimiyyətə gəldikdən sonra Türkiyənin iqtisadi siyasəti gücləndi. Hal-hazırda Türkiyə malları Rusiya, Avropa İttifaqı və Avrasiya bazarlarında özünə yer tapıb. Xüsusən, nəzərə almaq lazımdır ki, Türkiyə faktiki olaraq yerli xammal və enerji mənbələrinə

malik olmayan ölkədir. Bəlli olduğu kimi Türkiyə iqtisadiyyatının inkişafında onun coğrafi mövqeyi xüsusi yer tutur. İstanbul şəhəri Avropa ilə Asiyanın mərkəzində yerləşir, bununla belə Türkiyə qərb dövlətləri və şərq ölkələri arasında mərkəz yeri tutur. İstanbul şəhəri öz mövqeyi ilə Osmanlı imperiyası dövründə məşhurluğu ilə seçilib və demək olar ki, müasir dövrdə də möhtəşəmliyi ilə fərqlənir.

Nəticə. Türkiyə-Rusiya əlaqələrin inkişafı və onların mövqelərinin möhkəmlənməsi beynəlxalq münasibətlər sistemində xüsusi yer tutur. Son zamanlar Türkiyə və Rusiya dövlət və hökümət başçıları arasında yüksək səviyyəli müntəzəm görüşlərin keçirilməsi vacib önəm daşıyır. Görüşlərdə regionların siyasi, iqtisadi və hərbi problemlərinin müzakirə edilməsi və bir sıra ziddiyyətlərin həll olunması barədə məsələlər müzakirə olunur. Lakin, qeyd etmək lazımdır ki, həm Rusiyada, həm də Türkiyədə olan bəzi solçu qüvvələr Rusiya-Türkiyə ittifaqının qurulmasını istəmirlər, hakimiyyətə qarşı çıxışları ilə öz məqsədlərini güdürlər, onlar əsasən ABŞ və bəzi Avropa İttifaqı dövlətlərinin tərəfdarlarıdırlar. Bu çətinliklərə baxmayaraq, Rusiya-Türkiyə əməkdaşlığın inkişafı davam etməkdədir.

ƏDƏBİYYAT

1. Həsənov Ə.M. Geosiyasət. Dərslik. Bakı, "Aypara-3" nəşriyyatı, 2010, 604 s. İSBN 978-9952-29-029-5
2. Həsənov. Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005, 725 s.
3. Rafiq Bəy İsmayıl, Nərgiz Axundova, Aida Bağırova.Asiya və Afrika ölkələrinin çağdaş tarixi (1945-ci ildən sonrakı dövr) II kitab (Güney-Batı Asiya və Quzey Afrika ölkələri). Ali məktəblər üçün dərslik. Bakı: «Adiloğlu» nəşriyyatı, 2004, 656 s.
4. Панкратенко И.Н. Россия-Турция: сложные нюансы взаимоотношений. Москва, АНО ЦСОиП, 2015, 52 с.
5. Путин: РФ и Турция в будущем реализуют еще много совместных проектов. - https://rg.ru/2020/01/08/putin-rf-i-turciia-v-budushchem-realizuiut-eshche-mnogo-sovmestnyh-proektov.html [Müraciət tarixi: 29.01.2022].
6. Россия и Турция сделали "газовый рывок" в отношениях. - https://ria.ru/20161010/1478918382.html [Müraciət tarixi: 29.01.2022].
7. Турецкий поток": изменит ли газопровод энергетический рынок в Европе?. - https://tass.ru/opinions/7510353 [Müraciət tarixi: 29.01.2022].

РАУФ ГАСАНОВ
Докторант кафедры Международных отношений,
Бакинский Государственный Университет

РОЛЬ РОССИИ И ТУРЦИИ В МЕЖДУНАРОДНЫХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ

В статье говорится о международных экономических процессах происходящих в мире. Также анализируется динамика, структурные особенности торговых и экономических отношений России и Турции начиная с 1992 года по сегодняшний день. Особое место в статье занимает «Турецкий поток». Уделяется внимание двухсторонним Российско-Турецким отношениям на международной арене.

Ключевые слова: Экономические процессы в мире, Голубой поток, Южный поток, Турецкий поток, Российско-Турецкие отношения.

RAUF HASANOV
Doctorate of the department international relations,
Baku State University

THE ROLE OF RUSSIA AND TURKEY IN THE INTERNATIONAL ECONOMIC RELATIONS

In this article talks about the international economic processes that take place in the world. It also analyzes the dynamics, structural features of trade and economic relations between Russia and

Turkey since 1992 till present day. A special place in the article is written about “Turkish Stream”. Also in the article talks about bilateral Russian-Turkish relations in the international arena.

Keywords: World economic processes, Blue stream, South stream, Turkish stream, Russian-Turkish relations.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 29 yanvar 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Qurban Məmmədov, t.e.d. Sani Hacıyev.

UOT 32:93/94

СОНА АБАСОВА
Диссертант Бакинского Государственного Университета
sabasova9@gmail.com

ПОЛИТИЧЕСКИЕ ФАКТОРЫ, ОКАЗЫВАЮЩИЕ ВЛИЯНИЕ НА МЕЖДУНАРОДНЫЕ ТУРИСТИЧЕСКИЕ ПОТОКИ

В данной статье рассматривается три политических фактора, оказывающих влияние на международные туристические потоки. Автор раскрывает роль международного сотрудничества, государственной политики в области туризма и политической обстановки. Также рассматривается государственная политика в области туризма, то как, оптимальное и эффективное построение, и реализование влияет на роль и место конкретного государства на рынке международного туризма.

Ключевые слова: международное сотрудничество, государственная политика, политическая обстановка, туристическая область.

Введение. Рассмотрив ряд источников, можно выделить некоторые классификации факторов, которые влияют на развитие туризма туристические потоки, в которых особое место занимают политические. Факторы, воздействующие на туризм и туристические потоки, подразделяются на две группы: внешние и внутренние. К внешним факторам относятся: политико-правовые, социально-культурные, природно-географические, демографические, научно-технические, экологические, культурно-исторические, экономические, демографические.

ВТО в своих рекомендациях выделяют роль государства и правительство в развитии туризма. Во всех сильных туристических державах есть такая организация, как Национальная Туристическая Администрация, подчиненная министерствам, которая занимается разработкой национальных программ развития туризма. Именно она содержит представительства по туризму в других странах, разрабатывает привлекающие туристов программы и обеспечивает поток туристической информации.

Существует ряд принципов международного сотрудничества, некоторые из них важны с точки зрения политического влияния на развитие международных туристических потоков. Один из главных принципов подача объективной информации о деятельности разных стран в сфере туризма, которая определяет специфику туристического сотрудничества. Объективная информация о состоянии туризма в государствах является одним из важных факторов в установлении и развитии сотрудничества. Следующий принцип заключается в регулярности и доступности участия каждой страны в туристических мероприятиях. Этот принцип основывается на сотрудничестве в туризме разных государств. Сотрудничество между странами не должно ограничиваться только организацией поездок туристов в их страны. Специалисты пришли к выводу, что необходимы встречи для решения проблем по профессиональной подготовке персонала в сфере туризма, внедрения компьютерной техники, что успешно решается в ходе научно-практических всемирных конференций, выставок-ярмарок, других мероприятий.

Так, для развития туристических потоков необходим диалог между государствами в плане продвижения национального туристского продукта, чему благоприятствуют международные выставочно-ярмарочные мероприятия. Можно выделить такие международные туристские выставки и биржы - международная туристическая биржа в Берлине (International Tourismus Borse), FITUR в Мадриде, в Милане; всемирная туристическая выставка в Лондоне (World Travel Market); международная выставка «Путешествия и туризм» в Москве (МИТТ). В общей сложности существует около 70 международных организаций, которые занимаются развитием международного туризма (специализированные организации в системе ООН, неправительственные специализированные организации по международному туризму, региональные и национальные организации по туризму).

Существуют различные уровни, на которых формируется и реализуется туристическая политика: государственный, региональный, уровень отдельного предприятия. Государствен-

ная политика в области туризма формируется под влиянием определенных факторов: природные условия страны (климат, географическое положение и т. д), транспортные условия, социальные, экономические и правовые условия развития туризма.

Роль и место государства на рынке международного туризма зависит от эффективного построения туристической политики. Туристическая политика должна рассматриваться как составная часть общей политики государства в приложении к туризму, как деятельность, взаимосвязанная с экономикой, социальной сферой, культурой, экологией и другими общественно значимыми системами. Для формирования и реализации туристической политики государство выполняет ряд функций, обеспечивающих общественные интересы и жизнедеятельность системы туризма в целом (планирование, регулирование, маркетинг национального туристического продукта).

Международная туристическая политика все более успешно осуществляется в рамках международных туристических организаций, а также политических и экономических союзов государств. Регионы, в которых существуют конфликты между областями или у которых существуют разногласия с другими странами, имеют ограниченные возможности для привлечения туристических потоков. Так, например, в 2012 году территориальная борьба Японии с Китаем затронула туризм. Многие китайские туристы отказались от своих планов поездки в Японию из-за политической напряженности в отношении оспариваемых островов Дяоюйдао. После покупки Японией островов Дяоюйдао в порт Нагасаки зашел только один китайский круизный лайнер, а пассажиропоток упал не менее чем на 60 процентов по сравнению с предыдущими периодами. Тем временем, число китайских посетителей на Окинаву также упало. Около 4300 китайских посетителей отменили свои планируемые поездки в город.

Кроме того, этот фактор может быть дестабилизирован захватом террористами заложников, взрывами в отелях, расовой, этнической и религиозной неприязнью, политической дискриминацией, экономическим давлением (блокадами). Политические изменения оказывают огромное влияние на привлекательность места назначения и частоту путешествий.

В 2014 году в отчете о туристическом рынке Ассоциация британских туристических агентств обнаружила, что популярность «числа популярных мест отдыха зависит от политических, социальных и экономических волнений». К примеру Египет, который начал 2013 год с большим числом посетителей, понес значительные потери из-за политических волнений, что привело к изменениям в рекомендациях Министерства иностранных дел для граждан Великобритании.

Также, многое зависит от самого государства, в котором произошло происшествие, т. е. важны его дальнейшие действия по урегулированию ситуации возможного отрицательного влияния на туристическую сферу. Так, в связи с террористическими актами в Париже и в Брюсселе в 2015 году Ассоциация Европейских туроператоров заявило о необходимости сделать все возможное, чтобы «Европа по-прежнему воспринималась, как безопасное место» [1].

В эпоху растущей политической нестабильности, отрасль туризма переживает значительное испытание. Политическая стабильность и безопасность являются необходимыми условиями для развития туризма, даже сама угроза таких событий, как гражданские беспорядки и терроризм могут привести к тому, что туристы могут пересмотреть свое решение посетить пункт назначения. В некоторых случаях, нестабильность в одной стране, может оказать отрицательное или положительное влияние на отрасль туризма соседних стран. Например, туризм на Мальдивах ощутил на себе последствия политических волнений в Шри-Ланке, так как Мальдивы часто считаются дополнением к данному направлению. Греция, Кипр и Турция выиграли от конфликта в Египте, Израиле, Иордании и Ливане в 1990-х годах. Туристы стали посещать их в качестве альтернативы.

Также в 2021 году Аномальная жара на юге Европы спровоцировала сильные лесные пожары на побережье Средиземного моря от Турции до Италии. В Турции наиболее опасная ситуация сложилась в курортных районах Анталия и Мармарис в провинции Мугла, где срочно пришлось эвакуировать туристов и жителей близлежащих районов, в которых некоторые деревни сгорели дотла. Туристов эвакуировали с пляжей на юго-западе Турции, где находится в том

числе Бодрум, из-за опасений, что бушующие пожары могут охватить гостиницы и дома. По данным турецких СМИ, для обеспечения безопасности туристов были задействованы суда береговой охраны. Также им помогали частные катера и яхты. По данным СМИ в Бодруме были эвакуированы три пятизвездочных отеля. ЕС направил в Турцию пожарную авиацию. Ранее свои самолеты послали Азербайджан, Иран, Россия и Украина [2].

По распоряжению президента Азербайджана Ильхама Алиева на помощь Турции в тушении лесных пожаров направили 500 человек личного состава МЧС, вертолеты и другую необходимую технику. Также было отправлено группа пожарных, состоящая из 100 человек. Россия тоже не осталась в стороне. Президент Турции Реджеп Тайип Эрдоган поблагодарил российского коллегу Владимира Путина за отправку пяти самолетов Ил-76 и трех вертолетов Ми-8. Также на помощь республике в тушении пожаров направят сводную авиагруппировку МЧС и Минобороны РФ из 11 единиц техники [3].

С 30 апреля 2021 года в Крыму из-за высокой пожарной опасности действует особый режим: гражданам запрещено посещать леса и въезжать в лесные массивы на автомобилях. Пожароопасность продлился до августа. Тем временем, как утверждают в российском Министерстве курортов и туризма Крыма, на полуострове к 16 июля отдохнули свыше четырех миллионов туристов [4]. Одновременно от пожаров также страдали Сицилия, Адриатическое побережье Италии и западная Греция. Лесные пожары случаются в Греции почти каждое лето, но в этом году из-за жары они оказались гораздо более сильными и распространились на большей площади. Температура достигло 42 и 44 градусов.

В некоторых случаях, если потрясения произошло в другом конце страны или в отдаленных от международного аэропорта городах, это позволит туристам обойти волнения и не оказать большого влияния на международные туристические потоки. Тем не менее, последствия влияния политических событий в значительной степени зависит от рекомендаций МИД, освещения в прессе и восприятия данного события людьми.

На туристический поток повлиял также пандемия коронавируса. В то время как пандемия стремительно распространялась по миру, политические реалии все еще ограничивали ответные меры политики. На международном уровне меры реагирования правительств на пандемию иллюстрируют сложные политические аспекты мировой кооперации. Каждому правительству приходится принимать трудные решения о надлежащих мерах: какие ограничения ввести и когда их ослабить, на что потратить средства и как их привлечь, какими национальными соображениями можно поступиться в пользу международной кооперации. Эти решения должны учитывать рекомендации в области здравоохранения, экономические соображения и политические ограничения [5].

Туристическая индустрия Бразилии понесла большие убытки: на 80% сократились услуги гостиниц и были закрыты все парки и туристические достопримечательности. Без государственной поддержки она может потерять около 6,2 млрд долл. США, поскольку поток туристов в Бразилию в 2020 году может сократиться на 50%. В конце марта меры по самоизоляции во Франции привели к закрытию 75 000 ресторанов, 3000 клубов и 40 000 кафе. Сообщается, что в туристических районах Соединённого Королевства 80% работников гостиниц и ресторанов были отправлены в отпуск.

Вывод. На состоявшейся 24 апреля 2020 года внеочередной встрече министров туризма стран Группы двадцати было принято министерское заявление по COVID-19. Министры взяли на себя обязательство обмениваться опытом и передовой практикой и укреплять координацию действий правительств в целях принятия комплексных мер реагирования и поддержки посткризисного восстановления.

ЛИТЕРАТУРА

1. Европейский турбизнес обеспокоен влиянием политической обстановки на туризм. - http://www.atorus.ru/news/press-centre/new/33544.html [Müraciət tarixi: 28.01.22].

2. Аномальная жара на юге Европы. - https://www.bbc.com/russian/news-58064380 [Müraciət tarixi: 28.01.22].
3. Пожарные из Азербайджана спасались от стены огня. - https://www.fontanka.ru/2021/07/31/70055114/ [Müraciət tarixi: 09.02.22].
4. Курортный сезон в огне: лесные пожары в Турции и туристы в Крыму. - https://ru.krymr.com/a/turciya-lesnye-pozhary-krym-kurortniy-sezon/31390051.html [Müraciət tarixi: 10.02.22].
5. Меры, политика и пандемия. - https://www.imf.org/external/russian/pubs/ft/fandd/2020/06/pdf/fd0620r.pdf [Müraciət tarixi: 12.02.22].

SONA ABASOVA
Bakı Dövlət Universitetinin dissertantı

BEYNƏLXALQ TURİST AXINLARINA TƏSİR EDƏN SİYASİ AMİLLƏR

Bu məqalə beynəlxalq turist axınına təsir edən üç siyasi amil araşdırılır. Müəllif beynəlxalq əməkdaşlığın, turizm sahəsində dövlət siyasətinin və siyasi vəziyyətin rolunu təhlil edir. Həmçinin turizm sahəsində dövlət siyasəti, onun quruluşunun optimal və səmərəli aparılması və həyata keçirilməsinin dövlətin beynəlxalq turizm bazarındakı roluna və yerinə necə təsir göstərdiyi nəzərdən keçirilir.

Açar sözlər: beynəlxalq əməkdaşlıq, dövlət siyasəti, siyasi vəziyyət, turizm sahəsi.

SONA ABASOVA
PhD student of Baku State University

POLITICAL FACTORS AFFECTING INTERNATIONAL TOURIST FLOWS

This article examines three political factors influencing the flow of international tourists. The author analyzes the role of international cooperation, state policy and the political situation in the field of tourism. It also examines the goverment policy in the field of tourism, the optimal and effective conduct and implementation of its structure and how it affects the role and place of the state in the international tourism field.

Key words: international cooperation, state policy, political situation, tourism area.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Sevinc Yusifzadə.

UOT 94(479.24); UOT 32:93/94

RAİDƏ ƏMİRBƏYOVA
Avropa Şurasının Uşaq Hüquqları üzrə
Rəhbər Komitəsinin üzvü, Azərbaycan Universitetinin doktarantı
r.amirbayova@gmail.com

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARIN SOSİAL MÜDAFİƏSİ SAHƏSİNDƏ QEYRİ-HÖKUMƏT SEKTORUN ROLU (2004-2015-ci illər)

Məqalədə müstəqillik illərində Azərbaycanda valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri və bu sahədə Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş müvafiq təşəbbüslər araşdırılmışdır.

Açar sözlər: müstəqillik, uşaq siyasəti, qanunvericilik, beynəlxalq konvensiyalar, dövlət proqramları, uşaq təsisatları, qeyri-hökumət sektoru.

Giriş. Ölkəmiz müstəqillik əldə etdikdən sonra uşaq siyasətin uğurlu fəaliyyəti üçün böyük addımlar atmışdır. Azərbaycan Respublikası uşaq hüquqlarının müdafiəsi sahəsində bir sıra beynəlxalq sənədlərə qoşulmuş və bu sahədə aidiyyəti hüquqi mexanizmləri qəbul etmişdir.

Bu illər ərzində mütəmadi olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, formalaşması, sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir.

Uşaq hüquqlarının müdafiəsi sahəsində ictimaiyyətin, o cümlədən qeyri-hökumət təşkilatlarının cəlb edilməsi və bu sahədə dövlət və qeyri-hökümət sektorun birgə fəaliyyətlər üzrə koordinasiya işinin gücləndirilməsi prioritet məsələlərdən biridir.

Müstəqillik illərində Azərbaycanda valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində dövlət siyasətinin əsas istiqamətləri. Uşaq hüquqlarının müdafiəsi ilə bağlı ilk beynəlxalq sənəd - Uşaq Hüquqları Haqqında Konvensiya Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1949-cu ildə qəbul olunub. 1991-ci il oktyabrın 18-də özünün dövlət müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox keçmədən, 1992-ci ildə həmin konvensiyaya qoşulub. Bu beynəlxalq sənəd ölkəmizin qoşulduğu ilk beynəlxalq sənədlərdən biri olmuşdur. Azərbaycan Hökuməti Konvensiya üzrə BMT-nin Uşaq Hüquqları Komitəsinə dövri məruzələr təqdim etməyə başladı [1].

1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmişdir.

Azərbaycan, eyni zamanda, "Ölkələrarası övladlığa götürmə ilə bağlı uşaqların müdafiəsi və əməkdaşlıq haqqında", "Uşaqların kənd təsərrüfatında işə buraxılmasının minimum yaşı haqqında", "Uşaq əməyinin ən pis formalarının qadağan edilməsinə və onların aradan qaldırılması üçün təcili tədbirlərə dair" və digər Konvensiyalara da qoşulmuşdur. Dövlət tərəfindən ratifikasiya edilmiş konvensiyalara əsasən daxili qanunvericilikdə mühüm islahatlar aparılmışdır.

XX əsrin sonlarında iqtisadi keçid dövrünün ciddi problemləri, Ermənistanın Azərbaycana təcavüzü və torpaqlarımızın 20 faizini zəbt etməsi bir sıra xoşagəlməz, mənfi sosial hadisələrin baş verməsinə gətirib çıxarmışdır. Ölkədə bir milyon Azərbaycan vətəndaşı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür, onların üç yüz mindən çoxu uşaqlardır. Bu da təbii ki, uşaq problemlərini və onların hüquqlarının kobud surətdə pozulmasını yaradan amildir. 1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, ermənilərin Azərbaycanda uşaqları qətlə yetirilməsi faktları qeydə alınmaqda davam edir. Bu hərbi münaqişə zamanı 175 uşaq qətlə yetirilmiş, yaralanan uşaqların sayı isə yüzlərlə olmuşdur. Dövlətimiz münaqişə müddətində 214 uşağın əsir və girovluqdan azad edilməsinə nail olmuşdur, 66 uşaq itkin düşmüşdür [2].

Zaman keçdikcə, ölkədə uşaq məsələləri kompleks yanaşma tələb edirdi. Və bu zərurət bu sahədə fəaliyyət göstərəcək dövlət qurumunun yaranmasına səbəb oldu. 6 fevral 2006-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ya-

radıldı [3]. Yarandığı gündən etibarən Komitə ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahələrində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak edir, bu siyasətin həyata keçirilməsi və inkişafını təmin edir, qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2008-ci il tarixli, 103 saylı Sərəncamı ilə 2009-cu il "Uşaq ili" elan olunmuşdur. Elə həmin il - "Uşaq ili" çərçivəsində 17-18 dekabr tarixlərində Azərbaycanda ilk dəfə Azərbaycan Uşaqlarının I Ümumrespublika Forumu keçirilmişdir. 16 noyabr 2011-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Heydər Əliyev Fondu və BMT Uşaq Fondunun ölkəmizdəki nümayəndəliyinin birgə təşkilatçılığı ilə II Forum keçirilmişdir. 17 noyabr 2014-cü il tarixində keçirilən III Forumda Azərbaycanın bütün şəhər və rayonlarından 350-dən çox uşaq iştirak etmişdir. Forum zamanı uşaqlarla hökumət nümayəndələrinin birbaşa dialoqu baş tutmuşdur. İştirakçılar hökumət üzvlərinə onları maraqlandıran sualları verərək cavab almaq imkanı əldə etmiş, öz təklif və fikirlərini irəli sürmüş, fikir mübadiləsi aparmışlar.

Uşaq məsələləri ilə əlaqədar dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmişdir. 2012-ci ildən Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na əsasən, dövlət müəssisələrində uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinq aparılmışdır. Hazırlanmış tövsiyələr əsasında təlim-tərbiyə müəssisələrində şərait standartlara uyğunlaşdırılmış, mütəxəssislər üçün yeni təlimlər keçirilmişdir.

Tədqiq edilən dövr ərzində qanunvericilik bazasının yaradılması və gücləndirilməsi. Uşaq siyasətinin reallaşmasında güclü qanunvericilik bazasının yaradılması çox vacib idi. Keçən dövr ərzində davamlı olaraq milli qanunvericilik və normativ-hüquqi aktlar təkmilləşdirilmiş, uşaq hüquqlarının müdafiəsi, normal formalaşması və uşaqların sağlam böyüməsinə yönəlmiş bir çox Dövlət Proqramları, Tədbirlər Planları qəbul edilmişdir.Bu proqramlar uşaqların hüquq və maraqlarının müdafiəsi, vahid dövlət uşaq siyasətinin formalaşdırılması, bu siyasətin tənzimlənməsi, həyata keçirilməsinin təmin edilməsi, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunması sahəsində milli konsepsiyanı inkişaf etdirməyə yönəlmişdir.

Uşaq hüquqlarının müdafiəsini təmin etmək məqsədilə 19 may 1998-ci ildə "Uşaq hüquqları" haqqında qanun qəbul edilmişdir. Qəbul olunmuş bu mühüm hüquqi sənəd uşaqların hüquqlarını və azadlıqlarını, onlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, müdafiəsi sahəsində dövlət orqanlarının, digər hüquqi və fiziki şəxslərin vəzifələrini müəyyən edir, ailə, cəmiyyət və uşaq münasibətlərinin əsas istiqamətlərini tənzimləyir.

22 iyun 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin qanunu qəbul olunmuş və bu qanun valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların hüquqlarının müdafiəsi sahəsində en prioritet normativ-hüquqi aktlardan biridir.

2010-cu ildə Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanunda məişət zorakılığından əziyyət çəkən yetkinlik yaşına çatmamış şəxslərin hüquqlarının və mənafelərinin müdafiəsi ilə bağlı müəyyən müddəalar mövcuddur.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanundan, digər normativ hüquqi-aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdən ibarətdir.

2004-2015-ci illər çərçivəində valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində Heydər Əliyev Fondunun rolu. 2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm və texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir.

Heydər Əliyev Fondunun fəaliyyətində uşaqların müdafiəsinin başlıca yer tutur. 2004-cü ildən cəmiyyət həyatında fəal mövqe tutan Heydər Əliyev Fondunun reallaşdırdığı ilk layihə, təsadüfi deyil ki, "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" olmuşdur. Bu layihə ölkədəki uşaq evləri

və internat məktəblərinin çoxunda mövcud vəziyyəti kökündən dəyişməyə, uşaqların sosial şəraitini yaxşılaşdırmağa, təlim-tərbiyənin səviyyəsini yüksəltməyə, ən başlıcası isə, ailə mühitinə yaxın olan şəraitdə böyümələrinə imkan yaratmışdır. İndiyədək Heydər Əliyev Fondu tərəfindən respublikada fəaliyyət göstərən uşaq evi və internat məktəbində təmir və yenidənqurma işləri aparılmışdır.

Ötən dövrdə uşaqların müdafiəsi mexanizminin müəyyən edilməsi və yeni alternativ qayğı formalarının yaradılması sahəsində yaxşı irəliləyişlər əldə edilmişdir. Ailə qayğısından məhrum olan uşaqların problemlərinə diqqəti artırmaq məqsədi ilə 2005-ci ildə qurumun təşəbbüsü ilə Azərbaycan hökuməti, beynəlxalq və qeyri-hökumət təşkilatları, uşaq evləri və internat məktəbləri nümayəndələrinin iştirakı ilə "Uşaq evlərindən uşaqların ailələrə verilməsi və Azərbaycan Respublikasında alternativ qayğı" mövzusunda "dəyirmi masa" keçirilmiş, səmərəli diskussiyalar aparılmışdır.

Həmçinin Fondun dəstəyi ilə uşaq evləri və internat məktəblərinin məzunu olan gənclər üçün yaşayış binalar tikilir və istifadəyə verilir. Həmin binalarda kafe və mətbəx, bərbərxana, ticarət salonu, stolüstü oyunlar və internet zalları, camaşırxana var. Mənzillərin hamısı mebel, inventar və avadanlıqla, o cümlədən mətbəx avadanlığı və yataq dəstləri ilə təchiz edilib. Binada fəaliyyət göstərən xidmət sahələrində də məzunların işlə təmin olunmasına dair işlər görülür.

Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olur. Mehriban xanımın təşəbbüsü ilə xüsusilə həssas təbəqədən olan uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması, kimsəsiz, fiziki sağlamlığında problemi olan uşaqların sosial-psixoloji reabilitasiyası üçün resurs mərkəzinin yaradılması, bu uşaqların gələcəkdə məşğulluğunun təmin edilməsi, eləcə də müxtəlif peşələrin öyrədilməsi istiqamətində önəmli layihələr həyata keçirilir. "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində yüzlərlə təhsil ocağı tikilib istifadəyə verilmişdir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramları, eləcə də "Məzun Evi Sosial" Müəssisəsi Fondun xidmətləri sırasında vurğulamaq olar [4].

Nəticə. Tədqiq edilən dövr ərzində valideyn himayəsindən məhrum olan uşaqların sosial müdafiəsi sahəsində qanunvericilik bazasının yaradılması, dövlət programlarının icrası, maarifləndirici təşəbbüslərinin aparılması uşaq hüquqların müdafiəsi sahəsində yeni düşüncə tərzinin formalaşmasına və müəyyən stereotiplərin aradan qaldırılmasına təkan verib.

Bu sahəyə qeyri-hökümət sektorun cəlb edilməsi, dövlət və vətandaş cəmiyyətinin birgə fəaliyyətlərinin gücləndirilməsi müsbət nəticələrə nail olmasına səbəb olub.

Heydər Əliyev Fondu tərəfindən valideyn himayəsindən məhrum olan uşaqların müdafisəi sahəsində həyata keçirmiş layihələr, yeni məktəblərin inşası, körpələr evi, internat məktəblərinin əsaslı təmiri və yenidən qurulması prosesində yaxından iştirakı Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir.

ƏDƏBİYYAT

1. "Uşaqların layiqli vətəndaş kimi formalaşması prioritet istiqamətdir" - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Bahar Muradova ilə müsahibə / "Azərbaycan" qəzeti, 01.06.2020. - http://www.azerbaijan-news.az/view-190336/usaqlarin-layiqli-vetendas-kimi-formalasmasi-prioritet-istiqametdir [Müraciət tarixi: 01.03.2022].
2. V.Məmmədəliyev, B.Sadıqov, A.Rzayev, A.Sofiyeva. Children are innocent victims of war, Bakı: Neoprint, 2017, 34 s.
3. "Dövlət uşaq siyasəti uğurla davam edir" - Azərbaycan Respublikası Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri Komitəsinin sədri Hicran Hüseynova ilə müsahibə / Səs qəzeti, 23 noyabr 2017. - Mənbə: https://sesqazeti.az/news/interview/648503.html [Müraciət tarixi: 01.03.2022].
4. "Uşaq hüquqları: dünəndən bu günə" - Azərbaycan Respublikası Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri Komitəsinin sədri Hicran Hüseynova ilə müsahibə / "Yeni Azərbaycan", 05.06.2018. - https://www.yeniazerbaycan.com/Sosial_e41464_az.html [Müraciət tarixi: 01.03.2022].

РАИДА АМИРБЕКОВА
Член Руководящего комитета по правам ребенка Совета Европы,
Докторант Азербайджанского Университета

РОЛЬ НЕПРАВИТЕЛЬСТВЕННОГО СЕКТОРА ПО СОЦИАЛЬНОЙ ЗАЩИТЕ ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОГО ПОПЕЧИТЕЛЬСТВА (2004-2015 годы)

В данной статье анализируются основные направления государственной детской политики, а также деятельность и инициативы Фонда Гейдара Алиева по социальной защите детей, лишенных родительского попечительства.

Ключевые слова: независимость, детская политика, законодательство, международные конвенции, государственные программы, детские учреждения, неправительственный сектор.

RAIDA AMIRBAYOVA
Member of the Steering Committee for the Rights of the Child of the Council of Europe,
Doctoral student of Azerbaijan University

THE ROLE OF NON-GOVERNMENTAL SECTOR IN SOCIAL PROTECTION OF CHILDREN DEPRIVED FROM PARENTAL CARE (2004-2015)

This article analyzes the main directions of the implementation of children's policy in the years of independence in the Republic of Azerbaijan. The author also studies the activities and initiatives of Heydar Aliyev Foundation in social protection of children deprived from parental care.

Keywords: independence, children policy, legislation, international conventions, state programs, child institutions, non-governmental sector.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Qabil Əliyev, t.e.d. Sevinc Yusifzadə.

UOT 32:93/94

GÜNEL ÇOBANZADƏ
Bakı Ali Neft Məktəbi - Tarixi araşdırmalar üzrə mütəxəssis
gunelchobanzada@gmail.com

AZƏRBAYCAN NEFT TARİXİNİN İNKŞAF YOLU: BAKI NEFTİ

Azərbaycan öz nefti ilə qədim zamanlardan məşhur olmuşdur. Bəzi qədim və orta əsr mənbələrində tibbdə və məişətdə neftdən istifadə olunması haqqında məlumatlar vardır. Zaman keçdikcə neftin iqtisadi dəyərinin artması onun siyasi arenada böyük nüfuz qazanmasına səbəb oldu. Azərbaycanın regionun ən inkişaf etmiş ölkəsinə çevrilməsində də bu qüvvənin böyük rolu olub. Uzun illər Azərbaycan nefti Rusiyanın müstəmləkə iqtisadiyyatının tərkib hissəsi kimi ölkədən çıxarılıb. Azərbaycan müstəqillik əldə etdikdən sonra neft sahəsində müstəqil iqtisadi siyasət yeritməyə başladı. Xüsusilə, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanın geosiyasi nüfuzunu daha da artıran "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə sayəsində müharibədən yeni çıxan ölkə nəinki bütün dünyada tanındı, həm də tezliklə iqtisadi qüdrət qazandı. Neft siyasəti Azərbaycanın siyasi arenada güclü imicinin formalaşmasında mühüm rol oynayıb. Bu gün uğurla həyata keçirilən siyasət Azərbaycanın sürətlə inkişaf edən ölkələr sırasında möhkəm mövqe tutmasının əsasını təşkil edir. Məqalədə Azərbaycanda neft sənayesinin inkişaf tarixindən və onun ölkənin siyasi, sosial və iqtisadi həyatına təsirindən bəhs edilir.

Açar sözlər: neft, enerji, Azərbaycan, "Əsrin müqaviləsi", iqtisadiyyat, siyasət.

Giriş. Geopolitik və geostrateji baxımdan böyük önəm daşıyan Cənubi Qafqaz regionunda yerləşən Azərbaycan, geniş iqtisadi potensiala, mühüm təbii sərvətlərə, həmçinin qədim və zəngin neft tarixinə malikdir. Bu kimyəvi maddə haqqında erkən məlumatlara eramızın ilk əsrlərinə aid yazılı mənbələrdə və Orta Əsrlər tarixi boyunca xarici səyyah və tarixçilərin əsərlərində rast gəlinir. Xüsusilə də Bakı şəhərinin adı mənbələrdə neft və qaz fontanları ilə birgə çəkilir. Azərbaycan nefti haqqında yazılı mənbələrdə olan ən qədim məlumat antik müəlliflərdən IV əsr Roma tarixçisi Ammian Marselə aiddir [1, s.14]. Orta Əsr Bakı nefti haqqında əhatəli məlumat verən mənbələr sırasında Əbu Duləf, Əl Məsudi,Yaqut Əl Həməvi və başqalarının adını çəkə bilərik.Yaqut Əl Həməvi "Mucəm əl Buldən" adlı əsərində Bakı nefti haqqında belə nəql etmişdir: *Orada (Bakuvyə-G.Ç.) icarə haqqı gündə 1000 dirhəmə çatan böyük bir neft mənbəyi var* [6, s.164]. Antik və orta əsrlərdə əsasən təsərrüfatda və hərbi işdə istifadə edilən neft iqtisadiyyatda və siyasətdə o qədər də əhəmiyyətli rol oynamırdı. Neftdən xəstələndikdə məlhəm, çıraq və məşəlləri yandırmaq üçün yanacaq, sürtkü vasitəsi, eləcə də hərbi işlərdə istifadə edirdilər.

Azərbaycanda neft sənayesinin inkişafı tarixinə dair. "Odlar yurdu" adlandırılan Azərbaycan zəngin neft yataqları və "əbədi" məşəlləri ilə hər zaman diqqət mərkəzində olmuşdur. Burada oda sitayişin izlərinə eradan əvvəlki dövrlərdə rast gəlmək olur. Zərdüştün davamçıları əsrlər boyu ilahi qüvvə hesab etdikləri oda sitayiş etmişlər. 1845-ci ildə bu əbədi odları təsvir edərək professor Berezin yazırdı: "Qafqaz sıra dağlarının şərq qurtaracağında, Bakıdan on mil aralı, Suraxanı kəndinin yanında məsaməli, çat-çat əhəng daşından tez alışan qaz fəvvarə vurur. Gündüzlər bu yanar qaz o qədər də cəzbedici deyil, ancaq gecələr bu od qaranlıq və kimsəsiz yeri işıqlandıranda mənzərə tam dəyişir, atəşpərəstlərin bu sadə məbədi sehirli bir qalaya çevrilir [5, s.12]. Bakı Azərbaycanın əsas neft şəhəri idi. Belə ki, Məsudi özünün "Orta kitab"(X əsrin birinci yarısı) əsərində qeyd edir ki, "...Bakıda iki əsas mənbə var idi: birindən sarı və ağ, digərindən isə qara və göy neft çıxarılırdı. Hər bir mənbədən alınan gəlirlər ildə 1000 dirhəm, yəni 250 rubla yaxın idi" [13, s.7].

Abşeron yarımadasında yerləşən Bakı neft, duz, zəfəran və boyaqotu istehsalının mühüm mərkəzi olmaqla yanaşı, beynəlxalq ticarət mövqeyinə malik şəhər idi. Ərəb xilafətinin zəifləməsindən sonra Bakının iqtisadi və siyasi əhəmiyyəti artdı, 1192-ci ildə Bakı Şirvanşahlar dövlətinin paytaxtı oldu. Bakının neft mədənləri qonşu ölkələrin marağına səbəb olmuşdu. Görkəmli İtalyan səyyahı Marko Polonun Bakı neftinin yaxın Şərq ölkələrinə aparılması ilə bağlı verdiyi qiymətli məlumatlar buna sübutdur. Marko Polonun şəhadətinə görə neft tuluqlara doldurularaq dəvələrlə Şamaxıya, Nax-

çıvana, Dərbəndə, Həştərxana, həmçinin İrana, Gürcüstana, Orta Asiyaya, hətta uzaq Hindistana daşınırmış [3, s.20]. Alman səyyahı və diplomatı Adam Olearinin Bakının neft quyuları, böyük türk səyyahı Övliya Çələbinin buradakı neft mədənləri və onlardan əldə olunan gəlir, eləcə də neftin İrana, Türkiyəyə, Orta Asiya və Hindistana aparılması ilə bağlı verdiyi məlumatlar neft tariximiz haqqında geniş təsəvvür yaradır. C.Dyüket 1568-1574-cü illərdə Bakı nefti haqda yazır: "Şəhərin yaxınlığında çox qəribə bir hadisə müşahidə olunur- burada yerdən son dərəcə böyük miqdarda yağ çıxır. Hətta İranın çox uzaq məntəqələrindən də onun sorağına gəlirlər. Bütün ölkədə ondan evləri işıqlandırmaq üçün istifadə edirlər. Bu yağ qaradır və "neft" adlanır. Onu bütün ölkə ərazisində qatırların və ulaqların üstündə daşıyırlar. Siz tez-tez birdəfəyə 400-500 heyvandan ibarət karvanları görə bilərsiniz.Qeyd olunan Bakı şəhərinin yaxınlığında həmçinin yağın başqa bir növü də vardır – rəngi də ağdır və çox qiymətlidir, belə ehtimal olunur ki, bu bizdə petroleum adlanan elə həmin yağdır" [14, s.46].

Şəkil 1. Mill Azərbaycan Tarixi Muzeyi Neqativ fondu. Balaxanıda neftçıxarma mədənləri.

Şəkil 2. Mill Azərbaycan Tarixi Muzeyinin kolleksiyasından tartal

XVI əsrdə Bakı Səfəvilər dövlətinin tərkibinə qatılmışdı. XVIII əsrdə Bakı xanlığının mərkəzi olan şəhər, Rusiya imperiyasının işğalından sonra quberniya mərkəzinə çevrilmişdi. Zəngin enerji resurslarına malik olan Cənubi Qafqaz regionunu ələ keçirmək və imperiyaya birləşdirmək çarizmin siyasətinin əsasını təşkil edirdi. Belə ki, XVIII əsrin 20-ci illərində I Pyotrun Xəzər dənizi sahillərinə təşkil etdiyi yürüşün əsas məqsədi ərazidə möhkəmlənmək, İranın Zaqafqaziyada hökmranlığına son qoymaq, eyni zamanda regionda önəmli gücə malik olan Osmanlı imperiyasının bölgədə möhkəmlənməsinin qarşısını almaqdan ibarət idi. XIX əsrin əvvəllərində Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra Ümumrusiya bazarına qoşulan Azərbaycanda kapitalist münasibətləri inkişaf etməyə başladı. Rusiyanın müstəmləkəsinə çevirilən Azərbaycanda qısa müddət ərzində xanlara və özəl şəxslərə məxsus olan neft yataqları müsadirə edildi. 1807-ci ildən başlayaraq çar hakimiyyəti tərəfindən iltizam sistemi tətbiq olunmağa başladı. Azərbaycanın neft yataqları müxtəlif şəxslərə dörd il müddətində icarəyə verilməyə başlanıldı. Bu proses müqavilə əsasında həyata keçirilirdi. Çarizm həyata keçirdiyi müstəmləkəçilik siyasəti nəticəsində neft quyuları əsasən ermənilərə icarəyə verilirdi. İlk iltizamçılardan biri Tarumov olmuşdur. O, neft quyularını əldə etməklə kifayətlənməmiş, müəyyən miqdar vəsait ödəməklə vətəgə, duz və digər sahələri də ələ keçirmişdi. Neftin çıxarılmasında və daşınmasında kəndlilərin məcburi əməyindən istifadə olunurdu. Əsas neft quyuları Abşeronun Balaxanı, Bibi-Heybət, Suraxanı, Binəqədi, Sabunçu və Ramana kəndlərində yerləşirdi. Azərbaycanda neftin kütləvi istehsalına XIX əsrin ikinci yarısından etibarən başlanmışdır. 1846-cı ildə Bibiheybətdə dünyada ilk dəfə olaraq neft quyusunun mexaniki üsulla qazılması neft tariximizdə baş vermiş mühum texniki yenilik sayılırdı. Müxtəlif xarici şirkətlərin neft və neft məhsullarına olan marağı sayəsində xüsusilə qədimdən bəri neft yataqları ilə zəngin olan Bakı və Abşeron yarımadasında müxtəlif kəşfiyyat-qazıntı işlərinin aparılması və istehsal müəssisələrinin yaranması ilə nəticələnmişdir. Artıq 50-60-cı illərdə V.Kokorevin, C.Məlikovun və başqalarının zavodları fəaliyyətə başlamışdır. Azərbaycanda neftin qədim zamanlardan çıxarılmasına baxmayaraq, neft sənayesinin tərəqqisi üçün geniş perspektivlər açan iri kapitalist (fabrik-zavod) inkişaf yolunun başlanğıcı 1872-ci ildə

iltizam sisteminin ləğv edilməsi ilə bağlıdır [11, s.16]. Əsasnaməyə əsasən neftli dövlət torpaqları yalnız hərrac vasitəsilə icarəyə verilməli idi. Bakının neft yataqlarını öz inhisarına keçirməyə çalışan rus kapitalı, Azərbaycanda burjaziyanın formalaşmasına mane olmağa çalışırdı. Azərbaycanlı sahibkarlar hər vasitə ilə sıxışdırılırdı. Bunun nəticəsidir ki, 1872-ci ildə hərrac yolu ilə icarəyə verilən ilk neftli torpaqlar əsasən rus və erməni kapitalistlərinin əlində cəmlənmişdi. Azərbaycanlı sahibkarlardan iki nəfər – H.Z.Tağıyev və A.Səlimxanov icarədarlar sırasında idilər. XIX əsrin II yarısından başlayaraq, dünya ölkələrində iqtisadiyyatın, sənayenin və digər sahələrin inkşafı neft sənayesinin inkişafında da özünü göstərdi. Bu dövrdə neft sənayesinin əsas mərkəzləri ABŞ və Rusiya imperiyasının tərkibində olan Azərbaycan sayılırdı. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakı dünyada çıxarılan neftin 50%, Rusiyada çıxarılan neftin isə 95% -ni verirdi. Neft yataqlarının zənginliyi, işçi qüvvəsinin ucuz olması, xarici kapital axınını gücləndirmişdi. İlk belə xarici kapitalist Robert Nobel olmuşdur. Nobel qardaşları Bakıya əsrin ortalarında gəlsələr də, öz şirkətlərini 1879-cu ildə təşkil etmişdilər. 1875-ci ildə kiçik bir ərazini satın alaraq fəaliyyətə başlayan Nobel, bəzi maddi çətinliklər səbəbindən 18 may 1879-cu ildə bu şirkəti "Nobel qardaşları neft istehsal cəmiyyəti" anonim şirkətinə çevirmişdi. Rusiya neft sənayesinin hamısına sahib olmağa çalışan Nobellər daxili bazarda neft ticarətini bütövlükdə əllərində cəmləşdirmişdilər. 1880-ci ildə onların kapitalı 4 mln rubl idisə, 1900-cu ildə bu rəqəm 15 mln rubla çatmışdı. Əsrin sonuna qədər neft çəllək və tuluqlarla araba vasitəsilə daşınırdı. Bu olduqca sadə və baha başa gələn vasitə idi. Neftin daşınmasına xüsusi önəm verən Nobel qardaşları ilk dəfə olaraq Balaxanıdan Qara şəhərə neft borusu çəkdilər. Bunun nəticəsində neftin zavodlara daşınması daha ucuz başa gəldi. 1880-ci ilin sonunda Nobel qardaşları tərəfindən Bakı-Batum arasında neft kəməri inşa edilmişdi. 1883-cü ildə Zaqafqaziya dəmiryolunun çəkilməsi, Bakı neft sənayesinin inkşafında böyük rol oynamışdı. Nobeller dünyada ilk dəfə olaraq neft məhsullarının su yolu ilə daşınmasına nail olmuşdular. "Zərdüşt" adlanan poroxod 1877-ci ildə İsveçin Motala şəhərində yerləşən zavodda hazırlanmışdır. Nobel qardaşlarından sonra, fransız Rotşild və ingilislərin təmsilçisi Cems Vişau əsas kapitalistlər idi. Onların şirkətlərinin sayı 6-ya yaxın idi. Nobel qardaşları 1899-cu ildə neftin istehsalını 93 mln puda çatdırmışdılar ki, bunun nəticəsində dünyada birinciliyə nail olmuşdular. Bakı nefti Amerikanın neft kralı sayılan Rokfelleri və onun rəhbəri olduğu Standart Oil şirkətinin də diqqətini çəkmişdi. Bu şirkət Amerika kerosini üçün Şərqdə yeni bazarlar axtarırdı. Buna baxmayaraq Amerika kapitalının Azərbaycan neft sənayəsində rolu zəif olmuşdur. 90-cı illərin əvvəlində qiymətlərin düşməsi və böhranın dərinləşməsi Bakı neft sənayeçilərinin "Bakı standartı" adlı xarici ticarət sindikatı yaratmalarına səbəb oldu [10, s.64]. Neftin iqtisadi həyatda mühüm əhəmiyyət kəsb etməsi ilə dünyada baş verən siyasi hadisələrə də təsir qüvvəsi artmışdır. Neftin hökumətlər üçün dəyəri müasir iqtisadiyyatdakı rolundan və müasir mexanikləşdirilmiş hərbi qüvvə üçün xüsusi əhəmiyyətindən qaynaqlanır, lakin bu, özlüyündə dünya siyasətindəki əhəmiyyətini təmin etmir [5, s.565].

XX əsrin əvvəllərində dünyada baş verən iqtisadi böhran Azərbaycanın neft sənayesinə də təsir göstərmişdi. Böhran nəticəsində neft istehsalında kəskin azalma baş vermişdi. 1903-cü ildə neft verən quyuların 45% dayanmışdı. 1901-ci ildə neft hasilatı 671 milyon puddan böhranın son ilində 597 milyon puda enmişdi. Neft hasilatı ilə məşğul olan şirkətlərin sayı 170-dən 153-ə enmişdi. Böhran illərində neftayıran zavodların ümumi sayı 91-dən 86-ya düşmüşdü ki, bunların 20-si tam gücü ilə işləmirdi [2, s.6]. Neft istehsalındakı geriləmə əhalinin vəziyyətini çətinləşdirmişdi. Bakı imperiyanın əsas sənaye mərkəzi idi. Şəhərin ətrafındakı neft yataqları yalnız Rusiyanı yanacaqla təmin etmirdi, həm də böyük həcmdə neft ixracata göndərilirdi. Buna görə də şəhərdə sabitliyi qorumaq imperiyanın əsas vəzifəsi idi. İşzsizliyin artması, maaşların kəskin azalması və fəhlələrin ağır iş şəraiti ümumi narazılığa səbəb oldu. 1903-cü ildə ilk böyük ümumi tətil baş verdi. İştirakçıların əsas tələbi 8 saatlıq iş günü, əməkhaqqının artırılmasından ibarət idi. Sahibkarlarla danışıq üçün Tətil komitəsi yaradılsa da, tətil tezliklə ordunun gücü ilə yatırıldı. 1904-cü ildə Bakıda fəhlələrin yeni ümumi tətili başladı. 50 minə yaxın fəhlənin iştirak etdiyi tətil dekabrın 30-da müştərək müqavilənin bağlanması ilə nəticələndi. "Mazut konstitusiyası" adlanan bu sənəd neft sənayeçiləri və fəhlə nümayəndələri arasında imzalandı. Müqaviləyə əsasən iş günü 9 saata endirildi və əməkhaqqı 20-25 % artırıldı. Fəhlələr həftədə bir dəfə istirahət etmək, ildə bir dəfə məzuniyyətə çıxmaq hüququ əldə etdilər.

1949- cu ildə neft tariximizdə dönüş baş vermişdir. Dünyada ilk dəfə açıq dənizdə neft ilk dəfə "Neft Daşlarında" çıxarılmışdır. Bu Azərbaycan tarixində baş vermiş unikal bir hadisə idi. 7 noyabr 1949-cu ildə ilk quyu fontan vurmuş, beləliklə də dünya nefti tarixində açıq dənizdə neft çıxarılmasının əsası qoyulmuşdur. Bu dövrdə bir sıra görkəmli neftçi alimlərimiz Azərbaycan, eləcə də Rusiya neft sənayesinin inkşafına öz tövhələrini vermişdilər. Bunlardan Mirəli Qaşqay, Əliəşrəf Əlizadə, Sabit Orucov, Fərman Salmanov, Fuad Səmədov, Qurban Abbasov və başqalarının adını çəkmək olar. XX əsrin əvvəllərindən etibarən neft müxtəlif istehsal sahələrinin xüsusilə, sənaye sahələrinin inkişafı ilə dünya iqtisadiyyatında əhəmiyyətli rol oynamağa başlasa da, istər iqtisadi, istərsə də siyasi arenada II Dünya müharibəsindən sonra öz mövqeyini daha da gücləndirməyə başlayır. Neft yalnız enerji mənbəyi deyil, mühüm strateji ehtiyata çevirilmişdi. İmperialist dövlətlərin Qafqaza olan marağının əsas səbəbi neft idi. Bakı neftini ələ keçirmək üçün yeni planlar işlənib hazırlanmışdı. 1939-cu ilin oktyabrında Amerikanın Fransadakı səfiri U.Bullit Vaşinqtona teleqrafla bildirmişdi ki, Parisdə "Bakının bomba zərbələri ilə dağıdılması" müzakirə edilir [8, s.31]. Lakin uzun sürən müzakirələrdən sonra bu fikirdən daşınan İngiltərə və Fransa Almaniyanın Qafqazda möhkəmlənmək cəhdlərinə mane olmağa çalışdılar. Avropada hakim mövqeyə sahib olmağa can atan Almaniya SSRİ-yə qarşı yeni işğal planı hazırladı. "Barbarossa" adlanan bu plan 18 dekabr 1940-cı ildə təsdiq edildi. Məlum olduğu kimi, Xəzər dənizində əsas limanlardan olan Bakı Böyük Vətən müharibəsi illərində SSRİ-nin dəniz yolu ilə neftin daşındığı əsas limanlardan biri idi. Müharibənin ilk günlərindən Xəzər donanması qarşısında Volqa çayına daha çox neft məhsullarını çatdırmaq vəzifəsi qoyulmuşdu [1, s.96]. Bakı neftinin müharibədəki əhəmiyyətli rolu, sovet qoşunlarının döyüşlərdəki qələbəsi Almaniyanın İldırımsürətli müharibə planını boşa çıxartdı. Neftin nə qədər önəmli olduğunu Stalin belə vurğulamışdı: "Neft haqqındakı məsələ həyat məsələsidir. Ona görə ki, neft kimdə çoxdursa, gələcək müharibədə kimin əmr verəcəyi ondan asılıdır: Kimdə neft çoxdursa, dünya sənayesinə və ticarətinə əmr verilməsi də ondan asılıdır: Neft qabaqcıl ölkələrin donanmalarının motorlu mühərriklərə keçməsindən sonra dünya dövlətlərinin istər müharibə zamanı, istərsə də sülh, əmin-amanlıq zamanı üstünlük, hegemonluq uğrunda gedən mübarizəsində həyati məsələyə çevirilir" [3, s.46].

Milli Azərbaycan Tarixi Muzeyində mühafizə olunan dartay barabanı, iskənə, dəmir klapan, dartayçı vedrəsi, qaz çırağı, ağ neft maşını və s. kimi eksponatlar dönəmin neft sənayesi haqqında aydın təsəvvür yarada bilir. Qeyd edək ki, məşhur rəssam M.Rəhmanzadənin "Bakı fasiləsiz neft verir" adlı əsərində də Bakıdan gəmilərlə daşınan neft təsvirini görə bilirik. Gəmi ilə neft daşınmasını ilk dəfə olaraq, Həştərxan tacirləri Artyomov qardaşları həyata keçirmişlər. XIX əsrin 80-ci illərində Bakı nefti gəmilərlə Xəzər dənizi vasitəsilə Volqaya, Saritinə, Rıbinskiyə və az bir hissəsi Baltik dənizi vasitəsilə Avropaya daşınırdı [9, s.55]. Göründüyü kimi hələ antik və orta əsrlər dövründə bir çox tarixi mənbə və diplomatların əsərində məlumat verilən Bakı nefti XIX əsrdən etibarən nisbətən kütləvi istehsala keçmiş, daşınmaların bəziləri mürəkkəb iş prosesi tələb etməsinə baxmayaraq, hətta Xəzər dənizi vasitəsilə həyata keçirilməyə başlamışdır.

Müstəqillik illərində Azərbaycan neft sənayesinin inkişafı. Uzun illər Azərbaycan nefti Rusiyanın müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi ölkədən daşınmışdır. Lakin müstəqillik əldə olunandan və xüsusilə də, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkədə neft siyasəti sahəsində qətiyyətli addımlar atılmış və "Əsrin müqaviləsi" imzalanmışdır. Məlum olduğu kimi Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəldiyi ərəfədə Azərbaycan həm siyasi, həm də iqtisadi böhran yaşayırdı. Lakin uzaqgörən Ulu Öndər tezliklə Azərbaycan iqtisadiyyatını dövrün çətinliklərindən məharətlə çıxararaq, ölkə iqtisadiyyatının yüksələn xəttlə inkişafına nail oldu. 1991-1993-cü illərdə Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz bölgəsində hökm sürən regional qarşıdurma, qeyri-sabit mühit, o cümlədən respublikanın daxilində yaşanan xaos və anarxiya, hakimiyyətdə olan siyasi qüvvələrin yarıtmaz və səriştəsiz siyasəti və digər səbəblərdən dünyanın aparıcı neft şirkətlərini Azərbaycanın zəngin enerji resurslarının hasilatı və ixracına cəlb etmək, bu sahədə qarşıya çıxan maneələri dəf etmək o qədər də asan məsələ deyildi [7, s.73]. Yuxarıda da qeyd olunduğu kimi, Əsrin müqaviləsinin imzalanması ilə Azərbaycanda neft və qaz hasilatının artması və xarici şirkətlərin Azərbaycana yatırım etməsi ölkənin iqtisadi inkişafı üçün zəmin yaratdı. Heydər Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində ölkənìn neft sənayesi sürətlə inkşaf etməyə başladı. "Əsrin müqaviləsi" karbohidrogen ehtiyatlarının miqdarına və qoyulan sərmayələrin həcminə görə ən iri

neft kontraktlarından biri hesab olunur. 20 sentyabr 1994-cü ildə Bakının Gülüstan sarayında imzalanan saziş dünyanın 8 ölkəsinin 13 ən məşhur şirkətləri ilə birlikdə Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" müqaviləsi idi. Yeni neft strategiyası nəticəsində ölkə iqtisadiyyatında yüksək dinamik inkşaf baş verdi. Xarici investorların Azərbaycana cəlb olunması, növbəti illərdə yeni layihələrin imzalanması üçün şərait yaratdı. 1999-cu ildə Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş tanker dünya bazarına çıxarıldı. Bakı-Novorossiysk neft kəmərinin bərpası və inşası, Bakı-Supsa boru kəmərinin inşası və fəaliyyəti iqtisadiyyatın inkşafına təkan verdi. 1999-cu ilin noyabrında ATƏT-in İstanbulda keçirilmiş Sammitində Azərbaycan, Türkiyə, ABŞ, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən "Bakı-Tbilisi-Ceyhan", yəni "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlər arasında müqavilə imzalanmşdır. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi Azərbaycanın beynəlxalq aləmdə yalnız neft ixrac edən ölkə kimi deyil, həmçinin qaz ixrac edən ölkə kimi tanınmasına səbəb olmuşdur. Bugün bu siyasəti Azərbaycan Respublikasının prezidenti İlham Əliyev uğurla davam etdirir. 20 sentyabr 2014-cü ildə təməli qoyulan "Cənub Qaz Dəhlizi" nin tərkib hissəsi olan TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP (Trans-Adriatik Boru Kəməri) layihələri Xəzər dənizin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil edilən təbii qazın Türkiyəyə, buradan isə Avropaya nəqlini nəzərdə tutur. Bu layihə "Cənubi Qafqaz Boru Kəməri" nin genişləndirilməsinə xidmət edəcək, həmçinin Azərbaycan qazının Avropaya çıxışını təmin edəcək.

Nəticə. Azərbaycanın sürətli iqtisadi inkşafında neft aparıcı rol daşısa da, son illər də qeyri-neft sektorunda da iqtisadi artım müşahidə olunur. Neft gəlirlərinin qeyri-neft sektorunun əsas prioritet sahələri hesab edilən tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sahələrinin inkşafına və insan kapitalına yönləndirilmiş xərclənmə strategiyası artıq özünü doğruldub. Azərbaycan zəngin neft-qaz, sərvətlərindən davamlı iqtisadi inkşafa nail olmaq və onlardan uğurla faydalanaraq gələcəkdə neft gəlirlərindən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyata sahib dövlətə çevirilmək strategiyası bu gün iqtisadiyyatın bütün sahələrində öz nəticələrini verməkdədir.

ƏDƏBİYYAT

1. Azərbaycanın neft salnaməsi. Elmi redaktor N.Vəlixanlı. Bakı, Elm və təhsil, 2014, 253 s.
2. Azərbaycan tarixi XX əsr. II cild. M.F Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, Təhsil, 2014, 560 s.
3. Bakı nefti qələbəni açarı. Şərəfli keçmiş, işıqlı gələcək 1941-1945. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Prezident Kitabxanası. Bakı, Neoprint, 2015, 452 s.
4. Encyclopedia of U.S. foreign relaitions. Bruce W.Jentleson, Tomas G.Paterson. Volume 3. New York, Oxford University pres, 1997, 1924 p.
5. Əliyev İ.Azərbaycan nefti dünya siyasətində. Prezident Kitabxanası. Bakı, Azərbaycan, 1997, 263 s.
6. Əliyeva N. Mucəm əl Buldən. Bakı, Elm və təhsil, 2020, 424 s.
7. Həsənov Ə. "Əsrin müqaviləsi"- Azərbaycanı qlobal dünya iqtisadiyyatının tərkib hissəsinə çevirən layihə, s.74-76. - https://files.preslib.az/site/10il/gl1.pdf [Müraciət tarixi: 01.02.2022].
8. İsmayılov İ. Azərbaycan nefti XX əsrdə (hərbi-siyasi baxış). Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Bakı, Azərbaycan DNA-nın nəşri, 2007, 66 s.
9. Kərimov N. Bakı neftinin Xəzər-Volqa su yolu ilə nəqli (XIX-XX əsrin əvvəllərində) // Tarix və onun problemləri, №3, 2009, s.54-61.
10. Mehdiyev Ə. Azərbaycan neft sənayesi XIX yüzilin son rübündə. Bakı, Altay, 2000, 128 s.
11. Milli Azərbaycan Tarixi Muzeyi. Etnoqrafiya fondu inventar 4347. Şəkil 1.
12. Milli Azərbaycan Tarixi Muzeyi. Neqativ fondu inventar 114. Şəkil 2.
13. Mirbabayev M. Azərbaycan neftinin qısa tarixi. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Bakı, Azərnəşr, 2008, 296 s.
14. Sultanov Ç. Bakı nefti dünya şahmat taxtasında 1939-1945-ci illər. Bakı, TEASpres, 2016, 564 s.

ГЮНЕЛЬ ЧОБАНЗАДЕ
Бакинская Высшая Школа Нефти, Специалист по историческим исследованиям

ПУТЬ РАЗВИТИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКОЙ НЕФТИ: БАКИНСКАЯ НЕФТЬ

Азербайджан издавна славился своей нефтью. Некоторые древние и средневековые источники содержат информацию об использовании масла в медицине и в повседневной жизни. Со временем рост экономической стоимости нефти привел к ее большому влиянию на политической арене. Эта сила также сыграла важную роль в превращении Азербайджана в самую развитую страну в регионе. В течение многих лет азербайджанская нефть транспортировалась из страны как часть колониальной экономики России. После обретения независимости Азербайджан начал проводить независимую экономическую политику в нефтяном секторе. В частности, с приходом к власти великого лидера Гейдара Алиева был подписан «Контракт века», который еще больше повысил геополитический престиж Азербайджана. Благодаря этому соглашению страна, только что вышедшая из войны, была не только признана во всем мире, но и вскоре приобрела экономическую мощь. Нефтяная политика сыграла важную роль в формировании сильного имиджа Азербайджана на политической арене. Эта успешно реализуемая сегодня политика является основой для того, чтобы Азербайджан занимал прочные позиции среди быстро развивающихся стран. В статье рассматривается история развития нефтяной промышленности в Азербайджане и ее влияние на политическую, социальную и экономическую жизнь страны.

Ключевые слова: нефть, энергия, Азербайджан, «Контракт тысячелетия», экономика, политика.

GUNEL CHOBANZADA
Baku Higher Oil School, Specialist in historical research

THE WAY OF DEVELOPMENT OF AZERBAIJANI OIL HISTORY: BAKU OIL

Azerbaijan has an ancient history of oil. Some ancient and medieval sources provide information about the use of oil in medicine and in daily life. Over time, the increase in the economic value of oil has led to its great influence in the political arena. This force has also played an important role in making Azerbaijan the most developed country in the region. For many years, Azerbaijani oil was transported from the country as part of Russia's colonial economy. After gaining independence, Azerbaijan began to pursue an independent economic policy in the oil sector. In particular, with the coming to power of the Great Leader Heydar Aliyev, the "Contract of the Century" was signed and further increased the geopolitical prestige of Azerbaijan. With this agreement, a country that had just emerged from the war was not only recognized all over the world, but also soon gained economic power. Oil policy has played a major role in the formation of a strong image of Azerbaijan in the political arena. This policy, which is being successfully pursued today, is a basis for Azerbaijan to have a strong position among the rapidly developing countries. The article discusses the history of development of the oil industry in Azerbaijan and its impact on the political, social and economic life of the country.

Keywords: oil, energy, Azerbaijan, “The millennium contract”, economics, politics.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Ələmdar Şahverdiyev, t.e.d. Qabil Əliyev.

UOT 94

BALAMİRZƏ MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin "Slavyan ölkələri tarixi" ixtisası üzrə magistrantı
balamirzamammadli@bsu.edu.az

II DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ SSRİ-DƏ ÇEÇEN-İNQUŞ ƏHALİSİNİN MƏRKƏZİ ASİYAYA DEPORTASİYASI

İkinci dünya müharibəsi zamanı SSRİ-də Şimali Qafqaz xalqlarının Mərkəzi Asiyaya deportasiya olunması problemi hələ də tam tədqiq edilməmişdir və buna görə də hazırda bir çox tarixçilərin tədqiqat obyektidir. Deportasiya probleminin öyrənilməsinə elmi-obyektiv yanaşma yalnız SSRİ-nin süqutundan sonra məxfi qalan arxiv fondlarının açılması sayəsində mümkün olmuşdur. Nasist Almaniyası ilə müharibə şəraitində SSRİ-də deportasiya olunan xalqlar içərisində çeçenlər və inquşlar diqqəti cəlb edir. Çeçen-inquş əhalisinin öz tarixi yurdlarından məcburi köçürülməsi, "xüsusi məskunlaşma" rejimində yerləşdirilməsi yüz mindən çox insan itkisi ilə müşayiət olunmuşdur. Deportasiya zamanı çeçenlər və inquşlar sosial-mənəvi təzyiqlərə, bir çox məhdudiyyətlərə məruz qalmış, onların mülkiyyət hüququ və təhlükəsizliyi rəsmi sənədlərdə göstərilməsinə baxmayaraq təmin edilməmişdir. Məqalədə SSRİ-Almaniya müharibəsi illərində çeçen-inquş əhalisinin deportasiya olunmasının səbəbləri, deportasiya əməliyyatının hazırlanması və həyata keçirilməsi, habelə deportasiya olunmuş çeçen-inquş əhalisinin sonradan hüquqlarının bərpası kimi məsələlər araşdırılır.

Açar sözlər: İkinci dünya müharibəsi, SSRİ, çeçenlər, inquşlar, deportasiya, "xüsusi məskunlaşma", bəraət.

Giriş. Almaniya ilə müharibə ərəfəsində Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikası (MSSR) inkişaf etmiş sənaye və kənd təsərrüfatına malik region idi. Burada sənaye əsasən neft hasilatı və emalı üzrə ixtisaslaşmışdı. Müharibə başlayandan sonra muxtar respublikanın bütün iqtisadiyyatı hərbi təyinatlı məhsulların istehsalına keçmiş və bura cəbhəni yanacaq ilə təmin edən aparıcı istehsalçılardan birinə çevrilmişdi. Qroznı şəhəri ölkədə neft hasilatına görə Bakıdan sonra ikinci yerdə idi. Belə ki, yalnız 1941-ci ildə bütün SSRİ-də 33 milyon ton neftin 23,4 milyon tonu Azərbaycanda, 4 milyon tonu Çeçen-İnquşetiyada, qalanı isə SSRİ-nin digər neft yataqlarında hasil edilmişdi. Qroznı həm də təkcə respublikada hasil edilən nefti deyil, digər regionlarda, o cümlədən də Bakıda hasil olunan nefti emal edirdi. Eyni zamanda, emal edilən neftdən qırıcı təyyarələr üçün A-76 markalı benzin geniş şəkildə istehsal olunurdu [6, s.774-775]. Bundan başqa, Qroznı elmi-tədqiqat institutunun əməkdaşları tanklarla mübarizə üçün yanan qarışımların (Molotov kokteyli) istehsalına başlamışdılar [18, s.120].

1942-ci ilin 15 yanvarına qədər muxtar respublikanın əhalisi Dövlət bankına 5 milyon 135 min rubl nəğd pul, 6 milyon 263 min rubl məbləğində dövlət istiqrazları, 430 qram qızıl və 16500 qram gümüş vermişdi [6, s.774-775]. Müdafiə qurğularının tikilməsinə respublikanın on minlərlə sakini səfərbər edilmiş, minlərlə insan müdafiə xətlərinin çəkilməsi zamanı göstərdiyi rəşadətli əməyinə görə "Qafqazın müdafiəsi uğrunda" medalı ilə təltif edilmişdi [14, s.76]. Kəndlilər də müdafiə fonduna kənd təsərrüfatı məhsullarının göndərilməsində fəal iştirak edirdilər. Bunu belə bir fakt da sübut edir ki, 1943-cü ildə taxıl tədarükü üzrə dövlət planı 111% yerinə yetirilmişdi [6, s.824-825].

Çeçen-inquş əhalisinin deportasiyasının səbəbləri. Çeçenlərin və inquşların deportasiya olunmasının rəsmi səbəbləri SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il martın 7-də qəbul etdiyi "Çeçen-İnquş MSSR-nın ləğvi və onun ərazisinin inzibati quruluşu haqqında" fərmanda belə göstərilirdi: "Vətən müharibəsi dövründə, alman-faşist qoşunlarının Qafqazdakı hərbi əməliyyatları zamanı çoxlu sayda çeçen və inquş "vətənə xəyanət" etmiş, faşist işğalçıları tərəfinə keçmiş, təxribatçı və kəşfiyyatçı dəstələrinə qoşulmuş, ...həmçinin bir neçə il sovet hakimiyyətinə qarşı silahlı üsyanlarda iştirak etmiş, uzun müddət ərzində vicdanlı əməklə məşğul olmamış, qonşu vilayətlərin kolxozlarına quldur basqınlar həyata keçirmiş, sovet adamlarını qarət etmiş və öldürmüşlər" – buna görə də, SSRİ Ali Sovetinin Rəyasət Heyəti qərara alır: "Çeçen-İnquş MSSR ərazisində, habelə ona bitişik rayonlarda

yaşayan bütün çeçenlər və inquşlar SSRİ-nin digər rayonlarına köçürülsün, Çeçen-İnquş MSSR ləğv edilsin" [25]. Bu rəsmi qərarı təhlil edərkən aşağıdakı nəticələri çıxarmaq olar:

Birincisi, sovet-alman müharibəsi illərində çeçen və inquşların yaşadığı ərazilərin işğal altına düşməsi faktı olmayıb. Belə ki, bütün müharibə boyunca vermaxt qüvvələri Çeçen-İnquş MSSR-in yalnız Malqobek rayonunun kiçik bir hissəsini işğal etmiş, həmin ərazini də cəmi 3 aya tərk etmişdilər [14, s.13]. Ona görə də, Stalin rəhbərliyinin çeçenlərin və inquşların işğalçılarla kütləvi əməkdaşlıq etməsi – "vətənə xəyanət" ilə bağlı tezisi əsassızdır.

İkincisi, çeçen-inquş əhalisinin kütləvi şəkildə faşist təxribatçı və kəşfiyyatçılarına qoşulması, quldur basqınlar və qarətçiliklə məşğul olması iddiası həqiqətə uyğun deyil. Bunu 1941-1943-cü illərdə Çeçen-İnquş MSSR-in xalq daxili işlər komissarı olmuş polkovnik Sultan Alboqaçiyevin deportasiyadan 20 il sonra – 1963-cü ildə yazığı etirafları da təsdiq edir: "Çeçenistan dağlarında elə də çox quldur yox idi... Mənim hesablamalarıma görə, bu dağlarda təqribən 300-ə yaxın quldur olmuşdu. Ona görə də, mən bir daha təkrarlayıram ki, çeçenlərin və inquşların köçürülməsi üçün heç bir səbəb yox idi. Bunu 1953-cü ildə Beriyanın özü də məhkəməsi zamanı təsdiq edib" [6, s.824]. Bundan başqa, 2000-ci illərdə SSRİ Xalq Daxili İşlər Komissarlığının (NKVD) məxfi sənədləri açılarkən məlum olmuşdur ki, yüzlərlə sıravi mürid və bir sıra din xadimləri nasist təxribatçılarına qarşı mübarizəyə öz ciddi töhfələrini vermişdilər [6, s.824-825].

Üçüncüsü, müharibə illərində çeçen-inquş əhalisinin "uzun müddət ərzində vicdanlı əməklə məşğul olmaması" obyektiv reallığa zidd olan iddiadır. Daha əvvəldə göstərdiyimiz faktlar – Çeçen-İnquş MSSR əhalisinin istər sənaye sahələrində, istərsə də kənd təsərrüfatında rəşadətli əməyi bu iddianı açıq şəkildə təkzib edir.

Qeyd etmək lazımdır ki, deportasiya vermaxtın Qafqazdan yüzlərlə kilometr geridə olduğu bir vaxtda həyata keçirildi. Ona görə də bu hərbi zərurət deyil, açıq şəkildə cəza aktı idi. Tarixçilərin fikrincə, almanları gözləri ilə görməyən bütöv bir xalqı birbaşa xəyanətdə ittiham etmək sovet rəhbərliyi üçün heç də asan məsələ deyildi. Buna görə də, rəsmi ittiham motivi və deportasiyanın səbəbi kimi "...sovetlərə və Qırmızı Orduya qarşı yönəlmiş terror hərəkatında fəal iştirak etmək" göstərilirdi [23, s.121-124].

Bununla yanaşı, çeçen-inquş əhalisinin deportasiya olunmasının əsl səbəbləri indiyədək tam dəqiq müəyyən edilməyib və hələ də qızğın müzakirə obyektidir. Lakin məlumdur ki, SSRİ-də ayrı-ayrı xalqların deportasiyası, onların milli dövlətçiliyinin ləğvi, sərhədlərinin dəyişdirilməsi qanundankənar idi və bütün bunlar nə Çeçen-İnquş MSSR və SSRİ konstitusiyalarında, nə də hər hansısa digər qanuni aktda nəzərdə tutulmamışdı. Çeçen tarixçisi V.Maqomayevin yazdığı kimi: "1936-cı ildə qəbul edilmiş yeni SSRİ konstitusiyasında bir çox demokratik azadlıqlar, vətəndaşların və xalqların hüquqları elan edilsə də, praktikada onların demək olar ki, hamısı pozuldu" [21, s.215]. Müasir tarixşünaslıqda Stalin rəhbərliyi tərəfindən məhkəmə proseslərinin konkret şəxslərə qarşı deyil, etnik mənsubiyyətinə görə bütöv bir xalqa qarşı aparılması, kollektiv təqsirləndirmə və cəzaların tətbiqi insanlıq əleyhinə cinayət kimi qəbul edilir [23, s.104].

Deportasiya əməliyyatının hazırlanması. Deportasiyaya hazırlıq başlanarkən, ilk addım çeçenlərin və inquşların ordu birliklərində saxlanılmasının guya qeyri-mümkünlüyü bəhanəsi ilə onların səfərbərliyinin dayandırılması oldu. Bu onunla əsaslandırıldı ki, çeçenlər və inquşlar müsəlman olduqlarından o zaman Qırmızı orduda yeganə ət yeməyi olan donuz əti, yağı və konservini yemirlər. 1943-cü ilin oktyabrında NKVD xalq komissarı müavini B.Kobulov "antisovet çıxışları" haqqında məlumat hazırlamaq üçün Çeçen-İnquş MSSR-ə gəldi. Noyabrın 9-da SSRİ xalq daxili işlər komissarı Beriyaya muxtar respublikada "quldurluğun və fərariliyin kütləvi hal alması" barədə Kobulov tərəfindən təsdiq edilmiş nota təqdim edildi. Bununla da, Qazaxıstan və Orta Asiyada "xüsusi köçkünlərin" (спецпоселенец) qəbul edilməsi üçün hazırlıqlara başlanıldı. Bu işə nəzarət etmək üçün 135 rayon və 375 kənd komendaturası yaradıldı. 1943-cü ilin oktyabrından ÜK(b)P-nin Stavropol vilayət komitəsi boşaldılmış Çeçenistan-İnquşetiyaya köçəcək rusların siyahılarını hazırladı. Həmin ildə cəbhə xətti getdikcə daha da qərbə doğru çəkildikcə, NKVD qoşunları da Qroznıya toplaşırdı. Həmçinin, kəşfiyyat təyyarələri dağlıq ərazilərdə müntəzəm uçuşlar həyata keçirirdi [6, s.833-838].

Bu zaman, yerli əhalinin fikrini yayındırmaq məqsədilə rəsmi şəkildə elan olundu ki, sovet ordusunun Karpatlara hücum hazırlığı məqsədilə Çeçen-İnquş MSSR-in dağlıq rayonlarında genişmiq-

yaslı təlimlər keçiriləcək. Beləcə, ordu hissələri kəndlərin yaxınlığında, düşərgələrdə yerləşdirildi. Bu zaman yerli əhali Qırmızı ordu əsgərlərinin "vermaxt üzərinə hücuma hazırlaşdığını" hesab edərək, onlara mehriban münasibət göstərmişdi. Məsələn, Maystinski kənd sovetinin kişi əhalisi nəinki könüllü olaraq dağ qarnizonlarına hərbi yüklərin çatdırılmasında iştirak edir, həm də onlara "hədiyyələr, dadlı yeməklər və öz oduncaqlarını təklif edirdilər". Buna baxmayaraq, deportasiyaya hazırlıq zamanı mümkün müqavimətin qarşısını almaq məqsədilə həbs olunması planlaşdırılan "antisovet elementləri" saxlanıldı. Qeyd etmək lazımdır ki, deportasiya əməliyyatında iştirak etməyə Çeçen-İnquşetiyanın özünün (bir neçə min nəfər), Dağıstanın (6-7 min nəfər) və Şimali Osetiyanın (3 min nəfər) partiya-sovet fəalları da cəlb olunmuşdu [6, s.837-839].

Bir sıra tarixçilərə görə, üsyançıların və təxribatçıların yerləşə biləcəyi dağlıq, meşəlik və digər çətin keçilən ərazilərdə kimyəvi silahdan istifadə planlaşdırılmışdı. Bu məqsədlə Çeçen-İnquşetiyadakı 105-ci və 126-cı aviasiya diviziyalarından istifadə edilməsi nəzərdə tutulurdu. Bundan başqa, L.Beriya Qroznıdakı ordu hissələrinə antikimyəvi və sanitar-kimyəvi mühafizə üzrə tam döyüş hazırlığına gətirilməsi haqqında 00609 saylı əmr imzalamışdı. Bu kimi faktlara əsaslanan həmin tarixçilər belə hesab edirlər ki, sovet rəhbərliyi dağlıq rayonların əslində bütün sakinlərinə qarşı zəhərli maddələrdən istifadə etməyi planlaşdırırdı ki, bu da deportasiyanın həyata keçirilməsini xeyli asanlaşdıracaqdı. Bunun sonradan güclü sənayeyə malik Qroznı üçün ağır nəticələrə səbəb olacağı təhlükəsi həmin planların həyata keçirilməsinin qarşısını aldı [16, s.547].

1944-cü ilin əvvəllərində təqribən yarım milyonluq çeçen-inquş əhalisinin öz yurdlarından köçürülməsi məqsədilə 14200 vaqon, habelə ABŞ-dan İran vasitəsilə SSRİ-yə lend-liz proqramı üzrə gətirilən çoxlu sayda avtonəqliyyat vasitələri ayrıldı. Yanvarın 20-də ÜK(b)P-nin Çeçen-İnquş vilayət komitəsi və respublikanın Xalq Komissarları Soveti "Şimali Qafqaz hərbi dairəsinin ordu hissələrinin dağlıq şəraitdə taktiki təlim hazırlığının təmin edilməsi haqqında" birgə qərar qəbul etdilər. Əslində isə, bu qərar çeçenlərin və inquşların deportasiyasına gizli hazırlıqları nəzərdə tuturdu [9].

1944-cü il yanvarın 29-da Beriya "çeçenlərin və inquşların köçürülməsinin həyata keçirilməsi qaydası haqqında təlimatı" təsdiqlədi, iki gün sonra – yanvarın 31-də Dövlət Müdafiə Komitəsi çeçenlərin və inquşların Qazaxıstan və Qırğızıstan SSR-ə deportasiyası haqqında qərar qəbul etdi. Fevralın 20-də Beriya İ.Serov, B.Kobulov və S.Mamulovla birlikdə Qroznıya gələrək "dağlıq ərazilərdə təlimlər" adı altında buraya yerləşdirilən böyük bir kontingentin – 100 min nəfərlik ordunun, 18 min zabit və 19 minə yaxın SSRİ Xalq Daxili İşlər Komissarlığı (NKVD), SSRİ Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı (NKQB) və "SMERŞ" əməkdaşlarının iştirak etdiyi əməliyyata şəxsən rəhbərlik etməyə başladı [10, s.103-107]. Bundan başqa, qonşu respublikalar və vilayətlərdəki ordu hissələri, o cümlədən hərbi aviasiya, NKVD və SMERŞ əməkdaşları döyüş hazırlığı vəziyyətinə gətirildi ki, bu da əməliyyatda daha 100 min iştirakçı ola bilməsi haqqında fikir söyləməyə imkan verir. Bəzi zabitlər ölkənin ən ucqar bölgələrindən Çeçen-İnquşetiyaya ezam olunmuşdular. Məsələn, sonradan 3-cü dərəcəli dövlət təhlükəsizlik komissarı olmuş Mixail Qvişiani Primorski diyarından ezam olunmuşdu [6, s.838].

Fevralın 21-də Beriya NKVD-yə çeçen-inquş əhalisinin deportasiyası haqqında əmr verdi. Ertəsi gün o, respublika rəhbərliyi və ali ruhani rəhbərləri ilə görüşüb əməliyyat barəsində onları xəbərdar etdi, əhali arasında lazımi işlərin aparılmasını təklif etdi. 1944-cü ilin 22 fevralında Beriya Stalinə məruzə edərkən deyirdi: "Sizin göstərişinizə əsasən, çeçenlərin və inquşların köçürülməsi əməliyyatının uğurla həyata keçirilməsi üçün çekist-hərbi tədbirlərdən əlavə aşağıdakılar həyata keçirilib:

Çeçen-İnquş MSSR Xalq Komissarları Sovetinin sədri Mollayevə hökumətin çeçenlər və inquşların köçürülməsi barədə qərarı və bu qərarın əsasını təşkil edən motivlər barəsində məlumat verilmişdir.

Mollayev mənim xəbərimdən sonra göz yaşları tökdü, amma özünü toparladı və köçürülmə ilə bağlı ona veriləcək bütün tapşırıqları yerinə yetirəcəyinə söz verdi. Daha sonra Qroznıda onunla birlikdə çeçen və inquşlardan olan 9 nəfər rəhbər çağırılaraq vəzifəli şəxs təyin edildi, onlara çeçen və inquşların köçürülməsinin gedişi və səbəbləri haqqında məlumat verildi.

... Fevralın 23-ü sübh tezdən köçürülmə başlayır, əhalinin yaşayış məntəqələri ərazisini tərk etməməsi üçün ərazilərin mühasirəyə alınması şərtdir. Əhali toplanışa çağırılacaq, toplananların bir

hissəsi əşyalarını yığmaq üçün buraxılacaq, qalanları isə tərksilah edilərək yükləmə yerlərinə aparılacaq. Hesab edirəm ki, çeçenlərin və inquşların köçürülməsi əməliyyatı uğurlu olacaq" [13].

Deportasiyanın həyata keçirilməsi. 1944-cü il fevralın 23-də, yerli vaxtla gecə saat 2:00-da deportasiya əməliyyatı və eşelonların təyinat məntəqələrinə göndərilməsi başladı. Əməliyyat "Çeçevitsa" (mərcimək) adlanırdı və onun ilk iki hecası nəzərdə tutulan hədəflərə işarə edirdi [4, s.36]. Deportasiya silahlı yolla və əsasən zorakı üsullar ilə həyata keçirilməyə başlandı. Deportasiyanı həyata keçirən orqanlar üçün problemli görünən əsas məsələ çətin keçilən ərazilərin sakinlərini köçürmə məntəqələrinə gətirmək idi. Bu zaman bütöv aulların (aul – kənd tipli ənənəvi yaşayış məntəqəsidir – B.M.) sakinləri ilə birlikdə praktik olaraq məhv edilməsi halları da baş vermişdi. Bunlara ucqar dağ aulları – Qlaşevo, Sautu, Kyunlyum, Yuxarı Çeqet, Xaybax, Zumsoy və Tarqimi göstərmək olar [19, s.109]. 1990-cı illərin əvvəllərinə qədər sovet hakimiyyəti nəinki sözügedən cinayətləri etiraf etmiş, hətta həmin toponimli yaşayış məntəqələrinin mövcudluğunu belə inkar etmişdi [5, s.28].

Artıq deportasiyanın ilk günündə 333739 nəfər yaşayış məntəqələrindən çıxarıldı, 176950 nəfər eşelonlara yükləndi [20]. Fevralın 26-da Beriya Stalinə teleqraf vasitəsilə məlumat göndərdi: "Çeçenlərin və inquşların köçürülməsi normal gedir. Fevralın 25-i axşam 342647 nəfər dəmiryolu eşelonlarına yüklənib. Stansiyalardan yeni köçürülmə yerlərinə 86 eşelon yola salınıb" [12]. Ümumilikdə, NKVD-nin konvoy qoşunlarının (konvoy fransızca *convoyeur* – "müşayiət etmək" sözündəndir; köçürülmə və ya daşınma prosesini nəzarətdə saxlamaq üçün təyin olunmuş qarovul dəstəsidir – B.M.) rəisi general V.Boçkovun Beriyaya məruzəsindən də göründüyü kimi, hər biri 65 vaqondan ibarət 180 eşelonda 493 min 269 nəfər (hər eşelonda orta hesabla 2740 nəfər) deportasiya olundu. Rəsmi məlumata görə, yolda 56 körpə dünyaya gəlmiş, 1272 nəfər müxtəlif xəstəliklərdən, əsasən isə soyuqdəymə və ya xroniki xəstəliklərin kəskinləşməsi nəticəsində dünyasını dəyişmişdi [20]. Lakin, şahid ifadələri göstərir ki, itkilər daha çox olmuşdur. Məsələn, deportasiya olunanlardan biri şahidi olduğu hadisələri belə xatırlayır: "Əgər Zakan stansiyasında biz ancaq sıxlaşaraq vaqonda idiksə, Kazalinskə (Qazaxıstanda şəhər – B.M.) çatanda az-çox taqəti qalmış uşaqlar vaqonun içərisində hətta qaçışa bilirdilər". Yaxud, başqa bir şahid E.Ametisov hadisələrlə bağlı söyləyir: "Mən onların (çeçenlərin) vaqonlarda necə gətirildiyini və yarısının artıq meyit kimi boşaldıldığını gördüm. Sağ qalanlar isə vaqonlardan –40 dərəcə şaxtaya boşaldıldı". [6, s.844].

Qeyd etmək lazımdır ki, hər ailəyə 500 kiloqrama qədər yük götürməyə icazə verilsə də, faktiki olaraq köçürülənlər öz əşyalarının böyük hissəsini evlərində tərk etməli olurdular, çünki hər bir vaqona 45 nəfər bütün əşyaları ilə birgə sığmalı idi. [20]. 28-32 nəfərlik tutumu olan vaqonlara 45 nəfərin yüklənilməsində məqsəd daşıma xərclərini azaltmaq idi. Bir vaqonun sahəsi cəmi 17,9 m² təşil edirdi. NKVD-nin sənədlərinə görə: "...hər vaqona xüsusi kontingentin (yəni köçürülənlər – B.M.) ən azı 240 nəfəri yerləşdirilirdi" [22, s.17]. "Xüsusi köçkünlər" (спецпереселенцы) öz malqarasını və taxılını təhvil verməli, əvəzində yeni məskunlaşacaqları yerlərdə hakimiyyət orqanlarından onları eyni miqdarda almalı idilər, lakin əksər hallarda bu qaydaya əməl edilmirdi [20].

Deportasiyanın başlaması ilə eyni vaxtda, milliyyətcə çeçen və inquş hərbçilərin Qırmızı ordudan tərxis olunması prosesi başlandı. Təkcə 1944-cü ildə deportasiya edilmiş bu xalqların nümayəndələrindən olan 710 zabit, 1696 çavuş və 6488 əsgər ordu sıralarından tərxis olundu. Onların çoxu şimaldakı arxa cəbhə rayonlarına göndərildi, orada ağac tədarükü və yolların çəkilməsində işçi qüvvəsi kimi istifadə edildi. Qırmızı ordudakı çeçenlər və inquşların say dinamikasına nəzər yetirsək görərik ki, əgər 1942-ci ilin 1 iyulunda onlar 4446 nəfər təşkil edirdisə, 1 iyul 1944-cü ildə bu rəqəm 1720 nəfərə düşmüş, yəni 2,5 dəfə azalmışdı [7, s.592]. Hətta, müharibə zamanı qəhrəmanlıqlar göstərərək həlak olmuş Sovet İttifaqı Qəhrəmanları Xəvaci Məhəmməd-Mirzəyevin, İrbayxan Beybulatovun, Xanpaşa Nuradilovun ailələri, habelə sağ qalmış Əbuhəci İdrisov, Xansultan Daçiyev və digərləri müharibə başa çatdıqdan sonra ailələri ilə birlikdə deportasiyaya məruz qaldılar. Milliyyətcə çeçen olan müharibə iştirakçısı podpolkovnik M.Visaitov 2-ci Belorusiya cəbhəsi komandanlığının qərarı ilə M.V.Frunze adına Hərbi akademiyada oxumağa göndərilsə də, bir neçə ay sonra Qazaxıstana sürgün edildi [14, s.89].

Çeçen və inquşlardan müstəsna hallarda deportasiyadan azad edilənlər 1-ci kateqoriyalı (ümumittifaq əhəmiyyətli şəhərlər (Moskva və s.) nəzərdə tutulur – B.M.) şəhərlərə, sərhəd zolağı

boyunca olan yaşayış məntəqələrinə, habelə Qroznı vilayətinə və Dağıstana getməsinə icazə verilmirdi [14, s.91]. Bəzən, ölkə qarşısında xüsusi xidmətlərinə görə deportasiyadan azad edilən çeçenlərin bundan imtina edərək könüllü deportasiyaya yollanması halları da baş verirdi. Belə şəxslərə sonralar SSRİ xalq artisti olmuş görkəmli mədəniyyət xadimi Mahmud Esambayevi, sonralar bərpa edilmiş Çeçen-İnquşetiyanın rəhbərlərindən biri olmuş ictimai-siyasi xadim Müslim Qayrbekovu və d. misal göstərmək olar [6, s.847]. Həmin vaxt Moskvada təhsil alan M.Qayrbekov deportasiyadan xəbər tutan kimi Georgi Malenkovla görüşərək ona belə bir qərarın səbəbləri haqqında sual verdikdə Malenkov cavab vermişdi: "Şəxsən bizim sizə qarşı heç bir iddiamız yoxdur. Moskvada təhsilinizi davam etdirə və ailənizlə birlikdə yaşaya bilərsiniz". Lakin buna baxmayaraq, Qayrbekov öz istəyi ilə Orta Asiyaya, soydaşlarınının yanına getdi [11].

Daha əvvəldə qeyd etdiyimiz kimi, deportasiyanın həyata keçirilməsinə daxili qoşunların 100 min əsgəri, NKVD və NKQB-nin 19 minə qədər əməkdaşı cəlb edilmişdi. Təbii ki, belə bir iri kontingentin təchizatı və yerləşdirilməsi külli miqdarda vəsait tələb edirdi. Deportasiya yerlərində minlərlə zabitin çalışdığı yüzlərlə komendatura yaradıldı. Köçürülmələr zamanı təqribən 100 min kəndli təsərrüfatı dağıdıldı ki, bu da ölkə iqtisadiyyatına bir neçə milyard rubl məbləğində ziyan vurdu. Təkcə "xüsusi məskunların" daşınması sovet dövlətinə 150 milyon rubla başa gəldi. Müqayisə üçün, həmin vəsaitə 700 ədəd "T-34" tankları hazırlana bilərdi [6, s.836].

Deportasiya olunan çeçen-inquş əhalisinin sonrakı taleyi. Deportasiya öz təsirlərini ilk növbədə çeçen-inquş əhalisinin demoqrafik say dinamikasına göstərdi. Bir tərəfdən yeni ərazilərə uyğunlaşmanın çətinlikləri, bir tərəfdən çeçenlər və inquşların öz yurdlarından məhrum olması, digər tərəfdən davam edən müharibənin çətinliyi vəziyyəti daha da ağırlaşdırmışdı. Ümumilikdə Şimali Qafqazın deportasiya edilmiş xalqları (çeçenlər, inquşlar, qaraçaylar, balkarlar) arasında doğum-ölüm nisbətinin sayını göstərən aşağıdakı statistikaya baxdıqda məlum olur ki, ölüm sayı doğumu üstələyir [15, s.193-195]:

İllər	**Doğulanların sayı**	**Ölənlərin sayı**	**Nəticə**
1945	2230	44652	42422 nəfər azalma
1946	4971	15634	10633 nəfər azalma
1947	7204	10849	3645 nəfər azalma
1948	10348	15182	4834 nəfər azalma

Qərb tarixçisi Otto Pol yazır ki, deportasiya edilmiş 387229 çeçenin təxminən 104903 nəfəri (dörddə birindən çoxu) 1949-cu ilə qədər həlak olmuşdu [2, s.96] Rusiya demoqrafı D.Ediyevin məlumatına görə, deportasiya zamanı ümumi itki sayı çeçenlər üçün 125477 nəfər (deportasiya edilənlərin 30,76%-i), inquşlar üçün 20284 nəfər (21,27%) təşkil edir [26, s.294].

1944-cü il mayın 29-da SSRİ Xalq Komissarları Soveti "Xüsusi köçkünlərə - qaraçaylara, çeçenlərə, inquşlara, balkarlara və kalmıklara onlardan alınmış mal-qara və taxıl müqabilində, yeni ərazilərdə mal-qara və taxılın verilməsi haqqında" qərar qəbul etdi. Lakin, yerli hakimiyyət orqanları həmin qərarı bu və ya digər səbəblərdən, əsasən isə davam edən müharibə səbəbindən heç də həmişə həyata keçirmirdi. Yalnız müharibə başa çatdıqdan sonra hökumətin 28 iyul 1945-ci il tarixli qərarı ilə deportasiya olunanlara bir sıra güzəştlər verildi [14, s.102-104].

Qeyd etmək lazımdır ki, yeni ərazilərdə çeçen-inquş əhalisi mənzilsiz qalma, qida çatışmazlığı, işsizlik və s. kimi problemlər ilə üzləşmişdilər. Bunu 1944-cü il oktyabrın 16-da Qazaxıstan SSR XKS və ÜK(b)P Mərkəzi Komitəsi tərəfindən partiyanın vilayət komitələrinə (обком) göndərilən teleqramda yazılanlar da sübut edir: "Kolxozlarda və sənaye müəssisələrində məskunlaşmış xüsusi köçkünlərin vəziyyəti son dərəcə əlverişsizdir. ...Onların böyük bir hissəsi soyuq qış şəraitində təsərrüfat tikililərində, klublarda və digər sığınacaqlarda yaşamağa davam edir. Çox sayda insan yaşayış yerində son dərəcə sıx yerləşdiyindən mənzillər çirkli qalır, nəticədə epidemiya və xəstəliklər meydana gəlir. Xüsusi məskunlaşanlar arasında çoxsaylı distrofiya halları (distrofiya – orqanizmə

kifayət qədər qida maddələrinin daxil olmaması səbəbindən maddələr mübadiləsinin pozulması ilə yaranan xəstəlikdir – B.M.) müşahidə olunur. Mal-qaranın paylanılması son dərəcə qeyri-qənaətbəxş aparılır, işsizlik səbəbindən bir çox "xüsusi məskunlar" onlara verilmiş mal-qaranı kəsirlər və ya satırlar" [14, s.107].

Bütün bunlara rəğmən, 1945-ci ilin yanvarında sovet hakimiyyəti çeçen-inquş əhalisinin hüquqlarını məhdudlaşdıran fərman qəbul etmişdi. Bu fərmana görə, onlar xüsusi komendaturaların (спецкомендатура) icazəsi olmadan yaşayış yerlərini hətta qısa müddətlik də olsa tərk edə bilməzdilər. Komendaturalar bu qaydanı pozanları 5 sutkalıq həbs edə və ya 100 rubla qədər cərimə edə bilərdilər [6, s.861].

Çeçen-inquş əhalisinin hüquqlarının bərpası. 1953-cü ildə Stalinin ölümü və Beriyanın güllələnməsindən sonra ölkənin ictimai-siyasi həyatında böyük dəyişikliklər baş verdi ki, bu da deportasiya edilmiş xalqlarda bəraət almaq, öz vətənlərinə geri qayıtmaq ümidləri yaratdı. Repressiyaya məruz qalan xalqların çoxlu sayda nümayəndələri, eləcə də çeçenlər və inquşlar dərhal öz yurdlarına geri qaytarılma, üzərlərindən kollaborasionizm, fərarilik kimi ittihamlarının götürülməsi xahişləri ilə hakimiyyətə israrla müraciət etməyə başladılar. Nəhayət, 1956-cı ilin iyunun 12-də Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikasının bərpası üzrə komissiya yaradıldı. Həmin ilin 16 iyulunda SSRİ Ali Sovetinin Rəyasət Heyəti bu direktivi rəhbər tutaraq "Böyük Vətən müharibəsi dövründə köçürülmüş çeçenlər, inquşlar, qaraçaylar və onların ailə üzvləri üzərindən xüsusi yaşayış məntəqələrinə qoyulan məhdudiyyətlərin aradan qaldırılması haqqında" fərman verdi [17, s.392-393].

1957-ci il yanvarın 9-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti "RSFSR-in tərkibində Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikasının bərpası haqqında" 149/14 nömrəli Fərman verdi [17, s.419-420]. 1957-ci il fevralın 11-də bu fərman qüvvəyə mindi. Lakin, fərmanın ardıcıl şəkildə icra olunmaması, habelə partiya-sovet nomenklaturasının bir hissəsinin mərkəzdə və yerlərdə müqaviməti nəticəsində bərpa prosesi uzanmış, çoxsaylı çətinliklərlə və problemlərlə üzləşmişdi. Bununla yanaşı, 1957-ci il ərzində gəlmə əhalinin 113 mindən çox nümayəndəsi muxtar respublikanı tərk etdi [14, s.269].

Çeçen-inquş əhalisinin, eləcə də digər deportasiya olunmuş xalqların hüquqlarının tam bərpa olunması, onlara bəraət verilməsi prosesi bir neçə onilliklər boyunca ləngidi. Deportasiyalardan yalnız 45 il sonra, 1989-cu il noyabrın 14-də SSRİ Ali Soveti "Məcburi köçürmələrə məruz qalmış xalqlara qarşı törədilən qanunsuz və cinayət xarakterli repressiv aktların tanınması və onların hüquqlarının təmin edilməsi haqqında" Bəyannamə qəbul etdi [24, s.204]. Həmin bəyannaməyə əsasən, repressiyaya məruz qalan bütün xalqlara, o cümlədən də çeçenlərə və inquşlara bəraət verildi, onlara qarşı böhtan, məcburi köçürmə, milli-dövlət təsisatlarının ləğv edilməsi, "xüsusi məskunlaşma" yerlərində terror və zorakılıq rejiminə məruz qalması dövlət səviyyəsində qanunsuzluq və cinayət aktı kimi tanındı. Bundan 2 il sonra, 1991-ci il aprelin 26-da "Repressiyaya məruz qalmış xalqlara bəraət verilməsi haqqında" RSFSR qanunu qəbul edildi.

Çeçenlərin və inquşların deportasiyası Qərbdə çox vaxt soyqırım aktı kimi qəbul edilir. Amerika müəllifi B.Vilyams yazır: "Sürgündə olan çeçenlər və digər xalqlar tezliklə ağır əməyə cəlb olundular. Məsələn, çeçenlər Qazaxıstanın donmuş çöllərində yolların və dəmiryol xətlərinin tikilməsi kimi ağır əməyə məruz qalmış, təhlükəli mədənlərdə işləməyə və fabriklərdə çətin işlərlə məşğul olmağa məcbur edilmişdilər. Belə bir şəraitdə mövcud əmək fəaliyyəti sahəsində az təcrübəyə malik olan, yerli xəstəliklərə qarşı immuniteti olmayan çeçenlər arasında ölənlərin sayı artmaqda davam edirdi. Məhz ölənlərin sayının bu qədər çox olması çeçenlərin deportasiyasını soyqırım adlandırmağa əsas verir" [3, s.67].

Çeçenlərin və inquşların deportasiyasının 60 illiyi zamanı, 2004-cü ilin fevralında Avropa parlamenti bu deportasiyanı soyqırım aktı kimi tanımışdır: "23 fevral 1944-cü ildə Stalinin göstərişi ilə bütün çeçen xalqının Mərkəzi Asiyaya deportasiyası 1907-ci ildə Dördüncü Haaqa Konvensiyası və 9 dekabr 1948-ci ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş Soyqırım cinayətinin qarşısının alınması və Repressiyaya dair Konvensiyaya əsasən, soyqırım aktıdır" [1].

Nəticə. Beləliklə, çeçenlərin və inquşların deportasiyası müharibə illərində SSRİ-də ən böyük etnik deportasiya əməliyyatı oldu. Müxtəlif mənbələrə görə, ləğv edilən Çeçen-İnquş muxtar respub-

likasının ərazisindən 1944-cü ilin 23 fevralından martın əvvəllinə kimi 500 mindən 650 minə qədər insan deportasiya edildi [8, s.196-201]. Məcburi köçürülmələr zamanı hər iki xalqın dörddə bir hissəsi həlak oldu. Halbuki, hətta faşist Almaniyası ilə müharibədə çeçenlər və inquşlar arasında bu qədər insan həlak olmamışdı. Davam edən müharibə şəraitində Stalin rəhbərliyinin sağlam düşüncəyə zidd olan bu siyasəti zamanı yüz minlik ordu deportasiyaya cəlb olundu, dövlət büdcəsindən külli miqdarda vəsait xərcləndi. Yerli əhali deportasiya olunduqdan sonra onların bu ərazidəki izlərinin silinməsinə cəhdlər edildi: partiya-sovet rəhbərliyinin göstərişi ilə məscidlər, qəbiristanlıqlar talan edildi, çeçen və inquş dillərində olan kitablar, əlyazmalar yandırıldı, küçələrin, aulların və rayonların adları dəyişdirilərək rus və osetin adları ilə əvəz olundu [6, s.855]. Stalinin ölümündən sonra, 50-ci illərin ikinci yarısında çeçen-inquş əhalisinin muxtar respublikası bərpa olundu, onlara bəraət verilməsi isə, yalnız SSRİ-nin mövcudluğunun son illərində baş tutdu.

ƏDƏBİYYAT

1. Chechnya: European Parliament recognises the genocide of the Chechen People in 1944. - www.unpo.org/article/438 [Müraciət tarixi: 15.01.2022].
2. J. Otto Pohl, Ethnic Cleansing in the Soviet Union, 1937-1949. Westport, CT: Greenwood Press, 1999, 179 p.
3. Williams, Brian Glyn. Inferno in Chechnya: The Russian-Chechen Wars, the Al Qaeda Myth, and the Boston Marathon Bombings. New Hampshire, University Press of New England, 2015, 296 p.
4. Wood, Tony. Chechnya: The Case for Independence. New York, Verso, 2007, 199 p.
5. Алиев К.М. Свет и тени партизанской войны. Москва, Илекса, 2003, 160 с.
6. Ахмадов Я.З., Хасмагомадов Э.Х. История Чечни в XIX-XX веках. Москва, Пульс, 2005, 996 с.
7. Безугольный А.Ю. Опыт строительства Вооруженных сил СССР: Национальный аспект (1922-1945 гг.): Дисс. докт. ист. наук. Москва, 2019, 597 с.
8. Безугольный А.Ю., Бугай Н.Ф., Кринко Е.Ф. Горцы Северного Кавказа в Великой Отечественной войне 1941-1945 гг.: проблемы истории, историографии и источниковедения. Москва, Центрполиграф, 2012, 479 с.
9. Бугай Н.Ф. Депортация народов. - https://scepsis.net/library/id_1237.html [Müraciət tarixi: 01.02.2022].
10. Бугай Н.Ф. Л. Берия – И. Сталину: «Согласно Вашему указанию…». Москва, АИРО-XX, 1995, 323 с.
11. Гайрбеков, Муслим Гайрбекович. - ru.wikipedia.org [Müraciət tarixi: 11.01.2022].
12. ГАРФ. Ф.Р-9401. Оп.2. Д.64. Л.160. - https://www.ng.ru/specfile/2000-02-29/10_top_secret.html [Müraciət tarixi: 10.01.2022].
13. ГАРФ. Ф.Р-9401, Оп.2, Д.64, Л.166. - https://www.ng.ru/specfile/2000-02-29/10_top_secret.html [Müraciət tarixi: 10.01.2022].
14. Ермекбаев Ж.А. Чеченцы и ингуши в Казахстане. История и судьбы. Алма-Ата, Дайк-Пресс, 2009, 508 с.
15. Земсков В.Н. Спецпоселенцы в СССР 1930-1960 гг. Москва, Наука, 2005, 306 с.
16. Ибрагимов М.М., Гакаев Д.Ж. и др. История Чечни с древнейших времён до наших дней. Т. 2. Грозный, ГУП Книжное издательство, 2008, 832 с.
17. Ингуши: депортация возвращение, реабилитация, 1944-2004: Документы, материалы, комментарии / Авт.-сост. Я.С.Патиев. Магас, Сердало, 2004, 608 с.
18. Казаков А.И. Город Грозный. Грозный, Чечено-Ингушское книжное издательство, 1984, 190 с.
19. Конфедерация репрессированных народов Российской Федерации, 1990-1992: документы, материалы. Москва, Центр по изучению межнациональных отношений Ин-та этнологии и антропологии им. Н.Н. Миклухо-Маклая РАН, 1993, 293 с.
20. Кречетников А. Операция «Чечевица»: 65 лет депортации вайнахов. - http://news.bbc.co.uk/hi/russian/russia/newsid_7906000/7906059.stm [Müraciət tarixi: 10.01.2022].

21. Магомаев В.Х. К вопросу о депортации народов северного кавказа. - https://tipograf05.ru/f/46.pdf [Müraciət tarixi: 10.01.2022].
22. Михайлов А.Г. Чеченское колесо: генерал ФСБ свидетельствует. Москва, ООО Коллекция «Совершенно секретно», 2002, 320 с.
23. Полян П.М. Не по своей воле… История и география принудительных миграций. Москва, ОГИ-Мемориал, 2001, 328 с.
24. Принудительное переселение крымских татар. Путь к реабилитации: Материалы и док. Москва, Аквариус, 2015, 256 с.
25. Указ Президиума Верховного Совета СССР. О ликвидации Чечено-Ингушской АССР и об административном устройстве ее территории. - https://rb.gy/gfwrxr [Müraciət tarixi: 10.01.2022].
26. Эдиев Д.М. Демографические потери депортированных народов СССР. Ставрополь, СтГАУ «Аргус», 2003, 336 с.

БАЛАМИРЗА МАМЕДЛИ
Магистрант Бакинского государственного университета по специальности «История славянских стран»

ДЕПОРТАЦИЯ ЧЕЧЕНО-ИНГУШСКОГО НАСЕЛЕНИЯ В СРЕДНЮЮ АЗИЮ В СССР В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

Проблема депортации народов Северного Кавказа в Среднюю Азию в СССР в годы Второй мировой войны еще не до конца изучена и поэтому является предметом исследования многих историков. Научно-объективный подход к изучению проблемы депортации стал возможен только после распада СССР благодаря открытию архивных фондов, остававшихся засекреченными. Чеченцы и ингуши входят в число народов, депортированных в СССР во время войны с фашистской Германией. Насильственное переселение чечено-ингушей с их исторических земель и помещение их на режим «спецпоселения» сопровождалось гибелью сотен тысяч человек. В ходе депортации, чеченцы и ингуши подвергались социальному и моральному давлению, многим ограничениям, не были обеспечены их имущественные права и безопасность, несмотря на то, что они числились в официальных документах.

В статье рассматриваются причины депортации чечено-ингушского населения, подготовка и проведение депортационной операции в годы советско-германской войны, а также восстановление прав депортированного чечено-ингушского населения.

Ключевые слова: Вторая мировая война, СССР, чеченцы, ингуши, депортация, «спецпоселение», реабилитация.

BALAMIRZA MAMMADLI
Master student of Baku State University in the specialty "History of the Slavic countries"

DEPORTATION OF CHECHEN-INGUSH POPULATION TO CENTRAL ASIA IN THE USSR IN THE YEARS OF SECOND WORLD WAR

The problem of the deportation of the peoples of the North Caucasus to Central Asia in the USSR during the Second World War has not yet been fully studied and therefore is the subject of research by many historians. A scientific-objective approach to the study of the problem of deportation became possible only after the collapse of the USSR due to the discovery of archival funds that remained classified. Chechens and Ingush are among the peoples deported to the USSR during the war with Nazi Germany. The forced resettlement of the Chechen-Ingush people from their historical lands and their placement in the "special settlement" regime was accompanied by the death of hundred thousand people. During the deportation, Chechens and Ingush were subjected to social

and moral pressure, many restrictions, their property rights and security were not ensured, despite the fact that they were listed in official documents.

The article discusses the reasons for the deportation of the Chechen-Ingush population, the preparation and conduct of the deportation operation during the years of the Soviet-German war, as well as the restoration of the rights of the deported Chechen-Ingush population.

Key words: World War II, USSR, Chechens, Ingush people, deportation, "special settlement", rehabilitation.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Fazil Baxşəliyev, t.e.d. Qabil Əliyev.

UOT 39

РЕНА ИБРАГИМОВА
Доцент кафедры Археологии и этнографии
rena.ibrahimova.historian@gmail.com

ОСОБЕННОСТИ СЕМЕЙНОГО БЫТА У НАРОДОВ СЕВЕРНОГО КАВКАЗА В XIX ВЕКЕ

Статья посвящена актуальной проблеме - исследованию особенностей семейного быта у народов Северного Кавказа в XIX веке, а именно архаичным институтам аталычества, гостеприимства и кровной мести. Выявлены социальные, экономические, общественные корни их возникновения и причины широкого распространения среди различных слоев населения этого региона. В статье также нашли отражение сведения христианских миссионеров, купцов, путешественников о материальной и духовной культуре, семейно-брачных отношениях черкесов, ингушей, кабардинцев, ногайцев, кумыков.

Ключевые слова: Кавказ, аталычество, кровная месть, гостеприимство.

Введение. Аталычество, куначество, кровная месть – формы искусственного родства являются древними институтами семейного быта народов Кавказа и Дагестана. Эти институты играли важную роль в системе экономических, социальных и общественных взаимоотношений между народами этих регионов. Существуют простые и классические формы аталычества, которые практиковались у отдельных народов и служили созданию искусственного родства. Аталычество получило широкое распространение в феодальной среде и играло важную роль в укреплении внутриобщинных связей, прекращении кровной мести и межсословных конфликтов. Эти институты в свое время способствовали сохранению этнической индивидуальности и самобытности. Отголоски сложных ритуалов, связанных с обычаем куначества-гостеприимства, частично сохранились в современном быте народов Северного Кавказа. Кровная месть, имеющая разные причины возникновения, в некоторых случаях прекращалась с выплатой композиции. Для изучения этих явлений большое значение имеют письменные свидетельства путешественников, миссионеров, купцов, оставивших описание различных обрядов и обычаев, связанных не только с семейным бытом, но и религиозными воззрениями, общественным строем народов Северного Кавказа.

***

Питер Генри Прус, побывавший на Кавказе в 1722 г. о женщинах – черкешенках пишет, что они очень привлекательны, с мягкими, хорошими манерами. У них репутация верных, честных жен. Далее автор указывает, что религия черкесов – языческая, хотя они проводят обряд обрезания, у них нет ни священников (мулл), ни Корана, ни мечетей, как это есть у других мусульман. Существует обряд жертвоприношения. По случаю смерти одного из друзей совершается наиболее торжественное жертвоприношение. Обычно в жертву приносят козла, шкуру которого растягивают на высоком шесте, а мясо съедается участвующими мужчинами и женщинами (1, с.108-109). Согласно принятой в исторической науке точке зрения, возникновение аталычества связано с процессами классообразования и отношениями сюзерена - вассала. На территории горного Дагестана практиковались различные формы аталычества. Ребенка передавали на вскармливание и воспитание в другие семьи в раннем возрасте. Женщину-кормилицу называли «молочная мать». Дети, вскормленные молоком одной женщины, считались молочными братьями и сестрами, такое родство исключало брачные связи между этими семьями, так как они считались родственниками. В доме воспитателя ребенок оставался 2-2,5 года, пока не научится говорить. Кормилиц использовали лишь в семьях высшей знати. Аварская знать не отдавала девочек на кормление. Дидойцы отдавали своих детей (преимущественно сыновей) в 4-х-5-летнем возрасте в другие селения родне или кунакам. Перед тем как передать ребенка аталыку, ему на левой руке в области локтя делали с помощью иглы и пороха татуировку на арабском – его имя, год и место рождения. Аталыка выбирали еще до

рождения ребенка, рассматривалось сразу несколько кандидатур, и чем знатнее был родитель, тем больше было претендентов на роль аталыка. Учитывались личные качества, материальное положение и физическое здоровье членов семьи аталыка и особенно кормилицы, авторитет тухума. Кормилица должна была обладать добрым нравом, быть чистоплотной и аккуратной хозяйкой. В некоторых случаях ребенок воспитывался попеременно у нескольких аталыков, чтобы не было недовольства среди кандидатов. Аталык мог принадлежать к другой этнической группе, нежели его воспитанник. Так, аталыками у детей кумыкской знати выступали аварцы, чеченцы, ногайцы. Вместе с ребенком в дом аталыка отправляли его личные вещи, колыбель, детскую одежду, так как было принято первую одежду шить из ношеной одежды родителей, чтобы уберечь его от сглаза. Аталык и его жена (аналык), стоявшие ниже своих воспитанников на социальной лестнице, должны были строго придерживаться сословного этикета, относиться к своим воспитанникам с почтением. Ему старались прививать трудолюбие, чувство ответственности, лучшие этические и нравственные качества. Часто в доме аталыка для девушки-воспитанницы нанимали специальную прислугу. В семье аталыка воспитанники относились к нему так же, как и его родные дети, с уважением и почтением. Родители очень редко навещали своих детей в семье аталыка, считалось, что частое общение с родителями, особенно с мальчиками, мешает формированию мужественной, волевой и самостоятельной личности. По достижении 16-17 возраста юношу возвращали в его родную семью. Только у осетин воспитанника можно было вернуть родителям раньше установленного срока (2, с.102). За воспитание ребенка аталык получал подарки от его родителей и самых близких родственников. Ему передавались лучшие земли, оросительные каналы, они освобождались от налогов (3, с.330). Семья воспитанника выступала защитником интересов семьи аталыка. Последний в свою очередь обязывался вместе со своими сыновьями принимать участие в военных походах князя, уходил в канлы (изгнание за убийство) вместо своего воспитанника. Аталык и его дети мстили за обиду, причиненную кем-либо воспитаннику. Между воспитанником и аталыком, а также их семьями и родней устанавливались родственные связи. Воспитанник помогал ему вести хозяйство, участвовал в семейных торжествах. В случае смерти аталыка он, наравне с его семьей нес все похоронные расходы, принимал соболезнования. В отсутствие прямых наследников мог даже наследовать имущество аталыка. После смерти родителей аталык мог стать опекуном своего воспитанника. У ногайцев существовала другая форма аталычества. Юноша сам выбирал себе в аталыки влиятельного караногайца. Или мужчина пожилого возраста выбирал себе в воспитанники положительного, работящего юношу, одаривал его, приглашал к себе его родню и становился аталыком, а родня юноши, в свою очередь, устраивала торжество в честь аталыка.

Реже наблюдалась другая форма - перекрестное аталычество: если у двух семей одновременно рождались дети, они договаривались об установлении искусственного родства. После этого отцы семейства называли друг друга аталыками. Следующей формой аталычества считается передача подростка в другую семью на короткое время с целью изучения традиций и языка соседнего народа. В конце XIX века караногайцы отдавали детей на воспитание к кумыкам. Обмен малолетними детьми существовал и у караногайцев с чеченцами. Французский консул Ксаверио Главани оставил сведения о аталычестве, отметив, что каждый черкесский бей для приобретения покровительства Крымского хана берет к себе на воспитание одного из принцев ханского дома Алидженги. Это считается у них большой честью. Крымский хан, избрав одного из черкесских или кабардинских дворян воспитателем, отправлял к нему принца через три дня после его рождения. Воспитатель содержит его как собственного сына до 15 или 16 лет. По достижении им этого возраста, даются ему рабыни. Бей Кабарды Аслан-бей был воспитателем Салих-Герая, сына крымского хана Сеазет-Герая, аталычество обеспечивало ему покровительство Сеазет-Герая. И в то же время этот обычай ставил в зависимое положение от крымских ханов кабардинскую и черкесскую знать.

Ксаверио Главани сообщил сведения об этикете, одежде, пище черкесов. Так, черкесы вежливы и, приветствуя, снимают шапку, женщины принимают чужеземцев с радушием. Женщины обладают стройным станом, так как с 4-5 лет носят тесный кожаный корсет, вплоть

до замужества, меняя на новый по надобности. По обычаю в брачную ночь муж разрезает этот корсет. Религия у черкесов синкретическая. Празднуют и христианские и мусульманские праздники. Помимо этого, у них сохранились пережитки первобытных верований в форме анимизма, тотемизма и поклонения силам природы. Каждый округ Черкессии имеет особое священное место, находящееся обыкновенно в лесу, где поклоняются большому дереву. Такое дерево называют «пенекассан», перед ним молятся, умирающие вешают на ветки дерева свою саблю, ружье, одежду и другие предметы, но никто не осмеливается прикоснуться к ним. Но, если мужчины и женщины, совершившие преступление или убийство, скроются в этом священном лесу и повяжут себе на шею какой-нибудь кусок ткани из висящих на дереве, то они освобождаются от наказания, как состоящие под покровительством божества. Рабы и преступники в этом лесу пользуются неприкосновенностью и свободою только до тех пор, пока сохраняется вещь, которую они повязали на шею. В этом же лесу хоронят мертвых и совершают обряды. Трупы людей и животных, убитых молнией, считают божеством, которое называется «кодос» (4, с.113). Ж.Таверньe отмечает, что, когда гремит гром, все выходят из селения, и молодежь начинает петь и танцевать, в этом обряде присутствует и старшее поколение. Если молния убивает кого-нибудь из них, они хоронят его с почестями и считают святым, считая такую смерть милостью бога. Если молния ударит в один из домов, то даже если никто не убит, вся семья, проживающая в этом доме, содержится в течение целого года ничего не делая, за исключением танцев и пения. Посещая селения, они получают от жителей продукты для своего пропитания (10, с.61).

Петер-Симон Паллас отмечает вежливость черкесов, благосклонность их к иноземцам, но пока последние находятся у них в гостях, но иностранец, встреченный в поле, легко может попасть к ним в рабство. Гость – кунак находится под покровительством хозяина дома и считается близким его человеком. Если же гостю грозит со стороны опасность, то хозяин дома и все его родственники встают на защиту гостя, готовые пролить за него кровь и поплатиться своею жизнью. При необходимости гостю предоставляется для охраны конный эскорт. Убийство или причинение несправедливости гостю отмщается так же, как убийство единокровных родственников. Странник, доверившийся покровительству женщины или получивший возможность символически прикоснуться губами к ее груди, если он был бы врагом и даже убийцей ее родственника, принимается и защищается как кровный родственник (7, с.268). Кровная месть соблюдается крайне скрупулезно. Убийца сородича должен получить возмездие от потомка, даже если последний был ребенком во время совершения преступления. Любая степень возмездия осуществляется раньше или позже, публично или тайно, чтобы уничтожить убийцу, чтобы виновная сторона не оставалась безнаказанной. Кровная месть передается от поколения к поколению по наследству и от племени к племени; вражда укореняется до такой степени, что князья и дворяне двух разных племен, встречая друг друга на дороге или случайно где-нибудь в другом месте, вынуждены с оружием в руке бороться за свою жизнь, если один из них, заметив другого на расстоянии, не выбирает себе другой дороги. Среди черкесов чувство обиды за члена семьи или рода столь велико, что все родственники убийцы считаются виновными в преступлении. Обычай кровной мести за родственников порождает много распрей и случаев большого кровопролития среди народов Северного Кавказа. Если примирение не достигнуто браком между представителями враждующих фамилий, то обязанность кровомщения распространяется на все последующие поколения. Если жажда мщения гасилась платой потерпевшим фамилиям, эта плата называлась лиуаса, или цена крови, но князья и уздени не принимают такой компенсации, так как у них в обычае требовать кровь за кровь (7, с.268). Черкесские женщины искусны в вышивании, выполняют всю работу по дому, изготавливают необходимые предметы быта для дома и поэтому не имеют необходимости что-либо покупать. Изготавливают ковры и войлок, ткут тонкие шерстяные ткани, из которых шьют одежду для обоих полов. Женщины отважны также как и мужчины. Они умело управляются с лошадью, ловко ездят верхом, с колчаном за плечами и с луком в руке или с хищными птицами на руке выезжают на охоту. Многоженство у черкесов не допускается, браки у них моногамные. Беи вступают иногда в связь со своими рабынями, но рожденные от

них дети считаются незаконными, их посылают крымскому хану, а то и просто продают. Если после смерти бея у него не остается наследников, то бейлик не может перейти к незаконному сыну и поступает в другой род (4, с.117).

Работорговля в начале XIX века была широко распространена по всему Северному Кавказу. В рабство попадали пленные, захваченные во время набегов, но в то же время родители также могли продать своих детей в рабство. Автор утверждает, что беи продают своих дочерей, как только они уличены в безнравственности; они продают даже своих сыновей, если они совершили какие-нибудь важные проступки, которые считаются заслуживающими подобного наказания. Сыновей и дочерей часто отдавали крымскому хану в качестве дани (12, с.137). Сотрудник английского представительства в Москве в 1778-1779 гг. Джордж Эллис писал, что черкесы управляются древними адатами. Важные вопросы решаются на общих совещаниях, куда допускаются уздени и представители от народа - авторитетные старейшины. Что касается семейного быта, князь сразу после рождения сына подыскивает для него узденя или князя из другого рода, чтобы тот воспитывал и обучал порученного ему ребенка. Как только ребенку исполнится один год, проводился магический обряд, в процессе которого пытались определить его будущее предназначение. Ему дарили разные игрушки и оружие. Если он отдает предпочтение оружию, такой выбор рассматривается как счастливое предзнаменование и это событие торжественно отмечается в семье. В возрасте от 7 до 12 лет юный князь оставляет дом своего отца и переходит в семью приемного отца, который обучает его обращению с оружием и лошадью, грабежу и разбою, знакомит с этикетом. Юноша возвращается к отцу только после того, как обретет сноровку, изворотливость и храбрость в достаточной степени. В качестве вознаграждения приемный отец получает 9/10 добычи воспитанника, которую он добывал во время набегов. Д.Эллис трактует обычай аталычества как способ для предотвращения нежелательных последствий родительской снисходительности и терпимости. Обычай аталычества использовался и как способ примирения между враждующими семьями или родами. Дворянин, запятнавший себя убийством князя, стремился любым способом похитить ребенка из фамилии убитого, чтобы вырастить его. Это был единственный способ уберечь себя и своих родственников от смерти, как того требовали законы кровной мести. Для поданного похищение и воспитание юного князя также могло стать единственным путем к приобретению дворянского звания (13, с.151). Якоб Рейнеггс, в 1781-1783 гг. совершивший пять экспедиций по Кавказу, оставил подробное описание обряда аталычества. Богатый вассал мольбами и подарками старается убедить княжескую семью отдать своего новорожденного сына ему на воспитание. Если мать соглашается, вассал с семью свидетелями забирает ребенка и воспитывает его в своем доме. Свидетели по очереди следят за его воспитанием, начиная с того момента, когда печать поставлена и привязана к ребенку (т.е. обряд усыновления подкрепляется документом с печатью). И когда требуется составить список изменений (у растущего ребенка), собираются все семь свидетелей, чтобы тщательно зафиксировать все изменения, которые затем записываются муллой, чтобы все подозрения в отношении подмены ребенка могли быть отвергнуты. Если один из свидетелей умрет, то приемный отец должен найти другого. Княжеского сына учат письму и чтению, приобщают к религии; он изучает все навыки верховой езды, стрельбы и грабительских походов. Когда ему исполняется 16 лет, приемный отец должен одеть его во все новое соответственно его рангу, снабдить новой кольчугой, саблей, кинжалом, ружьем, луком и стрелами, лошадью и рабом. После этого приемный отец устраивает праздник, на который приглашаются отец молодого князя и весь княжеский род, все их друзья и дворяне, во время которого молодой человек представляется отцу впервые. Здесь семь свидетелей дают клятву о его происхождении, которое все племя признает. Затем юный князь прощается с приемным отцом, которому все княжеское племя в знак благодарности присваивает звание дворянина. Но ни один дворянин никогда не может быть возведен в ранг князя, так как не принадлежит к княжеской фамилии (8, с.196). Девочки в семье воспитываются их матерями. Они обучаются вышивать и шить одежду для будущего мужа. Дочери рабов также обучаются рукоделью и шитью. Их часто продают в рабство. Иоганн Гюльденштедт, совершивший экспедицию на Кавказ с 1769

по 1774 гг., оставил следующие сведения о сущности аталычества среди черкесов. Девушек также отдавали в чужую семью на попечение приемных родителей. Их обучали рукоделью, плетению бахромы, соломенных ковриков и корзин. Приемный отец должен был обеспечить княжеской дочери выбор мужа соответствующего ранга, при несоблюдении чего он наказывался отсечением головы (5, с.269). Хан-Гирей пишет, что девочка, отданная на воспитание, воспитывается под попечением жены аталыка, т.е. приемной матери. Приемная мать ездит с нею на празднества, учит этикету, ведению домашнего хозяйства. Когда же воспитанница выйдет замуж, то приемная мать получает из выкупа, даваемого за девушку, большой подарок от супруга ее воспитанницы. Аталык не может иметь более одного воспитанника, чтобы не вызвать недовольство со стороны своего питомца. Когда воспитанник из княжеского рода умрет, то аталык нередко в знак своей глубокой печали обрезывает себе кончик уха и целый год носит траур (11, с.280). А кормилица обязана была не только вырывать волосы, брови, ресницы, но и погрести себя заживо, для этого рыли яму, куда сажали кормилицу, закрыв верх пробитым горшком. В таком положении ей давали есть, но в большинстве случаев кормилицы не выживали (3, с.331).

Юноши и девушки до вступления в брак свободно общаются во время праздников, посиделок, свадеб. До начала танцев юноши демонстрируют свое искусство в различных военных упражнениях, а самый ловкий получает право пригласить на танец самую красивую девушку. Выходя замуж, девушка дарит своему будущему мужу оружие или кольчугу. Отец девушки получает определенную плату за свою дочь, в большинстве случаев скотом. Католический миссионер Эмиддио Дортелли Д Аскони в I четверти XVII века оставил сведения о черкесах. Так, благородный черкес роднится лишь с благородными и равными себе лицом, тщательно избегая уронить свое звание. Уздень не отважится искать себе в невесты дочь князя, а если между ними имеет место любовь, или княжна бывает обольщена узденем, преступная любовь в этом случае стоит узденю его жизни. Отцам и братьям намеченных девушек молодые черкесы дают в выкуп некоторое количество коней, кольчуг, мечей, платьев, серебряных чаш, ценных мехов. Выходя замуж, женщины долгое время, иногда годами, не показываются ни свекру, ни деверям – братьям мужа, ни близким родственника при случайной встрече они отворачиваются и прячут лицо. По истечении некоторого времени, когда у невестки уже двое или трое детей, ей дарят хорошее платье или шубу. После этого она имеет право есть вместе со всеми, но в присутствии свекра ей не разрешено говорить или отвечать другим, даже мужу; она может объясняться только знаками. Это продолжается один год. После этого свекор делает ей второй, меньший подарок, и она приобретает право говорить по мере надобности (14, с.47). Дж. Эллис так же дает сведения о строгих обычаях избегания между мужем и женой на виду у других людей, которые существовали в черкесском обществе и соблюдались в течение всей жизни супругов. В первые 12 месяцев или до рождения ребенка супруги не имеют права показываться родителям. В этот период муж тайно посещает свою жену. Муж считает оскорблением для себя разговаривать с кем-нибудь о своей жене или детях, даже если его спрашивают о здоровье его супруги. Отец делает подарок дочери в день бракосочетания в виде приданого. Большую часть приданого и наряд замужней женщины с вуалью она получает от отца в день рождения своего первого ребенка. Черкешенки участвуют в решении общих дел семьи, рода. Воинская доблесть считается основным критерием для мужчин, что дает им уважение в семье и обществе. Черкешенки гордятся храбростью своих мужей, проявляют большую заботу о вооружении своих мужей. Павших в бою мужей они горько оплачивают, рвут на себе волосы, царапают лицо в знак скорби. Мужчины также придерживаются этого обычая, бичуют себя плетью по лицу до крови, ударяют камнем в грудь, но проявляют выдержку и сохраняют спокойствие при смерти их жен и родителей. Этот же автор отмечает гостеприимство черкесов. В каждой хижине имеется кунацкая - комната для гостей, там же проводит свободное время муж и другие мужчины семьи (14, с.149). Куначество-генетически производное от гостеприимства и представляет следующий этап в развитии межродовых, межплеменных, межэтнических отношений. Вступившие в долгосрочные дружественные отношения люди, имели взаимные права и обязанности, считали себя связанными узами

искусственного родства. Отличие кунака от гостя заключалось еще и в том, что отношения с гостем носили временный и случайный характер, кунаки же были связаны постоянными, нерушимыми узами дружбы, которой они были верны всю жизнь. Дружеские связи высоко ценились в горах Кавказа. Это отразилось в балкарских пословицах: «У кого нет кунака-гостя, у того нет и друга»; «В доме без кунака и пища будет мало». У адыгов говорилось: «Старый друг врагом не станет, а старый враг не станет другом»; «Хороший друг дороже всего, а кто без друга, того легко свалить». Еще в XVII-XIX в.в. у хевсуров практиковался «гостеприимный гетеризм». Хевсуры угощали гостя водкой, а на ночь укладывали с местной девушкой (гостью-с парнем) (6, с.13). У кумыков хозяин дома, что бы в семье не случилось, какая бы беда ни постигла ее, должен был одинаково радушно принимать гостей и заботиться о них. Особенно большое значение придавали кумыки приему гостей из дальних мест, из других обществ. Для укрепления уз дружбы кунаки давали одинаковые имена детям. Если у приезжего было несколько кунаков, то один считался главным: приличие требовало, чтобы гость нанес первый визит именно ему (2, с.291). Гостеприимство черкесов высоко оценил католический священник Джованни да Лука в 1629 году, отметив, что черкесы очень радушно принимают в своем доме иностранцев. Хозяева сами прислуживают гостю в течение трех дней. Будучи в гостях у местного князя, священник был окружен заботой и вниманием. За обедом князь из своих рук подавал ему куски мяса, а сыновья прислуживали за столом с непокрытой головой. Перед сном дочь князя сама омыла гостю ноги, ему почистили одежду. Джованни да Лука отмечает, что стариков в черкесском обществе очень уважают. А молодым мужчинам, не проявившим себя в грабежах и убийствах, пить на пирах не предлагают.

Ж.Тавернье оставил сведения о семейных обрядах черкесов. Раз в год в каждом доме делается большой деревянный крест, на который каждый член семьи по старшинству устанавливает свою зажженную свечу. Этим магическим обрядом делают прогноз на будущее. Если одна из свечей потухнет до того, как окончательно сгорит, то это служит пророчеством, что тот, кто ее прикрепил, не доживет до конца этого года. Падение свечи означает, что тот, кому она принадлежит, будет похищен (10, с.61). Иоганн Готлиб Георги описал образ жизни кавказских народов. Так он пишет, что зажиточные ногайцы покупают своим четырехлетним сыновьям невест, на которых их через несколько лет женят. В брачном торжестве новобрачные принимают участие только в первый день свадьбы, но на другой день оставляются они в своей юрте, куда им приносят пищу. Черкесы по обычаю имеют только одну жену, однако многие нанимают еще одну или двух девушек на время. У дагестанских народов самым значительным событием в жизни девушки было вступление в брак. Но и здесь ее свобода полностью ограничивалась волей родителей. Для выхода замуж обязательно требовалось согласие или отца, или опекуна, или кадия селения. Даже вдова в силу обычаев левирата, вступала во второй брак не всегда по своей воле. Основное и решающее значение при заключении брака являлось имущественное положение сторон, знатность и достоинство рода. Девушке, не имевшей богатого приданого, трудно было найти себе жениха. Невесту в Дагестане предпочитали брать из одного тухума или в пределах одного селения; часто заключались кузенные браки. У ботлихцев заключались браки между мальчиками-подростками из зажиточных семей и девушками и даже вдовами из бедных. Такие браки были выгодны экономически, так как семья мужа, таким образом, получала бесплатную работницу (9, с.156). Якоб Рейнеггс, совершивший пять путешествий по Кавказу, дал характеристику ингушскому обществу. Он писал, что в каждом доме живет одна родственная фамилия (семья), которая живет нераздельно с давних времен и владеет имуществом сообща. Когда численность членов семьи непомерно увеличивается, происходит раздел семьи. Самая малочисленная семья насчитывает 5-10 мужчин, способных носить оружие, другие часто насчитывают 40-50 мужчин, старший из которых всегда является главой и распорядителем всего имущества и всех дел семьи без всякого контроля. Черкесы делятся на три сословия: князей (беи), дворянство (уздени) и вассалов (кулы). Они различаются и по одежде. Только князь может носить кольчугу. Князья очень почитаются их поданными, его личность священна, и никто не осмеливается оскорбить его. Если князь в гневе убивает вассала или даже дворянина, то он обязан только уплатить

цену крови, которую потребует семья убитого, но поднять руку на самого князя или мстить ему не дозволено. Даже если князь захвачен в плен в грабительском походе, его жизнь находится вне опасности, к нему относятся с уважением, и он должен только уплатить значительный выкуп за себя (8, с.195).

Он также описал проведение у ингушей весеннего языческого праздника жертвоприношения в определенном священном месте. Мясо жертвенных животных первым долгом раздают бедным, а потом уже едят остальные участники. Этот праздник настолько почитаем, что самые злейшие враги, встретившись во время этого торжества оставляют свою вражду, но, если речь идет не о кровной мести. На этом же празднике ведется сговор родителей о браке молодых людей. Сначала приходят к согласию матери, затем отец юноши договаривается с отцом девушки о цене или количестве овец, лошадей, быков, что тот потребует за свою дочь. Я.Рейнеггс сообщает, что не так давно кабардинцы имели жестокий обычай человеческих жертвоприношений, они убивали рабов на могилах своих родителей, братьев или друзей, чтобы обеспечить загробный мир душам умерших (8, с.183, 186, 197).

***

Заключение. Институт гостеприимства и куначества-основной инструмент межэтнического общения, средство выживания этноса на раннем этапе его формирования в условиях развития родового общества. Институтом родового строя является аталычество, которое к XIX веку подверглось коренным изменениям и стало отражать феодальные отношения. В указанный период аталычество было распространено главным образом среди князей и узденей, которые видели в этом обычае средство расширения влияния, богатства, усиления связей.

ЛИТЕРАТУРА

1. Брус Питер Генри. Мемуары, с.108-109. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. - http://apsnyteka.org/646-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_108-201.html [Дата обращения: 03.03.2022].
2. Гаджиева С. Кумыки. Изд. АН СССР, М., 1961, 385 с.
3. Гимбатова М.Б., Мусаева М.К., Институт аталычества у народов Дагестана в XIX – начале XX веков: формы и локальные особенности // Журнал «Научный диалог», 2018, №12, с.320-337.
4. Главани Ксаверио. Описание Черкессии. с.110-118. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. -http://apsnyteka.org/646-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_108-201.html [Дата обращения: 03.03.2022].
5. Гюльденштедт Иоганн. Путешествие по России и Кавказским горам. с.227-246. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. - http://apsnyteka.org/647-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_202-301.html [Дата обращения: 03.03.2022].
6. Конаков М.М. Гостеприимство и куначество в этносоциальной традиции балкарцев и карачаевцев. Автореферат на соискание уч. степени к.и.н. Нальчик, 2005, с.17.
7. Палас Петер-Симон. Заметки о путешествии в южные наместничества Российского гос-ва в 1793-1794 гг., с.247-284. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. - http://apsnyteka.org/647-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_202-301.html [Дата обращения: 03.03.2022].
8. Рейнеггс Якоб. Всеобщее историческое и топографическое описание Кавказа. С.178-201. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. -http://apsnyteka.org/646-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_108-201.html [Дата обращения: 03.03.2022].
9. Сергеева Г.А. Положение женщины в дореволюционном и советском Дагестане. КЭС, вып.IV. изд.»Наука», М., 1969, с.152-187.

10. Таверньe Жан Батист. Шесть путешествий в Турцию, Персию и Индию. с.57-64. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. - http://apsnyteka.org/645-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_1-107.html [Дата обращения: 03.03.2022].
11. Хан-Гирей. Записки о Черкесии, Нальчик, изд. «Эльбрус», 1978, 333 с.
12. Харсиев Б.М-Г. Обычаи семьи и семейного быта горцев Кавказа с конца XIX до середины XX века. Назрань, Изд. «Пилигримм», 2015, 140 с.
13. Эллис Джордж. Описание местностей между Черным и Каспийскими морями, с.146-152. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. -http://apsnyteka.org/646-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_108-201.html [Дата обращения: 03.03.2022].
14. Эммидио Дортелли д Аскони. Описание Черного моря и Татарии, с.45-50. - В кн.: Кавказ: европейские дневники XIII–XVIII веков / Сост. В. Аталиков. - Нальчик: Издательство М. и В. Котляровых, 2010. 304 с. - http://apsnyteka.org/645-kavkaz_evropeiskie_dnevniki_xiii-xviii_vekov_1-107.html [Дата обращения: 03.03.2022].

RƏNA İBRAHİMOVA
Tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti

XIX ƏSRDƏ ŞİMALİ QAFQAZ XALQLARININ AİLƏ MƏİŞƏTİNİN XÜSUSİYYƏTLƏRİ

Məqalə aktual problemə həsr olunub: XIX əsrdə Şimalı Qafqaz xalqlarının ailə məişətinin xüsusiyyətləri araşdlrllıb - atalıq, qonaqpərvərlik və qan intiqamı. Bu arxaik adətlərin sosial, iqtisadi, ictimai kökləri və bu regionun əhalisinin müxtəlif təbəqələrində geniş yayılmasının səbəbləri aşkar olunmuşdur. Məqalədə eləcə də xristian missionerləri, tacirlər, səyyahların çərkəzlər, inquşlar, kabardinlər, noqaylar, qumukların maddı və mənəvi mədəniyyəti, ailə-nigah münasibətləri haqqındakı məlumatlar öz əksini tapmışdır.

Açar sözlər: Qafqaz, atalıq, qan intiqamı, qonaqpərvərlik.

RENA IBRAHIMOVA
Phd on history, associate professor of Baku State Univesritety

PECULIARITIES OF THE FAMILY LIFE AMONG NORTH CAUCASUS PEOPLE IN THE XIX CENTURY

Present article is dedicated to the study of a topical problem: the features of family life among the peoples of the North Caucasus in the XIX century, namely the archaic institutions of the horse breeding - atalychy, hospitality and blood feuds. There is emergence of the social, economic and societal roots and the reasons for their widespread occurrence among different segments of the population in the region have been identified. The article also reflected the information of Christian missionaries, merchants and travellers about the material and spiritual culture, family and marriage relations of the Circassians, Ingush, Kabardins, Nogais and Kumyks.

Keywords: Caucasus, Ataly (horse breeding), blood feud, hospitality.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Kərəm Məmmədov, t.e.d. Qüdrət İsmayılov.

UOT 39

ЛЕЙЛА АХУНДОВА
кандидат исторических наук,
Институт Археологии, Этнографии и Антропологии НАНА
axundova0707@mail.ru

МУЖСКАЯ ОДЕЖДА БАКИНЦЕВ В КОНЦЕ XIX-НАЧ.XX ВЕКА

Хотя мужская одежда бакинцев существенно не отличалась от общих видов азербайджанской одежды того периода, в статье были рассмотрены отличия некоторых частей традиционной одежды, а также особенности некоторых названий. Хотя детали этой одежды практически не менялись вплоть до первых десятилетий XX века. С развитием нефтяной промышленности и притоком рабочей силы в Баку начинает проникать новая тенденция. За короткий срок новый вид головного убора – шапка, кепка – стал основным видом мужского головного убора даже в Баку. Местные шляпники-папахчы расширили круговой размер этих шапок. Причиной тому, конечно же, были бакинские ветры, так как мужчины в этом портовом городе должны были быть куда подвижнее, нежели в других частях Азербайджана. Еще одно такое новшество – легкие штаны под названием «финка», или гимнастерки - типы спортивных рубашек и т.д.. Несмотря на все это, аналогии основных компонентов мужской одежды изучаемого в Баку периода, существующие на Кавказе, в Средней и Передней Азии в целом, еще раз доказывают культурные связи между народами с древнейших времен.

Ключевые слова: традиционные одежда мужчин, основные части верхней одежды, головные уборы, типы обуви.

Введение. Традиционные мужские костюмы Баку XIX – начала XX вв. по покрою и технике изготовления носили общеазербайджанский характер. Мужская одежда включала в себе нижнее бельё – «tuman-köynək»; верхняя одежда – «köynək, şalvar, çuxa, arxalıq»; головные уборы «papaq, araxçın, təsək». Верхняя одежда и головные уборы больше зависели от общественного положения мужчин и часто в повседневной жизни именно эта часть костюма больше показывала род занятий, социальное положение мужчин в обществе.

«Köynək» – эта рубаха простейшего покроя, с прямыми длинными рукавами, плечевыми швами, с прямым разрезом от горловины до линии талии. Использовали широкую хлопчатобумажную ткань, а если ткань была узкая, то по бокам рубахи вшивали расширяющиеся к низу клинья. И напротив, если нужная материя была достаточно широкая, то клиньев не вставляли или же вставляли прямой клин с одной стороны. На рукавах таких рубах не отсутствовали манжеты, но воротники стойки были обязательным элементом. Длина рубахи доходила до колен.

Штаны – «şalvar» были длинными и относительно широкими, с прямоугольной вставкой в шагу. Верхний край штанов подшивался в рубец, в который продевалась вздержка – «tuman bağı», с кистями на концах. Если рубаху шили из хлопчатобумажной материи кустарного производства, то штаны чаще из плотной ткани сукна – крашеной бязи, сатина и т.д.

К разряду верхнего белья в Баку относился «köynək-şalvar». Отличие между ними заключалась в том, что нижнее белье было из дешёвого и простого материала, а одноименные вещи верхней одежды были сравнительно из дорого материала. Кроме этого, в основном несостоятельные люди при изнашивании верхней рубашки и штанов использовали их как нижнее бельё. Нижняя рубаха носила название «dizyaxa», из-за покроя. К началу XX века эту часть одежды шили из ситца – и называли по-разному – «Tağıyev çiti», «humayun ağı», «rus çiti», «qalın ağ».

Мужская верхняя одежда. Мужская верхняя одежда классически подразделяется на поясную и наплечную. К первой группе специалисты-этнографы относят штаны, ко второй группе – рубаха, дон, архалуг, чуха, кюрк.

Верхний шалвар – штаны обычно шили из тёмно-синего и чёрного ластика такого же покроя, что и нижняя. Разница только в серединной вставке – ластовице. Такие ластовицы шили из трёх кусков – с одной стороны один клин, а с другой два, равные вместе первому

клину. «Tuman bağı» – пояс для вздержки подшит другой тканью белого цвета в полоску или же более богатой, именно такой же тканью подшиты и штанины внизу, обычно с изнанки на 3-5 см. Поясные шнуры бывали также из сплетения шелковых ниток. Такие шнуры можно было растянуть более чем на 30-40 см. На обоих концах шнура делали кисти из этих же ниток. Следует отметить, что в отличие от женской одежды, где эти шнуры должны были быть скрытными, мужчины любили показывать эти шнуры, так как их изготовляли дома.

Следующую часть мужского костюма составлял архалык, который одновременно называли «don» и надевали на рубашку. Архалык шили из тёмно-синей или тёмных тонов полушерстяной ткани. Подкладка архалыка и под рукавами делалось из хлопчатобумажной ткани, также тёмных цветов. Длинный рукав вшит в округлённую пройму. Итак, в целом мужской архалык состоял из девяти частей – двух полок длинной до талии, двух треугольных клиньев между полок и спиной, двух рукавов, воротника – стойки, с округленными краями и состоящий из четырёх прямых полотен отрезной сборки вниз от талии. Приблизительная длина «arxalıq» от плеч до талии, в зависимости от размера мужчин, 40-60 см, а от талии вниз приблизительно 50 см. Нижняя сборка у талии имела ширину около 100 см, причём на протяжении 10-20 см от переда к бокам. С каждой стороны материал без сборок просто пришивали к лифу, а на остальных 70-80 см (части переда, боков и спины) набрана густая сборка. Так, ширина сборки «arxalıq» внизу около 3 см. «Arxalıq» и его рукава застёгиваются на 3 пуговицы и петли из чёрного, синего, красного шнура, начиная от талии и сантиметров на 15 выше неё. Воротник «arxalıq» вместе с подкладкой, подшитой на внутреннюю сторону, простёган частыми швами. Здесь застежка устроена по мужски слева направо. До конца XIX века все детали как мужского, так и женского костюма шили руками и в домашних условиях «arxalıq» – по ареалу распространения отличается от других типов верхней мужской одежды прошлых лет. Этот вид мужской одежды в зависимости от региона назывался по-разному. В Прикаспийской части Азербайджана его называли «don», а в других регионах Азербайджана, а также в странах Передней и Средней Азии, Поволжье, на Кавказе, он именовался «arxalıq», «bəşməq», «çapan».

В архалуке – дон по описанию русских исследователей, азербайджанские мужчины из Баку выглядели таким образом: «Дон – это полукафтанье, длиной по колени, с узкими рукавами, сборками сзади на талии и открытой грудью, застегиваемый в талии и выше неё на несколько пуговок: рукава, как и у женских архалуков, выкроены у кисти острым мысом, разрезаны и застегиваются на пуговку». Дон шьётся из полушёлковых материй или из «гедаку» бумажной материи тёмного цвета, перепоясывают позументовым куршаком, за которыми у богатых беков красуются великолепные пистолеты или кинжалы [6].

С начала XX столетия отдельные жители г. Баку, в том числе интеллигенция, торговцы, служащие административно-управленческого аппарата города стали одевать короткие «arxalıq». Этот более «модный» «arxalıq» был однобортным или двух бортным, отрезанными по талии или же имеющий цельные (передние) полы. Некоторые формы имели откидные, суженные к концу рукава. Поверх такого архалыка иногда надевали широкий и длинный пояс, который обвязывался несколько раз вокруг талии.

Мужской кафтан – «çuxa» (чуха) шили из сукна разных цветов. Передние полки чухи цельные, по талии не отрезные, сбоку имеется горизонтальный разрез, подрезан 10 см. В этом месте материал собран в аккуратную сборку, идущую вниз, как и у трёх полотнищ, составлявших бока и спинку от талии вниз. Спина от талии вверх кроется целой, так же как и рукава. Рукав вшивается почти в прямую пройму, но оставляли подмышечный вырез. По всей длине рукав распашной. Локоть рукавов был украшен декоративными петлями из разного цветного шнура. Из такого же материала, изготовленного шнуром обшиты по всей длине распашные края рукавов, края полок, ворота и подола. Сверху до талии, а также в рукава подшита серая коленкоровая подкладка. Застежки на чухе нет. Воротник – стойка, как снаружи, так и изнутри сшит из того же сукна, что и вся чуха. Украшен он настроченными швами и по форме напоминает воротник архалука. Архалук и чуха мужчины одевали, когда выходили из дома. Для придания воротнику твёрдости и жесткости пришивали вручную тонкими швами стоячий воротник. Вертикальные ложные карманы (по одному справа и слева) прорезаны на первом от

переда боковом клине на расстоянии 6-8 см. Длина прореза кармана равна 20 см. Снаружи прорезы обшиты двумя рядами серебристо-синего и тёмно-синего сутажа, а изнутри серебристо-чёрной тесьмой. Отделка чухи была достаточно богатой. По краю ворота и груди на расстоянии до 150 см. подложивали полоску ткани типа «tirmə» – очень дорогая, тонкая, узорчатая шерстенная ткань ручной выделки – с лицевой стороны на 1-2 см, а с изнанки на 6-7 см. Такой же тканью тирме обшит край лопасти рукава, и край воротника. На воротнике изнутри пришит «kanaus» зелёный крупными крестообразными стежками синих, шелковых ниток. Снаружи на спине начиная от подмышечных вырезов – через лиф вниз ниже талии проводили две линии позументов, заканчивающихся маленьким розетками – цветками из шнура. Линии позументов частично драпировали и скрывали швы на лифе и на нижней части чухи.

Чуху в Баку шили из сукна, из тонкой верблюжьей шерсти, привозимой из Мазандарана, из тюркменской шали, а также из кубачинской шали тёмного цвета, считающейся весьма хорошей в Дагестане [3, с. 109; 5, с.39].

Зимой в Баку мужчины надевали полушубки с полурукавами и открытой грудью. Более состоятельные мужчины носили шубу иного фасона – с длинными ложными рукавами и шерстью внутри. Её так же, как и чуху украшали, местами вышивкой из шёлковых ниток. Такие типы шуб были широко распространены в конце XIX – нач. XX вв. [7, с.150].

На пошив кюрка шло несколько овчин. Богатые заказывали себе мягкие и легкие на вес «kürk» (кюрк), людям которые совершали паломничество в Мешхед, Кербалу и Ардебиль, или покупали на центральных базарах – в Тифлисе, Гяндже и других городах.

Головной убор. В Баку по материалу изготовления мужские головные уборов в XIX-XX вв. разделялись на: меховые и из ткани плотных сортов. Все меховые назывались «papağ», а сшитые из тканей – «şapkə».

Зажиточные слои населения носили «papağ» (папах) из каракуля, привезённого из Крыма, из Средней Азии, в том числе из Бухары.

Для азербайджанцев до недавних времён мужской головной убор был показатель социального положения, чести и достоинства. Самым тяжелым оскорблением в Баку, как и по всему Азербайджану считалось срывать папаху с головы мужчины. Мужчины старались по мере материальных возможностей иметь как минимум 2 головных убора: каждодневный – недорогой, такназываемый «bazar papağı» и на выход – «buxara papağı».

Исследователи кустарных промыслов Южного Кавказа ещё в конце XIX века отмечали, что, «папаха» из бухарского каракуля стоила от 8 до 14 рублей, смотря по величине и качеству меха, папах из местного меха стоил от 50 коп. до 1 руб. 50 коп [10, с.53].

«Papağçı» – мастер, изготовлявший папахи, считался человеком сравнительно обеспеченным, при существующем в те времена большом спросе на папахи – зарабатывал в день 40-50 коп, максимум (и то только мастер высший квалификации). Таким образом, цена папахи равнялась месячному заработку мастера – папахчи. Естественно, что приобрести его мог не каждый, поэтому он особенно и ценился [7, с.150].

Мужчины так же, как женщины надевали на голову «təsək». «Təsək» являлся ночным головным убором бакинцев, который изготовлялся в виде колпака. Известно, что мужской головной убор под названием «külah» бытовал в XIX – нач. XX вв. и в некоторых регионах Средней Азии. «Külah» у них шили из четырёх треугольников, и он не имел околыша. В Иране до недавнего прошлого термин «külah» употребляли для обозначения мужского головного убора [8, с.28, 198]. Принятый в Баку конический «külah» в Иране носили исключительно средние и высшие слои населения. Кроме них, по этнографическим данным высокий, остроконечный «Külah» носили также служители религии – дервишы, муллы, газии. А общепринятый в Баку маленький, конический «təsək» носили пожилые мужчины. На основании рисунков Г.Г.Гагарина, П.Роттера, А.Азимзаде, также по имеющимся фотографиям в книгах XX века становится ясно, что мужчины носили высокий меховой остроконечный головной убор в виде вмятого с одной стороны конуса. Такие же папахи в основном носили люди с духовным званиям и местные богачи. Приблизительно со II половины XIX века мужчины среднего слоя в Баку больше носили «папаху», цилиндрической формы с круглым матерчатым дном.

В.Легкобытов в 30-х годах XIX века даёт такое описание папахи: *«Высокий меховой папах из бараньей шкуры, несколько загнутый назад, составляющий головной убор, имел вид усечённого конуса. Папах у бедных бывает белый или рыжий, а у богатых – чёрный. Впрочем, в летнее время и богатые, в защиту от солнечных лучей, носят также белые папахи, которые туземцы никогда не снимают»* [7, с. 367].

На основе существующей коллекции ГМЭ, МИА, ГМГ, а также по данным литературы о головных уборах мужчин г. Баку, можно делить их на несколько типов. Эта типология касается только меховых папах:

I тип – в виде конуса и усечённого конуса.

II тип – круглой формы с плоским матерчатым суконным донышком.

III тип – папахи, форма напоминающая вмятину с одной стороны конуса.

В западных зонах Азербайджана эти типы меховых папахов назывались по-разному: «şiş papaq», «şələ papaq», «daqqa papaq», «sikara papaq», «aşıq papağı», «qoçu papaq», «kazax papağı» и т.д. [4, с.61].

Как было отмечено выше, по форме головного убора определяли не только род занятий, материальное состояние, также характер и увлечение мужчин. Такие нюансы лучше всего можно проследить в художественной литературе этого времени. Среди них особое место занимают рассказы Джаббара Джаббарлы, прекрасные портреты – персонажи художников журнала «Молла Насреддин» [9, с.10].

В Баку резко отличались «qoçu papaq», которые готовили по выкройке из каракуля, иногда из шкурки ягнёнка. Это были дорогие мужские головные уборы, по цене почти наравне с «buxara papaq» и были доступны лишь состоятельным людям. «Qoçu papaq» состояла из основы, донышка и подкладки. Донышко делали из сафьяна или дубленой шкуры. В году 2 раза меняли подкладку – зимой шерстяную, летом хлопчатобумажную. Самые лучшие шапки такого рода приобретали на базарах Гянджи и Тифлиса. В XIX веке в моде были также шапки в форме усечённого конуса – «çərkəzi papaq» (черкези папах). Молодые люди из богатых семей одевали такие черкези чуху и черкези папах. Бедняки в основном одевали «şələ papaq» или же «motal papaq», названные так из-за сравнительно большого объема этот папах также из класса меховых шапок в виде усеченного конуса, но с плоским верхом из тёмного сукна. Такую шапку делали и на подкладке. Подобные головные уборы шили из куска овечьей шерсти с клиньями в верхней части. Под такую «motal papaq» надевали тоненько-вязанную тюбетейку, из-за пота, или во время хозяйственных работ под папаху накидывали «cuna» – марлю.

Тюбитейку – арахчын, носили в основном мужчины средних лет и в зачастую внутри дома. Кроме этого, существовал обычай, когда жениху после обручения приносили в подарок арагчын, с вышивкой. Обычай этот назывался «bərouz».

В конце XIX – начале XX века, в Баку извозчики фаэтон, фургон, ландо и других транспортных средств причасных и сильных бакинских ветрах поверх прочих головных уборов надевали «başlıq». Такие «başlıq», в основном шили из плотной, однотонной, шерстяной ткани. Большие же конусообразные башлыки шили из верблюжьей шерсти. Башлык имел длинные, закругленные на концах лопасти, обматываемые вокруг шеи, которые, завязывали в узел и перебрасывали за спину. Сукно для «başlıq» было местного происхождения [10, с.27]. Для русских исследователей головные уборы были не более чем, шапки-папахи, поэтому они отмечали, что в Баку в то время и старики носят конусообразные, длинные, тяжёлые папахи, чуть не в 8 фунтов весом. Молодежь и детвора носят лёгкие, круглые папахи карабахского покроя. Мужчины, занимавшиеся религией при официальных различных церемониях, обвязывали на голову «əmmamə», которую обычно повязывали поверх тесек традиционным способам. Согласно мусульманской религии «əmmamə» использовали не только как головной убор, а также как длинную ткань, подшивающуюся на неё, которая обычно соответствовала росту её обладателя, что позволяло при надобности использовать её в качестве савана – «kafan», а во время паломничества по мере надобности как дорожную скатерть или куршак (ремень) [1].

С конца XIX века, с превращением Баку в промышленный центр рабочие прибывавшие из разных стран, приносили с собой «новые» модные шапки. Так в обиходе стали употреб-

ляться обычные матерчатые шапки (кепки). На начальном этапе под влиянием иностранцев – русских, (малакан), украинцев и др., азербайджанцы также приняли «спецодежду» с недорогими шапками – кепками из обычной материи.

Обувь. В Баку в исследуемое время мужчины носили «çarıq» (постол), «məst», «başmaq», «çəkmə» (сапог), «qaloş» (калош).

Об обуви мужчин в XIX веке русские путешественники и исследователи писали, что обувь у мужчин составляют летом «мяс-чувяки», из тонкой кожи, а зимой, сверху «джорабов» – пестрых шерстяных носков и «мяс», носятся обыкновенно башмаки. Летние башмаки, служащие для выходцев со двора, делаются без каблуков, и называется «sərpai», зимние башмаки делаются с каблуками и называются «dikdaban» [2, с.110].

До середины XIX века в Баку наиболее распространенными были постолы - чарыхи. Они имели такой же покрой, что чарых из других зон Азерабйджана. «Çarıx» – шили в основном дома и это преимущество относилось к мужчинам. Такую практичную обувь изготовляли из цельного прямоугольного куска кожи крупного рогатого скота или лошадей, причём без шва. По краям заготовки проделывали отверстия и специальные петли, через которые продевался искусно переплетённый шерстяной шнур или ремешок из сыромятной кожи. «Çarıx» (чарык) носили мужчины и женщины с шерстяными вязаными носками – «corab», одного или разноцветного тона.

Обязательной частью мужских чарыков являлся «dolaq» – длинные шнуры на концах для закрепления на ноге. Самые красивые и качественные шнуры – «dolaq» ткали женщины из Табасарана и селения Каякент, где эти обмотки к концу XIX века готовили на специальных станках и нередко украшали их по краям вышивкой или аппликацией.

Вторым типом чарыха, согласно публикациям были «башмаки», из овечьей или лошадиной кожи, вырезанные из одного куска со швом сверху на ноге или сбоку.

Оба вида обуви, в основном носили бедные слои населения. Богатые бакинцы носили кожаные сапоги «çəkmə» в большинстве не простые, а «uzunboğaz çəkmə». Такую обувь покупали в готовом виде на рынках. Повседневной обувью почти для всех слоёв населения, служили калоши, – сначала кожаные на твёрдой подошве или «башмаки». «Башмаки» изготовлялись из кожи хорошего качества и украшались вышивкой и аппликацией. Такую обувь носили обычно во дворе, поблизости от дома и надевали на вязаные чулки. Такие башмаки имели невысокий, прямой каблук на подкове. Подкова в виде железной пластины под пяткой и частью следа была прибита к следу небольшими гвоздями с круглыми шляпками.

В холодные дни мужчины дома надевали «ayaqlıq» (ноговицу) – типа джораба, которая представляет собой наголёнок без следа, без каких-либо штрипок, вывязанных резиной, и только вверху и внизу имеются на полосе, связанной наизнанку, шириной примерно 1 см., тогда как вся остальная ноговица связана налицо. «Ayaqlıq» надевали поверх «шалвара» до колен. А джорабы – носки шерстяные, имели узоры геометризованные, растительные, а иногда зооморфные элементы ковровых орнаментов. Чаще всего орнамент расположен полосами, идущими горизонтально или по косой линии. Обычная высота носков – джорабов достигала 15 см.

Третий способ укутывания ног зимой были портянки – «patava», которую обматывали свои ноги крестьяне, работавшие вне дома, на поле. Патавой обматывали мужчины новые носки.

При изготовлении «məs» выкраивали кожи отдельно, в виде чувяка с небольшим языком на подъёме и в голенище, затем сшивали их вместе. При выходе на улицу поверх «məs» надевали обувь на твёрдой подошве.

В 20-ые годы XX века в моду вошли новые «düyməli çarıq» – мягкая обувь, которая состоялась из двух самостоятельных частей: из глубоких чувяков и голенищ, соединенных уже на ноге с помощью петель и пуговок, изготовленных из сафьяна.

В исследуемом нами времени почти всё мужское население носило кинжалы. Второе место среди мужских украшений принадлежало газыри-везне, но уже пустым формам для патронов на чухе. Представители местной администрации по требованию властей носили также пистолеты – «tapanca» или же «şaşgə» – шашку. Рукоятки ножен кинжалов и шашек, пистоле-

тов нередко делали из серебряной оправы. Для украшения металлических частей применялись гравировка, филигрань, «чернь» (гарасавоу) и другие художественные приёмы, известные местным ювелирам до мельчайшей подробности. Украшались мужские пояса накладными серебряными фигурными пластинками и подвесками, иногда с позолотой, инкрустированной слоновой костью. Такие оружейные украшения были доступны только богатым. Бедняки покупали обычные кинжалы и пояса без каких-либо инкрустаций.

Итак, вот как описывает азербайджанцев Н.Дубровин, во второй половине XIX века: *«Татарин (азербайджанец) одевается в чёрную шерстяную чуху с золотыми галунами и длинными рукавами, разрезанными сзади от плеча до кисти руки. Под чуху надевается чёрный шелковый архалук, из-под которого виднеется красная канаусовая сорочка с золотыми шнурками… подпоясан красивым серебряным поясом или шерстяным персидским кушаком, на котором висит длинный дагестанский кинжал: широкие зелёные шаровары его или подняты выше колен, или оттянуты ниже их чёрными бинтами, называемыми «tolaq altı». Пёстрые персидские чулки его прикрывают ступни ног, а кожаные зелёные коши, с загнутыми кверху носиками завершают обувь… При верхней езде употребляют длинные сапоги с острыми, загнутыми вверх концами. Высокий меховой папах из бараньей шкуры несколько загнутый назад, составляет головной убор»* [5].

Что касается ткани для шитья мужской одежды конца XIX – нач. XX вв. следует отметить, что в отличие от женской одежды, которую шили из шёлка, бархата, тафты, дараи, ситца и т.д., для мужской одежды использовали в основном «maxud» – сукна местного или привозного производства, а также «şal» – домотканный шерстяной материал.

Нижнее бельё независимо оттого, что именовалась одинаково – «tuman-köynək» изготовляли одинаково из хлопчатобумажного и льняного материала, иногда в богатых семьях нижние рубахи были шелковыми.

Заключение. Мужская одежда Баку в конце XIX – нач. XX вв. особо не отличалась от одежды других зон Азербайджана чёткими своеобразными элементами. Это связано, с тем, что мужчины вели подвижный образ жизни и часто общались с населением страны. Основные части мужского комплекта одежды являются общими для общекавказского и общеазербайджанского костюма. В это время особенных новшеств не было. С начала XX века новые одежды мужчин-гимнастёрки, кепки, узкие брюки-финки появились под влиянием иностранцев, которые «за куском хлеба» поселились в Баку. Видимо, поэтому оставались в употреблении как классические детали, которые существовали со средневековья и одновременно появились новые черты, приобретённые в последующие десятилетия под влиянием исторических и особенно бытовых условий. Первые, архаические черты позволяют выделить общие аналоги в развитии одежды народов Кавказа, Средней и Передней Азии, а значит, подтверждают существования древних культурных исторических связей между различными народами.

ЛИТЕРАТУРА

1. Əfəndi R. Azərbaycanın bədii sənətkarlığı (metal məmulatı və zərgərlik) / R.Əfəndi. - Bakı: Azərnəşr, - 1966. - 38 s.
2. Березин И.Н. Поездка на Апшеронский полуостров (из путевого журнала) / И.Н.Березин. – Санкт-Петербург: Изд. Университетская тип., - 1847. – 16 с.
3. Березин И.Н. Путешествие по Дагестану и Закавказью / И.Н.Березин. – Казань: Университетская типография, - 1850. – 473 с.
4. Велиев Ф.И. Материальная культура западной зоны Азербайджана XIX – начало XX вв.: / Ф.И.Велиев. – Баку: Элм, - 1996. – 165 с.
5. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе: [в 6 томах] / Н.Ф.Дубровин. – Санкт-Петербург: СПб, - т. 1, кн. 2. - СПб., 1871. – 423 с.
6. Дюма А. Кавказ / А.Дюма. – Тбилиси: Мерани, - 1988. – 648 с.
7. Легкобытов В. Провинция Ширван. – Обозрение Российских владений за Кавказом / - Санкт-Петербург: СПб., - 1836. ч. III, - с.348.

8. Луконин В.Г. Культура Сасанидского Ирана. Иран в III-V вв. Очерки по истории / В.Г.Луконин, - Москва: Наука, - 1969. – 244 с. [154]
9. «Молла Несреддин», 1906, №35; 1907, №16; 1908, №4, №27, №29.
10. Пиралов А.С. Краткий очерк кустарных промыслов Кавказа / А.С.Пиралов. – Санкт-Петербург: типо-лит. «Якорь», - 1913. – 128 с.

LEYLA AXUNDOVA
Tarix üzrə fəlsəfə doktoru,
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu

XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKIDA KİŞİ GEYİMLƏRİ

Bakılıların kişi geyimləri ümümazərbaycan geyim növlərindən göstərilən dövrdə kəskin fərqlənməsə də, məqalədə bəzi ənənəvi geyim hissələrinin fərqli cəhətləri, o cümlədən bu geyim dəstinin bəzi hissələri və adlarının özünəməxsusluqları öz əksini tapmışdı. Araşdırılan geyimlərin əsas hissələri XX əsrin ilk onilliklərinə qədər dəyişilməsə də, neft sənayesinin inkişafı ilə şəhərə işçi qüvvəsinin axını nəticəsində həm də kişi geyimlərində yeni dəb elementləri Bakıya daxil olmağa başlayır. Qısa müddət ərzində baş geyimi növlərindən –"kepka-şapka" Bakıda kişilərin əsas papaq növünə çevrilir. Bu sahədə yerli papaqçı-ustaların kəşfi kepkaların dairəsinin nisbətən genişləndirilməsindən ibarət olmuşdu. Bunun səbəbləri sırasında Bakı küləklərni qeyd etmək lazımdır. Belə ki, liman şəhəri olan Bakıda ölkənin digər yerlərindən fərqli olaraq, kişilər hər havada daha da hərəkətli olmaq üçün məhz bu tip kepkalardan istifadə edə bilərdilər. Kişi geyimləri sırasında yeniliklərdən digəri "finka" adlı yüngül şalvar, gimnastyorka- idman köynəkləri olmuşdu. Bu cür geyim elementlərinin dəyişikliklərinə baxmayaraq, Bakıda XIX əsrin sonu-XX əsrin əvvəllərində istifadə edilən əsas kişi geyim komponentlərinin analogiyaları bütövlükdə Qafqaz, Mərkəzi və Ön Asiyada mövcud olmaqla, xalqlar arasında çox qədim zamanlardan davam edən mədəni əlaqələri bir daha sübut edir.

Açar sözlər: ənənəvi kişi geyimləri,üst geyiminin əsas hissələri,baş geyimləri, ayaqqabı tipləri.

LEYLA AKHUNDOVA
Doctor of Philosophy in History,
İnstitute of Archeology, Etnography and Antropology of ANAS

MEN'S CLOTHING IN BAKU IN THE LATE XIX TH AND EARLY XX TH CENTURIES

Although the men's clothing of Baku did not differ significantly from the general types of Azerbaijani clothing in the period, the article examined the differences of some parts of traditional clothing, as well as the peculiarities of some names. Although the parts of these clothes did not change much until the first decades of the twentieth century. With the development of the oil industry and the influx of labor, a new trend is beginning to enter Baku. In a short period of time, a new type of hat - a hat - has become the main type of men's hat, even in Baku. The discovery of the local hat-makers was to make the circle of caps wider in this area. The reason for this, of course, was the winds in Baku, so men had to be more active in the port city than in other parts of the country. Another such innovation is light trousers called finka, gymnastics and sports shirts. Despite all this, the analogies of the main components of men's clothing of the period studied in Baku, existing in the Caucasus, Central and Central Asia as a whole, once again prove the cultural ties between the peoples since ancient times.

Keywords: traditional men's clothing, main parts of outerwear, hats, types of shoes.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 08 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Fəxriyyə Həvilova, t.e.d. Nərgiz Quliyeva.

UOT 39

CƏLAL NOVRUZOV
AMEA-nin Arxeologiya, Etnoqarfiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d
TarixVeOnunProblemleri@gmail.com

GÜRCÜSTAN AZƏRBAYCANLILARININ MİLLİ GEYİMLƏRİ SOSİAL HƏYAT TƏRZİ KİMİ

Məqalədə Gürcüstanda azərbaycanlıların ənənəvi milli geyimlərinin xüsusiyyətləri araşdırılır, ənənəvi parçaların müxtəlif növlərindən bəhs edilir, Gürcüstan azərbaycanlılarının milli geyim mədəniyyətinin tarixi kökləri öyrənilir. Məqalədə azərbaycanlıların milli geyim tərzi haqqında məlumat verilir, bəzi milli geyim növlərinin hazırkı durumundan söhbət açılır. Azərbaycan xalq geyimləri aid olduğu dövrün xüsusiyyətlərini əks etdirir. Milli geyimlər xalqın iqtisadi mədəni həyatının göstəricisidir. Varlı təbəqələr və əhali arasında azərbaycanlılar barnus, dəray, qanovuz, tirmə, məxmər, mahud kimi bahalı parçalardan hazırlanmış paltar dəstlərindən istifadə etmək üstünlüyünü saxlamışlar.

Açar sözlər: ənənə, sosial həyat, azərbaycanlılar, milli geyimlər, maddi mədəniyyət.

Giriş. Gürcüstanda yaşayan azərbaycanlıların ənənəvi geyim tiplərinin öyrənilməsi xalqın sosial həyat tərzinin bir sıra mühüm məsələlərini tədqiq etmək üçün qiymətli material verir. Azərbaycanlıların məişət və mədəni səviyyəsi, estetik zövqü, ümumiyyətlə onun milli xüsusiyyətləri geyim və bəzəklərdə daha qabarıq şəkildə əks olunur. Ənənəvi milli geyim tipləri uzun tarixi dövr ərzində formalaşdığından onların tədqiqi xalqın mənşəyi məsələsinin öyrənilməsi üçün də zəngin material verir. Xalq geyimləri maddi mədəniyyətin digər elementləri kimi, hər bir xalqın həyat va məişətinin ayrı-ayrı məsələlərini araşdırmaq üçün zəngin etnoqrafik materiallar verir. Milli geyimlərin öyrənilməsi hər bir xalqın milli xüsusiyyətlərini, iqtisadi və mədəni həyat səviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətini, onun başqa xalqlarla tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini öyrənməkdə əhəmiyyətli mənba rolunu oynayır.

Geyim tariximizdən. Azərbaycanlıların sıx yaşadığı Borçalı mahalında XVI-XVIII yüzilliklərdə formalaşan geyim növlərini müqayisə etsək ham adları, həm də üzərindəki müəyyən ornamentlər, demək olar ki, türkmən, özbək, anadolu, yaxın şərq və s. xalqların milli geyimlərilə oxşarlıq təşkil edir. Milli geyimlərin hətta adları belə bir-birinə uyğun gəlir. Məsələn, "köynək - rubaha, çarıx - kəndli ayaqqabısı, yaşmaq - dəsmal (üzün aşağı tərəfini bağlamaq üçün lazımdır), bu kimi çoxlu va digər geyim növləri türkmənlərlə, özbəklərlə, qazaxlarla, türk, yaxın şərq xalqları ilə azərbaycanlılar arasında eyni adla səslənir" (1, s.12). XIX əsrdə Azərbaycanda ənənəvi geyimlərin ümumi səciyyəsi xalqın sosial hayat tərzində və mədəni tarixində ən mürəkkəb dövrlərdən biri olub. Beləki, azərbaycanlıların iki hissəyə parçalanması, onun sosial-iqtisadi və mədəni-texniki cəhətdən müxtəlif istiqamətlərdə inkişafı ilə səciyyələndi. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrindən sonra Azərbaycanın şimal torpaqları çar Rusiyası tərəfindən işğal olunmuş, cənub torpaqları isə İran əsarəti altında qalmışdır. Xalqın tarixi taleyində dərin iz buraxan bu parçalanma vahid etnosun siyasi və sosial iqtisadi həyatının bütün sahələrinə, o cümlədən sosial həyat tərzinə, maddi və mənəvi mədəniyyətin tərkib hissəsi olan milli geyimlərin inkişaf meyllərinə də təsirsiz qalmamışdır. Rusiya tarafindən işğalın müstəmləkə məramından asılı olmayaraq, bu tarixi akt sayəsində Azarbaycanın şimal hissəsi uzun müddət xarici qəsbkarların basqınlarından, siyasətindan, yerli feodal hakimlərin dağıdıcı ara müharibələrindən xilas ola bildi. Bütün bu proseslər öz növbəsində xanlıqlar dövründə mövcud olan məhəlli təsərrüfat qapalılığına və feodal pərakəndəliyinə son qoymağa, əhalinin iqtisadi və mədəni həyatının qabaqcıl Avropa və rus mədəniyyətinə yaxınlaşmasına imkan vermişdir. XIX yüzilliyin ikinci yarısından etibarən Şimali Azərbaycanın, o cümlədən Borçalı mahalının xarici görkəmi xeyli dəyişərək, yeni tipli evlər tikildi və yollar salındı. Azərbaycanın "Şamaxı, Salyan, Lənkəran, Gəncə kimi və s. şəhərlərinin hər birində təxminan 20-30 min əhali yaşayırdı; Şəhərlərin etnik, dini, demoqrafik tərkibi də dəyişilməyə başladı" (2, s.637).

Ölkənin sosial-iqtisadi və mədəni-texniki, sosial hayatı üçün əlamətdar olan bu tarixi dönüş nəticəsində sənaye mərkəzlərinə çevrilməkdə olan Azərbaycan şəhərlərində burjuaziya və proletariat

təşəkkül tapmağa başlamış, milli konsolidasiya prosesi güclənmişdir. Çarizmin mürtəce müstəmləkə siyasətinə baxmayaraq, işğaldan sonrakı dövrdə Azərbaycanın iqtisadi-ticarət əlaqələrinin güclənməsi, su və quru nəqliyyatı, xüsusilə dəmiryolu nəqliyyatının intensiv inkişafı, mətbuat orqanların artması, rabitə vasitələrinin təkmilləşməsi və s. amillər maddi mədəniyyətin, o cümlədən ənənəvi geyim üslublarının inkişafında ümummilli xüsusiyyətlərin artmasına gətirib çıxarmışdır. Bununla belə, ənənəvi maddi mədəniyyətin bir çox sahələrində, o cümlədən xalq geyimlərində ümummilli xüsusiyyətlər gücləndikcə məhəlli əlamətlər azalmağa başlamış, lakin tamam yox olmamışdır. Ona görə də ümummilli geyim mədəniyyətinin təşəkkülü prosesində onun müxtəlif lokal variantları hələ də qalmaqda idi. Xanlıqlar dövründə daha da güclənmiş məhəlli xüsusiyyətlər tədricən zəifləməyə başlamışdır. Etnoqrafik faktlardan bəlli olduğu kimi, azərbaycanlıların ümummilli geyim dəstlərinin təşəkkül tapmasında, Azərbaycanın tarixi-etnoqrafik bölgələrindən olan Borçalı mahalının əhalisi də yaxından iştirak etmiş, bu mədəni milli geyim sərvətinin yaranmasına öz əməli töhfəsini vermişdir.

Məlum olduğu kimi, "moda insanların daim təzələnən məişət və estetik ehtiyaclarına müvafiq olaraq, ev əşyalarının, o cümlədən geyim formalarının qısa müddətli zahiri dəyişməsindən ibarətdir; geyim dəbləri sahəsində zövqlərin dəyişkənliyi isə hər bir tarixi dövrün sosial-iqtisadi həyat səviyyəsi va dini-etik normaları ilə ölçülür" (3, s.127), desək yanılmarıq.

Ənənəvi xalq geyim növlərindən. Tarixən formalaşan ənənəvi geyim tipləri və bəzəklər hər bir xalqın maddi mədəniyyətinin tərkib hissəsi olub, onların öyrənilməsi ilə xalqın milli xüsusiyyətlərini, iqtisadi va mədəni həyat saviyyəsini, təsərrüfat məşğuliyyətinin istiqamətini, başqa xalqlarla etnik-mədəni əlaqə və qarşılıqlı təmas məsələlərini, estetik və bədii zövqünü, etnik və sinfi mənsubiyyətini, etnomədəni əlaqələri müəyyənləşdirmək mümkündür (4, s.32).

XIX əsrin sonu va XX əsrin birinci yarısından etibarən Azərbaycanda sənaye istehsalının inkişaf etməsi təkcə əhalinin sosial həyat tərzinə deyil, habelə fabrik üsulu ilə hazırlanan geyim materiallarının növünə, keyfiyyətinə, mövcud geyim dəblərinə öz təsirini göstərməyə bilməzdi. XIX-XX əsrlərin geyim dəsti biçim üsuluna və tikiş texnikasına görə özündən əvvəlki tarixi dövrlərdə təşəkkül tapmış geyim tiplərinin davamı olsa da, yeni dövrün tələblərinə uyğun olaraq bəzi dəyişikliyə uğramışdır. Bu istiqamət özünü daha çox şəhərlərdə kübar geyim, yaxud peşə geyim dəstlərində özünü göstərirdi. Bölgədə kapitalist istehsal sahələrinin yaranması, əmək bölgüsünün artması, peşə, zümrə fərqlərinin dərinləşməsi, insanların sosial həyat tərzində müxtəlif növ məqsədyönlü peşə geyimlərinin formalaşmasını zəruri etmişdir. XIX-XX əsrin əvvəllərində geyimlərdə baş verən mühüm dəyişikliklərdən biri də ənənəvi hərbi geyim ünsürlərinin, o cümlədən dəbilqə, qolçaq və onunla bağlı olan yaraq növlərinin qılınc, qalxan, nizə, mizraq, əmud, şeşpər, ox, kamanın tədricən gərəksizləşməsi, onların aradan çıxmasına gətirib çıxarmışdır. Təkcə kəmərdən asılan xəncər və çuxanın yaxasına düzülmüş, patrondaşı əvəz edən "vəznə" hələ də kişi libasının tamamlayıcı bəzək elementi kimi qalmaqda idi. Odlu silahların yayılması nəticəsində dəbdən düşmüş vəznə "tədricən özünün əməli əhəmiyyətini itirərək, daha çox dekorativ bəzək elementinə çevrilməsi ilə nəticələnmişdir" (5, s.12). Əgər XVIII əsrdə vəznəli patrondaş cibləri çərkəzi çuxanın yalnız bir sinəsini bəzəyirdisə, XIX əsrdən bu ciblər dekorativ funksiya daşıdığından çuxanın hər iki sinəsini bəzəyirdi (6, s.72). Çar Rusiyası dövründə azərbaycanlılar, o cümlədən Borçalı əhalisi öz övladlarına "çuxa (suknı, arxalıq, bürməti) geyindirərək, Tiflisə va imperiyanın başqa şəhərlərinə oxumağa göndərərdilər" (7, s.234). Müasir dövr geyim mədəniyyətində bu vaxtdan etibarən alt və üst paltarınən bir-birindən qəti surətdə ayrıldığı nəzərə çarpır. Fabrik üsulu ilə yüksək keyfiyyətli pambıq parça, yəni ağ, çit, sətin və ya ipək parça istehsalının artması əhalinin bütün ictimai zümrələri arasında alt paltarının geniş yayılmasına alverişli zəmin yaratmışdır. Bədii xalq ədəbiyyatının oxuyarkan də məlum olur ki, "bu və ya digər geyim tiplərinin hazırlanmasında müxtəlif materiallardan, o cümlədən yun, ipək, pambıq, dəri, keçə, kətan və s. istifadə olunmuşdur" (8, s.16).

Zaman-zaman geyim materialları dəri, gön, yun, ipək, pambıq və s., demək olar ki, hər bir ailənin özündə hazırlanırdı. Bununla yanaşı, şəhərlərdə ev sənətkarlığının yüksək dərəcədə inkişafı satınalma məmulatlarının çeşidini artırmışdır. Bu cəhət Azərbaycan şəhər əhalisinin sosial həyat tərzində daha aydın nəzərə çarpırdı. XIX əsrin ilk qərinəsində Azərbaycanın siyasi və sosial-iqtisadi həyatında ciddi dəyişikliklər baş verməsinə baxmayaraq, geyim məqsədi ilə həm yerli, həm da kənardan gətirilmə parça və dəri mallarından istifadə olunurdu. İşğaldan bir qədər keçəndən sonra vəziyyət

dəyişməyə başlamış. yerli parça istehsalı tənəzzülə uğramış, Rusiya va Avropa ölkələrinin ucuz manufaktura malları ilə əvəz olunmuşdur. Azərbaycanın Rusiya tərəfindən iqtisadi işğalı XIX əsrin 30-cu illərindən etibarən başlanmış və "bu illər ərzində şəhərlərdəki emalatxanaların hər birində sahibkarların özləri ilə yanaşı on muzdlu fəhlə çalışırdı (9, s.714).

Azərbaycanda, o cümlədən Borçalıda ənənəvi parça istehsalının vəziyyətinə nəzər saldıqda görünür ki, Rusiya tərəfindən işgal olunana qədər yerli karxana toxuculuğu hələ da qalmaqda davam edirdi. Məsələn, Gəncədə (Yelizavetpolda) manufaktura istehsalının mühüm istiqamətini ipəkdən parça və yaylıq hazırlanması təşkil edirdi. İşğaldan sonra burada "toxucu dəzgahlarının sayı 200-ə qədər azaldığı halda, Cavad xanın dövründə onların miqdarı 375-ə çatırdı, yəni Gəncə şəhərində toxucu dəzgahlarının sayı işğalın ilk vaxtlarındakından iki dəfə çox idi; şəhərdə ipək karxanalarından əlavə, ağ və qırmızı bez (şilə), habelə "cəlamayi" adlanan nazik pambıq parça istehsal edən 30 dəzgah olmaqla, buranın toxuculuq müəssisələrində hər il 10.000 pud parça, müxtəlif çeşidli 15.000 yaylıq, 2000 ədəd ağ, 200 tikə qırmızı rəngli bez (şilə), 400 adad cəlamayi hazırlanırdı (10, s.133). Dairədə həmçinin, şalvar üçün parça, yundan çul, şal, palaz, xalça toxunurdu. Həmçinin, parça toxuculuğu işlərində şəhərin ətraf mahalları arasında ən çox Samux sakinlərinin seçilib fərqləndiyi və onların əla növ parçalar, xüsusilə "ipəkqarışıq parçalar va "cecim" adlanan pambıq parça hazırlayırdılar" (3, s.130). Bu dövrdə Azərbaycanın qərb bölgəsi əhalisinin əsas geyim materialları yerli ustalar tərəfindən üfiqi toxucu dəzgahında kustar üsulla toxunmuş "qılıcı" şaldan, müxtəlif rəngli ipək, pambıq parçalardan, həmçinin, aşılanmış gön və dəridən ibarət olmuşdur (11, s.238).

XX əsrin ortalarına qədər çöl etnoqrafik sorğular bunu deməyə əsas verir ki, vaxtilə hər bir ailə şal dəzgahında öz ehtiyacını ödəməkdən əlavə, "bazar şahı" adlanan yun parça istehsal edirdi. Şal ənənəvi olaraq güzəm və yundan toxunurdu. Bir qayda olaraq, xam şal isti suda bişirilib" sıxlaşdırılırdı. Bu əməliyyat təpmə üsulu ilə görüldüyündən şalın bu növünə el arasında "təpmə şal" deyilirdi. Bundan fərqli olaraq, yer hanasında taxta "qılınc" vasitəsilə toxunmuş şal Azərbaycanın bir sıra etnoqrafik bölgələrində, "qılıcı şal" (o cümlədən Borçalıda "qılıca") adı ilə tanınırdı. Digər tərəfdən, keçmişdə şal parça dəvə yunundan da toxunaraq "dügürd" adlanırdı. Şal parça vasitəsi kimi başlıca olaraq kişi üst geyimlərinin (çuxa, bürmə, başlıq, şalvar, dolaq və s.) hazırlanmasında istifadə edilirdi. Şal "yalınqat", "əmələ" və "ikiqat" olmaqla üç növdə toxunurdu. "Əmələ"-nin ucları iki qat ayrılırdı. "İkiqat" isə həm ucları, həm də ucları birləşdirən ortası kimi ikiqat qatlanırdı. Ona görə də yalınqat toxunmuş şala 20 girvənkə (bir girvənkə-400 qrama bərabər ağırlıq ölçü vahidi kimi hesablanırdı) güzəm sərf olunduğu halda, əmələyə 25 girvənkə, ikiqata isə 30 girvənkə güzəm işlənirdi. Əmələ və ikiqat toxunmuş şal daha möhkəm və davamlı olduğundan yüksək qiymətləndirilirdi. Gün ərzində bir, bir yarım şal toxuyurdular. Hətta peşəkar toxucular arasında gündə bir çüt şal toxuyanlarda olurmuş. Parça toxumaq üçün təkcə qoyun yunu deyil, dəvə yunu və keçi qəzilindən də istifadə edilirdi. Dəvə yunundan əla növ mahud toxunduğu halda, keçi qəzilindən sicim, xurcun kimi və s. əşyalar toxunurdu (12, s.74).

Vaxtilə, Şirvanda, Borçalı mahalında (Osmanlı ipəyi) yun və ipək parçalarının çeşidinin çox olması, burada pambıq parça toxuculuğunun (culfaçılıq) səciyyəvi olmamasını əsaslandırsa da, lakin buraya Azərbaycanın digər şəhərlərdən şilə, qədək, çit, bez, çuna və s. kimi satınalma parçalar gətirilirdi. Xüsusilə, Salyan, Mil-Muğan, Şirvan bəzzazları Azərbaycanın digər bölgələrinə olduğu kimi Borçalı mahalına da tez-tez müxtəlif parça növlərini tədarük edərmişlər. Bölgədə müasir dövrdə olduğu kimi bəzi üst geyim kompleksinə, köynək, tuman, arxalıq, küləcə, çəpkən, önlük, kəmər və s. daxil idi. Köynəyin üstündən arxalıq geyinərdilər. Alt köynəyi kimi, üst köynəyi də tunikvari biçim üsulu ilə tikilirdi. Mahalın Qoçulu kəndində qanovuz parçasından tikilən üst köynəyi bütün əhali üçün xarateriкdir. Tunikvari biçim üsulu ilə tikilən üst köynəyi ən qədim və fərqli geyim növlərindən biri idi. V.N.Belitser bu növ geyimlərin, ən sadə geyim forması kimi geniş yayılmasını müstəqil inkişafla ilə izah edir. Lakin bu fikirlə razılaşmaq olmaz (17, s.108).

Formalaşan sosial həyat tərzinə uyğun olaraq varlı qadınların arxalığı yaşıl və ya qırmızı zərxara, yaxud qanovuzdan gördə, ətəklik və qol olmaqla üç hissədən ibarət biçilib tikilirdi. Qışda qadınların geyim kompleksinə "canlıq" adlanan geyim növü-astarlı, qolsuz "yal" mühüm yer tuturdu. Məşhur rus rəssamları Vasili Verşaqin və Qriqori Qaqarinin (XIX əsr) rəsmləri Azərbaycanda parça

(məxmər, qanovuz, atlas, qumaş, tirmə) istehsalının genişliyini, milli geyimlərin gözəlliyini və zənginliyini yaxşı əks etdirir (13, s.89).

XIX əsrin sonu XX əsrin əvvəllərindən etibaran manufaktura və ya fabrikdə toxunma pambıq parçalar azərbaycanlıların sosial həyat tərzinə daxil olmağa başlamışdır. "Firəng çiti", "rus çiti", Moskva fabrikantı İ. P. Abramovun "Proxorov yoldaşlığı" manufakturasının istehsalı olan "Proxorov ağı" və s. kimi uçuz pambıq parça növləri, eləcə də fabrik istehsalı olan şilə, qədək, bez, cuna, satin, lastik və s. yerli əhalinin geyim mədəniyyətinin tərkib hissəsinə çevrilmişdir. Pambıq parça materialına yüksək tələbatın artdığını nəzərə alan Azərbaycan sənayeçisi və mesenantı H.Z. Tağıyev 1901-ci ildə Bakıda pambıq parçası istehsal edən fabrik açır. Xalq arasında bu fabrikin buraxdığı məhsul "Tağıyev ağı" kimi məhşurlaşmışdı (17, s.107). Bütün bunlara baxmayaraq, azərbaycanlıların imkanlı sosial təbəqələri arasında barnus, naşura, darayı, qanovuz, tafta, mov, tirmə, xara, atlas, məxmər, mahud-şal və s. kimi bahalı parçalardan geyim dəstləri də uzun müddət öz istifadə üstünlüyünü qoruyub saxlamışdı (14, s.60). Geyim sənayesinin inkişafna baxmayaraq yerli ahalinin varlı sosial zümrəsi bəzi milli geyim növlərini kustar üsulla dərzilərdə tikdirilməsini davam etdirirdilər. Bahalı parça növlərindən ərsəyə gələn arxalıq (bəşmək, çapan və s.) kişi geyimi olan cuxa va yaxud şili müxtəlif rəngli parçalarla tikilərək onun üstündən varlı sosial zümrəyə maxsus insanlar tapança va xəncər taxardılar (15, s.170). Regional ticarətin mərkəzini çevrilən bölgələrdə, kustar pambıq istehsalı tədricən funksional mahiyyətini itirməyə başladı. Lakin qadınların paltara vurduğu bir sıra bəzəklər, o cümlədən bafta, ay-para, qaragöz, sərmə, güləbatın və s. kimi ornamentli tiklilər paltarın yaxalığına və qolların ucuna kustar üsulla hazırlanaraq tikilirdi. Bafta "əsasən qırmızı rəngdə olmaqla bayram, şənlik mərasimlərinə geyinilən paltarlara vurulurdu" (16, s.337). Paltara zövq və qiymət verən metal bəzəkləri yerli zərgər və gümüşbəndlər düzəldirdi. Əhalinin geyim məişətində gön-dəri məmulatı mühüm yer tuturdu. Bu məqsədlə ev heyvanlarının dərisindən həm xam, həm də aşılanmış halda istifadə olunurdu. Aşılı göndən başmaq, kəmər, xəncər, qılınc qını, müşkü və tumacdan başmaq, məst çəkmə, xəz dəridən Borçalı kürkü (bir növ Muğan kürkünə oxşayırdı) və çərkəzi papaq tikilərdi. A.Q.Trofimova yazır ki, akademik S.N.Djanaşiya adına Gürcüstan dövlət muzeyində azərbaycanlılara maxsus bir neçə paltar növü, o cümlədən yaxalıqlı köynək, tuman, məzər-canlıq, arxalıq, kəlağayı, çorab, baş bəzəkləri kimi və s. milli geyim növləri qorunub saxlanılmaqdadır (17, s. 103).

Azərbaycanlıların sosial həyat tərzində geniş yayılmış qonağa hörmət və qonaqpərvərlik adətlərimiz milli-mənəvi dəyərlər səviyyəsinə yüksəlmiş ən zəngin sərvətlərimizdən hesab edilir. Məlumdur ki, hər bir xalqın qonaqpərvərlik adəti spesifik xüsusiyyətləri ilə fərqləndiyi kimi, həyata keçirilmə xüsusiyyətlərinə görə də fərqlənir. Xalqın mənəvi dəyərlərinin nümunəsi və göstəricisi olan qonaqlıq süfrələrindən sonra qonaq kimi qəbul edilən şəxsə müxtəlif qiymətli hədiyyələrin bağışlanması azərbaycanlılarda yazılmamış qanun səviyyəsində olmuş adətlərimizdən olmuşdur. Bu hədiyyələrin içərisində qadın və kişi geyimləri tarixən başlıca yer tutmuş, ötürülən əmlak kimi dəyərləndirilmiş və nəsildən-nəsilə ərmağan edilmişdir. Geyimin var-dövlət, əmlak xüsusiyyətini qeyd edən F.Rəşidəddin XIV əsrdə Şibahəddinə yazdığı məktubunda hər bir hakimin ona gərəkli olan üç xəzinəsi (pul, yaraq, geyim-ərzaq) içərisində geyimin mühüm olduğunu göstərir (14, s.124). Bu baxımdan yerli ahali nəsildən-nasilə ötürülən el bayramı olan Novruzda, sədəfli sandıqlardakı atlas boxçaları açar, təzə libaslar geyərdilər. Qız-gəlinlərin başlarında üstü haşiyəli əlvan rəngli örpəklər, əyinlərində güllü-çiçəkli, al bəzəkli qiyafələrlə bəzənilərdilər. Xalqın inamına görə, təbiət kimi insanlar da qış paltarını çıxartmalı, yaz paltarlarını geyiməlidirlər. Bu göstərir ki, qədimdə adamlar özlərinin təbiətin, qlobal mənada kosmik fəzanın tərkib hissəsi hesab edirdilər; samada göy cisimlərinin müəyyən vəziyyat alması ilə əlaqədar olaraq yerdə fəsillər dayişirsə və insanların təsərrüfat həyatı bu fəsillərə uyğundursa, əlbəttə, onda təbiətdəki bu dəyişiklik adamların geyimlərinə, yeməklərinə, gündəlik həyat tərzinə də aiddir (18, s.101).

Nəticə. Beləliklə, elmi və çöl etnoqrafik materiallardan aydın olur ki, geyim ehtiyacını ödəmək üçün Qarayazı, Borçalı, Bolus, Başkeçid, Qaraçöp və s. bölgələrin əhalisi yerli xammalın, o cümlədən yun, ipək, dəri, gön və s. ehtiyatının bolluğu cəhətindən geniş imkanlara malik olmuşdur. Ənənəvi milli geyim növü özünəməxsus şəkildə azərbaycanlıların sosial həyat tərzi baxımından da bu gün də səciyyəvi xarakter daşımaqdadır. Kütləvi tədbirlərdə, yerli teatrda oynanılan epizod və rollarda, bayram və mərasimlər üçün nəzərdə tutulmuş milli geyimlərin həmişə geyinilməsi yerli əhalinin zöv-

qünü oxşayır. Azərbaycan xalq geyimləri aid olduğu dövrün xüsusiyyətlərindən, xalqın iqtisadi və sosial-mədəni həyat səviyyəsindən, təsərrüfat məşğuliyyətinin istiqamətindən, iqlim və təbii-coğrafi şəraitdən, yəni relyef-landşaft zonallıqdan, eləcə də estetik və bədii zövqdən, digər xalqlarla etnik-mədəni əlaqə və qarşılıqlı zənginləşmədən asılı olaraq zaman-zaman təkamülə uğramış, tipoloji cəhətdən çoxçeşidli olaraq, xalqın geyim tələbatını yüksək səviyyədə müəyyən edərək ödəmişdir. Bütün bunlar geyimin təkcə təbii-coğrafi şəraitdən qorunmaq, etik və normalara əməl etmək, mənsub olduğu xalqın tarixən formalaşan estetik-bədii zövqünü zinətləndirmək, geyimi daşıyan şəxsin daxili aləmini, xarakterini, sinfi mənsubiyyətini müəyyənləşdirmək kimi və s. funksiyaları ilə yanaşı, social həyat tərzinin və milli mənəvi dəyərlərin göstəricisi olduğunu da bird aha təsdiqləyir.

ƏDƏBİYYAT

1. Эфендиев Р.С. Азербайджанский костюм XVI-XVIII вв., авторефарат диссертации на соискание ученой Остепени кандидата искусствоведения, Ленинград, 1961, 176 с.
2. Azərbaycan tarixi, Bakı, "Çıraq" nəşriyyatı, 2005, 540 s.
3. Mustafayev A.H. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı, "Bakı Universiteti" nəşriyyatı. 2009, 387 s.
4. Ismailzade P.E. On etno-cultural contact of Russian and turkic peoples public domestic // Technology and İnnovation, Philadelphia, USA // Theoretical and Applied Science, Tohmson Reuters. 02(34), 2016, p.187-194.
5. Abbasova E.C. Azərbaycanın Gəncə-Qazax bölgəsinin erkən feodalizm və intibah dövrü maddi mədəniyyəti. Tarix üzrə fəlsəfa doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2010, 24 s.
6. Gəncəli S.M. Milli geyimlərimizin tarixindən // Gəncə jurnalı, №3, 2006, s.76-85.
7. Обозрение Российских владений за Кавказом. Тифлис, том 2. 1836, 385 с.
8. Veysəlova V.R. Azərbaycan məhəbbət dastanları etnoqrafik mənbə kimi. Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2004, 24 s.
9. Azərbaycan tarixi. Bakı, "Azərbaycan nəşriyyatı", 1996, 560 s.
10. Həmzəyeva N.Q. XIX-XX əsrlərdə Gəncə şəhərinin ənənəvi maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyası. AMEA-nın Mərkəzi Elmi Kitabxanası, Bakı, 2016, 24 s.
11. Велиев Ф.И. Материальная культура западной зоны Азербайджана в XIX-начале XX века. Б., 1999, 189 с.
12. Mustafayev A.N. XIX əsrdə Şirvanda şaltoxuma dəzgahı // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri, Tarix, fəlsəfə və hüquq seriyası, 1968, №4, s.117-125.
13. Quliyeva N.M. Azərbaycanda uşaq etnoqrafiyası. Bakı, Avropa, 2021,160 s.
14. İmranoğlu F.V. Azərbaycann milli-mənəvi va maddi dəyərləri. Bakı, "Mütərcim", 2018, 285 s.
15. Исмаилзаде П.Э. Мужская одежда азербайджанцев в XIX-начале XX века // Вопросы Истории, Москва, «Красная Звезда», 2018, №4, с.117-125.
16. Елизаветполь // Кавказский календарь, Тифлис, 1853, 318 с.
17. Новрузов Д.А. Традиционная и современная материальная культура азербайджанцев Грузии (конец XIX-80-е г.г. XX в.в). Баку, Элм, 2007, 168 с.
18. Əliyev Ə.T. Gürcüstan azərbaycanlılarının mənəvi mədəniyyəti. Bakı, Elm, 1995, 175 s.

ДЖАЛАЛ НОВРУЗОВ
Ведущий научный сотрудник Института археологии, этнографии и антропологии НАНА

НАЦИОНАЛЬНЫЕ КОСТЮМЫ АЗЕРБАЙДЖАНЦЕВ ГРУЗИИ КАК СОЦИАЛЬНЫЙ ОБРАЗ ЖИЗНИ

В статье рассматриваются особенности традиционной национальным костюмам азербайджанцев в Грузии. Здесь речь идет о разных типах традиционных тканей. Изучаются истори-

ческие корни нашей национальной костюмной культуры. В статье представлена информация о стиле национальных костюмов азербайджанцев. Здесь мы говорим о современном состоянии некоторых видов национальной одежды. Азербайджанские народные костюмы отражают особенности того периода, к которому они принадлежат. Национальные костюмы показатель экономической культурной жизни народа. Среди зажиточных слоев и населения азербайджанцы сохранили преимущество использования комплектов одежды из дорогих тканей, таких как барнус, дарай, гановуз, тирма, бархат, махуд.

Ключевые слова: традиции, общественная жизнь, азербайджанцы, национальные костюмы, материальная культура.

JALAL NOVRUZOV
Leading researcher of the Institute of Archeology, Ethnography and Anthropology of ANAS

NATIONAL COSTUMES OF AZERBAIJANIS AS A WAY OF SOCIAL LIFE

The article is devoted to the national costumes of Azerbaijanis. Here we are talking about different types of traditional fabrics. The historical roots of our national costume culture are being studied. The article provides information on the style of the national costumes of Azerbaijanis. Here we are talking about the current state of some types of national clothing. Azerbaijani folk costumes reflect the characteristics of the period to which they belong. National costumes are an indicator of the economic and cultural life of the people. Among the wealthy strata of the population, Azerbaijanis have long retained the advantage of using sets of clothes made of expensive fabrics, such as barnus, daray, ganovuz, tirma, velvet, mahud.

Keywords: tradition, social life. Azerbaijanis, national costumes, material culture.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Xatirə Ağayeva, t.e.d. Nərgiz Quliyeva.

UOT 39

ALMAZ ŞABANOVA
Bakı Dövlət Universitetinin doktorantı
almaz.yaver@gmail.com

DÜNYA XALQLARININ MƏDƏNİYYƏTİNDƏ RƏNGİN SIMVOLİKASI

Məlumdur ki, bütün dünya xalqlarının mədəniyyətində rəng çalarlarının özünəməxsus əhəmiyyəti və mənası olmuşdur. Rəng semantikasının izlərinə xalq adət və ənənələrində, memarlıqda, toy mərasimlərində və rəssamlıqda rast gəlmək mümkündür. Məqalədə müxtəlif xalqların mədəniyyətində rəng çalarlarının izahı təhlil olunur.

Açar sözlər: Mədəniyyət, Rəng, Ağ, Qırmızı.

Giriş. Dünyada yaşayan xalqlar müxtəlif olduqları kimi, onların baxış və görüşləri, əhatə olunduqları mühitə münasibətləri, məişət mədəniyyətləri də fərqli-fərqlidir. Bu deyilən cəhət rənglərə də aiddir. Yəni hətta hamı tərəfindən eyni adda, mahiyyətdə deyilən, düşünülən bir rəng ayrı-ayrı etnosun etnik mədəniyyətində fərqli assosiasiya yarada bilir. Rənglər bəzi hallarda əşya və hadisələrin məzmununu, insanların xarakterlərini, emosiyalarını müəyyənləşdirən simvola da çevrilir.

Şərq ölkələrində rəngin simvolikası. Qədim Çində rəng simvolikası beş ünsürü, təbii qüvvəsini (ağacı, odu, torpağı, metalı və suyu) müəyyənləşdirən qədim kainat nəzəriyyəsi ilə bağlı olmuşdur. Həmin ünsürlər, təbii qüvvələr təbiət hadisələri və çin xalqının həyatı ilə qırılmaz surətdə bağlı olmuş, əlaqələndirilmişdir. Rəng simvolları dünya ölkələri üzrə səmtləşdirilmişdir, kainatın mərkəzi isə ortada yerləşirdi (sarı rəng). Rənglər aşağıdakıları ifadə edirdi: sarı rəng – torpağı, kainatın mərkəzini, dövləti, ilin fəsillərini, Saturn planetini, çji musiqi notu, bar, məhsul verməni və şirini; yaşıl rəng - ağacı, şərqi, yazı, Yupiteri, əjdahanı, təbəələri, Tszüe notu, çevik və turş olanı; qırmızı rəng – odu, cənubu, yayı, Marsı, Feniksi, ədalət məhkəməsini, Şan notu, alovlananı, yuxarı qalxanı, acı olanı; ağ rəng – metalı, qərbi, payızı, Venera planetini, pələngi, hökmdarı, Qun notu, dəyişəni, iti olanı; qara rəng – suyu, şimalı, qışı, Merkuri planetini, tısbağanı, qiyamı, Yuy notu, aşağı istiqamətdə axanı, nəm olanı və duzlunu.

Çində simvolika xalq adət və ənənələrində, memarlıqda, toy mərasimlərində və rəssamlıqda özünü büruzə verir. Cənubun qırmızı rəngi bayramlarda, toy mərasimlərdə və müxtəlif digər təntənəli məclis və mərasimlərdə sevinc simvolu idi. Bu hallarda musiqi alətlərin üzərinə qırmızı simlər (damarlar) çəkilirdi, təbriklər isə qırmızı kağızda yazılırdı. Şimal Pekin darvazanı bu gün də qara rəngə, şərq darvazanı – göy-yaşıl rəngə, cənub darvazanı – qırmızı rəngə, qərb darvazanı isə – ağ rəngə boyayırlar.

Çin mədəniyyətində rəng çalarları əlverişli və ya əlverişsiz olmaqla müəyyən dəyərləri özündə əks etdirirdi. Ənənəvi Çin incəsənəti və mədəniyyətində qara, qırmızı, ağ və sarı standart rənglər kimi qəbul edilir. Bu rənglər ənənəvi Çin fizikasında tədris olunan beş su, od, odun, metal və torpaq elementlərinə uyğundur. Şan, Tan, Çjou və Tzin sülalələri boyunca Çin imperatorları rəng seçmək üçün Beş Element nəzəriyyəsindən istifadə etmişdilər.

Sarı. Torpağa uyğun olan qızıl rəngli sarı rəng ən gözəl və prestijli rəng hesab olunur. Çinlilər sarı rəngin hər şeyin mərkəzi olduğunu ifadə edir. Sarı rəng, neytrallıq və uğur anlamını verir [4, 84-85]. Sarı çayı Çin sivilizasiyasının beşiyidir. Çin imperiyasında Sarı İmparatorların rəngi idi və Çinin beş əfsanəvi imperatorunun simvolik rəngi kimi bilinir. Tzin sülaləsinin bayrağının fon rəngi qızılı sarı rəngə çalırdı. Sarı rəng tez-tez kral saraylarını, məbədləri bəzəyir və bu rəng imperatorların əjdaha paltarlarında və geyimlərində istifadə olunurdu. İmperatorun sarı gödəkçəsini almaq nadir bir şərəf idi. Sarı rəng dünyəvi qayğılardan azadlığı təmsil edir və buddizimdə xüsusi rəng hesab olunur. Buddist məbədlərinin elementləri kimi rahibələrin geyimləri də sarı rəngdədir. Sarı, Çinli Buddistlər üçün matəm rəngi olaraq da istifadə olunur. Həmçinin bu rəng qəhrəmanlıq simvoludur [1].

Qara. Suya uyğun sayılan qara, neytral bir rəngdir. Qədim Çin xalqı qara rəngi rənglərin kralı sayırdı və qara rəngə digər rənglərdən daha çox hörmət edirdi. Müasir Çində qara gündəlik geyimdə istifadə olunur. Qara, ağ ilə birlikdə ölüm və yasla əlaqələndirilir və əvvəllər dəfn mərasimlərində geyinilirdi.

Ağ. Metal ilə uyğun olan ağ qızılı təmsil edir və parlaqlığı, saflığı simvolizə edir. Ağ da yas rəngidir. Ölümlə əlaqələndirilir və əsasən Çin mədəniyyətindəki dəfn mərasimlərində istifadə olunur. Qədim Çinlilər yalnız ölülər üçün yas tutduqları zaman ağ paltar və papaq taxırdılar.

Qırmızı. Çinin Yeni ili və digər bayram şənliklərində və ailə toplantılarında qırmızıya rast gəlinir. Cənazə mərasimlərində qırmızı rəng ənənəvi olaraq simvolik xoşbəxtlik rəngi olduğu üçün qəti şəkildə qadağandır. Lakin ölənlərin adları əvvəllər qırmızı rəngdə yazıldığından, rəsmi adlar xaricində Çin adları üçün qırmızı mürəkkəbdən istifadə etmək təhqiredici sayıla bilər.

Mavi və Yaşıl. Ümumiyyətlə mavi və yaşıl rənglər sağlamlıq, firavanlıq və harmoniya ilə əlaqələndirilir. Qədim dövrdə Məbədin dam örtükləri ilə yanaşı cənnəti təmsil edən bir sıra digər tikililər üçün istifadə edilmişdir [3, 107].

Tibetdə ağ rəng səmanı və kişiliyi, qara rəng isə - torpağı və qadınlığı simvolizə edirdi. Tibet tanrıları ("Yerin hökmdarlarını") dairə üzərində yerləşdirərək dünyanın dörd istiqaməti üzrə səmtləşdirir və heyvanlar şəklində göstərirdilər. Dairənin mərkəzində sarı (qızıl) meymunu, şimal tərəfində - ağ tısbağanı, cənub tərəfində – mavi əjdahanı, qərb tərəfində – qırmızı quşu, şərq tərəfində isə – ağ pələngi yerləşdirirdilər."Yerin hökmdarlarına" qurbanlar gətirilən zaman dairədə öküzlərin kiçik fiqurlarını səmtləşdirirdilər: yaşıl rəngli öküzü – şimal istiqamətində, sarı rəngli öküzü – cənub istiqamətində, ağ rəngli öküzü – şərq istiqamətində, qırmızı rəngli öküzü isə - qərb istiqamətində [7, 75]. Tanrıların hamısını müxtəlif rənglərlə simvolizə edirdilər: baş ilahəni, bütün "Yerin hökmdarlarının" anasını və Yerin qapılarının qoruyanını sarı rənglə göstərirdilər, xəstəliklərin və dərmanların ilahəsini – mavi rənglə, ev tanrısını isə - qırmızı rənglə. Yaz ilahəsini qara rəngdə sarı qatır üzərində təsvir edirdilər, yay ilahəsini – qırmızı rənglər göy sarlıq (Tibet öküzü) üzərində, payız ilahəsini – sarı rənglər yaşıl filin üzərində, qış ilahəsini isə – göy rənglə qırmızı dəvə üzərində. Adət və mərasimlərdə də həmçinin eyni rəngləri, ancaq heyvansız istifadə edirdilər.

Yapon mədəniyyəti qədim çin fəlsəfəsinin təsirinə məruz qalmış və rəng simvollarının çin dilini mənimsəmişdir. Yapon simvolikasında mövcud olanın hamısının əsas fəlsəfi simvolları "yan" və "in" Çində də olduğu kimi eyni rəng işarələnməsinə malikdir: ağ (açıq) və qara (tünd). Burada qırmızı rəng cəsarəti, ədaləti, və insan qüvvəsi xaricində olan, fövqəlbəşəri qüvvəni, göy rəng – hiddəti, 25 soyuqqanlığı və əxlaqsızlığı, göy-bənövşəyi rəng – qorxunu, qara və qəhvəyi rənglər isə ilahiliyi və axirətliliyi təmsil edir [5, 167-168].

Hindistanda rəng simvolikası braxmanist və xalq simvolikasına bölünür. Braxmanist simvolikası A-O-U-M dini-fəlsəfi düsturla ifadə olunur, burada: A – qəhvəyi, limon-sarı, ağ-çəhrayi, qara, yer, yaradıcı (ol!), vokal musiqi, ifa etmə; O – mavi, bülluri-ağ, yaşıl, bənövşəyi, su, qorunma (saxla!), simli alətlərdə ifa; U – qırmızı, narıncı, zəfəran-sarı, kül-boz, od, dağıdılma (çıxıb get!), rəqs; M – tündqırmızı, qızılın parıltısı, gümüşü şüa; almaz parıltıları, bütün işıq saçan rənglər, sintez, müdriklik, hökmranlıq və qüdrət simfoniyası [6, 193-194].

İslamın rəng simvolikası tarixdə müəyyən ideoloji rol oynamışdır. İslamdan əvvəl mövcud olmuş mədəniyyət və adətlərlə mübarizə prosesində islam tanrıların ikonik simvolikasını və antropomorf təsvirlərini aradan qaldırmışdır və öz 26 mədəniyyətində fəal surətdə təmiz (təsviri olmayan) rəngləri fəal surətdə tətbiq edirdi, özünün rəng simvolikasını yaratmışdı. Odur ki, islamda işığın müəyyən mənaları var: Günəş, ay, ulduz, səhər, şəfəq, gecə və əslinə baxılırsa, işıq. Bibliyada verilən məna və izahlardan həmçinin qaranlıq simvolu da islamda fərqlidir. Qaranlıq işığa qarşı qoyulmur, onunla səbəbiyyət əlaqəsində olur. Qaranlıq – Gecənin libasıdır, Kölgə - Günəşin yaratdığıdır, Kölgə - kosmik dəryadır, nə isə dərk edilməsi mümkün olmayan, lakin real bir anlayışdır.

Rənglər arasında islamda üç əsas rəng olmuşdur.

İslam simvolikasında birinci əsas rəng ağ hesab olunur, bu müqəddəslik və ləyaqət simvoludur, dini mərasiminə aid baxdıqda isə bu rəng facianə deyil, matəmin təskinedici simvoludur. Ağ rəng hər şeyin ən yaxşısının və ən yüksək xüsusiyyətlərin ümumiləşdirilmiş mənasını əldə etmişdir [2].

İkinci əsas rəng – sarıdır, bu parlaq və işıqlı rəng olaraq günəşin, işığın, qızılın, əbədiliyin, sevincin simvoludur.

Üçüncü əsas rəng – İşığa aid olan qırmızı rəngdir. Qəddarlıq və günahkarlıq kimi əməlləri ifadə edən bibliya simvolikasından fərqli olaraq, islamda – bu, müsbət simvoldur – Günəş, od və həyat, gözəllik və güclü emosiyalar əlaməti olaraq qan.

Mavi rəng - ən populyar rəngdir, təmiz səma və su ilə assosiasiya olunur, Sakitlik və Firavanlıq simvoludur, namərdlik, xəyanət və bir çox bəla və münasibətlərdən qoruyan talismin qismində çıxış edir. Göy rəng – Gecənin və ölümün sakitlik rəmzidir, matəm mərasimlərində tətbiq edilir. Qara – natəmiz vicdan və pis niyyətlərlə əlaqələndirildiyi zaman həyatın mənfi tərəfini əks etdirir. Müsbət hallarda isə qara rəng zəkanın və qəlbin dərinliyini əks etdirir. Qara rəng vasitəsilə kainatın ali sirrini ifadə edirlər. Qara Abbasilər sülaləsinin müqəddəs bayrağının da rəngidir. İslam məbədinin əsas müqəddəs simvolu – qara daşdır

Yaşıl – müsəlman cənnətinin əsas rəngidir. Bu rəngdə həm səmavi, həm də yer bir araya gətirilərək əlaqələndirilir. İslam məfkurəsində yaşıl rəng son dərəcə 27 müsbət mənaya və əhəmiyyətə malikdir. Məhəmməd Peyğəmbərin və bütünlüklə islam aləminin müqəddəs bayrağı – yaşıldır, bu da müasir bayraq və geraldik simvolikasında öz əksini tapmış olur. Boz rəng – hiddət, qəzəb və alçaqlıq, yoxsulluq və bədbəxtlik rəngidir. Qəhvəyi rəng – nifrət, dağılma, parçalanma və tələf, məhv olma rəngidir.

İslamda rəng simvolları sadəcə olaraq anlayış və metaforik məna daşıyıcısı deyil, həmçinin əlkimya, elmdə və həyatda rəng işarələnməsinin vasitələridir. Astronomiyada Günəşi sarı rənglə göstərirlər, Mars planetini – qırmızı rənglə, Veneranı –ağ rənglə, Saturnu – qara rənglə, Merkuri planetini – firuzə rəngi ilə, Ayı – yaşıl rənglə, Yupiter planetini isə – sandal (spirt və ya efir vasitəsilə müxtəlif ağacların oduncağından alınan boyaq) rənglə göstərirlər. Həftənin günlərinə də müvafiq rənglərin uyğunluğu verilir: bazar ertəsinə – yaşıl rəng, çərşənbə axşamına – qırmızı rəng, çərşənbəyə - füruzə rəngi, cümə axşamına – sandal rəng, cüməyə - ağ rəng, şənbə gününə - qara rəng, bazar gününə isə - sarı rəng.

İslamda rənglərə münasibəti öyrənmək üçün Qurani kərim və rəvayətlərdə nəql olunanlara diqqət yetirmək lazımdır. Qurani kərimdə müxtəlif surələrdə qırmızı, sarı, yaşıl və qara rənglər qeyd olunmuşdur. Bundan başqa rənglər və onların xüsusiyyət və faydaları barəsində çoxlu sayda məlumat vardır.

Bu araşdırmada İslamın simvolu olan yaşıl rəngə verilən önəm üzərində dayanırıq. İslamdan öncə qədim dini dastanlarda yaşıl rəngə önəm verilmiş, Şeytanın cənnətdə başının tacının yaşıl zümrütdən olduğu söylənməkdədir. Şeytan cənnətdən qovulduqda o yerə düşərək qırılmış və yer üzərinə səpələnmişdir. O zümrüdü toplayan kəsin sonsuz güc və qüvvəyə sahib olacağına inanılır.

Bundan başqa Qurani kərim cənnətlilərin paltarının rənginin yaşıl rəngdə olduğunu buyurur. Quran cənnətdəkilərin yaşıl rəngli taxta söykənddiklərini bildirir. Yaşıl rəng Qurani kərimdə təbiə rəngi, canlılıq rəmzi və firavanlıq simvolu kimi qələmə verilir. Rəvayətlərdə Peyğəmbər (s) və İmamların (ə) yaşıl rəngdə əmmamə qoyduqlarını və paltar geyindikləri dəfələrlə buyurulmuşdur.

İmam Sadiq (ə) qara rəngin cəhənnəmdəkilərin paltarlarının rəngi olduğunu buyurmuşdur. Rəvayətlərdə Peyğəmbərın (s) yaşıl rəngli paltarlardan xoşu gəldiyi buyurulur. İmam Sadiqin (ə) yaşıl rəng paltar geyindiyi qeyd edilmişdir. İmamlardan (ə) nəql olunur ki, yaşıl rəng fikr və düşüncəni qüvvətləndirir. Bunlardan əlavə tarixdə qeyd olunmuşdur ki, Abbasi xəlifələrinin dövründə onların bayraq və paltarları qara olmuşdur. İmam Sadiq (ə) buyurur: Allah Peyğəmbərlərə vəhy vasitəsilə bildirmişdir ki, Allahın düşmənlərinin geydikləri paltarları geyinməsinlər və onların yediyi yeməklərdən yeməsinlər və s. Şeyx Səduq bu xəbəri nəql edərək bildirir ki, Allahın düşmənlərinin paltarları dedikdə qara paltar nəzərdə tutulur.

İmam Rzanın (ə) və şiələrin paltar və simvolları yaşıl rəng olmuşdur. Elə bu vaxtdan da islamın simvolu kimi yaşıl rəng qalmışdır. Bütün bu deyilənlərdən nəticə çıxartmaq olar ki, İslam xoşbəxtlik, səadət və hidayət dini olduğundan ona yalnız cənnət və təbiətin rəngi yaraşar.

Qərbi Avropanın ictimai həyatında rəngin simvolikası. Dini-mistik rəng simvolikasından fərqli olaraq, Qərbi Avropanın xaçpərəstliyinin rəng simvolikası görkəmli mədəniyyət xadimləri, filosoflar və alimlər tərəfindən təsdiq edilirdi. Hələ qədim zamanlarda Aristotel ağ rəng vasitəsilə Suyu və Havanı, sarı rənglə - Günəşi və Odu, qara rənglə isə - Yeri göstərirdi. Leonardo da Vinçi isə rəngləri daha obrazlı şəkildə istifadə edirdi: ağ rəng – İşığı, sarı rəng – Yeri, yaşıl rəng – Suyu, göy rəng – Havanı, qırmızı rəng – Odu, qara rəng isə - zülməti ifadə edirdi. Hegel simvolikanı emosional-rəng uyğunluğunda yaratmışdı: açıq (işıqlı) və sarı - yaradıcı, qurucu, həyat sevər, gümrah; tünd və göy – sakit, həlim, düşünülmüş; qırmızı – kişilik, əzəmət və hökmdarlıq edən.

Bütün milli rəng simvolikaları geniş ümumləşdirici məzmuna malikdir ki, bundan filosoflar, teoloqlar, alimlər və rəssamlar istifadə edirdi. Rəng simvolikası sistemləri bir çox oxşar cəhətlərə malikdir ki, onlar bir neçə qrupa bölmək mümkündür.

Nəticə. Dünya xalqlarının mədəniyyətində hər bir rəng çalarının özünəməxsus əhəmiyyəti və mənası olmuşdur. Rəng semantikasının izlərinə xalq adət və ənənələrində, memarlıqda, toy mərasimlərində, rəssamlıqda eyni zamanda dinlərdə də rast gəlmək mümkündür. İslamda rənglərə münasibəti öyrənmək üçün Qurani kərim və rəvayətlərdə nəql olunanlara diqqət yetirmək lazımdır. Dini-mistik rəng simvolikasından fərqli olaraq, Qərbi Avropanın xaçpərəstliyinin rəng simvolikası görkəmli mədəniyyət xadimləri, filosoflar və alimlər tərəfindən təsdiq edilirdi. Məqalədə müxtəlif xalqların mədəniyyətində rəng çalarlarının izahı ətraflı və müqayisəli şəkildə təhlil olunur.

ƏDƏBİYYAT

1. Steve Hullfish. Psychology of Color: Does a specific color indicate a specific emotion / ProvideoCoalition, July 19, 2012. - https://www.provideocoalition.com/psychology_of_color/ [Müraciət tarixi: 04.03.2022].
2. Nigar Abbaszadə. Rənglərin psixologiyası haqqında / Qədim Qala, 22.05.2017. - http://qedimqala.az/index.php?do=yazi_inner&id=52&page=2 [Müraciət tarixi: 04.03.2022].
3. Norine Dresser, Multicultural Manners: New Rules of Etiquette for a Changing Society. Wiley, Yanuary 30, 1996, 304 p.
4. St. Clair, Kassia. The Secret Lives of Colour. London: John Murray, 2016, 320 p.
5. Люшер, М. Цвет вашего характера: Пер. с англ. / М. Люшер. М.: RIPOL klassik, 1997, 236 с.
6. Н.Т.Сурашов, А.В.Вавилов, Д.Е.Елемес. Теория цвета и цветовоспроизведения. Алматы, КазНТУ, 2014, 241 с.
7. О.В.Ильина, К.Ю. Бондарева. Цветоведение и колористика. Санкт Петербург, ГОУ ВПО СПбГТУРП, 2008, s.123.

АЛМАЗ ШАБАНОВА
Докторант Бакинского Государственного Университета

СИМВОЛИКА ЦВЕТА В КУЛЬТУРЕ НАРОДОВ МИРА

Известно, что в культуре всех народов мира оттенки цвета имеют особое значение. Следы цветовой семантики можно найти в народных обычаях и традициях, архитектуре, свадебных обрядах и живописи. В статье анализируется объяснение цветовых оттенков в культуре разных народов.

Ключевые слова: Культура, Цвет, Белый, Красный.

ALMAZ SHABANOVA
Doctoral student of Baku State University

SYMBOLISM OF COLOR IN THE CULTURE OF THE PEOPLES OF THE WORLD

It is known that in the culture of all peoples of the world, shades of color have a special significance and meaning. Traces of color semantics can be found in folk customs and traditions, architecture, wedding ceremonies and painting. The article analyzes the explanation of color shades in the culture of different peoples.

Key words: Culture, Color, White, Red.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 04 mart 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.e.d. Qüdrət İsmayılzadə, t.e.d. İsmayıl Məmmədov.

UOT 94(479.24), UOT 94

SƏBİNƏ ALIYEVA
BDU-nun Tarix fakültəsinin doktorantı
sabinalyeva@mail.ru

NADİR ŞAH ƏFŞAR İMPERİYASININ OSMANLI İMPERİYASI İLƏ ƏLAQƏLƏRİ TARİXİ TƏDQİQATLARDA

Nadir Şah 1736-cı ildə özünü şah elan edib Əfşar dövlətinin əsasını qoyduğu zaman Osmanlı Sultanı I Mahmud hakimiyyətdə idi. Məhz bu zaman iki türk imperiyası arasında yeni ərazi ələ keçirmək uğrunda mübarizə cəhdləri özünü göstərirdi. Düşmənçiliyi aradan qaldırmaq, sünni-şiə müharibəsinə son qoymaq üçün Nadir Şah Cəfərilik məzhəbini yaymağa çalışsa da məqsədinə nail ola bilməmişdir.

Açar sözlər: Əfşar imperiyası, Osmanlı imperiyası, müharibə, Cəfərilik məzhəbi.

Giriş. XVIII əsr Türk, Mərkəzi Asiya və İran tarixində Nadir Şah və onun yaratmış olduğu Əfşar imperiyası (1736-1804) çox böyük rol oynamış və onun tarixinə dair müxtəlif dilli qaynaqlar dövrümüzə qədər gəlib çatmışdı. Nadir Şah 1501-1736-cı illərdə mövcud olmuş Azərbaycan Səfəvi imperiyasına 1736-cı ildə son qoymuş və özünün mənsub olduğu Əfşar sülaləsini hakimiyyətə gətirmişdi. Bu dövr tarixi baxımdan istər Azərbaycan, istərsə də Türkiyə tarixçiləri tərəfindən araşdırılmışdır. Türkiyə tarixçiləri araşdırmalarında Nadir Şah dövründə Osmanlı imperiyasi ilə olan dini münasibətlərə daha çox diqqət yetirmişlər.

Mövzunu araşdırarkən əsasən vətən tarixşünaslığında mövzu ilə əlaqədar aparılmış tədqiqatlara diqqət yetirmək lazımdır. Təbii ki, biz onları bütövlükdə deyil, yalnız bir neçəsinin təhlilini apara bilərik.

Cahangir Hüseyn Əfşar "Azərbaycan Nadir Əfşar dövləti" tarixi əsərini Nadir Şahın 325 illiyinə həmçinin, Əfşar dövlətinin 280 illiyinə həsr etmişdir. Əsər giriş, 5 fəsil, nəticədən ibarətdir. Cahangir Hüseyn Əfşarın əsərinin üçüncü və dördüncü fəsilləri Nadir Şah Əfşarın Osmanlı ilə münasibətlərinə həsr olunmuşdur. Üçüncü fəsil "Muğan qurultayında Nadirin Şah elan olunması. Dini islahat cəhdləri və xarici dövlətlərlə əlaqəsi" [1, s.64] adlanır. Bu fəsil də Nadirin Cəfərilik məzhəbi və Osmanlı imperiyasi ilə olan əlaqələri göstərilmişdir. Dördüncü fəsil "Nadir Şahın hərbi yürüşləri, ordu və donanma quruculuğu" [1, s.92] adlanır. Bu fəsildə isə Nadirin xanlıq və şahlıq dövründə Osmanlı ilə apardığı müharibələr haqqında qısa məlumat verilmişdir.

Nadir Şah iki türk dövlətini birləşdirmək tərəfdarı olmuşdur. Hətta Osmanlı Sultanı I Mahmuda göndərdiyi məktubunda qeyd etmişdir ki, "Əgər siz Cəfəri məzhəbini qəbul etsəniz, mən öz imperiyamı Osmanlı imperiyasi ilə birləşdirərəm". Osmanlı Sultanı I Mahmud Nadir Şaha göndərdiyi cavab məktubunda Cəfəriliyi mənsəb kimi qəbul edə bilməyəcəyini bildirir. Əsərdə göstərilir ki, "Osmanlı sultanının göndərdiyi məktubda Nadir Şahın qaldırdığı əsas məsələ haqqında, yəni Cəfəri məzhəbinin tanınması haqqında hər hansı bir qeyd yox idi. Sultan yalnız Kəbə ziyarətinin bəzi texniki məsələləri haqqında İrandan (Əfşar imperiyasından - S.A.) gələnlərin də az məsrəflə öz ziyarətlərini yerinə yetirməsi haqqında razılığını bildirdi" [1, s.78-79]. Qeyd edə bilərik ki, ümumilikdə, Nadir Şah Osmanlı imperiyasına dəfələrlə elçi göndərib, Cəfəri məzhəbini qəbul etmələri üçün müraciət etsə də, hər dəfə danışıqlar nəticəsiz qalır.

Sözü gedən əsərin üçüncü fəslinin "Nadir Əfşar dövlətinin xarici ölkələrlə əlaqəsi" yarımbaşlığında Nadirin Osmanlılar ilə olan 1742-1746-ci illər müharibəsi haqqında qısa məlumat verilib. Müharibənin gedişində Nadir Şahla I Mahmud arasında 1744 - cü ilin qışında saziş imzalanır. Məzhəb məsələsi bu dəfə də qəbul olunmur. Buna baxmayaraq, Nadir Şah müharibəni dayandırmaqda maraqlı idi, çünki İranda qiyamları yatırıb, yenidən bütün qoşunu Anadoluya yeritmək istəyirdi. I Mahmud belə bir təklif irəli sürdü ki, ərazi məsələlərinə yenidən baxmaq bir halda mümkündür ki, Əfşarlılar məzhəb məsələsində təkid etməsinlər. Nəhayət, "1746-ci il sentyabrın 4 də Kürdanda İran (Əfşar - S.A.) və Osmanlı dövləti arasında rəsmi sülh müqaviləsi bağlandı və İran (Əfşar - S.A.) – Osmanlı ixtilaflarına son qoyuldu" [1, s.82].

Yuxarıda adı çəkilən əsəri təhlil edərkən ən böyük qüsurunun Əfşar dövlətinin türk dövləti kimi deyil, bir İran dövləti kimi təqdim edilməsidir. Görünür belə səhvin yol verilməsinə səbəb istifadə olunmuş ədəbiyyatların əksəriyyətin İran və Rusiya tarixçilərinin əsərlərinin olmasıdır.

Mövzu ilə əlaqədar digər mühüm əsər Mehman Süleymanovun 2010-cu ildə Tehranda nəşr etdirdiyi giriş, səkkiz fəsil nəticədən ibarət olan "Nadir Şah" əsəridir. Əsər Nadir Şahın həyat və hərbi fəaliyyətinə həsr olunmuşdur. Əsərdən müəyyən olur ki, Nadir Şah Dağıstan yürüşündə olan dövrdə iki dəfə Osmanlı sarayından elçilərini qəbul edib. İlk elçilər 1742-ci ildə I Mahmudun məktubunu ona çatdırırlar. Bu məktubda da Nadir məzhəb məsələsi ilə bağlı rədd cavabı alır. Nadir cavab məktubunda bildirir ki əgər təklif qəbul olunsa iki türk dövləti arasında birlik yaranar, əks halda qoşunlarını sərhədə doğru toplayacaqdır. Müəllif qeyd edir ki, "Nadir şah əminliyini bildirirdi ki, Osmanlı ərazisinə daxil olduqdan sonra Osmanlı sarayı onu qonaqpərvərliklə qarşılayacaqdir". Buradan belə qənaətə gəlmək mümkündür ki, əslində Nadir Şah qonaqpərvərlik dedikdə Osmanlı sarayına dolayı yolla müharibənin yaxında olduğunu demək istəmişdi. Yeni müharibə isə Osmanlının nüfuzunu bir qədərdə aşağı sala bilərdi. Lakin yenə də məzhəb fikirini dəyişməyən Osmanlı sarayı növbəti dəfə 1743-cü ildə Əfşar imperiyasına məktub göndərir. Osmanlıların məktubda məzhəb məsələsini qəbul edə bilmədikləri üçün üzrxahlıq edirlər. Çünki Osmanlı Nadir Əfşarla ilə müharibə aparmaq istəmir. Məktubda Nadir Şaha başqa bir təklif irəli sürülür. Şah isə cavabında açıq aşkar Osmanlıları hədələyib bildirir ki, Dağıstan yürüşü başa çatan kimi qoşunu Osmanlı sərhədinə doğru toplayacaqdır. Əsərdə Nadir Şahın döyüş hazırlığı haqqında geniş məlumat verilmiş hətta rəqəmlərin qoşun mirzəsinin sənədlərindən götürüldüyü üçün dəqiq olduğu qeyd olunur. Nadir Şah Əfşarın qoşun dəstələrinə növbə ilə baxış keçirdiyini, yaxın tayfaları bir qoşun növündə toplayıb ümumilikdə, 375 min nəfərlik qoşuna baxış keçirmişdir. Biz rəqəmlərin şişirdilmiş olduğunu deyə bilərik. Amma sənədlər əsasında rəqəmlər təsdiqini tapırsa deyə bilmərik ki rəqəmlər yalnışdır. Onu da qeyd edə bilərik ki, ola bilsin bütün qoşun əsas döyüşçülərdən ibarət deyil onun tərkibində qeyri-döyüşçülər, xidmətçilər, tibb xidmətçiləri və s. ola bilər. Nadir Şah Əfşar Osmanlılar ilə başlayacağı müharibədən əvvəl ərzaq ehtiyatı üçün 3 illik tədarük görülməsini tapşırmışdı.

Əsərdə daha sonra dövrün mənbələri olan Mərvi Məhəmməd Kazımın "Aləm Ara-ye Naderi" və Astrabadi Mirzə Mehdi xanın "Tarix-e Cahanqoşa-ye Naderi" mənbələrindən istifadə olunaraq dəqiqliklə hadisələrin ardıcıllığı göstərilir. Hər iki mənbəyə əsasən qeyd olunur ki, "Mosul qalasındakı Osmanlı Paşaları və qala sakinləri baş verən dağıntıların nəticəsi kimi Nadir Şahın yanına nümayəndələr göndərərək ondan aman istədiklərini xəbər verirlər" [2, s.431]. Mehman Süleymanov qeyd edir ki, Nadir Şah dövrünün tədqiqatçılarından olan L.Lokkart bu hadisənin tam əksinin baş verdiyini, Osmanlı qala hakiminin deyil, Nadirin özünün danışıqlar üçün müraciət etdiyini bildirir. Hətta guya Mosul qalasının hakimi olan Hüseyn paşa da əvvəl danışıqlardan imtina edib sonra razılıq vermişdir. Amma dövrün mənbələrinin daha düzgün olacağını nəzərə alaraq deyə bilər ki, Mehman Süleymanovun Mosul qalası haqqında yazdıqları daha obyektivliyi əks etdirir. Çünki "Aləm Ara-ye Naderi" mənbəsindən istifadə edərək müəllif qeyd edir ki, Nadir Şah Hüseyn Paşanın qızına elçi göndərir və müsbət cavab alır. Hadisə Lokkartın yazdığı kimi olsaydı o zaman Hüseyn paşa nə Nadirin döyüşü dayandırmaq, nə də qızı ilə evlənmək təklifinə müsbət cavab verməzdi. Əsərdə göstərilir ki, Mosul qalasından sonra Nadir Şah Bağdada doğru hərəkət edir və şəhərin hakimi olan Əhməd Paşa ilə görüşüb razılıq əldə etdikdən sonra Qərnə, Ərbil, Kərkük və fəth edilmiş digər qalaları ona təhvil verib Həmədana doğru gedir. "Aləm Ara-ye Naderi" mənbəsində bu danışıqlar haqqında az da olsa məlumat verilmir. Tarix-e Cahanqoşa-ye Naderi" də isə cüzi məlumat verilir" [2, s.432]. Nadir Şah Əfşarın qalaları təhvil verməsinə səbəb kimi yalnız deyə bilərik ki, ola bilsin həmin dövrdə imperiyasının tərkibində mərkəzə qarşı qiyamlar baş verirdi və Nadir Şah həmin qiyamları yatırmaq üçün bir qədər vaxt əldə etməyə çalışıb. Qiyamları yatırdıqdan sonra yenidən müharibəyə qaldığı yerdən davam edən Nadir Şah Osmanlıların təklifi ilə 1746-cı ildə I Sultan Mahmud ilə sülh müqaviləsi imzaladı. Müəllif müqavilənin 3 maddəsinin hər biri haqqında geniş məlumat verir.

Türkiyə tarixşünaslığında Nadir Şahın dövründə Osmanlılar ilə olan münasibətlər haqqında, Nadirin şəxsiyyəti, mənsub olduğu nəsli, hərbi fəaliyyəti, məzhəb və digər məsələlərlə bağlı geniş araşdırmalar aparılmışdır.

Alper Yıldırım 2017-ci ildə "I Mahmud devri Osmanlı-İran ilişkileri" adlı araşdırma aparmışdır. Tədqiqat işinin ilk fəsli I Sultan Mahmuda qədər olan Səfəvi və Osmanlı münasibətləri haqqında yazılmışdır. İkinci fəsil isə bilavasitə son Səfəvi Şahları və Nadirin xanlıq və daha sonra şahlıq dövründə Osmanlılar ilə olan siyasi vəziyyəti əks etdirir.

"II dönem Osmanlı – İran ilişkileri (1736-1743)" adlı yarımbaşlıqda Nadirin Muğanda qurultay toplayıb özünü şah elan etməsi, Şah I İsmayıl dövründən bu yana mənimsənilmiş Şiə təriqətinin Cəfəri təriqəti ilə dəyişdirilməsi haqqında olan məsələlər göstərilib. Alper Yıldırım araşdırmasında daima Əfşar və Səfəvi dövlətlərini İran dövləti kimi göstərmişdir. Çalışmasında qeyd edir ki, "Nadir Şah Əfşarın məzhəb fərqliliklərinə baxmayaraq Osmanlı dövlətinə qarşı düşmənlik etməməsi, Səfəvilərin adət etdiyi kimi digər xəlifələrə xoş olmayan sözlər deməməsi, 5 dəfə namazın qılınmasının vacibliyini deməsi, Hz.Məhəmməd Peyğəmbərin Əhli Sünnətinin yolundan getməsi kimi məsələlər onun əslində məzhəb düşmənçiliyindən uzaq durmasını göstərir" [3, s.67]. Lakin bir Osmanlı Sultanın, eyni zamanda İslam Xəlifəsinin başqa bir məzhəbi qəbul etməsi xalq tərəfindən heç də yaxşı qarşılanmayacaqdır. Belə olduğu halda I Mahmud taxtını itirə bilərdi. Digər tərəfdən Osmanlı sultanı olan I Mahmud əslində Nadirin üzdə xoş niyyətli görünən məzhəb dəyişikliyi fikrinə qarşı idi. Hətta Nadir Şahın məzhəb haqqında narahatedici təkliflərinin olacağı halda yerli xalqdan müharibə etmək üçün fətva almışdı [3, s.77]. Nadir Şah Əfşarın Rusiya ilə Osmanlı əleyhinə ittifaq qurduğunu öyrənən zaman Sultan I Mahmud əslində nə qədər doğru düşündüyünü bir daha özü üçün təsdiqləyir.

Ardıcıl olaraq tədqiqat işində Əfşar - Osmanlı müharibəsinin gedişi, danışıqlar, qalaların ələ keçirilməsi, 1743-1747 Əfsar Osmanlı münasibətləri, Nəcəf toplantısı, Qars qalasının 73 günlük mühasirəsi, İrəvan müharibəsi, sülh müqaviləsi haqqında məlumat verilib.

Müharibənin son günlərində artıq Osmanlı ilə birdən çox cəbhədə savaşmağın ağıllı bir iş olmayacağı qənaətinə gələn Əfşar Şahı öz lehinə sülh müqaviləsi bağlamaq üçün hərəkətə keçir. Nadir Şah Əfşar göndərdiyi məktublardan birində yazır ki, Osmanlı sarayının Cəfərilik məzhəbini qəbul etməsi üçün artıq israrlı olmayacaqdır. Çünki o təklif etdikcə və Osmanlılar qəbul etmədikcə çox günahsız insanın qanı tökülməyə davam edəcəkdi. Yenə də o təklifinin çox məsum və barışcıl bir təklif olduğunu vurğulayırdı. Əfşarlı təklifindən imtina etdiyi üçün əvəzində Səfəvilərin səhvi ucbatından əldən çıxmış İraq və ya Azərbaycan torpaqlarının hər hansı birinin qardaşlıq hüququna əsasən geri verilməsini istəyirdi. Nadir Şah bu yolla halallaşacaqlarını bildirmiş, lakin yenə də torpaqların qaytarılması üçün heç bir məcburiyyətin olmayacağını bildirmişdi. Sultan I Mahmud məktubu aldıqda Nadir Şahın həm Cəfərilik məzhəbi fikirdən daşınmasına, həm də ərazi məsələsini Osmanlıların mövqeyinə buraxdığı üçün barış addımlarına inanmışdı.

Nəticə. Türkiyə tarixşünaslığında mövzu ilə aparılan araşdırmaların təhlilindən belə qənaətə gələ bilərik ki, Əfşar dövlətini bir türk dövləti, Nadir Şah Əfşar isə bir türk fatehi kimi deyil, İran dövləti və İran sərkərdəsi kimi göstərilir.

Nadir Şah (1736-1747) və Sultan I Mahmud (1730-1754) dövrü və onlar arasındakı əlaqələr, müharibələr Azərbaycan və Türkiyə tarixçilərinin mövzu ilə əlaqələli ayrı-ayrı əsərlərində, ümumiləşdirilmiş əsərlərdə geniş məlumatlar öz əksini tapmışdır. Bir neçə müəllif və əsər adını qeyd edə bilərik ki, bunlar Ədalət Tahirzadənin "İmperator Nadir Şah Əfşar", Ateş Abdurrahmanın "Osmanlı-İran Siyasi İlişkileri (1720-1747)", Əsədov Firidun Nurullabəylinin "Nadir Şah Əfşar", İsmail Hakkı Uzunçarşılının "Osmanlı tarihi" IV cild birinci bölüm, Uğur Kurtaranın "Yeni Kaynakların işığında Sultan I. Mahmud dönemi Osmanlı İran ilişkileri (1731-1747)", Hatice Akının "XVIII yüzyılın ilk yarısında Osmanli imperatorluğunda islahat çabaları" və s. araşdırmalarıdır ki, bunlardan da qiymətli məlumatlar əldə etmək mümkündür.

ƏDƏBİYYAT

1. Cahangir Hüseyn Əfşar. Azərbaycan Nadir Əfşar dövləti. Bakı, 2014, 256 s.
2. Mehman Süleymanov. Nadir Şah. Tehran, 2010, 741 s.
3. Alper Yıldırım. I Mahmud devri Osmanlı-İran ilişkileri. (Yüksek lisans tezi). Eskişehir, 2017, 142s.

САБИНА АЛЫЙЕВА
Докторант Бакинского Государственного Университета

ОТНОШЕНИЯ НАДИР-ШАХА АФШАРА С ОСМАНСКОЙ ИМПЕРИЕЙ В ИСТОРИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

Когда Надир-Шах объявил себя шахом в 1736 году и основал государство Афшар, у власти находился Османский султан Махмуд I. Именно в это время началась борьба между двумя турецкими империями за новые территории. Надир-Шах пытался распространить секту Джафари, чтобы устранить вражду и положить конец суннитско-шиитской войне, но потерпел неудачу.

Ключевые слова: Афшар империя, Османская империя, война, секта Джафари.

SABİNA ALİYEVA
Doctoral student of Baku State University

NADIR SHAH AFSHAR'S RELATIONS WITH THE OTTOMAN EMPIRE IN HISTORICAL RESEARCH

When Nadir Shah declared himself shah in 1736 and founded the Afshar state, the Ottoman Sultan Mahmud I was in power. It was at this time that the struggle between the two Turkish empires for new territory began. Nadir Shah tried to spread the Jafari sect in order to eliminate hostility and end the Sunni-Shiite war, but failed.

Keywords: Afshar Empire, Ottoman Empire, war, Jafari sect.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 15 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: t.ü.f.d. Sevinc Qasımova, t.e.d. Anar İsgəndərov.

UOT 371.3

MƏCİD İSMİXANOV
Bakı Dövlət Universitetinin professoru
m.ismixanov@mail.ru

NƏZAKƏT İMAMVERDIYEVA
Bakı Dövlət Universitetinin dosenti
naza-52@mail.ru

GƏNC NƏSİLDƏ DÜNYAGÖRÜŞÜN FORMALAŞDIRILMASI YOLLARI

Məqalədə dünyagörüşünün mahiyyəti, psixoloji mexanizmi, formalaşması yolları və vasitələri, ayrı-ayrı yaş dövrlərində xüsusiyyətləri, bu sahədə dinin rolu kimi məsələlər nəzərdən keçirilir. Təhsil sisteminin dünya təhsilinə inteqrasiyası şəraitində gənclərin elmlərə, texnologiyalara dərindən yiyələnmələrinə, bilikli yaradıcı, dünyagörüşlü şəxsiyyətlər kimi yetişmələrinə, həm də ahəngdar şəxsiyyətlər kimi yetişmələrinə təsir edən amillərdən bəhs edilir.

Açar sözlər: dünyagörüşü, onun formalaşması mexanizmi, yolları və vasitələri, elmi və dini dünyagörüşü.

Giriş. Uşaq və gənclərin ahəngdar şəxsiyyətlər kimi yetişməsində digər tərbiyə sahələri ilə yanaşı onlarda dünyagörüşünün formalaşması xüsusi yer tutur. Böyüyən nəslin təhsili, tərbiyəsi, insanlara və həyata münasibəti bundan çox asılıdır. Bəzən təlim prosesində – ayrı-ayrı fənlərin tədrisində konkret faktların, məlumatların öyrədilməsinə çox yer verilir. Lakin onların ümumiləşdirilməsinə, nəticələr çıxarılmasına, uşaq və gənclərin öz fikir və mülahizələrini bildirmələrinə lazımi diqqət yetirilmir. Bu da, öz növbəsində, uşaq və gənxlərdə təbiətə, cəmiyyətə, insana münasibətdə ümumi baxışların, dünyagörüşün formalaşmasına mane olur.

Hazırda təhsil sisteminin dünya təhsilinə inteqrasiyası şəraitində gənclərin elmlərə, texnologiyalara dərindən yiyələnmələrinə, bilikli yaradıcı şəxsiyyətlər kimi yetişmələrinə ehtiyac daha da artır. «Təhsil haqqında» Azərbaycan Respublikasının qanununda dərin biliklərə yiyələnən, geniş dünyagörüşünə malik olan, müasir təfəkkürlü vətəndaş və şəxsiyyətlər yetişdirmək təhsilin əsas məqsədi kimi müəyyən edilmişdir. Təhsil sisteminin bütün pillə və səviyyələrində bu məsələ diqqət mərkəzində durmalıdır. Çünki dünyagörüşü fəlsəfi, elmi, sosial-siyasi, əxlaqi, estetik baxış və əqidələrin sistemi kimi gənclərin şüurunda dünyanın düzgün ümumi mənzərəsini yaratmağa, onların həyat və fəaliyyətinin istiqamətini müəyyələşdirməyə imkan verir.

Məqalədə dünyagörüşünün mahiyyəti, gənc nəsildə onun formalaşdırılması prosesi, yolları və vasitələri nəzərdən keçirilir.

Dünyagörüşü insanın həyata baxışları sistemidir. Bu sistemdə ictimai şüurun bütün formaları – elm, fəlsəfə, əxlaq, siyasət, hüquq, din, incəsənət və s. əks olunur. Ona görə də dünyagörüşü anlayışını bir qədər dəqiq şəkildə belə ifadə etmək olar: dünyagörüşü insanın həyata elmi, fəlsəfi, hüquqi, əxlaqi, dini, siyasi, estetik baxışlarının ümumiləşmiş sistemidir.

Dünyagörüşü elmi və qeyri-elmi ola bilər [4, s.461]. *Elmi dünyagörüşü* təbiətə, cəmiyyətə və insan təfəkkürünə elmi baxışların sistemi kimi başa düşülür. Onun əsasını elmi-dialektik ideya və baxışlar təşkil edir. Bu ideya və baxışlar ictimai və fərdi dünyagörüşünün əsasını təşkil edir. *İctimai dünyagörüşü* cəmiyyətdə bərqərar olan elmi, fəlsəfi, siyasi, etik və estetik baxışları əks etdirir. *Fərdi dünyagörüşü* isə ayrı-ayrı şəxsiyyətlərin həyata baxışları sistemidir.

Dünyagörüşü insanın davranış və fəaliyyətinin tənzimləyicisi, motivi kimi çıxış edir. O, şəxsiyyətin ümumi istiqamətini, həyat qayəsini müəyyən edir, xarakteri möhkəmlədir. Bitkin və sistemli dünyagörüşü insanın şəxsiyyət kimi formalaşmasının mühüm göstəricisidir. Belə insan möhkəm həyat mövqeyi və məqsədyönlülüyü ilə seçilir.

Dünyagörüşün *keyfiyyəti* onun elmiliyi, tamlığı, sistemliliyi, ümumiliyi və davranışa təsiri ilə müəyyən olunur. İnsanın ideya və baxışları onun davranış və fəaliyyətində özünü göstərdikdə, şəxsiyyətin həyat prinsiplərinə çevrildikdə dünyagörüşü daha dolğun və təsirli olur.

Dünyagörüşün göstərilən müsbət keyfiyyətləri insanda vəhdət təşkil etdikdə *şəxsiyyətin inamına,*

əqidəsinə çevrilir. Əqidə - insanın müəyyən baxış və ideyalara, həyat prinsiplərinə möhkəm inamı, etiqadıdır. Əqidəli adamın ideyaları onun hissləri və iradəsi ilə qovuşur; o, dərin inam bəslədiyi ideya və baxışlara uyğun hərəkət edir, onların naminə hər cür çətinliyə qatlaşır. Belə adamlar ətrafdakıların hörmətini qazanırlar. Əksinə, tez-tez ideya və mövqeyini dəyişən, sözləri ilə əməlləri düz gəlməyən, ideya və baxışlarını qarın və vəzifə üçün qurban verən adamlar el arasında hörmətdən düşürlər.

Dünyagörüşün formalaşması prosesi müxtəlif *amillərin* təsiri ilə baş verir. Bu amillər sırasında sosial mühit, ailə həyatı, cəmiyyətdə qərarlaşmış ideya və baxışlar, dövlətin siyasəti, təlim və tərbiyə, kütləvi informasiya vasitələri, insanın yoldaşlıq mühiti, oxuduğu kitablar, baxdığı filmlər və s. mühüm yer tutur.

Dünyagörüşü *quruluşuna* görə mürəkkəbdir. Onun tərkibi *zehni, emosional və iradi komponentlərdən* ibarətdir.

Zehni komponent varlığın insan şüurunda inikası ilə bağlıdır: burada hissi və məntiqi idrak birləşir. İnsan mücərrəd təfəkkürün köməyi ilə ümumiləşdirmələr aparır, maddi aləmin cisim və hadisələri arasındakı səbəb-nəticə asılılıqlarını, qanunauyğun əlaqələri dərk edir və bu əsasda dünyaya ümumi baxışlar sistemi formalaşır.

İnsanın bilik və baxışları o zaman şəxsi mövqeyə, əqidəyə çevrilir ki, insan bu ideyaları daxilən hiss etsin, ondan həyəcanlansın. *Emosional həssaslıq*, müqəddəs ideyalardan doğan sevinc, təəccüb, qürür hissləri dünyagörüşün formalaşmasında mühüm rol oynayır.

Bu prosesdə insanın *iradəsi* də iştirak edir. İnsan ideyalara inandıqda onları praktik fəaliyyətə, öz davranışına tətbiq etməyə psixoloji cəhətdən hazır olur. Bu sahədə iradənin rolu böyükdür. Məhz iradənin köməyi ilə dünyagörüşü insanın ünsiyyət və münasibətlərində, hərəkət və davranışında özünü göstərir. İnsanın davranış və münasibət sistemi dünyagörüşün iradi komponentini təşkil edir. İradi hərəkət həmişə məqsədyönlü olur. Məqsədin qoyuluşu və həyata keçirilməsi həm də insanın baxış, əqidə və ideallarından asılıdır. Şəxsiyyətin iradi keyfiyyətlərinə nüfuz edən dünyagörüşü insanın davranış və rəftarını istiqamətləndirir.

Dünyagörüşün *psixoloji komponentlərindən* çıxış edərək, müəllim onun formalaşması prosesində bu komponentlərə əsaslanmalı, elə təsir vasitə və priyomları seçib tətbiq etməlidir ki, onların köməyi ilə şagirdlərin zehni, hissi və iradi qüvvələrini səfərbərliyə ala bilsin.

Dünyagörüşün formalaşması bir neçə *mərhələdən* keçir:

a) dünyagörüşü ideyalarının əsas ünsürlərinin mənimsənilməsi (elmi biliklərin dərk edilməsi);

b) öyrənilən biliklərə, davranış normalarına münasibətin formalaşdırılması (onların həqiqiliyinə inam yaradılması);

c) şəxsi baxış və əqidənin formalaşdırılması;

ç) ideya və baxışların gündəlik davranış və fəaliyyətdə rəhbər tutulması [6, s.172].

İnsanın davranış və hərəkətləri onun inam və əqidəsinin düzlüyü və möhkəmliyinin göstəricisi, meyarı kimi çıxış edir.

Müəllim göstərilən psixoloji əsaslardan çıxış edərək, müvafiq mərhələlər üzrə tədricən şagirdlərdə dünyagörüşün formalaşmasına çalışmalıdır.

Dünyagörüşün əsasını elmi biliklər təşkil etdiyindən onun formalaşmasının başlıca yolu *təlim prosesi* ilə bağlıdır. Təlim prosesində şagirdlər təbiət, cəmiyyət və insan təfəkkürü ilə bağlı elmi biliklərə, ümumiləşmiş anlayışlara, baxışlara yiyələnirlər. Bu işdə bütün fənlərin imkanlarından istifadə edilməlidir. Doğrudur, ayrılıqda götürülmüş heç bir fənn bu mühüm vəzifəni müstəqil həll edə bilməz, lakin hər bir fənn bu sahədə müəyyən imkanlara malikdir.

Təbiyyat-riyaziyyat silsilə fənlərinin (təbiətşünaslıq, biologiya, kimya, riyaziyyat, fizika, fiziki coğrafiya) tədrisində dünyanın təbii-elmi mənzərəsi yaradılır, təbiətə elmi baxışların formalaşmasının əsası qoyulur: dünyanın maddiliyi, təbiət hadisələrinin qanunauyğunluqları, qarşılıqlı əlaqəsi, bir-birini şərtləndirməsi, canlılar aləminin təkamülü, növlərin dəyişkənliyi və s. belə ümumiləşmiş baxışlardır.

İctimai-humanitar elmlərin əsasları ilə bağlı fənlərin tədrisi (tarix, dil-ədəbiyyat, insan və cəmiyyət, iqtisadi coğrafiya və s.) cəmiyyətə dialektik baxışların yaranmasına kömək göstərir: bir ictimai-iqtisadi quruluşdan digərinə keçidin şərtləri və səbəbləri, ictimai inkişafın hərəkətverici qüvvələri, tarixdə xalqın həlledici rolu və s. Ana dili və ədəbiyyat, təsviri incəsənət, musiqi və nəğmə fənləri məktəblilərin əxlaqi-estetik baxışlarını, zövqünü formalaşdırmaq baxımından mühüm əhəmiyyət

kəsb edir. K.D.Uşinski ana dilinin tərbiyəvi rolundan bəhs edərək yazırdı ki, *Ana dili* uşağa təbiəti izah edir – onu bu cür heç bir təbiətşünas izah edə bilməz; o, uşağı insanlarla, cəmiyyətlə və onun tarixi ilə tanış edir - bu cür heç bir tarixçi tanış edə bilməz; nəhayət, o elə məntiqi anlayışlar və fəlsəfi baxışlar verir ki, bunu heç bir filosof verə bilməz. Dildə xalqın mənəvi aləmi, onun həyata, təbiətə, tarixi hadisələrə baxışları, ideya və görüşləri, hissləri ifadə olunur.

Ayrı-ayrı fənlərdə olan dünyagörüşü imkanları öz-özünə reallaşmır. Bunun üçün *təlimi xüsusi istiqamətdə təşkil etmək*, dünyagörüşün formalaşması istiqamətində müvafiq metod və vasitələrdən düzgün istifadə etmək lazımdır. Təlim prosesində elmi dünyagörüşünün formalaşması ilə bağlı bir sıra *vəzifələri* həyata keçirmək lazımdır:

a) təbiət və cəmiyyət həyatının əsas fakt və qanunauyğunluqlarının şüurlu mənimsənilməsini təmin etmək; b) təbiət və cəmiyyət hadisələrinə maraq, onların mahiyyətinin dərk olunmasına tələbat aşılamaq; c) şagirdlərdə sosial-siyasi, əxlaqi, estetik baxışlar sistemi, əqidə və ideallar formalaşdırmaq; ç) dialektik təfəkkürün inkişafına kömək göstərmək.

Bu vəzifələrin həlli təbii-elmi və humanitar biliklərin dərindən mənimsədilməsindən, təbiətə və cəmiyyətə ümumiləşmiş baxış və münasibətlərin yaradılmasından, onların inama və əqidəyə çevrilməsindən çox asılıdır.

Dünyagörüşü tərbiyəsi qarşısında duran vəzifələrin həyata keçirilməsi onun optimal *məzmununun* müəyyən edilməsi ilə sıx bağlıdır. Bunun üçün hər bir fənn üzrə başlıca anlayışlar, ideyalar seçilməli, ən mühüm dünyagörüşü baxışları sistemə salınmalı, ayrı-ayrı sinif və bütöv təlim miqyasında bilik və ideyalar bir kompleks halında birləşdirilməlidir.

Təlim prosesində dünyagörüşü tərbiyəsində *ümumi anlayış və ideyaların* mənimsədilməsi böyük əhəmiyyət kəsb edir. Hər bir elm sahəsində, tədris fənnində belə ümumi anlayışlar vardır. Müəllim bu ideyaların mənimsədilməsi üçün faktları seçməli, onların ümumiləşdirilməsinə xüsusi diqqət yetirməlidir. Təlimdə hazır nəticələr vermək əvəzinə, faktlar üzərində şagirdləri düşündürmək, onları faktların təhlilinə, ümumiləşdirilməsinə cəlb etmək faydalıdır. Şagird elmi anlayışların, ideyaların mənimsənilməsində nə qədər fəallıq, müstəqillik göstərsə, onları konkret hallarla əlaqələndirə bilsə, anlayış və ideyalar bir o qədər şüurlu dərk edilər, şagirdin baxış və əqidəsinə çevrilər.

Dünyagörüşü tərbiyəsi müəllimin istifadə etdiyi *təlim vasitə və metodları* ilə sıx bağlıdır. Təlimdə şagirdləri fəallaşdıran, düşündürən, onların müstəqil fikrini oyadan metod və priyomlara daha geniş yer vermək lazımdır. Öyrənilən anlayış və ideyaları konkret həyati və zehni məsələlərin, *problemlərin həllinə* tətbiq etmək də faydalıdır. Müəllim təlim prosesində – dərsdə şagirdləri belə məsələlərin həllinə geniş cəlb etməli, onlarda dialektik, tənqidi təfəkkürü inkişaf etdirmək qeydinə qalmalıdır. Bu məqsədlə evristik müsahibə, problem vəziyyət yaratmaq, düşündürücü suallar qoymaq səmərəlidir: "Fikrini sübut et", "Hansı fikri düzgün sayırsan?", "Hansı fikirlə razı deyilsən? Nə üçün?" və s. Təlimdə problemlilik, yaradıcı axtarışlar, elmi diskussiyalar dünyagörüşü tərbiyəsi və ideya inamı baxımından əhəmiyyətlidir.

Uşaq və gənclərdə yeni pedaqoji təfəkkürün inkişafı müasir dərsin əsas fərqləndirici cəhəti kimi səciyyələndirilir. Psixoloqlar məktəbi yaddaş (hafizə) məktəbindən ağıl (təfəkkür) məktəbinə çevirməyin zəruriliyini qeyd edirlər. Yeni pedaqoji təfəkkürün ana xəttini şagirdin bir şəxsiyyət kimi inkişafı və tərbiyəsi təşkil etməlidir [2, s.29].

Şagirdlərin öz biliklərini müxtəlif zehni və həyati məsələlərin həllinə tətbiq etmələri onlarda həmin biliklərə inamın yaranmasına, müstəqil mühakimə yürütmələrinə, real həyati faktları ümumi qanunlar baxımından təhlil etmək bacarığının yaranmasına gətirib çıxarır.

Təlim prosesində dünyagörüşü tərbiyəsinin mühüm bir amili *fənlərarası inteqrasiyadır*. Təbii-riyazi elmlərin obyekti təbiətdir. Ayrı-ayrı elmlər bu ümumi obyektin bir cəhətini öyrənir. Həmin elmlərin əsaslarını əks etdirən tədris fənləri də ayrılıqda bu və ya digər təbiət hadisəsini öyrədir və deməli bütövlükdə təbiətin elmi mənzərəsi haqqında bitkin təsəvvürlər, sistemli anlayışlar verə bilməz. Ona görə də dünyagörüşün bir fənn çərçivəsində həyata keçirilməsi mümkün deyildir; yalnız fənlərin inteqrasiya sayəsində təbiətin və cəmiyyətin ümumi mənzərəsini yaratmaq, ümumi qanunauyğunluqları mənimsətmək olar. Canlı təbiətə dair ümumiləşmiş biliklər verən xüsusi tədris fənni (ümumi biologiya) olduğu halda, cansız təbiətə dair belə bir ümumiləşdirilmiş kurs yoxdur. Buna görə də müvafiq ümumiləşdirməni müxtəlif təbii-elmi biliklərin tədrisində (fizika, astronomiya, fizi-

ki coğrafiya, qeyri-üzvi kimya və b.) yaratmaq lazımdır.

Fənlərarası əlaqə həm ayrı-ayrı hadisələr və proseslər səviyyəsində, həm də təbiət və cəmiyyətin inkişafının ümumi qanunları – fəlsəfi qanun və kateqoriyalar səviyyəsində həyata keçirilə bilər. Hər bir məktəb fənni *dialektikanın qanunları və fəlsəfi kateqoriyalarla bağlı sistemli təsəvvürlər aşılamaqda* öz töhfəsini verməlidir. Təbiət və cəmiyyətin istənilən hadisənin öyrənilməsində şagirdlər bu qanun və kateqoriyaların xüsusi təzahürləri ilə rastlaşırlar: səbəb-nəticə asılılıqları, zərurət və təsadüf, materiyanın hərəkəti və dəyişməsi, əksliklərin vəhdəti və mübarizəsi, kəmiyyət dəyişmələrinin keyfiyyət halına keçməsi və i.a. Müəllimlərin vəzifəsi ümumi qanunların konkret təzahürləri haqda bilikləri bitkin sistem halında birləşdirməkdən, şagirdlərin şüurunda dünyanın bütöv mənzərəsini yaratmaqdan ibarətdir.

Təlim-tərbiyə prosesində şagirdlərin dünyagörüşü ideyalarına şəxsi *inam və əqidə bağlaması* da diqqət mərkəzində durmalıdır. *İdeya və baxışlar insan üçün şəxsi məna kəsb etdikdə*, onun həyati təcrübə və münasibətlərində ifadə olunduqda inama, şəxsi mövqeyə çevrilir, şəxsiyyətin ümumi istiqamətini müəyyən edir. Buna görə də yeniyetmə və gənclərin *şüuruna, hissinə, iradəsinə təsir* göstərməklə yanaşı, onların sosial əhəmiyyətli şəxsi davranış, *fəaliyyət və münasibət təcrübəsini təşkil etmək* də vacibdir. Bu sahədə çoxcəhətli sinifdənxaric işlər, ictimai-faydalı əmək, ictimai-siyasi fəaliyyət mühüm rol oynayır.

Dünyagörüşü tərbiyəsində *şagirdlərin yaş və fərdi xüsusiyyətlərinin nəzərə alınması* böyük əhəmiyyət kəsb edir. Dünyagörüşü tərbiyəsi müxtəlif yaş dövrlərində, müxtəlif məzmunda aparılır. Hər yaş dövründə uşaqların dərketmə imkanları, təcrübə və tərbiyə səviyyəsi eyni deyildir. Bu hal tərbiyənin məzmun, forma və metodlarının seçilməsində nəzərə alınmalıdır.

Kiçik məktəblilər təlim prosesində təbiət və cəmiyyət həyatı haqqında sadə təsəvvürlərə, anlayışlara yiyələnirlər. Dünyagörüşü ideyalarını hazır vermək yox, məktəbliləri fəal zehni işə cəlb etməklə mənimsətmək lazımdır. Uşaqlara müşahidələr aparmağı, müqayisələr etməyi, hadisələr arasında səbəb-nəticə əlaqələrini tapmağı, sadə ümumiləşdirmələr etməyi və nəticələr çıxarmağı öyrətmək vacibdir.

Yeniyetmə yaşında təbiət və cəmiyyət həyatına maraq artır. Bu yaşda şagirdlər ətraf aləm haqqında nisbətən geniş biliklər alır, hadisələrin mahiyyətini dərk edirlər. Humanitar və təbiyyat fənlərinin öyrənilməsi onlarda təbiətə və cəmiyyətə elmi baxışların yaranmasına kömək göstərir. Yeniyetmələr özünütəsdiqə, həyatda öz yerini müəyyənləşdirməyə və əxlaqi məsələlərə böyük maraq göstərirlər. Lakin onların bir çoxunun mühakimə və baxışları qeyri-sabitliyi ilə fərqlənir. Buna görə də yeniyetmələrdə düzgün ideya və baxışları formalaşdırmaq, *hadisələrə, adamlara, öz davranış və rəftarına obyektiv qiymət verməyi* öyrətmək lazımdır.

İlk gənclik yaşında məktəblilər fiziki və mənəvi yetkinliyə çatır, elmi dünyagörüşü ideyalarına dolğun yiyələnməyə hazır olurlar. Mücərrəd və tənqidi təfəkkürün inkişafı, varlığa idraki münasibət, təbiət və cəmiyyət hadisələrinə dərin maraq, hər şeyin mahiyyətini dərk etmək tələbatı ümumiləşmiş ideya və baxışların, etik və estetik normaların dərindən mənimsənilməsi üçün əlverişli zəmin təşkil edir. Onlar bu ideya və normaları öz şəxsi təcrübələri ilə əlaqələndirir, davranış və rəftarlarında onları tətbiq etməyə, bu yolla özünüdərk və özünütəsdiq tələbatlarını ödəməyə çalışırlar. Bu yaşda gənclərin sosial, ideya-mənəvi yetkinliyi onların zehni və mənəvi inkişafından bir qədər geri qalır. Bu hal gənclərin bir qismində inamsızlıq, passivlik, siyasi biganəlik yaradır. Məktəb bu cəhətləri nəzərə alıb, təlim-tərbiyə işində gənclərin dünyagörüşü ideya və baxışlarını şüurlu dərk etmələrinə, hadisələrə düzgün qiymət vermələrinə və öz şəxsi təcrübələrini, sosial əlaqə və münasibətlərini genişləndirməyə istiqamətləndirməlidir.

Elmi və dini dünyagörüşü. Elmi və dini dünyagörüşü ictimai şüurun formaları olub, müəyyən baxışların sistemi kimi formalaşmışdır. Din ümumbəşəri dəyərlərin, əxlaq normalarının təbliğində, insanların mənəvi tərbiyəsində mühüm rol oynamış və oynamaqdadır. Azərbaycanda hələ eramızdan əvvəl meydana çıxan *zərdüşt dini* insanları xeyrə, düzlüyə çağırmışdır. Bu dinin əsaslarını özündə cəmləyən "Avesta"da ("Qanun" kitabında) xeyrlə şərin mübarizəsi mühüm yer tutur. İnsan öz fikir və davranışında şəri yox, xeyri seçməlidir. Bu halda o, düz yolla gedər, xoşbəxt olar. Hər kəs üç keyfiyyəti özündə cəmləməlidir: xoş fikir, xoş söz və xoş əməl. Hər işi təmiz fikirlə və təmiz əllə görmək lazımdır.

Sonrakı dövrdə dünyanın bir çox ölkəsində, o cümlədən Azərbaycanda yayılan *islam dini* də ailənin və cəmiyyətin mənəvi dayaqlarının möhkəmlənməsində, insanların mənəvi saflaşmasında mühüm rol oynamışdır. İslam dini elmi, düzlüyü təbliğ edir. "Quran"da və Məhəmməd peyğəmbərin (s.) hədislərində elmə, biliyə, saf əxlaqa yüksək qiymət verilir. "Ən yaxşı adamlar bilikli adamlardır, onların da ən yaxşıları mərhəmətli olanlardır", "Mərhəmətli alim - nuru aləmə işıq saçan ulduza bənzər", "İnsanın dini onun ağlıdır, ağlı olmayanın dini də yoxdur", "Düzgün olun, çünki düzgünlük cənnətə açılan qapılardan biridir", "Yalan, tamahkarlıq, acgözlük daima yoxsulluq əlamətidir" və s.

Tarix boyu dinə birmənalı münasibət olmamışdır; dinə mütərəqqi və mürtəce qüvvələr müxtəlif baxımdan yanaşmışlar. *Mütərəqqi qüvvələr* dinin sosial-mənəvi mahiyyətini düzgün qiymətləndirərək, ondan insanların və cəmiyyətin saflaşması, ailənin mənəvi dayaqlarının möhkəmləndirilməsi məqsədi ilə istifadə etmişlər. *Mürtəce qüvvələr* isə dini fanatizmi və mövhumatı təbliğ edərək, dindən xalqı cəhalətdə saxlamaq və öz şəxsi mənafelərini təmin etmək üçün istifadə etmişlər. Vaxtilə görkəmli yazıçı və mütəfəkkirlərimizin (M.F.Axundzadə, M.Ə.Sabir, S.Ə.Şirvani, Ə.B.Haqverdiyev və b.) öz əsərlərində ifşa etdikləri fırıldaqçı, savadsız, tamahkar, ikiüzlü axund, qazi, molla, seyid və dərvişlər dinə münasibətdə məhz belə mövqe tutmuşlar. Dinə belə ikili münasibət xalq yaradıcılığında da öz əksini tapmışdır [3, s.32-33].

Dünyagörüşü tərbiyəsində *dinə düzgün münasibət formalaşdırmaq*, həqiqi dinlə, uydurma-mistik fikirləri təbliğ edən dini fanatizmi, mövhumatı fərqləndirmək lazımdır. Uzun müddət Sovet kommunist rejimi dövründə elmi-ateizm təbliğatının təsiri ilə dinə yanlış münasibət bəslənmiş, xalqı dindən uzaqlaşdırmağa səy göstərilmişdir. Lakin dini baxışları xalqın şüurundan çıxarmağa müvəffəq ola bilməmişlər. Hazırda dinlə yox, dini fanatizmlə, xürafatla mübarizə aparmaq tərbiyə işində diqqət mərkəzində durmalıdır. Belə bir mübarizə elmi dünyagörüşünün formalaşmasının mühüm tərkib hissəsini təşkil edir.

Elmi dünyagörüşü dini inkar etmir, ona zidd mövqe tutmur. O, dünyəvilik mövqeyini müdafiə edir. *Dünyəvilik* isə dinsizlik demək deyildir; insan dinə hörmət etməli, eyni zamanda bəşəri sivilizasiyaya yiyələnməli, dünyanın inkişaf qanunlarını öyrənməlidir. *Din hər kəsin vicdan işidir*. Onu zorla qəbul etdirmək olmaz; hər kəs ona öz yolu ilə gəlib çatır. Din təhsilə, siyasətə, dövlət işlərinə qarışmamalı, maddi mənfəət güdməkdən uzaq olmalı, siyasətə alət edilməməlidir. M.K.Atatürkün ifadəsi ilə desək, din vicdanlardakı yüksək və müqəddəs yerini qorumalıdır.

Elmi dünyagörüşünün formalaşması insanın elmi biliklərə yiyələnməsindən, əqli tərbiyədən başlayır. *Əqli tərbiyə* dedikdə, insanın elmi biliklərə, zehni qabiliyyətlərə yiyələnməsi, yaradıcı düşünmə bacarığının inkişafına yönələn təlim-tərbiyə prosesi və onun nəticəsi başa düşülür.

Hazırda cəmiyyətdə elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi, əməkdə zehni işin rolunun xeyli artdığı bir dövrdə gənc nəslin əqli təhsil və tərbiyəsinə böyük tələblər verilir. Müasir istehsalatda, elm və mədəniyyətin müxtəlif sahələrində yüksək səviyyədə işləmək, yeni texnika və texnologiyalardan baş açmaq üçün dərin bilik, müstəqil düşünmə bacarığı, yaradıcı təfəkkür tələb olunur. Bu isə, öz növbəsində, böyüyən nəslin ümumtəhsil və intellektual səviyyəsini yüksəltməyi nəzərdə tutur [5, s.282].

Əqli tərbiyə qarşısında bir sıra *vəzifələr* durur:

a) insanı bilik, bacarıq və vərdişlərlə silahlandırmaq;

b) təlim əməyi bacarıqları və zehni əmək mədəniyyəti formalaşdırmaq;

c) zehni qabiliyyətləri, yaradıcı təfəkkürü, psixi prosesləri inkişaf etdirmək;

ç) yüksək ideya-mənəvi keyfiyyətlər, nəcib hisslər aşılamaq, elmi dünyagörüşünün formalaşmasına kömək göstərmək.

Bu vəzifələrin həlli üçün müxtəlif *yol və vasitələrdən* istifadə edilir. Şagirdlərin əqli təhsili və tərbiyəsi bir *çox amillərin* – təlim, tərbiyə, sosial mühit, ədəbiyyat və incəsənət, kütləvi informasiya vasitələri, müasir kompüter texnikası, internet sistemi və s. kompleks təsiri altında həyata keçirilir. Bu vasitələr içərisində məktəbdə *təlim prosesi* mühüm yer tutur.

Məktəbdə əqli tərbiyə üçün *iki yoldan* - təlim prosesindən və sinifdənxaric tədbirlərdən istifadə olunur. ***Təlim prosesi*** əqli tərbiyənin başlıca vasitəsidir. Müxtəlif fənlərdən keçilən dərslərdə şagirdlər elmlərin əsaslarına dair biliklərə, zəruri bacarıq və vərdişlərə yiyələnirlər. Bacarıq və vərdişlər xüsusi və ümumi olmaqla iki qrupa bölünür. *Xüsusi bacarıq və vərdişlər* ayrı-ayrı fənlərdə tətbiq olu-

nan, hər hansı qayda ilə bağlı olan bacarıq və vərdişlərdir. Məsələn, qrammatikadan müxtəlif təhlillər (fonetik, leksik, qrammatik) aparılması, riyaziyyatdan məsələ və misal həlli, coğrafiyadan qlobus, kompas və xəritə üzrə iş, biologiyadan bitki becərmək, heyvanlara qulluq etmək; kimyadan təcrübələr aparmaq və s. xüsusi bacarıqlara aiddir. *Ümumi bacarıq və vərdişlər* isə müxtəlif fənlərdə tətbiq olunur. Buraya kitab üzərində müstəqil iş, oxu və yazı vərdişləri, öz fikrini ifadə etmək, planlaşdırma, özünənəzarət və özünüyoxlama bacarıq və vərdişləri daxildir. Belə ümumi bacarıq və vərdişlərə yiyələnmək əsasında şagirdlərdə "öyrənmə bacarığı" formalaşır.

Müəllim təlim prosesində xüsusi bacarıq və vərdişlərlə yanaşı, ümumi bacarıq və vərdişlərin də formalaşması qeydinə qalmalıdır. Mənimsəmənin səmərəsi şagirdlərin bu bacarıqlara nə dərəcədə yiyələnmələrindən asılıdır. Belə bacarıqlar isə öz-özünə yaranmır. Bunun üçün təlimi xüsusi istiqamətləndirmək lazımdır. Müəllim dərslərdə şagirdləri kitab üzərində müstəqil işə cəlb etməli, onun səmərəli priyomlarını öyrətmək qeydinə qalmalıdır. Hələ ibtidai siniflərdə izahlı qiraət yolu ilə *mətni məntiqi hissələrə bölmək, hər hissədə əsas fikri tapmaq, plan tərtib etmək* və plan üzrə mətni *yığcam danışmaq* bacarıqları aşılanmalıdır. Bu iş müxtəlif fənlərdə və siniflərdə davam etdirilməlidir. Sistemli aparılan belə iş nəticəsində şagirdlər təlimdə müstəqil işləmək, gücəuyğun materialları sərbəst öyrənmək bacarıqlarına yiyələnirlər.

Şagirdlərin müstəqil təlim əməyi bacarıqları sırasında *zehni bacarıqların*, təfəkkür əməliyyatlarının formalaşması mühüm yer tutur. Zehni iş bacarıqları dedikdə, şagirdin zehni fəaliyyət priyomlarının sistemi başa düşülür. Buraya diqqətlə işləmək, təfəkkür əməliyyatlarına (təhlil-tərkib, müqayisə, təsnifetmə, sistemləşdirmə və ümumiləşdirmə), hafizə priyomlarına yiyələnmək, müşahidəçilik bacarıqları və s. daxildir. Müəllim zehni iş bacarıqlarına təlimdə geniş yer verməklə şagirdlərin müstəqil düşünmə bacarığının inkişafına nail ola bilir [7, s.391]. Bu məqsədlə *inkişafetdirici təlim vəziyyətinin (situasiyasının) yaradılması* mühüm şərtdir. Müəllim şagirdləri zehni və həyati problemlərin həllinə, tədqiqatçılıq fəaliyyətinə, evristik müsahibəyə, diskussiyalara, düşündürücü sual və tapşırıqların həllinə cəlb etməklə onların zehni inkişafını, müstəqil düşünmə bacarığının formalaşmasını stimullaşdıra bilər. Şagirdlərə verilən tapşırıqların yaradıcı xarakterdə olması da bu işdə mühüm əhəmiyyətə malikdir. Təcrübəli müəllimlər bu məqsədlə zehni qabiliyyətlərin inkişafına kömək edən müxtəlif tipli tapşırıqlara (müqayisə, təhlil etmək, səbəb-nəticə asılılıqlarını tapmaq, ümumiləşdirmək, müşahidə edib nəticələr çıxarmaq və s.) geniş yer verirlər.

Şagirdin təlim əməyi bacarıqları ən ümumi bacarıqları - *təlim əməyi mədəniyyətini* də özündə birləşdirir. Təlim əməyi mədəniyyəti şagirdin zehni fəaliyyətinin keyfiyyətinin əsas göstəricisidir. Şagirdin təlim əməyi mədəniyyəti, ilk növbədə, təlim fəaliyyətinin elmi təşkili deməkdir. *Təlim fəaliyyəti* isə bir çox *komponentdən* ibarətdir: a) təlim fəaliyyətinin düzgün planlaşdırılması; b) fəaliyyətin düzgün təşkili, müstəqil işin səmərəli priyomlarının tətbiqi; c) özünənəzarət; ç) özünütəhlil və özünüqiymətləndirmə.

Zehni əməyin planlaşdırılması gündəlik rejimə və zehni əməyin ümumi qaydalarına əməl etməyi, qarşıda duran məqsəd və vəzifələrin dərk edilməsini, görüləcək işin planını tərtib etməyi nəzərdə tutur.

Təlim əməyinin təşkili işin icrası üçün lazım olan səmərəli priyomların seçilib tətbiq edilməsinə əsaslanır. Bu priyomlara, bir tərəfdən, *zehni iş priyomları*, digər tərəfdən isə *təlim əməyinin ümumi priyomları* (əsas fikri tapmaq, plan və icmal tərtibi, plan üzrə yığcam danışmaq, optimal tempdə oxumaq və yazmaq və s.) daxildir. Təlim əməyinin düzgün təşkili habelə ümumi iş qaydalarına, gigiyenik qaydalara əməl etməyi nəzərdə tutur.

Təlim əməyi mədəniyyətinin mühüm bir ünsürünü – *özünənəzarət, özünüyoxlama* təşkil edir. Şagirdləri özünənəzarət, özünüyoxlama priyomları ilə xüsusi tanış etmək lazımdır (nəticəni məqsədə görə, verilmiş cavaba görə, şərtə görə yoxlamaq, öz səhvlərini tapıb düzəltmək və s.). Təlim fəaliyyətinin elmi təşkili görülən işin *təhlili ilə* başa çatır. Bu zaman yol verilmiş səhvlər aşkar edilir, onların səbəbləri təhlil olunur, islahı yolları müəyyənləşdirilir.

Təlim əməyi bacarıqlarının formalaşdırılması *sinifdənxaric tədbirlərdə* də davam etdirilməlidir. Bu işin müvəffəqiyyəti onun ciddi sistemdə aparılmasından asılıdır. Təlim əməyi mədəniyyəti bütün mümkün vasitələrin (dərslər, sinifdənxaric tədbirlər, məktəb pedaqoji kollektivi, şagird təşkilatları, ailə, məktəb kitabxanası və s.) *əlbir fəaliyyətinə* əsaslanır. Yalnız bu şərtlə şagirdlərin təlim əməyinin

məhsuldarlığını artırmaq, təlimi tədricən özünütəhsillə qovuşdurmaq mümkündür.

Nəticə. Gənc nəslə aşılanan keyfiyyətlər içərisində dünyagörüşünün formalaşması başlıca yer tutur. O, insanın həyata, cəmiyyətə, təbiətə, insanlara, özünə münasibətinin əsasını təşkil edir, onun dünyaya, yaşam tərzinə, bu gününə və gələcəyinə baxışlarını müəyyənləşdirir. Dünyagörüşünün mühüm ünsürləri kimi insanın dünyaya baxışları, təsəvvürləri, ideya və prinsipləri çıxış edir; onların köməyi ilə insan dünyaya, insanlara münasibətini, həyatda öz yerini müəyyənləşdirməyə çalışır. Bu ideya və baxışlar düzgün formalaşmadıqda insan üçün böyük problemlər yaranar, öz istək və arzularını reallaşdıra bilməz.

Dünyagörüşün formalaşması mürəkkəb prosesdir: onun tərkibi intellektual, emosional və iradi komponentlərdən ibarətdir. Müəyyən ideyanın dünyagörüşü səviyyəsinə çatması üçün o, insanın ağlına, qəlbinə, iradi-fəaliyyət sahəsinə nüfuz etməlidir.

Akademik V.A.Suxomlinskinin sözləri ilə desək, dünyagörüşü əqidəsi o zaman şəxsiyyətin mənəvi sərvəti olur ki, ideya, fikir ürəyi əsir edir, hissləri oyadır; soyuq ürəkdə yüksək hisslər, arzular, ideallar ola bilməz. İnsan yetkinlik və gənclik illərində konkret faktlardan böyük dünyagörüşü həqiqətinə olan yolu keçməsə, onun düzgün elmi-materialist əqidəsi olmaz, o asanlıqla öz baxışlarını dəyişə bilər [8, s.131].

Dünyagörüşün, əqidənin formalaşmasının əsas rolu elmi biliklərdən keçir. Təlim prosesində dünyagörüşünün inkişafının başlıca vasitələrinə tədris materallarının şüurlu mənimsədilməsi, biliklərin sistemə salınması və ümumiləşdirilməsi, uşaq və gənclərin yaradıcı təfəkkürünün inkişafı, onlarda həyata, düzgün münasibətin əqidə və baxışların formalaşdırılması, fənlərarası əlaqələrin yaradılması, ünsiyyət prosesinin düzgün qurulması və s. daxildir. Bu məsələlərin həllində müəllim mühüm rol oynayır: o, dünyagörüşü ideyalarının, norma və baxışlarının daşıyıcısı, gənclərin mənəvi inkişafının tərbiyəçisidir.

ƏDƏBİYYAT

1. Ağayev Ə., Talıbov İ., İsayev İ., Eminov A. Pedaqogika. B., Adiloğlu, 2010, 400 s.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: Psixopedaqogikaya giriş. B., ADPU, 2008, 480 s.
3. Həşimov Ə. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. B., "Maarif", 1970, 255 s.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika (dərslik). B., "Ekoprint", 2021, 612 s.
5. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. (Dərslik). 2 cilddə, II c. B., Mütərcim, 2013, 548 s.
6. İsmixanov M. Pedaqogikanın əsasları. B., ADPU, 2013, 304 s.
7. Paşayev Ə., Rüstəmov F. Pedaqogika (yeni kurs). B., Nurlan, 2007, 464 s.
8. Suxomlinski V.A. Vətəndaşın doğulması. B., "Maarif", 1975, 362 s.

МЕДЖИД ИСМИХАНОВ
Профессор Бакинского Государственнего Университета

НАЗАКАТ ИМАМВЕРДИЕВА
Доцент Бакинского Государственнего Университета

ПУТИ ФОРМИРОВАНИЯ МИРОВОЗЗРЕНИЯ У МОЛОДОГО ПОКОЛЕНИЯ

В статье рассматриваются вопросы сущности, психологического механизма мировоззрения, пути и средства ее формирования, особенности в разных возрастных периодах, а также роль религии в этой области. В статье также рассказывается о факторах, влияющих на глубокое овладение молодежью наукой и техникой в условиях интеграции системы образования в мировое образование, на их развитие как знающих, творческих, дальновидных личностей.

Ключевые слова: мировоззрение, механизм, пути и средства формирования мировоззрения, научное и религиозное мировоззрение.

MAJİD İSMİKHANOV
Professor of Baku State University

NAZAKAT İMAMVERDİYEVA
associate professor of Baku State University

WAYS OF FORMING A WORLDVIEW IN THE YOUNGER GENERATION

The article discusses the essence, the psychological mechanism of the worldview, the ways and means of its formation, especially in different age periods, as well as the role of religion in this area. The article also talks about the factors that influence the deep mastery of science and technology by young people in the context of the integration of the education system into world education, their development as knowledgeable, creative, far-sighted individuals.

Keywords: worldview, mechanism, ways and means of its formation of worldview, scientific and religious worldview.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 20 fevral 2022-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.
Rəyçilər: p.e.d. Həsən Bayramov, t.e.d. Anar İsgəndərov.

Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında qoyulan tələblər

- Məqalələrdə müəllif(lər)in adı və soyadı açıq şəkildə, elmi adı və dərəcəsi, işlədiyi müəssisə, həmçinin elektron poçt ünvanı göstərilməlidir.

- Məqalələr Azərbaycan, rus və ingilis dillərində çap oluna bilər. Məqalənin yazıldığı dildə annotasiya, əlavə digər 2 dildə xülasə verilməlidir. Xülasənin üstündə məqalənin adı mütləq göstərilməlidir. Xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununu əks etdirməli, elmi və qrammatik baxımdan ciddi redaktə olunmalıdır.

- Məqalələrin mətnləri azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində (ABŞ) əlifbası ilə Times New Roman-14 şrifti ilə, 1,5 intervalla 8-12 səhifə həcmində qəbul edilir (A4 format, səhifənin ölçüləri: yuxarı – 2 mm, aşağı – 2,5 mm, sol – 3 mm, sağ – 1,5 mm).

- Məqalədə UOT indekslər, 3 dildə açar sözlər göstərilməlidir.

- Məqalə Giriş, Əsas mətn (yarımbaşlıqlar göstərilməklə) və Nəticə hissələrindən ibarət olmalıdır. Məqalədə elm sahəsinin xarakterinə uyğun olaraq elmi işin yeniliyi, müəllifin gəldiyi nəticə aydın şəkildə verilməlidir.

- Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə, ya da mətndə rast gəlindiyi ardıcıllıqla və [1] və ya [1, s.119] kimi nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbilərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin 10.2 – 10.4.6. tələbləri əsas götürülməlidir.

- Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir.

- Ədəbiyyat siyahısı avtomatik nömrələmə ilə yığılmış məqalələr qəbul edilməyəcəklər.

- Məqaləyə mütləq 1 mütəxəssis rəyi (rəyçinin adı (tam şəkildə), elmi dərəcəsi, elmi adı və elmi titulu, iş yeri), məqaləni çapa tövsiyə edən müəssisənin elmi şurasının (kefedranın, şöbənin) iclas protokolundan çıxarış əlavə olunmalıdır.

- Elmi jurnallarda "*əvvəli ötən sayımızda*", *"ardı növbəti nömrədə"*adı altında seriya məqalələrin dərs olunmasına icazə verilmir.

- Texniki baxımdan düzgün tərtib edilməyən, həmçinin plagiatlıq faktı aşkar edilən məqalələr çap olunmayacaq.

***Redaksiya ilə əlaqə*:**
TarixVeOnunProblemleri@gmail.com

Требования к оформлению научных публикаций

- В статье должны быть указаны место работы и адрес, электронный адрес автора (авторов).

- Статьи могут быть опубликованы на Азербайджанском, турецком, русском и английском языках. Резюме статьи должно быть на двух языках, помимо языка написания статьи. Оба резюме должны быть одинаковыми и отображать содержание статьи. В резюме должны быть показаны научный результат, научная новизна, практическая ценность и др. Резюме должно быть научно и грамматически отредактировано. В резюме должны быть полностью указаны название статьи, имя автора (авторов).

- Текст статьи должен быть набран шрифтом Times New Roman, кегль 14, 1,5 интервал латинской графикой для статей на азербайджанском турецком языках и английском, кириллицей для статей на русском языке.

- В статье должны быть указаны UOT индексы или коды типа PACS, а также ключевые слова. Ключевые слова должны быть на трех языках (на языках написания статьи и резюме).

- В конце статьи должны быть даны научная новизна, практическая ценность, экономический результат и др.

- В статье должны быть даны ссылки на научные источники. Список литературы должен быть либо по порядку (например, [1] или [1, с.119]) или же по порядку шифра. Если дается сноска на ту же литературу в другом месте текста, тогда номер сноски должен быть таким же как и прежде.

- Информация о каждой сноске, данной в списке литературы, должна быть полной и точной. Библиографическое описание источника должно быть дано в соответствии с его видом (монография, учебник, научная статья и т.д.). При ссылке на статью, материалы симпозиумов, конференций и других научных изданий, должно быть указано название доклада или тезиса. При библиографическом описании ссылаемых источников должны браться за основу требования 10.2-10.4.6 отдела «Используемая литература» действующей инструкции по «Правилам составления диссертационных работ» Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.

- В статье преимущество должно быть дано научным статьям, монографиям и другим источникам, опубликованным в течении последних 5-10 лет.

- Статьи, список литературы которых набраны в режиме автоматической нумерации, не принимаются.

- К статье должны быть приложены 1 рецензия (с указанием имени, научной степени, научного звания и научного титула, места работы рецензента), выписка из протокола научного совета (кафедры, отдела) учреждения, рекомендующего публикацию статьи.

- Статьи, которые не являются технически корректными, а также содержат плагиат, не будут опубликованы.

Электронный адрес журнала "История и ее проблемы":
TarixVeOnunProblemleri@gmail.com

Requirements for scientific publications

- The place of work and the address, e-mail address of the author(s) should be indicated in the article.

- Articles may be published in Azerbaijani, Turkish, Russian and English. The summary of the article should be in two languages, in addition to the language of the article. Both summaries should be the same and display the content of the article. The summary should show the scientific result, scientific novelty, practical value, etc. The summary should be scientifically and grammatically edited. The summary should contain the full title of the article, the name of the author(s).

- The text of the article should be typed in Times New Roman, 14, 1.5 interval, Latin script for articles in Azerbaijani Turkish and English, Cyrillic for articles in Russian.

- The article should indicate UOT indexes or PACS type codes, as well as keywords. Keywords should be in three languages (in the languages of the article and resume writing).

- At the end of the article scientific novelty, practical value, economic result, etc. should be given.

- The links to the scientific sources should be given in the article. References should be either in order (for example, [1] or [1, p.119]) or in order of cipher. If a footnote is given for the same literature elsewhere in the text, then the footnote number should be the same as before.

- Information about each footnote given in the list of references should be complete and accurate. The bibliographic description of the source should be given in accordance with its type (monograph, textbook, scientific article, etc.). When referring to an article, materials of symposia, conferences and other scientific publications, the title of the report or thesis should be indicated. In the bibliographic description of the referenced sources, the "Used literature" section 10.2-10.4.6 of the current instruction on the "Rules for writing dissertations" of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan should be taken as the basis.

- In the article, the advantage should be given to the scientific articles, monographs and other sources published in the last 5-10 years.

- The article should be accompanied by 1 review (indicating the name, scientific degree, academic title and scientific title, place of work of the reviewer), an extract from the protocol of the scientific council (chair, department) of the institution that recommends publication of the article.

- Articles that are not technically correct, as well as plagiarism, will not be published.

Email: **TarixVeOnunProblemleri@gmail.com**

Çapa hazırlayanlar: ***Sevinc Ruintən, Şəbnəm Cəfərova, Elmar Axundov***
Tərcüməçi radaktorlar: ***Anar Kərimov, Aynur Məmmədova, Elmira İsmayılova***
Web-redaktor: ***Nigar Nurəddin qızı İsmayılova***

Yığılmağa verilmişdir: 15.03.2022. Çapa imzalanmışdır: 18.03.2022.
Redaksiyanın ünvanı: Bakı – 370148, akad.Z.Xəlilov küç.23
Bakı Dövlət Universiteti, Tarix fakültəsi. Tel.: 539 08 56
E-mail: TarixVeOnunProblemleri@gmail.com